2013

ƏZİZ OXUCULAR!

Milli Kitabxana kitabxanaçılara kömək məqsədilə 1961-ci ildən "Əlamətdar və tarixi günlər təqvimi"ni nəşr edir. Əvvəllər 3 aydan bir- ildə 4 dəfə nəşr edilən təqvim, 1970-ci ilin oktyabr ayından etibarən "Kitabxana işçisinə kömək", 2004-cü ildən isə yenidən "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə çap olunur.

Bütün bu illər ərzində təqvim özünün "ənənə və yeniliklər" şüarına sadiq qalaraq daha da təkmilləşmiş, həcmi genişlənmiş, mövzu üzrə bölmələrin sayı artmış, geniş məlumat mənbəyi kimi formalaşmışdır.

Mədəniyyət işçiləri, müəllimlər, ziyalılar, kütləvi informasiya vasitələri və ən çox da kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin hər buraxılışının müqəddiməsində nəşrin məzmunu, forması daha geniş açılır. Təqvimin əsas məqsədi geniş oxucu kütləsi və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, kitabxana işi haqqında və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır.

Təqvimin bu sayı Azərbaycanın xalqının ümummilli lideri, görkəmli siyasətçi və dövlət xadimi ***Əliyev Heydər Əlirza oğlu****nun* anadan olmasının və Milli Kitabxananın yaranmasının 90 illik yubileylərinə həsr olunmuşdur. Elm və mədəniyyətə yüksək qiymət verən ulu öndərimiz Heydər Əliyev 4 dəfə (1995 – 6 iyul; 1996 – 4 mart; 1997 – 5, 20 noyabr) Milli Kitabxanaya gəlmiş və öz şəxsi kitabxanasından yüzlərlə kitabı kitabxanaya hədiyyə etmişdir. Vəsaitdə ulu öndərin həyat və fəaliyyəti, mədəniyyətimizə və kitabxanamıza böyük diqqət və qayğısını əks etdirən zəngin məlumatlar öz əksini tapmışdır.

Baş redaktor: **K.M.Tahirov,**
fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

Məsul katib: **N.Alışova**

Redaksiya heyəti:

M.Hacıyeva
A.Abdullayeva
M.Vəliyeva
M.Cəfərova

Redaktor: **G.Səfərəliyeva**

Əlamətdar və tarixi günlər təqvimi - 2013 /baş red. K.Tahirov; red. G.Səfərəliyeva; məsul katib N.Alışova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2012.- 440 s.

© M.F.Axundov adına Milli Kitabxana

Təqvim-2013

Təqvimdə 2013-cü ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlərin siyahısı və əlamətdar hadisələr aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq; Musiqi.Opera.Balet; Teatr.Kino; Milli Qəhrəmanlar; Siyasət.Hərbi iş; Tarix; Fəlsəfə.İqtisadiyyat.Hüquq; Mədəniyyət. Elm.Maarif; İdman; Coğrafiya.Geologiya; Riyaziyyat.Fizika.Astronomiya; Kimya.Biologiya.Tibb; Texnika; Kitabxanaşünaslıq.Biblioqrafiya; Tarixdə bu gün.

Təqvimə milli və dünya ədəbiyyatı, incəsənət, elm və texnika, və digər sahələrin ən görkəmli nümayəndələri, eləcə də tarixi hadisələr haqqında ümumilikdə ***1000-ə yaxın*** məlumat daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin baş vermə tarixi göstərilmişdir.

2013-cü ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, sonda isə ***köməkçi əlifba göstəricisi*** tərtib edilmişdir.

Ümid edirik ki, vəsaitdə haqqında məlumat verilən yubilyarlara, əlamətdar və tarixi günlərə həsr edilmiş materiallar kütləvi tədbirlərin keçirilməsində kitabxanaçılara yaxından kömək edəcəkdir.

Təqvim materialları üçün ədəbiyyat seçilərkən yeni və məzmunca ən uyğun kitablara, jurnal və qəzet məqalələrinə, Milli Kitabxana tərəfindən nəşr edilmiş biblioqrafik göstəricilərə üstünlük verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, fikir və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç. 29
E-mail: metodik@anl.az

İlan İLİ

Qarşıdan gələn il yaşadığımız yüz illiyin 13-cüsüdür. Yaponiyada və digər Şərq ölkələrində qəbul edilmiş təqvimə əsasən 12 illik dövr daxilində hər bir il müəyyən heyvan işarəsi altında keçir. Şərqdə çox məşhur olan bu təqvimə əsasən, 2013-cü il qara su ilanı üstə təhvil olacaq.

Qeyd edək ki, qara su ilanı ağıllılıq, şüurluluq, məntiqlilik, iradə rəmzidir. İlan qorxu hissi yaradır. O, cəld hərəkəti və zəhəri ilə qurbanını hər an məhv etməyə hazırdır. Unutmaq lazım deyil ki, bu yalnız ilanın quyruğunu tapdalayan zaman baş verir.

Ancaq ilan, həm də öz emosiyalarına qapılan, heç bir şeyə məhəl qoymayan məkrli və kinlidir.

İlan ilində dünyaya gələnlər incə zövqlə, hətta bir qədər qəribə geyinir, müəyyən dərəcədə modabazdırlar. Qadınlarda zərif bəzək-düzəyə aludəçilik vardır. Boşboğaz deyillər, çox dərin düşünürlər və intellektualdırlar. Gözəl intuisiyaları vardır.

İlanlar faktlardan daha çox təəssürata, duyğulara və rəğbət hissinə, özlərinin və başqalarının təcrübəsinə, mühakimələrə və məsləhətlərə inanırlar. Onlarda sanki altıncı bir duyğu vardır.

İlanlar başladıqları işi qətiyyətlə axıra çatdırırlar. Müvəffəqiyyətsizlik onlarda nifrət oyadır. Təbiətən sakit olsalar da, qərarları tez qəbul edirlər. Məqsədlərinə çatmaq üçün yeri alt-üst edə bilərlər. Pis oyunçudurlar.

İlanlar borc verməyi xoşlamasalar da, rəğbət bəslədikləri adamların köməyinə çata bilərlər.



Nəyinsə əvəzini nadir hallarda pul ilə ödəyir, çox vaxt özlərini təslim edirlər. Təəssüf ki, həmişə ifrata varırlar, başqalarına kömək etmək arzusu bütün varlıqlarına hakim kəsilir. Şişirtmək meyli onlara xasdır. İlanlar kimə isə xidmət göstərirlərsə, havalanır, fayda verməkdən çox əzab verirlər. Deməli, İlandan kömək istəməzdən əvvəl yaxşı-yaxşı düşünmək lazımdır. Sonra peşman ola bilərsiniz.

Pul sarıdan İlanların bəxti gətirir. Qocaldıqda xəsisləşə bilərlər.

İlanlar təhlükə ilə bağlı olmayan hər hansı bir işi, hətta çox zəhmət tələb etdikdə də görə bilirlər. Bununla belə İlanlar tənbəldirlər...

İlanların yayda və ya qışda, gecə və ya gündüz doğulmasından, hətta həmin gün havanın necə keçməsindən asılı olaraq hər şey dəyişə bilər. İsti gündə doğulan İlanlar soyuq dekabr gecəsində doğulan İlanlardan daha xoşbəxt olacaqdır.

Ə d ə b i y y a t

İlan (müdrilkik)[Mətn] //Ulduzlar və talelər.- Bakı, 2010.- S.140-142.

Ulduz falları [Mətn]/tərc. ed. İ.İsgəndərov, M.İsgəndərova; red. T.Məmmədov.- Bakı: Koroğlu, 1991.- 112 s.

1 yanvar
Gün çıxır 08:04
Gün batır 17:43
31 yanvar
Gün çıxır
07:52
Gün batır
18:15

YANVAR

22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamı, metalı dəmir, uğurlu rəngi tünd-yaşıl, qara, göy, uğursuz rəngi ağ, uğurlu daşı rubin, oniks, enerji verən çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

Ç.A.	1
Ç.	2
C.A.	3
C.	4
Ş.	5
B.	**6**
B.E.	7
Ç.A.	8
Ç.	9
C.A.	10
C.	11
Ş.	12
B.	**13**
B.E.	14
Ç.A.	15
Ç.	16
C.A.	17
C.	18
Ş.	19
B.	**20**
B.E.	21
Ç.A.	**22**
Ç.	23
C.A.	24
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	29
Ç.	30
C.A.	31

- *Yeni il (01.01)*
- *“Azərbaycan Respublikasının dövlət dili haqqında” Qanun qüvvəyə minmişdir (04.01.2003)*
- *Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının səhnəyə qoyulmasının (12(25).01.1908) 105 illiyi*
- **Ümumxalq Hüzn Günü (20.01.1990)**
- *Gömrük İşçiləri Günü (30.01.1992)*

90 il Heydər Əliyev 1923-2003



Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında şöbə müdiri olmuş, 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmiş, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. 1957-ci ildə isə ADU-nun tarix fakültəsini bitirmişdir. Azərbaycan KPMK-nın 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sov. İKP MK Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1991-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuş, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyul ayının 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

YANVAR

2013



Milli ədəbiyyat

Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Hacıyev Abbas Məhəmməd oğlunun (01.01.1933-21.01.2011) anadan olmasının 80 illiyi

Şair, publisist Abbasov Soltan İsrafil oğlunun (Soltan Abbas) (07.01.1933) anadan olmasının 80 illiyi

Tənqidçi, ədəbiyyatşünas, publisist, professor Əlibəyli Gülrux Sabir qızının (12.01.1928) anadan olmasının 85 illiyi 9

Folklorşünas, şair Zehtabi Məhəmmədtağı Məhəmmədəli oğlunun (22.01.1923-23.12.1998) anadan olmasının 90 illiyi

Ədəbiyyatşünas, nasir Behruz Həqqinin (26.01.1943) anadan olmasının 70 illiyi

Görkəmli maarifçi, pedaqoq, ədəbiyyatşünas, publisist Köçərli Firidun bəy Əhməd bəy oğlunun (26.01.1863-04.06.1920) anadan olmasının **150** illiyi 10



Dünya ədəbiyyatı

Rus yazıçısı, ictimai xadim Tolstoy Aleksey Nikolayeviçin (10.01.1883/29.12.1882-23.02.1945) anadan olmasının 130 illiyi 11

Gürcü yazıçısı Kazbeqi Aleksandrın (20.01.1848-22.01.1898) anadan olmasının 165 illiyi 11

İngilis şairi Bayronun (Corc Noel Qordon) (22.01.1788-19.04.1824) anadan olmasının 225 illiyi 12

Fransız yazıçısı Stendalın (Anri Mari Beyl) (23.01.1783-23.03.1842) anadan olmasının 230 illiyi 12



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Memar Hüseynov Ələsgər Nurəli oğlunun (10.01.1928-03.05.1976) anadan olmasının **85** illiyi 13

Əməkdar rəssam Rzaquliyev Ələkbər Ələsgər oğlunun (31.01.1903-31.01.1974) anadan olmasının **110** illiyi 13



Musiqi.Opera.Balet

Azərbaycanın və Dağıstanın Xalq artisti, bəstəkar İbrahimova Elza İmaməddin qızının (10.01.1938-11.02.2012) anadan olmasının **75** illiyi

Musiqişünas, sənətşünaslıq doktoru, Əməkdar elm xadimi İsazadə Ağa Əhməd İsa oğlunun (18.01.1928) anadan olmasının **85** illiyi
Aktyor, müğənni, bəstəkar, SSRİ Dövlət mükafatı laureatı Vladimir Semyonoviç Vısotskinin (25.01.1938-25.07.1980) anadan olmasının **75** illiyi
Əməkdar incəsənət xadimi, bəstəkar Zeydman Boris İsaakoviçin (28.01(10.02).1908-1981) anadan olmasının **105** illiyi
Xalq artisti, balet ustası Konstantin Nikolayeviç Bataşovun (31.01.1918-9.12.1991) anadan olmasının **95** illiyi



Teatr.Kino

Azərbaycan teatrının tanınmış simalarından olan Şaşıqzadə Ülvi Rəcəb Molla oğlunun (Ülvi Rəcəb) (09.01.1903-1938) anadan olmasının **110** illiyi 14
Əməkdar artist, aktrisa Xəlilova Sevil Rza qızının (10.01.1953-28.10.2011) anadan olmasının **60** illiyi
Xalq artisti, rejissor Kazımov Tofiq Səməd Mənsur oğlunun (14.01.1923-02.08.1980) anadan olmasının **90** illiyi 15
RSFSR-in Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru Eyzenşteyn Sergey Mixayloviçin (22.01.1898-11.02.1948) anadan olmasının **115** illiyi
Əməkdar artist, rejissor Süleymanov Yunis Hacı Süleyman oğlunun (Yunis Nuri) (23.01.1878-05.01.1950) anadan olmasının **135** illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Mübariz Əlizadə oğlunun (01.01.1963-24.09.1992) anadan olmasının **50** illiyi 16
Azərbaycanın Milli Qəhrəmanı Qasımov Muxtar Cahid oğlunun (10.01.1958-16.06.1992) anadan olmasının **55** illiyi 17
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Eldar Harun oğlunun (10.01.1968-24.02.1993) anadan olmasının **45** illiyi 18
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Nizami Murad oğlunun (12.01.1958-29.03.1992) anadan olmasının **55** illiyi 19



Siyasət.Hərbi iş

İctimai-siyasi xadim, həkim Qarabəyli Qara bəy İsmayıl ağa oğlunun (14.01.1873-1953) anadan olmasının **140** illiyi 20
Gürcüstanın dövlət xadimi Şevardnadze Eduard Amvrosiyeviçin (25.01.1928) anadan olmasının **85** illiyi
İctimai xadim, millət vəkili Əhmədov Əli Cavad oğlunun (27.01.1953) anadan olmasının **60** illiyi 21



Tarix

Akademik, tarixçi, etnoqraf Bünyadov Teymur Əmiraslan oğlunun (20.01.1928) anadan olmasının **85** illiyi 22



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Kənd təsərrüfatı elmləri doktoru, professor, Əməkdar elm xadimi Hüseynov Cəbrayıl Muxtar oğlunun (16.01.1913-14.12.1974) anadan olmasının **100** illiyi



Mədəniyyət.Elm.Maarif

Nasir, pedaqoq Sübhanverdixanov Abdulla Vəlağa oğlunun (Abdulla Bəy Divanbəyoğlu) (01.01.1883-06.01.1936) anadan olmasının **130** illiyi

Əməkdar müəllim Səmədov Zərbəli Mirzəağa oğlunun (01.01.1908-04.10.1979) anadan olmasının **105** illiyi

Akademik, Əməkdar elm xadimi, tanınmış pedaqoq, alim və maarifçi Mehdizadə Mehdi Məhəmməd oğlunun (18.01.1903-01.05.1984) anadan olmasının **110** illiyi 23

İlk maarifçi qadınlardan biri Məmmədquluzadə-Cavanşir Həmidə Əhməd bəy qızının (19.01.1873-06.02.1955) anadan olmasının **140** illiyi 24

Bakı milyonçusu, tanınmış xeyriyyəçi Tağıyev Hacı Zeynalabdin Tağı oğlunun (25.01.1823(1838)-01.09.1924) anadan olmasının **190** illiyi 25



Coğrafiya.Geologiya

Əməkdar elm xadimi, professor, geoloq Abdullayev Rəşid Nəcəfqulu oğlunun (12.01.1913-12.06.1997) anadan olmasının **100** illiyi




Riyaziyyat.Fizika.Astronomiya

İngilis fiziki, riyaziyyatçı Nyuton İsaakın (04.01.1643-31.03.1727) anadan olmasının **370** illiyi

Fizika-riyaziyyat elmləri doktoru, professor, SSRİ EA-nın akademiki Lev Davidoviç Landaunun (22.01.1908-01.04.1968) anadan olmasının **105** illiyi 26

Fizika-riyaziyyat elmləri doktoru, professor Seyidli Həmzə Səməd oğlunun (21.01.1953) anadan olmasının **60** illiyi 27



Kimya.Biologiya.Tibb

Tibb elmləri doktoru, professor Verdiyev Vaqif Qambay oğlunun (01.01.1948) anadan olmasının **65** illiyi

Tibb elmləri doktoru, professor Əliyeva Tamara Abbas qızının (01.01.1928) anadan olmasının **85** illiyi

Tibb elmləri doktoru Həmzəyeva İzzət Əsədulla qızının (15.01.1923) anadan olmasının **90** illiyi
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Quliyeva Zəhra Tahir qızının (18.01.1923-28.11.2005) anadan olmasının **90** illiyi 28
Tibb elmləri doktoru, professor Tağıyeva Mirvari Məmməd qızının (20.01.1918) anadan olmasının **95** illiyi
Tibb elmləri doktoru, professor Cəfərova Sonaxanım Əli qızının (24.01.1928-1994) anadan olmasının **85** illiyi

Texnika



Texnika elmləri doktoru, akademik Abbasov Əli Məmməd oğlunun (01.01.1953) anadan olmasının **60** illiyi 29

Tarixdə bu gün



Yeni il (01-02.01) 30
“Azərbaycan Respublikasının dövlət dili haqqında” qanun qüvvəyə minmişdir (04.01.2003)
Abşeron rayonunun təşkil edilməsinin (04.01.1963) **50** illiyi 31
Azərbaycan Respublikasının “Dövlət gerbi haqqında” Konstitusiya Qanununun qəbul edilməsinin (19.01.1993) **20** illiyi 32
20 Yanvar-Ümumxalq Hüzn Günü (20.01.1990) 33
Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiya edilməsinə başlanmışdır (25.01.1988) 34
Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının səhnəyə qoyulmasının 25(12).01.1908) **105** illiyi 35
“Azərbaycan” jurnalının çap olunmasının (28.01.1923) **90** illiyi
Gömrük İşçiləri Günü (30.01.1992) 36
Genetik Ehtiyatlar İnstitutunun yaradılmasının (30.01.2003) **10** illiyi

85 illiyi

Gülrux Əlibəyli 1928

Ədəbiyyatşünas



Gülrux Sabir qızı Əlibəyli 1928-ci il yanvar ayının 12-də Bakı şəhərində anadan olmuşdur.

Burada orta məktəbi bitirdikdən sonra 1947-1952-ci illərdə A.A.Jdanov adına Leninqrad Dövlət Universitetində Şərqşünaslıq fakültəsini bitirmiş, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda aspirantura təhsili almışdır. Dissertasiya müdafiəsindən sonra Bakıya qayıtmış, Azərbaycan EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda çalışmışdır. Sonra ADU-nun filologiya fakültəsində müəllim, 1952-1954-cü illərdə Azərbaycan SSR EA (indiki AMEA) Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi (1959-1971, fasilə ilə), Azərbaycan SSR Mədəniyyət nazirinin müavini (1962-1965) olmuşdur.

1974-cü ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) əvvəlcə baş müəllim, sonra isə fəlsəfə kafedrasının professoru olmuşdur.

Gülrux Əlibəylinin ədəbiyyatşünaslıq haqqında ilk məqaləsi 1958-ci ildə Moskvada nəşr olunan "Ədəbiyyat problemləri" jurnalında çap olunmuşdur.

Gülrux Əlibəyli Beynəlxalq Penklubun üzvü və bir çox beynəlxalq konfransların iştirakçısı olmuşdur.

Gülrux Əlibəyli fəlsəfə doktoru, fəlsəfə professoru, publisist, 500-ə qədər elmi-fəlsəfi, tənqidi məqalənin, 18 əsərin müəllifidir.

"Yenilik uğrunda", "İnsanların ürəklərinə yol", "Qəhrəman problemi və ədəbiyyatların rəngarəngliyi", "Axtarışlar, kəşflər", "Bədiiliyin hüdudları", "Düşüncələr", "Fikrin enerjisi", "Həmişə yolda", "Düşünən dünyamız", "Çırpınan dünyamız", "Dəyişən dünyamız", "Dağılan dünyamız" kimi dəyərli kitabların müəllifidir.

Görkəmli publisist, yazıçı Gülrux Əlibəyli 2006-cı ildə nəşr etdirdiyi "Zaman və özüm haqqında" kitabında altmış illik elmi, pedaqoji fəaliyyətinə yekun vurmuşdur. Görkəmli mədəniyyət və incəsənət xadimi, Azərbaycan ictimai fikrində mühüm yeri olan Gülrux Əlibəyli bu əsərində oxucuları öz portreti ilə tanış etmişdir.

Ədəbiyyat

Çırpınan dünyamız... [Mətn] /Gülrux Əlibəyli; red. Ş.Alışanlı.- Bakı: Elm, 2000.- 176 s.

Dəyişən dünyamız [Mətn]: [fəlsəfi düşüncələr] /Gülrux Əlibəyli.- Bakı: Qanun, 2010.

Gülrux Əlibəyli [Mətn] //Mehriban Vəzir. Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar / Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC); layih. müəl. və rəhb. Ş.İsmayılova; red.: B.Əhmədov, S.İsmayılova; tərc. F.Axundov.- Bakı, 2008.- S.65-66.

Gülrux Əlibəyli [Mətn] //Azərbaycan yazıçıları: (XX-XXI yüzillikdə).-Bakı, 2011.- S.371.

Алибейли, Г. О времени и о себе [Текст] /Г.Алибейли.- Баку: Нурлан, 2006.- 362 с.

İnternetdə


www.anl.az

www.elibrary.az

www.azyb.net

150 illiyi Firidun bəy Köçərli 1863-1920

Ədəbiyyatşünas



Ə d ə b i y y a t

Azərbaycan ədəbiyyatı [Mətn]: 2 cilddə /F. Köçərli; tərt. ed., müqəd., izah və qeyd. müəl. R.Qənbərqızı; red. Ə.Mirəhmədov, B.Nəbiyev.- Bakı: Avrasiya Press, 2005.- C.I.- 560 s.; C.2- 464 s.

Müqəddəs tarix [Mətn]: 19.02.1899 /tərt. ed.: M.Əfəndizadə, F.Köçərli; Azərbaycan Respublikası "Təhsil" Cəmiyyəti; tərc. ed.: F.Şirinov; türk dilində yazılanı H.Ə.Qayıbov və Ə.Axundzadə təsis və təchiz ediblər.- Bakı: Təhsil, 2007.- 72 s.

Rzalı, R. İşıq sevdalısı Fiidun bəy Köçərli [Mətn] /R.Rzalı //Azərbaycan.- 2010.- 13 iyul.- S.3.

Şamxəlil, M. Qüdrətli ədəbiyyatşünas, folklor tədqiqatçısı [Mətn] /M.Şamxəlil //Azərbaycan müəllimi.- 2011.- 9 sentyabr.- S.7.

İ n t e r n e t d ə

www..anl.az

www. az.wikipedia.org

www. karabakhblog.com

Firidun bəy Köçərli (Köçərlinski) 1863-cü il yanvar ayının 26-da Şuşada dünyaya gəlmişdir.

1876-cı ildə Şuşadakı rus məktəbinə daxil olmuşdur.

1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya müəllimlər seminariyasına tələbə toplamaq məqsədilə bu məktəbə gəlmiş və bu yolla Firidun bəy öz taleyini seminariya ilə bağlamışdır.

1885-1896-cı illərdə İrəvan gimnaziyasında, sonra QMS-nin Azərbaycan şöbəsində müəllim işləmişdir.

1910-cu ildə Qori seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı təyin olunmuş, 1918-1920-ci illərdə onun təşəbbüsü ilə həmin seminariyanın əsasında açılmış Qazax müəllimlər seminariyasının müdiri işləmişdir. "Vətən dili"nin I hissəsinin (VII nəşr) yenidən işlənilməsində Firidun bəy Köçərlinin xidmətləri böyük olmuşdur.

O, 300-dən artıq dərsliyə düzəliş etmiş, nəzəri materialı, hekayələri artırmış, metodika və stilistikasını dəyişdirərək zənginləşdirmişdir. Köçərlinin "Darı və buğda" əsəri "Vətən dili" kitabına salınmışdır.

Firidun bəy Köçərli 1885-ci ildə İrəvana gəlmişdir.

1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil etmişdir. Həmin tamaşa - M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. Lakin F.Köçərli 1895-ci ildə İrəvanı tərk etmişdir.

O, 1917-ci ildə siyasi proseslərə qoşulmuş, "Müsavat" partiyasına daxil olmuşdur.

1920-ci ilin mayında Qazax kommunistləri onu və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə" və s.-də ittiham edərək həbs etmiş, şahidlər dindirilmədən, verilən izahatlar nəzərə alınmadan güllələnmişdir.

Dünya ədəbiyyatı

130 illiyi — Aleksey Nikolayeviç Tolstoy 1883-1945

Rus yazıçısı



Aleksey Nikolayeviç Tolstoy 1883-cü il yanvar ayının 10-da Nikolayevsk şəhərində (indiki Saratov vilayəti, Puqaçov şəh.) qraf ailəsində anadan olmuşdur. Samara real məktəbini bitirdikdən sonra, 1901-ci ildə Peterburq Texnoloji İnstitutuna daxil olmuş, lakin ədəbiyyata olan güclü həvəsinin təsiri ilə 1907-ci ildə təhsilini yarımçıq qoymuşdur. Elə həmin il onun "Lirika" adlı ilk şeirlər kitabı çap olunmuşdur. İlk şeirlər kitabından bir il sonra "Niva" jurnalında Aleksey Tolstoyun "Köhnə qala" adlı ilk hekayəsi, 1910-cu ildə "Sağsağan nağılları" hekayələr kitabı çap olunmuşdur. Böyük Oktyabr Sosialist İnqilabını əvvəlcə düşməncəsinə qarşılamış, 1919-cu ildə Fransaya, sonra isə Almaniyaya mühacirət etmişdir. 1923-cü ildə SSRİ-yə qayıtmışdır. "Nikitanın uşaqlığı" avtobioqrafik povestində vətənə məhəbbət öz əksini tapmışdır.

Böyük Oktyabr Sosialist İnqilabı və Rusiyada vətəndaş müharibəsi hadisələrini əhatə edən "Əzablı yollarla", "On səkkizinci il", "Tutqun səhər" trilogiyasında rus ziyalılarının inqilaba doğru keçdiyi yol dolğun, epik realist əksini tapmışdır. "Birinci Pyotr" romanının, "İvan Qroznı" pyesinin müəllifidir. Antifaşist publisistik məqalələri, uşaqlar üçün əsərləri var. Əsərləri ekranlaşdırılmışdır.

Xidmətlərinə görə Lenin ordeni, 2 başqa orden və medallarla təltif edilmişdir. Aleksey Nikolayeviç Tolstoy 1945-ci il fevral ayının 23-də Moskvada vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn]: hekayələr, roman /A.N.Tolstoy.- Bakı: Şərq-Qərb, 2006.- 336 s.

Mühəndis Qarinin hiperboloidi; Aelita [Mətn]: roman /A.N.Tolstoy. red. M.Ələkbərli.- Bakı: Gənclik, 1988.- 369 s.

www..anl.az

20 — 165 illiyi — Kazbeqi Aleksandr 1848-1898

Gürcü yazıçısı



Kazbeqi Aleksandr 1848-ci il yanvar ayının 20-də (Gürcüstan) Stepantsminda kəndində indiki Kazbeqi qəsəbəsində zadəgan ailəsində doğulmuşdur. Mülkədar imtiyazlarından əl çəkərək kəndlilərinə azadlıq vermiş, 7 il çobanlıq etmişdir. "Elqoca" (1881), "Ata qatili" (1882), "Səfil qadın" (1884) "Çoban" və s. povestlərin müəllifidir. Vətənpərvərlik, humanizm və ədalət ideyalarının tərənnümü yaradıcılığının leytmotividir. Əsərlərində çar məmurlarını, yerli feodalları ifşa etmiş, mərd və mübariz dağlı obrazları yaratmışdır.

Kazbeqi Aleksandr 1898-ci il yanvar ayının 22-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Kazbeqi Aleksandr [Mətn] //Xəlilov, P. SSRİ xalqları ədəbiyyatı.- Bakı, 1975.- H.1.- S.123.

Kazbeqi Aleksandr [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1981.- C.V.- S.208.

www..anl.az

Dünya ədəbiyyatı

22

225 illiyi — Corc Noel Qordon (Bayron) 1788-1824 — *İngilis şairi*



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /C. Q.Bayron; tərc. A.Aslanov və b.- Bakı: Şərq-Qərb, 2006.- 224 s.

Corc Qordon Noel Bayron 1788-ci il yanvar aynın 22-də Londonda, yoxsullaşmış bir lord ailəsində anadan olmuşdur. Bayron ilk təhsilini zadəgan uşaqlarına məxsus qapalı Harrou məktəbində almışdır. İlk şeirlərini də burada yazmışdır. Harrou məktəbini bitirdikdən sonra 1805-ci ildə Kembric universitetinə daxil olmuş və 1808-ci ildə universiteti bitirmişdir. 1807-ci ildə "Asudə saatlar" adlı ilk şeir məcmuəsini, 1809-cu ildə isə mürtəce romantiklər və burjua tənqidi əleyhinə "İngilis bardları və şotland icmalçıları" satirik poemasını nəşr etdirmişdir.

1809-cu ildə Bayron səyahətə çıxmış, İspaniyada, Malta adasında, Yunanıstanda və Türkiyədə olmuşdur. Bayron "Çayld Haroldun səyahətləri", "Şərq poemaları", "Qabil", "Don Juan", "Manfred" və s. kimi dünya ədəbiyyatı xəzinəsinə daxil olmuş əsərlərin müəllifidir.

Böyük şair 1824-cü il aprel ayının 19-da Yunanıstanda vəfat etmişdir.

23

230 illiyi — Anri Mari Beylin (Stendal) 1783-1842 — *Fransız yazıçısı*



Ə d ə b i y y a t

Пармская обитель [Текст]: [роман] /Стендаль; пер. с фр. Н.Немчиновой и др.; Серийное оформление художника. А. Яковлева.- Москва: Эксмо, 2006.- 672 с.

Красное и чёрное; Пармская обитель [Текст]: [романы] /Стендаль; [пер. с фр. С.П.Боброва и др.].- М.: АСТ: НФ "Пушк. б-ка", 2006.- 1021, [3] с.

Əsl adı Mari-Henri Beyle olan Stendal 1783-cü il yanvar ayının 23-də kiçik fransız şəhəri olan Qrenoblda dünyaya gəlmişdir.

Almaniyanın Stendal şəhərinin adından götürülmüş təxəllüs müəllifin 100-dən çox təxəllüsündən biridir. Stendal ilk əsərlərində Milanda qarşılaşdığı qadına olan uğursuz məhəbbətindən bəhs etmişdir.

1830-cu ildə yazılmış "Qırmızı və qara" və 1839-cu ildə yazılmış "Parmanın kartezian kilsəsi" romanları ilə tanınmışdır.

Romantizm dövründə yaşamış yazıçının realist əsərləri kifayət qədər qiymətləndirilməmişdir. Stendalın əsərləri özündə ironiyanı, psixoloji və tarixi təsvirləri birləşdirir.

Stendal romanlar, novellalar müəllifidir. Bununla yanaşı onun "Napoleonun həyatı" adlı bioqrafik və avtobioqrafik əsərləri də var.

Stendal 1842-ci il mart ayının 23-də vəfat etmişdir.

10 | 85 illiyi

Ələsgər Hüseynov
1928-1976

Memar



Ələsgər Nurəli oğlu Hüseynov 1928-ci il yanvar ayının 10-da anadan olmuşdur.

1953-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, 1953-1967-ci illərdə "Azərdövlətlayihə" institutunda və Sənaye Tikintisi Nazirliyində müxtəlif vəzifələrdə işləmişdir. 1968-1971-ci illərdə Bakının Baş rəssamı, 1971-1976-cı illərdə Bakı şəhəri İcraiyyə Komitəsi sədrinin müavini olmuşdur. Bakı Metropoliteninin "Qara Qarayev" stansiyasının (1972, Hənifə Ələsgərovla) və s. tikililərin layihələrini vermişdir.

Xidmətlərinə görə keçmiş SSRİ (1972) və Azərbaycan SSR (1976) Dövlət mükafatı laureatları, "Oktyabr İnqilabı" ordeni və medallarla təltif edilmişdir.

Hüseynov Ələsgər 1976-cı il may ayının 3-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Hüseynov Ələsgər Nurəli oğlu [Mətn] //Fəxri xiyaban; Heydər Əliyev Fondu.- Bakı, 2007.-S.87.

www..anl.az

31 | 110 illiyi

Ələkbər Rzaquliyev
1903-1974

Rəssam



Ələkbər Ələsgər oğlu Rzaquliyev 1903-cü il yanvar ayının 31-də Bakıda anadan olmuşdur.

Yaradıcılığının erkən dövründə inqilabdan əvvəlki Azərbaycan məişətinin xarakterik səhnələri təsvir olunan boyakarlıq əsərləri çəkmişdir ("Azərbaycanlı qadın", (1926), "Pəhləvanlar", (1926), "Mollaxana" (1927).

Ə.Rzaquliyev qrafika sahəsində daha geniş fəaliyyət göstərmiş, "Köhnə Bakı" silsiləsi (1958-1972), "M.Ə.Sabir" (1963), "Bakılılar Berlində" (1968), "V.İ.Lenin və Azərbaycan rəhbərləri" (1970), "Çaybecərənlər" (1972), "Azərbaycan madonnası" (1973) və s. linoqravüralar yaratmışdır.

Əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), R.Mustafayev ad. Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Şəkil Qalereyası və digər muzeylərdə saxlanılır. Xidmətlərinə görə 1964-cü ildə Azərbaycanın Əməkdar rəssamı adına layiq görülmüşdür.

Rzaquliyev Ələkbər Ələsgər oğlu 1974-cü il yanvar ayının 31-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Kərimov, Ç. Ələkbər Rzaquliyevin ağlı-qaralı dünyası [Mətn] /Ç.Kərimov //525-ci qəzet.- 2009.- 26 sentyabr.- S.19.

www. adam.az

www. az.wikipedia.org

110 illiyi

Ülvi Rəcəb 1903-1938

Aktyor



Ülvi Rəcəb Molla oğlu Şaşıqzadə 1903-cü il yanvar ayının 9-da Batum (Batumi) yaxınlığındakı Canivri kəndində anadan olmuşdur.

Milliyyətcə acar olan Ülvi Rəcəb romantik və realist aktyor məktəblərinin poetika səciyyələrini inamla zənginləşdirən sənətkarlardan biridir. Otuz beş illik ömründə və Milli Dram teatrında on üç illik fəaliyyəti dövründə zəngin yaradıcılıq irsi qoyub getmişdir.

1918-ci ildə, müharibə qurtarandа Batuma qayıtmışdır. Həmin il Hüseyn Ərəblinski geniş repertuarla Batumda qastrolda olmuşdur. Ülvi "Otello" tamaşasına baxmış və Ərəblinskinin Otellosu onu məftun etmişdir. O, Azərbaycandan gəlmiş aktyorlarla yaxından tanış olmuş, onların göstərdikləri bir neçə tamaşada epizodik rollar oynamışdır. Gənc teatr həvəskarı hətta "Arşın mal alan" operettasında, xəstələnən aktyorun əvəzinə, Soltan bəy rolunda səhnəyə çıxmışdır. O vaxtdan Ülvi Rəcəb Batumdakı teatrın kollektivinə daxil olmuş, 1922-ci ildə həmin teatrla Tiflisə qastrola gəlmişdir.

1924-cü ilin yayında Tiflis Azərbaycan Teatrının baş rejissoru Aleksandr Tuqanov hökumətin dəvətilə Bakıya, Milli Dram Teatrına çağırılmışdır. Ülvi Rəcəbin istedad və yaradıcılıq imkanlarına böyük ümid bəsləyən Tuqanov onu da Bakıya dəvət etmiş, Ülvi 1925-ci ildən Azərbaycan Milli Dram Teatrında işləməyə başlamışdır. Azərbaycan aktyorları arasında "psixoloji teatr" sənətinin bünövrəsini qoyan ilkinlərdən biri və onun formalaşmasında misilsiz xidmətlər göstərən, yüksək nailiyyətlər qazanan Ülvi Rəcəb olmuşdur.

Ülvi Rəcəb Azərbaycan Milli Dram Teatrının aktyoru kimi dəvətlə Tiflisdə Şeyx Sənan, Yaşar, Yarovay rollarını oynamışdır.

1931-ci ildə Bakı Türk İşçi Teatrının hazırladığı "Sevil" tamaşasında Ülvi Rəcəb Balaş rolunu yüksək sənətkarlıqla oynamışdır.

Teatr sahəsindəki xidmətlərinə görə 25 aprel 1933-cü ildə Ülvi Rəcəbə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı verilmişdir.

"Həyat" (rejissor Ədil İsgəndərov) tamaşasında oynadığı Süleyman rolu Ülvi Rəcəbin Akademik teatrda son işi və son qələbəsi olmuşdu. Aktyor ictimai-sosial tutumlu, mürəkkəb psixoloji əsaslı, ikili xarakterli obraz yaratmışdı. Bu tamaşanın premyerasından xeyli müddət sonra Ülvi Rəcəb 1937-ci ildə "vətən xaini" damğası ilə tutulmuş, 1938-ci ilin yanvarında Bakıda güllələnmişdir.

Ədəbiyyat

Rəhimli, İ. Səhnəmizin fədailəri [Mətn] /İ.Rəhimli; elmi red. M.Əlizadə.- Bakı: Qapp- Poliqraf, 2002.- Birinci kitab.- 304 s.

Yaqubova, M. Əgər yaşasaydı: Ülvi Rəcəb [Mətn] /M.Yaqubova //Mədəni-maarif.- 2004.- №12.- S.40.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www.adam.az

90 illiyi

Tofiq Kazımov 1923-1980

Rejissor



Tofiq Səməd Mənsur oğlu Kazımov 1923-cü il yanvar ayının 14-də Bakıda doğulmuşdur. 1939-1942-ci ildə yeddiillik təhsilini burada alaraq teatr məktəbini bitirmişdir.

Böyük Vətən müharibəsində iştirak etmiş, 1943-cü ildə döyüşlərin birində yaralanaraq qayıtmış və Gənc Tamaşaçılar Teatrında aktyor işləmişdir. Əyyub Abbasovun "Məlik Məmməd", Abdulla Şaiqin "Ana" dramlarının tamaşalarında Bulud və Əmrah rollarını oynamışdır.

1945-1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti İnstitutunda rejissor təhsili almışdır. Tələbə ikən Ağdam Dövlət Dram Teatrında Həsən Qasımovun "Kür sahilində" pyesini tamaşaya hazırlamışdır. 1951-ci ildə Akademik Milli Dram Teatrında diplom tamaşası kimi Hüseyn Muxtarovun "Ailə namusu" ("Allanın ailəsi") pyesinə səhnə quruluşu vermişdir.

1952-ci il aprelin 25-də Gənc Tamaşaçılar Teatrına baş rejissor göndərilmiş, ancaq burada tamaşa hazırlamamışdır. Elə həmin il oktyabrın 1-də Akademik Dram teatra rejissor götürülmüşdür.

1958-ci ildə kinostudiyaya işə qəbul olunaraq "Azərbaycanfilm"də çəkilən "Səhər" kinolentində rejissor kimi çalışmışdır. Rus dram teatrında Ənvər Məmmədxanlının "Şərqin səhəri" pyesini tamaşaya hazırlamışdır.

1960-cı ildə kinostudiyadan çıxaraq yenidən Akademik teatra quruluşçu rejissor götürülmüşdür.

1964-cü il mart ayının 16-da bu teatra baş rejissor təyin olunmuşdur.

Tofiq Kazımov uzun illər teatr institutunda aktyor və rejissor sənətindən dərs demiş, Xalq artistləri Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Kazım Ziya, Əliağa Ağayev (Zəfər Nemətovla birgə), İsmayıl Osmanlı barədə monoqrafiyalar yazmışdır. "Çağırış", "İşıqlı yollarda", "Şəfəq", "Qoçaq Polad" və digər pyeslərin müəllifidir. Mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara aid resenziya və məqalələrlə çıxış etmişdir. Tofiq Kazımov 1965-ci ildə "Antoni və Kleopatra" (Uilyam Şekspir) və 1979-cu ildə "Şəhərin yay günləri" (Anar) tamaşalarına görə Dövlət mükafatları ilə təltif olunmuşdur.

Xidmətlərinə görə Respublikanın Əməkdar incəsənət xadimi (1961) və Xalq artisti (1 iyun 1974) fəxri adlarına layiq görülmüşdür.

Tofiq Kazımov 1980-ci il avqust ayının 2-də avtomobil qəzasında həlak olmuşdur. Məzarı Bakıda ikinci Fəxri xiyabandadır.

Ədəbiyyat

Əlizadə, M.. Dördüncü ölçünün rəngləri [Mətn] /M.Əlizadə; elmi red. İ.Rəhimli; bədii tərt., dizayn. R. Mehdi; Azərb. Respub. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: E.L., 2008.- 447 s.

Tofiq Kazımov [Mətn] //İ.İsrafilov, B.Nəbiyev. Azərbaycan milli rejissor sənətinin poetikası.- Bakı, 2001.- S.217.

Zaman içində zamansız: Tofiq Kazımov [Mətn] // Mədəniyyət .- 2011.- 14 yanvar.- S.9.

İnternetdə

www. anl.az

www. 777word.wordpress.com

www. az.wikipedia.org

50 illiyi

Mübariz Əhmədov 1963-1992

Milli Qəhrəman



Mübariz Əlizadə oğlu Əhmədov 1963-cü il yanvar ayının 1-də Sabirabad rayonunda dünyaya göz açmışdır. 1969-cu ildə burada orta məktəbə getmişdir. 1980-ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutuna daxil olmuş, üçüncü kursda oxuyarkən hərbi xidmətə çağırılmışdır. 1985-ci ildə ordudan tərxis olunmuşdur. 1988-ci illərdə Meydan hərəkatının iştirakçısı olmuşdur. Erməni basqınçıları Azərbaycan torpaqlarına hücum etməyə başlayanda Mübariz yenicə yaranan özünümüdafiə batalyonuna ilk yazılan könüllülərdən olmuşdur.

Mübariz Ağdamda rota komandiri kimi döyüşlərə girmişdir. Daha sonra isə Dovşanlı, Qazançı, Əsgəran, Pircamal, Aranzəmin, Xanabad, Şuşa və digər kənd və şəhərlərimiz uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə adı dillər əzbəri olmuşdur. 1991-ci ildə Müdafiə Nazirliyi ona Türkiyədə hərbi təhsil almağı tövsiyə etmiş, lakin vətəninə, dövlətçiliyimizə, xalqına bağlı olan Mübariz döyüşməyi üstün tutmuşdur. Onun son döyüşü 1992-ci il sentyabrın 24-ü oldu. Abdal-Gülablı kəndini erməni faşist dəstələrindən təmizləyən zaman qəfil partlayan mərmi Mübarizin həyatına son qoydu.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə Əhmədov Mübariz Əlizadə oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Sabirabad rayonunun Qaratəpə kəndindəki Şəhidlər Xiyabanında dəfn edilmiş, Sabirabad rayonunda büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əhmədov Mübariz Əlizadə oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il [Mətn] //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Əhmədov Mübariz Əlizadə oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.50.

Əsgərov, V. Əhmədov Mübariz Əlizadə oğlu [Mətn] /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.46.

Seyidzadə, M. Əhmədov Mübariz Əlizadə oğlu [Mətn] /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.74.

İ n t e r n e t d ə


www. az.wikipedia.org

www.google.az

55 illiyi

Muxtar Qasımov 1958-1992

Milli Qəhrəman



Muxtar Cahid oğlu Qasımov 1958-ci il yanvar ayının 10-da Beyləqan rayonunun Kəbirli kəndində dünyaya göz açmışdır. 1974-cü ildə Ağdam şəhər 5 saylı məktəbi bitirmişdir. Elə həmin il Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. Tibb təhsilini başa vurduqdan sonra işləmək üçün təyinatla Xankəndinə yola düşmüşdür. Orada işləyərkən ermənilər arasında separatizmin, millətçi ünsürlərin təbliğinin şahidi olmuşdur. Müxtəlif təzyiqlərə baxmayaraq işinə davam etmiş, milliyyətindən asılı olmayaraq insanlara tibbi yardım göstərmişdir. 1988-ci ildə vəziyyət nəzarətdən çıxandan və kiçik qarşıdurmalar baş verəndən sonra Ağdama qayıdıb hospitalda həkim kimi çalışmışdır.

Ağdamda gedən bütün döyüşlərdə yaralıları xilas etmək üçün qəhrəmanlıq göstərmişdir. Xocalı faciəsindən sonra isə həyatını tamamilə cəbhəyə bağlamışdır. 1992-ci ilin iyun ayında Aranzəmin, Pircamal, Ağbulaq kəndlərinin azad edilməsi uğrunda gedən döyüşlərdə həkim kimi öz bilik və bacarığını nümayiş etdirmişdir. 1992-ci il iyul ayının 16-da Naxçıvanlı kəndi uğrunda gedən döyüşlərdə xidməti borcunu yerinə yetirərkən həlak olmuşdur.

Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Qasımov Muxtar Cahid oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qasımov Muxtar Cahid oğlu – tibb xidməti kapitanı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- №3.- S.11.- (Ölümündən sonra).

Əsgərov, V. Qasımov Muxtar Cahid oğlu [Mətn] /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.116.

Qasımov Muxtar Cahid oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.116.

Seyidzadə, M. Qasımov Muxtar Cahid oğlu [Mətn] /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.-Bakı, 2010.- S.119.

İnternetdə

www..anl.az

az.wikipedia.org

www.milliqahraman.az

Milli Qəhrəmanlar

45 illiyi

Eldar Məmmədov 1968-1993

Milli Qəhrəman



Eldar Harun oğlu Məmmədov 1968-ci il yanvar ayının 10-da Bakı şəhərində doğulmuşdur. 1982-ci ildə Bakıdakı 189 saylı məktəbi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olmuşdur. 1985-ci ildə təhsilini başa vurduqdan sonra Riqadakı Qırmızı Bayraqlı Ali Hərbi Siyasi Məktəbində təhsil almışdır. Təhsilini bitirən Eldar Məmmədov SSRİ Silahlı Qüvvələrində hərbi xidmətə göndərilmişdir. Erməni işğalçıları vətənimizə təcavüz edən zaman o, Azərbaycana qayıtmış və yenicə yaradılan Sərhəd Qoşunlarında xidmətə başlamışdır.

Eldar Məmmədov Azərbaycana qayıtdıqdan sonra əvvəl raket qoşunlarında, sonra isə Milli Təhlükəsizlik Nazirliyi Sərhəd Qoşunları Baş İdarəsində hərbiçi kimi fəaliyyətini davam etdirmişdir.

1993-cü ildə Sərhəd Qoşunları idarəsinin könüllülərdən ibarət batalyonun tərkibində Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ağdərədə gedən döyüşlərdə xüsusi fədakarlıq nümayiş etdirən E.Məmmədov 1993-cü il fevral ayının 24-də qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1994-cü il tarixli 247 saylı Fərmanı ilə Eldar Harun oğlu Məmmədov ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Göytəpə Sərhəd Dəstəsinin 2-ci alayı E.Məmmədovun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Eldar Harun oğlu – baş leytenant – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №24.- S.50.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Eldar Harun oğlu [Mətn] /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.139.

Məmmədov Eldar Harun oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.M.Həmidova; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.136.

Seyidzadə, M. Məmmədov Eldar Harun oğlu [Mətn] /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.140.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www.milliqahraman.az

Milli Qəhrəmanlar

55 illiyi

Nizami Məmmədov 1958-1992

Milli Qəhrəman



Nizami Murad oğlu Məmmədov 1958-ci il yanvar ayının 12-də Xankəndi şəhərində dünyaya göz açmışdır. N.Gəncəvi adına 4 saylı məktəbi bitirdikdən sonra 1975-1977-ci illərdə İrkutsk vilayətində hərbi xidmətdə olmuşdur.

Xidmətini başa vurduqdan sonra Xankəndi şəhərinə qayıdaraq Yaşıllaşdırma idarəsində əmək fəaliyyətinə başlamışdır. Milis olmaq arzusu ilə Bakı Xüsusi Milis Məktəbinə daxil olmuş və oranı bitirdikdən sonra Xankəndi şəhər polis şöbəsində növbətçi köməkçisi işləməyə başlamışdır. Xankəndində milli münasibətlərin gərginləşdiyi vaxtda Şuşaya köçmüş və burada polis zabiti kimi işini davam etdirmişdir.

Nizami Məmmədov özünümüdafiə batalyonlarına silah-sursat çatdırılmasında iştirak etmiş, döyüşlərə atılmışdı. Nizami Daşaltı, Malıbəyli, Qaladərəsi kimi mühüm əməliyyatlarda iştirak etmiş, erməni basqınçılarına öz gücünü göstərmişdi. 1992-ci il 29 mart tarixində snayper gülləsi onun həyatına son qoymuş, Vətənin cəsur övladı əbədiyyətə qovuşmuşdu.

Evli idi, üç oğlu yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Məmmədov Nizami Murad oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Nizami Məmmədov Bərdə rayonunun Dəymədağlı kəndində dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili İşlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Nizami Murad oğlu –polis nəfəri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Nizami Murad oğlu [Mətn] /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.146.

Məmmədov Nizami Murad oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.141.

Seyidzadə, M. Məmmədov Nizami Murad oğlu [Mətn] /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.147.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www.edu.gov.az

www.milliqahraman.az

140 illiyi

Qara bəy Qarabəyli 1873-1953

İctimai xadim



Qara bəy İsmayıl Ağa oğlu Qarabəyli 1873-cü il yanvar ayının 14-də Yelizavetpol (indiki Gəncə) quberniyasının Yuxarı Ayıblı kəndində anadan olmuşdur.

Şəmkir alman-rus litseyini, daha sonra Tiflis klassik gimnaziyasını bitirmişdir.

1892-ci ildə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuşdur. 1896-cı ildə siyasi fəaliyyətə görə bir il həbsdə olmuşdur.

Həbsdən sonra təhsilini Yuryev (Tartu) Universitetinin tibb fakültəsində davam etdirmişdir.

1899-cu ildə universiteti bitirdikdən sonra iki il Moskvada işləmişdir.

1901-ci ildə Bakıya gələrək şəhərdə ilk dəfə olaraq zöhrəvi xəstəliklərin müalicəsi üzrə kabinet açmışdır.

Həmin dövrdən publisist kimi fəaliyyətə başlamış, "Həyat", "İrşad", "Kaspi" və s. nəşrlərlə əməkdaşlıq etmişdir.

1906-cı ildə İrana mühacirət edərək inqilabi fəaliyyətini davam etdirmiş, 1908-ci ildə İstanbulda "Səadət" adlı təşkilat yaratmışdı.

1911-ci ildə Bakıya qayıdaraq publisistik fəaliyyətini davam etdirmiş, "Haqq yolu" adlı jurnal nəşr etdirmişdir.

Həmçinin, Azərbaycanda ilk dəfə ikicildlik türk-rus lüğətini nəşr etdirmişdir.

Fevral inqilabından sonra yenidən Bakıya qayıdan Qarabəyov "Kaspi" və "Yeni həyat" qəzetlərinin baş redaktoru olmuşdur. Qarabəyli mart soyqırımından sonra Bakını tərk edərək Dağıstana getmişdir.

"İttihad" partiyasının sədri olan Qarabəyli 1918-1920-ci illərdə fəaliyyətdə olan Azərbaycan Demokratik Respublikası parlamentinə deputat seçilmişdir.

Aprel işğalından sonra Qarabəyli həbs edilərək Arxangelskdəki Solovki həbs düşərgəsinə göndərilmişdir. N.Nərimanovun xahişi ilə Leninin müdaxiləsi nəticəsində 1923-cü ildə həbsdən azad edilmişdir. Moskvaya köçərək Rusiya fövqəladə komissarlığının xəstəxanasında həkim işləmişdir.

Qara bəy Qarabəyli Kreml xəstəxanasına rəhbərlik etmişdir.

1924-cü ildə Qazaxıstana köçərək burada ilk Mamalıq Texnikumunun əsasını qoymuşdur.

1933-cü ildə Səmərqənd xəstəxanasında baş həkimin müavini işləmişdir.

1934-cü ildə gizli olaraq Bakıya gəlmiş, burada bir erməni döydüyü üçün həbs edilmişdir.

1936-cı ildə həbsdən buraxılaraq Səmərqəndə göndərilən Qarabəyli vərəm sanatoriyasının baş həkimi işləmişdir.

Qara bəy Qarabəyli 1953-cü ildə Səmərqənddə vəfat etmişdir.

Ədəbiyyat

Nəsihətlər məcmuəsi [Mətn]: insana qəfildən toxunan bədbəxtlik və nagəhan azara qarşı yapılması lazım gələn ilk köməklər barəsində /Q.Qarabəyli; Azərbaycan Xalq Torpaq Komissarlığı.- Bakı: Yeni kənd, 1925.

Ələkbərli, N. Solovikdən Maqadanadək [Mətn] /N.Ələkbərli //Vəfa.- 2004.- №1.- S.21-23.

İnternetdə

www..anl.az

www.adam.az

www. az.wikipedia.org

60 illiyi

Əli Əhmədov 1953

İctimai-siyasi xadim



Ə d ə b i y y a t

Politologiya [Mətn]: ali məktəblər üçün dərslik /H.Şirəliyev, Ə.Əhmədov; red. Ə.Abdullayev.- Bakı: Təbib, 1997.- 416 s.

Ağamalı, F. Harmonik inkişafın yüksəliş dövrü [Mətn] /F.Ağamalı; elmi red. Ə.Əhmədov, A.Mənsimli.- Bakı: [Ozan], 2008.- 280, [13] s.

Babaoğlu, H. İnsan hüquqları və azadlıqları [Mətn]: tarixi təkamülü, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi /H.Babaoğlu; red. Ə.Əhmədov; rəyçilər: R.Mustafayev, V.Abdullayev, Q.Əliyev.- Bakı: Elm, 2006.- 244 s.

Yeni Azərbaycan Partiyası 10 il [Mətn] /burax. məsul Ə.Əhmədov; tərt. ed.: M.Qurbanlı, İ.Əliyev.- Bakı: Azərbaycan, 2002.- 216 s.

İ n t e r n e t d ə

www..anl.az

www. az.wikipedia.org

www. e-qanun.az

www.yap.org.az

Əli Cavad oğlu Əhmədov 1953-cü il yanvar ayının 27-də Ermənistan Respublikası Basarkeçər rayonunun Dərə kəndində anadan olmuşdur.

Moskva Dövlət Tarix-Arxiv İnstitutunun tarix fakültəsini bitirmişdir.

1975-ci ildən Baş Arxivlər İdarəsinin baş elmi işçisi, Azərbaycan EA-nın Mərkəzi Elmi Baş Arxivinin müdiri olmuşdur.

1980-ci ildən Azərbaycan Dövlət Universitetində laborant, müəllim, baş müəllim, dosent, kafedra müdiri işləmişdir.

1997-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında şöbə müdirinin müavini vəzifəsində çalışmışdır.

1999-2000-ci illərdə Xətai rayon İcra Hakimiyyətinin başçısı olmuşdur.

Yeni Azərbaycan Partiyası sədrinin müavini və partiyanın icra katibidir.

2005-ci il noyabrın 6-da 19 saylı Nərimanov birinci seçki dairəsindən deputat seçilmişdir. Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvüdür.

Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Belarus, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Fəlsəfə elmləri namizədi, dosentdir. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının və həmin Şura yanında Korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın üzvüdür.

BDU-nun Politologiya və sosiologiya kafedrasının müdiridir.

1 dərsliyin, 50-dən çox elmi əsərin və məqalənin müəllifidir.

2009-cu ildə Polşa prezidentinin sərəncamı ilə iki ölkənin münasibətlərinin inkişafına göstərdiyi xidmətlərə görə "Kavaler" ordeni ilə təltif olunmuşdur.

85 illiyi

Teymur Bünyadov 1928

Akademik



Ə d ə b i y y a t

Anam birdi, Vətən tək... [Mətn]: 2 cilddə /T.Bünyadov; tərt. ed. və red. Z.M.Hüseynova; AMEA Arxeologiya və Etnoqrafiya İn-tu, AMEA Folklor İn-tu.- Bakı: [Səda], 2004.- C.1. 341 s.

Azərbaycan etnoqrafiyası [Mətn]: 3 cilddə /baş red. T.Bünyadov; red. hey.: M.Rəhimova və b.; AMEA Arxeologiya və Etnoqrafiya İn-tu.- Bakı: Şərq-Qərb, 2007.- C.I- 543 s.; C.II.- 384 s.; C.III.- 567 s.

Başı çalmalı dağlar [Mətn]: [bayatılar] /T. Bünyadov; tərt. ed. və red. Z.M.Hüseynova; AMEA Arxeologiya və Etnoqrafiya İn-tu, Folklor İn-tu.- Bakı: Nurlan, 2010.- 351, [1] s.

...Sən olmasaydın [Mətn] /T.Bünyadov; red. P.Qəzənfər.- Bakı: Ozan, 2011.- 109, [3] s.

Teymur Əmiraslan oğlu Bünyadov [Mətn]: biblioqrafiya /tərt. ed. Z.Hüseynova; red. A.Əliyeva-Kəngərli, İ.Səfərov; AMEA Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 2008.- 200 s.

www.anl.az

Teymur Əmiraslan oğlu Bünyadov 1928-ci il yanvar ayının 20-də Qazax rayonunun Şıxlı kəndində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Tarix elmləri doktoru, professor elmi dərəcəsi almışdır. Alimin maraq dairəsi öz genişliyi və rəngarəngliyi ilə seçilsə də, əsas tədqiqat mövzusu arxeologiya və etnoqrafiya sahəsində olmuşdur. Azərbaycan etnoqrafiyasının əkinçilik və maldarlıq tarixinin yazılması, Azərbaycanda arxeologiya elminin inkişafı sahəsində, qədim tarixlə bağlı elmi nailiyyətləri var. Zəngin adət-ənənələrimizi, çoxsaylı mənəvi dəyərlərimizi vətəndaşlıq məhəbbəti ilə tədqiq və tərənnüm etmiş müəllifin 1975-ci ildə yazdığı əsərlərdən biri də "Əsrlərdən gələn səslər" kitabıdır.

Azərbaycanda ilk dəfə olaraq T.Bünyadovun rəhbərliyi ilə 3 cildlik "Azərbaycan etnoqrafiyası" monoqrafiyası nəşr edilmişdir. Kitabda xalqımızın çoxəsrlik tarixi, əkinçilik və maldarlıq mədəniyyəti, əhalinin iqtisadi həyatında tutduğu mövqeyi tarixi etnoqrafik baxımdan araşdırılmışdır.

T.Bünyadov çoxillik elmi fəaliyyəti ilə yanaşı, bədii yaradıcılıqla da mütəmadi məşğul olmuşdur. Onun dərc edilmiş onlarca hekayələri, "Göz yaşları" adlı romanı, üç kitabdan ibarət olan bayatıları, 2004-cü ildə iri həcmli "Anam birdi, Vətən tək..." və "Xan çinar kölgəsində" adlı ikicildlik bayatılar kitabları oxuculara təqdim olunmuşdur.

T.Bünyadov Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir, respublikada və onun xaricində geniş elmi-ictimai və hərbi vətənpərvərlik işi aparır.

1989-cu ildə AMEA-ya müxbir üzv, 2001-ci ildə həqiqi üzv seçilmişdir. Hal-hazırda AMEA-da şöbə müdiri vəzifəsində çalışır.

Xidmətlərinə görə o, 2001-ci ildə "Qızıl qələm" mükafatı laureatı, 2002-ci ilin dekabrında AMEA-nın Fəxri fərmanı, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni ilə, 2008-ci ildə anadan olmasının 80 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı ilə təltif edilmişdir.

15 namizədlik, 14 doktorluq işinə rəhbərlik etmişdir. 38 il pedaqoji fəaliyyət göstərmişdir.

570 elmi əsəri, 23 monoqrafiyası çap olunmuşdur. 6 elmi əsəri xarici ölkədə nəşr olunmuşdur.

110 illiyi

Mehdi Mehdizadə 1903-1984

Akademik



Mehdi Məhəmməd oğlu Mehdizadə 1903-cü il yanvar ayının 18-də Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olmuşdur.

1919-cu ildə Daşkəsən kənd ibtidai məktəbini bitirmiş və növbəti ilin noyabrından Daşkəsən kənd kitabxanasının müdiri kimi əmək fəaliyyətinə başlamışdır.

1921-ci ildə 6 aylıq pedaqoji kursu bitirərək həmin ilin sentyabrından I dərəcəli Daşkəsən kənd məktəbində müəllim işləməyə başlamışdır.

1923-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun yanında hazırlıq kursuna, 1924-cü ildə isə institutun fizika-riyaziyyat fakültəsinə qəbul olmuşdur.

M.Mehdizadə 1926-cı ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş və Qaryagin (indiki Füzuli) şəhərində II dərəcəli məktəbə fizika və riyaziyyat müəllimi kimi göndərilmişdir.

Mehdi Mehdizadə 1927-ci ildə Cəbrayıl qəza Xalq Maarif Şöbəsi yanında metodika bürosunun rəhbəri, 3 il sonra, 1930-cu ilin mart ayından isə Azərbaycan Xalq Maarif Komissarlığının İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi və xalq komissarının birinci müavini Ayna Sultanovanın köməkçisi vəzifəsinə təyin edilmişdir.

O, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü (9.31.1967) olub, uzun illər 1952-1980-ci illər ərzində – 23 il Azərbaycanın Maarif naziri vəzifəsində çalışmışdır.

Xidmətlərinə görə SSRİ maarif əlaçısı (29.04.1959), Lenin ordeni (1960), 3 dəfə "Qırmız Əmək Bayrağı" ordeni (1966,1971, 1976), "Krupskaya medalı" (1973) (böyüməkdə olan nəslin təlim-tərbiyəsinə görə), SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı (1980), "Əmək veteranı" medalı (1981) ilə təltif edilmiş, "Azərbaycan SSR-nin Əməkdar elm xadimi" (1982) adına layiq görülmüşdür.

Bakı şəhərinin mərkəzi küçələrindən biri Mehdi Mehdizadənin adını daşıyır.

Görkəmli akademik 1984-cü il may ayının 1-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Akademik Mehdi Mehdizadə [Mətn]: biblioqrafiya /tərt. ed. və ön söz. müəl. H.Musayev; red. T.İsmixanova, F.Abdinzadə; Respublika Elmi-Pedaqoji Kitabxanası.- Bakı: Öyrətmən, 1992.- 60 s.

Akademik Mehdi Mehdizadə ömrünün işığı [Mətn]: [akademik haqqında xatirələr] /tərt. V.Xəlilov, H.Musayev; elmi red. Ə.Ağayev.- Bakı: Şərq-Qərb, 1998.- 240 s.

Əliyev, R. Akademik Mehdi Mehdizadənin pedaqoji fəaliyyəti və pedaqoji görüşləri [Mətn]: ped. e. n. a. dər. al. üçün təq. ed. dis.: 13.00.01 /R.Əliyev; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil Problemləri İn-tu.- Bakı, 2006.- 143 s.

İnternetdə

www..anl.az

www.azerbaycanli.org

www.president.az

140 illiyi

Həmidə xanım Cavanşir-Məmmədquluzadə 1873-1955

Maarifçi



Həmidə xanım Əhmədbəy qızı Cavanşir-Məmmədquluzadə 1873-cü il yanvar ayının 19-da Şuşa qəzasının Kəhrizli kəndində zəmanəsinin görkəmli maarifçi ziyalısı, tarixçi Əhməd bəyin ocağında dünyaya gəlmişdi. Ailə məktəbində təhsil alan Həmidə xanım hələ yeniyetmə illərində rus dilini səlis qavrayaraq, o dövrün kənd qızları üçün səciyyəvi olmayan yüksək intellektə, geniş dünyagörüşünə malik olmuşdu. İlk həyat yoldaşı zadəgan nəslindən olan podpolkovnik İbrahim bəy Davatdarov cəbhədə həlak olandan və atasını itirəndən sonra Həmidə xanım Cavanşir Kəhrizlidə ata mülkünü idarə etmişdi. 1905-ci ildə Tiflisdə tanış olduğu Mirzə Cəlil Məmmədquluzadəyə iki il sonra ərə gedərkən bu izdivac çoxlarına xoş getməmiş, nigah onun əsilzadə nəslinə yaraşdırılmamışdı. Lakin Həmidə xanım bütün maneələrə cəsarətlə sinə gərərək, Mirzə Cəlilə vəfalı və fədakar ömür-gün yoldaşı olmaqla yanaşı, həm də ustad sənətkarın ən yaxın maarifçi silahdaşı, ziyalı həmdəmi, "Molla Nəsrəddin"in isə xeyirxah himayədarı olmuşdu. Bütün varidatını, sərvətini həyat yoldaşının yaradıcılığına böyük ürəklə sərf edən Həmidə xanım Cavanşir-Məmmədquluzadə Mirzə Cəlillə 25 il ömür sürmüşdür.

Tək Kəhrizli kəndinin deyil, cümlə Qarabağın ona kömək üçün pənah gətirən insanlarının əlindən tutan bu xanım həm də o dövrün yardıma ehtiyacı olan ziyalılarının da problemlərini həll etmişdir. Həmidə xanımın M.Ə.Sabirə göstərdiyi qayğı haqqında isə Azərbaycan ziyalılığının baş tacı olan Üzeyir bəy Hacıbəyli xüsusi məqalə yazmışdır. Məqalə bu sözlərlə bitirdi: "Qoy ədəbiyyat tarixinə yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən bir kişi olmadısa da, bir nəfər arvad oldu ki, şairin iadei-səhhəti üçün, milyonçu kişilərə rəğmən, öz varından keçəcək qədər böyük bir hamiyyət göstərdi". Bu hadisə Həmidə xanım Cavanşir-Məmmədquluzadənin vətəndaş ma-hiyyətini, xeyirxah əməllərini əks etdirən yüzlərlə faktdan yalnız biridir.

Həmidə xanım 1912-ci ildə Kəhrizlidə öz vəsaiti hesabına məktəb açmış və burada dərs demişdir.

1955-ci il fevral ayının 6-da vəfat edən Həmidə xanım Cavanşir-Məmmədquluzadə Fəxri Xiyabanda Mirzə Cəlilin məzarı yanında dəfn edilmişdir.

Ədəbiyyat

Cəlil Məmmədquluzadənin xatirə fondu [Mətn]: kataloq /tərt. X.Bəşirova, S.Hüseynova, Ş.İsmayılova; red. İ.İsrafilov; N.Gəncəvi ad. Azərbaycan Ədəbiyyatı Muzeyi.- Bakı: [Vətən], 1996.- 80 s.

Həmidə xanım Cavanşir-Məmmədquluzadə [Mətn] //M.Vəzir. Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /layih. müəl. və rəhb. Ş.İsmayılova; red. B.Əhmədov, S.İsmayılova; tərc. F.Axundov.- Bakı: İlay, 2008.- S.47.

Məmmədquluzadələr Cəlil və Həmidə. Məktublar [Mətn] /tərt. ed., izah. və müqəd. müəl. Ə.Mirəhmədov; red. İ.Həbibbəyli.- Bakı: Gənclik, 1994.- 120 s.

İnternetdə

www..anl.az

www.adam.az

www. az.wikipedia.org

190 illiyi

Hacı Zeynalabdin Tağıyev 1823-1924

Xeyriyyəçi



Xeyriyyəçi, maarifpərvər və ictimai xadim Tağıyev Hacı Zeynalabdin Tağı oğlu 1823-cü il (bəzi mənbələrdə 1838) yanvar ayının 25-də Bakıda başmaqçı ailəsində anadan olmuşdur. Kiçik yaşlarından fəhləlik etmiş, 15 yaşından bənnalığa başlamışdır. 1873-cü ildə neftçıxarma işinə sərmayə qoymuş, sahibkarlıq fəaliyyətinə başlamışdır. 1878-ci ildə Tağıyevin mədənində baş verən neft fontanı onu Bakının zəngin sahibkarlarından birinə çevirmişdir. 70-ci illərin sonunda o, artıq 3 neft zavodunun sahibi idi.

Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi (bütün Kürətrafı və Xəzərqırağı vətəgələr onun ixtiyarında idi), həm də ticarət və yük gəmilərinin sahibi olmuşdur.

O, müsəlmanların mənafeyi ilə bağlı ictimai-siyasi məsələlərdə daim fəallıq göstərmiş, onun vəsaiti hesabına Ə.Axundzadənin, S.M.Qənizadənin, N.Nərimanovun və b. kitabları çap olunmuşdur.

1879-cu ildə Bakıya su kəməri çəkdirmiş, 1901-ci ildə 325 min manatlıq vəsait sərf edərək, Bakıda ilk qızlar məktəbi tikdirmişdir. Bu, bütün Zaqafqaziyada yeganə qız məktəbi idi.

Onun himayə etdiyi, təqaüd verdiyi şəxslər sonradan öz ölkələrinin, xalqlarının görkəmli nümayəndələri olmuşlar. N.Nərimanov, M.Əzizbəyov, Ə.Topçubaşov, N.Yusifbəyli, L.Behbudov, Q.Qarabəyli, B.Cavanşir, M.D.Hüseynov, M.H.Vəzirov, Ş.Məmmədova və b. H.Z.Tağıyevin köməyi sayəsində təhsil almışlar.

O, yeni tipli təhsil ocaqlarını ərəb, fars və türk dillərində kitablarla və məktəb avadanlığı ilə təmin etmiş, onlara nağd pulla yardım göstərmişdir.

H.Z.Tağıyevin bir sıra qəzet və jurnalların nəşrində (“Kaspi”, “Həyat”, “Tazə həyat”, “Füyuzat” və s.), mədəni-maarif cəmiyyətlərinin təsis edilib fəaliyyət göstərməsində böyük əməyi olmuşdur. Onun 1880-ci ildə Bakıda tikdirdiyi ilk teatr binası xalq arasında “Tağıyev teatrı” adlanırdı.

Sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri milliləşdirildi. Ona Mərdəkandakı bağında yaşamağa icazə verildi. N.Nərimanov Azərbaycan sovet hökumətinə rəhbərlik etdiyi dövrdə ona xeyirxah münasibət bəsləmiş, onu bolşevik hakimiyyətinin təhqiramiz tədbirlərindən qorumuşdur.

H.Z.Tağıyev 1924-cü il sentyabr ayının 13-də Mərdəkanda vəfat etmiş, Axund Əbuturab məqbərəsində dəfn edilmişdir.

Adına qəsəbə, küçə, məktəb var.

Ədəbiyyat

Hacı Zeynalabdin Tağıyev [izomaterial] /müəl. heyəti. N.Vəlixanlı (ümumi red.), N.Tahirzadə, F.Cabbarov, M.Məmmədov; red. A.Abbasov; AMEA; Milli Azərb. Tarixi Muzeyi; BP; tərtibat. Cam Visual Communication Agency.- [Bakı], [2010].- 241 s.

Hacı Zeynalabdin Tağı oğlu Tağıyev [Mətn]/S.Əhmədov //Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.- S.151-153.

Rəhimzadə, M. Allahın eşqiylə [Mətn] /M. Rəhimzadə; elmi red. Z. Səmədzadə .-Bakı: Azərbaycan, 2007.- 256 s.

Tağıyev Hacı Zeynalabdin Məhəmmədtağı oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.- Bakı, 2005.- C.2.- S.387-390.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www.kataloq.net

370 illiyi İsaak Nyuton 1643-1727

İngilis fiziki



İsaak Nyuton 1643-cü il yanvar ayının 4-də İngiltərənin Qrentem şəhərciyinin yaxınlığındakı Vulstorp kəndində dünyaya gəlmişdi.

İsaak Nyuton ingilis riyaziyyatçısı, mexanik və fiziki, astronom və astroloqu, müasir fizikanın banilərindən biri olmuşdur. O, mexanikanın əsas qanunlarını formalaşdırmış, bütün fiziki hadisələrin təsvirinin vahid fiziki proqramını yaratmışdır. Ümümdünya cazibə qüvvəsini kəşf etmiş, planetlərin Günəş ətrafında və Ayın Yer ətrafında hərəkətinin, habelə okeanlarda qabarma və çəkilmənin izahını vermişdir. Akustkanın və fiziki optikanın əsasını da bu alim qoymuşdur. Diferensial və inteqral hesabı Nyuton işləyib hazırlamışdır. İşıq dispersiyasını, xromatik aberrasiyanı o kəşf etmiş, interferensiya və difraksiyanı araşdırmış, işığın korpuskulyar nəzəriyyəsini genişləndirmiş, güzgülü teleskop hazırlamış, səma mexanikasının əsaslarını yaratmışdır. Sələflərinin və özünün mexanika sahəsində tədqiqatlarının nəticələrini ümumiləşdirərək alim "Natural fəlsəfənin riyazi başlanğıcı" adlı möhtəşəm əsərini ərsəyə gətirmişdir. 1687-ci ildə nəşr olunmuş bu əsərdə mexanikanın əsas məfhumları və prinsipləri üç məşhur qanun - ətalət qanunu, hərəkətin kəmiyyətinin sərf edilmiş qüvvəyə proporsionallığı qanunu, təsir və əks-təsir qanunu şəklində formalaşdırılmışdır. Daha bir konsepsiya onun adı ilə bağlıdır. Nyuton bu konsepsiyasında Günəş sisteminin vəhdətdə olmasında israrlı olmuşdu. O, Günəş sistemini atomun quruluşuna oxşadırdı.

Nyutonun elmi işləri öz dövrünün elmi səviyyəsini xeyli üstələdiyi üçün müasirləri tərəfindən az anlaşılmışdı. O, Allaha dərindən inanır və elmi tədqiqatların Allahı daha yaxşı dərk etmək üçün dəyərli vasitə olduğunu hesab edirdi. İlahiyyat məsələlərinə dair 40.000 səhifəyə yaxın yazısı olan Nyuton həyatının əsl mənasını ilahiyyat əsərlərində görürdü.

İsaak Nyuton 1727-ci il mart ayının 31-də vəfat etmiş, İngiltərə kralларının, dövlət xadimlərinin dəfn olunduğu Vestminster abbatlığında böyük şərəfətlə torpağa tapşırılmışdı.

Ədəbiyyat

Abbasov, V. İsaak Nyuton [Mətn] //Abbasov V. Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri.- Bakı: Təhsil, 2010.-S.372.

İsaak Nyutonun alma ağacı [Mətn] //Azərbaycan müəllimi.- 2011.- 20 may.- S.3.

Nicat, Ə. İsaak Nyuton //Əlisa Nicat. Dahilər.- Bakı: Qanun, 2001.- S.110.

İnternetdə

www..anl.az

www. az.wikipedia.org

www. deyerler.org

105 illiyi Lev Davidoviç Landau 1908-1968

Akademik



Lev Davidoviç Landau 1908-ci il yanvar ayının 22-də Bakıda yəhudi ailəsində anadan olmuşdur.

Landau 13 yaşında gimnaziyanı bitirmiş, universitetə yaşı çatmadığından, Baki İqtisadiyyat Texnikumuna qəbul olunmuşdur. 1922-ci ildə cəmi 14 yaşında ikən Bakı Dövlət Universitetinə daxil olmuşdur. Burada o, eyni zamanda iki fakültədə - fizika-riyaziyyat və kimya ixtisasları üzrə təhsil almışdır. 1924-cü ildə Leninqrad Universitetinin fizika fakültəsinə göndərilmiş və buranı 1927-ci ildə bitirmişdir. Daha sonra Leninqrad Fizika-Texniki İnstitutunda aspirant təhsilini davam etdirmiş və cəmi 21 yaşında doktor dərəcəsini almışdır. 1929-cu ildə Landau ilk dəfə Avropaya getmək imkanı əldə etmişdir. Götingen və Leypsiqdə qısamüddətli dayandıqdan sonra Kopenhagenə yollanmış və burada Nils Borun Nəzəri Fizika İnstitutunda çalışmışdır. Kopenhagendən sonra o Kembridc və Zürixə yollanmış və yenidən Sovetlər Birliyinə qayıtmışdır. 1932-1937-ci illər ərzində Landau Xarkov Mexanika və Maşınqayırma İnstitutunun Nəzəri fizika kafedrasına rəhbərlik etmişdir. 1936-1937-ci illərdə Lev Landau "Fazaların ikinci növ dəyişmələri" və "Yüksəkkeçiricilərin aralıq vəziyyəti" nəzəriyyələrini yaratmış, bu problemlərə həsr olunmuş elmi məqalələrlə çıxış etmişdir. Elə Xarkovda işlədiyi dövrdə dostu və keçmiş tələbəsi Y.M.Lifçitzlə birgə on cildlik məşhur "Nəzəri Fizika Kursu" kitabını yazmışdır.

1937-ci ildə bütün ölkəni bürümüş repressiyalar dahi alimdən də yan ötməmişdir. Əvvəlcə Xarkovdan Moskvaya gələn alim 1938-ci ilin 17 aprel tarixində təhlükəzlik xidməti tərəfindən saxlanılmış və 1939-cu il aprel ayının 19-na qədər həbsdə saxlanılmışdır. Landaunun həbsini eşidən Nils Bor dəhşətə gəlmiş və o, Landaunun fizika üçün, dünya elmi üçün nə dərəcədə əhəmiyyətli olduğu barədə İosif Stalinə məktub göndərərək onun azad edilməsini xahiş etmişdir. Onun və həmkarı Pyort Ksapitsanın Stalinə yazdığı məktublar müqabilində Lev Landau 1939-cu ilin 29 aprelində azadlığa buraxılmışdır.

1946-cı il o, SSRİ EA-nın akademiki seçilmişdir. 1956-cı ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1962-ci ilin yanvar ayının 7-də ciddi avtomobil qəzasına uğramışdır. Həmin ilin noyabrında Landau ona Nobel mükafatı verilməsi barədə teleqram almışdır. Nobel Komitəsinin tarixində ilk dəfə olaraq xüsusi hal kimi məşhur fizik Lev Landaunun Stokholma gedə bilməməsi nəzərə alınmış və İsveçin Moskvada olan səfiri Nobel mükafatını xəstəxanada ona təqdim etmişdir. O, bir daha tamamilə sağala bilməmiş və əvvəlki fəaliyyətini dayandırmışdır.

Dahi fizik 1968-ci il aprel ayının 1-də Moskva şəhərində vəfat etmişdir.

Ədəbiyyat

İmanov, K. Lev Davidoviç Landau- XX yüzilliyin əfsanəvi fiziki [Mətn] /K. İmanov // Xalq qəzeti.-2009. - 21 iyun.- S. 8.

Сборник [Текст] / Ландау.-М.: Наука, 1978.- 114 с.

Фейгин, О. О. Лев Ландау [Текст]: последний гений физики /О. Фейгин.- Москва: Эксмо, 2011. - 284, [4] с.

Физика для всех[Текст]/Ландау.- М.: Наука,1984.- 207 с.

İnternetdə

www..anl.az

www. az.wikipedia.org

www.nobelprize.org

90 illiyi

Zəhra Quliyeva 1923-2005

Oftalmoloq



Quliyeva Zəhra Tahir qızı 1923-cü il yanvar ayının 18-də Bakı şəhərində anadan olmuşdur. 1944-cü ildə Azərbaycan Tibb İnstitutunu (indiki ATU) bitirmişdir.

Həmin ildən institutun göz xəstəlikləri kafedrasında ordinator, assistent, dosent, professor və kafedra müdiri işləmişdir.

1958-ci ildə namizədlik, 1967-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir.

Həmin illərdən institutda dekanın əvəzedicisi, tədris işləri üzrə prorektor, 1972-1983-cü illərdə rektor, 1975-ci ildən Azərbaycan Oftalmoloqları Elmi Cəmiyyətinin sədri, "Sevil" Qadınlar Məclisi sədrinin müavini, Bakı şəhər Sanitariya-təmizlik Məsələləri üzrə Komissiyanın sədri, 1998-2005-ci illərdə isə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifələrində çalışmışdır.

Tədqiqatı, əsasən, traxoma, gözün refraksiyası, rəng duyğusu və ona müxtəlif amillərin təsiri, tor qişa və görmə siniri xəstəliklərində görmə orqanının funksiyasının öyrənilməsinə həsr olunmuşdur.

150-dən artıq elmi işin, 3 monoqrafiya, dərslik və bir neçə dərs vəsaitinin, ixtira və səmərələşdirici təkliflərin müəllifidir.

SSRİ Ali Sovetinin (8 və 9-cu çağırış) və Bakı şəhər Sovetinin deputatı olmuşdur. Amerika Bioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin qadını" seçilmişdir.

Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı", Azərbaycan Respublikasının "Şöhrət" ordenləri və medallarla təltif edilmişdir. Əməkdar elm xadimi adına layiq görülmüşdür.

Görkəmli oftalmoloq və ictimai xadim Zəhra xanım Quliyeva 2005-ci il noyabr ayının 28-də 82 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Göz xəstəlikləri [Mətn]: Tibb İnstitutu üçün dərslik /Z.Quliyeva, P.H.Zairova; ixt. red. N.M.Əfəndiyev; rəy. R.M.Axundova.- Bakı: Maarif, 1987.- 280 s.

Göz qapaqları, göz yaşı apparatı və selikli qişanın xəstəlikləri [Mətn]: dərs vəsaiti /Z.T.Quliyeva, P.H.Zahirova; [red. R.M.Axundova]; Azərb.SSR Səhiyyə Nazirliyi, N.Nərimanov ad. Azərb. Dövlət Tibb İn-tu.- Bakı: [s. n.], 1981.-64 s.

İ n t e r n e t d ə

www..anl.az

www. az.wikipedia.org

www.gender-az.org

60 illiyi

Əli Abbasov
1953

Akademik



Əli Məmməd oğlu Abbasov 1953-cü il yanvar ayının 1-də Naxçıvan MR-in Şahbuz rayonunda anadan olmuşdur. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun "İstehsal proseslərinin avtomatlaşdırılması" fakültəsinə (avtomatika və telemexanika ixtisası üzrə) daxil olmuşdur.

1972-ci ildə təhsilini davam etdirmək üçün Moskva Energetika İnstitutuna (MEİ) köçürülmüş və 1976-cı ildə MEİ-ni avtomatika və hesablama fakültəsini bitirmişdir. 1977-1980-ci illərdə Ukrayna EA-nın aspiranturasında təhsil almışdır.

1981-ci ildən texnika elmləri namizədidir.

1992-ci ildə Azərbaycan EA-nın İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinə (indiki İnformasiya Texnologiyaları İnstitutu) direktor vəzifəsinə təyin olunmuşdur. Bu müddət ərzində "Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri" ("RAİS-Azərbaycan") layihəsinin rəhbəri, EARN və İNTERNET şəbəkələrinin respublika üzrə koordinatoru, NATO-nun Elm Komitəsində informasiya texnologiyaları sahəsində Azərbaycan üzrə əlaqələndirici və milli əhəmiyyətli bir neçə xüsusi təyinatlı kompyuter və informasiya sistemlərinin icraçısı və rəhbəri olmuşdur. 1994-cü ildə texnika elmləri doktoru elmi dərəcəsini, 1996-cı ildə informatika sahəsində professor elmi adını almışdır.

2000-2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru vəzifəsində işləmişdir. 2004-cü ildən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları naziridir.

Azərbaycan Elm və Təhsil üzrə Kompyuter Şəbəkələri Assosiasiyasının (AZRENA) prezidenti kimi fəaliyyət göstərmiş, "Elm və təhsil İNTERNET şəbəkəsinin inkişafı", "Respublikada məsafədən (distant) təhsil sisteminin yaradılması", "Virtual İpək Yolu" və digər layihələrə rəhbərlik etmişdir.

1996-cı ildə Kembric Bioqrafiya Mərkəzi Ə.Abbasovu texnika və texnologiya üzrə "İlin beynəlxalq adamı" elan etmişdir.

1994-cü ildən UNESCO-nun informasiya və telekommunikasiya üzrə eksperti, 1997-ci ildən Nyu-York Elmlər Akademiyasının, 1998-ci ildən Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, 2000-ci ildən Beynəlxalq Elmlər Akademiyasının, 2001-ci ildən isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. 2000-ci ildən Azərbaycan Milli Məclisinin, 2001-ci ildən isə Avropa Şurasının Parlament Assambleyasının üzvü olmuşdur.

150-dən çox elmi-texniki əsərin, o cümlədən 6 monoqrafiyanın, 2 dərsliyin müəllifidir. Onlarla beynəlxalq konfrans və forumların iştirakçısıdır.

Ədəbiyyat

Müasir rabitə şəbəkələri: NGN [Mətn]: telekommunikasiya istiqaməti üzrə təhsil alan ali məktəb tələbələri üçün dərslik /Ə.M.Abbasov, B.İ.Hüseynov, X.F.Kişiyev; elmi red. F.Əliyev; rəy.: T.Əliyev, R.Əliquliyev, F.Məmmədov.- Bakı: Adiloğlu, 2009.- 366 s.

Методы организации баз знаний с нечеткой реляционной структурой [Текст]: монография /Аббасов А.М., Алиев Э.Р., Мамедова М.Г.- Баку: Элм, 1997.

Abbasov, A.M., "Synthesis of methods for subjective methods representation in problems of fuzzy patterns recognition" [Text]/ A.M., Abbasov, M.G., Mamedova, G.G. Orujov, H. Aliyev //Mecatronics.-2001.-№ 11.

Abbasov Əli Məhəmməd oğlu [Mətn] //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2009.- C.I.- S.18.

İnternetdə

www.wikipedia.org

www.mincom.gov.az

YANVAR

1

Tarixdə bu gün

Yeni il



Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Bu günü bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

Təzə ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar bu günü İsa peyğəmbərin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) "xilaskar allahın doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri də Şaxta babadır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Məsələn, ABŞ-da və Avstraliyada o, Santa Klaus, Rusiyada-Ded Moroz, Türkiyədə -Noel baba, Avstriyada-Silvestr, Britaniyada - Milad baba, Yunanıstanda Müqəddəs Vasili adlanır.

Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmirlər. Torbalarındakı müxtəlif hədiyyələrlə uşaqları sevindirirlər.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. Artıq həmişəlik vidalaşdıqları ilin son anlarında musiqini dayandıraraq sükut içərisində saat 12.00-ı gözləyirlər. İlin başa çatdığını göstərən saat zənginin təntənəli sədaları altında sağlıqlar söyləyir, sonra isə şampan şərabı ilə dolu qədəhləri toqquşdurur, yeni ildə bir-birinə xoş günlər və sağlamlıq arzulayırlar.

Ə d ə b i y y a t

Yeni il bayramı [Mətn] //Əkbər Qocayev. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- S.36.

İ n t e r n e t d ə

www..anl.az

az.wikipedia.org

www. ebooks.preslib.az

www. qadin.net

Tarixdə bu gün

50 illiyi

Abşeron rayonu 1963



Yaranma tarixi: 04.01.1963
Ərazisi: 1,36 000 km2
Əhalisi: 193,900 nəfər (01.2011)

Abşeron rayonu 1963-cü ilin yanvarında yaradılmışdır. Abşeron yarımadası ilə adı eyni olsa da rayon yarımadanın yalnız qərb hissəsini əhatə edir. Yarımadanın şimalında Novxanı kəndinin kiçik dənizkənarı hissəsi Abşeron rayonuna məxsusdur. Abşeron rayonu Şərqdə əhalinin yüksək dərəcədə sıxlığı ilə (xüsusilə rayonun inzibatı mərkəzi olan Xırdalan şəhərində) qərbdə isə barsız təpələri ilə səciyyələnir. Ötən illər ərzində rayon Bakı və Sumqayıt şəhərlərinin inzibati ərazilərindəki kolxoz və sovxozlara, quşçuluq sənayesinə, aqrar sahəyə xidmət edən idarə və müəssisələrə, kənd tikinti və meliorasiya təşkilatlarına, aqrar istiqamətli elmi-tədqiqat institut və laboratoriyalarına yüksək ixtisaslı rəhbərliyi təmin etmək məqsədilə yaranmışdı. O, həmçinin hər iki sənaye mərkəzinin kənd təsərrüfatı məhsullarına ehtiyacının daha dolğun ödənilməsinə xidmət etmək vəzifəsini həyata keçirmişdir. Abşeron rayonunun əsas xüsusiyyətlərindən biri burada yerləşən Ceyranbatan su anbarıdır. Xırdalan şəhərinin şimalında yerləşən bu su anbarı Bakı şəhərini su ilə təmin edir. Su Dağıstan ilə sərhəddə axan Samur çayından Samur-Abşeron kanalı vasitəsilə gətirilir. Hal-hazırda bu, Bakını təmin edən yeganə su mənbəyidir. 2010-cu ildən Qəbələdən gələn yeni su boru kəməri istifadəyə veriləcək.

Rayon ərazisində 1 şəhər (Xırdalan) 8 qəsəbə (Ceyranbatan, Saray, Mehdiabad, Digah, Qobu, Güzdək, Hökməli, Aşağı Güzdək, Güzdək) 6 kənd (Masazır, Fatmayı, Məmmədli, Goradil, Pirəkəşkül və Novxanı) vardır.

Xırdalan qəsəbəsi 1930-1940 illərdə Binəqədi, XX əsrin 50-ci illərin birinci yarısında Maştağa, 1950-1960-cı illərdə yenidən Binəqədi rayonunun tabeliyinə verilmiş, Azərbaycan SSR Ali Soveti rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli Fərmanı əsasında yaradılmış Abşeron rayonunun mərkəzi kimi fəaliyyət göstərmişdir.

1936-cı ildə şəhər tipli qəsəbə olmuş Xırdalan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 noyabr 2006-cı il tarixli Sərəncamına əsasən şəhər statusu almışdır.

Ədəbiyyat

Abşeron iqtisadi rayonu [Mətn] //Azərbaycan Milli Ensiklopediyası /red. hey. sədri İlham Heydər oğlu Əliyev.- Bakı, 2009.- C.I.- S.58-59.

Mehrəliyev, E. Zəfəran: Abşeronun nadir nemətləri [Mətn] /E.Mehrəliyev //Azərbaycan.- 2011.- 13 fevral.- S.7.

İnternetdə

www..anl.az

www. absheron.gov.az

www.azerbaijan.tourism.az

www.az.wikipedia.org

www.medgis.org

YANVAR

19

Tarixdə bu gün

Azərbaycan Respublikasının Dövlət gerbi 1993

20 illiyi



1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə baxıldı, üçrəngli milli bayrağımızın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və himnimizin də qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri həll etmək üçün Azərbaycan Respublikasının keçmiş Ali Sovetinə müraciət olunmuşdu. Azərbaycan Respublikası Ali Soveti 1991-ci il 5 fevral tarixli qərarı ilə üçrəngli Dövlət bayrağını bərpa və qəbul etməklə yanaşı, "Azərbaycan Respublikasının Dövlət gerbinin ən yaxşı təsviri üçün müsabiqə elan olunması haqqında" (05.02.1991, №20-XII) xüsusi qərar da qəbul etmişdi. Qərara görə, Azərbaycan Respublikasının Dövlət gerbinin ən yaxşı təsviri üçün 5 min manat mükafat təsis edilmiş, müsabiqəyə yekun vurulması isə Respublika Ali Soveti Rəyasət heyətinə həvalə edilmişdi. 1991-1992-ci illərdə müxtəlif mətbuat orqanlarında çoxlu yeni gerb layihələri çap olunmuşdu və 1993-cü ilin əvvəllərində Azərbaycan Respublikasının Milli Məclisində həmin layihələr, eləcə də 1919-1920-ci illərdə hazırlanmış gerb layihəsi müzakirə edilmişdi. Gərgin müzakirələrdən sonra Azərbaycan Respublikasının Milli Məclisi 1919-1920-ci illərdə hazırlanmış gerb layihəsini müəyyən düzəliş və təkmilləşdirmələrlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdi. Beləliklə, Dövlət gerbimizin rəngli və ağ-qara təsviri "Azərbaycan Respublikasının Dövlət gerbi haqqında" Azərbaycan Respublikasının 19 yanvar 1993-cü il tarixli 460 saylı Konstitusiya Qanunu ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət gerbində qalxan - azərbaycanlıların Şərq xalqlarından biri, Azərbaycanın isə Şərq dövləti kimi özünümüdafiə qüdrətinə malik olduğunu, qalxanın üzərindəki dairəvi üçrəng - milli bayrağımızdakı simvolları (türklük, müasirlik, islam), səkkizguşəli ulduz əbədiyyət rəmzi olan Günəşi, alov - "Odlar Yurdu"nu - Azərbaycanı, palıd budaqları - milli hərbi qüdrətimizi, sünbül - Vətənimizin bolluğunu, bərəkətliliyini, çörəyə olan müqəddəs münasibətini, günəşin ağ rəngdə verilməsi isə Azərbaycan dövlətinin sülhsevərliyini, xalqımızın sülh, barış, əmin-amanlıq tərəfdarı olduğunu bildirməyə xidmət edir.

Azərbaycan Respublikasının Dövlət gerbində Azərbaycan milli dövlətçiliyinə, eləcə də milli ənənələrinə və ümumbəşəri dəyərlərə əsaslanan simvolikadan geniş istifadə olunmuşdur.

Ədəbiyyat

Azərbaycanda dövlətçilik və onun rəmzləri: [kitab-albom] /tərt. ed. və müəl. N.Vəlixanlı; AMEA Azərbaycan Tarixi Muzeyi.- Bakı, 2000.- 95 s.

Dövlət Bayrağı Meydanı [Mətn].- Bakı: [s.n.], 2010.- 75 s.

Əhmədov, S. Azərbaycan Respublikasının Dövlət Bayrağı [Mətn] /S.Ə.Əhmədov, V.S.Məmmədov; elmi red. və ön sözün müəl. N.Vəlixanlı; maliyyə dəstəyi Azərb. Resp. Dövlət Neft Şirkəti.- Bakı: [Mega basım], 2010.- 153, [1] s.

Əliyev, İ. Azərbaycan Respublikasının dövlət rəmzləri [Mətn] /İqrar Əliyev, E.Ə.Məhərrəmov.- Bakı, 2008.- S.20-22.

İnternetdə

www.anl.az

www.e-qanun.gov.az

YANVAR

20

Tarixdə bu gün

Ümumxalq Hüzn Günü 1990



1990-cı il yanvar ayının 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri kimi daxil olmuşdur. Düz 23 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxarmışdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələnmişdi. Nəticədə 170 nəfər həlak olmuş, 400-ə yaxın insan yaralanmışdı. Bunların içində asudə insanlar: gənclər, uşaqlar, qocalar və qadınlar da var idi, hətta hərbi qulluqçular da.

Buna baxmayaraq, Azərbaycanın o vaxtkı sərişdəsiz, kölə psixologiyalı rəhbərlərinin əksinə olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etmişdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırmışdı. Bununla da ulu öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmişdi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırılmışdı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edilmişdi.

Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvar ayının 20-də minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edirlər. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

Ədəbiyyat

Qanlı 20 Yanvar 1990-cı il həqiqətləri [Mətn] /tərt. ed. X.Muxtarlı.- Bakı: Mütərcim, 2005.-116 s.

Məhərrəmov, V. Qanlı gecə, qanlı tarix [Mətn] /V.Məhərrəmov.- Bakı: Hərbi Nəşriyyat, 2011.- 95 s.

Şıxlar, N. Dünyamızın 20 Yanvar Faciəsi [Mətn] /H.N.Şıxlar; red. R.Əsgər.- Bakı: Müəllim, 2011.- 92 s.

Yanardağ, S. Yanvar qırğınının intiqamı [Mətn] /S.Yanardağ; red. Ş.Vəfadar.- Bakı: Şəms, 2009.- 122 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

YANVAR

25

Tarixdə bu gün

Azərbaycanlıların Ermənistandan 1988-ci il deportasiyası

1988-ci ilin yanvar ayından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanmışdır. Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər.

Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı və 18 min kürd öz ev-eşiyindən zorla qovulmuş, 217 azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir.

Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərayanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir.

Azərbaycanlı qaçqınların ilk dəstəsi respublikamıza pənah gətirmişdir.

1988-1989-cu illərdə ümumilikdə 230 minə yaxın azərbaycanlı Ermənistan ərazisindəki tarixi ata-baba yurdlarından zorla qovulmuşdur.

Bunları unutmaq olmaz!

1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi təxminən 410 min km² olmuşdur.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycan əraziləri: sahəsi təxminən 280 min km² olmuşdur.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan ərazisi - sahəsi təxminən 130 min km² olmuşdur.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı - sahəsi 9 min km² olmuşdur.

Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7 min km² olmuşdur.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi - təxminən 114 min km² olmuşdur.

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSRİ-nin qismən nəzarətinə verilən Borçalı - birlikdə sahəsi 27,4 min km² olmuşdur.

1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi 86,6 min km² olmuşdur.

Ermənistanda yaşamış azərbaycanlıların kütləvi şəkildə sonuncu deportasiya əməliyyatı 1988-ci ilin aprelində başlamışdır. Ermənistanda yaşayan azərbaycanlılar öncə hissə-hissə, noyabr ayının sonu, dekabr ayının birinci ongünlüyündə isə kütləvi şəkildə deportasiyaya məruz qalmışlar. Əməliyyat nəticəsində Ermənistan Respublikasında 8 min kvadrat kilometrlik ərazidə (172 yaşayış məntəqəsi) kompakt şəkildə yaşayan 200 mindən çox azərbaycanlı illərlə yaşadığı torpaqlardan didərgin düşmüşdür.

Tarixdə bu gün

105 illiyi

"Leyli və Məcnun" operası 1908


ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ.
ТЕАТРЪ Г. З. А. ТАГІЕВА.
Въ субботу, 12-го января 1908 года
ЛЕЙЛИ И МЕДЖНУНЪ
Въ субботу, 12 января 1908 г.,
въ залахъ Бакинскаго Общественнаго Собранія
состоится

1908-ci ildə tamaşaya qoyulmuş "Leyli və Məcnun"la Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir dövr açılmış, eyni zamanda müsəlman Şərqində opera janrının əsası qoyulmuşdur. Opera M.Füzulinin eyniadlı poemasının motivləri əsasında yazılmışdır. Librettonun müəllifi Üzeyir bəy Hacıbəyovdur. "Leyli və Məcnun" muğam ilə Avropa operasının üzvi vəhdətindən yaranmış yeni opera janrının - muğam operasının ilk nümunəsidir. Muğamlar operanın əsas musiqi materialı olaraq ənənəvi opera formalarını - ariya, ariozo, reçitativ, vokal ansambları (duet, trio və s.) əvəz etmişdir.

"Leyli və Məcnun" operasının premyerasından düz 105 il keçir. Ötən əsrin əvvəllərində 22 yaşlı Üzeyir bəy elə bir əsər yaratmışdı ki, onun şəfəqləri bu gün də bərq vurmaqdadır.

Birinci milli operamızın ilk tamaşası 1908-ci il yanvar ayının 12-də (yeni təqvimlə 25-də) Hacı Zeynalabdin Tağıyevin teatrında keçirilmişdir. "Leyli və Məcnun" - Qafqaz bölgəsində, eləcə də Orta Asiya və İranda dəfələrlə nümayiş etdirilmiş, bu xalqların professional musiqi mədəniyyətinin təşəkküründə əhəmiyyətli rol oynamış və indi də oynamaqdadır. "Leyli və Məcnun"un ilk tamaşasının rejissoru Hüseyn Ərəblinski, dirijoru Ə.Haqverdiyev olmuşdur. Rollarda: H.Sarabski (Məcnun), Ə.Fərəcov (Leyli), C.Dağıstani (İbn Səlam), M.Kazımovski (Məcnunun anası), Mirzə Muxtar (Məcnunun atası), İ.Qasımov (Leylinin atası), C.Vəzirov (Leylinin anası) çıxış etmişlər.

Bütün Şərqdə ilk opera olan "Leyli və Məcnun"un premyerası anşlaqla keçmişdir. Böyük müvəffəqiyyətlə nümayiş etdirilən operanı izləmək üçün təkcə Azərbaycandan deyil, eləcə də başqa şəhərlərdən tamaşaçılar gəlmişdi.

"Leyli və Məcnun"un librettosu ilk dəfə 1912-ci ildə Bakıda, Orucov qardaşlarının mətbəəsində, klaviri 1959-cu ildə, partiturası 1983-cü ildə çap edilmişdir (baş redaktoru Q.Qarayev, redaktoru N.Əliverdibəyov, ön söz və şərhlərin muəllifi Z.Səfərova). 1996-cı ildə "Azərbaycantelefilm" yaradıcılıq birliyində "Leyli və Məcnun" filmoperası çəkilmişdir (rejissorlar Nazim Abbas və Ş.Nəcəfzadə).

"Leyli və Məcnun" operası Türkiyədə, İranda, Özbəkistanda, Türkmənistanda, Gürcüstanda və s. ölkələrdə müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasının şöhrəti Avropanı da fəth etmiş, əsər Fransa səhnəsində də tamaşaya qoyulmuşdur.

Ötən illər ərzində "Leyli və Məcnun" repertuardan düşməmiş, həmişə maraqla tamaşa edilmişdir və bu gün qoca Şərqin opera tarixinin məhz Azərbaycandan başlandığını qürur hissi ilə xatırlayırıq.

Ədəbiyyat

Çəmənli, M. "Leyli və Məcnun" 100 il səhnədə [Mətn] /M.Çəmənli; elmi red. R.Zöhrabov; Azərb. Respub. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: E.L., 2008.- 429 s.

Günay, B. Bu gün "Leyli və Məcnun" operasının ilk dəfə nümayiş olunduğu gündür [Mətn] /B.Günay //Кино+.- 2007.- 12 yanvar.- №1.- S.6.

Həsənova, C. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının səhnəyə qoyulmasının 100 illiyi tamam oldu [Mətn] /C.Həsənov //Xalq qəzeti.- 2008.-25 yanvar.- №17.- S.7.

İnternetdə

www.anl.az

epistolyar.musigi-dunya.az

www.mct.gov.az

Tarixdə bu gün

90 illiyi

“Azərbaycan” jurnalı 1923



Azərbaycan Yazıçılar Birliyinin orqanı olan “Azərbaycan” ədəbi-bədii jurnalının ilk nömrəsi 1923-cü il yanvar ayının 28-də işıq üzü görmüşdür.

“İnqilab və mədəniyyət” adı ilə nəşrə başlayan jurnalının artıq 90 yaşı tamam olur.

Jurnalın 80 illik yubileyi geniş və təntənəli şəkildə qeyd edilmişdir. Ümummmilli lider Heydər Əliyev “ədəbiyyat tariximiz üçün mühüm hadisə olan yubiley münasibətilə” jurnalın əməkdaşlarını təbrik etmiş, məktubunda çox yığcam, cəmi bir neçə cümlə ilə “Azərbaycan” jurnalının 80 illik fəaliyyətini yüksək dəqiqliklə ümumiləşdirmiş, jurnalın məqsəd və vəzifələrini məharətlə mənalandırmışdı. O yazırdı: “Müasir və klassik Azərbaycan ədəbiyyatına əsas yer verən jurnal, eyni zamanda Azərbaycan oxucusunu dünya ədəbiyyatının qiymətli nümayəndələri ilə müntəzəm olaraq tanış etmişdir. Onun səhifələrində ədəbi prosesi əks etdirən tənqidi yazılar, elmi araşdırmalar, publisistika və incəsənətə dair materiallar da geniş yer tutmuşdur. Bütün bunlar “Azərbaycan” jurnalını yarandığı gündən ədəbiyyatımızın güzgüsünə çevirmişdir.”

Əsas məqsədi Azərbaycan ədəbiyyatının, nəzəri ədəbiyyatşünaslığın, ictimai və elmi fikrin, bütövlükdə mədəniyyətin mənzərəsini əks etdirmək, çağdaş dünya ədəbiyyatı və mədəniyyətində gedən proseslərin, mövcud cərəyan və təmayüllərin milli düşüncədə təzahürünü, eyni zamanda qloballaşma şəraitində ədəbiyyat və mədəniyyətimizin milli istiqamətlərinin qorunmasını təmin etməkdir.

Jurnal müxtəlif adlar altında: “Maarif və mədəniyyət” (1923-1927; 1946-1952), “İnqilab və mədəniyyət” (1928-1936), “Revolyusiya və kultura” (1936-1941), “Vətən uğrunda” (1941-1946), nəhayət, 1953-cü ildən bu günə kimi “Azərbaycan” adı ilə nəşr olunmuşdur.

1997-ci ildən etibarən jurnalın baş redaktoru Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi İntiqam Qasımzadədir.

“Azərbaycan” jurnalı özünəməxsus əlamətlərinə görə ölkəmizin ən irihəcmli jurnalıdır. Fəaliyyət göstərdiyi 90 il ərzində onun səhifələrində bu və ya digər əsəri nəşr etdirməmiş Azərbaycan yazıçısını təssəvvür etmək çox çətindir. Jurnal Azərbaycan yazıçılarının - Azərbaycan şair və nasirlərinin, dramaturq, publisist, tənqidçi və ədəbiyyatşünaslarının doğma ocağıdır.

16,8 şərti çap vərəqi həcmində nəşr edilən jurnalın tirajı 1000 nüsxədir.

Ədəbiyyat

"Azərbaycan" - 80: (1923-2003) [Mətn]: biblioqrafik göstərici /tərt. ed. Ə.Əfəndiyev; elmi red. B.Nəbiyev; ixtis. red. Z.Əliyeva; AMEA, Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Çinar-Çap, 2004.- 544 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azyb.net

www.mediateka.musigi-dunya.az

FEVRAL

1 fevral
Gün çıxır 07:51
Gün batır
18:16
28 fevral
Gün çıxır 07:17
Gün batır 18:44



21 yanvar-
18 fevral

Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional, təbiətcə həssas olurlar.

C.	1
Ş.	2
B.	**3**
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	**10**
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	**17**
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	**24**
B.E.	25
Ç.A.	**26**
Ç.	27
C.A.	28

- *Gənclər Günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- **Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992)**
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- **Xocalı Soyqırımı günü (26.02.1992)**

90 il Heydər Əliyev 1923-2003



Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkə kitabxanaları məhv olmaq təhlükəsindən qurtarmış, özəlləşdirmə adı ilə kitabxana binalarının alınması prosesi başa çatmışdı. Hələ 1995-ci il sentyabr ayının 29-da Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" fərmanının birinci bölməsində verilmiş özəlləşdirilməsi qadağan edilən müəssisə və obyektlərin siyahısına kitabxanaların da daxil edilməsi onları özəlləşdirmək və binalarının əllərindən alınması təhlükəsindən azad etmişdi. 1998-ci ildə bilavasitə ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Nazirlər Kabineti "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdi. Ulu Öndər Heydər Əliyev cənablarının mədəniyyətimizə, xüsusilə kitabxanalarımıza göstərdiyi diqqət və qayğının nəticəsi kimi 29 dekabr 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi respublikamızın tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdi.

FEVRAL

2013



Milli ədəbiyyat

Publisist, nasir Süleymanov Şamil İsa oğlunun (03.02.1938) anadan olmasının **75** illiyi

Şair, dramaturq, publisist Mərkəz Qacarın (Quliyev Mərkəz Mikayıl oğlu) (05.02.1948) anadan olmasının **65** illiyi

Yazıçı Əmirov Cəmşid Cabbar oğlunun (10.02.1918-29.12.1982) anadan olmasının **95** illiyi 43

Əməkdar incəsənət xadimi, şair, dramaturq Səfərli İslam Əhməd oğlunun (12.02.1923-06.11.1974) anadan olmasının **90** illiyi 44

Dilçi, türkoloq Cəfərov Cəfər İsmayıl oğlunun (20.02.1938-20.12.1996) anadan olmasının **75** illiyi

Şair, dramaturq, tərcüməçi Vəliyev Əliağa Həsənağa oğlunun (Əliağa Kürçaylı) (20.02.1928-11.02.1980) anadan olmasının **85** illiyi 45

Akedemik Qasımzadə Feyzulla Səməd oğlunun (22.02.1898-29.03.1976) anadan olmasının **115** illiyi 46

Şair, publisist Sərxanlı Səyavuş Əli oğlunun (23.02.1943-2009) anadan olmasının **70** illiyi

Yazıçı, publisist, Azərbaycan və Türkiyənin fəxri professoru İsmayılov Fazil Qaraoğlunun (26.02.1948) anadan olmasının **65** illiyi

Xalq yazıçısı Məmmədxanlı Ənvər Qafar oğlunun (29.02.1913-19.12.1990) anadan olmasının **100** illiyi 47

Dilçi, filologiya elmləri doktoru Mirzəzadə Hadi İsmayıl oğlunun (28.02.1908-17.08.1965) anadan olmasının **105** illiyi



Folklor

Folklorşünas, filologiya elmləri doktoru Abbasov İsrafil İsmayıl oğlunun (01.02.1938) anadan olmasının **75** illiyi



Dünya ədəbiyyatı

Fransız yazıçısı Jül Vernin (08.02.1828-24.03.1905) anadan olmasının **185** illiyi 48

Fransız yazıçısı, tarixçi, şərqşünas-filoloq Renan Jozef Ernestin (28.02.1823-02.10.1892) anadan olmasının **190** illiyi 48



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar memar Hacıbəyov Nazim Məmməd oğlunun (08.02.1928) anadan olmasının **85** illiyi 49

Əməkdar rəssam Hüseynova Elmira Mehralı qızının (12.02.1933-23.01.1995) anadan olmasının **80** illiyi 49

Azərbaycan Dövlət mükafatı laureatı, Beynəlxalq Şərq Akademiyasının fəxri üzvü, memar Axundov Davud Ağa oğlunun (14.02.1918-19.11.2003) anadan olmasının **95** illiyi 50



Musiqi.Opera.Balet

Görkəmli Azərbaycan bəstəkarı və pedaqoqu, akademik, SSRİ Xalq artisti Qarayev Qara Əbülfəz oğlunun (05.02.1918 -13.05.1982) anadan olmasının **95** illiyi 51

Əməkdar artist, tarzən Salahov Baba Əliheydər oğlunun (05.02.1923-12.08.1981) anadan olmasının **90** illiyi

Xalq artisti, professor Babayev Arif İmran oğlunun (20.02.1938) anadan olmasının **75** illiyi 52

Gürcü bəstəkarı, musiqişünas-etnoqraf Arakişvili (Arakçeyev) Dmitri İqnatyeviçin (23.02.1873-13.08.1953) anadan olmasının **140** illiyi



Teatr. Kino

Xalq artisti, aktyor Əzimov Rafiq Əşrəf oğlunun (06.02.1938) anadan olmasının **75** illiyi 53

Xalq artisti, aktyor Əmirzadə Xeyri Osman oğlunun (12.02.1893-17.02.1958) anadan olmasının **120** illiyi

Əməkdar artisti, aktyor Əsgərov Bürcəli Veysəl oğlunun (15.02.1933) anadan olmasının **80** illiyi

Xalq artisti, aktrisa Bəsirzadə Sofiya Bəşir qızının (Vəzirova) (28.02.1918 - 04.01.2000) anadan olmasının **95** illiyi 54



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Mübariz Ağakərim oğlunun (07.02.1988-19.06.2010) anadan olmasının **25** illiyi 55

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Əfqan Qaraxan oğlunun (24.02.1963-01.11.1992) anadan olmasının **50** illiyi 56

Azərbaycanın Milli Qəhrəmanı Rzayev Canpolad Yaqub oğlunun (26.02.1968-26.02.1992) anadan olmasının **45** illiyi 57



Siyasət.Hərbi iş

Artilleriya qoşunları general-leytenantı Ağahüseynov Tofiq Yaqub oğlunun (01.02.1923) anadan olmasının **90** illiyi 58

General-mayor Nuriyev Mustafa Qurban oğlunun (12.02.1923-19.12.1982) anadan olmasının **90** illiyi 59



Tarix

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Mədətov Qaraş Əli oğlunun (12.02.1928-01.07.1993) anadan olmasının **85** illiyi 60



Fəlsəfə.İqtisadiyyat. Hüquq

Akademik Rəcəbli Əhməd Cabbar oğlunun (14.02.1898-15.12.1963) anadan olmasının **115** illiyi

İdman



Beynəlxalq dərəcəli idman ustası Aşumova İradə Süleyman qızının (25.02.1958) anadan olmasının **55** illiyi

Coğrafiya.Geologiya




Akademik, coğrafiyaşünas, publisist, coğrafiya elmləri doktoru, professor Budaqov Budaq Əbdüləli oğlunun (28.02.1928-01.11.2012) anadan olmasının **85** illiyi 61

Riyaziyyat.Fizika.Astronomiya



Fizik, Nobel mükafatı laureatı Ştern Ottonun (17.02.1888-17.08.1969) anadan olmasının **125** illiyi
Polyak astronomu Kopernik Nikolayın (19.02.1473-24.05.1543) anadan olmasının **540** illiyi

Kimya.Biologiya.Tibb



Tibb elmləri doktoru, professor Zeynalova Zərifə Ağarza qızının (03.02.1933-07.07.1989) anadan olmasının **80** illiyi
Biologiya elmləri doktoru, professor Hacıyev Vahid Cəlal oğlunun (14.02.1928-07.04.2008) anadan olmasının **85** illiyi

Texnika



Texnika elmləri doktoru, professor, Əməkdar elm xadimi Məmmədəliyev Məmmədəli Rüstəm oğlunun (12.02.1903) anadan olmasının **110** illiyi

Tarixdə bu gün

Gənclər Günü (02.02.1997)
Ümumdünya Xərçənglə Mübarizə Günü (04.02)



"Mədəniyyət haqqında" qanun qəbul edilmişdir (06.02.1998)
Beynəlxalq Təhlükəsiz İnternet Günü (07.02.2004) 62
Rusiya ilə İran arasında ikinci müharibənin (1826-1828) yekunlarına əsasən Türkmənçay müqaviləsi bağlanmışdır (10.02.1828) 63
Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin ilk separatçılıq çıxışları başlamışdır (12.02.1988)
Azərbaycan Respublikası İordaniya ilə diplomatik əlaqələr qurmuşdur (13.02.1993)
Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992) 64
Keçmiş SSRİ Qriqorian təqviminə keçmişdir (14.02.1918)
Azərbaycanla Sudan (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 28-də tanıyıb) arasında diplomatik münasibətlər yaradılmışdır (16.02.1993)
Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992) 65
Bakıda Dağlıq Qarabağ məsələsi ilə bağlı ilk etiraz mitinqi keçirilmişdir (19.02.1988) 65
Bakı Dairə Məhkəməsi yaradılmışdır (19.02.1868)
Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Sovetinin erməni deputatları qeyri-legitim növbədənkənar sessiya çağıraraq "Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında" qərar qəbul etmişlər (20.02.1988)
Beynəlxalq Ana Dili Günü (21.02.1999) 66
Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hüquqi yardım haqqında saziş imzalanmışdır (21.02.1998) 67
Xocalı Soyqırımı Günü (26.02.1992)
SSRİ xüsusi xidmət orqanları ilə əlbir olan ermənilər Sumqayıt şəhərində iğtişaş törətmişdir (27.02.1988)
Azərbaycanla İslandiya (ölkəmizin müstəqilliyini 1992-ci il yanvarın 29-da tanıyıb) arasında diplomatik münasibətlər qurulmuşdur (27.02.1998)
Naxçıvan Konservatoriyasının (27.02.1998) yaranmasının **15** illiyi

QAN YADDAŞIMIZ!

Vətən torpaqları bizi gözləyir!

1988-ci ilin fevral ayından Ermənistanın Azərbaycana təcavüzünə, Azərbaycan torpaqlarının qəsbkar erməni silahlı qüvvələri tərəfindən işğalına başlanmışdır. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayon işğal edilmişdir.

Beləliklə, Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m²-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir.

İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4,4 000 km²

Xankəndinin işğal tarixi - 28 dekabr 1991-ci il (ərazisi - 1043 km², əhalisi-57000)
Xocalının işğal tarixi - 26 fevral 1992-ci il (ərazisi - 936 km², əhalisi-25332)
Şuşanın işğal tarixi - 8 may 1992-ci il (ərazisi - 289 km², əhalisi-31499)
Laçının işğal tarixi - 17 may 1992-ci il (ərazisi – 1835 km², əhalisi 72 228)
Xocavəndin işğal tarixi - 2 oktyabr 1992-ci il (ərazisi - 1458 km² , əhalisi-41 725)
Kəlbəcərin işğal tarixi - 2 aprel 1993-cü il (ərazisi - 3054 km², əhalisi-85 228)
Ağdərənin işğal tarixi - 7 iyul 1993-cü il (ərazisi - 1705 km², əhalisi-14000)
Ağdamın işğal tarixi - 23 iyul 1993-cü il (ərazisi - 1 154 km², əhalisi-175400)
Cəbrayılın işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1049 km², əhalisi-54430)
Füzulinin işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1386 km² , əhalisi-105000)
Qubadlının işğal tarixi - 31 avqust 1993-cü il (ərazisi - 802 km², əhalisi-37 400)
Zəngilanın işğal tarixi - 29 oktyabr 1993-cü il (ərazisi - 707 km², əhalisi-33900)

Milli ədəbiyyat

95 illiyi

Cəmşid Əmirov 1918-1982

Yazıçı



Cəmşid Cabbar oğlu Əmirov 1918-ci il fevral ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1934-cü ildə Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, eyni zamanda respublika qəzetləri ilə əməkdaşlıq etmişdir. Sonuncu kursda institutu tərk etdiyinə görə öz ixtisası üzrə (mühəndis-geoloq) işləməyə həvəs gös-tərməmişdir.

1937-1940-cı illərdə "Azərbaycan gəncləri" qəzetində məsul katib, 1940-41-ci illərdə "Gənc işçi" qəzetində şöbə müdiri, 1941-ci ildə "Bolşevik" qəzetində məsul katib, 1941-ci ilin mayından dekabrınadək "Əzizbəyovneft" şirkətində mühəndis-geoloq vəzifəsində işləmişdir. İkinci Dünya müharibəsi zamanı ön cəbhədə Sovet Ordusu tərkibində zabit kimi Almaniya, Polşa, Çexoslovakiya, Avstriya və Çində olmuşdur.

Ordudan tərxis ediləndən sonra "Amustral" kombinatının tikintisində fəal iştirak etmişdir. Sonra "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Sovet ticarəti" (Moskva) qəzetində xüsusi müxbir, Azneftnəşrdə baş redaktor, "Azərbaycan neft təsərrüfatı" jurnalında redaktor müavini, "Bakı" qəzetində şöbə müdiri işləmişdir. 1969-1972-ci illərdə Bakı Maliyyə-kredit Texnikumunda direktor olmuşdur. Sonra fərdi təqaüdə çıxmışdır.

Ədəbi yaradıcılığa 1940-cı illərdən oçerk, felyeton və hekayələrlə başlamışdır. Onun ilk mətbu oçerki "Dəqiqələr, saniyələr...", "Azərbaycan gəncləri" qəzetinin 28 avqust 1946-cı il tarixli sayında dərc edilmişdir.

"Sahil əməliyyatı", "Brilyant məsələsi", "Qara "Volqa", "Şəhər yatarkən" və s. detektiv əsərlərin müəllifidir.

İlk dəfə 1958-ci ildə nəşr olunmuş "Sahil əməliyyatı" povesti C.Əmirova az bir vaxtda geniş şöhrət qazandırmışdır. Azərbaycan ədəbiyyatında macəralar janrında yeni olan bu əsər yüksək professionallıqla yazılmış və tez bir zamanda müxtəlif xarici dillərə tərcümə olunmuşdur. "Azərbaycanfilm" kinostudiyası həmin əsər əsasında "İstintaq davam edir" adlı film də çəkmişdir.

"Vətən müharibəsı" (I dərəcəli), "Qırmızı ulduz" ordenləri, "Döyüşdə fərqlənməyə görə", "Königsberqin alınmasına görə", "Berlinin alınmasına görə", "Almaniya üzərində qələbəyə görə", "Yaponiya üzərində qələbəyə görə" medallarına layiq görülmüşdür.

Cəmşid Əmirov 1982-ci il dekabr ayının 29-da vəfat etmişdir.

Ədəbiyyat

Sahil əməliyyatı[Mətn]: povest /C.Əmirov; tərt.: D.Əmirova, İ.Əmirova; red. A.Kənan.- Bakı: Azərnəşr, 2007.- 307 s.

Qara "Volqa" [Mətn] /C.Əmirov; red. İ.Sadıq.- Bakı: Azərnəşr, 1993.- 256 s.

Brilyant məsələsi [Mətn] /C.Əmirov. - Bakı: Azərnəşr, 2008.- 360 s.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www.epistolyar.musigi-dunya.az

www.kinozal.az

90 illiyi

İslam Səfərli 1923-1974

Şair, Dramaturq



İslam Əhməd oğlu Səfərli 1923-cü il fevral ayının 12-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Şəkərabad kəndində anadan olmuşdur. Naxçıvandakı 1 saylı məktəbi (hazırda məktəb şairin adını daşıyır) bitirmişdir. Yaradıcılığa da bu dövrdə başlamışdır. Onun "Nizami yurdunda" adlı ilk şeiri "Ədəbiyyat qəzeti"nin 1940-cı il saylarında dərc olunmuşdur. 1941-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına daxil olmuşdur. Bir il sonra könüllü olaraq Böyük Vətən müharibəsində 456-cı Qızıl Bayraqlı atıcı diviziyasında kəşfiyyatçı olmuşdur, "Qızıl əsgər" və "Qırmızı bayraq" cəbhə qəzetlərində oçerk, məqalə və şeirlərini çap etdirmişdir.

Döyüşlərdə ağır yaralandıqdan sonra ordudan tərxis olunmuş, sonra "Şərq qapısı" qəzetində ədəbi işçi, Naxçıvan radio komitəsində əməkdaş, eyni zamanda "Azərbaycan gəncləri" qəzetinin xüsusi müxbiri işləmişdir.

1946-1951-ci illərdə Azərbaycan Dövlət Universiteti filologiya fakültəsinin jurnalistika şöbəsində təhsilini davam etdirmişdir. Şeir və poemaları dövri mətbuatda çap olunmuşdur. 1951-1952-ci illərdə "Ədəbiyyat qəzeti"ndə poeziya şöbəsinin müdiri olmuşdur.

İslam Səfərli oçerk, novella, libretto və kinossenari, dramaturq, məqalələr müəllifi kimi də tanınmışdır. İslam Səfərli tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, A.S.Puşkin, M.M.Svetlov, S.Marşak, M.Kərim, M.Tursunzadə, K.Koladze, Y.Dolmatovski və başqa tanınmış sənətkarların əsərlərindən müvəffəqiyyətlə tərcümələr etmişdir.

Yüzlərlə şeirinə musiqi bəstələnmiş mahnılar dillər əzbəri olmuş, indinin özündə də sevilə-sevilə dinlənilir.

İslam Səfərlinin adını əbədiləşdirmək məqsədi ilə Xəzər dənizində üzən gəmilərin birinə "İslam Səfərli" adı verilmişdir. Bakının mərkəzi küçələrindən biri şairin adını daşıyır, Bakıda yaşadığı binaya (Həsən Seyidbəyli 30) onun barelyefi - xatirə lövhəsi vurulmuş, Naxçıvanda oxuduğu 1 nömrəli məktəbə onun adı verilmişdir.

İslam Səfərlinin 18 kitabı işıq üzü görmüşdür. Xidmətlərinə görə üçüncü dərəcəli "Şərəf nişanı ordeni" dörd medalla təltif edilmişdir. Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin 1973-cü il 21 mart tarixli Fərmanı ilə "Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür.

Cəmi 51 il ömür sürən İslam Səfərli 1974-cü il noyabr ayının 6-da vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /İ.Səfərli; tərt. ed. H.Səfərli; ön sözün müəl. V.Yusifli.- Bakı: Lider nəşriyyat, 2005.- 224 s.

Bakı, sabahın xeyir! [Mətn]: seçilmiş əsərləri /İslam Səfərli; şerləri topl., tərt. ed. Hidayət Səfərli; red. Sevda Mikayılqızı.- Bakı: Ziya-Nurlan, 2004.- 347 s.

Göz həkimi [Mətn]: pyeslər /İ.Səfərli.- Bakı: Yazıçı, 1980.- 175 s.

İnternetdə

www.adam.az

www..anl.az

www.azerilobbi.com

www.az.wikipedia.org

85 illiyi

Əliağa Kürçaylı 1928-1980

Şair



Əliağa Həsənağa oğlu Vəliyev 1928-ci il fevral ayının 20-də Salyan rayonu Kürqaraqaşlı kəndində doğulmuşdur. Orta məktəbin 9-cu sinfindən çıxmış, 1944-1946-cı illərdə Zaqafqaziya dəmir yolu idarəsinin Salyan şöbəsində mühasib işləmişdir.

1946-1947-cı illərdə Bakı Dəmir yolu Texnikumunda birillik mühasiblər kursunda oxuduqdan sonra baş mühasib olmuş, Salyan Dram Teatrında eyni vəzifəyə dəyişilmişdir.

1946-cı ildə "Azərbaycan gəncləri" qəzetində çap olunmuş "Sənin gözlərin" adlı ilk şeiri ilə ədəbiyyata gəlişi uğurlu olmuş, sonralar mərkəzi və respublika dövri mətbuatında müntəzəm çıxış etmişdir.

1947-ci ildə Salyan radio qovşağında redaktor işləmiş, gənc yazıçıların I Respublika müşavirəsində iştirak etmişdir. Bakıda fəhlə gənclər orta məktəbinin son sinfini bitirmiş, ADU-nun filologiya fakültəsinə daxil olmuşdur.

1949-1954-cü illərdə onu M.Qorki adına Ədəbiyyat İnstitutuna təhsil almağa göndərmiş, lakin səhhəti ilə əlaqədar olaraq geri qayıdıb universitetdə təhsilini davam etdirmişdir.

1953-1955-ci illərdə "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, "Ədəbiyyat və incəsənət" qəzetində şöbə müdiri işləmişdir.

Moskvada ali ədəbiyyat kursunun dinləyicisi (1955-1957), "Azərbaycan gəncləri" qəzeti redaksiyasında şöbə müdiri (1959-1965), "Azərbaycan" jurnalı redaksiyasında məsul katib, Azərbaycan Yazıçılar İttifaqı nəşriyyat şöbəsinin rəisi (1965-1966), "Literaturnıy Azerbaydjan" jurnalı redaksiyasında məsul katib, Azərbaycan Dövlət Nəşriyyatında redaktor (1966-1967) işləmiş, sonra bir müddət yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş, Yazıçılar İttifaqında dramaturgiya bölməsinə rəhbərlik etmişdir (1975).

1978-ci ilin mayından ömrünün sonunadək "Yazıçı" nəşriyyatında baş redaktor kimi çalışmışdır.

Əliağa Kürçaylı 1980-ci il fevral ayının 11-də vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Ə.Kürçaylı; ön sözün müəl. B.Nəbiyev.- Bakı: Şərq-Qərb, 2004.- 400 s.

Əliağa Kürçaylı [Mətn]: Mərhum şair, dramaturq, tərcüməçi Əliağa Kürçaylının həyat yoldaşı xatirələrini anladır //Kaspi.- 2010.- 27-29 noyabr.- S.15; 4-6 dekabr.- S.20- 21.

Hacızadə, N. "Ellər xatırlayar məni...": Əliağa Kürçaylı-80 [Mətn] /N.Hacızadə //Ədəbiyyat qəzeti.-2008.- 11 iyul.- S.3.

Mahmudova, Ş. Əliağa Kürçaylı və poetik tərcümə məsələləri [Mətn]: filol. e. üzrə fəls. d-ru al. dər. a. üçün təq. ed. dis-nın avtoreferatı: 10.01.01 /Ş.Ə.Mahmudova; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.-Bakı, 2009.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www.salyan-mks.az

115 illiyi Feyzulla Qasımzadə 1898-1976

Akademik



Ə d ə b i y y a t

Ədəbiyyat [Mətn]: 9-cu sinif üçün /F.Qasımzadə, M.C.Cəfərov.- Bakı: Maarif, 1983.- 361 s.

XIX əsr Azərbaycan ədəbiyyatı tarixi [Mətn]: ali məktəblər üçün dərslik /F.Qasımzadə.- Bakı: Maarif, 1974.- 488 s.

Feyzulla Qasımzadə [Mətn] //Fikrin karvanı: Görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları /tərt. ed., red. və ön sözün müəl. Elçin.- Bakı, 1984.- S.25.

Məmmədzadə, B. Feyzulla Səməd oğlu Qasımzadə: Ömrün yüz ili: Həyat və yaradıcılıq yolu; şəxsiyyəti və yaradıcılıq siması [Mətn] /B.Məmmədzadə; elmi red. Ş.Salmanov.- Bakı: Azərbaycan Universiteti, 2001.- 50 s.

İ n t e r n e t d ə

www..anl.az

www.adam.az

www.az.wikipedia.org

Feyzulla Səməd oğlu Qasımzadə 1898-ci il fevral ayının 22-də keçmiş Bakı quberniyası Bakı qəzasının Mərdəkan kəndində doğulmuşdur. 1906-cı ildə mollaxanada, 1909-1912-ci illərdə Mərdəkan kənd ibtidai məktəbində təhsil almış, sonra 1912-1916-ci illərdə Bakı şəhər ali-ibtidai məktəbini bitirmişdir.

Əmək fəaliyyətinə Bakı "Kazyonnaya palata" müəssisəsində başlamış (1916), axşam gimnaziyasında təhsilini davam etdirmiş, 1917-ci ilin yanvarından Göyçay qəzasının Qazıyan kənd ibtidai məktəbində, həmin ilin sentyabrında isə Mərdəkan kənd ibtidai məktəbində dil və ədəbiyyat müəllimi olmuşdur.

1923-1925-ci illərdə APİ-də (indiki APU) təhsilini davam etdirmiş, N.Nərimanov adına texnikumda müəllim olmuş, 1926-1929-cu illərdə ADU-nun şərqşünaslıq fakültəsini bitirmiş, eyni zamanda 1928-1929-cu illərdə Bakı Pedaqoji texnikumunda dil və ədəbiyyat müəllimi işləmişdir.

1929-1931-ci illərdə APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında assistent, Azərbaycan Dövlət Elmi tədqiqat İnstitutunda aspirant olmuşdur. 1931-1938-ci illərdə Xalq Maarifi komissarlığında metodist-təlimatçı vəzifəsində çalışmış və metodiki məqalələr çap etdirmişdir. Bu dövrdə tənqidçilik fəaliyyətinə başlamışdır.

Onun ilk mətbu məqaləsi (Hacıağa Qənizadənin "Utanıram" hekayəsi haqqında) 1931-ci ildə "Hücum" jurnalında dərc edilmişdir. İlk kitabı - "M.F.Axundovun həyat və yaradıcılığı" 1939-cu ildə "Azərnəşr"də çapdan çıxmışdır. 1937-1938-ci illərdə SSRİ EA Azərbaycan filialı Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1938-1939-cu illərdə APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, müdiri (1959), 1940-1942-ci illərdə ADU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, müdiri olmuşdur.

1957-ci ilin martından ADU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru idi. Üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin 2-ci cildinin (1969) əsas müəlliflərindən biridir. O, 30 elmlər doktoru və 120 elmlər namizədi yetişdirmişdir. 600-ədək çap edilmiş elmi əsərlərin, onlarla dərslik və monoqrafiyaların müəllifidir.


1943-cü ildə Azərbaycanın Əməkdar müəllimi, iki dəfə "Qırmızı Əmək Bayrağı" (1953, 1967) ordeni, "Qabaqcıl maarif xadimi" nişanı və medallarla təltif edilmiş, 1956-cı ildə filologiya elmləri doktoru, 1957-ci ildə professor, 1958-ci ildə Azərbaycanın Əməkdar elm xadimi, 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1967-ci ildə həqiqi üzvü olmuşdur.

Feyzulla Qasımzadə 1976-cı il mart ayının 29-da vəfat etmiş, Mərdəkan kəndində dəfn edilmişdir.

100 illiyi

Ənvər Məmmədxanlı 1913-1990

Yazıçı



Ənvər Qafar oğlu Məmmədxanlı 1913-cü il fevral ayının 28-də Göyçay şəhərində doğulmuşdur. Burada ibtidai məktəbi bitirdikdən sonra Bakıda N.Nərimanov adına Sənaye Texnikumunda təhsil almışdır (1926-1931). 1931-1934-cü illərdə Bakıda mexaniki zavodda, energetika və elektrikləşdirmə idarəsində texnik, Azərbaycan Neft İnstitutu nəzdində olan elmi-tədqiqat institutunda texnik-elektrik işləmişdir. Eyni zamanda Azərbaycan Neft İnstitutunda iki il qiyabi təhsil almışdır. 1934-1936-cı illərdə "Azərnəşr"in bədii şöbəsində redaktor və tərcüməçi, 1936-1938-ci illərdə Moskvada Ali Kinematoqrafiya İnstitutunda müdavim, 1941-1942-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi olmuşdur. İkinci Dünya müharibəsi dövründə cənub-qərb cəbhəsində "Qızıl Ordu" cəbhə qəzetinin Azərbaycan redaksiyasının xüsusi müxbiri olmuşdur. Sonra redaksiya ilə birlikdə Stalinqrada göndərilmişdir. 1942-ci ilin axırlarında bir qrup Azərbaycan yazıçısı ilə Şimali Qafqaz cəbhəsində, 416-cı diviziyada olmuşdur. 1943-1944-cü illərdə Bakıda Azərbaycan Radio Verilişləri Komitəsində redaktor kimi çalışmışdır. Yenidən Zaqafqaziya cəbhəsinə, oradan İrana hərbi xidmətə göndərilmişdir. Təbrizdə nəşr olunan "Vətən yolunda" ordu qəzeti redaksiyasında xüsusi müxbir kimi çalışmışdır (1944-1946). Ordudan tərxis ediləndən sonra 1946-1964-cü illərdə "Azərbaycanfilm" kinostudiyasının ssenari redaksiya heyətinin baş redaktoru olmuşdur.

Ədəbi fəaliyyətə 1930-cu illərdən başlamışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Şərqin səhəri" (1947), "Od içində" (1951) pyesləri və "Şirvan gözəli" (1957) lirik komediyası tamaşaya qoyulmuşdur. "Şirvan gözəli" Zaqafqaziya teatr baharında birinci dərəcəli diploma layiq görülmüşdür. 1957-ci ildə onun Akademik Dram Teatrında tamaşaya qoyulan "Şərqin səhəri" əsəri SSRİ Dövlət mükafatına layiq görülmüş, amma mükafat alanların siyahısında müəllifin adı olmamışdır.

Ə.Məmmədxanlı Avropa və rus klassik yazıçılarından tərcümələr etmişdir. Kuba (1967), Türkiyə (1968), İspaniyada (1980) Sovet nümayəndə heyəti tərkibində səfərdə olmuşdur. Xidmətlərinə görə Azərbaycanın Əməkdar İncəsənət xadimi (1963), Azərbaycan Xalq yazıçısı (1987) iki dəfə "Şərəf nişanı" (1946-1949), "Qırmızı Əmək bayrağı" (1980-1983) və "İkinci Dünya müharibəsi" (ikinci dərəcəli) ordenləri, döyüş medalları ilə təltif olunmuşdur.

Ənvər Məmmədxanlı 1990-cı il dekabr ayının 19-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Ə.Məmmədxanlı.- Bakı: Avrasiya Press, 2005.- 416 s.

Seçilmiş əsərləri [Mətn]: 2 cilddə /Ə.Məmmədxanlı; [red. Z.Əsgərova].- Bakı: Yazıçı, 1985.- C.I.- 291 s.; C.II.- 323 s. .

Eyyubqızı, M.Ə. Məmmədxanlı və Azərbaycan nəsrində lirik-romantik üslub [Mətn] /M.Eyyubqızı; red. və ön söz. müəl. B.Nəbiyev.- Bakı: Nurlan, 2002.- 117 s.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www.kinozal.az

www.azyb.net

FEVRAL

8

Dünya ədəbiyyatı

185 illiyi

Jül Vern
1828-1905

Fransız yazıçısı

Jül Qabriel Vern 1828-ci il fevral ayının 8-də anadan olmuşdur. Fransız yazıçısı, ədəbiyyatda elmi fantastika janrının ən görkəmli nümayəndələrindən biridir.

Ona dünya şöhrəti gətirmiş əsərlərindən "Yerin mərkəzinə səyahət" (1864), "Kapitan Qrantın uşaqları" (1867), "20 000 lye su altında" (1870), "80 gün dünya ətrafında" (1873) və s. romanlarını göstərmək olar. Kosmik və sualtı gəmilərin hələ ixtira olunmadığı bir dövrdə əsərlərində bir qayda olaraq kosmosa uçuş, Yerin dərinliklərinə səyahət və bu səpgili macəraları qələmə almışdır. Elə buna görə də Ayın yerdən görünməyən hissəsindəki kraterlərdən birinə onun adı verilmişdir. Bu krater "Arzular dənizi"nin yanında yerləşir.

O, YUNESKO-nun Index Translationum adlı, bütün dövrlərin ən çox tərcümə edilmiş müəllifləri siyahısında ikinci yerdə qərarlaşıb. Bir çox əsərlərinin motivləri əsasında filmlər çəkilmişdir. Jül Vern elmi fantastika janrının "ataları"ndan sayılır.

Jül Vern ümumilikdə 66 romanın (bunlardan üçü - "Keşiş 1839-cu ildə" (1991), "Robinzon dayı" (1991) və əfsanəvi "Paris XX əsrdə" (1994) ölümündən sonra nəşr edilmişdir), 20-dən artıq povest və hekayənin, 30-dan artıq pyes və bir neçə elmi və sənədli işin müəllifidir.

Jül Vern 1905-ci il mart ayının 24-də (77 yaşında) Fransada vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /J.Vern; tərc. ed. M.Təhmasib, M.Mustafayev, Ə.Ağayev; ön söz. müəl. C.Nağıyev; red. N.Əbdülrəhmanlı.- Bakı: Şərq-Qərb, 2009.- 591, [1] s.

28

190 illiyi

Renan Jozef Ernest
1823-1892

Fransız yazıçısı



Jozef Ernest Renan 1823-ci il fevral ayının 28-də Fransada anadan olmuşur.

Tanınmış fransız tarixçisi, yazıçı və şərqşünas Jozef Ernest Renan "İsa peyğəmbər və həvariləri haqqında", "İsanın həyatı", "Müqəddəs Pavel", "Antixrist", "Yəhudi xalqının tarixi" (5 cilddə) və s. kitabların müəllifidir.

Renan 1892-ci il oktyabr ayının 2-də Parisdə 69 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Марк Аврелий и конец античного мира [Текст] /Э.Ренан; [пер. с фр. В.А.Обручева; ответ. за вып. И.Д.Коновалов].- Москва: Изд. центр "Терра", 1991.- 347, [2] с.

www..anl.az

www..ru.wikipedia.org

85 illiyi — Nazim Hacıbəyov 1928

Memar

Nazim Məmməd oğlu Hacıbəyov 1928-ci il fevral ayının 8-də Bakıda anadan olmuşdur.

1951-ci ildə Daşkənddə Orta Asiya Politexnik İnstitutunu (Daşkənd Politexnik İnstitutu) bitirmişdir. 1950-1960-cı illərdə Özbəkistan SSR-də işləmiş, onun layihəsi ilə Daşkənddə "Cağatay" istirahət evi, Fərqanədə "Fərqanə" mehmanxanası, Kislovodskda "Özbəkistan" sanatoriyası və s. binalar tikilmişdir.

XX əsrin 60-cı illərinin axırlarından Bakıda işləmişdir. 1970-1983-cü illərdə Bakı şəhərinin planlaşdırılması və Mülki-Mənzil Tikintilərinin Layihə İnstitutunun ("Bakıdövlətlayihə") direktoru, 1983-cü ildən Azərbaycan Memarlar İttifaqı İdarə Heyəti sədrinin birinci müavini olmuşdur. Əhmədli yaşayış massivinin tikintisi (müştərək layihə;1970-1972), Bakıda "Gülüstan" sarayı kompleksi (müştərək layihə;1980) əsas işlərindəndir.

1979-cu ildə Azərbaycanın Əməkdar memarı adına layiq görülmüşdür. 1982-ci ildə Dövlət mükafatı laureatı, 2000-ci ildə Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2003-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Nazim Məmməd oğlu Hacıbəyov [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1987.-C.X.-S.147.

www..anl.az

12 — 80 illiyi — Elmira Hüseynova 1933-1995

Rəssam



Elmira Mehralı qızı Hüseynova 1933-cü il fevral ayının 12-də Bakıda anadan olmuşdur.

O, 1954-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini və 1960-cı ildə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir. Heykəltəraşlığın məişət və portret janrlarında çalışırdı.

Rəssam monumental heykəltəraşlıq sahəsində də fəaliyyət göstərmişdir.

1967-ci ildə Hüseynova Elmira Mehralı qızına Azərbaycanın Əməkdar rəssamı adı verilmişdir.

Görkəmli heykəltaraş 1995-ci il yanvar ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Hüseynova Elmira Mehralı qızı [Mətn] //Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.- S.177.

Hüseynova Elmira Mehralı qızı [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1987.- C.X.- S.290.

www..anl.az

95 illiyi

Davud Axundov 1918-2003

Memar



Davud Ağa oğlu Axundov 1918-ci il fevral ayının 14-də Bakı şəhərində anadan olmuşdur.

1942-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

Beynəlxalq Şərq Akademiyasının fəxri üzvü olan Davud Axundov tarixi abidələrin bərpası istiqamətində böyük işlər görmüşdür. 1942-ci ildən layihəçi-memar kimi əmək fəaliyyətinə başlamış, Bakıda, Sumqayıtda, Ağdamda, Mingəçevirdə və digər şəhərlərdə bir sıra yaşayış binalarının müəllifi olmuşdur.

1949-1963-cü illərdə onun layihələri əsasında Bakı Krasnovodsk (indiki Türkmənbaşı), Mahaçqala, Həştərxan və s. şəhərlərdə 100-dən artıq çoxmərtəbəli yaşayış evləri (əsasən Bakıda) yataqxana, klub, sənaye binaları tikilmişdir.

1963-cü ildə Azərbaycan Politexnik İnstitutunda çalışmış, 1968-ci ildə namizədlik, 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1970-2003-cü illərdə Memarlıq konstruksiyaları kafedrasının müəllimi olmuşdur. Axundov qədim Azərbaycan memarlığının nəzəri məsələlərinə dair bir çox elmi əsərin müəllifidir. Qafqaz Albaniyasının bütpərəstlik və xristianlıq dövrü memarlığının ilk tədqiqatçısı olan Axundov memarlıqda bu istiqamətin əsasını qoymuşdur. Onun "Qədim və orta əsrlər Azərbaycan memarlığı" (1986, rus dilində) adlı monoqrafiyasında Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının inkişaf mərhələləri araşdırılmışdır.

Davud Axundov islamaqədərki və ondan sonrakı dövrün memarlıq abidələri ilə bağlı elmi araşdırmalar aparmışdır.

Uzun illər alimlər Qız qalasının nə məqsədlə tikildiyi və onun tarixi barədə mübahisələr aparılmışdır. Alim-arxitektor, professor Davud Axundov yeni sensasiyaya səbəb olan nəzəriyyə irəli sürmüşdür. Onun nəzəriyyəsinə görə Bakının simvolu olan – Qız qalası - əslində zərdüştlük məbədi və qədim rəsədxanadır. Bu fikir qalanın əvvəl qəbul olunmuş, tikilmə məqsədi təsəvvürlərinin tam əksi idi.

Qədim Qafqaz Albaniyasının mədəniyyətinə və incəsənətinə aid olan çoxlu sayda elmi işlərin müəllifi, professor Davud Axundov kompyuter texnologiyalarının köməyi ilə qalanın tarixi barədə yeni baxışa nail olmuşdur.

Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə 1990-cı ildə Dövlət mükafatı laureatı olmuş, 2002-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, elə həmin ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Davud Ağa oğlu Axundov 2003-cü il noyabr ayının 19-da vəfat etmişdir.

Ədəbiyyat

Архитектура древнего и раннесредневекового Азербайджана [Текст] /Д.А.Ахундов.- Баку: Азербайджанское государственное издательство, 1986.

К вопросу о "спорных" моментах в истории культуры Кавказской Албании [Текст] /Ахундов Д.А., Ахундов М.Д. //Известия АН АзССР. Литература, язык и искусство.- 1986.- №2.- С.104-115.

Axundov Davud Ağa oğlu [Mətn] //Azərbaycan Milli ensiklopediyası: çoxcildli.- Bakı,2009.- C.I.- S.217.

İnternetdə

www..anl.az

az.wikipedia.org

www.selydoull.info

95 illiyi

Qara Qarayev 1918 -1982

Bəstəkar



Ədəbiyyat

Fortepiano əsərləri [Notlar] /Q.Qarayev; red. və komp. not qrafikası F.Qarayev, X.Novruzov; dizayn M.Qarayeva.- Bakı: E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008.- 112, [4] s.

Abbaslı, T. Qara Qarayev: Dahilər bütün dünyaya məxsusdur [Mətn] /T.Abbaslı //Mədəniyyət.- 2011.- 4 fevral.- S.7.

Qara Qarayev [Mətn]: biblioqrafiya /ixt. red. və burax. məsul K.Tahirov; elmi red. və ön söz. müəl. Z.Səfərova; red. G.Səfərəliyeva; tərt. ed. R.Orucəliyeva, H.Haşımova, Y.Sadıqova, P.Qurbanova; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- 332 s.

İnternetdə

www.az.wikipedia.org

qara-qarayev.musigi-dunya.az

Qara Əbülfəz oğlu Qarayev 1918-ci il fevral ayının 5-də Bakı şəhərində, gör-kəmli həkim, professor Əbülfəz Fərəc oğlu Qarayevin ailəsində anadan olmuşdur.

O, ilk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki fəhlə fakültəsində almış, daha sonra bəstəkarlıq üzrə professor Rudolfdan və Azərbaycan xalq musiqisinin əsasları üzrə Ü.Hacıbəylidən dərs almışdır. 1941-ci ildə Q.Qarayev Cövdət Hacıyevlə birgə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında professor D.D.Şostakoviçin bəstəkarlıq sinfində təhsilini davam etdirmişdir.

Bəstəkarın şah əsərləri - "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri, "Leyli və Məcnun" simfonik poeması ölkəmizin hüdudlarından çox-çox uzaqlarda - keçmiş Sovetlər məkanının müxtəlif şəhərlərində, habelə Misir, Bolqarıstan, Rumıniya, Çexoslovakiya və b. ölkələrin səhnələrində tamaşaya qoyulmuş, müxtəlif beynəlxalq festivallarda ifa olunmuş qrammafon vallarına yazılmışdır. Ü.Hacıbəylidən sonra milli musiqimizin və Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında əvəzsiz xidmətlər göstərən Q.Qarayev öz əsərləri ilə Azərbaycanın sərhədlərini aşaraq dünya şöhrəti qazanmışdır.

XX əsrin görkəmli bəstəkarı, ictimai xadim və pedaqoqu, dərin düşüncəyə malik, intellektual musiqiçi – alim və publisist Q.Qarayevin bir tək Azərbaycan musiqisinin deyil, bütövlükdə müasir bəstəkar yaradıcılığının inkişafındakı rolu əvəzsizdir. Onun özünəməxsus yaradıcılığı Azərbaycan mədəniyyətini dünyəvi musiqi prosesi ilə birləşdirən körpü rolunu oynamışdır.

Q.Qarayevin görkəmli ictimai musiqi xadimi kimi səmərəli fəaliyyəti çox diqqətəlayiqdir. O, uzun illər SSRİ Bəstəkarlar İttifaqının katibi, 1952-ci ildən ömrünün sonuna qədər Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki, 1955-1976-cı illərdə IV-IX çağırışlar SSRİ Ali Sovetinin deputatı olmuşdur.

35 il Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının professoru kimi pedaqoji fəaliyyət göstərən Q.Qarayev 70-ə qədər professional bəstəkar yetişdirmişdir.

XX əsr Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə SSRİ Dövlət mükafatı laureatı, "Əməkdə igidliyinə görə" medalı, 1955-ci ildə Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi, 1958-ci ildə Azərbaycan SSR-in Xalq artisti, 1959-cu ildə SSRİ Xalq artisti, 1961-ci ildə "Qırmızı Əmək Bayrağı", 1967-ci ildə "İldırımlı yollarla" baletinə görə Lenin mükafatı, 1971-ci ildə "Oktyabr inqilabı" ordenləri ilə mükafatlanmış, 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adını almışdır.

Qara Qarayev 1982-ci il may ayının 13-də vəfat etmişdir.

75 illiyi

Arif Babayev 1938

Xanəndə



Arif İmran oğlu Babayev 1938-ci il fevral ayının 20-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur.

O, Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır.

Özündən əvvəlki böyük xanəndələrin lent yazılarını və vallarını, müasirlərinin ifasını dinləyərək muğamın sirlərinə yiyələnmişdir. Klassik muğamları dərindən öyrənərək və Qarabağ xanəndəlik məktəbinin mədəni ənənələrini yaradıcı şəkildə davam etdirərək Arif Babayev ancaq özünəməxsus olan ifaçılıq üslubu yaratmışdır.

1960-cı ildən Arif Babayevin yaradıcılıq bioqrafiyası Bakı şəhəri ilə bağlıdır. O, 1962-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunu bitirmiş, 1963-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında işləməyə başlamışdır.

1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrına dəvət almışdır.

Arif Babayev bu teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm (Ü.Hacıbəyli "Leyli-Məcnun", "Əsli və Kərəm"), Aşıq Qərib (Z.Hacıbəyov "Aşıq Qərib"), Camal (Ş.Axundova-"Gəlin qayası") kimi yaddaqalan obrazlar yaratmışdır. Arif Babayevin ifasında bütün muğam dəstgahlar səslənmiş və lentə alınaraq AzTR Fonduna daxil edilmişdir. Xalq mahnıları, "Şur", "Segah" muğam dəstgahları, "Arazbarı", "Qarabağ şikəstəsi" zərb muğamları onun repertuarının əsasını təşkil edir. Xanəndə həm də təsnif və xalq mahnılarının ifaçısı kimi çox sevilir. Arif Babayevin 70 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən xanəndənin səsyazılarından, həyat və yaradıcılıq yolunu əks etdirən şəkillərdən ibarət CD-albom nəşr olunmuşdur.

1982-ci ildə ilk muğam müəllimi kimi Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, 1984-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında çalışmışdır.

1990-cı ildə tarixdə ilk dəfə muğam professoru elmi adı almışdır. Hazırda Milli Konservatoriyanın Muğam kafedrasının müdiridir. O, eyni zamanda Xəzər Universitetində muğam dərsi də verir.

Arif Babayev 1998-ci ildə "Şöhrət ordeni", 2008-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Xalq artistidir.

Ədəbiyyat

Əfəndiyeva, R. Vətəndir Arifin səsi [Mətn] /R.Əfəndiyeva.- Bakı: Nurlan, 2006.- 192 s.


Qarabağ xanəndələri [Elektron resurs] /layih. rəhb. və müəl. YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva; layih. koord. T.Məmmədov; layih. iştirakçıları: Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkəti; Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi; Azərbaycan Dövlət Səsyazmalar Arxivi.- Bakı, 2005.- 24 elektron. opt. disk (CD).

Rəhimli, İ. Segah yanğısı [Mətn]: Azərbaycan SSR Xalq artisti Arif Babayev haqqında /İlham Rəhimli; red. Q.Aslanov; ön sözün müəl. H.Turabov.- Bakı: İşıq, 1991.- 156 s.

www..anl.az

75 illiyi Rafiq Əzimov 1938

Aktyor



Rafiq Əşrəf oğlu Əzimov 1938-ci il fevral ayının 6-da Bakıda anadan olmuşdur. Burada 44 saylı orta məktəbdə təhsil almışdır.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram bədii kino aktyorluğu fakültəsinə daxil olmuşdur. İxtisas təhsilini görkəmli rejissor, Xalq artisti Məhərrəm Haşımovdan almışdır.

1962-ci il sentyabr ayının 10-da Akademik Milli Dram Teatrının truppasına qəbul olunmuşdur. O, qırx ildən çoxdur ki, fasiləsiz olaraq bu teatrın səhnəsində çalışır.

Aktyor uzun illər Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Mədəniyyət Evinin nəzdindəki "Damğa" teatrının rəhbəri olmuşdur. Burada məsxərə, məzhəkə, səhnə felyetonu, qəzet-publisistika janrında kiçik həcmli, satirik tamaşalar hazırlamışdır. Eyni zamanda Şıxəli Qurbanovun "Sənsiz", İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər", Nahid Hacızadənin "Məhəbbət yaşadır" dramlarına səhnə quruluşu vermişdir.

Rafiq Əzimov Azərbaycan Dövlət Televiziyasında "Ömrün kino səhifələri" silsilə verilişlərinin aparıcısı olmuşdur. "Lider" televiziyasında Seyid Əzim Şirvani haqqında "Aləmdə qalan səs", "Mirzə Ələkbər Sabir", "Aşıq Molla Cümə", "Səməd Mənsur", Abbasqulu ağa Bakıxanov barədə "Sonuncu orden" telefilmlərində aparıcı rollarına çəkilmişdir.

Rafıq Əzimov əsasən epizodik rollar ifa etsə də, hər təzə teatr mövsümündə repertuarla daha çox məşğul olan aktyorlardan sayılır. Tələbə vaxtı Akademik teatrın tamaşalarının kütləvi səhnələrində oynayan aktyor kollektivə üzv olanda əvvəlcə repertuardakı hazır tamaşalara əlavə ifaçı kimi daxil edilmiş, 14 iyun 1963-cü ildə ilk müstəqil rolunu - Kalandarionu ("Dəlilər" tamaşasında) oynamışdır.

Teatr aktyoru olan Rafiq Əzimov eyni zamanda "Azərbaycanfilm" kinostudiyasında "Yeddi oğul istərəm" (Şahsuvar), "Xatirələr sahili" (Vəli), "Qızıl qaz" (Gündüz), "Ömrün ilk günü" (Sadıq), "1001 -ci qastrol", "Arxadan vurulan zərbə" (müstəntiq Hüseynov), "Babək" (Saray şairi), "Ad günü" (Səlim), "Lenfilm"də "Mənim əziz atam" (Əli dayı) və s. filmlərə çəkilmişdir.

Azərbaycan Dövlət Televiziyasında hazırlanan Süleyman Saninin "Dibdat bəy" (Dibdat bəy), İslam Səfərlinin "Göz həkimi" (İvanov), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında "Ordan-burdan" (İsmayıl) teletamaşalarında oynamışdır.

Sənətdə qazandığı nailiyyətlərə görə Rafiq Əzimov 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2000-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Əhmədova, C. Rafiq Əzimov - Səhnəmizin əzmkar sənətkarı [Mətn] /C.Əhmədova //525-ci qəzet.- 2011.- 21 may.- S.19.

Rəhimli, R. Yeddi oğuldan biri [Mətn] /R.Rəhimli //Azərbaycan.-2008.- 18 aprel.-S.7.

Rafiqqızı, N. Rafiq Əzimov yeni filmə çəkilir: Aktyor yaradıcılığındakı yenilikləri eksklüziv olaraq "Olaylar"a danışdı [Mətn] /N.Rafiqqızı //Olaylar.-2009.- 17 dekabr.- S.11.

İnternetdə

www..anl.az

www.adam.az

www.az.wikipedia.org

www.mct.gov.az

95 illiyi

Sofiya Bəsirzadə
1918 - 2000

Aktrisa



Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova) 1918-ci il fevral ayının 28-də Kazan quberniyasının köhnə Çukan kəndində doğulmuşdur. İki yaşında olanda ailəsi Bakıya köçmüş və Sofiya xanım azəri türkcəsini mükəmməl öyrənmişdir. Bakıdakı 3 saylı beynəlmiləl məktəbdə ibtidai təhsil almışdır. Sonra 134 saylı məktəbdə orta təhsilə yiyələnmişdir. Yuxarı siniflərdə oxuyanda dram dərnəyinə üzv olmuşdur. Əsl soyadı Vəzirova olsa da atasının nəsil şəcərəsinə görə tamaşaçılar arasında "Bəsirzadə" kimi tanınmışdır. Bəzi proqram və afişalarda adı "Sofa" kimi də yazılmışdır. Teatr kollektivində də ona "Sofa xanım" deyə müraciət etmişlər. Səhnədə bir-iki cümləsi olan personajlar da ifa etmiş, xarakterik dramatik obrazlar da oynamışdır. Əsas cəhət odur ki, aktrisanın daxili imkanlarının zənginliyi müxtəlif səpgili rolların ifası üçün yararlı idi. Səhnə görkəminin təravəti həmişə göz oxşamış, çevik plastikası heyranlıq doğurmuşdur.

1936-cı ildə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbinə daxil olmuşdur. Həmin ilin noyabrından başlayaraq AMDT-nın tamaşalarında kütləvi səhnələrdə, epizodik rollarda səhnəyə çıxmışdır. 1938-ci il sentyabr ayının 1-də, üçüncü kursda oxuyarkən tələbə-aktrisa AMDT-nın aktyor truppasına qəbul edilmişdir. Yüzdən çox obrazın ifasında səhnəyə çıxan Sofa Bəsirzadənin Nisə xanım ("Lənkəran xanının vəziri", M.F.Axundzadə), Sevər, Gülgün, Tanya, Gülsabah, Gülnisə ("Oqtay Eloğlu", "Od gəlini", "Yaşar", "Dönüş" və "Solğun çiçəklər", C.Cabbarlı), Nina, Rübabə ("Şeyx Sənan" və "Səyavuş", H.Cavid), Məryəm, Tamara, Tatyana ("Fərhad və Şirin", "Vaqif" və "İnsan", S.Vurğun), Səadət ("Müsibəti-Fəxrəddin", N.Vəzirov), Xanın qızı, Pəri cadu ("Köhnə dudman" və "Pəri cadu", Ə.Haqverdiyev), Anna Dmitriyevna ("Canlı meyit", L.Tolstoy), Fedra, Esrelya ("Dəlilər", "Sevilya ulduzu", L.Veqa), Aybəniz ("Cavanşir", M.Hüseyn), Peyanira ("Mehmanxana sahibəsi", K.Haldoni) və s. rolları ifadə vasitələrinin zənginliyi baxımından hər zaman seçilmişlər. Sofiya Bəsirzadə ondan artıq bədii filmə çəkilmiş, teatr səhnəsində 62 ildən çox fəaliyyət göstərmişdir.

1992-ci ildən ömrünün son illərinədək o, Bakı Bələdiyyə teatrında çalışmışdır.

30 aprel 1955-ci ildə Azərbaycanın Əməkdar artisti, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adı ilə təltif edilmişdir. Sofiya Bəsirzadə 2000-ci il yanvar ayının 4-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Mehdiyeva, K. Sofiya Bəsirzadə yaradıcılığı aktyor oyununun prinsipləri konteksində [Mətn] /K.Mehdiyeva //Mədəniyyət dünyası.-№11.- 2006.- S.157-168.

Rafiqqızı, N. Çöldə tapşırıldın torpağa, yerə... Evdə hara baxdım yerin göründü: Xalq artisti Sofa Bəsirzadənin əziz xatirəsinə [Mətn] /N.Rafiqqızı //Olaylar.-2009.-3 mart.- S.14.

"Sofa, sən aktrisa olacaqsan": Bu gün Xalq artisti Sofa Bəsirzadənin xatirə günüdür [Mətn] //Mövqe.- 2011.- 8 fevral.- S.13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

25 illiyi

Mübariz İbrahimov 1988-2010

Milli Qəhrəman



Mübariz Ağakərim oğlu İbrahimov 1988-ci il fevral ayının 7-də Biləsuvar rayonu Əliabad kəndində anadan olmuşdur. 1994-2005-ci illərdə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbində təhsil almışdır. 2005-ci ildə hərbi xidmətə çağırılmış, xidmətinə Daxili Qoşunların N saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə başlamışdır. Xidməti zamanı çavuş rütbəsi almış və xidmətini 2007-ci ildə bitirmişdir. Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında öz arzusu ilə yenidən hərbi xidmətə yollanmış, bu dəfə artıq gizir kimi xidmətə başlamışdır. 2010-cu ilin aprel ayından Tərtər rayonundakı N saylı hərbi hissəsində xidmətini davam etdirmişdir. Ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi və Xocalıda törətdikləri soyqırım Mübarizin qəlbini göynətmiş və düşmənə qarşı nifrətini artırmışdır. Nəhayət, ömrünün ən gənc çağında 22 yaşında, 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində M.İbrahimov əməliyyata başlamışdır. 22 yaşlı bu mərd oğul 1 km-lik neytral məsafəni (minalanmış sahəni) tək keçmiş və mənfur düşmənlərimizin çoxlu sayda əsgər və zabitini elə birinci həmlədə məhv etmiş, sonra isə düşmənin öz silahlarını özünə istifadə edərək 5 saat tək döyüşmuşdür. Düşmən ağır itkilərə məruz qalmışdır. İgid vətən oglu bu döyüşdə, 19 iyun 2010-cu il tarixində qəhrəmancasına həlak olmuşdur.

Bakı şəhərindəki 2-ci Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2010-cu il tarixli Fərmanı ilə İbrahimov Mübariz Ağakərim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Biləsuvar rayonunda bir məktəb və mərkəzi küçələrdən biri qəhrəmanın adını daşıyır. Oxuduğu orta məktəbdə xatirə muzeyi yaradılmışdır. Dünya sularında üzən tankerlərdən biri onun şərəfinə adlandırılmışdır.

Milli Qəhrəman Çingiz Mustafayev Fondu və "ANS" Şirkətlər Qrupu Azərbaycanın ərazi bütövlüyü uğrunda göstərdiyi şəxsi fədakarlığa, döyüş tapşırığını yerinə yetirərkən nümayiş etdirdiyi yüksək peşəkarlığa, Azərbaycan xalqının döyüş ruhunun sarsılmazlığını sübut etdiyinə, qəhrəmancasına şəhid olub şəxsi nümunəsi ilə cəmiyyətdə vətənpərvərlik ruhunu daha da möhkəmləndirdiyinə, Azərbaycan döyüşçüsünün Qarabağın işğalı ilə heç vaxt barışmayacağını bəyan edən dövlətimizin iradəsini nəyin bahasına olursa-olsun yerinə yetirməyə hazır olduğunu sübut etdiyinə görə, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu "2010-cu ilin adamı" elan etmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [Mətn] //Azərbaycan.-22 iyul.-2010.-S.1.-(ölümündən sonra)

Azərbaycanın Mili Qəhrəmanı M.A.İbrahimovun xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22 iyul 2010-cu il [Mətn] //Azərbaycan.-22 iyul.- 2010.-S.1.

Əliyev, E. Böyük qəhrəmanlıq haqqında yığcam teletarixçə: Milli Qəhrəman Mübariz İbrahimov haqqında ilk sənədli film uğurlu alınıb [Mətn] /E.Əliyev //Azərbaycan işıqları.-2010.- 27avqust.- S.4.

Canıyar, Y. Turan mübarizi [Mətn]:2 cilddə /Y.Canıyar.- Bakı: Ozan, 2011.- C.1.- 400 s.

İnternetdə

www.az.wikipedia.org
www.milliqahraman.az

50 illiyi

Əfqan Hüseynov
1963-1992

Milli Qəhrəman



Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Əfqan Qaraxan oğlu –Ali dövlət hakimiyyəti və idarəetmə orqanları, mayor –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il [Mətn] //Azərbaycan.- 1995.- 17 yanvar.- (Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Əfqan Qaraxan oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.89.

Seyidzadə, M.Hüseynov Əfqan Qaraxan oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.95.

Əfqan Qaraxan oğlu Hüseynov 1963-cü il fevral ayının 24-də Bakı şəhərində anadan olmuşdur. 1980-cı ildə C.Naxçıvanski adına hərbi təmayüllü orta internat məktəbində təhsilini başa vurmuş, sonra Bakı Ümumqoşun Komandirləri Məktəbinə qəbul olmuş və tağım komandirinin müavini təyin edilmişdir. 1984-cü il tarixində SSRİ Müdafiə nazirinin əmrinə əsasən ona leytenant hərbi rütbəsi verilmişdir.

11 oktyabr 1985-ci il tarixindən 25 iyun 1987-ci ilə kimi Əfqanıstan Demokratik Respublikasında gedən döyüşlərdə fəal iştirak etmiş və ağır yaralanmışdır. Onun döyüş xidməti yüksək qiymətləndirilmiş, "Qırmızı ulduz" ordeni ilə təltif edilmişdir. 1986-cı ildə ona baş leytenant rütbəsi verilmişdir.

O, 1988-ci ildə C.Naxçıvanski adına Bakı hərbi təmayülli məktəbə tərbiyəçi bölük komandiri təyin edilmiş və növbəti kapitan hərbi rütbəsini almışdır. Yüksək dərəcəli biliyə malik bir zabit olduğu nəzərə alınaraq Hüseynov Əfqan Qaraxan oğlu 02 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin 1-ci şöbəsində döyüş hazırlığı üzrə baş zabit vəzifəsinə təyin edilmişdir.

1991-ci il dekabr ayının 25-də Azərbaycan Respublikası Milli Qvardiyasının yaranması ilə əlaqədar olaraq bir çox bacarıqlı zabitlər Qvardiyanın təşkili işlərinə cəlb edilmişdir. Hüseynov Əfqan Qaraxan oğlu 21.01.1992-ci ildə Milli Qvardiyanın sıralarına daxil olmuş, Milli Qvardiya alayına komandir təyin edilmişdir

Ə.Hüseynov 1992-ci il noyabr ayının 1-də Qubadlı rayonunun Səfiyan və Quşçular kəndlərinin müdafiəsi zamanı qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. Bir övladı var.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 nömrəli Fərmanı ilə Hüseynov Əfqan Qaraxan oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin 09 mart 1995-ci il tarixli 63 saylı əmri ilə Azərbaycanın Milli Qəhrəmanı mayor Hüseynov Əfqan Qaraxan oğlu əbədi olaraq Milli Qvardiyanın şəxsi heyətinin siyahısına salınmışdır.

Göstərdiyi qəhrəmanlıqlara görə orden və medallarla təltif edilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.


C.Naxçıvanski adına liseydə və Xüsusi Dövlət Mühafizə Xidməti Milli Qvardiyası idarəsində onun büstü qoyulmuşdur.

Milli Qəhrəmanlar

45 illiyi

Canpolad Rzayev
1968-1992

Milli Qəhrəman



Canpolad Yaqub oğlu Rzayev 1968-ci il fevral ayının 26-da Ağdam rayonunda anadan olmuşdur. Burada Əhmədavar kənd orta məktəbini bitirmişdir. 1988-ci ildə hərbi xidmətə çağırılan Canpolad raket qoşunlarında xidmət etmiş və leytenant rütbəsi almışdır. Qarabağ müharibəsi başlayanda o, könüllü olaraq Vətənə dönmüşdür.

Xramort, Xanabad, Əsgəran, Qarakənd uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuş, 26 fevral 1992-ci il tarixində erməni vəhşilərinin Xocalı şəhərində Rusiyaya məxsus 366-cı moto-atıcı alayla birlikdə dinc sakinləri vəhşicəsinə öldürməsi, uşaqların, körpələrin başlarını kəsib, evləri yandırması Canpoladı tankına oturaraq Qaraqaya kəndinə üz tutmağa məcbur etmişdir. Burada xeyli erməni quldurunu sərrast atəşlə məhv edən cəsur döyüşçü yüzlərlə dinc sakinin mühasirədən çıxmasına şərait yaratmışdır. Hər tərəfdən atəşə məruz qalan Canpolad döyüş meydanında qəhrəmancasına həlak olmuşdur.

Evli idi, iki övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Rzayev Canpolad Yaqub oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ağdam şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rzayev Canpolad Yaqub oğlu – leytenant, tank komandiri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.25.- (ölümündən sonra).

Əsgərov, V. Rzayev Canpolad Yaqub oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.189.

Rzayev Canpolad Yaqub oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.178.

Seyidzadə, M. Rzayev Canpolad Yaqub oğlu [Mətn] /Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.194.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Tofiq Ağahüseynov 1923

General-leytenant



Tofiq Yaqub oğlu Ağahüseynov 1923-cü il fevral ayının 1-də Nuxada (indiki Şəki) anadan olmuşdur.

Yeddi yaşında olanda ailəliklə Bakıya köçmüş, orta məktəbi Bakıda bitirmişdir. 1941-ci ilin sentyabrında Bakı Zenit Artilleriya Məktəbinə daxil olmuş, bir il yarımdan sonra leytenant rütbəsi almış və Bakıdan ayrılmalı olmuşdur.

1-ci Belarusiya cəbhəsində vzvod-komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi olmuş, Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir. Müharibə bitdikdən sonra Tofiq Ağahüseynovun qulluq etdiyi diviziya 1946-cı ilin oktyabrına qədər Almaniyada qalmışdır.

Onun sağlamlığı, fiziki hazırlığı, ətrafındakılara münasibəti, cəsarəti, dönməzliyi, xüsusilə də daim biliyini artırması gələcəkdə böyük hərbçi olacağına yol açan faktorlardan idi. 1949-cu ildə F.E.Dzerjinski adına Hərbi Akademiyaya, bunun ardınca Hərbi Artilleriya Akademiyasına daxil olmuşdur.

Tofiq Ağahüseynov 1960-64-cü illərdə Hövsanda yerləşən Hava Hücumundan Müdafiə polkuna komandirlik etmiş, 1964-cü ilin sonlarında Volqoqrada göndərilmiş və diviziya komandiri kimi orada çalışmışdır. 1968-ci ildə general-mayor rütbəsi almışdır. 1969-cu ildən Rostovda korpus komandiri təyin edilmişdir.

1972-ci ildə general-leytenant rütbəsi almış və 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilmişdir. 1980-ci ildə general-polkovnik rütbəsini alan Tofiq Ağahüseynova həm də Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilmişdir.

O, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsi alan ilk azərbaycanlıdır. Tofiq Ağahüseynova 1982-ci ildə daha böyük bir vəzifə həvalə etmişdilər. O, Varşava Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunmuşdur. Ulu öndər Heydər Əliyevin 1997-ci il 17 aprel tarixli Sərəncamı ilə Tofiq Ağahüseynov Prezidentin Hərbi Məsələlər üzrə köməkçisi təyin olunmuşdur. Eyni zamanda, general-polkovnik rütbəsində Azərbaycan Milli Ordusu sıralarına bərpa edilmişdir. Bu zaman onun 74 yaşı var idi.

Müharibə illərində və sonralar dövlətin ali mükafatlarına, orden və medallara layiq görülüb. "Qırmızı Bayraq", "Oktyabr İnqilabı", "Birinci Dərəcəli Vətən Müharibəsi", "Qırmızı Ulduz" ordenləri onun yaxasını bəzəyib.

O, üç çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Prezident İlham Əliyevin 1 fevral 2008-ci il tarixli Sərəncamı ilə Tofiq Ağahüseynov Azərbaycanda hərbi qulluqçuluq sahəsindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat

T.Y.Ağahüseynovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 1 fevral 2008 ci il [Mətn] //Azərbaycan.- 2008.- 2 fevral.- S.1.

Azərbaycan generalları [Mətn]: kataloq / elmi red. N.Vəlixanlı; tərt.: Z.Dulayeva və b.; AMEA Azərbaycan Tarix Muzeyi.- Bakı: Elm, 2005.

İnternetdə

www.e-qanun.az

www.az.wikipedia.org

www.sheki.net

90 illiyi

Mustafa Nuriyev 1923-1982

Hərbi xadim



Mustafa Qurban oğlu Nuriyev 1923-cü il fevral ayının 12-də Astraxanbazar (indiki Cəlilabad) şəhərində anadan olmuşdur.

1941-ci ildən Sovet Ordusunda xidmət etmişdir. 1942-ci ildə Bakı Hərbi məktəbini bitirmiş, 402-ci Azərbaycan diviziyasında batalyon komandiri təyin olunmuşdur. Böyük Vətən müharibəsində Qafqaz uğrunda vuruşmalarda iştirak etmişdir. Müharibədən sonrakı illərdə polk məktəbinin rəisi, qərargah rəisi, polk komandiri olmuşdur. 1956-cı ildə M.B.Frunze adına Hərbi Akademiyanı bitirdikdən sonra SSRİ Silahlı Qüvvələrində xidmət etmişdir.

1962-1964-cü illərdə onun rəhbərliyi ilə İstehkamçılar alayının şəxsi heyəti Kiyev, Kirovoqrad, Çerniqov, Voroşilovqrad və s. vilayətlərdə alman-faşist işğalçılarından qalmış 60 mindən çox mərmi, mina, bomba və s. partlayıcılar çıxarıb zərərsizləşdirmişdir.

1969-cu ildə general-mayor rütbəsi almışdır.

1965-1981-ci illərdə Azərbaycan SSR Müdafiə Qərargahının rəisi olmuşdur.

1981-1982-ci illərdə Azərbaycan KP MK-da işləmişdir. Respublika əhalisi arasında mülki-müdafiə biliklərinin təbliği sahəsində böyük iş aparmışdır.

Xidmətlərinə görə 2 "Qırmızı Ulduz", "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur.

Nuriyev Mustafa Qurban oğlu 1982-ci il dekabr ayının 19-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Azərbaycan SSR-də mülki müdafiə [Mətn] /M. Nuriyev ; [red. A. Cəfərov]; AzSSR "Bilik" cəmiyyəti .- Bakı: ["Bilik" cəmiyyəti], 1979.- 49 s.

Mülki müdafiə 5-ci sinif şagirdləri üçün dərs vəsaiti /M. Nuriyev, Q. L. Truman ; [tərc. ed. Ş. Tağıyev; ixtisas red. H. İsgəndərov].- Bakı: Maarif , 1970.-83 s.

Mülki müdafiə dəstələrinin taktiki hazırlanması [Mətn] /M. Nuriyev, V. İ. Pleşakov ; [tərc. B. Bəkirov ; red. S. Həşimzadə].- Bakı : Maarif , 1972.-78 s.

Nuriyev Mustafa Qurban oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.-Bakı: ASE, 1983.- C.7.-S.304.

İ n t e r n e t d ə

www..anl.az

www.google.az

85 illiyi

Qaraş Mədətov 1928-1993

Tarixçi



Qaraş Əli oğlu Mədətov 1928-ci il fevral ayının 12-də Naxçıvan MR-nın Kəngərli rayonunun Qarabağlar kəndində anadan olmuşdur.

1950-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsini bitirmişdir.

1953-1956-cı illərdə Moskva Dövlət Universitetinin aspiranturasında təhsil almışdır. 1956-cı ildə namizədlik, 1966-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, 1969-cu ildə professor elmi adı almış, 1983-cü ildə isə Azərbaycan EA-nın (indi AMEA) müxbir üzvü seçilmişdir.

Q.Ə.Mədətov 1956-cı ildən AEA Tarix İnstitutuna işə qəbul edilmiş, 1968-ci ildən ömrünün sonunadək "Azərbaycanın müasir dövr tarixi" şöbəsinə rəhbərlik etmişdir.

Q.Ə.Mədətov bütün elmi fəaliyyətini Azərbaycanın 1941-1945-ci illər müharibəsi dövrü tarixinin tədqiqinə yönəltmişdir. O, 160-dan artıq elmi əsərin, o cümlədən "Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaradılması", "Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945-ci illərdə)" və b. monoqrafiyaların müəllifidir.

3 cildlik "Azərbaycan tarixi" və "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" kitablarında "Azərbaycan Böyük Vətən müharibəsində" bölməsinin də müəllifidir. Onun rəhbərliyi və iştirakı ilə "Azərbaycan Böyük Vətən müharibəsi dövründə" (2 cildlik), "Azərbaycanın Qırmızı Ulduzları", "Azərbaycan oğulları Sovet İttifaqı Qəhrəmanlarıdır" və "Azərbaycan SSR fəhlə sinfi tarixinin oçerkləri" (3 cildlik) və digər əsərlər nəşr olunmuşdur.

Onun rəhbərliyi ilə 11 doktorluq və 30 namizədlik dissertasiyası müdafiə edilmişdir.

Q.Ə.Mədətov 1980-ci ildə "Azərbaycan SSR Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, "Şərəf Nişanı" ordeni, müxtəlif medallarla və fəxri fərmanlarla təltif olunmuşdur.

1993-cü il iyul ayının 1-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Əsrimizin siyasi tarixi [Mətn] /Q.Mədətov //Dirçəliş .-1991.- № 7, 8, 9.- S.93-95.

Ruhulla Axundov [Mətn]: bioqrafik oçerk /Q. Mədətov .-Bakı: Azərnəşr, 1983.- 57, [3] s

Tarix elminə həsr olunmuş ömür: Qaraş Əli oğlu Mədətov- 80 [Mətn].-Bakı: MBM, 2008.- 112 s.

İnternetdə


www..anl.az

www.az.wikipedia.org

85 illiyi

Budaq Budaqov 1928-2012

Akademik



Ədəbiyyat

Ağsaqqal dünyası [Mətn] /B.Budaqov; red. Roza Kərimova; AMEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.- Bakı: İsmayıl NPM, 2002.- 70 s.

Azərbaycan Respublikasının fiziki coğrafiyası [Mətn]: 8-ci sinif üçün dərslik /B.Budaqov, Y.Qəribli; red. M.Müseyibov.- Bakı: Təhsil, 2003.- 184 s.

Böyük İpək (karvan) yolu [Mətn] /B.Budaqov.- Bakı: Nafta-Press, 2006.- 15 s.

Çay kimi çağlayan ömür [Mətn] /B.Ə.Budaqov; elmi red. Q.Məmmədov; AMEA ak. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.- Bakı: Elm, 2007. - 200 s.

Heydər Əliyev fenomeni [Mətn] /B. Budaqov .- Bakı: İsmayıl NPM, 2002. -136 s.

Budaq Əbdüləli oğlu Budaqov [Mətn]: biblioqrafiya.- Bakı: Elm, 2007.- 304 s.

İnternetdə

www..anl.az

www.adam.az

www.az.wikipedia.org

Budaq Əbdüləli oğlu Budaqov 1928-ci il fevral ayının 28-də Qərbi Azərbaycanda Zəngibasar bölgəsinin Çobankərə kəndində anadan olmuşdur. 1943-1947-ci illərdə Yerevanda Azərbaycan Dövlət Pedaqoji məktəbində oxumuşdur. 1947-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olmuşdur. Moskvada SSRİ EA Coğrafiya İnstitutunda aspiranturanı bitirdikdən sonra, 1955-ci ildə namizədlik və 1967-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda Landşaftşünaslıq şöbəsinin müdiri (1967-1974), elmi işlər üzrə direktor müavini (1974-1988) işləmişdir. 1988-ci ildən ömrünün sonunadək həmin institutun direktoru vəzifəsində çalışmışdır. Azərbaycan EA müxbir üzvü (1976) və akademiki (1989) seçilmişdir.

Ədəbi, elmi yaradıcılığa tələbəlik illərindən başlamışdır. Onun elmi əsərləri Azərbaycanda, həmçinin xaricdə - Rusiya, Hindistan, Polşa, Türkiyə və İran elmi və dövri mətbuatlarında çap olunmuşdur. "Cənub-Şərqi Qafqazın geomorfologiyası və yeni tektonikası" (1973) elmi əsəri keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin N.Prjevalski adına qızıl medalına layiq görülmüşdür. Onun yaradıcılığında elmi-kütləvi, elmi-publisistik məzmunlu məqalələr geniş yer tutur.

Budaq Budaqov coğrafi təkanın, sel ocaqlarının təsnifatını vermiş, təbiətin dağıdıcı hadisələrini sistemləşdirmiş, Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfologiyasını, yeni tektonik hərəkətlərini, qədim buzlaşmasını öyrənmiş, ərazinin xəritələrini (1:200000) tərtib etmişdir. İlk dəfə 1956-cı ildə Qafqazda 3600 m mütləq yüksəklikdə Üst Sarmaq yaşlı dəniz faunasını aşkara çıxarmışdır. Azərbaycanın təbii və antropogen landşaftını, orada baş verən səhralaşmanı, landşafın geokimyasını öyrənmişdir. Azərbaycanda təbii-dağıdıcı hadisələrin intensivliyinə görə ekoloji-coğrafi şəraiti tədqiq etmiş və ərazinin 1:500000 xəritəsini tərtib etmişdir.

1051 adda elmi əsəri çapdan çıxmışdır.

1995-ci ildə akademik Y.Məmmədəliyev adına medal və mükafat, 2000-ci ildə İslam xeyriyyəçiliyinə görə H.Z.Tağıyev mükafatı, "Şöhrət" ordeni, 2008-ci ildə dövlət başçısının digər sərəncamı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə Budaq Əbdüləli oğlu Budaqov Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Budaq Budaqov 1 noyabr 2012-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Beynəlxalq Təhlükəsiz İnternet Günü 2004



Beynəlxalq Təhlükəsiz İnternet Günü (İnternational Safer Internet Day) Avropa Komissiyasının qərarı ilə 2004-cü ildə təsis edilmişdir. Bu əlamətdar hadisə dünyanın 60-dan çox ölkəsində müxtəlif şüarlar altında ("İnternet və uşaqlar", "Qlobal şəbəkədə kibercinayət: qanunsuz kontentlərdən müdafiə" və s.) qeyd olunur. Tədbirlər qeyri-hökumət təşkilatı olan INSAFE (European Safer Internet Network - Avropa Təhlükəsiz İnternet Şəbəkəsi) tərəfindən koordinasiya edilir. INSAFE - Avropa Komissiyasının iştirakı ilə yaradılan milli təşkilatlar şəbəkəsidir. Təşkilatın əsas missiyası təhlükəsiz İnterneti təbliğ etmək, xüsusən də gələcək nəsilləri qlobal şəbəkədəki mövcud təhdidlərlə bağlı məlumatlandırmaq, maarifləndirmə işləri aparmaqdır. INSAFE təşkilatı Avropanın 26 ölkəsinin təhsil nazirlikləri nümayəndələrinin daxil olduğu European Schoolnet konsiliumu tərəfindən idarə edilir.

Ənənəvi olaraq hər il fevral ayının ikinci həftəsinin çərşənbə axşamı günündə təşkil edilən və bu il "İnternet adi bir oyun vasitəsi deyil, İnternet bizim həyatımızdır" sloqanı ilə keçirilən müxtəlif səpgili tədbirlərdə - konfrans, elmi seminar, dəyirmi masa, forum, sərgi, kiberməkanda təhlükəsizlik məsələlərinə həsr edilmiş saytların təqdimatı və müsabiqələrdə informasiya texnologiyaları sahəsi üzrə mütəxəssis və alimlər, gənc nəslin nümayəndələri bir araya gəlir, "Təhlükəsiz İnternet - mədəniyyət: uşaq və yeniyetmələr üçün pozitiv və təhlükəsiz İnternet", "Təhsil və informasiya təhlükəsizliyi", "Təhlükəsiz İnternetin yaradılmasında peşəkar cəmiyyətlərin rolu", "İnternetdə neqativ kontentdən texniki müdafiə metodları", "İnternet məhdud fiziki imkanlı insanlar üçün" və s. mövzularda məruzələr dinlənilir, müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilərək təklif və tövsiyələr bildirilir. Həmin gün televiziya və radiolarda verilişlərin qayəsini də məhz bu səpgidə olan mövzular təşkil edir.

Aqressiv İnternet-kontentin cəmiyyət tərəfindən qəbul edilməməsi, qlobal şəbəkənin təhlükəsizliyinin mühafizəsi, uşaqlara rəqəmsal dünyanın imkanlarından təhlükəsiz istifadə qaydalarının aşılanması ilə bağlı məsələlərə həsr edilmiş 7 fevral Beynəlxalq Təhlükəsiz İnternet Günü ölkəmizdə də müvafiq qurum, elmi müəssisə və təşkilatlarda geniş şəkildə qeyd olunur və bütün istifadəçilərə təhlükəsiz interneti tərənnüm edən qlobal aksiyadır.

2004-cü ildən qeyd olunan bu gün, Avropa İttifaqı tərəfindən dəstəklənir.

Ə d ə b i y y a t

Ələkbərova, İ. İnformasiya müharibəsi texnologiyaları [Mətn] /İ.Ələkbərova; elmi red. T.Kazımov; AMEA, İnformasiya Texnologiyaları İn-tu.- Bakı: [İnformasiya texnologiyaları], 2012.- 107 s.

Gündüz, O. İnternet. Azərbaycanın İnternet Resursları [Mətn]: İnternet haqqında ümumi məlumat. Azərbaycan İnterneti /O.Gündüz; red. C.Məmmədli.- Bakı: Multimedia Mərkəzi, 2004.- 200 s.

İ n t e r n e t d ə

www..anl.az

www.rabitadunyasi.info.az

www.ict.az

Tarixdə bu gün

185 ili — Türkmənçay müqaviləsi 1828



Azərbaycanı iki yerə bölən Türkmənçay müqaviləsinin imzalanmasından bu gün 185 il ötür. Rusiya ilə İran arasında ikinci müharibənin (1826-1828) yekunlarına əsasən, 1828-ci il fevral ayının 10-da Çar Rusiyası və İran arasında bağlanan bu müqaviləyə əsasən Azərbaycan torpaqlarının Araz çayından Şimal hissəsi Çar Rusiyasının, Cənub hissəsi isə Şah İranının əsarətinə keçdi.

Təbrizin 50 km-dəki Türkmənçay kəndində Rusiya generalı İvan Paskeviç və İran şahzadəsi Abbas Mirzənin imzaladığı müqaviləyə əsasən, İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirilmişdir. Müqavilənin imzalanmasında məşhur rus yazıçısı Qriboyedov və tarixçi-yazıçı Abbasqulu ağa Bakıxanov iştirak etmişdir. Bakıxanov burda tərcüməçi olmuşdur.

Türkmənçay müqaviləsi Azərbaycan tarixində qanlı səhifələrdən biridir. Bu müqavilə Azərbaycan ərazisinə Azərbaycanın tarixi taleyinə bütövü, tamı bölən, Azərbaycanı parçalayan, ərazilərimizə qəsd edilən bir tarixi məqamdır. Çünki zaman öz hökmünü vermişdi, Azərbaycan müstəqil feodal xanlıqları formasında mövcud idi. Hər bir xanlıq orta əsrlərin feodal dövlətlərindən idi. Belə bir məqamda İranla Rusiya bu müstəqil feodal dövlətləri tutmaq qərarına gəldilər. Nəticədə, tamamilə özlərinə məxsus olmayan ərazi uğrunda vuruş başlanmış və Azərbaycan torpaqlarını öz aralarında bölmüşdülər. Tarixən nə Rusiya, nə İrana dəxli olmayan, əksinə Böyük Səfəvi dövlətinin bir parçası olan bu feodal dövlətlər bölünmüş və Azərbaycanın Şimalı və Cənubu ifadəsi yaranmışdı. Əslində bu, Rusiyanın Pyotr dövründən qalma siyasətinin bilavasitə davamı idi və burda hələ I Pyotr vəsiyyətlərində ifadə olunmuş müəyyən məqamlar öz əksini tapmışdı. Müqavilədə İrandan erməni əhalisinin Rusiya imperiyasının yeni torpaqlarına (İrəvan, Naxçıvan, Qarabağ və s.) köçməsi, İranın Rusiyaya təzminat (20 mln.rubl) ödəməsi, Rusiya donanmasının Xəzərdə şəriksiz hakim olması və rus tacirlərin İranda ticarət güzəştləri əldə etməsi barədə maddələr də vardı.

Yəni ermənilərin Azərbaycanda yerləşdirilməsi üçün münbit siyasi şərait yaranmışdı və Türkmənçay müqaviləsinin təbəə alış-verişi, yəni insan dəyişməsi maddələri burda Azərbaycanın bugünkü taleyinə təsir edən məqamları yaratmışdı. Belə ki, bu müqavilənin şərtləri əsasında İrandan 40 min, Türkiyədən 84 min erməni Azərbaycana köçürüldü. Beləliklə, Azərbaycana elə bir tarixi zülm edildi ki, indi də bu zülmün qarşısında Azərbaycan xalqı əziyyət çəkir.

Türkmənçay müqaviləsi ilə Azərbaycan torpaqlarının Rusiya və İran arasında Araz çayı boyunca bölüşdürülməsi başa çatmışdı.

Bütünlükdə bu müqavilə 16 maddədən ibarətdir.

Qarabağın işğalı əslində elə bu "sülh" müqaviləsinin imzalanması ilə başlanmışdır.

Bundan sonrakı tariximizin hər vərəqində qanla, qadayla yanaşı qəhrəmanlıq, şəhidlik zirvələri də ucalmışdı.

FEVRAL

14

Tarixdə bu gün

Azərbaycan Hərbi Hava Qüvvələri Günü 1992



Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 14 sentyabr 203 saylı Fərmanı ilə 14 fevral -Azərbaycan Hərbi Hava Qüvvələri Günü kimi qeyd olunur.

1992-ci ildə Azərbaycan Ordusunda Hərbi Hava Qüvvələrinin ilk bölməsi formalaşmışdır.

Azərbaycan Hərbi Hava Qüvvələri - Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə məxsus xüsusi qoşun növüdür.

Azərbaycan Cənubi Qafqaz regionunda maddi-texniki imkanları yüksək və ən çox döyüş təyyarəsi olan ölkə sayılır. Müxtəlif məlumatlara görə, hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) arsenalına 70-ə yaxın döyüş təyyarəsi, 40-a yaxın zərbə helikopteri, həmçinin 46 ədəd yardımçı təyyarə və helikopter daxildir. 7200 nəfər personalın xidmət etdiyi HHQ-nin arsenalında "Aero L-29", "Aero L-39" təlim-hücumçu, müxtəlif təyinatlı "MiQ-21", "MiQ-25", "MiQ-29", "Su-17", "Su-24", "Su-25", "İl-76", "An-24", "An-12", "Tu-134A", "Tu-16", Pakistan istehsalı olan "JF-17" döyüş təyyarələri, "Mi-2", "Mi-6", "Mi-8", "Mi-24", "Mi-35M" markalı helikopterlər, həmçinin dünyanın tanınmış şirkətlərinin (Aerostar, Orbiter) istehsalı olan pilotsuz uçan aparatlar var.

2006-cı ildə Ukrayna ilə imzalanmış müqaviləyə əsasən Azərbaycan bu ölkədən 29 ədəd modernləşdirilmiş "MiQ-29M" döyüş təyyarəsi, Pakistandan isə 26 ədəd "JF-17" (Thunder), həmçinin "Mi-24" helikopterləri alacaq. Artıq Ukraynadan alınmış 5 ədəd "MiQ-29", Pakistandan alınmış 4 ədəd "JF-17" təyyarələri Azərbaycana gətirilmişdir.


Bundan başqa, Azərbaycanın Dövlət Sərhəd Xidmətinin aviadəstəsi var ki, burada da əsasən dağlıq ərazilərdə əməliyyat zonalarına desant atmaq, qüvvələri təxliyyə etmək və digər məqsədlər üçün istifadə edilən "YaK" markalı təyyarələr, həmçinin müxtəlif helikopterlər cəmləşmişdir.

Hazırda Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuşlar keçirmiş pilotlar sayılır. Azərbaycan pilotları əsasən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrin müvafiq ixtisasartırma kurslarında təlimlər keçirlər.

Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, Birinci Dünya Müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak etmiş və indiki Belarus ərazisində gedən döyüşlərdən birində həlak olmuşdur.

Azərbaycanın ikinci müstəqilliyi dövründə - 1992-ci il aprel ayının 8-də isə baş leytenant Vaqif Qurbanov keçmiş Sovet ordusunun Sitalçay aerodromundan, "Su-25" döyüş təyyarəsini qaçıraraq Azərbaycan ordusuna gətirmişdir. Bununla da Azərbaycan HHQ ilk qırıcı təyyarəni arsenalına qəbul etmişdir. Az sonra "Nasosnı" - indiki Hacı Zeynalabdin Tağıyev hərbi aviasiya alayının komandiri, polkovnik Vladimir Kravtsov (Azərbaycan HHQ-nin ilk komandanı) və Dəllər aerodromunda xidmət edən polkovnik-leytenant Aleksandr Pleşin səyləri nəticəsində bu bazalardakı sovet aviasiyasına məxsus təyyarələr Azərbaycan ordusunun tabeçiliyinə verilmişdir.

Qaradağlı kəndinin işğalı günü 1992



Ə d ə b i y y a t

Məhərrəmli, Z.Qaradağlı faciəsi [Mətn]/Z. Məhərrəmli.-Bakı,2011.

Aydınoğlu, T. Erməni vəhşiliyinin qanlı səhifəsi[Mətn] /T.Aydınoğlu //Xalq qəzeti.- 2011.-17 fevral. - S. 8.

www.garadaghli.org

Qaradağlı kəndinin işğalı Xocalı qətliamına qədər Azərbaycanın yaşadığı ən faciəli hadisə, erməni işğalçı dəstələrinin törətdiyi müdhiş bir qırğın idi. Ermənilər Xocalı soyqırımına son "hazırlığı", həmin qətliamın "baş məşqini" məhz Qaradağlı kəndində keçmişdilər.

1988-ci ildən mənfur qonşularımızın torpaq-ərazi iddiası başlayan dövrdən etibarən Qaradağlı kəndinin dinc sakinləri hər gün ermənilərin hücumuna məruz qalmışdır. Erməni təxribatçıları tərəfindən törədilmiş terror aktları nəticəsində 1991-ci ilin 28 iyun tarixində 3 nəfəri qadın olmaqla 6 nəfər diri-diri yandırılmış, 1991-ci ilin sentyabr ayında sərnişin avtobusunun güllələbaran edilməsi nəticəsində 8 nəfər öldürülmüş, çoxlu sayda insan yaralanmış, güllə yarası alanlardan 5 nəfəri sonradan dünyasını dəyişmişdir. 17 fevral 1992-ci il tarixində erməni hərbi birləşmələri tərəfindən keçmiş SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə Dağlıq Qarabağ bölgəsindəki mühüm yaşayış məntəqələrindən biri - Xocavənd (Martuni) rayonunun Qaradağlı kəndi işğal edilmişdir. 118 nəfər əsir götürülmüş, 33 nəfər ermənilər tərəfindən güllələnmiş, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzlərini torpaqlamışlar. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanılması, döyülərək öldürülməsi insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir.

Öldürülənlərdən 10 nəfəri qadın, 8 nəfəri məktəbli olmuşdur.

İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmışdır. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşmüşdür.

İşğal altında olan başqa torpaqlarımız kimi Qaradağlı kəndi də azad olunacağı günü gözləyir.

FEVRAL
21

Tarixdə bu gün

Beynəlxalq Ana Dili Günü 1999

YUNESKO (UNESCO) 1999-cu il fevral ayının 21-ni Beynəlxalq Ana Dili Günü elan etmişdir.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Ən sadə şəkildə desək, dil ünsiyyət vasitəsidir, bununla bahəm, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Bu qənaət tarixin bütün dövrlərində bəşər övladlarının qeyd-şərtsiz qəbul etdiyi, sübuta ehtiyac duyulmayan aksiomadır. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb.... Və bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə Ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub: Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. ...Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin Ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs Ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. 2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür. Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim də borcumuzdur.

Ə d ə b i y y a t

Milli varlığın ifadəsi 21 fevral Beynəlxalq Ana Dili Günüdür [Mətn] //Azərbaycan.- 2012.- 21 fevral.- S.7.

Xəlilzadə, F. Milli varlığın əks-sədası: 21 fevral Beynəlxalq Ana dili Günüdür [Mətn] /F.Xəlilzadə //Azərbaycan.- 2010.- 21 fevral.- S.1,3.

FEVRAL

26

Tarixdə bu gün

Xocalı Soyqırımı Günü 1992

- **Ərazisi: 936 km²**
- **Əhalisi: 25332**
- **İşğal tarixi: 26.02.1992**
- **İnternet saytı http://xocali-ih.gov.az**

Ötən əsrin 1992-ci ilinin fevralında tarixdə görünməmiş qətliam baş verdi. Türkləri özlərinin əbədi düşməni hesab edən ermənilər məskunlaşdıqları türk torpaqlarında insanlığa xas olmayan vəhşiliklər törətməklə, Xocalı adlı bir yurd yerini yer üzündən sildilər – insanlar amansızlıqla qətlə yetirildilər, əsir götürüldülər, şəhər isə oda qalandı. Bu, Qarabağ müharibəsinin ən qəddar səhifəsi idi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu, ən dəhşətli soyqırım törədildi. Buna qədər isə Xocalı erməni-daşnaklar tərəfindən tam mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, Xocalı taleyin ümidinə buraxılmışdı. Halbuki xocalılar erməni-daşnak hərbi qüvvələrinə mərdliklə müqavimət göstərir, şəhəri çətinliklə də olsa qoruyub saxlayırdılar. Düşmən elə buna görə də Xocalı sakinlərini vəhşiliklə, qəddarlıqla və kütləvi surətdə qətlə yetirdi.

Faciənin miqyası son dərəcə böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların cəsədləri ilə dolmuşdu. Yer-göy qan ağlayırdı. Ermənilər qadınlara və uşaqlara, qocalara və xəstələrə rəhm etmədən hamını güllələyərək süngüdən keçirmişdilər. Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ümummili lider Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "... biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir".

Xocalı soyqırımının 20 ili tamam olur. Bu faciə zamanı böyük bir yaşayış məntəqəsi yer üzündən silinib, azərbaycanlılara qarşı amansız soyqırımı törədilib: 613 nəfər qətlə yetirilib, 1275 nəfər əsir götürülüb. Qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürüblər. Habelə azğınlaşmış erməni hərbçiləri əsir və girov götürdükləri azərbaycanlıları xüsusi amansızlıqla, işgəncə verərək qətlə yetiriblər. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetiriliblər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon Daxili işlər şöbəsində işgəncə verilməklə öldürülüb. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilib, dözülməz işgəncələr verilib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb. Xocalıya hücum edən erməni dəstələri ölkə iqtisadiyyatına 170 milyon dollardan artıq ziyan vurub. Şəhərin toxuculuq fabriki, onlarla ictimai iaşə obyekti dağıdılıb. 200 nəfərdən çox insan müxtəlif dərəcəli əlilə çevrilib. Ermənilər buna görə cavab verməlidirlər. Əgər bunu edə bilməsək, gələcək nəsillər bizi heç vaxt bağışlamayacaqdır!

Azərbaycan Milli Məclisi (Parlamenti) hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli

həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər. Heydər Əliyev Fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması istiqamətində böyük işlər görüb. Dünyanın, Avropanın onlarla ölkəsində Xocalı soyqırımının ildönümlərində tədbirlərin, sərgilərin keçirilməsi, filmlərin nümayiş olunması və sair bu qəbildəndir. Xocalı soyqırımına dair müxtəlif dillərdə Fond tərəfindən filmlər hazırlanıb, həmin filmlərin təqdimatı keçirilib. Həmçinin Xocalı soyqırımı ilə bağlı fotosərgilərin təqdimatı dünyanın onlarla ölkəsində düzənlənib. Xocalı soyqırımı ilə bağlı xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının qələmə aldıqları məqalələrin sərgisi keçirilib. Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi və sair böyük tədbirlər təşkil olunub. Bunlar hamısı Fondun və ələlxüsus Mehriban xanımın Xocalı soyqırımının tanıdılması istiqamətində çox böyük xidmətləridir. Özü də nəinki Xocalı soyqırımının, ümumilikdə bütün Azərbaycan həqiqətlərinin təbliği istiqamətində bu xidmətlər ölçüyəgəlməzdir. Eyni zamanda Leyla xanım Əliyeva dünya ictimaiyyətinin diqqətini erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayətlər haqqında obyektiv məlumatlara cəlb etmək, sözügedən faciələrə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsində milli maraqlarının müdafiə olunması məqsədilə "Xocalıya ədalət – Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") devizi altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

"Xocalıya ədalət!" - artıq dünyada bu kampaniyaya qoşulan insanların sayı günü-gündən çoxalmaqdadır. Bu kampaniya daha da genişlənməkdədir. Bu baxımdan çox güman ki, bu kampaniya və təbii ki, bu istiqamətdə görülən işlər bundan sonra da davam edəcək. Amma söhbət ondan gedir ki, bizim hər birimiz bu kampaniyalara dəstək verməliyik. Harada yaşamağından asılı olmayaraq – Azərbaycanda da, Azərbaycandan kənarda da. Hərənin gücü nəyə çatırsa, Azərbaycan həqiqətlərinin, Xocalı həqiqətlərinin təbliğ edilməsi, bütövlükdə Qarabağ savaşında şəhid, əlil olmuş, yaralanmış qəhrəmanlarımızın, ümumən Azərbaycan xalqının başına gətirilən bütün müsibətlərin təbliğ edilməsi, erməni yalanlarının qarşısının alınması istiqamətində öz fəaliyyətini ortaya qoymalıdır.

Tarix heç nəyi unutmur!

Allah bütün şəhidlərə rəhmət eləsin!

Ə d ə b i y y a t

Aşırlı, A. Türkün Xocalı soyqırımı [Mətn] /Akif Aşırlı; red. Ə.M.Həsənov. - Bakı: Nurlan, 2005. - 152 s.

Xəlilqızı, Ə. Güllələnmiş uşaqlıq [Mətn] /Əsli Xəlilqızı; red. M.Nazimoğlu.- Bakı: Çaşıoğlu, 2007.- 295 s.

Xocalı XX əsrin soyqırımı [Mətn] /layih. rəhb. Ə.Həsənov, A.Aslanov; tərt. red. Ə.Mehdiyev, V.Əliyev, D.İsmayilov ; tərc. C.Səfərov [və b.]; rəssam E.Aslanov; dizayner İ.Nəcəfquliyev; Azərb. Resp. Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsi; AzərTac.- Bakı, 2012.- 130 s.

Soyqırım cinayəti [Mətn]: (Beynəlxalq aktlar, normativ sənədlər, müraciətlər və şərhlər toplusu) /bur. məsul N.Abdullayev; red. H.İsgəndərov.- Bakı: CBS Poliqrafiya, 2010.- 87 s.- (rus dilində).

Məmmədov, S. Xocalı soyqırımı [Mətn]: [məlumat kitabçası] /S. Məmmədov; red. E. Ə. Şükürlü; Azərb. Resp. Təhsil Nazirliyi, BSU; Azərbaycanşünaslıq Tədris-Mədəniyyət Mərkəzi.- Bakı: Kitab aləmi, 2010. - 16 s.

Помпеев, Ю. Кровавый омут Карабаха [Текст] /Юрий Помпеев.- Баку: Изд-во Азербайджан, 1992.- 208 с.

Церцвадзе, Ф. Забытый геноцид [Текст] /Феликс Эрастович Церцвадзе. - Нью-Йорк, 2005.- 132 с.

İ n t e r n e t d ə

www.khojaly.org.az

www.khocaly.s5.com

www.azerigenocide.org

1 mart
Gün çıxır 07:14
Gün batır 18:51

31 mart
Gün çıxır 07:26
Gün batır 20:23

MART

19 fevral- 20 mart

Balıq Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuisiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər.

C.	1
Ş.	2
B.	**3**
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	**10**
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	**17**
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	**24**
B.E.	25
Ç.A.	26
Ç.	27
C.A.	28
C.	29
Ş.	30
B.	**31**

- *Beynəlxalq Qadınlar Günü (08.03.1910)*
- *Qızıl Aypara Günü (10.03.2008)*
- *Milli Teatr Günü (10.03.1873)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- *Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalamışdır (26.03.1998)*
- **Azərbaycanlıların Soyqırımının (31.03.1918) 95-ci ildönümü**

90 il Heydər Əliyev 1923-2003



1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın müxtəlif bölgələrində erməni daşnakları tərəfindən törədilmiş soyqırımı aktı zamanı 50 mindən çox azərbaycanlı amansızcasına qətlə yetirilmiş, 10 minlərlə insan öz doğma torpaqlarından didərgin salınmış, onlarla şəhər və kənd yandırılmış, milli-mədəni abidələr dağıdılaraq məhv edilmişdir. Azərbaycan xalqının məruz qaldığı bu soyqırımı faktlarına yalnız ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra siyasi-hüquqi qiymət verilmiş, dahi öndərimiz tərəfindən 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalanmışdır.

Hər il martın 31-i - Azərbaycanlıların Soyqırımı Günü Azərbaycan xalqı bu kütləvi və amansız qırğının qurbanlarının xatirəsini ehtiramla yad edir, ölkəmizdə və onun hüdudlarından kənarda anım mərasimləri keçirilir, mənfur erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilmiş soyqırımı və etnik təmizləmə siyasəti barədə əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində xeyli işlər görülür.

MART 2013



Milli ədəbiyyat

Nasir Abdullayev Namiq Ələkbər oğlunun (03.03.1928-22.09.1992) anadan olmasının **85** illiyi

Filologiya elmləri doktoru, ədəbiyyatşünas Əliyev Kamran İmran oğlunun (05.03.1953) anadan olmasının **60** illiyi

Şair Şəfiyev Əşrəf Cavad oğlunun (Əşrəf Veysəlli) (06.03.1938) anadan olmasının **75** illiyi

Nasir, publisist, tərcüməçi Yasinzadə Əliağa Hacı oğlunun (09.03.1933) anadan olmasının **80** illiyi

Ədəbiyyatşünas, tənqidçi, publisist, tərcüməçi Qurbanov Rasim Nəbi oğlunun (Rasim Nəbioğlu) (10.03.1953) anadan olmasının **60** illiyi

Şair, publisist, nasir, bibliofil Əfəndiyev Sabir Tahir oğlunun (10.03.1933) anadan olmasının **80** illiyi

Xalq şairi Novruzov Cabir Mirzəbəy oğlunun (Cabir Novruz) (12.03.1933-12.12.2002) anadan olmasının **80** illiyi 75

Şair Qasımov Adil Möhsün oğlunun (12.03.1938) anadan olmasının **75** illiyi

Xalq yazıçısı Rzayev Anar Rəsul oğlunun (14.03.1938) anadan olmasının **75** illiyi 76

Tənqidçi, ədəbiyyatşünas Əlizadə Samət Qürbət oğlunun (14.03.1938-31.05.2002) anadan olmasının **75** illiyi 77

Xalq yazıçısı Balakişiyev Mövlud Süleyman oğlunun (Mövlud Süleymanlı) (18.03.1943) anadan olmasının **70** illiyi 78

Şair, publisist, dramaturq Kələntərov Kələntər Şıxkərim oğlunun (20.03.1933) anadan olmasının **80** illiyi

Şair, publisist, tərcüməçi Əlizadə Ağacavad Əbdülhəsən oğlunun (21.03.1928-25.04.1995) anadan olmasının **85** illiyi

Nasir, tərcüməçi Azəri Sabir Əli oğlunun (22.03.1938-28.01.2010) anadan olmasının **75** illiyi

Filologiya elmləri doktoru, professor Əliyev Əkbər Mirzə Əli oğlunun (Əkbər Ruhi) (22.03.1908-1980) anadan olmasının **105** illiyi

Nasir Qəhrəmanzadə Qəhrəman Rüstəm oğlunun (22.03.1913-22.01.1990) anadan olmasının **100** illiyi

Dramaturq, nasir Əlizadə Məhərrəm Cəlal oğlunun (22.03.1913-31.08.1983) anadan olmasının **100** illiyi

Nasir, dramaturq Mirzəyev Mirzə Bağır oğlunun (Mirzə Müştaq) (22.03.1913-11.12.2001) anadan olmasının **100** illiyi

Şair, dramaturq Əhmədzadə Rüfət Zülfüqar oğlunun (25.03.1933-15.12.1988) anadan olmasının **80** illiyi 79
Şair Mirzəli Hacıağa oğlunun (Möcüz Şəbüstəri) (29.03.1873-25.09.1934) anadan olmasının **140** illiyi
Şair Məmmədov Tacəddin Abdulla oğlunun (Tacəddin Şahdağlı) (29.03.1928) anadan olmasının **85** illiyi
Şairə Hacıyeva Fəridə Məcid qızının (30.03.1953) anadan olmasının **60** illiyi 80
Azərbaycanın Əməkdar mədəniyyət işçisi, şair, nasir Kərimova Sədaqət Qayınbəy qızının (30.03.1953) anadan olmasının **60** illiyi



Folklor

Əməkdar incəsənət xadimi, şair-aşıq Yusifov İslam Qara oğlunun (Aşıq İslam) (15.03.1893-07.12.1968) anadan olmasının **120** illiyi
Əməkdar incəsənət xadimi Qocayev Şəmşir Qurban oğlunun (Aşıq Şəmşir) (15.03.1893-10.02.1980) anadan olmasının **120** illiyi 81



Dünya ədəbiyyatı

Ukrayna yazıçı-pedaqoqu Makarenko Aleksandr Serqeyeviçin (01.03.1888-01.04.1939) anadan olmasının **125** illiyi
Rus yazıçısı Polevoy Boris Nikolayeviçin (04.03.1908-12.07.1981) anadan olmasının **105** illiyi
Görkəmli rus şairi, dramaturqu, publisist və ictimai xadimi Mixalkov Sergey Vladimiroviçin (13.03.1913-27.08.2009) anadan olmasının **100** illiyi
Ərəbşünas, akademik Kraçovski İqnati Yulianoviçin (16.03.1883-24.01.1951) anadan olmasının **130** illiyi
Rus yazıçısı Peşkov Aleksey Maksimoviçin (Maksim Qorki) ((16)28.03.1868-18.06.1936) anadan olmasının **145** illiyi 83
Rus yazıçısı Ostrovski Aleksandr Nikolayeviçin (31.03.(12.04.)1823-(2)14.06.1886) anadan olmasının **190** illiyi 83



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Salamzadə Salam Əbdülqasım oğlunun (07.03.1908-1997) anadan olmasının **105** illiyi
Əməkdar incəsənət xadimi, rəssam İsmayılov Nəcəfqulu Əbdülrəhim oğlunun (15.03.1923-1990) anadan olmasının **90** illiyi 84
Əməkdar incəsənət xadimi, rəssam Qazıyev Şamil Həsən oğlunun (30.03.1908-13.07.1980) anadan olmasının **105** illiyi 85
Holland rəssamı Vinsent Vilhelm van Qoqun (30.03.1853-29.07.1890) anadan olmasının **160** illiyi 85



Musiqi.Opera.Balet

İtalyan bəstəkarı, skripkaçısı, dirijor və pedaqoq Vivaldi Antonionun

(04.03.1678-28.07.1741) anadan olmasının **335** illiyi
Əməkdar artist, skripkaçı Əliyev Azad Həmzə oğlunun (13.03.1928-17.08.1994) anadan olmasının **85** illiyi
SSRİ Xalq artisti, müğənni, rejissor Kandelaki Vladimir Arkadyeviçin (16(29).03.1908-11.03.1994) anadan olmasının **105** illiyi
Xalq artisti, müğənni Muradova Rübabə Xəlil qızının (22.03.1933-30.08.1983) anadan olmasının **80** illiyi 86
Xalq artisti, müğənni Muxtarova Fatma Səttar qızının (26.03.1893-19.10.1972) anadan olmasının **120** illiyi 87



Teatr. Kino

Tənqidçi, ədəbiyyatşünas, teatrşünas Əliyeva Ədilə Əlihüseyn qızının (08.03.1923-1984) anadan olmasının **90** illiyi
Xalq artisti, aktyor Qardaşbəyov Əkbər Hacı oğlunun (15.03.1923-26.3.2001) anadan olmasının **90** illiyi
Xalq artisti, aktyor Talıblı İsmayıl Məmmədəli oğlunun (21.03.1898-23.07.1967) anadan olmasının **115** illiyi
Xalq artisti Ağayev Əliağa İsmayıl oğlunun (22.03.1913-03.11.1983) anadan olmasının **100** illiyi 88



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əhədov Elşad Saday oğlunun (04.03.1968-11.12.1993) anadan olmasının **45** illiyi 89
Azərbaycanın Milli Qəhrəmanı Mürsəlov Vüqar Mirəzbər oğlunun (10.03.1963-09.06.1992) anadan olmasının **50** illiyi 90



Siyasət.Hərbi iş

Səfəvi dövləti başçısı I Şah Təhmasib Şah İsmayıl oğlunun (03.03.1513-1576) anadan olmasının **500** illiyi 91
Böyük Vətən müharibəsi qəhrəmanı, polkovnik Məcidov Rəşid Əsəd oğlunun (21.03.1908-02.07.1970) anadan olmasının **105** illiyi
Dövlət xadimi İbrahimov Hacağa Xəlil oğlunun (22.03.1923-27.05.1992) anadan olmasının **90** illiyi
Dövlət xadimi Tağızadə Əlinin (22.03.1883-04.02.1966) anadan olmasının **130** illiyi



Tarix

Tarixçi Əhmədbəy Cavanşir Cəfərqulubəy oğlunun (02.03.1828-09.01.1903) anadan olmasının **185** illiyi



Fəlsəfə.İqtisadiyyat. Hüquq

Əməkdar iqtisadçı, professor Fərəcov Əliqulu Səttar oğlunun (15.03.1898-20.01.1981) anadan olmasının **115** illiyi



Mədəniyyət.Maarif.Elm

Maarif xadimi, tərcüməçi, Əfəndizadə (Əfəndiyev) Abdulla İsmayıl oğlunun (03.03.1873-1928) anadan olmasının **140** illiyi
Maarif xadimi, müəllim, şair Rasizadə Şeyx Məhəmməd Hacı Abdulla oğlunun (15.03.1878-24.12.1939) anadan olmasının **135** illiyi 92



İdman

Əməkdar idman ustası və Əməkdar məşqçi, SSR-nin Əməkdar bədən tərbiyəsi və idman xadimi Nəsrullayev Məmməd Əhməd oğlunun (04.03.1913) anadan olmasının **100** illiyi



Coğrafiya.Geologiya

Əməkdar elm xadimi, Əməkdar müəllim, coğrafiyaşünas Babayev Səfərəli Yaqub oğlunun (15.03.1923-2003) anadan olmasının **90** illiyi 93
Akademik, genetik-seleksiyaçı Abdullayev İlyas Kərim oğlunun (23.03.1913-30.04.1985) anadan olmasının **100** illiyi 94



Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor İsaxanlı Hamlet Abdulla oğlunun (01.03.1948) anadan olmasının **65** illiyi 95
Fransız riyaziyyatçısı və fiziki Furye Jan Baptista Jozefin (21.03.1768-16.05.1830) anadan olmasının **245** illiyi



Kimya.Biologiya.Tibb

Rentgenoloq, tibb elmləri doktoru, professor Rəhimov Rəhim Nurməmməd oğlunun (18.03.1923) anadan olmasının **90** illiyi 96
Tibb elmləri doktoru, ginekoloq İsrafilbəyli Solmaz Hüseyn qızının (13.03.1928) anadan olmasının **85** illiyi
Kimya elmləri doktoru, professor Əliyev Sahib Müseyib oğlunun (15.03.1933) anadan olmasının **80** illiyi
Əməkdar elm xadimi, akademik Məmmədov Zülfüqar Mehdi oğlunun (21.03.1903-05.07.1971) anadan olmasının **110** illiyi
Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Hüseynov Mustafa Məmməd oğlunun (22.03.1928-03.02.1991) anadan olmasının **85** illiyi
Neyrocərrah, tibb elmləri doktoru, professor Ağalarov Əliqulu Behbud oğlunun (23.03.1923-23.06.1982) anadan olmasının **90** illiyi 97



Texnika

Alman mühəndisi Dizel Rudolf Kristian Karlın (18.03.1858-29.09.1913) anadan olmasının **155** illiyi 98



Kitabxanaşünaslıq.Biblioqrafiya

Respublika Elmi-Pedaqoji Kitabxanasının yaranmasının **30** illiyi (03.03.1983) 99
Əməkdar mədəniyyət işçisi, biblioqraf alim professor Əliyev Zöhrab Hüseyn oğlunun (22.03.1933) anadan olmasının **80** illiyi



Tarixdə bu gün

Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)
Azərbaycan BMT-yə qəbul olunmuşdur (02.03.1992)
Bədən Tərbiyəsi və İdman Günü (05.03.2005)
Beynəlxalq Qadınlar Günü (08.03.1910)
Qızıl Aypara Günü (10.03.2008)
Milli Teatr Günü (10.03.1873)
Akademik Milli Dram Teatrının yaradılmasının (10.03.1873) **140** illiyi 100
Bakıda Azərbaycanın ilk milli teatr tamaşasının - M.F.Axundovun "Vəziri-xani Lənkəran" əsərinin səhnələşdirilməsinin **140** illiyi (10.03.1873)
SSRİ Nazirlər Soveti Ermənistandakı azərbaycanlı əhalinin deportasiyası haqqında ikinci qərar qəbul etmişdir (10.03.1948) 101
Azərbaycan aşıqlarının II qurultayı keçirilmişdir (11-14.03.1938)
Beynəlxalq Cəza Məhkəməsi fəaliyyətə başlamışdır (11.03.2003)
Naxçıvanda müntəzəm televiziya yayımının **50** illiyi (12.03.1963)
Daxili Qoşunlar Günü (12.03.1995) 102
Qubadlı rayonunun yaradılmasının (14.03.1933) **80** illiyi
Azərbaycanda Mətbuat Şurası yaradılmasının **10** illiyi (15.03.2003) 103
Ümumdünya İstehlakçılar Günü (15.03.1961)
Azərbaycanın Qərbində "Metallurqlar şəhəri" Daşkəsənin əsasının qoyulmasının **65** illiyi (16.03.1948) 104
Erməni quldur dəstələri Şamaxıda azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirmişlər (18.03.1918) 105
Novruz bayramı (20-24.03) 106
Beynəlxalq Novruz Günü (21.03.2010)
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) (21.03.1923) yaranmasının **90** illiyi 107
İrqi ayrı-seçkiliyin (diskriminasiya) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Ulu öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır (26.03.1998)
Beynəlxalq Teatr Günü (27.03.1948)
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997) 108
Bakıda erməni-daşnak və rus bolşevik dəstələrinin azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınları başlamışdır (30.03.1918)
"Şərqi-rus" qəzetinin nəşrə başlamasının **110** illiyi (30.03.1903)
Azərbaycanlıların Soyqırımının (31.03.1918) 95-ci ildönümü 109

80 illiyi

Cabir Novruz 1933-2002

Şair



Cabir Mirzəbəy oğlu Novruzov (Cabir Novruz) 1933-cü il mart ayının 12-də Xızı rayonunun Upa kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Mirzə Ələkbər Sabir adına Pedaqoji Texnikumda təhsil almış və 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur. Bir il sonra Azərbaycan Yazıçılar İttifaqının tövsiyəsi ilə təhsilini davam etdirmək üçün Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna göndərilmiş və 1957-ci ildə oranı bitirmişdir.

1958-ci ildə "Bakı" axşam qəzetinin Ədəbiyyat şöbəsində ədəbi işçi kimi əmək fəaliyyətinə başlayan Cabir Novruz 1967-1970-ci illərdə "Azərbaycan" ədəbi-bədii jurnalının, 1991-1993-cü illərdə isə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. O, 1970-1997-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur.

Şairin əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Şeirlərinə mahnılar bəstələnmişdir. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanmışdır.

"Mənim mugamatım", "İnsan təbiəti", "Həyat, sən nə qəribəsən", "Bir dünyam var", "İnsan himnləri", "Seçilmiş əsərləri" (iki cilddə) və s. kitabların müəllifidir.

Şairin ədəbi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1978-ci ildə "Əməkdar incəsənət xadimi", 1999-cu ildə "Xalq şairi" fəxri adlarına, dövlət mükafatına, 1986-cı ildə "Qırmızı əmək bayrağı" ordeni və medallara layiq görülmüşdür.

Cabir Novruz 1995-ci ildə Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Cabir Mirzəbəy oğlu Novruzov (Cabir Novruz) 2002-ci il dekabr ayının 12-də ömrünün 70-ci ilində vəfat etmişdir.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Cabir Novruz adına fond yaradılmış (2003), onun yaşadığı binaya (N.Nərimanov prosp.11) xatirə lövhəsi vurulmuş, Xızıda orta məktəbə onun adı verilmiş, eləcə də haqqında www.cabirnovruz.gen.az saytı hazırlanmışdır.

Saytda Cabir Novruzun həyat və yaradıcılığı haqqında məlumatlar, kitabları, tərcümələri, çap olunan və olunmayan şeirləri, onun haqqında yazılan rəylər, məqalələr, ədəbi tənqidlər, şairin sözlərinə yazılmış 128 mahnı, onlara çəkilmiş kliplər yerləşdirilmişdir. Saytda materiallar 3 – Azərbaycan, rus və ingilis dillərində verilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] / Cabir Novruz; ön sözün müəl. M.Cabiroğlu.- Bakı: Lider, 2004.-288 s.

Özünü qoru, xalqım [Mətn]: şeirlər və poemalar /Cabir Novruz.- Bakı: Azərbaycan, 2002.-352 s.

Vətən əbədi qoruqdur [Mətn]: şeirlər və poemalar /C.Novruz.- Bakı: Yazıçı, 1992.- 208 s.

İnternetdə

www. az.wikipedia.org

www. cabirnovruz.gen.az

www.lit.az

75 illiyi

Anar Rzayev 1938

Yazıçı



Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Anar.- Bakı: Lider, 2004.- 416 s.

Ağ qoç, qara qoç: (utopik və antiutopik nağıllar) [Mətn]/Anar; red. E.Məmmədyarova; rəssam İsmayıl.- Bakı: Azərnəşr, 2003.-184 s.

Atay, Ayşe. Beş katlı evin altıncı katındaki adam: Anar [Metn]: hayatı, sanatı ve hikayeleri /A.Atay; yayın yönet. A.Akbaş.- Ankara: Bengü, 2008.- 262 s.

Ziyalı sənətkar [Mətn]: məqalələr toplusu /red. Y.Həmidqızı.- Bakı: [s.n.], 2012.- 111 s.

Əfəndiyev, Ə. Anar - ömür yolu. Yaradıcılığı [Mətn]: Bio-biblioqrafik soraq kitabı /Ə.Əfəndiyev, Z.Əliyeva; red. G.Anarqızı 1-ci Kitab.- Bakı: [OSKAR NPM], 2011.- 607 s.

İnternetdə

www. az.wikipedia.org

www.icmal.az

www. kitab.az

Anar Rəsul oğlu Rzayev 1938-ci il mart ayının 14-də Bakıda anadan olmuşdur.

Burada onillik musiqi məktəbini bitirdikdən sonra 1955-1960-cı illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. 1960-1961-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat Muzeyində elmi işçi, 1961-1967-ci illərdə Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor işləmişdir.

1987-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi olmuş, 1991-ci ilin martından Azərbaycan Yazıçılar Birliyinin sədri seçilmişdir.

1960-cı ildə "Azərbaycan" jurnalının dekabr nömrəsində çap olunmuş "Keçən ilin son gecəsi" və "Bayram həsrətində" ilk mətbu hekayələridir.

Anarın müxtəlif ölkələrdə nəşr olunan kitablarının sayı 50-dən artıqdır.

1983-cü ildən Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin, 1993-cü ildən Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin sədri seçilmişdir. Azərbaycan ədəbiyyatı və incəsənəti ensiklopediyasının baş redaktorudur. 1993-cü ildə Türkiyədə İstanbul şəhəri Memar Sinan Universitetində Azərbaycan ədəbiy-yatı tarixindən mühazirələr oxumuşdur. Beynəlxalq Dialoq Avro-Asiya təşkilatının sədri, Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin üzvüdür.

12 bədii filmin və 10-dan artıq sənədli televiziya filminin ssenari müəllifidir. 8 pyesi Azərbaycanın bütün teatrlarında, habelə Türkiyədə, Moskvada, Bolqarıstanda, Özbəkistanda, Moldovada, Tatarıstanda, Türkmənistanda tamaşaya qoyulmuşdur. Əsərləri 20-dən artıq dilə çevrilmişdir.

1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

1995-ci ildə Azərbaycan Respublikası Konstitusiya Komissiyasının üzvü olmuşdur. Anar bir sıra dövlət və beynəlxalq mükafatların sahibidir. Azərbaycanın Əməkdar incəsənət xadimi (1976), Respublika Dövlət Mükafatı laureatı (1980), "Literaturnoye Obozreniye" jurnalının mükafatçısı (1987), "Şərəf nişanı" ordenli Xalq yazıçısıdır (1998). 1998-ci il martın 14-də ulu öndər Heydər Əliyev 60 yaşı münasibətilə yazıçını ölkənin ən yüksək dövlət mükafatı – İstiqlal ordeni ilə təltif etmişdir. Türkiyənin üç mükafatına layiq görülmüşdür (2000, 2002, 2003).

10 may 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yazıçılar Birliyinin sədri Anara Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətlərinə görə Heydər Əliyev Mükafatının verilməsi haqqında Sərəncam imzalamışdır.

75 illiyi

Samət Əlizadə 1938-2002

Dilçi alim



Samət Qürbət oğlu Əlizadə 1938-ci il mart ayının 14-də Xızı-Bərmək mahalının baş kəndi olan Xızıda anadan olmuşdur. O, orta təhsilini Siyəzən rayonunda almış, 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

Samət Əlizadə 1966-cı ildə elmlər namizədi, 1992-ci ildə isə "XVI əsr Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

O, azəri-türk dilçiliyinin çox sahələri üzrə görkəmli nailiyyətlər əldə etmiş alimdir. Samət Əlizadə bir çox beynəlxalq elmi yığıncaqların fəal iştirakçısı olmuş, Azərbaycan türk dilinin təbliğində böyük əmək sərf etmiş dilçi alimdir. O, 1965-ci ildə öz taleyini müəllimlik kimi çətin və şərəfli vəzifəyə bağlamış, Azərbaycan Dövlət Universitetində dərs demişdir. Onun hazırladığı tələbələr arasında onlarla tanınmış dilçi-türkoloq vardır.

Bir dilçi alim kimi, Samət Əlizadəni daha çox dilimizin tarixi maraqlandırmışdır. Tədqiqat obyekti kimi XVI yüzilliyi seçmişdir. "Şühədanamə"nin dilindən başlamış, bütün XVI əsrin dil səviyyəsini öyrənmişdir. Ümumən, dünya sivilizasiyasında olduğu kimi, Azərbaycan mədəniyyəti tarixində də XVI yüzillik əsrlər silsiləsində yüksək zirvədir. Bütövlükdə bu əsrin dili, ədəbiyyatı, tarixi, incəsənəti daha çox maraq doğurmuşdur.

Onun XVI əsrin ədəbi dilinə həsr etdiyi üç hissə, 8 fəsil, giriş, nəticə və kitabiyyatdan ibarət olan "XVI əsr Azərbaycan ədəbi dili" əsəri maraqla oxunur.

S.Əlizadənin tədqiqatçı kimi xoşbəxtliyi həm də onda idi ki, o, ərəb əlifbasına, bu əlifba ilə yazılmış əsərlərin imla qaydalarına gözəl bələd olmuşdur.

Ədəbi yaradıcılığa XX əsrin 60-cı illərdən başlamışdır. Dövri mətbuatda vaxtaşırı elmi və ədəbi-tənqidi məqalələrlə çıxış etmiş, bədii dil və üslub məsələlərinə xüsusi diqqət yetirmişdir. Türkiyənin Kayseri şəhərində keçirilən I Millətlərarası Böyük Azərbaycan konqresinin iştirakçısı olmuşdur.

O, 10 kitab, 200-ə qədər elmi məqalənin müəllifidir.

Samət Qürbət oğlu Əlizadə 2002-ci il may ayının 31-də vəfat etmişdir.

Ədəbiyyat

Yeni Azərbaycan yazısı [Mətn]: dərs vəsaiti /S.Əlizadə.- Bakı: Bakı Universiteti, 1993.- 158 s.

Kitabi Dədə Qorqud [Mətn]: elmi-tənqidi mətn /S.Əlizadə.- Bakı: Yazıçı, 1988.- 265 s.

Xəyal, S. Samət Əlizadə - 70 [Mətn]/Sona Xəyal; red. A.Musayeva.- Bakı: MBM-R, 2008.- 80 s.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www.elibrary.az

70 illiyi

Mövlud Süleymanlı 1943

Yazıçı



Mövlud Süleyman oğlu Balakişiyev 1943-cü il mart ayının 18-də indiki Ermənistanın Kalinino rayonunun Qızıl Şəfəq kəndində (əski adı Cücəkənd) doğulmuşdur. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuş, 1967-ci ildə oranı bitirmişdir.

M.Süleymanlı 1968-ci ildə Azərbaycan Dövlət Radiosuna işə qəbul edilmiş, əvvəlcə "Gənclik", sonra "Ədəbiyyat və incəsənət" baş redaksiyasında redaktor kimi çalışmışdır.

Ədəbi yaradıcılığa 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində çap olunan "Əllərim" adlı ilk şeirilə başlamışdır.

1974-cü ildə Cəfər Cabbarlı adına Azərbaycanfilm kinostudiyasına ssenarist kimi qəbul edilmişdir. XX əsrin 80-ci illərdə onun ssenarisi əsasında "Bəyin oğurlanması" və Moskva Dövlət Kinematoqrafiya Komitəsinin sifarişilə "Çətirimiz buludlardır" bədii televiziya filmləri çəkilmişdir.

1974-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Yazıçı 1976-cı ildə Azərbaycan Yazıçılar İttifaqına işə dəvət edilmiş, 1976-1980-ci illərdə Yazıçılar İttifaqının orqanı olan "Ulduz" jurnalında, 1980-1988-ci illərdə isə "Azərbaycan" jurnalında Nəsr şöbəsinə rəhbərlik etmişdir.

1992-1993-cü illərdə M.Süleymanlının baş redaktorluğu ilə "Oğuz eli" adlı müstəqil qəzet nəşr edilmişdir.

1992-ci ildə o, Azərbaycan Dövlət Televiziyasına işə dəvət edilmiş və televiziyanın "Xalq yaradıcılığı" redak-siyasına baş redaktor vəzifəsinə təyin edilmişdir.

Yazıçı Mövlud Süleymanlının Azərbaycan efirinə tarixi xidməti, Azərbaycan Radiosunu quru, statik dildən və bu əsasda hazırlanan verilişlərdən xilas etməsi olmuşdur. Bu gün Azərbaycan Radiosu hər kəsin anladığı, sevdiyi və qəbul etdiyi dillə və səslə danışır. İlk dəfə olaraq M.Süleymanlının ruhunun və qələminin məhsulu olan "Tanrı duaları" səhər erkən Azərbaycan Radilosu ilə evlərimizə nur, bərəkət, halallıq, vətən sevgisi çiləmişdi.

"Şeytan", "Dəyirman" əsərlərinə görə uzun müddət tənqidə məruz qalan və respublikanın təhlükəsizlik orqanları tərəfindən çək-çevir edilən M.Süleymanlı bir neçə dəfə Dövlət tərəfindən mükafatlandırılmışdır.

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, Azərbaycan Televiziya və Radio Verilişləri "Qapalı Səhimdar Cəmiyyətinin" sədr müavinidir. "Qızıl qələm", "Qızıl sünbül" , "Araz" ali ədəbi mükafatlarına (1995), "Köç" romanı ilə "İlin ən yaxşı əsərinə görə" mükafatına, ANASAM Ödül bəlgəsinə (Türkiyə, 2001), "Anadolu ədəbiyyatı" toplantısının "Takdir ödülü"nə layiq görülmüşdür.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /M.Süleymanlı.- Bakı: Şərq-Qərb, 2006.- 480 s.

Günah duası [Mətn] /M.Süleymanlı; red. M.Ələkbərli.- Bakı: Gənclik, 1993.-232 s.

Üç roman [Mətn]: Köç. Ceviz qurdu. Səs /M.Suleymanlı; red. X.Bəşirli; ön söz. müəl. S.Salahlı.- Bakı: Azərbaycan, 2004.-583, [1] s.

İnternetdə

www.anl..az

www.az.wikipedia.org

80 illiyi

Rüfət Əhmədzadə 1933-1988

Dramaturq



Rüfət Zülfüqar oğlu Əhmədzadə 1933-cü il mart ayının 25-də Bakıda anadan olmuşdur. Atası Zülfüqar Əhmədzadə xalq düşməni kimi həbs edildiyindən o, ailəsi ilə birlikdə Balakən rayonuna köçmüşdür. 1949-1951-ci illərdə burada orta məktəbi bitirdikdən sonra Balakən rayon kinolaşdırma idarəsində səyyar kinomexanik kimi əmək fəaliyyətinə başlamışdır.

1951-1956-cı illərdə Balakən rayon Mədəniyyət evinin direktoru olmuşdur.

Bədii yaradıcılığa 1953-cü ildə "Azərbaycan pioneri" qəzetində çap etdirdiyi "Əziz bayram" adlı ilk şeiri ilə başlamışdır.

Bakıya döndükdən sonra 1956-1959-cu illərdə Xətai rayonundakı pionerlər evində direktor vəzifəsində çalışmışdır. 1959-cu ildə "Kirpi" satirik jurnalının redaktoru Əvəz Sadıq onu jurnala dəvət etmiş və o ömrünün sonuna qədər bu jurnalda çalışmışdır. Korrektor vəzifəsindən baş redaktorun müavini vəzifəsinə qədər yüksəlmişdir. SSRİ yazıçılar və SSRİ jurnalistlər ittifaqının üzvü olmuşdur.

1963-1968-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. 10 kitab, 4 musiqili komediya ("Sizin ilə, gülə-gülə", "Bildirçinin bəyliyi", "92 dəqiqə gülüş", "Hələlik"), 3 televiziya tamaşası ("Sonuncu məhəbbət", "Gülüş sanatoriyası", "Şirbalanın məhəbbəti") və yüzlərlə satirik televiziya novella-səhnəciklərin müəllifidir. Bir çox tanınmış mahnılar onun şeirlərinə bəstələnmişdir.

Rüfət Əhmədzadə 1988-ci il dekabr ayının 15-də Bakıda, 55 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Hələlik [Mətn]: şeirlər /Rüfət Əhmədzadə .- Bakı : Yazıçı , 1991. - 192 s.

Məhəbbətlə gülüşlə şeirlər /R. Z. Əhmədzadə. - Bakı : Yazıçı , 1981. - 125, [3] s.

Mədətoğlu, Ə. Hamını güldürən... /Ə. Mədətoğlu //Ədalət. . - 2012.- 29 fevral.- S.7.

Günel. "Ölməyə vaxtı olmayan adam" /Günel //525-ci qəzet . - 2012.- 24 fevral.- S. 7.

Rüfət Əhmədzadə [Mətn] //T.Əhmədov XX əsr Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı: Nurlar Nəşriyyat-poliqrafiya mərkəzi, 2004.- S.746.

İ n t e r n e t d ə

www. anl.az

60 illiyi

Fəridə Hacıyeva
1953

Şairə



Fəridə Məcid qızı Hacıyeva 1953-cü il mart ayının 30-da Sumqayıt şəhərində anadan olmuşdur.

1971-ci ildə N.K.Krupskaya adına Kitabxanaçılıq Texnikumunu bitirmiş, 1971-1976-cı illərdə Azərbaycan Dövlət İncəsənət Universitetində təhsil almışdır.

1972-ci ildə M.F.Axundov adına Dövlət Kitabxanasında kitabxanaçı, 1983-1992-ci illərdə Mədəniyyət Nazirliyi Aşıqlar Birliyində metodist və daha sonra Folklor şöbəsinin müdiri işləmişdir.

1992-ci ildən bugünə kimi M.F.Axundov adına Milli Kitabxanada Dövri mətbuat bölməsinə rəhbərlik edir.

1982-ci ildən Azərbaycan televiziya, radio və dövri mətbuatında müntəzəm olaraq şeirləri ilə çıxış etmişdir.

"Yeni səslər" poeziya almanaxında şeirləri çap olunmuşdur.

"Məni məndən alan dünya", "Dünyama qovuşacağam", "Göylər pənahım mənim", "Bağışla Vətən, bağışla", "Qaytaram tanrı sevgisin" kitabları, "Azərbaycan poeziya almanaxı-3"də, "Azərbaycan harayı" antologiyasında, "Azərbaycan qadın şairləri" kitabında şeirləri çapdan çıxmışdır.

Şairə həm də tərcümə ilə də məşğul olmuş, görkəmli rumın şairi Mixay Emineskunun şeirlərinin tərcüməsindən ibarət "Ulduzlardan pay istərəm" adlı şeir kitabı çap olunmuşdur. Rumıniyanın Konstansiya şəhərində həmin kitabın təqdimat mərasimi keçirilmişdir.

1984-cü ildən Aşıqlar Birliyinin, Aşıq Pəri məclisinin, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1999-cu ildən Məhsəti Gəncəvi Məclisinin və İdarə heyətinin üzvüdür.

2000-ci ildən Azərbaycan-Rumıniya Mədəni Əlaqələr Birliyinin üzvü və sədr müavini olmuşdur.

Xidmətlərinə görə 2003-cü ildə "Araz" ali ədəbi media mükafatının, 2004-cü ildə Məhsəti Gəncəvi adına fəxri diplomları ilə, 2004-cü ildə "Qızıl qələm" fəxri media mükafatı ilə, 2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin fəxri diplomları ilə təltif edilmişdir. 2010-cu ildə Prezident təqaüdünə layiq görülmüşdür (2010).

Türkiyənin Konya şəhərində Mevlana və Mevləvilik simpoziumunun iştirakçısı olmuş, orada dəfələrlə şeirləri çap olunmuş, "Qaytaram Tanrı sevgisin" adlı kitabı haqqında dərgilər və qəzetlərdə yazılar çap olunmuşdur.

Ə d ə b i y y a t

Bağışla, Vətən bağışla [Mətn] /F.Hacıyeva; red. Elmira Fərruxzadə.- Bakı: Adiloğlu, 2004 .- 218 s.

Qaytaram tanrı sevgisin... [Mətn] /F.Hacıyeva; red.: E.Fərruxzadə, M.Əsədov; rəssam Y.Əsədov, S.Nağı.- Bakı: Adiloğlu, 2006.-254 s.

Hu Mevlam, hu... [Mətn]: [şeirlər] /F.Hacıyeva; red. N.Şahbazova; rəssam S.Nağı.- Bakı: Adiloğlu, 2010.- 287, [1] s.

Məhərrəmli, Q. Rumıniyada Azərbaycanı tanıyır və sevirlər [Mətn]: F.Hacıyevanın tərcüməsində nəşr edilən kitab haqqında /Q.Məhərrəmli //Respublika.- 2001.- 11 avqust.

"Mən Mövlanə aşiqiyəm" [Mətn]: F.Hacıyeva ilə müsahibə /müsah. apardı N.İsfəndiyarqızı //Kaspi.- 2012.- 9-11 iyun.- S.15.

İ n t e r n e t d ə

www. anl.az

Folklor

120 illiyi

Aşıq Şəmşir 1893-1980

Aşıq-şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /Aşıq Şəmşir; köçürən Dr. Hüseyn Şərgi (Soytürk).- Tehran: Negmeye Zendegi, 2008.- 387 s.

O Kürün, Arazın Tərtəriyəm mən [Mətn] /Aşıq Şəmşir; tərt. ed. Q.Şəmşiroğlu; red. M.Aslan; rəssam Y.Əsədov.- Bakı: [Sabah], 2004.- 510 s.

Dədə Şəmşir yaddaşlarda [Mətn]: [xatirələr] /topl. tərt. ed. Q.Şəmşiroğlu; red. və ön söz. müəl. F.Ramazanoğlu.- Bakı: Gənclik, 2000.- 360 s.

Şəmşiroğlu, Q. Axtarıb Şəmşiri görmək istəsən... [Mətn]: xatirələr /Q.Şəmşirli; tərt. ed., red. və ön söz. müəl. F.Ramazanoğlu.- Bakı: Adiloğlu, 2003.- 158 s.

Aşıq Şəmşir [Mətn] //Azərbaycan aşıq şeirindən seçmələr: 2 cilddə.- Bakı: Şərq-Qərb, 2005.- C.2.- S.212-229.

Nəbioğlu, M. Aşıq Şəmşir [Mətn] //Musa Nəbioğlu. Ozan-aşıq dünyası.- Bakı: Nurlan, 2010.- S.23.

www. anl.az

www.kataloq.net

Şəmşir Qurban oğlu Qocayev 1893-cü il mart ayının 15-də Yelizavetpol quberniyasının Cavanşir qəzasının (indiki Kəlbəcər rayonu) Dəmirçidam kəndində doğulmuşdur. İlk tərbiyəçisi və ustadı atası Aşıq Qurban və Aşıq Ələsgər olmuşdur.

1907-ci ildə ailəsi Ağdaban kəndinə köçmüş və o, burada 1910-1914-cü illərdə çobanlıq etmişdir.

1914-cü ildə saz sənəti aləminə gəlmiş, müstəqil aşıqlığa başlamışdır. 1920-ci ildə Qamışlı kəndində yeddiillik məktəbi bitirmiş, kənd sovetində katib işləmişdir. Sənətkar ailəsində doğulan Şəmşir çox keçmədən el yığıncaqlarında tanınmağa başladı. Miskin Abdal nəslinin davamçısı olan Dədə Şəmşiri bütün Azərbaycana daha yaxından tanıdan böyük Səməd Vurğun olub. İstisu yaylaqlarında istirahət edən görkəmli şair günlərin birində özünəməxsus səsi, sözü və çalğısı olan bir ozanla - Aşıq Şəmşirlə tanış olur və ona məşhur qoşmasını həsr edir.

Dədə Şəmşir qələmə aldığı qoşma, gəraylı, təcnis, divani, bayatı, rübai, qəzəl və müxəmməslərlə Kəlbəcər ədəbi mühitini, eləcə də yazılı və şifahi poeziyamızın ən önəmli cəhətlərini ustalıqla mənimsəyən söz sənətkarı kimi öz məktəbini yaratmışdı. Onun 40-dan artıq şəyirdi vardı. Aşıq Qardaşxanın, Qəmkeş Allahverdinin, Aşıq Xalıqverdinin və bu gün çoxlarının yaxşı tanıdığı onlarla saz-söz sənətkarlarının yetkinləşməsində, kamilləşməsində Aşıq Şəmşir məktəbinin əvəzsiz rolu olub. Bu məktəb təkcə aşıq sənətinə deyil, ümumən saz-söz sənətinə təsir göstərməklə Bəhmən Vətənoğlu, Sücaət kimi şairlərin yetişməsinə münbit zəmin yaradıb.

Aşıq Şəmşirin qeyri-adi səsi və çalğısı saz-söz sərrafı olan Kəlbəcər ellərində yüksək dəyərləndirilir, ustad sənətkarın orijinal ifaçılığı və şairliyi heç kəslə müqayisə edilmirdi. Nə yaxşı ki, fitrət sahibinin lent yazıları bu günümüzəcən gəlib çatıb. İlk dəfə musiqişünas Əminə Eldarova Aşıq Şəmşirin ifasında 75 aşıq havasını lentə köçürüb. İndi Azərbaycan Dövlət Radiosunun qızıl fondunda mühafizə olunan bəzi lent yazıları aşığın Əminə xanım tərəfindən 1958-ci ildə yazılan saz havalarıdır.

1938-ci ildə Azərbaycan aşıqlarının II qurultayında iştirak etmişdir. İlk mətbu qoşması "Aşığın səsi" adlı şeirlər toplusunda çap olunmuşdur. Xidmətlərinə görə şair, "Şərəf Nişanı" ordeni, "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmiş, 1957-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür.

Aşıq Şəmşir 1980-ci il fevral ayının 10-da vəfat etmişdir. Aşığın Ağdaban kəndindəki evi erməni quldurları tərəfindən dağıdılmışdır.

Dünya ədəbiyyatı

100 illiyi

Sergey Mixalkov 1913-2009

Rus şairi



Sergey Vladimiroviç Mixalkov 1913-cü il mart ayının 13-də Moskvada anadan olmuşdur.

Uşaqlar üçün canlı, maraqlı dildə yazdığı şeirlərində ("Styopa dayı", "Bəs sizdə nə var?" və s.) və pyeslərində ("Qırmızı qalstuk" 1946, "Qiymətli oğlan" 1971) vətənə məhəbbət, nəcib mənəvi-əxlaqi keyfiyyətlər aşılanır.

Böyük Vətən müharibəsi illərində hərbi müxbir kimi oçerk, hekayə, satirik şeir və felyetonlar yazmışdır. Mixalkovun aktual mövzulu təmsilləri məşhurdur. Böyüklər üçün yazdığı "İlya Qolovin" (1950) pyesi, "Ovçu" (1956), "Vəhşilər" (1958), "Özünə abidə..." (1959), "Xərçənglər", (1960) satirik komediyaları əhali arasında böyük rəğbət qazanmışdır. Onun gənc nəslin tərbiyəsindən bəhs edən "Hər şey uşaqlıqdan başlanır" (1968), "Zamanın əlamətləri" (1976) adlı kitabları vardır. Əsərləri bir çox dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. "Xərçənglər", "Qiymətli oğlan" pyesləri Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur.

S.V.Mixalkov SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi, RSFSR Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, 1962-ci ildən "Fitil" satirik jurnalının baş redaktoru vəzifələrində çalışmışdır.

1973-cü ildə Sosialist Əməyi Qəhrəmanı adı almış, 3 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni, 3 başqa orden və medallarla təltif olunmuşdur. Mixalkov 1971-ci ildən SSRİ Pedaqoji EA-nın həqiqi üzvü olmuşdur.

Sergey Mixalkov SSRİ-nin, eləcə də müstəqil Rusiyanın himninin müəllifidir. Daha çox uşaq şeirlərinin müəllifi kimi tanınan şair populyar kino və cizgi filmlərinə də ssenarilər yazmışdır.

Sergey Mixalkov təxminən 20 il ərzində RSFSR Yazıçılar Birliyinə rəhbərlik etmişdir. RSFSR və SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Sovet ədəbiyyatının klassiki Sergey Mixalkov 2009-cu il avqust ayının 27-də 96 yaşında vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /S.V.Mixalkov; tərc. Z.Sarıtorpaq; bur. məsul Ə.Güləliyev.- Bakı: Şərq-Qərb, 2007.-152 s.

Избранные произведения [Текст]: в 3-х т.- М.: Худож. лит., 1991.-Т.1: Стихотворения. Перевозы. Сказки. Театр для детей.- 541 с.; Т.2: Басни и сатирические стихи. Рассказы. Миниатюры. Комедии.-1991.- 510 с.

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

145 illiyi

Maksim Qorki
1868-1936

Rus yazıçısı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn]: iki cilddə /M.Qorki; [tərc. M.Arif, H.Şərif].- Bakı: Avrasiya press, 2006.- C.I.- 264 s.; C.II.- 360 s.

www..anl.az

Aleksey Maksimoviç Peşkov (Maksim Qorki) 1868-ci il mart ayının (16)28-də Rusiyanın Novqorod əyalətində anadan olmuşdur. 8 yaşında əmək fəaliyyətinə başlamış, və bu hələ uşaq ikən cəmiyyətə inteqrasiya etməsinə yaxından kömək etmişdir. Gəmilərin birində qab-qacaq satmaqla məşğul olan yazıçının istedadı məhz bu illərdə ortaya çıxmışdır. Tüfeyli həyat tərzi keçirən, dəfələrlə intihara cəhd edən və yoxsulluğa məhkum olan yazıçı "Qorki" təxəllüsünü də məhz rus dilindən tərcümədə ağrılı-acılı həyat mənasını ifadə etdiyinə görə götürmüşdür.

Qorki gənclik illərini Kazanda keçirmişdir. Yazıçının ilk hekayələri Tiflisdə olduğu müddətdə jurnalda dərc olunmuşdur. 1895-ci ildə Peterburqda nəşr olunan jurnalların birində çıxan "Çelkaş" adlı məqaləsiylə məşhurluğun qapılarını açan Qorki, sonradan yazdığı "26 kişi və 1 qız" hekayəsiylə daha da tanınmışdır. 1902-ci ildə Peterburq Elm və Sənət Akademiyasının üzvü seçilmişdir. 1906-cı ildə ABŞ-a səyahət edən Qorki, sonradan Rusiyadan ayrılmış, Kapri adasındakı malikanəsində yaşamağa başlamışdır.

Yazıçı 1913-cü ildə yenidən Rusiyaya qayıtmış və 1936-cı il iyun ayının 18-də burada vəfat etmişdir.

31

190 illiyi

Aleksandr Ostrovski
1823-1886

Rus yazıçısı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn]: pyeslər /A.N.Ostrovski; rus dilindən tərc. ed. Y.Əzimzadə, Ə.Məmmədxanlı, R.Təhmasib.- Bakı: Şərq-Qərb, 2006.- 312 s.

Aleksandr Nikolayeviç Ostrovski 1823-cü il mart ayının 31-də (bəzi mənbələrdə aprel ayının 12-də) Kostroma vilayətinin Ostrovski rayonunda anadan olmuşdur. 1840-1843-cü illərdə Moskva Universitetinin hüquq fakültəsində təhsil almış, 1843-1851-ci illərdə Moskva məhkəmələrində işləmişdir.

İlk əsərləri 1847-ci ildə dərc olunmuşdur. 1850-ci ildə tamaşaya qoyulan "Öz adamlarımızdır, düzəlişərik" satirik komediyası I Nikolayın göstərişi ilə qadağan edilmişdir. "Yaxşılıq eyib deyil", "Gəlirli yer", "Tufan" və s. pyeslərində mühüm sosial və əxlaqi problemlərə toxunmuş, pulun hakim kəsildiyi cəmiyyəti və despotizmi kəskin tənqid atəşinə tutmuşdur. Onun dramaturgiyası rus teatr sənətinin inkişafında mühüm rol oynamışdır.

Yazıçının əsərləri hələ keçən əsrdə Azərbaycan dilinə tərcümə olunmuş, pyesləri Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur. Ostrovski 1883-cü ildə Bakıda olmuş, gündəliyində Bakı səfəri haqqında maraqlı qeydlər etmişdir. 1886-cı il iyun ayının 2(14)-də Moskvada vəfat etmişdir.

90 illiyi

Nəcəfqulu İsmayılov 1923 -1990

Rəssam



Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov 1923-cü il mart ayının 15-də Bakıda anadan olmuşdur. 1940-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir.

İlk yadda qalan əsərləri ilə artıq 1940-cı ildən etibarən sənətə gələn N.İsmayılov daima sənət yollarında axtarışda olmuş, novatorluğu ilə seçilmişdir. Yaradıcılığının ilk illəri müharibə dövrünə təsadüf etdiyindən, dövrünün digər rəssam həmkarları kimi müharibə mövzusuna həsr edilmiş tablolar yaratmışdır. "Ana", "Həzi Aslanov", "A.Quliyev" portretləri bu qəbildəndir.

Xalq rəssamı, Əməkdar incəsənət xadimi Nəcəfqulu İsmaylov çoxşaxəli yaradıcılıq diapazonuna malik bir rəssam olmuşdur. Poeziyaya vurğunluğundan neçə-neçə görkəmli şair və ədibin portretini özünəməxsus yüksək sənətkarlıqla yaratmışdır. İ.Nəsimi, M.Füzuli, Nizami Gəncəvi, M.Ə.Sabir, Səməd Vurğun... və daha bir çox klassiklərin portretləri Nəcəfqulu fırçasının məhsuludur.

Rəngkar, portret ustası, qrafik, karikaturaçı kimi yaddaşlara həkk olunmuş görkəmli sənətkar, dostluq şarjları, barelyeflər, qalvanika, qalvanoplastika sahəsində də özünü sınamışdır.

Nəcəfqulu İsmayılovun qrafika sahəsindəki fəaliyyəti də təqdirəlayiqdir. Onun C.Məmmədquluzadənin məşhur "Ölülər" əsərinin personajlarını əks etdirən qrafik illüstrasiyaları - Qurbanəlibəy, Usta Zeynal, M.Ə. Sabirin "Hophopnamə"sinə çəkdiyi dörd illüstrasiya, "Köhnə Bakı" qrafik albomu, "Köhnə Bakının tipləri", "Sabir və onun tipləri" qrafik illüstrasiyaları və başqalarını qeyd etmək olar. Tuş və quaşla işlənmiş bu qrafik illüstrasiyalar rəssamın bədii yaradıcılığını dəfələrlə nümayiş etdirmişdir.

Daim axtarışda olan rəssam Nəcəfqulu İsmayılov Azərbaycan milli mədəniyyətinə, bu mədəniyyətin atributlarından olan milli geyimlərə xüsusi qayğı və diqqətlə yanaşmış və "Azərbaycan geyimləri (tiplər)" jurnalını yaratmışdır.

1963-cü ildə Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Əsərləri ADR, Kanada, Livan və s. ölkələrdəki sovet sərgilərində nümayiş etdirilmişdir.

Görkəmli rəssam 1990-cı ildə vəfat etmişdir.

Ədəbiyyat

Abdullayev, V. Əməkdar incəsənət xadimi rəssam Nəcəfqulu İsmayılovun yaradıcılığı [Mətn]: sənətşün. n. al. dər. a. üçün təq. ed. dis.: 17.00.09 /V.Abdullayev; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Rəssamlıq Akad.- Bakı, 2009.- 138 s.

Abdullayev, V. Rəssam Nəcəfqulu İsmayılovun karikatura yaradıcılığı [Mətn] /V.Abdullayev //Qobustan.- №4.- 2010.- S.73-76.

Abdullayev, V. Nəcəfqulunun qrafika yaradıcılığı [Mətn] /V.Abdullayev //Mədəni-maarif: jurnal.- 2010.- №12.- S.36-40.

Abdullayev, V. Əməkdar incəsənət xadimi, rəssam Nəcəfqulu İsmayılovun rəngkar kimi formalaşması [Mətn] /V.Abdullayev //Elmi əsərlər: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.- 2011.- №11.- S.148-155 .

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

30

105 illiyi — Şamil Qazıyev 1908-1980 — Rəssam

Şamil Həsən oğlu Qazıyev 1908-ci il mart ayının 30-da İrəvanda anadan olmuşdur.

1929-cu ildə Bakıda Rəssamlıq Məktəbini bitirmiş və Naxçıvan Pedaqoji Texnikumuna rəsm müəllimi vəzifəsinə göndərilmişdir.

O, 1934-cü ildə "Şərq qapısı" qəzetinin, eyni zamanda C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrının baş rəssamı olmuş burada 120-dən çox tamaşaya bədii tərtibat vermişdir.

Məhz onun təşəbbüsü ilə Naxçıvan şəhərində 1940-cı ildə rəssamlıq məktəbi açılmışdır. İkinci Dünya müharibəsi illərində həmin məktəbin direktoru olan Şamil Qazıyev hərtərəfli yaradıcılıq fəaliyyətinə görə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1948-ci ildən ömrünün sonunadək "Azərbaycan gəncləri" qəzetində rəssam işləmişdir.

Qrafik əsərlərin - etüd, natürmort, portret və s. müəllifidir. Şamil Qazıyevin "Çoban" əsəri bəyənilərək Tretyakov qalereyasına aparılmışdır. 1931-ci ildə SSRİ rəssamlarının Tiflisdə keçirilən səyyar sərgisində nümayiş etdirilmişdir. Yaradıcılığında Naxçıvanın tarixi, təbiəti, həyat və məişəti ilə bağlı əsərlər əsas yer tutur. Əsərlərinin çoxu Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır.

Şamil Qazıyev 1980-ci il iyul ayının 13-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Qazıyev Şamil Həsən oğlu [Mətn] //Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.- S.269.

Шамил Казиев [Каталог].- Баку, 1978.

30

160 illiyi — Van Qoq 1853-1890 — Holland rəssamı

Vinsent Villem van Qoq 1853-cü il mart ayının 30-da Hollandiyanın Breda şəhəri yaxınlığındakı Qrut-Zundert məntəqəsində anadan olmuşdur.

1880-ci ildən başlayaraq, təsviri incəsənətlə məşğul olmağa başlamışdır. Brüssel (1880-1881) və Antverpendə (1885-1886) rəssamlıq akademiyalarında təhsil almışdır.

Van Qoq sənətinə XIX əsrin 1880-ci illərindən başlayaraq diqqət göstərilir. İlk əsərlərində tünd rənglərə, kəskin keçidlərə, "qəmgin" mövzulara rast gəlinir. ("Kəndli qadın" 1885 (Kröller-Müller Dövlət Muzeyi), "Otterlo"; "Kartof yeyənlər", 1885 (V.van Qoq fondu, Amsterdam)

XX əsrin əvvəllərində Paris (1901-1905), Amsterdam (1905), Köln (1912), Nyu-York (1913) və Berlində (1914) sərgiləri təşkil olunmuşdur. Məhz bu sərgilər Van Qoqun dahiliyinin hamı tərəfindən qəbul edilməsinə səbəb olmuşdur.

Ümumilikdə, Van Qoq həyatı boyu 2000-dən artıq şəkil, eləcə də 3000-ə yaxın rəsmin müəllifidir ki, onlardan ən məşhurları həyatının son iki ilini əhatə etmişdir.

Görkəmli rəssam 1890-cı il iyul ayının 29-da intihar etmişdir.

Ə d ə b i y y a t

Yusifoğlu, B. Van Qoq: "Mən belə ölüm istərdim" [Mətn] /B.Yusifoğlu //Ədalət.- 19 yanvar.-2010.- S.5.

80 illiyi

Rübabə Muradova
1933-1983

Müğənni



Rübabə Xəlil qızı Muradova 1933-cü il mart ayının 22-də Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Ailənin ilk övlad payı olan Rübabə Ərdəbil Qızlar məktəbində təhsil almışdır. Atası Pişəvəri hərəkatının ən fəal üzvlərindən olmuşdur. 1946-cı ildə siyasi mühacir ailəsi olaraq doğma torpaqlarını tərk etmək məcburiyyətində qalmış, əvvəl Astarada, sonralar isə Salyanda məskunlaşmışdılar.

Rübabə Muradova Salyanda orta məktəbdə təhsilini davam etdirmiş, elə məktəbdə də onun məlahətli səsini aşkarlamışdılar. Bundan sonra Rübabə musiqi dərnəklərindən birinə üzv olmuşdu. Dərnəkdə Qulu Əsgərovla tanış olan Rübabə, tamaşalarda, tədbirlərdə çıxış etməyə başlamışdı.

Dram Teatrının aktyorları Salyanda qastrol səfərində olarkən "Vaqif" dramının nümayişi zamanı Xuraman obrazını oynayan aktrisa xəstələndiyi üçün bu rolu Rübabə oynamalı olur. Bu zaman onun 16 yaşı var idi. Ələsgər Ələkbərov ona Bakıya gəlməyi məsləhət görür.

Rübabə Muradova 1950-ci ildə Bakıya gəlir və Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin muğam şöbəsində təhsil almağa başlayır. 1955-ci ildə A.Zeynallı adına Bakı Musiqi Məktəbini (S.Şuşinskinin sinfini) bitirir. Güclü, təsirli və müxtəlif çalarlı səsə, original ifaçılıq üslubuna malik müğənnini Həqiqət Rzayeva, Gülxar Həsənova kimi sənətkarlar Leyli roluna hazırlaşdırmağa başlayırlar.

Rübabə Muradova 1954-cü ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, səhnədə bir-birindən gözəl rollar yaratmışdır. Leyli (Üzeyir Hacıbəyli – "Leyli və Məcnun"), Əsli (Üzeyir Hacıbəyli – "Əsli və Kərəm"), Şahsənəm (Z. Hacıbəyli – "Aşıq Qərib"), Sənəm (Ş.Axundova – "Gəlin qayası") və başqa partiyalar ifa etmişdir. Muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı olmuşdur. Onun ifa etdiyi "Qara gilə", "Heydər babaya salam" bu gün də dillər əzbəridir. Filarmoniyada anşlaqla keçən konsertləri indi də çoxlarının xatirindədir. Misilsiz lent yazıları Qızıl fondda qorunur.

1971-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Həyatının son anına qədər vətən nisgili Rübabə xanımın ürəyindən getməmiş, 13 yaşında ayrıldığı torpağına bircə dəfə ayaq basmaq arzusu ürəyində qalmışdır. Doğulub böyüdüyü Ərdəbili, evini yenidən görmək xoşbəxtliyi ona nəsib olmamışdır. Bu nisgildən ağır xəstəliyə düçar olmuş, yataq xəstəsinə çevrilmişdi.

Rübabə Muradova 1983-cü il avqust ayının 30-da Bakıda vəfat etmiş, Yasamal qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat

Əfşani, N. Ömür keçdi, gələmmədim gec oldu [Mətn]: Rübabə Muradova //Əfşani, N. Məhəbbət harayı: Publisist və bədii əsərlər; red. Ş.Şahməmmədov.- Bakı, 2002.– S.373-376.

Rzayev, A. Xatirələrdə yaşayan sənətkar [Mətn] /A.Rzayev.- Bakı: Şirvannəşr, 2008.- 22 s.

Xəlilzadə, F. Xəyalımda ağlayan "Qaragilə" [Mətn] /Flora Xəlilzadə //Mədəniyyət .-2011.- 10 iyun .- S. 13.

Vətən həsrətli sənətkar...: Rübabə Muradova muğam, təsnif və xalq mahnılarının mahir ifaçısı idi [Mətn] //Şərq.- 2011.- 17 fevral.- S.11.

İnternetdə

www..anl.az

www.mugamradio.az

az.wikipedia.org

www.mainboard24.com

120 illiyi

Fatma Muxtarova 1893-1972

Opera müğənnisi



Fatma Səttar qızı Muxtarova 1893-cü il mart ayının 26-da Cənubi Azərbaycanın Urmi (Urmiya) şəhərində doğulmuşdur. Uşaq yaşlarında ailəsi Rusiyaya köçmüşdür. Əvvəlcə Rostovda yaşamış və bir neçə ildən sonra Peterburqda məskunlaşmışlar.

Saratov Konservatoriyasının professoru M.Y.Medvedyevin köməyi ilə 1914-cü ildə Saratov Konservatoriyasını bitirdikdən sonra Moskvaya köçmüş, F.İ.Şalyapinin vasitəsilə S.İ.Ziminin opera teatrına dəvət olunaraq 1917-ci ilədək burada oxumuşdur.

Vətəndaş müharibəsi illərində Fatma Muxtarova təbliğat-konsert briqadalarına qoşulmuş, Qırmızı ordunun döyüş bölgələrində konsertlər vermişdir. İstənilən dinləyici auditoriyası üçün çevik və dəyişkən repertuarla çıxış etməyi böyük məharətlə bacaran gənc müğənni 1920-ci ildən Kazan, Leninqrad, Kiyev, Xarkov, Odessa, Tbilisi və s. şəhərlərin opera teatrlarında oxumuşdur. Həmin teatrlarda əsasən Qərbi Avropa və rus klassik sənətkarlarının əsas sevgili partiyalarının füsünkar ifaçısı kimi şöhrətlənmişdir. Buna görə də, onu vaxtaşırı bir teatrdan digərinə dəvət edirdilər.

Sənətin kamillik zirvəsinə çatan, vokal ifaçılığının ən zərif və emosional incəliklərini mənimsəyən Fatma xanım həm yaşının, həm də sənətkarlığının müdrik çağında, 1938-ci ildə Bakıya dəvət almışdı. Həmin ildən 1953-cü ilə qədər Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur.

Görkəmli opera solistinin yaradıcılığının zirvəsi Karmen partiyası sayılır. Müğənni bu partiyanı müxtəlif teatrlarda zəfərlə ifa etmişdir. Fatma Muxtarovanın karmenin ifasında əldə etdiyi nailiyyət dünyanın ən qüdrətli ifaçılarının həmin partiyada qazandıqları qələbələrlə bir cərgədə dəyərləndirilir. O, bu partiyanı həm Azərbaycan, həm də rus dillərində oxumuşdur.

Fatma Muxtarova müxtəlif opera teatrlarının səhnəsində klassik ifaçılardan Fyodor Şalyapin, Bülbül, Sergey Lemeşev ilə birgə çıxış etmişdir.

1938-1953-cü illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının, Tiflis opera teatrının səhnəsində qazandığı nailiyyətlərə, milli opera sənətimizin tərəqqisindəki böyük xidmətlərinə görə vokal ustası, opera solisti 1936-cı ildə "Gürcüstan Respublikasının Əməkdar artisti" və 1940-cı il fevral ayının 23-də "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adları ilə "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

Fatma xanım Səttar qızı Muxtarova 1972-ci il oktyabr ayının 19-da Bakıda vəfat etmiş və İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Fatma Muxtarova [Mətn] //Qadınlar Azərbaycanın musiqi həyatında: Women in Azerbaijans Music /red., tərt. A.Bayramova.- Bakı, 2004. - S.10.11.

Kuroçkina, S. Aktrisa haqqında povest [Mətn] /S.Kuroçkina; tərc. ed. T.Vəliyev; red. İ.Dağlar; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: "E.L." NPŞ MMC, 2007.- 148 s.

Muxtarova Fatma Səttar qızı [Mətn] //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.-S.158.

Rəhimli, İ. Fatma Muxtarova [Mətn] //İ.Rəhimli Azərbaycan teatr tarixi.- Bakı, 2005. – S.275.

İnternetdə

www. adam.az

www. files.preslib.az

www.musigi-dunya.az

100 illiyi

Əliağa Ağayev 1913-1983

Aktyor



Əliağa İsmayıl oğlu Ağayev 1913-cü il mart ayının 22-də Bakı şəhərində doğulmuşdur. 1930-cu ildə yeddinci sinfi bitirərək Paris kommunası adına Gəmi Təmiri Zavodu nəzdindəki sənət məktəbində oxumuşdur. İki il sonra oranı bitirərək zavodda gəmi çilingəri işləmişdir. Bəm və şirin zümzüməli səslə işdə də dodaqaltı oxuyan Əliağa zavodun dram dərnəyinə yazılmışdır. İlk rolu Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyasında Hacı Qara olmuşdur.

Aktyor 1936-cı ildə Fəhlə Uşaqlar Teatrının (indiki Gənc Tamaşaçılar Teatrı (GTT) kollektivinə daxil olmuşdur. Peşəkar teatrda səhnəyə ilk dəfə Jül Vernin "Kapitan Qrantın uşaqları" dramının tamaşasında Dik rolunda çıxmışdır.

Müxtəlif çeşidli rolları, xüsusən "O olmasın, bu olsun" bədii filmindəki Məşədi İbad obrazı ilə respublikadan kənarda da şöhrətlənən Əliağa Ağayev 1961-ci ilin payızında Akademik Milli Dram Teatrının kollektivinə qəbul olunmuşdur. Bu teatrda ilk orijinal rolu Şıxəli Qurbanovun "Əcəb işə düşdük" komediyasında Abış Surxayeviç obrazıdır.

İyirmi iki il Akademik teatrda işləyən sənətkar bu səhnədə Vasin ("Tanya", A.Arbuzov), Allanəzər ("Kimdir müqəssir?", H.Muxtarov), Qulaməli, Alışov, Nağı ("Közərən ocaqlar", "Kəndçi qızı" və "Yaxşı adam", M.İbrahimov), Birinci məzarçı, Stefano ("Hamlet" və "Fırtına", V.Şekspir), Pişta Orbek ("Füsunkar qız", M.Dyarfaş), Keşiş Bazilo ("Bu qadın mənimdir", R.Juniyor), Anatoli Novoseltsov ("Sevgi... sevgi...", E.Braginski və E.Ryazanov), Rüstəm Zaloviç, Ağadayı ("Kölgələr pıçıldaşır" və "Mənziliniz mübarək!", S.Dağlı), Səfər ("Söz yarası", Q.Rəsulov), Sərxan ("Görünməmiş toy", A.Arkanov və Q.Qorin), Tosun ("Səyavuş", H.Cavid), Nəsir bəy, Aslan, Bərbərzadə, Kərəmov, ("Küləklər", "Yalan", "Xoşbəxtlər" və "Toy", S.Rəhman), Vəzir ("Karıxmış Sultan", Taufiq əl Hakimi), Hacı Əbdüləzim ("Dəli yığıncağı", C.Məmmədquluzadə), Mirzə Səməndər, Babakişi ("Almaz" və "Sevil", C.Cabbarlı), İbiş İbişli ("Adamın adamı", Anar)... rollarında çıxış etmişdir. Əliağa Ağayev kinoda Məşədi İbaddan əlavə Xan ("Sehrli xalat"), Şıxəli ("Görüş") kimi irihəcmli rollarla yanaşı, "Əhməd haradadır?" (Kassir), "Qanun naminə" ("Mehman", Anbardar), "Bir məhəlləli iki oğlan" (Feyzi), "İstintaq davam edir" (Kişi) və digər filmlərdə yaddaqalan epizodik surətlərdə çəkilmişdir. Televiziyanın fondunda aktyorun iştirak etdiyi tamaşaların və satirik səhnəciklərin lentləri saxlanır.

O, 1943-cü ildə "Respublikanın Əməkdar artisti", 1954-cü ildə "Xalq artisti" fəxri adları ilə təltif olunmuşdur.

Ə.Ağayev 1983-cü il noyabr ayının 3-də pərəstişkarları və dostları ilə süfrə arxasında lətifə söyləyib güldüyü yerdəcə gözlərini həyata əbədi qapamışdır.

Ədəbiyyat

Çingiz. Görkəmli gülüş ustası: Əliağa Ağayev [Mətn] /Çingiz //Mədəniyyət.- 2011.- 2 noyabr.- S.13.

Əfşani, N. Son filminin premyerasını görə bilmədi [Mətn]: Əliağa Ağayev //Əfşani, N. Məhəbbət harayı: Publisist və bədii əsərlər.- Bakı, 2002.- S.370-373.

Rəhimli, İ. Əliaga Ağayev (22.03.1913-3.11.1983) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.181-182.

Əliağa Ağayev [İzomaterial] /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: [İşıq], 1974.- [1] qat.v.

İnternetdə

www..anl.az

www. az.wikipedia.org

www. adam.az

45 illiyi

Elşad Əhədov
1968-1993

Milli Qəhrəman



Elşad Saday oğlu Əhədov 1968-ci il mart ayının 4-də Masallı rayonunun Təzə Alvadı kəndində dünyaya gəlmişdir. Orta məktəbi burada oxumuş, Naxçıvanski adına Hərbi liseyə daxil olmuşdur. Sonra Ukraynanın Kamenets-Podolsk Ali Komandirlər Məktəbinin tələbəsi olmuşdur. 1989-cu ildə Volqoqrad hərbi hissələrindən birinə rota komandiri təyin edilmişdir.

Vətənə dönən Elşad əvvəlcə Bakının Güzdək qəsəbəsində, sonra Lənkəran rayonunda rota komandiri kimi fəaliyyət göstərmişdir. Erməni işğalçılarının hücumu zamanı Füzulidə, Aşağı Veysəllidə, Şişqayada və digər döyüş bölgələrində vuruşmuşdur. Son döyüşü Ağdaş yüksəkliyi uğrunda olmuş, 1993-cü il dekabr ayının 11-də həmin döyüşdə mərdliklə həlak olmuşdur.

Ailəli idi. İki uşağı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli Fərmanı ilə Əhədov Elşad Saday oğlu ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş, 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Təzə Alvadı kəndində dəfn edilmişdir.

Təzə Alvadı kənd orta məktəbi və parkı qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əhədov Elşad Saday oğlu – baş leytenant – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il [Mətn] //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Əhədov Elşad Saday oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.44.

Seyidzadə, M. Əhədov Elşad Saday oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.72.

Əhədov Elşad Saday oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.48.

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

www.milliqahraman.az

Milli Qəhrəmanlar

50 illiyi

Vüqar Mürsəlov 1963-1992

Milli Qəhrəman



Vüqar Mirəzbər oğlu Mürsəlov 1963-cü il mart ayının 10-da Cəlilabad rayonunun Göytəpə kəndində anadan olmuşdur.

1980-ci ildə 1 saylı orta məktəbi bitirdikdən sonra Bakı texniki peşə məktəbində təhsilini davam etdirmişdir. Sonra Bakı Politexnik Texnikumunu əla qiymətlərlə başa vurmuş və Belorusiyanın Brest şəhərinə hərbi xidmətə göndərilmişdir. Qvardiya baş çavuşu, tankçı adları ilə ordudan tərxis olunmuş, Göytəpə Avtomobil Təmiri Zavodunda öz ixtisası üzrə əmək fəaliyyətinə başlamışdır.

1991-ci ildə Xüsusi Təyinatlı Polis Dəstəsinə yazılmış və torpaqlarımızın müdafiəsinə qalxmışdır. Füzuli, Ağdam, Xanlar, Laçın, Şuşa, Goranboy, Ağdərə istiqamətində gedən döyüşlərdə ölüm-dirim mübarizəsinə qalxmışdır. Vüqar Mürsəlov 1992-ci il iyun ayının 9-da Tərtər rayonunun Cəmilli kəndi istiqamətində gedən döyüşdə vuruşmuş və qəhrəmanlıqla həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Mürsəlov Vüqar Mirəzbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Göytəpə şəhərində təhsil aldığı məktəbə onun adı verilmiş, şəhərin mərkəzində büstü qoyulmuşdur.

Tərtər, Göytəpə, Cəlilabad şəhərlərində adına küçə var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Mürsəlov Vüqar Mirəzbər oğlu – polis baş leytenantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Mürsəlov Vüqar Mirəzbər oğlu [Mətn] // V .Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.163.

Mürsəlov Vüqar Mirəzbər oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.158.

Seyidzadə, M. Mürsəlov Vüqar Mirəzbər oğlu [Mətn] //M. Seyidzadə Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.-S.168.

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

www.milliqahraman.az

500 illiyi

I Şah Təhmasib Şah İsmayıl oğlu 1513-1576

Dövlət xadimi

I Şah Təhmasib Şah İsmayıl oğlu 1513-cü il mart ayının 3-də İsfahanda doğulmuşdur. Onun hakimiyyət illəri 1524-1576-cı illər Səfəvilər dövləti üçün sınaq illəri olmuşdur. Uşaqlığında mükəmməl təhsil almış I Təhmasib atası kimi böyük sərkərdə və müdrik dövlət başçısı olmaq arzusunda olmuşdu.

10 yaşında şah elan edilən I Təhmasib hakimiyyət uğrunda mübarizə aparan qızılbaş tayfa əmirlərinin əlində oyuncağa çevrilmişdi. Şah tədricən feodal pərakəndəliyinin ölkə üçün nə qədər təhlükəli olmasını anlamış və mərkəzləşmiş dövlət qurmaq fikrinə gəlmişdir. O, sadiq tərəfdaşlarına arxalanaraq ayrı-ayrı tayfa başçılarını itaətə gətirmiş, müqavimət göstərənləri məhv etmişdir. İllər keçdikcə daimi qoşunların gücünə əmirlərin müqavimətini qıran I Təhmasib mərkəzi hakimiyyəti xeyli möhkəmlədə bilmişdir.

I Təhmasibin hakimiyyəti illərinə Səfəvi-Osmanlı müharibəsinin ən qızğın döyüşləri təsadüf etmişdir. Osmanlı sultanı I Süleyman hələ 1534-cü ildə Səfəvi dövlətindəki hərc-mərclikdən istifadə edərək Azərbaycana hücum etmişdir. Ağır döyüşlərlə geri çəkilən Səfəvi qoşunları osmanlıların qarşısını ala bilməmiş və onlar Təbriz də daxil olmaqla bir çox əraziləri talan etmişdilər. I Təhmasib "yandırılmış torpaq" taktikasına əl atmalı olmuşdu. I Təhmasibin taktikası düşmənə Azərbaycan torpaqlarında möhkəmlənməyə imkan verməmişdi. Səfəvi dövlətini daxildən parçalamağa cəhd edən Osmanlı sultanı qiyamçı feodallara kömək etmiş, lakin bütün qiyamlar şah tərəfindən qətiyyətlə yatırılmışdır. Şahın qoşunları osmanlıların müttəfiqi olan Krım xanının yürüşlərinin qarşısını ala bilmişdi.

I Təhmasib Şərqdə baş verən hadisələrə fəal müdaxilə edir, daim ölkəsinin maraqlarına cavab verən siyasət həyata keçirirdi.

Müharibələr nəticəsində Təbrizin dağıntılara məruz qalması səbəbindən I Təhmasib 1555-ci ildə paytaxtı, Təbrizdən Qəzvinə köçürmüşdü.

Amasiya müqaviləsindən sonra şah ölkənin iqtisadi həyatını, ticarət və sənətkarlığı dirçəltmək məqsədilə bir sıra islahatlar həyata keçirmişdir. Ən ağır vergilər ləğv edilmiş, digərlərinin həcmi azalmış, vergi yığımında olan hərc-mərcliyin qarşısı alınmışdı. 1565-ci ildə tamğa vergisini ləğv etməklə şah sənətkarlıq və ticarətin inkişafına yaxşı şərait yaratmışdır. O zaman Təbriz, Şamaxı, Dərbənd, Bakı, Ərdəbil, Ordubad, Ərəş, Culfa mühüm sənətkarlıq-ticarət məntəqələri olmuş, Azərbaycan ipəyi, soyuq silahları, zinət əşyaları, parçaları Şərq və Qərb bazarlarında baha qiymətə satılmışdır.

I Təhmasibin hakimiyyəti illərində Azərbaycanda mədəniyyətin inkişafı üçün şərait yaradılmışdı. Savadlı şəxs olan I Təhmasib özü bədii yaradıcılıq və xəttatlıqla da məşğul olmuşdur. Hakimiyyəti illərində qazandığı təcrübəni o, "Şah Təhmasibin təzkirəsi" adlı əsərində toplamışdı. Bu əsər gələcək nəsillərə öyüd-nəsihət şəklində yazılmış, hər müddəası konkret tarixi faktlarla təsdiqlənmişdir. Şah daim elm və mədəniyyət xadimlərini himayə etmiş, zəmanəsinin məşhur rəssam, xəttat, nəqqaş və digər mütəxəssislərini Təbrizdə fəaliyyət göstərən "Şah kitabxanası"na yığmışdı.

Osmanlıların və özbəklərin Azərbaycana qarşı birgə hücumu zamanı Şah I Təhmasib 1576-cı ildə Qəzvində vəfat etmişdir.

Ə d ə b i y y a t

I Şah Təhmasib (1513-1576)/S.Əhmədov//Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.-S.65-67.

135 illiyi

Şeyx Məhəmməd Rasizadə 1878-1939

Maarif xadimi



Görkəmli maarif xadimi, müəllim və şair Şeyx Məhəmməd Hacı Abdulla oğlu Rasizadə 1878-ci il mart ayının 15-də Naxçıvanda anadan olmuşdur.

Hüseyn Cavidin böyük qardaşıdır. Təbrizdə, Urmiyada ehtimal ki, bir müddət Tehranda ruhani təhsili almış, 1917-ci ildə İrəvan maarif idarəsində kurs bitirmişdir.

Ruhani təhsili almasına baxmayaraq, 1906-cı ildə Naxçıvanda üsuli-cədid məktəbinin ("Məktəbi-xeyriyyə") yaradıcılarından biri kimi pedaqoji fəaliyyətə başlamış, ömrünün sonunadək buradakı orta məktəblərdə pedaqoji və kənd təsərrüfatı texnikumlarında türk dili və ədəbiyyatından dərs demiş, Həsən Əliyev, Heydər Əliyev, Məmməd Cəfər, Abbas Zamanov, Yusif Məmmədəliyev kimi gökəmli şəxslərin müəllimi olmuşdur.

Şeyx Məhəmməd həmçinin istedadlı şair olmuş, XX əsrin əvvəllərindən "Şərqi-Rus", "Həyat", "İrşad", "Tazə Həyat", "Təkamül", "İqbal", "Füyuzat", "Açıq söz", "Hürriyyət" kimi qəzet və jurnallarda, sonralar isə Sovet mətbuatında, xüsusilə "Şərq qapısı" qəzetində xalqı maarif, elm və mədəniyyətə səsləyən şeirlər dərc etdirmişdir.

"Yeddi qız", birinci dünya müharibəsindən bəhs edən "1914-cü il" (bəzi parçaları 1935-ci ildə "Şərq qapısı" qəzetində dərc olunmuşdur) adlı kiçik poemaları vardır. Fars dilini mükəmməl bilən Şeyx Məhəmməd bu dildə də şeirlər yazmış, o cümlədən, fars şairi Firdovsiyə şeir və poema həsr etmiş, onun "Şahnamə"sindən parçaları ("Sultan Mahmuda həcv" və s.) dilimizə çevirmiş, Firdovsi haqqında tədqiqat aparmış, bununla əlaqədar görkəmli şərqşünas K.Smirnovla məktublaşmışdı.

"Azərbaycan tədqiq və tətəbbö cəmiyyəti" Naxçıvan şöbəsinin tarix, ədəbiyyat bölməsinə rəhbərlik edən Şeyx Məhəmməd (Şərur qəzasında aparılmış ibtidai tədqiqat haqqında məqaləsi "Azərbaycanı öyrənmə yolu" jurnalının 1930-cu ildə 4-5-ci saylarında dərc olunmuşdur) Naxçıvan folklorunun toplanması sahəsində də mühüm işlər görmüşdür.

Ömrünün son illərində, xüsusilə Hüseyn Cavidin həbsindən sonra təzyiq və təqiblərə məruz qalmışdır.

Şeyx Məhəmməd Rasizadə 1939-cu il dekabr ayının 24-də vəfat etmişdir. Ədəbi irsi H.Cavidin Bakıda və Naxçıvandakı xatirə muzeylərində saxlanılır.

Ədəbiyyat

Hüseynov, R. Cavidin şair qardaşı [Mətn] /R.Hüseynov //Azərbaycan EA-nın xəbərləri (ədəbiyyat, dil və incəsənət seriyası).- 1998.- №1,2.

Rasizadə Şeyx Məhəmməd Hacı Abdulla oğlu [Mətn] //Naxcıvan ensiklopediyası.- Bakı, 2002.- S.478.

İnternetdə

www.anl.az

www. adam.az

www. nice.az

az.wikipedia.org

90 illiyi

Səfərəli Babayev 1923-2003

Coğrafiyaşünas



Səfərəli Yaqub oğlu Babayev 1923-cü il mart ayının 15-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Təzəkənd kəndində anadan olmuşdur.

Naxçıvan MR-in Maarif Nazirliyində inspektor, nazir müavini, nazir, Azərbaycan KP MK Naxçıvan rayon komitəsinin birinci katibi, Naxçıvan MSSR-in Nazirlər Soveti Radio Verilişləri və Televiziya Komitəsinin sədri, Naxçıvan MSSR-in Nazirlər Soveti sədrinin 1-ci müavini Azərbaycan Pedaqoji İnstitutu Naxçıvan filialının direktoru (1970-1972), Naxçıvan Dövlət Universitetində (1972-1990-cı illərdə Naxçıvan Pedaqoji İnstitutu) Coğrafiya kafedrasının müdiri, dekan işləmişdir. Hazırda institutun Coğrafiya kafedrasının müdiridir.

Bir sıra beynəlxalq simpozium və konfranslarda (Türkiyə, İran, Rusiya, Ukrayna, Gürcüstan və s.) məruzələr etmişdir. Azərbaycan Coğrafiya Cəmiyyəti Naxçıvan filialının (1959-cu ildən) və Naxçıvan şəhər Ağsaqqallar Şurasının sədri, Azərbaycan Respublikası Təhsil Şurası İdarə Heyətinin üzvü olmuşdur. Naxçıvan MR Ali Məclisinin (2-ci çağırış) deputatı seçilmişdir.

Bir neçə monoqrafiyanın, 85 elmi məqalənin müəllifidir. 8 elmi əsəri xarıci ölkələrdə çap olunmuşdur.

Coğrafiya elmləri doktoru, professor, Naxçıvan MR-in Əməkdar müəllimidir (1983).

Elmi əsərləri əsasən Naxçıvan Muxtar Respublikasının fiziki-coğrafi xüsusiyyətlərinin, təbii sərvətlərinin, onlardan istifadə perspektivlərinin, toponimiyasının, coğrafiya tarixinin və s. öyrənilməsinə həsr edilmişdir. Bir çox elmi-praktik təklifləri həyata keçirilmişdir. Akademik B.Budaqovla birgə Naxçıvan MR-in landşaft xəritəsini tərtib etmişdir. İlk dəfə olaraq Muxtar Respublikanın təbii şəraiti toplum halında öyrənilmiş, landşaftının təsnifatı, səciyyəsi, xəritəsi verilmişdir. "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasında Naxçıvan diyarının qədim Azərbaycan torpağı olduğu inandırıcı dəlillərlə sübut olunmuşdur. Bu əsərə görə 1999-cu ildə müəllifə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Görkəmli coğrafiyaşünas alim Səfərəli Babayev 2003-cü ildə vəfat etmişdir.

Ədəbiyyat

Əfsanələr diyarı: Naxçıvan diyarının təbiət abidələri və onlarla əlaqəli əfsanələr [Mətn] /S.Babayev; elmi red. B.Budaqov; fotoşəkillər N.Babayev.- Bakı: Elm, 2001.- 288 s.

Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri [Mətn] /S. Y. Babayev; elmi red. B. Ə. Budaqov; "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi üzrə Dövlət Komissiyası, "Kitabi-Dədə Qorqud" kitabxanası.- Bakı: XXI-YNE, 1999.- 224 s.

Naxçıvan Muxtar Respublikasının coğrafiyası [Mətn] /S.Babayev; elmi red. B. Ə. Budaqov; rəyçi. M. A. Museyibov.-Bakı: Elm, 1999. -298 s.

Babayev Səfərəli Yaqub oğlu [Mətn] //Naxçıvan ensiklopediyası.-Bakı, 2002.-S.53.

İnternetdə

www.elibrary.az

www. science.az

100 illiyi

İlyas Abdullayev 1913-1985

Akademik



İlyas Kərim oğlu Abdullayev 1913-cü il mart ayının 23-də Ağstafada dünyaya gəlmişdir.

1934-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, 1939-cu ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1955-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1959-cu ildən Azərbaycan SSR EA-nın Genetika və Seleksiya İnstitutunun Tut bitkisinin genetika və seleksiyası şöbəsinin müdiri olmuşdur.

1942-1948-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Kənd təsərrüfatı şöbəsinin müdir müavini və müdiri, 1948-1950 -ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, 1950-1954 -cü illərdə Azərbaycan SSR Kənd Təsərrüfatı naziri, 1954-1958-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, 1958-1959-cu illərdə habelə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində çalışmışdır.

SSRİ Ali Soveti və Azərbaycan SSR Ali Sovetinin bir neçə çağırışlarının deputatı, Ümumittifaq kommunist (bolşeviklər) partiyası, Sov.İKP və Azərbaycan Kommunist Partiyası və Kommunist Partiyasının bir sıra qurultaylarının deputatı, Azərbaycan KP (b) və KP-nin Mərkəzi Komitəsi habelə Azərbaycan KP-nın Bürosunun üzvü, Sov.İKP Mərkəzi Komitəsi Plenumlarının iştirakçısı olmuşdur.

"Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı", SSRİ medalları və SSRİ XTNS-nin qızıl medalları ilə təltif edilmişdir.

İlyas Abdullayev 1985-ci il aprel ayının 30-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Azərbaycanda üzümün genetika və seleksiyası məsələləri (rus dilində) [Mətn] /İ.Abdullayev.- Bakı: Elm, 1981.-76 s.

Çiyələyin biologiya və seleksiyası məsələləri (rus dilində) [Mətn] /İ.Abdullayev, A.Musayev.-Bakı: Elm, 1970.- 116 s.

Poliploid tutunun anatomik xüsusiyyətləri (rus dilində) [Mətn] /İ.Abdullayev, L.Şiriyeva.- Bakı: Elm, 1984.-52 s.

Abdullayev İlyas Kərim oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.- Bakı, 1976.-C.1.–S. 17.

İlyas Kərim oğlu Abdullayev [Mətn]: biobiblioqrafik məlumat toplusu /müəl.-tərt. F.Kəsəmənli, V.Stupak.- Sankt-Peterburq, 2008.- 47 s. (rus dilində)

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

65 illiyi

Hamlet İsaxanlı 1948

Riyaziyyatçı



Hamlet Abdulla oğlu İsayev (İsaxanlı) 1948-ci il mart ayının 1-də Gürcüstanın Qardabani (keçmiş Qarayazı) rayonunun Kosalı kəndində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) mexanika-riyaziyyat fakültəsinə qəbul olmuş və 1970-ci ildə oranı bitirmişdir. 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu tərəfindən M.V.Lomonosov adına Moskva Dövlət Universiteti mexanika-riyaziyyat fakültəsinə aspiranturada oxumağa göndərilmiş və 1973-cü ildə fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1973-1983-cü illər ərzində Hamlet İsaxanlı Moskva və Bakıda, M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, SSRİ Elmlər Akademiyasının V.İ.Steklov adına Riyaziyyat İnstitutunda, Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Azərbaycan Dövlət Universitetində çalışmış, elmi-tədqiqatla və qismən də pedaqoji işlə məşğul olmuşdur. Sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) və Leninqrad Maliyyə və İqtisad İnstitutunda (Bakı filialında) professor və kafedra müdiri kimi fəaliyyət göstərmişdir.

Hamlet İsayev imzası ilə SSRİ, ABŞ, Böyük Britaniya, Kanada və Almaniya kimi ölkələrdə nüfuzlu elmi jurnallarda və məcmuələrdə elmi-tədqiqat əsərləri dərc olunmuşdur. O, 1983-cü ildə Moskvada Sovet Elmlər Akademiyası V.İ.Steklov adına Riyaziyyat İnstitutunda "Çoxparametrli spektral nəzəriyyənin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almış; bir qədər sonra isə Sovet Ali Attestasiya Komitəsi tərəfindən professor adına layiq görülmüşdür.

Hamlet İsaxanlı imzası ilə elm, təhsil, humanitar və sosial elmlər üzrə məqalə və kitablar, şeir kitabları, bədii-publisistik əsərlər nəşr etdirmişdir.

1991-ci ildə İngilisdilli Azərbaycan Universitetinin yaranmasına təşəbbüs göstərmiş, Azərbaycan SSR Nazirlər Sovetinin 20 dekabr 1990-cı il və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 1991-ci il tarixli qərarları ilə rəsmi status alan bu ali məktəbi təsis etmişdi. Azərbaycanın ilk özəl universitetinin qurucu rektoru olaraq geniş fəaliyyət göstərmişdir. Bir qədər sonra yeni - Xəzər Universiteti (Universitəsi) adını almışdı.

2010-cu ilin sentyabr ayından başlayaraq özü Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri vəzifəsində, müsabiqədə uğur qazanan professor Con Rayder (ing. John Ryder) isə yeni rektor vəzifəsində fəaliyyətə başlamışdı.

Hamlet İsaxanlı elm və təhsil təşkilatçısı kimi geniş tanınmaqla yanaşı, ədəbiyyat, mədəniyyət və incəsənətin inkişafı, siyasi mədəniyyətin və media mədəniyyətinin inkişafı, idmanın inkişafı kimi sahələrə də öz dəyərli töhfələrini vermiş və verməkdədir.

İsaxanlı soyadını o, poetik yaradıcılığında, həmçinin humanitar və sosial elmlər sahəsində yazdığı əsərlərində işlədir. Onun bütün riyazi əsərləri "İsayev" soyadı ilə çap olunur. Hazırda o, geniş ictimaiyyət arasında daha çox Hamlet İsaxanlı kimi tanınır.

Ə d ə b i y y a t

Bu da bir həyatdı [Mətn]: şeirlər /H.İsaxanlı; red. C.Mustafayev.- Bakı: Xəzər Universiteti, 2004.- 121 s.

"Xəzər"in sorağında [Mətn] /H.İsaxanlı; [cildin rəssamı R.Abdurrəhimov].-Bakı: Xəzər Universitəsi, [2006] 467, [1] s.

Təzadlar [Mətn] /H.İsaxanlı; red. C.Mustafayev.- Bakı: Xəzər Universitəsi, 2001.- 225 s.

Ziyarət [Mətn] /H.İsaxanlı.- Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2009.- 148 s.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www. dspace.khazar.org

www.hisaxanli.org

90 illiyi

Rəhim Rəhimov 1923

Akademik



Rəhim Nurməmməd oğlu Rəhimov 1923-cü il mart ayının 18-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur.

1937-ci ildə Ordubad şəhər Pedaqoji Texnikumuna daxil olmuşdur.

1945-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ADTU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur.

1953-cü ildə R.Rəhimov qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Elmi-Tədqiqat Rentgenologiya, Radiologiya (hazırkı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzi) İnstitutunda şüa diaqnostikası ixtisası üzrə aspiranturaya qəbul olunmuşdur.

Təxminən 50 il ərzində akademik R.Rəhimov həzm sistemi orqanlarının və ağciyərlərin patologiyalarının rentgenoloji, kliniki, morfoloji xüsusiyyətlərinin öyrənilməsinə dair aparılan əsaslı tədqiqatlara rəhbərlik etmişdir. Aparılan tədqiqatların birinci hissəsinin nəticəsi kimi 1958-ci ildə ona tibb elmləri namizədi adı verilmiş,1968-ci ildə tibb elmləri doktoru adı almışdır.

1969-cu ildə Ali Attestasiya Komissiyasının qərarı ilə R.Rəhimov professorluğa layiq görülmüşdür.

1989-cu ildə isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. R.Rəhimovun tədqiqatlarının və əldə etdiyi nəticələrin birinciliyi, aktuallığı, yüksək effektivliyi vətənimizin, eləcə də xarici dövlətlərin (Yaponiya, Almaniya, İtaliya və.s) tibb ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Akademik R.Rəhimov mədə-bağırsaq sistemi və ağciyərlərin bəd və xoşxassəli şişlərinin erkən diaqnostikasına və diferensial diaqnostikanın incəliklərinə həsr olunmuş 147-dən artıq elmi məqalənin, iki ixtiranın müəllifidir.

On iki səmərələşdirici təklifi respublikamızda və MDB ölkələrinin müalicə idarələrinin rentgenoloji şöbələ-rində tətbiq edilərək geniş istifadə edilməkdədir. Akademik R.Rəhimovun rəhbərliyi altında 8 namizədlik və 3 doktorluq dissertasiyası müdafiə edilmişdir. R.Rəhimov elmi fəaliyyətinin 55 ildən çoxunu Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzində keçirərək aspirantlıqdan akademikliyə qədər şərəfli bir yol keçmişdir.

1974-cü ildə akademik R.Rəhimov Onkoloji Mərkəzə direktor vəzifəsinə təyin edilmişdir. Azərbaycan Respublikasının Əməkdar elm xadimidir.

Akademik R.Rəhimov böyük xid-mətlərinə görə dövlət tərəfindən bir çox mükafatlarla - "Şərəf nişanı" (1971), "Rəşadətli əməyə görə" ordenlərlə (1974), "SSRİ səhiyyə əlaçısı", "Qırmızı xaç" və Qırmızı aypara cəmiyyətinin nişanları ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t

Hacı, C. Ordubaddan doğan günəş [Mətn] /Hacı Cəfər həkim; red. Rafiq Oday.- Bakı: Nurlan, 2003.- 288 s.

Kərimov, M.K. Şərəfli həyat yolu [Mətn] /M.Kərimov //Azərbaycan .-2008. - 18 mart.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

www.elibrary.az

www.elm.az

www.science.az

90 illiyi

Əliqulu Ağalarov 1923-1982

Neyrocərrah

Əliqulu Behbud oğlu Ağalarov 1923-cü il mart ayının 23-də Ordubad şəhərində doğulmuşdur. Orta təhsilini Ordubad şəhərində almış, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunu (indiki ADTU) bitirmişdir.

Böyük Vətən müharibəsində (1941-1945) hərbi səhra xəstəxanasında cərrahlıq etmiş, cərrahiyyə vzvodunun komandiri olmuş, tibb xidməti podpolkovniki rütbəsi almışdır. Ordudan tərxis olunduqdan sonra Azərbaycan Milli EA Eksperimental Tibb İnstitutunda elmi işçi, Tibb İnstitutunda assistent işləmişdir.

Ağalarov 1954-cü ildə qastroenterologiya sahəsində tibb elmləri namizədi alimlik dərəcəsini almışdır. Mədə-bağırsaq cərrahiyyəsi üzrə ixtisaslaşmaq niyyətində olan Ağalarov qardaşının qəflətən beyin xərçəngi xəstəliyindən ölümündən sonra düz 13 il ərzində ixtisasını dəyişərək "Böyük beyin qatındakı şişlərin götürülməsindən sonra beyinin sağalma histologiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Beləliklə də, dissertasiyasını uğurla başa vuran Ağalarov bir müddət Moskva şəhərində keçmiş SSRİ Tibb Elmləri Akademiyası (TEA) Neyrocərrahiyyə İnstitutunda və Burdenko adına Neyrocərrahiyyə Klinikasında işləmişdir.

1971-ci ildə keçmiş Azərbaycan SSR-də səhiyyənin müasir tələblərlə yenidən qurulmasında əvəzsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və dəvəti ilə Ağalarov respublikaya qayıtmışdı. 1971-ci ildən ömrünün sonunadək N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Neyrocərrahiyyə kafedrasına rəhbərlik etmişdir. Böyük beyin qatındakı şişlərin götürülməsinə, beynin sağalma histologiyasına dair tədqiqatların müəllifidir.

Azərbaycan Respublikasında Zaqafqaziyada ilk dəfə olaraq Ağalarovun sönməz enerjisi və səyləri sayəsində neyrocərrahiyyə mərkəzi yaradılmışdı. Ağalarov Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin neyrocərrahiyyə üzrə baş mütəxəssisi, keçmiş SSRİ-nin Ümumittifaq Neyrocərrahiyyə İdarəsinin aparıcı mütəxəssislərindən biri, idarə heyətinin üzvü kimi respublikamızı və sovet elmini ümumittifaq və beynəlxalq simpoziumlarda və konfranslarda ləyaqətlə təmsil etmişdir.

Ağalarov ön və arxa cəbhələrdə böyük xidmətlərinə görə Vətən müdafiəsi ordenləri, hətta "Qızıl Ulduz" ordeni, habelə saysız-hesabsız medallarla təltif edilmiş, 1971-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Əliqulu Ağalarov 1982-ci il iyun ayının 23-də Bakıda vəfat etmiş, Ordubadda dəfn olunmuşdur.

Ədəbiyyat

Ağalarov Əliqulu Behbud oğlu [Mətn] //Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.-S.14.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www. ordubadli.az

Texnika

155 illiyi

Dizel Rudolf 1858-1913

Alman mühəndisi



Rudolf Kristian Karl Dizel 1858-ci il mart ayının 18-də Parisdə anadan olmuşdur.

Fransa-Rusiya müharibəsi zamanı ailəsi ilə birlikdə İngiltərəyə qaçmış, Almaniyaya təhsil almağa getmişdir. 1873-cü ildə orta məktəbi və 1875-ci ildə Auqsburq politexnik məktəbini bitirmişdir. Sonra o, Münhen ali texniki məktəbinə dəvət olunmuş və ali məktəbin tarixində ilk dəfə olaraq buranı ən yaxşı qiymətlərlə başa vurmuşdur.

1893-cü ildən başlayaraq Auqsburq Maşınqayırma Zavodunda Fridrix Krupp və Zultser (Sulzer Brothers Ltd) qardaşlarının maliyyə köməyi ilə yeni mühərrikin yaradılması üzərində işlər görülmüşdür. İlk işləyən mühərrik Dizel tərəfindən 1897-ci ildə yaradılmışdır. Bu mühərrikin gücü sənayeçilərin böyük marağına səbəb olmuşdur. Onun mühərriki qısa zamanda öz tətbiqini tapmışdır. Ancaq öz vətənində Dizel kifayət qədər ad qazana bilməmişdir.

1898-ci il yanvar ayının 1-də o, öz mühərriklərinin istehsalı ilə məşğul olan şəxsi firmasını yaratmışdır. Dizel mühərriki ilə işləyən ilk gəmi 1903-cü ildə hazırlanmışdır. 1908-ci ildə ilk yük avtomobili və lokomotiv bu mühərriklə təchiz olunmuşdur. 1936-cı ildə ilk minik avtomobili (Mersedes Bens-260D) dizel mühərriki ilə hazırlanmışdır.

Uzun sürən patent çəkişmələri Dizelin sağlamlığına mənfi təsir göstərmişdir.

1913-cü ildə baş verən maliyyə böhranı onun tamamilə müflisləşməsinə gətirib çıxarmışdır.

29 sentyabr 1913-cü ildə Rudolf Dizel "Drezden" paromunun tərkibində Antverpenaya yola düşmüşdür. O, Londonda onun layihəsi əsasında mühərrik hazırlayan bir şirkətin açılışında iştirak etməyə gedirdi. Bu səfər zamanı Dizel müəmmalı şəkildə vəfat etmişdir.

Ədəbiyyat

Dizel Rudolf [Mətn] //Azərbaycan Sovet ensiklopediyası: 10 cilddə.-Bakı: ASE, 1982.-C.III.- S.11.

Əliyev, R. Maşınqayırmanın tarixinə dair [Mətn] /R.Əliyev.- Bakı: Təhsil NPM, 2008.- 542 s.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www. en.wikipedia.org

www. tr.wikipedia.org

MART
22

80 illiyi

Zöhrab Əliyev 1933

Biblioqraf



Zöhrab Hüseyn oğlu Əliyev 1933-cü il mart ayının 22-də Ucar rayonunun Qazyan kəndində anadan olmuşdur. Doğulduğu kənddə orta məktəbi bitirdikdən sonra, Bakıya gəlmiş, burada 1949-cu ildə BDU-nun filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuşdur.

1954-cü ildə Zöhrab müəllim təhsilini başa vurduqdan sonra M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasında (indiki Azərbaycan Milli Kitabxanası) biblioqraf vəzifəsində işləmiş, bir ildən sonra Mədəniyyət Nazirliyinin kitabxanalar üzrə metodisti vəzifəsində çalışmışdır. Yenidən BDU-ya qayıdan Z.Əliyev 1956-cı ildə respublikamızda kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə ilk aspirant olmuşdur.

1963-cü ildə Z.H.Əliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqogika üzrə Müdafiə Şurasında "Azərbaycanda biblioqrafiya işinin inkişafı tarixindən (1920-1958)" dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi adını almışdır. 1970-ci ildə biblioqrafa dosent, 1989-cu ildə isə doktorluq dissertasiyasını müdafiə etməsə də elmi yetkinliyini, qiymətli elmi-tədqiqat əsərlərinin sayını nəzərə alaraq professor elmi adı verilmişdir. Ömrünün yarıdan çoxunu biblioqrafiyaşünaslıq elminin inkişafına həsr edən alim 10 il fakültə dekanı, 1984-cü ildən Biblioqrafiyaşünaslıq kafedrasının müdiri vəzifəsində çalışmış, Bakı Dövlət Universitetinin böyük Elmi Şurasının üzvü, həmçinin Azərbaycan Respublikasının Təhsil Nazirliyinin vahid Elmi-Metodiki Şurasının Kitabxanaşünaslıq-biblioqrafiya bölməsinin sədr müavini kimi də fəaliyyət göstərmişdir.

Professor Z.H.Əliyev zəngin elmi axtarışların nəticəsi kimi biblioqrafiyaşünaslıq elminə 50-dən çox məqalə, 10-a yaxın monoqrafiya, dərslik və dərs vəsaitlərini töhfə etmişdir. Onlardan "Azərbaycanda biblioqrafiya işinin vəziyyəti və inkişafı tarixindən (1945-1956)" (1960), "Kitabxanada məlumat biblioqrafiya aparatının təşkili" (1966), "Tövsiyə biblioqrafik vəsaitlərin tərtibi metodikası" (1967), "Biblioqrafiyanın nəzəriyyəsi və metodikası" (1973), "Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970)" (1978), "Ümumi biblioqrafiyaşünaslıq" (2001) və s. əsərləri bu sahədə təhsil alan tələbələr, elmi işçilər, tədqiqatçılar üçün olduqca lazımlı və əhəmiyyətlidir.

Zöhrab Əliyevin elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmiş, 1980-ci ildə ona "Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi" fəxri adı verilmiş, medallarla, Fəxri fərmanlarla təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970) [Mətn]: dərs vəsaiti /Z.Əliyev; red. Ə.Xəlilov.- Bakı: ADU, 1978.- 80 s.

Ümumi biblioqrafiyaşünaslıq [Mətn]: dərs vəsaiti /Z.Əliyev; red. N.İsmayılov.– Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001.- 143 s.

Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri [Mətn] /Z.Əliyev //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.- 2009.- №1.- S.91-98.

İsmayılov, X. Müqəddəs insanın mənalı ömür yolu [Mətn]: Zöhrab Əliyevin 70 illik yubileyi münasibətilə /X.İsmayılov //Kitabxanaşünaslıq və bibloqrafiya: elmi-nəzəri və təcrübi jurnal.- Bakı: BUN.- 2003.- №1.- S.109-113.

İnternetdə

www.anl.az

www. bsu.edu.az

www. anl.az

Tarixdə bu gün

140 illiyi

Akademik Milli Dram Teatrı 1873

Görkəmli maarifçi Həsən bəy Zərdabinin rəhbərliyi ilə Bakı realnı məktəbin şagirdləri 1873-cü il mart ayının 10-da "Nəciblər klubu"nda M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasını tamaşaya qoymuşdular. Bununla professional milli teatrımızın, başqa sözlə, Akademik Milli Dram teatrının (AMDT) bünövrəsi qoyulmuşdu.

Əvvəllər müxtəlif truppalar şəklində "Nicat", "Səfa", "Həmiyyət" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr dəstələrində, həmçinin "Müsəlman Dram Artistləri İttifaqı", "Hacıbəyov qardaşları müdiriyyəti" şəklində tamaşalar verən teatr, 1919-cu ildən bu günədək Dövlət Teatrı statusu ilə fəaliyyət göstərir. Teatrın adı müxtəlif illərdə Hökumət teatrosu, Birləşmiş Dövlət Teatrosu, Azərbaycan Türk Dram Teatrosu və s. adlandırılmış, Dadaş Bünyadzadənin (1923-1933) və Məşədi Əzizbəyovun (1933-1991) adlarını daşımışdır.

Teatr 1991-ci ildən Akademik Milli Dram Teatrı adlanır. Yüksək nailiyyətlərinə görə teatra Akademik adı verilmiş (1959), "Qırmızı Əmək Bayrağı" (1948) və "Lenin" ordenləri (1974) ilə təltif edilmişdir. Teatrın 140 illik tarixi dövründə Əbülfət Vəli, Məhəmməd bəy Əlvəndi, Hüseyn Ərəblinski, Cahangir Zeynalov kimi aktyor məktəbi yaradanlardan sonra, böyük aktyor və rejissor nəsli yetişmişdir: Mirzağa Əliyev, Sidqi Ruhulla, Mərziyə Davudova, Ələsgər Ələkbərov, Adil İsgəndərov (rejissor), Hökumə Qurbanova, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Möhsün Sənani, Rza Təhmasib (aktyor və rejissor) Əjdər Sultanov, Sona Hacıyeva, Fatma Qədri, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Kazım Ziya, Məmmədəli Vəlixanlı, Əliağa Ağayev, Məlik Dadaşov, Əli Zeynalov, Tofiq Kazımov (rejissor), Ələsgər Şərifov (rejissor), Nəcibə Məlikova, Həsənağa Salayev, Məmmədrza Şeyxzamanlı, Rza Əfqanlı və başqaları. M.F.Axundovun, N.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, N.Nərimanovun, C.Cabbarlının, H.Cavidin, S.Rəhmanın, İ.Əfəndiyevin pyesləri ilə pərvəriş tapan AMDT müxtəlif illərdə dünya klassiklərindən Şekspirin, Şillerin, Molyerin, Lope de Veqanın, Karlo Haldoninin, A.Dümanın, Yucin O Nilin, B.Nuşiçin, M.Sebastianın, H.Heynenin, A.Puşkinin, M.Lermontovun, L.Tolstoyun, N.Qoqolun, A.Çexovun və onlarca bu kimi dramaturqların əsərlərini repertuarına daxil etmişdir. Əsrimizin əvvəllərində dəstələr halında Türkiyədə, İranda, Volqaboyu şəhərlərdə, Orta Asiyada qastrol səfərlərində olmuş teatr, Dövlət Statusu aldıqdan sonra Moskvada (1930, 1948, 1959, 1974, 1996), Sankt-Peterburqda (1930), Kazanda (1930), İrəvanda (1926, 1927, 1954, 1957), Tiflisdə (1960, 1984), Aşqabadda (1934), Türkiyədə (1990,1992), Kiprdə (1992), Almaniyada (1992) qastrollarda olmuşdur. AMDT-nin 50 (1923), 75 (1948) və 100 (1974) illik yubileyləri təntənə ilə keçirilmişdir. "Şərqin səhəri" (Ə.Məmmədxanlı) tamaşası SSRİ Dövlət mükafatına, "Antoni və Kleopatra" (V.Şekspir), "Mahnı dağlarda qaldı" (İ.Əfəndiyev), "Şəhərin yay günləri" (Anar) və "İblis" (H.Cavid) tamaşaları Respublika Dövlət mükafatlarına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının foto-salnaməsi 1873-1950 [Mətn]: [2 cilddə] /Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı; layih. rəhb. və ön söz. müəl. Ə.Qarayev; toplayanı və tərt. ed. M.Atayev; red. A.İsmayıloğlu.- Bakı: Letterpress, 2010.- Kitab 1.- 502 s.; Kitab 2 (1951-2010).- 507 s.

MART

10

Tarixdə bu gün

Azərbaycanlıların Ermənistandan deportasiyası haqqında ikinci qərar 1948



Azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanmışdır. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların tarixi deportasiyası üç mərhələdə aparılmışdır: birinci mərhələ 1905-1920-ci illər; ikinci mərhələ 1948-1953-cü illər; üçüncü mərhələ 1988-1992-ci illər.

Bu proseslər zamanı Qərbi Azərbaycanda azərbaycanlılar yaşayan yüzlərlə yaşayış məntəqəsi yerlə-yeksan edilmiş, 30 minə yaxın ev dağıdılmış və yandırılmış, qoca, uşaq və qadınların da daxil olduğu 140 min insan vəhşicəsinə qətlə yetirilmiş, 750 mindən artıq azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdır. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti Ermənistandakı azərbaycanlı əhalinin Azərbaycana deportasiyası haqqında ikinci qərar qəbul etmişdir. Bununla bağlı SSRİ Nazirlər Sovetinin ilk qərarı 1947-ci il dekabrın 23-də qəbul olunmuşdu. Qərara görə azərbaycanlı kolxozçuların boşaltdığı ərazilərə xaricdən ermənilər köçürülməli idilər. Azərbaycanın rəhbəri M.Bağırovun Stalinə müraciətindən sonra qərarın sərt şərtləri qismən yumşaldılmışdı.

1948-1953-cü illər deportasiyası nəticəsində Ermənistanda 476 azərbaycanlılar yaşayan kənd boşaldılmış, 100 min nəfərdən çox adam köçürülmüşdü.

Stalinin ölümündən sonra deportasiya olunmuş azərbaycanlıların bir qismi geriyə, öz doğma torpaqlarına qayıtsa da, 1988-ci ilin deportasiyası azərbaycanlılara qarşı etnik təmizləməni başa çatdırmışdı.

Əgər krım tatarlarını, çeçenləri və digər xalqları almanlarla əməkdaşlığa görə cəzalandırıb köçürmüşdülərsə, azərbaycanlıların köçürülməsinə yeganə səbəb, onların milli mənsubiyyəti olmuşdur.

Bundan başqa, SSRİ Nazirlər Sovetinin çox sayda sərəncamları ilə Ermənistanda 2 mindən çox yer adı dəyişdirilmişdi.

Ermənilər azərbaycanlıların öz tarixi torpaqlarından izlərini itirmək məqsədilə buradakı qəbiristanlıqları, tarixi mədəni abidələri, dini müəssisələri, məktəb, xəstəxana və digər binaları darmadağın etmişlər. Təkcə 1988-ci ildə azərbaycanlılara məxsus 2000-dən artıq qəbiristanlıq dağıdılmışdır. Ermənilər tarixən azərbaycanlılara, türklərə qənim kəsildikləri halda bu faktlar gizlədilmiş, dünya ictimaiyyəti isə bu məsələlərə diqqətsizlik göstərmişdir.

Ədəbiyyat

Deportasiya: Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası [Mətn].- Bakı: "Azərbaycan ensiklopediyası" NPB, 1998.- 438 s.

Nəcəfov, B. Deportasiya [Mətn] /B.Nəcəfov.-Bakı: Çaşıoğlu, 2006.-319 s.

Seyidzadə, D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar [Mətn] /D.Seyidzadə.- Bakı: 2004.

Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə [Mətn] / AzSSR EA; tərt. ed. N.M. Vəlixanova; red. Z.Bünyadov.-Bakı :Elm, 1990. - 381 s.

İnternetdə

www.anl.az

www.human.gov.az

www.azerigenocide.org

www.khojaly.org.az

www.karabakh.org

Daxili Qoşunlar Günü 1995



Daxili Qoşunlar 1991-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılmışdır.

Daxili Qoşunların funksiyaları, vəzifələri, fəaliyyətinin əsas prinsipləri "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikası Prezidentinin 181 №-li 8 fevral 1994-cü il tarixli Qanunu ilə müəyyən olunmuşdur.

Həmin Qanuna əsasən Daxili Qoşunlar aşağıdakı vəzifələri yerinə yetirir:

- digər daxili işlər orqanları ilə birlikdə şəhərlərdə və digər yaşayış məntəqələrində post-patrul xidməti vasitəsilə ictimai asayişin qorunmasında, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında iştirak edir;
- mühüm dövlət obyektlərini, kommunikasiya qurğularını, xüsusi yükləri mühafizə edir;
- mühafizə olunan əraziyə soxulmuş şəxslərin axtarılmasında və tutulmasında iştirak edir;
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Təchizat İdarəsinin anbarlarını və hərbi bazalarını mühafizə edir;
- mühafizə olunan obyektlərdə və qurğularda qəzaların, yanğınların, təbii fəlakətlərin və buna bənzər başqa halların nəticələrinin ləğvində iştirak edir;
- yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınmasında iştirak edir;
- qəzalar, bədbəxt hadisələr, yanğınlar, təbii fəlakətlər və başqa fövqəladə hallar zamanı, habelə fövqəladə vəziyyətin hüquqi rejimi təmin edilərkən adamların xilas edilməsi, sahibsiz qalmış əmlakın mühafizəsi, ictimai asayişin qorunması üçün təxirəsalınmaz tədbirlər görməklə daxili işlər orqanlarına kömək göstərir;
- cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşların qarşısını almağa kömək göstərir;
- mühafizədən qaçmış məhkumların və həbs edilmiş şəxslərin axtarılmasında və tutulmasında iştirak edir;
- zərurət olduqda Azərbaycan Respublikasının ərazisinin müdafiəsində iştirak edir.

Daxili Qoşunlara başqa vəzifələr ancaq qanunla həvalə edilə bilər.

Hərbi qanunvericilik, nizamnamələr, hərbi qulluqçuların xidmət keçməsi məsələləri üzrə Daxili Qoşunların fəaliyyəti Silahlı Qüvvələr üçün müəyyən edilmiş hərbi-normativ aktlarla nizamlanır.

Daxili Qoşunların Komandanı birbaşa Daxili İşlər nazirinə tabedir və onun müavinidir.

Azərbaycan Respublikası Prezidentinin 9 mart 1995-ci il tarixli Fərmanı ilə Qoşunların Azərbaycanın ərazi bütövlüyü uğrunda Ermənistanın hərbi təcavüzünə qarşı döyüşə başladığı gün - martın 12-si "Daxili Qoşunlar Günü" elan edilmişdir.

Ədəbiyyat

Daxili Qoşunlar [Mətn] //Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan.- Bakı, 2007.- S.369.

Həsənov, Z. Daxili Qoşunlar yüksəliş mərhələsini yaşayır [Mətn] /Z.Həsənov //Azərbaycan.- 2011.- 12 mart.- S.4.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www. e-qanun.az

www. mia.gov.az

MART
15

10 illiyi

Azərbaycan Mətbuat Şurası 2003

Azərbaycan Mətbuat Şurası 2003-cü il mart ayının 15-də ölkə jurnalistlərinin I qurultayında 180-dək aparıcı kütləvi informasiya vasitəsinin təsisçiliyi ilə yaradılmışdır. Həmin il aprelin 24-də Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.

Mətbuat Şurasının məqsədi jurnalistlərin öz peşə fəaliyyətlərində qanunvericiliyin tələblərinə, peşə prinsiplərinə əməl etməsinə ictimai nəzarətin həyata keçirilməsi, dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqənin və etimadın möhkəmləndirilməsi, söz, fikir və məlumat azadlığına daha geniş imkanlar yaradılmasından ibarətdir. Şura media vasitələrinin fəaliyyət sahələrində baş verən münaqişələrin məhkəməyə qədər həlli variantlarının araşdırılmasını, redaksiya əməkdaşlarının davranışı ilə əlaqədar verilmiş şikayətlərin qəbulu, öyrənilməsi və bununla bağlı qərarların çıxarılmasını həyata keçirir.

Mətbuat Şurasının ali orqanı qurultaydır. Şuraya rəhbərlik sədr tərəfindən aparılır. Şura sədrinin 2 müavini var. Onlardan biri jurnalistləri, digəri ictimaiyyət nümayəndələrini təmsil edir. Sədr müavinləri növbəlilik əsasında Şikayətlər üzrə Komissiyaya rəhbərlik edirlər. Şuranın qərarları İdarə Heyətinin iclaslarında kollegial şəkildə qəbul olunur.

MŞ İdarə Heyəti 15 əsas və 4 ehtiyat üzvdən ibarətdir. Əsas üzvlərdən 9-u jurnalistləri, 6-sı ictimaiyyəti təmsil edir. 4 ehtiyat üzvdən 2-si ictimaiyyətdən, 2-si jurnalistlərdən ibarətdir.

Komissiyalara rəhbərlik Şuranın İdarə Heyətinin üzvləri tərəfindən həyata keçirilir.

İdarə Heyətinin iclasları hər ay, Şikayətlər üzrə Komissiyanın iclasları isə ayda 2 dəfə keçirilir. Digər komissiyalar vaxtaşırı olaraq toplanır.

Mətbuat Şurasının işlərinin icrası Katiblik tərəfindən həyata keçirilir. Katiblik Şuraya daxil olan şikayətlərin araşdırılması prosesində Nizamnamədən irəli gələn prosedur qaydaları həyata keçirir, həmçinin MŞ-nin monitorinq qrupunun fəaliyyətinə nəzarət edir.

Monitorinq qrupu ayda bir dəfə KİV-lərdə apardığı araşdırmalara əsasən nəzərə çarpan tendensiyaları, peşə prinsiplərinin pozulmasındakı bariz təzahür formalarını müəyyənləşdirir, bununla bağlı yekun hesabat hazırlayaraq icraçı katibə təqdim edir.

Mətbuat Şurasının başlıca missiyası şikayətlərin araşdırılmasıdır. Şikayətlərə aşağıdakı fəaliyyət ardıcıllığı ilə baxılır:

1. Şikayətlərin araşdırılması
2. Qərar və rəylər

Azərbaycan Mətbuat Şurası 2005-ci ildən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının və Avropa Mətbuat Şuraları Alyansının üzvüdür. Şura sədri Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının İdarə Heyətində təmsil olunur. MŞ üzvləri bu qurumların hər il dünyanın müxtəlif bölgələrində baş tutan illik toplantılarına qatılır, məruzə ilə çıxış edirlər.

Ədəbiyyat

Aşırlı, A. Azərbaycan mətbuatı tarixi [Mətn] 1920-1990 /A.Aşırlı; elmi red. C.Məmmədli.- Bakı: Elm və təhsil, 2010.- H.2.- 225 s.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.presscouncil.az

Tarixdə bu gün

65 illiyi

Daşkəsən rayonu 1948



Ərazisi: 1046 km²
Əhalisi: 31 200 nəfər (01.01.2011)

Daşkəsən rayonu Azərbaycan SSR ərazisində 1930-cu ildə inzibati ərazi kimi yaradılmışdır.

Daşkəsən şəhərinin əsası Böyük Vətən müharibəsindən sonra 1948-ci il mart ayının 16-da qoyulmuşdur. Rayon əsasən dəmir filizi yataqlarının istifadəyə verilməsi ilə əlaqədar salınmışdır.

1956-cı ilə qədər Dəstəfur rayonu adını daşımış, 1956-cı ildə Daşkəsən adlandırılmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi o dövrkü Xanlar rayonuna verilmiş, 1965-ci ildə isə yenidən müstəqil inzibati ərazi - rayon olmuşdur.

Zağalı, Zivlən, Bayan, Qurubulaq, Əmirvar, Xoşbulaq, Dardərə və başqa kəndlərdə aparılmış arxeoloji qazıntılar bu rayonun ərazisində daş dövrünə aid insan məskənlərinin olmasını sübut etmişdir.

Daşkəsən rayonu Gəncə şəhərindən 33-41 kilometr cənub-qərbdə, Kiçik Qafqazın şimal-şərqində dəniz səviyyəsindən 1600-1800 metr yüksəklikdə yerləşir.

İnzibati mərkəzi Daşkəsən şəhəridir.

Rayon cənub-qərbdən 8 kilometr məsafə ilə Ermənistan Respublikası ilə (8 km), eləcə də Şəmkir (24,5 km), Kəlbəcər (23 km), Gədəbəy (41 km) və Göygöl (56,3 km) rayonları ilə həmsərhəddir.

Kiçik Qafqazın şimal-şərqində yerləşən Daşkəsənin səthini şimala doğru alçalan dağlar əhatələyir. Murovdağ və Şahdağ silsilələrinin yamacları da bu rayonun ərazisidir. Ən hündür zirvələri Hinaldağ (3367 m.), Qoşqar dağıdır (3361 m.) və s.

Başkənd-Dəstəfur çökəkliyinin bir hissəsi Daşkəsən rayonun ərazisindədir. Səthi kanyonlarla kəsilmişdir. Yura və təbaşir çöküntüləri yayılmışdır.

Daşkəsəndə memarlıq abidələri kimi Qoşqar çayının üzərindən salınmış iki qədim daş körpünün və Əhmədli kəndindəki məqbərənin adını çəkmək olar.

Rayonda xalçaçılıq, metal üzərində döymə, ağac və daş üzərində oyma işi kimi sənət növləri bu gün də inkişaf etdirilir.

Ə d ə b i y y a t

Əliyeva, N. Yeniləşən Daşkəsən [Mətn] /N.Əliyeva //Azərbaycan.-2008.- 10 iyun.- S.8.

Qocayev, C. Zirvədən üfüqlər daha aydın görünür [Mətn] /C.Qocayev //Xalq qəzeti .-2010.- 25 iyun.- S.7.

Məmmədov, T. Daşkəsən dağ başında parlaq ulduza bənzəyir [Mətn] /T.Məmmədov //Azərbaycan.- 2010.- 3 dekabr.- S. 6.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www. dashkesan.az.iatp.net
www.mct.gov.az

Tarixdə bu gün

95 ili

Şamaxı soyqırımı 1918



1918-ci ilin mart-aprel aylarında erməni zorakılıqlarından Azərbaycanın ən çox zərər çəkmiş bölgələrindən biri də Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndləri olmuşdur. Təəssüflər olsun ki, bu günə qədər 19l8-l920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən nədənsə onların Şamaxıda törətdikləri vəhşiliklərin ifşası kölgədə qalmışdır. Ermənilərin toplu halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə azərbaycanlı kəndinin əhatəsindəki cəmi 6 erməni kəndi və Şamaxı şəhərindəki azlıqda qalan bir ovuc erməni onlarca Azərbaycan kəndlərini tar-mar etmiş, on minlərlə günahsız insanları qətlə yetirmişlər. Bu fakt bir də onu sübut edir ki, ermənilər olduqca təhlükəli düşməndirlər. Onlar həmişə zərbəni gözlənilməz yerdən vurmağı çox gözəl bacarırlar.

1918-ci il Şamaxı hadisələrinin törədilməsində S.Şaumyan və onun əlaltılarının rolunu diqqətdən qaçırmaq olmaz. O, özü 1918-ci il aprelin 13-də Sovet Rusiyası Xalq Komissarları Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan "yeni dəstələr" göndərdiyini etiraf etmişdir. 1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin səsləri altında oyanmışlar. Şəhər cənubdan ermənilər, şimali-şərqdən isə malakanlar tərəfindən mühasirə olunmuşdur. Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq öz qarşılarında Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bir neçə gündə bir neçə min dinc azərbaycanlı əhalini - kişi, qadın, uşağı qətlə yetirmişlər. Özü də bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətl edilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, çox böyük əziyyətlərlə öldürülmüşlər. Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Fövqəladə təhqiqat komissiyası bu vandalizmin başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul etmişdir.

Şamaxı şəhəri kimi Şamaxı qəzasının nə az, nə çox 86 azərbaycanlılar yaşayan kəndi də ermənilərin xaincəsinə qəfil hücumlarına məruz qalmışdır.

Ədəbiyyat

Paşayev, A. Açılmamış səhifələrin izi ilə [Mətn] /A.Paşayev.- Bakı, 2001.- S.226-239.

Zülfüqarlı, M. Şamaxı soyqırımı. 1918 [Mətn] /M.Zülfüqarlı.-Bakı, 2011.- 78 s.

İnternetdə

www. anl.az

www. ebooks.preslib.az

www.fact-info.az

MART

20

Novruz Bayramı



Novruz bayramı baharın gəlişi şərəfinə qeyd edilir və yeni ilin qarşılanmasını bildirir. Baharın ilk günü təqvimdə Günəşin illik dövr etməsinin başa çatdığını göstərir.

Novruz bayramının tarixi kökləri çox qədim dövrlərə - Zərdüşt peyğəmbərin zəmanəsinə aiddir. Bu isə təqribən 3700-5000 il deməkdir.

Ən qədim yazılı abidələrdə göstərilir ki, Novruz bayramı bizim eradan əvvəl 505-ci ildə qeyd edilmişdir.

Novruz ruhun təmizlənməsi rəmzidir. Novruzdan əvvəlki axır çərşənbə ərəfəsində tonqallar yandırılır və yaşından, cinsindən asılı olmayaraq, hər kəs bu bərəkətli odun üstündən yeddi dəfə tullanmalıdır. Eyni bir tonqalın üstündən yeddi dəfə və ya yeddi tonqalın hərəsinin üstündən bir dəfə tullanmaq lazımdır. Bu ritualı yerinə yetirərkən "Mənim sarılığım sənə, sənin qızartın mənə keçsin" demək lazımdır. Novruz tonqalının üstünə heç vaxt su tökmürlər. Tonqal özü sönəndən sonra oğlanlar və qızlar onun külünü yığıb evdən uzağa aparırlar. Bu o deməkdir ki, bütün pisliklər həmin külə qarışaraq gedir.

Su ilə təmizlənmə suyun təmizləyici qüvvəyə malik olması barədə təsəvvürlərlə bağlıdır. Novruz günlərində arx üstündən tullanmaq ötən ildə edilmiş günahları yumaq deməkdir. Belə bir adət də var: ilin son gecəsində adamlar bir-birinin üstünə su çiləyirlər. Xalq inamına görə, axır çərşənbə gecəsi çaylar və arxlar dayanır, hamı və hər şey, hətta ağaclar da yerə əyilərək suya təzim edirlər. Yeni il axşamında kim bu sudan içərsə, o, xəstələnməz.

Qədimdən yaranmış ənənələrə görə, həmin vaxtda Novruzun şərəfinə toplardan və tüfənglərdən atəş açırlar. Novruz süfrəsində adları "S" hərfi ilə başlayan yeddi xörək, habelə sumax, sirkə, süd, səməni, səbzi və sair olmalıdır. Süfrəyə güzgü və şamlar, güzgünün qabağına boyanmış yumurtalar qoyulur. Bütün bunların hər birinin rəmzi mənası var: şam – insanları bədnəzərdən qoruyan od, işıq, güzgü isə aydınlıq deməkdir.

Ənənəyə görə, bayramın birinci günündə hər kəs öz evində olmalıdır. Xalq içində deyərlər: "Əgər Novruzun birinci günündə öz evində olmasan, yeddi il evinə həsrət qalacaqsan". Keçmişdə Novruz bayramı günündə evin bayır qapısı, bir qayda olaraq, bağlanmırdı. Novruzun birinci günü bütün gecə işıq yanır, çünki işığın sönməsi bədbəxtlik əlamətidir.

Ənənəyə görə, Novruzun birinci günü bahar, ikinci günü yay, üçüncü günü payız və dördüncü günü qış hesab edilir. Əgər birinci gün hava küləksiz və aydın olsa, deməli, il məhsuldar olacaqdır.

Novruz - Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə əks etdirən bayramıdır.

Ədəbiyyat

Azərbaycanın xalq bayramı Novruz [Mətn]: bələdçi kitab /layih. rəhb. Ə.Qarayev; mətnin müəl. Ə.Vəliyev, V.Bəhmənli.- Bakı: Təhsil, 2011.-208 s.

Azərbaycanda Novruz [Mətn].- Bakı: Çıraq, 2012.- 271 s.

Novruz: ənənə və müasirlik [Mətn]: Novruz bayramına həsr olunmuş Elmi Konfransın materialları: (17 mart 2001-ci il) /hazırl. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti; Tələbə Elmi Cəmiyyəti; elmi red. və tərt. ed. M.Süleymanlı; burax. məsul İ.Hüseynov.- Bakı: Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001.- burax.1- 96 s.

Əhmədov, Ə. Novruz süfrəsi [Mətn] /Ə.Əhmədov.- Bakı: Azərnəşr, 2011.- 80 s.

İnternetdə

www. az.wikipedia.org

www. deyerler.org

Tarixdə bu gün

90 illiyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 1923

Bu gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univertsiteti (ADMİU) kimi tanınan bu unikal ali təhsil müəssisəsi 90 illik şərəfli yol keçmişdir. ADMİU öz başlanğıcını Azərbaycan Maarif Komissarlığının 1923-ci il tarixli qərarı ilə Bakı şəhərində yaradılmış Teatr məktəbindən götürür. Bu məktəb Moskvadakı B.V.Şukin və M.S.Şepkin adına teatr məktəblərinin nümunələri əsasında yaradılmışdır. Maarif Komissarlığının kollegiyası 1922-ci il noyabr ayının 1-də Bakı Dövlət Türk Teatr Məktəbinin təşkil edilməsi haqqında qərar çıxartmışdı.

1923-cü ildə məktəbə aktyorluq üzrə ilk qəbul keçirilmişdi. Qəbul edilən 40 nəfər tələbənin 12-si azərbaycanlı qızlar idi ki, bu da o zaman üçün böyük nailiyyət hesab edilə bilərdi. Məktəbdə Ə.Haqverdiyev (ədəbiyyat), M.S.Kirmanşahlı (səhnə danışığı), N.Boqolyubov (teatr tarixi), V.İvanov (antik ədəbiyyat), A.Mudrov (Qərb ədəbiyyatı), V.Zummer (incəsənət tarixi), V.Karagiçev (musiqi təlimi), Kiyev Teatr İnstitutunun professoru V.Sladkopevtsov (aktyor sənəti), məhşur rejissor A.Tuganov kimi məşhur simalar dərs deyirdi. 1945-ci ilədək teatr məktəbi mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə 470 nəfərə yaxın peşəkar mütəxəssis hazırlamışdır.

1945-ci ildə Teatr texnikumu ali məktəbə çevrildi. 20 ildən çox texnikum kimi fəaliyyət göstərən teatr məktəbinin ali məktəb, institut statusu alması cəmiyyətdə böyük bir hadisə olmaqla bərabər, həm də ildən ilə təkmilləşən, inkşaf edən tədris prossesinin məntiqi yekunu idi.

1954-cü ildə Teatr İnstitutuna tanınmış aktyor, gözəl pedaqoq və ziyalı, SSRİ Xalq artisti Mirzağa Əliyevin adı verildi.

Həmin dövrdə və sonrakı illərdə respublikada mədəni-maarif şəbəkəsinin genişlənməsi Bakıda, sonralar isə Naxçıvanda televiziya mərkəzlərinin qurulması, yeni teatrların təşkil edilməsi Teatr İnstitutu qarşısında təkcə mütəxəssislərin sayının artması tələbini deyil, həm də onların peşəkarlıq səviyyəsinin dərinləşməsi tələbini də qoyurdu. İnstitutda gedən proseslər, ixtisasların sayının artması, kadr hazırlığı səviyyəsinin yüksəlməsi və digər pozitiv amillər nəzərə alınaraq, o zamankı Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil Nazirliyinin 2 aprel 1968-ci il tarixli əmri ilə Teatr institutu M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu adlandırıldı.

1991-ci ilin əvvəllərində respublikanın Nazirlər Soveti İncəsənət İnstitutunun mühüm struktur dəyişikliklərini, onun çoxprofilli ixtisaslar üzrə mütəxəssis yetişdirdiyini, elmi-texniki bazasının möhkəmləndiyini nəzərə alaraq bu ali təhsil müəssisəsinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) adlandırılması haqqında 76 saylı qərar verdi.

Hazırda ADMİU-da 7 fakültə, hazırlıq şöbəsi və təkmilləşdirmə dekanlığı var. ADMİU 29 kafedrası, eləcə də əsaslı kitabxanası, geniş bədii və texniki imkanlara malik "Səda" Tədris teatrı, kompyuter mərkəzi, müasir avadanlıqla təhciz edilmiş nəşriyyat-poliqrafiya mərkəzi, idman klubu və bir çox digər qurumları olan ali təhsil ocağına çevrilmişdir.

Ədəbiyyat

Əfəndiyev,T. Azərbaycan mədəniyyəti və incəsənəti [Mətn]: kitab-ensiklopediya /T.Əfəndiyev; red. N.Şəmsizadə; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti; İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzi.- Bakı, 2003.- 208 s.

Əfəndiyev, T. Müstəqillik illərinin uğurları [Mətn] /Timuçin Əfəndiyev //525-ci qəzet.-2011.-18 oktyabr.- S. 5.

Əfəndiyev, T. Universitetimiz zəngin ənənələri olan sənət ocağıdır [Mətn] /Timuçin Əfəndiyev //525-ci qəzet.-2012.-27 yanvar.- S.4.

İnternetdə

www.admiu.edu.az

www. az.wikipedia.org

MART

28

Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü 1997



1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasında 1919-cu il martın 28-də müdafiə naziri Səməd bəy Mehmandarovun 157 saylı əmrinə əsasən kəşfiyyat və əks-kəşfiyyat xidməti təşkil olunmuşdu. Bu təşkilatın vəzifəsi terrorizmə, casusluğa, təxribatlara qarşı mübarizə aparmaq idi. Lakin cümhuriyyətinin süqutu və 1920-ci ildə sovet ordusu tərəfindən Azərbaycanın işğalı nəticəsində təşkilatın üzvləri repressiyalara məruz qalmış, M.Şeyxzamanlı başda olmaqla əksər rəhbər heyət güllələnmişdi.

Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanmış, bir müddət Daxili İşlər Xalq Komissarlığının ("NKVD") tərkibində fəaliyyət göstərmiş, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunmuşdur.

50-ci illərin sonlarından etibarən respublika təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli işlər görüldü. Bu proses bilavasitə ömrünün böyük bir hissəsini təhlükəsizlik orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1964-ci ildən sonrakı dövrdə orqana milli kadrların cəlb olunması, onların yetişdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. 1967-ci ilədək respublikanın təhlükəsizlik orqanlarına qeyri-azərbaycanlılar rəhbərlik ediblər. Həmin il general Heydər Əliyev Azərbaycan DTK-nın sədri təyin olunmuşdur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranıb. Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran vəzifələr Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdir.

"Azərbaycan Respublikası Milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il 23 mart tarixli Fərmanı ilə 28 mart-Milli Təhlükəsizlik Orqanları İşçilərinin peşə bayramı Günü elan olunmuşdur.

Ədəbiyyat

Xəlilov, C. Milli təhlükəsizliyin təmin olunmasında milli mənlik şüurunun rolu [Mətn]: siyasi e.n.a.dər.a. üçün təqdim edilmiş dis-nın avtoreferatı: 23.00.01 /Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası.- Bakı, 2003.- 30 s.

Milli Təhlükəsizlik orqanlarının qəhrəmanları [Mətn] /baş məsl. E.Mahmudov; məsl.F.Vahabov; red. A.Babayev; tərt.: X.Tağıyeva, N.Allahverdiyev.- Bakı: MTN-nin İctimai Əlaqələr Mərkəzi: İndiqo, 2008.- 324 s.

Milli təhlükəsizliyin keşiyində [Mətn] //Azərbaycan.- 2012.- 28 mart.- S.5

İnternetdə

www.anl.az

www.mns.gov.az

www. ebooks.preslib.az

MART

31

95 ili

Azərbaycanlıların Soyqırımı Günü 1918



Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuş, "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlanmışdı. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirmişdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etmişdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, yerlə yeksan edilmiş, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi.

Birinci Dünya müharibəsi, eləcə də Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olmuşdular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdi. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etmişdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların depor-

tasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olmuşdular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başlamışdılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənmişdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilmişdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulmuşlar. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir.

Erməni daşnaklarının bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımından 95 il ötür. 1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşaqların öldürülməsi ilə nəticələnmişdi.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirmiş, müsəlman ziyarətgahlarını yandırmış, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmişdir. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binası yandırılmışdır.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmamışdır. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetirmişlər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olmuşdur. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırmış, on minlərlə insanı vəhşicəsinə qətlə yetirmişlər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim etmiş, 1919-cu ildə Azərbaycan Parlamenti 31 mart tarixinin - azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılmış, kitablar dərc olunmuşdur. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır. Həmin gündən başlayaraq 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Ə d ə b i y y a t

Əliyev, N.1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənəbələrdə [Mətn] /N.Əliyev; elmi red. İ.Musa; red. A.Əliyev.- Bakı: Nurlan, 2009.- 203 s.

Ələkbərli, Ə. Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı [Mətn]: Sənədlərin dili ilə /Ə.Ələkbərli; məsləhətçilər: Ə.Həsənov, A.Səfərov; red.: B.Budaqov, H.Mirzəyev; rəyçilər: Q.Sadıqov, İ.Məmmədov.- Bakı: [Nurlan], 2008.- 560 s.

İsgəndərov, A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı: 1918-1920 [Mətn] /A.İsgəndərov; elmi red.: Y.Mahmudov, F.İbrahimli; xüsusi red. Ş.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 396 s.

www. azerbaycanli.org

1 aprel
Gün çıxır 07:26
Gün batır 20:21

30 aprel
Gün çıxır 07:42
Gün batır 20:52

APREL

21 mart- 20 aprel

Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

B.E.	1
Ç.A.	**2**
Ç.	3
C.A.	4
C.	5
Ş.	6
B.	7
B.E.	8
Ç.A.	9
Ç.	10
C.A.	11
C.	12
Ş.	13
B.	**14**
B.E.	15
Ç.A.	16
Ç.	17
C.A.	18
C.	19
Ş.	20
B.	**21**
B.E.	22
Ç.A.	23
Ç.	24
C.A.	25
C.	26
Ş.	27
B.	**28**
B.E.	29
Ç.A.	30

- *Ümumdünya Gülüş Günü (01.04.1564)*
- **Kəlbəcər rayonunun işğalının 20-ci ildönümü (02.04.1993)**
- *Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)*
- *Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)*
- *Ümumdünya Hemofiliya Günü (17.04.1964)*
- *Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)*
- *Ümumdünya Yer Günü (22.04.1970)*
- *Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)*

90 il Heydər Əliyev 1923-2003



Ermənistanın hərbi təcavüzü respublikanın 17 min kv.km ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsi, 130 939 ev, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 1025 təhsil, 798 səhiyyə ocağı, 1510 mədəniyyət müəssisəsi, 5198 km avtomobil yolu, 348 körpü, 7568 km su və 76940 km elektrik xəttinin dağıdılmasına səbəb olmuşdur.

- "...bizim ali vəzifəmiz, məqsədimiz işğal olunmuş torpaqları azad etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və yerlərindən didərgin düşmüş soydaşlarımızı öz yurdlarına qaytarmaqdır.

Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar".

Heydər Əliyev, ümummilli lider

APREL 2013

Milli ədəbiyyat



"Qızıl qələm", "Araz" ədəbi mükafatları laureatı, yazıçı, millət vəkili Abbasov Aqil Məhəmməd oğlunun (Aqil Abbas) (01.04.1953) anadan olmasının **60** illiyi 115

Nasir, dramaturq Qədirzadə Salam Dadaş oğlunun (10.04.1923-16.11.1987) anadan olmasının **90** illiyi 116

Şair, publisist Əliyev Vaqif Müslüm oğlunun (Vaqif Əsrar) (19.04.1948) anadan olmasının **65** illiyi

Tənqidçi, ədəbiyyatşünas Yusifov Vaqif Əziz oğlunun (Vaqif Yusifli) (20.04.1948) anadan olmasının **65** illiyi

Tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru Hüseynov Tofiq Hüseyn oğlunun (Tofiq Hüseynoğlu) (21.04.1938) anadan olmasının **75** illiyi

Ədəbiyyatşünas, filologiya elmləri doktoru İsmayılov Əjdər Tağı oğlunun (23.04.1938) anadan olmasının **75** illiyi

Əməkdar elm xadimi, yazıçı, ədəbiyyatşünas, professor Paşayev Mir Cəlal Əli oğlunun (26.04.1908-28.09.1978) anadan olmasının 105 illiyi 117

Dilçi, filologiya elmləri doktoru, professor Babayev Adil Məhəmməd oğlunun (28.04.1938) anadan olmasının **75** illiyi

Dünya ədəbiyyatı



Ukrayna yazıçısı Qonçar Olesin (Aleksandr Terentyeviç) (03.04.1918) anadan olmasının **95** illiyi

Amerika yazıçısı Vaşinqton İrvinqin (03.04.1783-28.11.1859) anadan olmasının **230** illiyi

İngilis yazıçısı Rid Tomas Maynın (04.04.1818-22.10.1883) anadan olmasının **195** illiyi

Tacik yazıçısı,Tacikistan EA-nın akademiki və ilk prezidenti, Tacikistanın Əməkdar elm xadimi Sədrəddin Səid-Murodzodanın (Sədrəddin Ayni) (27.04.1878-15.07.1954) anadan olmasının **135** illiyi

Çex yazıçısı Yaroslav Qaşekin (30.04.1883-03.01.1923) anadan olmasının **130** illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq



Məşhur italyan rəssamı Rafael Santi (Raffaello Sanzio de Urbino) (06.04.1483-06.04.1520) anadan olmasının **530** illiyi 118

Azərbaycan memarı, professor Məmmədova Gülçöhrə Hüseyn qızının

(23.04.1953) anadan olmasının **60** illiyi 119

Musiqi.Opera.Balet



İspan opera müğənnisi Maria de Monserrat Viviana Konsepyon Kabalye-i-Folkun (Kabalye Monserrat) (12.04.1933) anadan olamsının **80** illiyi
SSRİ Xalq artisti, müğənni İmanov Lütfiyar Müslüm oğlunun (17.04.1928-22.01.2008) anadan olmasının **85** illiyi 120
Xanəndə Behbudov Məcid Behbudalı oğlunun (18.04.1873-06.09.1945) anadan olmasının **140** illiyi
Azərbaycanın Xalq artisti, dirijor, professor Cəfərov Cavanşir Xəlil oğlunun (23.04.1953) anadan olmasının **60** illiyi

Teatr.Kino



Xalq artisti, M.F.Axundov adına Respublika mükafatı laureatı, aktyor Zeynalov Əli Yusif oğlunun (04.04.1913-04.01.1988) anadan olmasının **100** illiyi 121
Əməkdar incəsənət xadimi, operator Nərimanbəyov Arif Əmir oğlunun (13.04.1918-06.05.1992) anadan olmasının **95** illiyi
Xalq artisti, kinorejissor Behbudov Vaqif Qulam oğlunun (23.04.1938) anadan olmasının **75** illiyi 122
Xalq artisti, aktyor Turabov Həsənağa Səttar oğlunun (24.04.1938-23.02.2003) anadan olmasının **75** illiyi 123

Milli Qəhrəmanlar



Azərbaycanın Milli Qəhrəmanı Xasıyev Samir Zirəddin oğlunun (20.04.1973-17.03.1995) anadan olmasının **40** illiyi 124

Fəlsəfə.İqtisadiyyat.Hüquq



Azərbaycanın ilk akademik-filosofu, ictimai xadim Hüseynov Heydər Nəcəf oğlunun (03.04.1908-15.08.1950) anadan olmasının **105** illiyi 125
Filosof, ədəbiyyatşünas, Əməkdar elm xadimi Mustafayev Camal Vəli oğlunun (15.04.1928) anadan olmasının **85** illiyi 126
Akademik, Respublikanın Həqiqi Dövlət müşaviri, filosof Mehdiyev Ramiz Ənvər oğlunun (17.04.1938) anadan olmasının **75** illiyi 127

Mədəniyyət.Maarif.Elm



Maarif xadimi Bayraməlibəyova-Məlik-Yeqanova Məryəm Teymur bəy qızının (04.04.1898-02.12.1967) anadan olmasının **115** illiyi 128
Əməkdar müəllim, maarif xadimi Hüseynzadə Lətif Talıb oğlunun (24.04.1903-11.07.2008) anadan olmasının **110** illiyi 129



Kimya. Biologiya.Tibb

Texnika elmləri doktoru, kimyaçı professor Mərdanov Məcid Əhəd oğlunun (09.04.1913-1982) anadan olmasının **100** illiyi
Mikrobiologiya sahəsində ilk azərbaycanlı qadın elmlər doktoru Mehdiyeva Nisə Əşrəf qızının (12.04.1928) anadan olmasının **85** illiyi 130
Akademik, oftalmoloq Əliyeva Zərifə Əziz qızının (28.04.1923-15.04.1985) anadan olmasının **90** illiyi 131
Akademik, biologiya elmləri doktoru Ələkbərov Urxan Kazım oğlunun (28.04.1943) anadan olmasının **70** illiyi 132



Kitabxanaşünaslıq.Biblioqrafiya

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaradılmasının (13.04.1923) **90** illiyi 133

Tarixdə bu gün



Ümumdünya Gülüş Günü (01.04.1564) 134
Kəlbəcər rayonunun işğalının 20-ci ildönümü (02.04.1993) 135
Azərbaycan Dizaynerlər İttifaqının yaradılmasının **25** illiyi (02.04.1988)
Moskvada Azərbaycan incəsənətinin birinci dekadası keçirilmişdir (5-14.04.1938)
Azərbaycan respublikası ilə Malayziya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabın 31-də tanıyıb) arasında diplomatik əlaqələr qurulmuşdur (05.04.1993)
Ümumdünya Sağlamlıq Günü (07.04.1950)
"Tərcüman" qəzetinin nəşrinin (10.04.1883-1916) **130** illiyi 136
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Azərbaycanın ABŞ-dakı səfirliyi fəaliyyətə başlamışdır (15.04.1993)
Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)
Ümumdünya Hemofiliya Günü (17.04.1964) 136
Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983) 137
İtaliyanın paytaxtı Roma şəhərinin əsası qoyulub (e.ə.21.04.753)
Ümumdünya Yer Günü (22.04.1970) 137
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996) 138
Bakıda Xalq Komissarları Soveti yaradılmışdır (25.04.1918)
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.2003)
Beynəlxalq Rəqs Günü (29.04.1982)
BMT Təhlükəsizlik Şurası tərəfindən Azərbaycanın Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı ilə bağlı 822 saylı qətnaməsinin qəbul edilməsinin **20** illiyi (30.04.1993)

Milli ədəbiyyat

60 illiyi

Aqil Abbas
1953

Yazıçı



Ə d ə b i y y a t

Batmanqılınc [Mətn]: roman /A.Abbas.- Bakı: Gənclik, 1994.- 300 s.

Çadırda Üzeyir Hacıbeyli doğamaz [Metn]: en uzun ve dertli öykü /A.Abbas; yayına haz. A.İsayev, P.Semedbeyli.- Ankara: [Aydınlar yayınları], 2003.- 131 s.

Dolu [Mətn]: roman /A.Abbas; ön söz müəl. N.Cəfərov; [rəssam Y.Ş. fon Karolsfeldin].- Bakı: Təhsil, 2008.- 254 s.

Dolu [Metn]: Karabağ romanı /A.Abbas; aktaran A.Altaylı, S.Altaylı [önsöz. S.Altaylı].- Ankara: Bengü, 2009.-145 s.

Nuru, V. Aqil Abbas xarakteri [Mətn] /V.Nuru //525-ci qəzet .-2010.- 1 aprel. - S.7.

Səma, G. Aqil Abbasın "Dolu" romanında aktual problemlər [Mətn] /G.Səma //Azad Azərbaycan.- 2012.- 26 sentyabr.- S.7.

www.anl.az

www..az.wikipedia.org

Aqil Məhəmməd oğlu Abbasov (Aqil Abbas) 1953-cü il aprel ayının 1-də Ağcabədi rayonunun Kolalı kəndində doğulmuşdur.

Burada orta məktəbi bitirdikdən sonra 1970-1976-cı illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsilini davam etdirmişdir.

1976-1977-ci illərdə əmək fəaliyyətinə Ağsu rayonundakı internat məktəbində müəllim kimi başlamışdır.

1977-1987-ci illərdə "Elm və həyat" jurnalında fotomüxbir, şöbə müdiri, 1987-1990-cı illərdə "Sovet kəndi" qəzetinin xüsusi müxbiri işləmişdir.

Bədii yaradıcılığa 1970-ci ildən başlasa da, ilk mətbu hekayəsi "Şirinlik" 1976-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. Bunun ardınca 1977-ci ildə "Şəbədə Nazim" hekayəsi "Ulduz" və "Azərbaycan" jurnallarında işıq üzü görmüşdür. Həmin dövrdən mətbuatda müntəzəm çıxış etmişdir. "Qiyamət gecəsi", "Qapqara uzun saçlar" (2003) povestlərini, "Dolu" (2008) və s. əsərlərini qələmə almışdır.

"Dolu" əsəri Qarabağ döyüşləri haqqında yazılan ən yaxşı nəsr nümunələrindən biridir. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Aqil Abbasın eyniadlı romanı əsasında, rejissor Elxan Cəfərovun çəkdiyi "Dolu" tammetrajlı bədii filmi böyük maraqla qarşılanıb. Film Qarabağ müharibəsində heç nəyə baxmayaraq Vətən uğrunda son damla qanına qədər döyüşən Azərbaycan oğullarının qəhrəmanlıqlarından bəhs edir.

Aqil Abbas 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Azərbaycanın Əməkdar jurnalistidir. Azərbaycan komsomolu mükafatı laureatı (1987) ("Ən yaxşı adam" kitabına görə), Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatı laureatı (1993), "Məmməd Araz" adına ədəbi mükafat laureatı (1994), "Dan ulduzu" (1993), "Yaddaş" və "Zeynalabdin Tağıyev" mükafatları laureatıdır. 10-dan çox kitabın müəllifidir.

1990-cı ildən "Ədalət" qəzetinin baş redaktorudur. 2005-ci ildə Milli Məclisin deputatı seçilmişdir.

2008-ci ildən Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvüdür.

90 illiyi

Salam Qədirzadə 1923-1987

Yazıçı



Salam Dadaş oğlu Qədirzadə 1923-cü il aprel ayının 10-da Bakı şəhərində anadan olmuşdur. Burada 150 saylı orta məktəbi bitirdikdən sonra sovet ordusunda hərbi xidmətə çağrılmış, ilk günlərdən ön cəbhədə olmuş, Polşa, Çexoslavakiya və Rumıniya ölkələrinin azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunduqdan sonra 1946-1948-ci illərdə Sumqayıt şəhərindəki 18 saylı fabrik-zavod təhsili məktəbində müdir müavini, Bakının Xətai rayon Radio qovşağı redaksiyasında baş redaktor olmuşdur.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuş, üçüncü kursdan təhsilini Moskvada, M.Qorki adına Ədəbiyyat İnstitutunda davam etdirmişdir. Sonra 1952-1953-cü illlərdə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında ədəbi işçi, məsul katib, 1960-1966-cı illərdə "Kirpi" satirik jurnalı redaksiyasında məsul katib, 1975-1976-cı illərdə Azərbaycan Yazıçılar Birliyində dramaturgiya üzrə məsləhətçi, 1976-1980-ci illərdə "Kirpi" satirik jurnalının baş redaktoru vəzifələrində işləmişdir.

Bədii yaradıcılığa 1948-ci ildə "Pioner" jurnalında çap etdirdiyi "Oqtay" adlı ilk hekayəsi ilə başlamışdır. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Yazdığı "Qış gecəsi", "46 bənövşə", "Nar çiçəyi nağılı", "Sevdasız aylar", "Sən olmasaydın" roman, povest və hekayə kitabları gənclərin mənəvi-əxlaqi keyfiyyətlərindən bəhs edir.

Həmçinin, satirik povest və hekayələrin - "Şirin bala bal yağır", "Hardasan ay subaylıq", "Həmişəxanım" kimi məşhur, səhnədən düşməyən komediyaların müəllifidir. "Bir qız bir oğlanındır", "Sevginin ünvanı ürəkdir", "Hər gün ömürdən gedir" kimi kitabları dövründə böyük tirajla çap edilmiş və bestsellerə çevrilmişdir.

Onun əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

Döyüş hünərinə və ədəbiyyat sahəsindəki xidmətlərinə görə III dərəcəli "Şöhrət ordeni" və on iki medalla təltif olunmuşdur.

Salam Qədirzadə 1987-ci il noyabr ayının 16-da vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /S.Qədirzadə; [tərt. ed. R.Qədirzadə].- Bakı: Azərnəşr, 1990.-509 s.

Hər gün ömürdən gedir [Mətn] /S.Qədirzadə; [red. Z.Əsgərova].- Bakı: Yazıçı, 1987.- 315 s.

Qış gecəsi [Mətn]: roman /S.Qədirzadə; red. S.Həbibzadə.- Bakı: Gənclik, 1998.- 192 s.

Sevginin ünvanı ürəkdir [Mətn]: [romanlar, povestlər] /S.Qədirzadə; [red. S.Məmmədova].- Bakı: Gənclik, 1983. - 527 s.

Hüseynova, Ş. Salam Qədirzadənin bədii nəsri [Mətn]: filol.e.n.a.dər.a.üçün təqdim edilmiş dis-nın avtoreferatı: 10.01.03. /Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu .- Bakı, 1995.- 22 s.

İnternetdə

www anl.az

www az.wikipedia.org

www kayzen.az

105 illiyi

Mir Cəlal Paşayev 1908-1978

Yazıçı



Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Mir Cəlal; tərt. ed. və ön sözün müəl. Y.İsmayılov.- Bakı: Şərq-Qərb, 2005.-384 s.

Azərbaycanda ədəbi məktəblər (1905-1917) [Mətn] /Mir Cəlal; elmi red. və çapa haz. Təhsin Mütəllimov.- Bakı: Ziya-Nurlan, 2004.- 392 s.

Ədəbiyyatşünaslığın əsasları [Mətn]: ali məktəblər üçün dərslik /Mir Cəlal, Pənah Xəlilov; elmi red. F.Hüseynov.- Bakı: Maarif, 1988.- 280 s.

Mir Cəlal. Biblioqrafiya [Mətn] /tərt. N.Nağıyeva.- Bakı: Adiloğlu, 2008.- 269 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milli.az

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprel ayının 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində anadan olmuşdur.

O, 1918-1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil almış və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə darülmüəlliminə daxil olmuşdur.

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal, az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınmışdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutmuşdur. 1928-ci ildə mətbuatda "Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir" adlı ilk şeirləri çap olunmuşdur. Lakin o, bundan sonra, daha doğrusu, 1930-cu ildən etibarən hekayələr yazmağa başlamışdır.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal, elə həmin ildə də ilk tədqiqat əsərini yazmışdır. "Bir gəncin manifesti" əsəri klassik bədii nümunə kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırmışdır. "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qızıl nüsxələrindəndir. Mir Cəlalın ilk iri həcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunmuşdur. Bu günə kimi yazıçının 70-dən çox kitabı çapdan çıxmışdır.

Mir Cəlal Paşayev böyük şəxsiyyətlərin həyat və yaradıcılıqlarını, dövrün ictimai-siyasi, ədəbi-mədəni mühitini öyrənməklə, tədqiq etməklə özü də uca zirvələrə qalxmış, şəxsiyyət kimi müdrikləşmişdir.

"Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə" (1944) medalları, "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" (1948), "Qırmızı əmək bayrağı" (1967), "Oktyabr inqilabı" (1978) və iki dəfə "Şərəf nişanı" (1950, 1958) ordenləri ilə təltif olunmuşdur. 1968 - Azərbaycan LKGİ MK-nın qərarı ilə "Bir gəncin manifesti" əsəri Respublika Lenin Komsomolu mukafatına layiq görülmüşdür. 1969-cu ildə ona "Azərbaycan SSR-in Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da bu böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

Mir Cəlal 1978-ci il sentyabr ayının 28-də vəfat etmiş, ikinci Fəxri Xiyabanda dəfn edilmişdir.

530 illiyi Rafael Santi 1483-1520 İtalyan rəssamı



Rafael Santi (Raffaello de Urbino) 1483-cü il aprel ayının 6-da (bəzi mənbələrdə mart ayının 28-də) İtaliyanın Urbino şəhərində Boyakar Giovanni Santinin ailəsində anadan olmuşdur. Rəssamlığı atasından və Perucinodan öyrənmişdir. Hələ çəkdiyi ilk əsərlərindən ("Cəngavərin yuxusu", Milli Qalereya, London; "Üç qrasiya", Konde muzeyi, Şantiyi; "Konastibile madonnası", Ermitaj, Leninqrad-hamısı təqribən 1500-1502; "Məryəmin nişanlanması" 1504, Brera Qalereyası, Milan) Rafaelin böyük istedadı nəzərə çarpmağa başlamışdır.

1504-cü ildə Florensiyaya getmiş, Fra Bartolommeo və Leonardo da Vinçi kimi rəssamların yaradıcılığını və anatomiyanı öyrənmişdir. O, burada 1504-1508-ci illər arasında işlədiyi "Qranduka madonnası" (Palatin Qalereyası, Florensiya); "Madonna yaşıllıqlar içərisində" (Bədii tarixi muzey, Vyana;) "Məryəm körpə İsa və Yəhya peyğəmbər ilə" (Luvr, Paris) və s. tablolarda övladını əzizləyən Məryəmi təsvir etmiş, yüksək insani hisslərin, saf ana məhəbbətinin tərənnümünə çalışmışdır. Rafael Florensiyaya gedincə özünü İntibahın içində tapmışdı. Leonardo da Vinçi və Mikelancelo təsiri ilə sənətinə yeniliklər qatmışdı.

1508-ci ildə Rəfael II Yulinin dəvəti ilə Vatikan sarayında işləmək üçün Romaya köçmüşdür. O, burada özünün ən mühüm əsərini - Vatikan Sarayı stansalarının (istirahət otaqları) divar rəsmlərini yaratmışdır. Rafaelin ən görkəmli kamil əsəri "Sikst madonnası"dır. (1515-1519, Drezden Şəkil Qalereyası). Bu tabloda insan gözəlliyi və ana məhəbbəti ideallaşdırılmış, körpəsini bağrına basmış Məryəm həyatsevər bir obraz kimi təsvir olunmuşdur.

Rafaelin memarlıq yaradıcılığı da mühüm əhəmiyyətə malikdir. Bramantenin ölümündən sonra o, müqəddəs Pyotr kilsəsinin baş memarı vəzifəsini tutmuş, Vatikan həyətinin inşasını başa çatdırmışdır. Romadakı Sant-Elico delyi Orefici kilsəsi (1509-cu ildən) və Santa-Mariya del Popolo kilsəsinin Kici kopellası, eləcə də Roma və Florensiyadakı bir sıra saraylar, villalar Rafaelin layihəsi ilə tikilmişdir.

Rafaelin gördüyü işlərdən biri də parça üzərinə qoyduğu bəzəklərlə divar örtükləri hazırlaması olmuşdur. 1513-1519-cu illər arasında hazırladığı on ədəd böyük divar bəzəmə örtüləri, Sikst kilsəsində istifadə edilmişdir.

Rafael renessans dövrü incəsənətinin görkəmli sənətkarlarındandır. Rafael Avropada klassik rəssamlığın əsasını qoymuşdur. Mikelancelodan fərqli olaraq görünən hər şeyi bütün zənginliyi ilə tabloya köçürmüş, tarixi və xristianlığa aid dini mövzulara sadiq qalmışdır.

Rafael 1520-ci il aprel ayının 6-da Romada 37 yaşında vəfat etmiş, Roma panteonunda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Nəcəfov, M. Rafael Santi [İzomaterial] /M.Nəcəfov; [red. S.İsmayılova].- Bakı: İşıq, 1980.- 29, [3] s.

Rafael [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.-Bakı, 1982.- C.VIII.- S.87.

Мутер, Р. Мировая живопись [Текст] Шедевры. Жанры. Направления /Р.Мутер; худож. оформ. изд. Е.Шамрай; [предисл. В.Татаринов].- Москва: Эксмо, 2010.- 541, [1] с.

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

www.rafael.co.i

60 illiyi

Gülçöhrə Məmmədova 1953

Memar



Gülçöhrə Hüseyn qızı Məmmədova 1953-cü ildə Qərbi Azərbaycanın Vedi rayonunda anadan olmuşdur.

1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuşdur.

1975-ci ilin sentyabr ayında G.Məmmədova yeni yaranmış Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun komsomol komitəsinin katibi seçilmiş, 1979-cu ilə qədər həmin vəzifədə işləmişdir.

1976-cı ildə Azərbaycan İnşaat mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirib, 1979-cu ildə həmin institutun Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasında assistent vəzifəsində işə başlamışdır.

1987-ci ildən həmin kafedranın baş müəllimi, 1991-ci ildən dosenti, 2000-ci ildən isə professorudur.

2000-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru vəzifəsində çalışır. G.Məmmədovanın elmi fəaliyyəti Qafqaz Albaniyasının memarlığı və Azərbaycan ərazisində xristian dini memarlığının tədqiqi ilə bağlıdır.

Bir çox abidələrin bərpa və elmi rekonstruksiya layihələrini işləmişdir. 1985-ci ildə "Qafqaz Albaniyasının erkən orta əsrlər xristian memarlığı" mövzusunda namizədlik dissertasiyasını, 1999-cu ildə "Qafqaz Albaniyasının dini memarlığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Bir çox beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmiş və bir sıra beynəlxalq layihələrə rəhbərlik etmişdir.

II çağırış 2000-2005-ci illər Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Beynəlxalq Elmlər Akademiyası Şərqi Avropa bölməsinin və Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvüdür.

1985-ci ildən Memarlar İttifaqının üzvü, 2007-ci ildən Memarlar İttifaqı İdarə heyətinin katibidir.

2006-cı ildə "Respublikanın Əməkdar memarı" fəxri adına layiq görülmüşdür.

70-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın, 5 kitabın və 60-dan çox məqalənin müəllifidir. Şəki rayonunda Kiş məbədinin, Qəbələ rayonunda Nic məbədinin, Qax rayonunda Qum bazilikasının bərpası, Bakıda "Şərq" MTK-nın 16 mərtəbəli yaşayış binası G.Məmmədovanın layihələri əsasında həyata keçirilmişdir.

Ədəbiyyat

Kiş kəndi və onun məbədi [Mətn]= The village and temple of Kish /G.Məmmədova, V.Aslan; tərc.: Ə.Əfəndiyev, S.Süleymanov.- Bakı: Çaşıoğlu, 2003.- 32 s. Azərbaycan və ingilis dillərində.

Kiş: Qafqaz Albaniyasının - Azərbaycanın görkəmli memarlıq abidəsi = Киш: выдающийся памятник архитектуры Кавказской Албании - Азербайджана = Kish: the Striking Architectural Monument of Caucasian Albania - Azerbaijan [Mətn] /G.Məmmədova, S.Hacıyeva, T.Abdullayev; tərc.: R.Rəhimov, M.Bayramova, S.Suleymanov; Azərbaycan Memarlıq və İnşaat Universiteti.- Bakı: XXI-YNE, 2002.- 104 s.

İnternetdə

www.az.wikipedia.org

www.e-qanun.az

www.meclis.gov.az

85 illiyi Lütfiyar İmanov 1928-2008

Opera müğənnisi



Lütfiyar Müslüm oğlu İmanov 1928-ci il aprel ayının 17-də Sabirabad rayonunda anadan olmuşdur.

Azərbaycanın böyük sənətkarı ilk rolunu 1943-cü ildə Sabirabad Dövlət Musiqi Teatrının səhnəsində "5 manatlıq gəlin" tamaşasında oynamışdır. 18 yaşında ilk dram dərnəyini yaratmışdır.

O, 1948-ci ildən Sabirabad şəhər Mədəniyyət evində bədii rəhbər işləmişdir.

Lütfiyar İmanov 1954-1956-cı illərdə Azərbaycan Televiziyası və Radiosu xorunun, 1956-1957-ci illərdə Azərbaycan Dövlət Estrada Orkestrinin solisti olmuş, 1956-1959-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında çalışmışdır. O, 1958-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti kimi fəaliyyət göstərmişdir.

1959-cu ildə Moskvada tamaşaya qoyulan "Koroğlu" operasında baş rolu - Koroğlu rolunu oynamışdır.

O, 1954-1957-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin vokal şöbəsində, 1962-1968-ci illərdə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsində təhsil almış və bundan sonra 30-dan çox operada baş rolun ifaçısı olmuşdur.

Lütfiyar İmanov 1965-ci ildə SSRİ Böyük Teatrında və 1975-ci ildə İtaliyada "La Skala" teatrında təcrübə keçmişdir.

Xarici ölkələrə qastrol səfərləri 1960-cı ildən Hindistandan başlamışdır. Hətta həmin ildə hind mahnılarını Azərbaycan dilinə çevirərək hər iki dildə Hindistanda ifa etmişdir. Lütfiyar İmanov Hindistan, Norveç, Bolqarıstan, Kuba, Çexiya, Polşa, Almaniya, Türkiyə, Yaponiya, Livan, Küveyt, Suriya, İordaniya, Fransa, İtaliya, Belçika, Hollandiya, İspaniya, Malta, Macarıstan, Yunanıstan, Rumıniya və b. ölkələrdə konsertlərlə çıxış etmişdir.

1991-1995-ci illərdə İstanbul və İzmir şəhərlərinin opera teatrlarında vokal dərsləri vermişdir.

1995-ci ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubileyi münasibətilə Tehranda keçirilən festivalda, 1996-cı ildə İtaliyada Vivaldinin xatirəsinə həsr edilən konsertdə, Almaniyada "Milleniumun mahnısı" festivalında çıxış etmişdir. "Karmen", "Faust", "Otello", "Trubador", "Aida", "Riqoletto" və s. klassik opera əsərlərində rollar oynamışdır. Uzun müddət Bakı Musiqi Akademiyasında müəllim-professor kimi çalışmışdır.

O, Azərbaycan Respublikası Ali Sovetinin deputatı və Azərbaycan Teatr Xadimləri İttifaqının sədri kimi Azərbaycan mədəniyyətinin tərəqqisinə layiqli töhfələr vermişdir. Çoxşaxəli fəaliyyəti bütövlükdə sənətə sonsuz bağlılıq nümunəsi olan Lütfiyar İmanov milli musiqi mədəniyyətinin inkişafı sahəsində mühüm nailiyyətlərinə görə, SSRİ Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, müstəqil Azərbaycan Respublikasının ən ali mükafatı - "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Lütfiyar Müslüm oğlu İmanov 2008-ci il yanvar ayının 22-də ömrünün 80-ci ilində vəfat etmişdir.

22 fevral 2010-cu ildə Prezident İlham Əliyev SSRİ Xalq artisti Lütfiyar Müslüm oğlu İmanovun xatirəsinin əbədiləşdirilməsi barədə sərəncam imzalamışdır.

Ədəbiyyat

Rəhmanzadə, F. Lütfiyar İmanov: ömür yollarından məqamlar, yaradıcılıq səhifələri [Mətn] /F.Rəhmanzadə; elmi red. R.Zöhrabov; red. F.Qurbanova; rəssam H.Hacıyev; buraxılışa məsul Ə.Məhərrəmli.- Bakı: Zərdabi LTD MMC, 2008.- 221 s.

İlyasoğlu, R. Lütfiyar İmanovun xatirə gecəsi [Mətn] /R.İlyasoğlu //Respublika.- 2011.- 1 fevral.- S.6.

Lütfiyar Müslüm oğlu İmanov [Mətn]: nekroloq //Xalq qəzeti.- 2008.- 23 yanvar.- S. 4.

Səhnəmizin Koroğlusu[Mətn]: Azərbaycanın böyük sənətkarı Lütfiyar İmanovun yeri görünür //Şərq.-6 may.-2011.-S.4.

İnternetdə


www.anl.az

www.milli.az

www.uzeyirbook.musigi-dunya.az

100 illiyi Əli Zeynalov 1913-1988

Aktyor



Əli Yusif oğlu Zeynalov 1913-cü il aprel ayının 4-də Salyanda müəllim ailəsində anadan olmuşdur. Atası Yusif Zeynalov (1887-1965) ilk əlifba kitabının müəllifidir. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Əli Zeynalov da atasının yolunu davam etdirmiş, pedaqoji texnikumu bitirmişdir.

Ədəbiyyata və teatr sənətinə 1928-ci ildən maraq göstərmiş, ilk dəfə səhnəyə Biləsuvar dram dərnəyində çıxmışdır. Təyinatını Bərdə rayonuna alsa da Bakıya qayıtmış və 1933-cü ildə Bakı Teatr Texnikumunu bitirmişdir. Tələbəlik illərində Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi epizodlarda, sözsüz rollarda səhnəyə çıxmışdır. Az müddət Nuxa (hazırkı Şəki) Dövlət Dram Teatrında aktyor işləmişdir.

Bakı teatr mühitində müəyyən təcrübə toplamış Əli Zeynalov on bir il İrəvan Dövlət Dram Teatrında aktyorluq etmişdir (1934-1945). Bu teatrda Cəfər Cabbarlının "1905-ci ildə", "Aydın", "Oqtay Eloğlu" dram tamaşalarında Baxşı, Aydın, Oqtay, Şekspirin "Otello" və "Hamlet" faciələrində Otello, Klavdi, Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" pyesinin tamaşasında Neznamov və digər rollar oynamışdır.

Faşist Almaniyası üzərində qələbənin zəfər çaldığı 1945-ci ilin dekabrında Əli Zeynalov Bakıya gəlmiş və Milli Dram Teatrının qüvvətli aktyor truppasına işə götürülmüşdür. 1975-ci ilə qədər bu sənət ocağında çalışmış, bəhrəli sənət yolu keçmiş aktyor fəxri təqaüdə çıxandan sonra televiziyanın bədii proqramlarında çıxışlar etmiş, klassik və çağdaş azərbaycan şairlərinin şeirləri əsasında silsilə qiraət verilişləri hazırlamışdır.

Şekspirin "Antoni və Kleopatra" faciəsinə rejissor Tofiq Kazımovun verdiyi quruluşda Antonio rolunu yüksək ustalıqla ifa etdiyinə görə Əli Zeynalov 1964-cü ildə Respublika Dövlət Mükafatı laureatı olmuşdur.

Uzun illər romantik səpgili Florizel, Klavdi ("Qiş nağılı", "Hamlet", Şekspir), Hilbert ("Mariya Tüdor", Viktor Hüqo), Protasov ("Canlı meyit", Lev Tolstoy), Əhməd Rza ("Qəribə adam", Nazim Hikmət), Əbü Übeyd və Elxan ("Od gəlini", Cəfər Cabbarlı), Keykavus, Şeyx Sənan ("Səyavuş" və "Şeyx Sənan", Hüseyn Cavid) rollarını məharətlə oynamışdır.

Aktyorun ifasında Süleyman bəy ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Ayaz, Calal ("Böyük məhəbbət", "İldırım", Cabbar Məcnunbəyov), Ehtişamı ("Od içində", Ənvər Məmmədxanlı), Ziya ("Çiçəklənən arzular", Məmmədhüseyn Təhmasib), Nuri Gənc ("Türkiyədə", Nazim Hikmət) və s. kimi xarakterik rollar xüsusi yer tutmuş və böyük bir silsilə təşkil etmişdir.

Əli Yusif oğlu Zeynalov 30 aprel 1955-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 27 fevral 1964-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

1974-cü il dekabr ayının 6-da Əli Zeynalov Milli Dram Teatrında Hüseyn Cavidin "Knyaz" faciəsini tamaşaya hazırlamış, bu, onun ilk və son rejissor işi olmuşdur.

Əli Zeynalov 1988-ci il yanvar ayının 4-də vəfat etmişdir.

Ədəbiyyat

İki ömrüm olsaydı [Mətn]/Ə.Zeynalov.- Bakı: Azərnəşr, 1974.

Zeynalov Əli Yusif oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı: ASE, C.IV.- S.306.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

75 illiyi

Vaqif Behbudov
1938

Rejissor



Vaqif Qulam oğlu Behbudov 1938-ci il aprel ayının 23-də Bakıda anadan olmuşdur.

1961-ci ildə Sankt-Peterburq Dövlət Kino və Televiziya Universitetini bitirmişdir. Azərbaycan Televiziyasında cizgi filmləri istehsalının təməlini qoymuşdur. Əvvəlcə kinooperator, daha sonra isə kinorejissor kimi filmlər çəkmişdir.

"Gözlük", "Danışan işıqlar" "Qırmızılar, qaralar və başqaları", "İlham", "Göyçək Fatma", "Ustalar, qızıl əllər", "Yayın bir günündə", "Sağ ol dostum", "Basatın igidliyi", "Xeyirli nağıl", "Qız qalası", "Qurbanəli bəy", "Qara leylək", "Sehrli çıraq", "Başlanğıc", "Analar və laylalar" cizgi filmlərinin rejissoru və operatoru olmuşdur. V.Behbudov operator olaraq "Üzeyir Hacıbəyov", "Bizim Şamama", "Təsnif", "Şövkət Ələkbərova" və s. sənədli filmlərdə işləmişdir. Rejissor kimi "Nailə", "Kamil", "Özümlə heç nə aparmayacağam" (Əzizə Cəfərzadə), "Əbədi zirvə", "Müslüm Maqomayev-55", "Mənlə mən arasında", "Azərbaycan Respublikasının Təhlükəsizlik orqanları", "Sənsiz", "Bakı-SOS uşaq kəndi", "Bağlı qapı" (Akademik Əziz Əliyev), "Sənsiz" (Akademik Zərifə Əliyeva), "Kərpickəsən kişi", "İlmələrdə yaşayan həyat" (rəssam Kamil Əliyev), "Sirli salnamələr", "Girdman", "Yeraltı şəhərin izi ilə", "Lahıc", "Azərtac-85" sənədli filmlərini çəkmişdir. Müəllifi olduğu cizgi filmlərindən altısı Beynəlxalq Televiziya Filmləri Festivalında mükafatlara layiq görülmüşdür.

Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Dövlət və "Humay" mükafatları laureatı, 2000-ci ildən Azərbaycan Respublikasının Xalq artisti, 2006-cı ildən Prezidentin fərdi təqaüdçüsüdür.

"Azərbaycantelefilm" Yaradıcılıq Birliyində Operatorlar qrupunun rəhbəri, Azərbaycan Kinematoqrafçılar İttifaqının katibidir.

Ədəbiyyat

Cizgi filmlərindən sənədli kinoya [Mətn] /V.Behbudov //Mədəniyyət.- 2011.- 27 may.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

75 illiyi

Həsənağa Turabov 1938-2003

Aktyor



Həsənağa Səttar oğlu Turabov 1938-ci il aprel ayının 24-də Bakıda anadan olmuşdur. 18 saylı məktəbi bitirəndən sonra isə həyatını tamamilə sənətə bağlamaq qərarına gələrək İncəsənət İnstitutuna daxil olmuş və 1960-cı ildə aktyorluq ixtisası üzrə ali təhsilini başa vurmuşdur. Elə həmin ildən Azərbaycan Dram Teatrında aktyor kimi fəaliyyətə başlamış və ömrünün sonuna qədər bu teatrda çalışmışdır. Həsənağa Turabov 1987-2001-ci illərdə teatrın direktoru və bədii rəhbəri vəzifələrində işləmişdir.

1960-cı ildən Dram Teatrında aktyor kimi fəaliyyətə başlamış və ömrünün sonuna qədər bu teatrda çalışmışdır. Səhnə fəaliyyətinə başladığı ilk illərdən lirik-psixoloji üslubu ilə seçilən Həsənağa Turabov qısa müddətdə Azərbaycan və dünya dramaturqlarının əsərlərində baş rolların ifaçısı kimi teatrın aparıcı sənətkarlarından birinə çevrilmişdir.

Həsən Turabovun səhnədə yaratdığı rollar rəngarəng və sonsuzdur: Vahid (“Kəndçi qızı”), Azər (“Yaxşı adam”), Hamlet (“Hamlet”), Lionel (“Orman qızı”), İsgəndər (“Ölülər”) Xəyyam (“Xəyyam”) və b. Həsən Turabov XX əsrin 60-80-ci illərində Azərbaycan teatrına yeni bir ruh gətirmişdi.

Azərbaycan kinematoqrafiyasının inkişafında da Həsənağa Turabovun xidmətləri böyük olmuşdur. Aktyorun bir sıra bədii filmlərdə, o cümlədən, televiziya filmlərində yaratdığı maraqlı və yaddaqalan surətlər onun aktyor həyatının böyük bir hissəsini təşkil etmişdir.

Kinoda yaratdığı misilsiz Gəray bəy (“Yeddi oğul istərəm”) obrazı onun ifasında kinomuzun nadir surətlərindən biridir.

Kinonu da teatr qədər sevmiş, hətta, mənfi rolları da ustalıqla oynamışdır. Afşin (“Babək”), Gəray bəy (“Yeddi oğul istərəm”) rolları təzadlı tiplər olsa da, sənətkarlıq baxımından yaddaqalan rollardır. O, müsbət rollarını sevdirə bildiyi qədər, tamaşaçıda mənfi obrazlara kəskin nifrət hissi də yarada bilmişdi.

“Bəyin oğurlanması”nda rejissor rolunda çəkilmiş, “Qaçaq Nəbi” filmini isə rejissor kimi çəkmişdi. Hər ikisində Həsən Turabovun yaradıcılıq xüsusiyyətləri aydın hiss edilmişdir. Son çəkildiyi filmlər isə Rüstəm İbrahimbəyovun “Ailə” və Eldar Quliyevin “Nə gözəldir bu dünya...” filmləri olmuşdu.

O, həm də gözəl təşkilatçı idi. Son illər Akademik Milli Dram Teatrına rəhbərlik etmiş, böyük bir kollektivin dərin rəğbətini qazanmışdı. Onun rəhbərliyi dövründə teatr əsaslı təmir edilmiş, neçə-neçə klassik və müasir əsərlər səhnəyə qoyulmuşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi pedaqoji fəaliyyəti də səmərəli olmuşdur. Dövlət mükafatı laureatı (1972), Xalq artisti (1982), 1998-ci ildə “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Həsənağa Turabov 2003-cü il fevral ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Gəray bəy ömrü yaşayan sənətkar [Mətn]: Həsənağa Turabovun həyat hekayətindən bəzi sətirlər //Şərq.- 2011.- 24 iyun.- S.11.

Rəhimli, İ. Aktyora oxşamayan adam [Mətn] /İ.Rəhimli; red. K.Cəfərzadə; rəssam E.Məmmədov; bədii tərtibatçi S.Şatikov.- Bakı: Günəş, 2000.- 356 s.

İnternetdə

www.dic.academic.ru

www.kinozal.az

www.ru.wikipedia.org

40 illiyi

Samir Xasıyev
1973-1995

Milli Qəhrəman



Samir Zirəddin oğlu Xasıyev 1973-cü il aprel ayının 20-də Bakı şəhərində doğulmuşdur.

1980-ci ildə Bakının Nərimanov rayonundakı 82 saylı orta məktəbin birinci sinfinə getmiş, 1988-ci ildə ailəsi Gəncə şəhərinə köçdüyü üçün, orta təhsilini 14 saylı beynəlmiləl orta məktəbdə tamamlamışdır. O, məktəbi bitirib Bakıya qayıtmış, 1991-ci il Bakı Dövlət Universitetinin tarix fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. 1992-ci ildə isə Vətənin çağırışına səs verərək rəhbərlikdən döyüş bölgəsinə göndərilməsini xahiş etmişdir. İlk döyüşü Ağdamın Mərzili kəndində başlamışdır.

1993-cü ildə Füzuli, Ağdərə, Tərtər bölgələrində aparılan əməliyyatlarda, 1994-cü ildə isə Gəncə qiyamının yatırılmasında iştirak etmişdir. 1995-ci il mart ayının 17-də dövlət çevirilişinə cəhdin qarşısını alarkən Samir Xasıyev qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə leytenant Xasıyev Samir Zirəddin oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin ikinci Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Bakının Nərimanov rayonundakı keçmiş Montin adına Mədəniyyət və İstirahət parkına Samir Xasıyevin adı verilmiş və parkda büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Xasıyev Samir Zirəddin oğlu – Müdafiə Nazirliyi, leytenant – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il [Mətn] //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov,V. Xasıyev Samir Zirəddin oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.95.

Xasıyev Samir Zirəddin oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.95.

Seyidzadə, M. Xasıyev Samir Zirəddin oğlu [Mətn] /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.100.

İnternetdə

www.az.wikipedia.org

www.milliqahraman.az

105 illiyi Heydər Hüseynov 1908-1950

Akademik



Heydər Nəcəf oğlu Hüseynov 1908-ci il aprel ayının 3-də İrəvanda (indiki Yerevan) anadan olmuşdur.

O, 1927-1931-ci illərdə Lenin adına Pedaqoji Universitetin həm şərqşünaslıq, həm də pedaqoji fakültələrinin tələbəsi olmuş, ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir.

Əmək fəaliyyətinə 1924-cü ildə başlamış, pedaqoji texnikumun kitabxanasında işləmişdir.

1932-ci ildən başlayaraq müxtəlif ali məktəblərdə fəlsəfədən dərs demişdir. 1935-ci ildə azərbaycan dilində "Dialektik materializm", 1939-cu ildə "Dialektika və metafizika" haqqında kitab çap etdirmişdir. 1936-cı ildə Azərbaycan Sovet Ensiklopediyasının hazırlanmasında iştirak etmiş, 1940-cı ildə isə baş redaksiyaya rəhbərlik etmişdir.

1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur.

Heydər Hüseynov 15 iyun 1939-cu ildə namizədlik, 1944-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, həmin il professor elmi adını almışdır.

1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialı sədrinin müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, eyni zamanda ictimai elmlər bölməsinin sədri olmuşdur.

1943-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) əvvəl Marksizm-leninizmin əsasları, sonra Fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru olmuşdur.

O, 100-dən çox elmi məqalə yazmışdır. "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" fundamental əsərinə görə 1950-ci ilin mart ayında Stalin mükafatına layiq görülmüşdür. Kitab rus dilində yazılmış, Azərbaycan dilində ilk dəfə 2006-cı ildə çapdan çıxmışdır.

Heydər Hüseynovun elmi fəaliyyətinin mükafatlandırılmasına baxmayaraq, ona qarşı respublika rəhbərliyində dözümsüzlük başlamışdı. 1950-ci ilin mayında Kommunist Partiyasının MK-nın büro iclasında ciddi tənqid edilmiş, Azərbaycan KP MK SSRİ Nazirlər Soveti qarşısında onun aldığı Stalin mükafatlarından məhrum edilməsi vəsatəti qaldırılmış və vəsatət təmin edilmişdir.

O, Kommunist Partiyasından çıxarılmış və Elmlər Akademiyasındakı vəzifələrindən azad edilmişdir. Dövlət orqanları və bəzi həmkarları tərəfindən əsassız təqiblərə məruz qalan və həbs ediləcəyini təxmin edən filosof 1950-ci il avqust ayının 15-də intihar etmişdir.

Ədəbiyyat

XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən [Mətn] /H. Hüseynov; tərcümənin redaktoru Qardaşxan Əzizxanlı.- Bakı, Zəkioğlu, 2006.

Hüseynova, S. Kitabın taleyi - müəllifin faciəsi [Mətn] /S.Hüseynova.- Bakı, 2006.- S. 9-10.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Camal Mustafayev 1928

Filosof-alim



Camal Vəli oğlu Mustafayev 1928-ci il aprel ayının 15-də Qarayazının (indiki Qardabani) Kosalı kəndində anadan olmuşdur. Orta təhsilini 1935-1944-cü illərdə Kosalı kənd orta məktəbində almış, sonra Tbilisidə ikiillik Müəllimlər İnstitutunda oxumuşdur.

1946-1948-ci illərdə Kosalı kəndində müəllim işləmiş, 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin fəlsəfə şöbəsinə daxil olmuşdur. 1949-cu ildə Moskva Dövlət Universitetinə keçirilmiş və oranı 1952-ci ildə bitirmişdir. İki il Qarayazı rayonunda məktəb direktoru işləmişdir.

1954-cü ildə SSRİ EA Fəlsəfə İnstitutunun əyani aspirantı olmuşdur. "Nizaminin fəlsəfi və etik görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1957-1968-ci illərdə C.Mustafayev Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, elmi işçi və baş elmi işçi vəzifələrində işləmişdir.

1968-ci ildə o, Azərbaycan Dövlət Universitetinin Müdafiə Şurasında "Nizaminin ideyalar aləmi və müasirlik" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru alımlik dərəcəsinə layiq görülmüşdür.

1968-1976-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda fəlsəfə kafedrasının müdiri işləmişdir.

1976-cı ildən 1999-cu ilədək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) professoru olmuşdur. 1985-1991-ci illərdə universitetdə etika-estetika kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Professor Camal Mustafayev 1999-cu ildən bugünədək Xəzər Universiteti Tərcümə Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində çalışmaqdadır.

1982-ci ildə ona Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adı verilmişdir.

C.Mustafayev orta əsrlər Azərbaycan fəlsəfi fikri sahəsində bir sıra samballı əsərlər çap etdirmişdir. Xüsusən onun Nizami fəlsəfəsinə, XII əsr Azərbaycan düşüncəsinə aid əsərləri geniş oxucu kütləsinə bəllidir. Moskva və başqa şəhərlərin nüfuzlu jurnallarında əsərləri çap olunmuşdur. Onun Müsəlman Şərq sosial utopiyasına aid tədqiqat işləri və s. əsərləri xarici dillərə tərcümə olunmuşdur.

C.Mustafayev Azərbaycan fəlsəfəsi, etika və estetikası sahəsində bir sıra elmlər namizədi, elmlər doktoru yetişdirmişdir. O, eyni zamanda müasir Azərbaycan şeirinin əsas tədqiqatçılarındandır.

C.Mustafayevin elmi və pedaqoji fəaliyyəti 70-dən çox elmi və publisistik məqalə və müsahibələrdə, 2 monoqrafiyada öz əksini tapmışdır. C.Mustafayev Xəzər Universitetində professor Hamlet İsaxanlının rəhbərliyi ilə keçirilən "Elm və Sənət Məclisi"nin işində də fəal iştirak edir.

C. Mustafayev BDU-nun, Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun müdafiə şuralarının üzvü olmuşdur. Xəzər Universiteti Elmi-inzibati Şurasının üzvüdür.

Hal-hazırda Xəzər Universiteti Tərcümə Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində çalışır.

Ədəbiyyat

Etik və estetik cəhətlərin incəsənətdə vəhdəti [Mətn]: elmi əsərlərin tematik məcmuəsi /AzSSR Ali və Orta İxtisas Təhsili Nazirliyi; red. heyəti A.Aslanov, C.Mustafayev, T.Əhmədov [və b.].- Bakı: [S.M.Kirov adına Azərb. Dövlət Un-nin nəşri], 1981.

Şuşa-Pənahabad [Mətn] /Y. Mahmudov, C.Mustafayev; məsləhətçi: B.Səfərov, Z.Abbasov; AMEA, A.A.Bakıxanov ad. Tarix İnstitutu.- Bakı: Təhsil, 2012.- 151 s.

İsaxanlı, H. "Təfəkkür işığında" [Mətn] /H.İsaxanlı.- Bakı, 1999.

Мустафаев, Д. "Философские и этические воззрения Низами" [Текст] /Джамал Мустафаев.- Баку, 1962.

İnternetdə

www.adam.az

www.anl.az

75 illiyi

Ramiz Mehdiyev
1938

İctimai-siyasi xadim



Ramiz Ənvər oğlu Mehdiyev 1938-ci il aprel ayının 17-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Dənizçilik məktəbini bitirdikdən sonra "Xəzər neftdonanma" idarəsinin gəmilərində maşinist işləmişdir.

1961-ci ildə S.M.Kirov adına ADU-nun (indiki BDU) tarix fakültəsinə daxil olmuşdur. 1965-ci ildə beşinci kurs tələbəsi ikən Azərbaycan LKGİ MK-nın tələbə şöbəsinə təlimatçı vəzifəsinə irəli sürülmüş, 1965-1967-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir.

1968-ci ildə M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur.

1972-ci ildə ADU-nun Elmi kommunizm kafedrasında əvvəlcə müəllim, sonra baş müəllim işləmişdir. 1974-cü ildə Azərbaycan KP MK Təbliğat və təşviqat şöbəsində mühaziraçi olmuşdur.

1976-1978-ci illərdə Azərbaycan KP MK-nın Elm və təhsil şöbəsinin müdir müavini işləmişdir.

1977-ci ildə MDU-nun elmi şurasının iclasında fəlsəfə elmləri namizədi elmi dərəcəsi almaq üçün yazdığı dissertasiyasını müdafiə etmişdir.

1978-ci ildə Azərbaycan KP 26 Bakı Komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir.

1980-ci ilin iyununda Azərbaycan KP MK-da Elm və təhsil şöbəsinin, 1981-ci ilin yanvarında Təşkilat-partiya işi şöbəsinin müdiri, 1983-1988-ci illərdə ideoloji məsələlər üzrə katib olmuşdur.

1988-ci ilin iyunundan Azərbaycan Respublikası EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda Politologiya şöbəsinin müdiri işləmişdir.

1993-cü ildən fəlsəfə elmləri doktorudur.

1994-cü ilin fevralında ulu öndər Heydər Əliyev tərəfindən Prezident Aparatının Ümumi şöbənin müdiri, 1995-ci ilin fevralında isə Prezident Aparatının rəhbəri təyin edilmişdir. 2009-cu ildə Konstitusiyaya edilən dəyişikliklərlə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir.

Həqiqi Dövlət müşaviridir.

2001-ci ildə Nyu-York EA-nın üzvü seçilmişdir.

Monoqrafiyaları, bir neçə kitabı və 100-dən artıq elmi məqaləsi çap olunmuşdur.

2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik seçilmişdir.

2008-ci ilin mart ayında "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" adlı yeni kitabı çapdan çıxmışdır.

2008-ci il aprel ayının 17-də "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Vətəndaş cəmiyyətinə yol açan ideyalar [Mətn]: [Heydər Əliyev haqqında] /R.Mehdiyev; ön sözün müəl. R.Aslanova; red. Z.Səmədzadə; burax. məs. və tərt. B.Sadıqov.- Bakı: Azərbaycan, 2006. - 584 s.

Fəlsəfə [Mətn]: ali məktəblər üçün dərs vəsaiti /R.Mehdiyev; layihənin rəhbəri A.Aslanov; elmi red. B.Əliyev; red. D.İsmayılov; tərc. red. O.Məmmədov; rəyçi Azərb. Resp. Prezidenti yan. Dövlət İdarəçilik Akad.- Bakı: Şərq-Qərb, 2010.- 359, [1] s.

Yeni siyasət: inkişafa doğru [Mətn] /R.Mehdiyev; ön söz müəl. R.Aslanova; burax. məsul və tərt. ed. B.Sadıqov.- Bakı, [2008.].- C.I.- 581, [1]s

Azərbaycan 2003-2008: zaman haqqında düşünərkən [Mətn] /R.Mehdiyev; red.: A.Aslanov, V.Musayev, D.İsmayılov.- Bakı: Şərq-Qərb, 2009.-240 s.

Goris-2010 season of theatre of the absurd [Text]: the history of occupied Nagorno-Karabakh and the battle for justice /R.Mehdiyev.- Tbilisi: Universal, 2010.- 185 [3] p.

115 illiyi

Məryəm Bayraməlibəyova 1898-1967

Maarif xadimi



Məryəm Teymur bəy qızı Bayraməlibəyova-Məlik-Yeqanova 1898-ci il aprel ayının 4-də (bəzi mənbələrdə yanvar ayında) Lənkəran şəhərində anadan olmuşdur. Atası Teymur bəy 1881-ci ildə Qori müəllimlər seminariyasını bitirmiş, görkəmli maarifpərvər ziyalı olmuşdur. Məryəm xanım H.Z.Tağıyevin qızlar məktəbini bitirdikdən sonra, 1913-cü ildə "Müqəddəs Nina" qız məktəbinin IV sinfinə daxil olmuş, 1917-ci ildə oranı qızıl medalla bitirmişdir. "Müqəddəs Nina" məktəbində Məryəm xanım rus və avropa mədəniyyəti ilə dərindən tanış olmuşdur. O, böyük rus yazıçısı L.N.Tolstoyun hekayələrini Azərbaycan dilinə çevirərək "Məktəb" jurnalında çap etdirmiş, bir çox Azərbaycan şair və yazıçılarının əsərlərini də rus dilinə tərcümə etmişdir. 1917-ci ildə təhsil almaq üçün Moskvaya getmiş Məryəm xanım 1918-ci ildə Lənkərana qayıdaraq qızlar üçün məktəb açmışdır. Əvvəlcə məktəbdə 9 qız təhsil almışdı ki, onlardan biri sonralar Azərbaycanın Xalq artisti Həqiqət Rzayeva idi. 1919-cu ildə Məryəm xanım Lənkəran qız gimnaziyasının inspektoru təyin edilmişdir. Məryəm xanımın atası Teymur bəy 1919-cu ildə ölkədə baş verən hərc-mərcliklə əlaqədar olaraq qanunsuz həbs edilmişdir. Həmin il Məryəm xanımın Bakı Kommunasının rəhbərlərindən biri Alyoşa Çaparidze ilə təsadüfi görüşü atası Teymur bəyin tezliklə azad olunmasına səbəb olmuşdur. Sonralar Azərbaycan maarifinin inkişafında fədakarcasına fəaliyyət göstərən Teymur bəy 1937-ci ildə vəfat etmişdir. 1921-ci ildə Məryəm xanım Xalq Maarif Komissarlığının əmri ilə Nobel bağında (indiki Nizami parkı) açılmış birinci Azərbaycan tərcrübə - nümunə məktəbinin türk qrupunun rəhbəri təyin edilmişdir. 1923-cü ildə Məryəm xanım Cavad bəy Məlikyeqanovla ailə həyatı qurmuşdur. 1925-ci il yanvarın 12-də Moskvada keçirilmiş müəllimlərin birinci Ümumittifaq qurultayında Azərbaycan nümayəndəsi kimi Qızıl meydanda çıxış edən ilk Şərq qadını məhz Məryəm xanım olmuşdur. 1933-cü ildə Cavad bəy həbs edilərək sürgün edilmişdir. Onun axırıncı məktubu 1937-ci ildə Karelyanın Kem şəhərindən gəlmişdir. Məryəm xanım 1931-ci ildə universitetin hüquq fakültəsini bitirmiş, lakin ona qarşı olan haqsızlıqla barışmamış, yenidən müəllimlik peşəsinə qayıtmışdır. Məryəm xanım ona və ailəsinə qarşı törədilən haqsızlığa qarşı etiraz əlaməti olaraq 1937-ci ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri M.İ.Kalininə məktub yazmış və səbirsizliklə onun cavabını gözləmişdir. Lakin o, cavabı çox gözləməli olmamışdır. Cəmi bir neçə gündən sonra o, həbs edilərək Bayıl həbsxanasına salınmışdır. Sürgünlük həyatının birinci mərhələsi Arxangelskdə keçmiş, burada xəstələnmiş, gözləri tutulmuş, müalicə üçün Moskvaya - məhbusların xəstəxanasına göndərilmiş, oradan yenidən Qazaxıstana sürgün edilmişdir. 1948-ci ildə azad edilərək Bakıya qayıtmışdır. Lakin hər iki gözündən kor olmasına baxmayaraq onu Bakıda yaşamağa qoymamışlar. 1956-cı ilə kimi Daşkəsəndə yaşamış, sonralar Bakıya köçmüş, övladlarına qovuşmuşdur.

Məryəm xanım Bayraməlibəyova 1967-ci il dekabr ayının 2-də vəfat etmişdir.

Ədəbiyyat

Cavadova, E.Görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov ocağının davamçıları [Mətn]/Esmira Cavadova, Bəhman Kərimov //Kaspi.- 2011. 8 sentyabr.-S.5.

Əliyeva,A. Azərbaycanın maarifpərvər qadınları [Mətn]: Məryəm xanım Bayraməlibəyova //Azərbaycan müəllimi.- 2007.- 12 oktyabr.- S.7.

İnternetdə

www.adam.az


www.anl.az

www.az.wikipedia.org

110 illiyi

Lətif Hüseynzadə 1903-2008

Maarif xadimi



Lətif Talıb oğlu Hüseynzadə 1903-cü il aprel ayının 24-də Naxçıvan şəhərində anadan olmuşdur. Burada "Xeyriyyə" və "Rüşdiyyə" adlanan dini mədrəsələri bitirdikdən sonra 1922-1925-ci illərdə Naxçıvan Müəllimlər Seminariyasında təhsil almışdır.

1925-1930-cu illərdə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsilini davam etdirmişdir. 1930-1936-cı illərdə əmək fəaliyyətinə İrəvan Türk Müəllimlər Seminariyasında Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamışdır.

1936-1940-cı illərdə Naxçıvan Pedaqoji Texnikumunda müəllim, dərs hissə müdiri, 1940-1954-cü illərdə C.Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda müəllim, dosent, kafedra müdiri, direktor, Azərbaycan Elmlər Akademiyasının Naxçıvan filialında elmi işçi, daha sonra direktor (1950-1951), 1954-1957-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda Dil-ədəbiyyat metodikası şöbəsinin müdiri, 1957-1968-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində dosent, 1968-1976-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda dosent vəzifələrində çalışmışdır.

Pedaqoji fəaliyyətə başladığı XX əsrin 30-cu illərindən elmi-tədqiqatla ardıcıl məşğul olmuş, dövri mətbuatda məqalələr dərc etdirmişdir. 1950-ci ildə "Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

XV əsr Qaraqoyunlu hökmdarı Cahanşahın "Həqiqi" təxəllüsü ilə Azərbaycan və fars dillərində yazdığı divanını aşkara çıxarmış, tədqiq və tərtib edərək çapa vermişdir. Qazi Bürhanəddin, Nəimi, İmadəddin Nəsimi, Heyran xanım, Qönçəbəyim kimi sənətkarların poetik irsinin ilk tədqiqatçılarından biridir.

Külli miqdarda elmi məqaləsi və 10 elmi-kütləvi monoqrafik əsəri dərc olunmuşdur. Türkiyə, İran və Ermənistanda keçirilən konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

2000-ci ildən Prezidentin fərdi təqaüdçüsüdür.

2002-ci ildə "İstiqlal" ordenli, Azərbaycanın Əməkdar müəllimi olmuşdur.

Lətif Hüseynzadə 2008-ci il iyul ayının 11-də vəfat etmişdir.

Ədəbiyyat

Araz şahiddir. Kazım Qarabəkir Paşa Naxçıvanda [Mətn] /L.Hüseynzadə.- Bakı, 2002.

Aras Şahittir. Türk ordu generalı Kazım Karabekir Paşa Nahcıvanda [Mətn]: 1918-1920 /L.Hüseynzade. Türkiye, 2008.

Qaraqoyunlu Cahanşah Həqiqi [Mətn]: (farsca divanı) /tərt. L.Hüseynzadə.- Bakı, 2000.

Naxçıvan teatr tarixindən [Mətn].- Bakı, 2002.

İnternetdə

www.az.efactory.pl

www.az.wikipedia.org

www.e-qanun.az

85 illiyi

Nisə Mehdiyeva 1928

Mikrobioloq



Nisə Əşrəf qızı Mehdiyeva 1928-ci il aprel ayının 12-də Bakıda doğulmuşdur.

1950-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetini müvəffəqiyyətlə bitirmişdir.

N.Mehdiyeva 1950-1952-ci illərdə Azərbaycan Dövlət Universitetində müəllim işləmiş, 1952-1955-ci illərdə SSRİ Elmlər Akademiyasının Botanika İnstitutunun (Leninqrad şəhəri) aspirantı olmuşdur. 1955-ci ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmiş alim 1965-ci ildə mikrobiologiya üzrə elmi işçi, 1986-cı ildə isə mikrobiologiya üzrə respublikada ilk professor elmi adını almışdır.

Nisə Mehdiyeva 1955-1957-ci illərdə respublika Elmlər Akademiyasının Rəyasət Heyətində biologiya üzrə elmi katib işləmişdir.

1958-ci ildə Torpaqşünaslıq və Aqrokimya İnstitutunda torpaq biologiyası laboratoriyasını təşkil edərək, akademiyada mikrobiologiya elminin əsasını qoymuşdur. 1968-ci ildə professor N.Mehdiyeva akademiyada ilk dəfə neft mikrobiologiyası sahəsində işləri təşkil edərək ona rəhbərlik etmişdir. 1972-ci ildə laboratoriya Mikrobiologiya sektoru, 1994-cü ildə isə Mikrobiologiya İnstitutu statusu almışdır.

N.Mehdiyeva 1958-ci ildən 1981-ci ilədək bu elmi müəssisəyə, 1995-ci ilədək laboratoriyaya rəhbərlik etmişdir. Nəhayət, 1995-1996-cı illərdə Qafqaz Universitetində mikrobiologiya mərkəzinin rəhbəri və elmi işlər üzrə prorektor vəzifəsində fəaliyyət göstərmişdir.

Mikrobiologiyanın müxtəlif problemləri üzrə 130 elmi məqalənin, bir elmi kinofilmin, 9 müəlliflik şəhadətnaməsinin, 4 kitabın müəllifi olan Nisə Mehdiyevanın rəhbərliyi altında respublikada və onun xaricində 10 elmlər namizədi, 2 elmlər doktoru hazırlanmışdır.

Professorun apardığı elmi işlərin əksəriyyəti torpaq ekosistemində çox mürəkkəb münasibətdə olan mikroskopik heyvanlar və göbələklər arasındakı qarşılıqlı əlaqəyə həsr edilmiş, bu sahədə maraqlı elmi-praktik əhəmiyyətli nəticələr əldə etmiş və bu problemlə bağlı tədqiqatlara SSRİ Elmlər Akademiyasında rəhbərlik etmişdir.

N.Mehdiyeva hazırda təqaüddədir. Lakin buna baxmayaraq, ev şəraitində elmi işini ömrünün müdrik çağında da davam etdirən professor ingilis-rus-Azərbaycan dillərində ilk mikrobioloji lüğət və "Mikorobiologiya" kitabını yazaraq yenidən çap etdirmişdir. Bu kitabın ilk variantı 1979-cu ildə "Elm" nəşriyyatı tərəfindən rus dilində "Хищные нематофаговые грибы - гифомецеты" adı ilə çap olunmuşdur.

Ədəbiyyat

Xeyirxah mikroblar [Mətn] /N.Mehdiyeva; red. M.Həsənov; AzSSR EA, Mikrobiologiya sektoru.- Bakı: Elm, 1983.- 33, [3] s.

İlyasoğlu, R. Tanınmış mikrobioloq alim [Mətn] /R.İlyasoğlu //Respublika.- 2009.- 9 yanvar.- S.6.

İnternetdə

www.anl.az

www. gender-az.org

www. library.adau.edu.az

90 illiyi

Zərifə Əliyeva 1923-1985

Akademik



Ə d ə b i y y a t

Yüksək əqidə [Mətn]: Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı /Zərifə Əliyeva; elmi red. Mustafa Topçubaşov.- Bakı: Azərbaycan, 2003.- 104 s.

Kərimov, K. Akademik Zərifə xanım Əliyeva və müasir oftalmologiya [Mətn] /K.Kərimov; [red.: A.Bayramova, Ş.Hüseynova; məsul red. E.Rəşidəlizadə; dizayner A.İbrahim].- Bakı: Parni iz Baku, 2010.- 182, [2] s.

Zərifə xanım Əliyeva [Mətn] /layih. müəl. red. və rəhb. F.Abdullazadə; rəssam Ş.Şıxəliyev; foto R.Bağırov, M.Həsənoğlu, İ.Cəfərov; N.Əliyeva.- Bakı, 1998.- 288 s.

Cəfərova, N. Alimin xatirəsi yad olundu [Mətn] /N.Cəfərova //Azərbaycan müəllimi.- 5 may.-2011.-S.5.

Мираламов, Г. Зарифа Алиева [Текст] /Г.Мираламов.- Москва: Молодая Гвардия, 2010.- 189, [3] с.

www.zarifa-aliyeva.az

www.zaliyeva.mednet.az

Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprel ayının 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

1942-ci ildə orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir.

1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil almışdır.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Göz xəstəlikləri kafedrasının dosenti, professor, Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, 1982-1985-ci illərdə Oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın düynada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Akademikin Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olmuşdur. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatlarının yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçmişdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının məzarı yanında dəfn olunmuşdur.

70 illiyi

Urxan Ələkbərov 1943

Akademik



Urxan Kazım oğlu Ələkbərov 1943-cü il aprel ayının 28-də Bakıda anadan olmuşdur. 1960-cı ildə ADU-nun (indiki BDU) biologiya fakültəsinə daxil olmuş və 1965-ci ildə həmin universiteti bitirərək genetika kafedrasında ixtisaslaşmışdır.

1968-ci ildə aspiranturanı bitirmiş və müvəffəqiyyətlə namizədlik dissertasiyası, 1978-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

EA-nın Rəyasət Heyəti tərəfindən 1969-cu ildə Botanika İnstitutunun elmi katibi vəzifəsinə, 1972-ci ildə elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edilmişdir.

1979-cu ildə SSRİ Ali Attestasiya Komissiyası ona elmlər doktoru ali dərəcəsi, 1984-cü ildə isə professor adı vermişdir. 1983-cü ildə "genetika" ixtisası üzrə Ələkbərov Azərbaycan SSR EA müxbir üzvü, 1989-cu ildə həqiqi üzvü (akademik) seçilmişdir.

1987-ci ildə o, Azərbaycan EA-nın vitse-prezidenti və Rəyasət Heyətinin üzvü seçilmiş və bu vəzifədə 1996-cı ilə kimi çalışmışdır.

1988-ci ildən 2002-ci ilə kimi Azərbaycan EA Genetika və Seleksiya İnstitutuna rəhbərlik etmişdir. Bütün elmi fəaliyyəti dövründə genefondun mühafizəsinin nəzəri əsasları və praktiki yollar axtarışı, antimutagenez fenomeni əsasında ətraf mühitin çirklənməsi nəticəsində cari və uzunmüddətli neqativ genetik fəsadların qarşısının alınması ilə məşğul olmuşdur.

Onun ali təhsil məktəblərində müəllimlik fəaliyyəti 1969-cu ildən Azərbaycan Dövlət Universitetində (indiki BDU) tələbələrə xüsusi kursların keçirilməsi ilə başlamış 1977-ci ildən isə bu fəaliyyət dünyanın müxtəlif ölkələrinin universitetlərində və elmi mərkəzlərində mühazirələrin oxunması və seminarların aparılması ilə davam etdirilmişdir.

Yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında akademik Ələkbərovun böyük əməyi olmuşdur. Onun rəhbərliyi altında 25 namizədlik, 4 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Urxan Kazım oğlu Ələkbərov 300-dən çox elmi əsərin, o cümlədən 16 monoqrafiyanın, kitab və dərsliklərin müəllifidir. O, həmçinin, 28 müəllif şəhadətnaməsinin, 7 patentin müəllifidir. Onun əsərləri bir çox ölkələrdə, o cümlədən Rusiya, ABŞ, Almaniya, Fransa, İngiltərə, Türkiyə, İtaliya, Yunanıstan, Yaponiya Kanada və başqa ölkələrdə dərc edilmişdir.

Elmi-pedaqoji və ictimai sahədə nailiyyətlərinə görə Ələkbərov Urxan Azərbaycan Lenin Komsomolu laureatı adı, "Şərəf nişanı" ordeni, "Əməkdə igidliyə görə" medalı və çoxsaylı fəxri fərmanlarla, diplomlarla və xatirə medalı ilə təltif edilmişdir.

Ədəbiyyat

Ələkbərov, U. Davamlı insan inkişafı [Mətn]: ali məktəblər üçün proqram və kursun qısa məzmunu /U.Ələkbərov.- Bakı: Təhsil, 2006.- 88 s.

Urxan Kazım oğlu Ələkbərov [Mətn]: biblioqrafiya /tərt. R.Ağabəyli, G.Mirzəzadə; red. V.Hacıyev; AMEA.- Bakı: Elm, 2006.-231, [1]

İnternetdə

www.anl.az


az.wikipedia.org

www.kurikulum.az

www.muallim.edu.az

90 illiyi

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası 1923



İnternetdə
www.anl.az
www.yazikiliteratura2.
www.files.preslib.az

Müstəqil Azərbaycan Respublikasında qədim və zəngin tarixə malik olan, elmin bütün sahələrini özündə cəmləşdirən kitabxanalardan biri də Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasıdır (REKTK).

Aqrar texnikanın inkişafında rolu olan REKTK-sı 1921-ci ildə Xalq Torpaq Komissarlığı tərəfindən yaradılmışdır. 1923-cü il aprel ayının 12-də Xalq Torpaq Komissarlığının 47/213 nömrəli əmri ilə rəsmiləşdirilərək müstəqil kitabxana kimi fəaliyyətə başlamışdır.

REKTK kitab və biblioqrafik xidmətlərlə yanaşı xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrləri, nadir nüsxələri, avtoreferatları, müxtəlif ensiklopediyaları, lüğətləri, ünvan-soraq kitablarını daimi oxucuların istifadəsinə verir.

REKTK-sı Azərbaycan Respublikası ərazisində yerləşən Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan idarə və müəssisələrin, elmi-tədqiqat institutları və Aqrar Elm Mərkəzlərində fəaliyyət göstərən 51 şəbəkə və filial kitabxanaları üçün metodik mərkəz hesab olunur. Bu mərkəz il boyu kitabxanalarla sıx əlaqə saxlayaraq seminarlar keçirir, yerlərdə onlara lazımi kitabxana işinə dair məsləhətlər verir, "Məlumat-mütəxəssis" günləri keçirirlər. Kitabxana bütün il ərzində kitabxanalararası mübadilə yolu ilə MDB-nin kənd təsərrüfatı kitabxanalarının 47-si ilə kitab mübadiləsi aparır, Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və başqa ölkələrin kitabxanaları ilə sıx əlaqə saxlayırlar. REKTK 1982-ci ildən kənd təsərrüfatı ədəbiyyatı üzrə depozitar mühafizə mərkəzidir.

1967-ci ildən Azərbaycan SSRİ Nazirlər Sovetinin Respublika Elmi Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi Kənd Təsərrüfatı kitabxanası kimi öz fəaliyyətini davam etdirmişdir. Bu gün REKTK Respublika Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanın nazirlik, şirkət, idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarının, elm və texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə və tələbələrə, aspirantlara və magistratura pilləsində təhsil alanlara elmi metodik yardım göstərən, məlumat-biblioqrafiya və kitabxana xidməti həyata keçirən respublika mərkəzi hesab olunur .

REKTK ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətlərindən əlavə xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrlərini, avtoreferatları, plakatları və digər sənədləri özündə əks etdirən, metodiki fəaliyyətlə məşğul olan böyük müəssisədir.

Hazırda kitabxananın ümumi fondu 743461-ə yaxındır. Kitabxanada fəaliyyət göstərən soraq-məlumat aparatı, kataloq-kartoteka sistemi vasitəsilə kitabxana fondları haqqında operativ məlumat verilir. Müxtəlif ensiklopediyalar, lüğətlər, ünvan-soraq kitabları daim oxucuların istifadəsindədir. İl ərzində 12247-dən artıq oxucu kitabxananın xidmətindən istifadə edir. REKTK Azərbaycan Respublikası ərazisində yerləşən 51 şəbəkə və filial kitabxanaları üçün metodik mərkəz hesab olunur.

Hazırda REKTK-da 5 söbə, 3 bölmə fəaliyyət göstərir.

APREL

1

Tarixdə bu gün

Ümumdünya Gülüş Günü 1564



1 aprel beynəlxalq bayram kimi qeyd edilməsə də bir çox ölkələrdə bu günü əylənmək, zarafat etmək və bir-birini aldatmaqla keçirirlər. Bəzi ölkələrdə 1 aprel "Gülüş günü", bəzilərində isə "Axmaqlar günü" adlanır. Amma bayramın necə yarandığını söyləmək çox çətindir. 1 apreldə bir-birini aldatmaq adətinin meydana gəlməsilə bağlı müxtəlif fərziyələr var.

Bəziləri bayramın yaranmasını Qədim Roma ilə əlaqələndirirlər. Lakin burada aprelin əvvəllərində deyil, fevralın ortasında "Axmaqlar bayramı" qeyd edilmişdi.

Digərləri iddia edirlər ki, bu bayram Hindistanda yaranmış, amma burada da əsasən, 31 martı "gülüş günü" kimi qeyd etmişlər. Başqa fərziyəyə görə isə 1 aprelin kökləri orta əsrlər Avropa karvanlarında nümayiş etdirilən küçə tamaşalarına (balaqan) gedib çıxır.

Bir-birilə zarafat etmə adətini yeni illə əlaqələndirənlər də var. 16-cı əsrin ikinci yarısına qədər Avropada yeni il hazırlıqları martın sonunda başlamış, aprelin 1-də isə yeni il qarşılanmışdı. Daha sonra Fransa kralının fərmanı ilə Yeni il rəsmi olaraq 1 yanvarda qeyd edilməyə başlamışdı. Amma çoxları ənənələrə sadiq qalaraq 1 apreli bayram kimi qeyd etməyə davam etmişdi. Köhnə adətləri yox etmək məqsədilə 1 apreldə bayram keçirənləri "1 aprel axmaqları" adlandırmağa və ələ salmağa başladılar.

Rusiyada isə bu gün tam başqa əlamətdar hadisə ilə əlaqədardır. Bir dəfə Peterburq əhalisi səhər tezdən yanğından xəbər verən həyəcan siqnalının səsinə yuxudan oyanmış, amma yanğın siqnalı yalandan verilmiş və həmin gün 1 aprelə təsadüf etmişdi. Bundan sonra Rusiyada 1 aprel günü zarafat günü kimi qəbul edilmişdi.

1 apreli gülüş günü kimi qeyd etmək Azərbaycana keçmiş SSRİ-dən xatirə qalmışdır. Hazırda dünya əhalisinin 70 faizi aprel ayının 1-ci gününü Gülüş Günü kimi qeyd edir, dost-tanışla zarafatlaşır.

Könlümüzü xoş tutmaq, əhval-ruhiyyəmizi yüksəltmək, mənfi enerjidən azad olmaq üçün gülüş ən yaxşı vasitədir. Gülüş günündə yeni zarafatlar fikirləşin və gülməli vəziyyətlər yaradın. Sizi aldadanda da qətiyyən inciməyin, eyni əhval-ruhiyyə ilə cavab verməyə hazır olun. Çünki gülüş insanın ömrünü uzadır...

Ədəbiyyat

Ümumdünya Gülüş Günü [Mətn] //Əkbər Qocayev. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.45.

İnternetdə

www.anl.az

www.ari-vizviz.blogspot.com

www.ebooks.preslib.az

www.milli.az

Tarixdə bu gün

20 ili

Kəlbəcər rayonunun işğalı

Ərazisi: 3054 km²
Əhalisi: 85228
İşğal tarixi: 02.04.1993
www. kelbecer-ih.gov.az

Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də Ermənistan təcavüzkarları tərəfindən işğal olunmuşdur. Kəlbəcər rayonunun ərazisi 3054 km², əhalisinin sayı isə 79 min nəfərdir. Rayon sakinləri hazırda Azərbaycanın 59 rayonunda məskunlaşmışdır.

Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və girov götürülmüşdür, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəymişdir. Ermənistan hərbi birləşmələrinin martın 27-də başlanan genişmiqyaslı hücumu Kəlbəcər rayonunun işğalı ilə başa çatmışdır. Kəlbəcər Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyüdür. İşğal nəticəsində rayon mərkəzi, 150-ə yaxın kənd, həmçinin onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və s. Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Kəlbəcər rayonunun işğalı o vaxt üçün Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Kəlbəcərin süqutu ermənilərin sonrakı işğalçılıq planlarının həyata keçməsinə - Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı digər rayonların - Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanın, ümumən 17 min kvadratkilometr ərazidə ən məhsuldar torpaqlarımızın Ermənistan ilahlı qüvvələri tərəfindən zəbt olunmasına şərait yaratmışdır. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi faktiki olaraq başa çatmışdı.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməmişdir. Sonradan BMT Təhlükəsizlik Şurasının Ağdam rayonunun azad edilməsi ilə bağlı 854-cü, Füzuli rayonunun azad edilməsi ilə bağlı 874-cü və digər işğal edilmiş rayonların azad edilməsi ilə bağlı 884-cü qətnamələri qəbul edilmiş, lakin həmin qətnamələr kağız üzərində qalmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır. Ermənistan beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq, bütün dünyanın gözü qarşısında Azərbaycanın bənzərsiz mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi zəminində yaranmışdır. Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu əraziyə daxil olan yeddi rayon Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə etmiş və o vaxtdan bəri ATƏT-in Minsk qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır.

BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bu günə qədər yerinə yetirməmişdir.

Ermənistanın yürütdüyü bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdən bəri dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüququn normalarına və prinsiplərinə əsasən dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməli, ərazi bütövlüyünün, suverenliyin pozulmasına yol verilməməlidir.

Tarixdə bu gün

130 illiyi "Tərcüman" qəzeti 1883-1916

1879-cu ildə Krım türklərinin dilində ilk qəzet nəşr etdirən İsmayıl bəy Qasprinski Həsən bəyə məktub yazaraq "Tərcüman" adlı qəzet nəşr etmək üçün ona xeyir-dua verməsini və qəzetin idarə olunmasına rəhbərlik etməsini xahiş etmişdi. Bu məktub Həsən bəy üçün böyük bir bayrama çevrilmişdi. O: "Bizim başqa bir qəzetimiz də olur, gələcəkdə isə üçüncü, dördüncü və daha çox qəzetlərimiz olacaq" deyərək uşaq kimi sevinmiş, "Tərcüman"ı və onun uğurlarını məhəbbətlə izləmişdi. O, İsmayıl bəy Qasprinskiyə məsləhət görürdü ki, ərəb və fars sözlərindən qaçsın, eləcə də Krımda başa düşülən spesifik sözlərdən uzaq olsun. Qasprinski də həmişə Həsən bəyin məsləhətlərinə qulaq asmış, onları nəzərə almışdı. Ona görə də son dövrlərdə qəzet qafqazlıların başa düşəcəyi türkcədə çıxmış və buna görə də həvəslə oxunmuşdu.

Beləliklə, 1883-cü il aprel ayının 10-da Rusiya imperiyasında yaşayan, türk dilində danışan 14 milyonluq xalqın tarixi ərzində "Əkinçi" (1875-1877), "Ziya" ("Ziyayi-Qafqaziyyə" (1879-1884) və "Kəşkül"dən (1883-1891) sonra sayca dördüncü qəzet işıq üzü görmüşdü. "Tərcüman" qəzeti nəşrə başladığı 1883-cü ildən 1903-cü ilə qədər Rusiya müsəlmanları kimi Azərbaycan türklərinin də yeganə mətbu orqanı olmuşdur. Mənbələr göstərir ki, Azərbaycan ziyalıları "Tərcüman"a abunə yazılmış, uzun müddət bu qəzetə "yeganə milli qida" kimi baxmışlar. Çünki "Tərcüman"ın hər səhifəsi, hər cümləsi türk dünyasını, xüsusən, Rusiyada yaşayan müsəlman türklərini cəhalətdən oyanmağa, özünüdərkə, maarifə, elmə, haqları uğrunda savaşa səsləmişdi.

Ədəbiyyat

Tahirli, A. Bütün türklərin tərcümanı [Mətn]: İsmayıl bəy Qaspralı /A.Tahirli; ön söz. müəl. Anar; red. N. Cəfərov.- Bakı: Ozan,2011.- 240 s.

17 Ümumdünya Hemofiliya Günü 1964

Aprel ayının 17-si Dünya Hemofiliya Günüdür. Hazırda 102 ölkədə bu gün Ümumdünya Hemofiliya Günü kimi qeyd olunur. Tarixdə bu xəstəliyə kral xəstəliyi deyirlər. Belə ki, Fransada kral Lüdoviklər nəslində əsasən oğlan uşaqları bu xəstəlikdən əziyyət çəkmişdi. Bu gün isə qan çatışmazlığı dünyada bir problem kimi yaşanan hemofiliya xəstəliyinə səbəb olmuşdur. İrsi qan xəstəliyi olan hemofiliya dünyanın bir çox ölkələrində yayılmışdır. Xəstəliyin əsas səbəbləri kimi mütəxəssislər yaxın qohumların nikahı, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsirini göstərirlər. Azərbaycanda isə bu xəstəlikdən 1000-dən artıq insan əziyyət çəkir. 2005-ci ildə prezident İlham Əliyev tərəfindən "Hemofiliya və talassemiyalı irsi qan xəstəliyinə düçar olmuş şəxslərə dövlət qayğısı" haqqında Fərman imzalamışdır.ngəlmə pozğunluğu olub, təkcə həmin xəstəlikdən əziyyət çəkən şəxslər üçün yox, həm də cəmiyyətin mühüm sosial-iqtisadi problemidir. Hemofiliya keçici deyil, xəstəlik nəsildən-nəsilə yalnız xəstənin bacıları və qızları vasitəsilə keçir. .

Ədəbiyyat

Azərbaycan Respublikası Hemofiliya və talassemiya irsi qan xəstəlikləri haqqında sənədlər toplusu [Mətn]: Azərbaycan Respublikasının Qanunu.- Bakı: Biznesmenin Bülleteni N.E., 2006.- 16 s.

APREL

18

Tarixi Abidələrin Mühafizəsi Günü 1983



Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Hər bir ölkənin tarixi qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu cəhətdən ölkəmizin bəxti gətirmişdir. Qobustan, İstisu qayaüstü təsvirləri, Əlincə, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Şah Abbas məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Şirvanşahlar, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndir.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdir.

2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

Ədəbiyyat

Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunub [Mətn] //Mədəniyyət.- 2011.- 20 aprel.- S.5.

Göyyallı, X. Abidələr tarixin möhürüdür [Mətn] /X.Göyyalı //Mədəniyyət.- 2007.- 2 mart.- S.4.

Xəlilzadə, F. Maddi və mənəvi həyatın güzgüsü [Mətn] /F.Xəlilzadə //Azərbaycan.- 2007.- 18 aprel.- N.81.- S.8.

22

Ümumdünya Yer Günü 1970



Əsası C.Sterlinq Mortan tərəfindən qoyulan Yer gününün bayram edilməsi XIX əsrin 40-cı illərindən başlayır. 1872-ci ildə C.Morton Nebraska ştatının il ərzində bir gününün ətraf ərazinin yaşıllaşmasına həsr edilməsi təklifi ilə çıxış edir və birinci ağac əkmə günü milyona yaxın ağac əkilir.

1882-ci il 22 aprel tarixindən başlayaraq "Ağac günü" Nebraska hökuməti tərəfindən ştatın rəsmi bayramı kimi qeyd olunur. 1970-ci ildən başlayaraq ətraf mühitin əhəmiyyətinin təbliği, onun ilkin formada qorunub saxlanılması, planetin təbii ehtiyatlarının tükənməsi və s. sahələri əhatə etməsi ilə əlaqədar olaraq bayram "Yer günü" adlandırılmışdır.

İnternetdə

www.voanews.com


www.mix.az

APREL

23

Tarixdə bu gün

Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü 1996



Müəllif hüquqları anlayışı ilk dəfə Almaniyada aktuallaşmışdır. Əvvəllər yalnız ədəbiyyat sahəsinə aid edilən bu ifadə 1870-ci il iyun ayının 11-dən imperatorun verdiyi qanunla mülkiyyətin bütün formalarını özündə birləşdirmişdir. Yaxın xaric hesab edilən Rusiyada isə bu anlayış indinin özündə də daha çox ədəbiyyat sahəsinə ehtiva edilir. UNESCO-nun 1996-cı il tarixli qərarı ilə hər il bütün dünyada 23 aprel Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü kimi qeyd edilir. UNESCO məhz bu günü dünya şöhrətli dramaturqlar Uilyam Şekspirin (1564-1616), Migel de Servantesin (1547-1616) və yazıçı-tarixçi İnka Qarsilaso de la Veqanın (1539-1616) şərəfinə müəyyənləşdirmişdir. Belə ki, hər üç yazıçını onların ölüm tarixi - 23 aprel 1616-cı il rəqəmi birləşdirir. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun 8 oktyabr 1996-cı il tarixindən qüvvədədir. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1996-cı il tarixli Sərəncamının böyük əhəmiyyəti olmuşdur. Azərbaycanın bugünkü müəllif hüququ müasir informasiya, ilk növbədə rəqəmli texnologiya və multimedia kompyuter sisteminə əsaslanır. İlk dəfə olaraq Azərbaycan müəlliflərinə könüllü olaraq öz əsərlərini əlyazmasından başlayaraq CD ROM-lara qədər hər hansı maddi daşıyıcıda qeydiyyatdan keçirmək, Dövlət reyestrinə daxil etmək, kompyuterdə saxlamaq və arxivləşdirmək imkanı yaradılmışdır. Əsərlərini qeydiyyatdan keçirən müəlliflərə "Qeydiyyat haqqında Şəhadətnamə" verilir. Agentliyin kompyuter-TV-video-akustik sistem-skaner şəklində komplektləşdirilmiş multimediya sistemi radio-televiziya efirinin monitorinqini həyata keçirməyə, intellektual mülkiyyətin statistikası və müəllif - hüquq pozuntularının diaqnostikasının müxtəlif məsələlərini həll etməyə imkan verir. Son illər Azərbaycan rəhbərliyinin uzaqgörən daxili və xarici siyasəti nəticəsində müəllif-hüquqları sahəsində ölkəmizin beynəlxalq əlaqələri genişlənmiş, o, bir sıra Konvensiya və beynəlxalq təşkilatların üzvü olmuşdur. Azərbaycan 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvüdür. Ədəbi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyasına və Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasına daxil olmuşdur. Bir sıra digər ikitərəfli və çoxtərəfli müqavilələrin iştirakçısıdır.

Dünyada "Ümumdünya kitab və müəllif hüquqları günü" mövzusunda tədbirlər 1996-cı ildən, Azərbaycanda isə 2001-ci ilin 23 aprel tarixindən keçirilir.

Ədəbiyyat

Mehparə. 23 aprel Dünya Kitab və Müəllif Hüquqları Günüdür [Mətn] /Mehparə //Mədəniyyət.-22 aprel.-2011.-S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

1 may
Gün çıxır 06:40
Gün batır 20:57

31 may
Gün çıxır 06:13
Gün batır 21:27

MAY

21 aprel-
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

Ç.	1
C.A.	2
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	7
Ç.	**8**
C.A.	9
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	14
Ç.	15
C.A.	16
C.	**17**
Ş.	**18**
B.	19
B.E.	20
Ç.A.	21
Ç.	22
C.A.	23
C.	24
Ş.	25
B.	26
B.E.	27
Ç.A.	28
Ç.	29
C.A.	30
C.	31

- **Şuşanın işğalı günü (08.05.1992)**
- *Faşizm üzərində Qələbə Günü (09.05.1945)*
- *Ümummilli lider Heydər Əliyevin Doğum Günü (10.05.1923-12.12.2003)*
- *Beynəlxalq Ailə Günü (15.05.1994)*
- ***Laçın rayonunun işğalı günü (17-18.05.1992)***
- *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının (23.05.1923) 90 illiyi*

90 il Heydər Əliyev 1923-2003



Azərbaycan Milli Kitabxanası 1923-cü ildə Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə Respublika Dövlət Kitabxanası kimi yaradılmışdır. 1939-cu ilin iyul ayında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə bu kitabxanaya görkəmli mütəfəkkir, filosof, realist dramaturgiyamızın banisi M.F.Axundovun adı verilmiş və bu gün də kitabxana ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında xüsusi xidməti olan bu böyük mütəfəkkir filosofun adını daşıyır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə müvafiq olaraq M.F.Axundov adına Dövlət kitabxanasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir. Bu status kitabxananın qarşısına qoyulmuş vəzifələrin əhatəsini xeyli genişləndirmiş və ölkənin ictimai həyatında onun rolunu artırmışdır.

MAY 2013



Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Ayvazov Ayvaz (Eyvaz Borçalı) Məhəmməd oğlunun (05.05.1938) anadan olmasının **75** illiyi
Xalq yazıçısı Əfəndiyev Elçin İlyas oğlunun (13.05.1943) anadan olmasının **70** illiyi 145
Tənqidçi, ədəbiyyatşünas Məmmədov Əzizağa Hacıəli oğlunun (15.05.1918-23.02.1986) anadan olmasının **95** illiyi
Dünya şöhrətli türkoloq alim, şair Çobanzadə Bəkir Vahab oğlunun (15.05.1893-13.10.1938) anadan olmasının **120** illiyi 146
Əməkdar mədəniyyət işçisi, şair, jurnalist Mahmudov Əhməd Məmməd oğlunun (Əhməd Mahmud) (17.05.1928) anadan olmasının **85** illiyi
Publisist, dramaturq İsmayılov Rauf Əbdülbaqi oğlunun (20.05.1923-26.01.1980) anadan olmasının **90** illiyi
Nasir Əfəndiyev Qafur Sədrəddin oğlunun (Qantəmir) (22.05.1888/89-28.01.1944) anadan olmasının **125** illiyi
Publisist, tərcüməçi, dramaturq, ictimai xadim Məmmədzadə Mirzə Balanın (24.05.1898-08.03.1959) anadan olmasının **115** illiyi
Tənqidçi, publisist Quliyev Mustafa Zəkəriyyə oğlunun (24.05.1893-1938) anadan olmasının **120** illiyi
Dilçi, filologiya elmləri doktoru Bağırov Quşdan Əmikişi oğlunun (25.05.1933) anadan olmasının **80** illiyi
Nasir, publisist, tərcüməçi Axundova Elmira Hüseyn qızının (26.05.1953) anadan olmasının **60** illiyi 147
Klassik Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, şair Əlican Qövsi Təbrizinin (31.05.1568-1640) anadan olmasının **445** illiyi 148
Nasir, ssenarist, tərcüməçi Nəzərli Şirməmməd Dadaş oğlunun (31.05.1948) anadan olmasının **65** illiyi



Folklor

Şair Bayramov Mirzə Əhməd oğlunun (Aşıq Mirzə) (05.05.1888-1960) anadan olmasının **125** illiyi
Aşıq Mikayılov Ağalar Bilal oğlunun (Aşıq Ağalar) (24.05.1913-

1946) anadan olmasının **100** illiyi

Dünya ədəbiyyatı



Özbəkistanın Xalq şairi, SSRİ Dövlət mükafatı laureatı Qafur Qulamın (10.05.1903-10.07.1966) anadan olmasının **110** illiyi
Fransız yazıçısı, ictimai xadim Barbüs Anrinin (17.05.1873-30.08.1935) anadan olmasının **140** illiyi
Dahi İran şairi, riyaziyyatçı, astronom və filosofu Qiyasəddin Əbu əl-Fəth Ömər ibn İbrahim Xəyyam və ya sadəcə Ömər Xəyyamın (18.05.1048-04.12.1131) anadan olmasının **965** illiyi 149

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq



Xalq rəssamı Qasımov Nadir Sadıq oğlunun (22.05.1928-2000) anadan olmasının **85** illiyi

Musiqi.Opera.Balet



Alman bəstəkarı, pianoçu və dirijoru Brams İohannesin (07.05.1833-03.04.1897) anadan olmasının **180** illiyi
Xalq artisti, violonçel ifaçısı Əliyev Sabir Hüseynəli oğlunun (09.05.1928-26.10.1983) anadan olmasının **85** illiyi
Xalq artisti, opera müğənnisi Hacıbabəbəyov Hüseynağa Soltan oğlunun (19.05.1898-10.11.1972) anadan olmasının **115** illiyi 150
Xalq artisti, opera müğənnisi Konstantin Lvoviç Knijnikovun (20.05.1883-1.11.1952) anadan olmasının **130** illiyi
İlk Azərbaycan pianoçu qadınlarından biri Qayıbova Xədicə Osman qızının (24.05.1893-19.10.1938) anadan olmasının **120** illiyi 151
Rus bəstəkarı, ictimai xadim Xrennikov Tixon Nikolayeviçin (28.05.(10.06)1913-14.08.2007) anadan olmasının **100** illiyi
Əməkdar artist, xanəndə Adıgözəlov Zülfü Səməd oğlunun (31.05.1898-1963) anadan olmasının **115** illiyi 152

Teatr.Kino



Azərbaycanın ilk qadın rejissoru Salamzadə Qəmər Əliqulu qızının (02.05.1908-1994) anadan olmasının **105** illiyi
Xalq artisti, aktyor Xudaverdiyev Kamal Ağahüseyn oğlunun (03.05.1938-23.04.2008) anadan olmasının **75** illiyi 153
Xalq artisti, teatrşünas Məmmədov Mehdi Əsədulla oğlunun (22.05.1918-28.01.1985) anadan olmasının **95** illiyi 154
Xalq artisti, aktyor Poladov Fuad Ağarəhim oğlunun (24.05.1948) anadan olmasını **65** illiyi 155



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Mirzəyev Yusif Vəli oğlunun (23.05.1958-19.02.1993) anadan olmasının **55** illiyi 156

Siyasət.Hərbi iş



Hərbi xadim, vitseadmiral Qasımbəyov Həmid Həbib oğlunun (03.05.1923-22.04.2005) anadan olmasının **90** illiyi

Hərbi xadim, general-mayor Vəkilov İbrahim ağa Paşa oğlunun (07.05.1853-12.02.1934) anadan olmasının **160** illiyi

Ümummilli lider, görkəmli siyasətçi və dövlət xadimi Əliyev Heydər Əlirza oğlunun (10.05.1923-12.12.2003) anadan olmasının **90** illiyi 157

Hərbi xadim, general-mayor Qaytabaşı Əbdülhəmid bəy Şərif bəy oğlunun (21.05.1888-28.06.1920) anadan olmasının **125** illiyi 160

Fizika riyaziyyat elmləri doktoru Abdullazadə Fatma Hüseyn qızının (28.05.1948) anadan olmasının 65 illiyi 161



Tarix

Əməkdar mədəniyyət işçisi, tarixşünas alim Paşayev Ataxan Əvəz oğlunun (01.05.1938) anadan olmasının **75** illiyi 162



Fəlsəfə.İqtisadiyyat.Hüquq

İqtisad elmləri doktoru, professor Abbasov Qəzənfər Əli oğlunun (25.05.1938) anadan olmasının **75** illiyi

Akademik, iqtisad elmləri doktoru, professor Mahmudov Əhməd Əkbər oğlunun (25.05.1923-08.05.1989) anadan olmasının **90** illiyi



Neft

Neftçi-geoloq, professor Yaqubov Əhəd Ələkbər oğlunun (01.05.1908-24.02.1979) anadan olmasının **105** illiyi



Mədəniyyət.Elm.Maarif

Maarif xadimi, şair, nasir, etnoqraf, tərcüməçi Əfəndiyev Rəşidbəy İsmayıl oğlunun (24.05.1863-31.08.1942) anadan olmasının **150** illiyi 163



İdman

İlk Azərbaycan paraşütçüsü Quliyev Hüseyn Səttar oğlunun (01.05.1913-22.08.1942) anadan olmasının **100** illiyi

Dünya çempionu, Dünya kubokunun sahibi, Avropa çempionu, SSRİ çempionu Məmmədov Ceyhun Məhəmməd oğlunun (23.05.1968) anadan olmasının **45** illiyi

XXVII Yay Olimpiya oyunlarının qızıl medalçısı (Sidney 2000) stend atıcılığı üzrə dünya çempionu Meftəhətdinova Zemfira Əli qızının (28.05.1963) anadan olmasının **50** illiyi



Kimya.Biologiya.Tibb

Əməkldar elm xadimi, professor Hüseynov Sadıq Cavad oğlunun (01.05.1883-12.03.1952) anadan olmasının **130** illiyi
Biologiya elmləri doktoru Mərdanov Əmir Əkbər oğlunun (02.05.1928) anadan olmasının **85** illiyi
Akademik Nağıyev Murtuza Fətulla oğlunun (05.05.1908-28.01.1975) anadan olmasının **105** illiyi 164



Texnika

Azərbaycan elektrofizika məktəbinin banisi, dünya energetika elminin tanınmış simalarından biri, akademik Cuvarlı Çingiz Mehdi oğlunun (01.05.1913-2000) anadan olmasının **100** illiyi 165
Texnika elmləri doktoru, professor Rüstəmov Yavuz İsmayıl oğlunun (09.05.1933) anadan olmasının **80** illiyi
Texnika elmləri doktoru, professor Əliyev Telman Abbas oğlunun (12.05.1933) anadan olmasının **80** illiyi
Texnika elmləri doktoru, professor Əliyev Əli Musa oğlunun (20.05.1933) anadan olmasının **80** illiyi
Əməkdar elm xadimi, energetik Quluzadə Kazım Novruzəli oğlunun (20.05.1908) anadan olmasının **105** illiyi



Kitabxanaşünaslıq.Biblioqrafiya

Ədəbiyyatşünas, tərcüməçi, biblioqraf Əfəndiyev Əmin Tahir oğlunun (18.05.1933) anadan olmasının **80** illiyi 166
M.F.Axundov adına Milli Kitabxananın (keçmiş Azərbaycan Mərkəzi Dövlət Kitabxanası) təntənəli açılışının (23.05.1923) **90** illiyi 167



Tarixdə bu gün

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993)
Əlillərin hüquqlarının müdafiəsi günü (05.05.1992)
İnsan Alverinə Qarşı Mübarizə Günü (06. 05.2009)
Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü (08.05.1953)
Şuşa rayonunun işğalı günü (08.05.1992) 170
Bakı-Tiflis dəmir yolu xəttinin fəaliyyətə başlamasının (08.05.1883) **130** illiyi
Faşizm üzərində Qələbə Günü (09.05.1945) 171
Beynəlxalq Ailə Günü (15.05.1994)
Sankt-Peterburq şəhərinin əsasının qoyulmasının (16.05.1703) **310** illiyi
Ümumdünya İnformasiya Cəmiyyəti Günü (17.05.2006)
Beynəlxalq Muzeylər Günü (18.05.1977)
Laçın rayonunun işğalı günü (17-18.05.1992) 172

Ermənistandan azərbaycanlı əhalinin zorla deportasiyasına və ermənilərin Qarabağ iddialarına etiraz olaraq Bakıda ilk izdihamlı mitinq keçirilib (18.05.1988)
Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik" Günü (21.05.2001)
Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü (23.05.2007)
Azərbaycandan Rusiya (keçmiş SSRİ) qoşunlarının çıxarılması başa çatmışdır (25.05.1993)
Saatlı rayonunun təşkil edilməsinin (25.05.1943) **70** illiyi
Azərbaycan Respublikası Madaqaskar ilə diplomatik əlaqələr qurmuşdur (26.05.1993)
Azərbaycan Milli Şurası yaradılmışdır (27.05.1918)
Respublika Günü (28.05.1918)
Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının (28.05.1918-28.04.1920) **95** illiyi
Azərbaycan Ali Məhkəməsinin (28.05.1918) yaranmasının **95** illiyi
Azərbaycanın İstiqlaliyyəti haqqında Akt (Əqdnamə) qəbul edilmişdir (28.05.1918)
Ümumdünya Metrologiya Günü (20.05.1875)
Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1987)

173

174

MAY

13

70 illiyi

Elçin Əfəndiyev 1943

Yazıçı



Elçin İlyas oğlu Əfəndiyev 1943-cü il may ayının 13-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Uşaqlıq çağlarından etibarən ədəbi mühitin içində, kitabların əhatəsində olması, bir tərəfdən milli ədəbiyyat, folklor, digər tərəfdən isə dünya ədəbiyyatı ilə tanışlığı onun daimi mütaliəsinin əsasına çevrilmişdir. "O, inanırdı" adlı ilk hekayəsi 1959-cu ildə - 16 yaşı olarkən "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdur. 1960-cı ildə orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. O, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyası (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, 1970-ci ildə "Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965)" mövzusunda namizədlik, 1997-ci ildə isə "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1972-ci ildə Elçin Əfəndiyev Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində baş elmi işçi vəzifəsində işləmiş, eyni zamanda Nəsimi adına Dilçilik və Nizami adına Ədəbiyyat İnstitutlarının Birləşmiş Müdafiə Şurasının elmi katibi olmuşdur. 1965-ci ildə "Min gecədən biri" adlı ilk hekayələr kitabı çapdan çıxmışdır. Bundan sonra Elçinin dünyanın müxtəlif dillərində 100-ə yaxın kitabı nəşr olunmuş, əsərləri ingilis, rus, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, fars, çin, çex, slovak, polyak, xorvat, gürcü, litva, moldavan, türkmən, özbək, qazax, tacik, serb və sairə dillərə tərcümə edilmişdir. Kitablarının ümumi tirajı 5 milyondan çoxdur. Yazıçının ssenarisi əsasında "Baladadaşın ilk məhəbbəti", "Arxadan vurulan zərbə", "Mən hələ qayıdacağam", "Bağ mövsümü" və s. tammetrajlı bədii filmlər çəkilmişdir.

Görkəmli yazıçı dünyanın bir şox ölkələrində müxtəlif elmi, ədəbi, ictimai, siyasi konfranslarda, simpoziumlarda, qurultaylarda, görüşlərdə, rəsmi dövlət danışıqlarında iştirak etmişdir. 1975-ci ildə Azərbaycan Yazıçılar İttifaqının İdarə heyətinin katibi seçilmişdir.

1987-ci ildən Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti - "Vətən" Cəmiyyətinin sədri vəzifəsində çalışmış, 1993-cü ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. 1998-ci ildən Bakı Dövlət Universitetinin professorudur. Bir sıra Dövlət Komissiyalarının sədri, nüfuzlu Azərbaycan və beynəlxalq ədəbi, ictimai qurumların, Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın üzvüdür. Elçin Əfəndiyev 1984-cü ildə "Əməkdar incəsənət xadimi", 1986-cı ildə "Şərəf nişanı" ordeni, 1998-ci ildə "Xalq yazıçısı" fəxri adını almış, 2003-cü ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /Elçin; ön sözün müəl. V.Bəhmənli.- Bakı: Avrasiya Press, 2005.- 424 s.

Aydınlık geceler [Metn]: seçilmiş hikayeler /Elçin; çev., önsöz İ.Avşar; kapak İ.Sağlam.- Ankara: Bengü, 2011.- 326 s.

Bayraqdar [Mətn]: poema /Elçin; red. Dilsuz.-Bakı, 2004.- 170 s.

Mahmud və Məryəm [Mətn]: [roman] /Elçin; ön söz Q.Paşayev.- Kərkük: Yurd, 2007.- 216 s.

Ölüm hükmü [Metn] /Elçin; çev. A.Ağaoğlu.- Ankara: Ötüken, 2007.- 536 s.

Pyeslər [Mətn] /Elçin.- Bakı: Çaşıoğlu, 2012.- 944 s.

Sadəlik və müdriklik [Mətn] /Elçin.- Bakı, 2007.- 139 s.

Ömrün anları [fotoalbom] /Elçin; tərt. ed. A.Əfəndiyeva.- Bakı: Çinarçap, 2009.- 655 s.

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

120 illiyi Bəkir Çobanzadə 1893-1938

Ədəbiyyatşünas



Bəkir Vahab oğlu Çobanzadə 1893-cü il may ayının 15-də Krımda, Tavrida vilayəti Simferopol qəzasının Qarasubazar şəhərində anadan olmuşdur. Burada ibtidai təhsil almış, 14 yaşında ikən qeyri-adi zəkası ilə diqqəti cəlb etmişdir. Dini Xeyirxahlar Cəmiyyəti 1908-ci ildə onu Türkiyəyə Qalatasaray liseyi - "Sultaniyyə"yə təhsilini davam etdirməyə göndərmişdir. İlk şeirlərini, "Anan harda?" poemasını tələbəlik dövründə qələmə almışdır. İstanbul Universiteti nəzdində olan üçillik ali kursda ərəb və fars dillərini mükəmməl öyrənmiş, Türkiyədə "Müstəqil tatar Krımı" ideyaları ilə yaşayan gənclərdən ibarət "Krım-tatar tələbə cəmiyyəti"nin yaradıcılarından və rəhbərlərindən olmuşdur. Sonra Budapeşt Universitetinin tarix-filologiya fakültəsində türk, ərəb və macar filologiyası ilə yaxından tanış olmuş, doktorluq dissertasiyası müdafiə etmişdir. 1919-cu ildə Budapeştdə türk dilində çıxan "Şərq" qəzetinin redaktoru olmuşdur. 1918-1919-cu illərdə "Krım", "Göy kitab" (İstanbul) məcmuələrində və "Şərq" qəzetində şeirləri dərc edilmişdir. Bu dövrdə Türkiyə, Krım, Orta Asiya və Rusiya dövri mətbuatında ictimai-siyasi, elmi məqalələrini müxtəlif imzalarla çap etdirmişdir. Sonralar "Türk ensiklopediyası"nda "Çoban oğlu", "Bəkir Baybək", "Bəkir Cavbək", "Bəkir Yaybək", "Çoban oğlu Bəkir Sidqi" imzaları ilə məqalələri dərc olunmuşdur.

O, 1920-ci ildə filologiya elmləri namizədi, 1922-ci ildə isə professor adı na layiq görülmüşdür.

Vətənə qayıtdıqdan sonra 1920-1922-ci illərdə Krım inqilabi komitəsinin rəisi, Krım Maarif Komissarlığında tatar lisaniyyatı və ədəbiyyatı şöbəsinin müdiri olmuş, eyni zamanda ali məktəblərdə, elmi-tədqiqat institutlarında çalışmışdır. 1928-ci ildə S.Ağamalıoğlunun dəvəti ilə Azərbaycanda yeni əlifba komitəsinin sədri, Yeni türk əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri təyin edilmişdir. Türk xalqlarının yeni əlifbaya keçməsində fəal mübarizə aparmış, Moskvada təlimatçı kurslarında mühazirələr oxumuşdur. 1924-1929-cu illərdə Azərbaycan Baş Elmi İdarəsində terminologiya komitəsinə rəhbərlik etmiş, eyni zamanda Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində kafedra müdiri, dekan vəzifəsində çalışmışdır. 1928-ci ildə Moskvada Şərq Xalqları İnstitutunun həqiqi üzvü seçilmişdir. 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspirantura şöbəsinin müdiri işləmişdir. 1932-ci ildə keçmiş SSRİ EA Zaqafqaziya filialı Azərbaycan şöbəsinin, 1935-ci ildə SSRİ EA Azərbaycan filialının həqiqi üzvü seçilmişdir. Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur. O, bir sıra monoqrafik əsərlərlə yanaşı, "Türk dilinin metodikası" (1932), "Elmi qramerin əsasları" (1932) kitablarını şərikli tərtib etmişdir. 1971-ci ildə ilk şeirlər məcmuəsi özbək dilində kütləvi tirajla buraxılmışdır.

Bəkir Çobanzadə 1937-ci il yanvar ayının 28-də həbs edilmiş, Pyatiqorsk türməsinə, oradan da Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığının təcridxanasına gətirilmişdir. 1938-ci il oktyabr ayının 13-də ona ölüm hökmü kəsilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: beş cilddə /B.Çobanzadə; nəşrə hazırlayan və ön sözün müəl. M.Adilov; red. A.Babayev.- Bakı: Şərq-Qərb, 2007.- C.1.-336 s.; C.2.- 365 s.; C.3.- 342 s.; C.4.- 198 s.; C.5.-261 s.

Allahmanlı, M. Krım-tatar ədəbiyyatı [Mətn]: problemlər, mülahizələr /Mahmud Qara oğlu Allahmanlı; elmi red. T.S.Novruzov.- Bakı: ADPU, 2007.-146 s.

Babayev, A. Bəkir Çobanzadə [Mətn] /A.Babayev.- Bakı: Şərq-Qərb, 1998.- 312 s.

Bəkir Çobanzadə [Mətn] //Azərbaycan yazıçıları (XX-XIX zilliklərdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2001.- S.131-132.

İnternetdə

www.anl.az

www.anspress.com

www.anl.az

Milli ədəbiyyat

60 illiyi

Elmira Axundova
1953

Nasir, publisist



Elmira Hüseyn qızı Axundova 1953-cü il may ayının 26-da Moskva vilayətinin Ramensk şəhərində anadan olmuşdur. Bakı Xoreoqrafiya məktəbi yanında ümumtəhsil məktəbini bitirdikdən sonra şəhər 3 saylı texniki məktəbində stenoqrafiya ixtisasına yiyələnmişdir. Sonra 1976-cı ildə ADU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. İlk bədii tərcüməsini - Hüseyn İbrahimovun "Nəcibənin ürəyi" hekayəsini 1978-ci ildə, ilk elmi məqaləsini isə 1979-cu ildə "Литературный Азербайджан" jurnalında çap etdirmişdir. Əmək fəaliyyətinə 1971-ci ildə stenoqrafist kimi başlamış, sonra 1977-1980-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor olmuşdur. 1980-1988-ci ildə Elmira xanım Azərbaycan Yazıçılar İttifaqında referent-məsləhətçi işləmiş, 1988-1991-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində böyük elmi işçi olmuş, 1990-1998-ci illərdə "Литературная газета"da müxbir, 1993-2000-ci illərdə Münhendə "Azadlıq" radiostansiyasının Azərbaycan üzrə müxbiri, "Türk dünyası" jurnalının Publisistika şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Moskvada 1984-cü ilin mayında keçirilən gənc yazıçıların 8-ci Ümumittifaq müşavirəsində olmuş, Azərbaycan Yazıçılar İttifaqının bir sıra ədəbi tədbirlərinin təşkilati hazırlığında və keçirilməsində bilavasitə iştirak etmişdir. 1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1984-cü ildə filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (informasiya məsələləri üzrə katib) seçilmiş, 1995-ci ildən Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının üzvüdür.

Hazırda 2002-ci ildən Bakı Slavyan Universitetinin Tərcümə nəzəriyyəsi və təcrübəsi kafedrasının dosentidir. Onun tərtib və tərcümə etdiyi "Azərbaycanın gənc nəsri" antologiyası, 1984-cü ildə "Yazıçı" nəşriyyatında kütləvi tirajla buraxılmışdır. Burada gənc Azərbaycan nasirlərinin seçmə hekayələri toplanmışdır. E.Axundova son illər bədii publisistika janrında məhsuldar yaradıcılığı ilə seçilir: Rus dilində "Fərmanla əfv edilmişdir..." (2000), "Poliqrafçının ölümü" (2001), "Həqiqət anı" (2003), "Əlövsət Quliyev: o tarix yaradırdı" (2003), "Bu bizik" (2003), "Yaşamaq əyyamı" (2003) kitabları çap edilmişdir. "Bir Anın Həqiqəti" (2003) filminin ssenari müəllifidir.

Xarici və rus mətbuatında müntəzəm çıxış edir. Xidmətlərinə görə H.Zərdabi adına mükafata layiq görülmüş, 2003-cü ildə "Şöhrət ordeni" ilə təltif edilmişdir. 2005-ci ildə Azərbaycan Milli Məclisinin üzvü seçilmişdir.

Ədəbiyyat

Ekoloji genetika. Canlı orqanizmlər-genetik sistem-mühit [Mətn]: dərs vəsaiti /E.Axundova; elmi red. R.Əliyev; rəy.: R.Quliyev, R.Əliyev.- Bakı: Təhsil NPM, 2006.- 263 s.

Əliövsət Quliyev: O, Tarix yazırdı... [Mətn]: sənədli roman /E.Axundova, M.Hüseynzadə; red. T.Quliyev, tərc. H.Babayev.- Bakı: Azərnəşr, 2003.- 348 s.

Heydər Əliyev. Şəxsiyyət və Zaman. 1923-1969 [Mətn] /E.Axundova; red. V.Morozkov; rəssam İ.Məmmədov.- Bakı: Ozan, H.1. (2007-2009).- 352 s.; H.2 (1969-1982).- 784 s.; H.3 (1982-1990).- 803 s.; H.4 (1969-1989).- 327 s.

Şüşə saray [Mətn]: siyasi detektiv /E.Axundova; red. N.Rüstəmli, tərc. S.Həsənov; rəssam A.Ələkbərov.- Bakı: Yurd NPB, 2007.- 468 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.meclis.gov.az

MAY
31

445 illiyi

Qövsi Təbrizi 1568-1640

Şair



Əlican Qövsi Təbrizi 1568-ci il may ayının 31-də Təbriz şəhərində, sənətkar ailəsində dünyaya göz açmışdır.

Qövsi Təbrizi XVI-XVII əsr Azərbaycan poeziyasının ən parlaq nümayəndələrindən biri olmuşdur. Şairin Azərbaycan dilində bizə gəlib çatmış "Divan"ının iki nüsxəsi məlumdur: birincisi Britaniya muzeyində, ikincisi Gürcüstanın Dövlət muzeyində saxlanılır.

Şair Füzuli ədəbi məktəbinin görkəmli davamçılarından hesab olunur. Qövsi elə bir dövrdə yaşamışdır ki, o, həm köhnə Azərbaycan dilinin klassik şeir dili mərhələsini (XV əsr), həm də yeni Azərbaycan dilinin xəlqiləşməsi dövrünü (XVII əsr) öz yaradıcılığında inikas etdirə bilmişdir. Lirik qəzəllərində mənəvi azadlıq, insanların arzu və istəkləri tərənnüm olunur.

Bir sıra şairə, xüsusilə, Füzuliyə nəzirələr yazmışdır. Onun yaradıcılığı Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır.

Qövsinin əsərlərindən nümunələr ilk dəfə 1925-ci ildə Firudun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsərinin birinci hissəsində nəşr olunmuşdur. Həmin ildə Salman Mümtaz şairin altmışa yaxın qəzəlini ayrıca kitabçada "Kommunist" qəzetinin nəşriyyatında nəşr etdirmişdir.

1958-ci ildə akademik Həmid Araslı Qövsi "Divan"ının Tiflis və London nüsxələri əsasında onun seçilmiş əsərlərini (buraya şairin 145 qəzəli, 1 mürəbbesi, 2 müxəmməsi, 1 müqəddəsi, 1 tərkibbəndi, 4 tərcibəndi daxil edilib) çap etdirmişdi. "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" 20 cildliyinin 1988-ci ildə nəşr edilmiş VI cildinə Qövsinin də əsəri daxil edilmişdir.

Əlican Qövsi Təbrizi 1640-cı ildə vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Qövsi Təbrizi; tərt. ed. və ön söz. müəl. P.Kərimov; red. K.Allahyarov.- Bakı: Lider, 2005.- 328 s.

Divan [Mətn] /Q.Təbrizi; red. M.Adilov; nəşrə haz. P.Kərimov; AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Nurlan, 2005.- 449 s.

Əlican Qövsi Təbrizi "Divan"ının tekstoloji tədqiqi [Mətn]: [Qövsi "Divan"ının Təbriz nüsxəsi (fotofaksimile)] /P.Kərimov; red.: M.Adilov; AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Nurlan, 2006.- 246 s.

İnternetdə


www.anl.az

www.az.wikipedia.org

965 illiyi

Ömər Xəyyam 1048-1131

İran şairi



Ömər ibn İbrahim Xəyyam 1048-ci il may ayının 18-də İranın Xorasan vilayətinin Nişapur şəhərində anadan olmuşdur. Gənc yaşlarında doğma şəhərinin səlcuqilərin aramsız hücumlarına məruz qalması səbəbindən Nişapuru tərk etməli və Səmərqənddə qərar tutmalı olmuşdur. 1074-cü ildə İsfahana, rəsədxanaya rəhbərlik etmək üçün dəvət almışdır. 1092-ci ildə ona hamilik edən Səlcuq şahı Məlik şahın və vəzir Nizam-əl Mülkün vəfatından sonra İsfahanı tərk etməli olmuşdur.

Xəyyam bir müddət Mərvdə Məlik şahın varislərindən birinin sarayında işləmiş, amma ona çox arzuladığı yeni rəsədxana açmaq qismət olmamışdır.

O, Şərqdə və ələlxüsus Qərbdə özünün müdriklik, yumor və satira dolu, bəzən də bir qədər qaba səslənən rübailəri ilə məşhurdur. Şərqdə uzun müddət yaddaşlardan silinən Xəyyam rübailəri Avropaya Edvard Fitsjeraldın tərcümələri ilə qədəm qoymuş və görünməmiş uğur əldə etmişdir.

Ömər Xəyyam həm də bütün dövrlərin ən böyük riyaziyatçılarından biri olmuşdur. "Riyazi problemlərin nümayişinə dair" traktatı ilə riyaziyyat elminin inkişafına misilsiz töhfələr vermişdir.

Xəyyam qapalı həyat tərzi keçirmişdir. İsfahandakı elmi fəaliyyəti dövründə Ömər Xəyyam fəlsəfə problemləri ilə də məşğul olmuşdur.

O, İbn Sinanın böyük elmi irsini diqqətlə öyrənmiş, bir neçə əsərini ərəb dilindən fars dilinə çevirmişdi. Ömər Xəyyam ilk fəlsəfi əsərini - "Varlıq və zərurilik haqqında traktat"ı 1080-ci ildə yazmışdı. O, öz traktatlarında fəlsəfənin ayrı-ayrı vacib məsələlərinə toxunmuşdur. Xəyyam yazılarında yığcamlığı üstün tutmuş, az sözlə tutarlı fikirlər söyləməyi lazım bilmişdir. Ona görə də əsərlərinin hamısı lakonik, bəzən bir neçə səhifədən ibarət olmuşdur.

...

Dünya - ömrümüzdən keçən bir andır,
Ceyhun - gözümüzdən axan leysandır,
Cəhənnəm - boş əməl qığılcımıdır,
Cənnətsə xoş keçən rahat zamandır.
Şad ol, ömrü çarpma kədərlə daşa,
Bu zalım dünyada sən adil yaşa.
İndi ki, dünyanın sonu yoxluqdur,
Zənn et yoxsan, ömrü azad vur başa.
Ulduzla doludur bu böyük eyvan,
Onlara çox ağıl qalmışdır heyran.
Ağıl kələfini itirmə əsla!
Kainat özü də qalıb sərgərdan.

Ömər Xəyyam 1131-ci il aprel ayının 12-də vəfat etmişdir.

Ədəbiyyat

Rübailər [Mətn] /Ömər Xəyyam; tərc. ed. M.Seyidzadə; ön söz. müəl. Ə.Hacızadə.- Bakı: Lider, 2004.- 104 s.

Rübailər [Mətn] /Ömər Xəyyam; ön söz. Ə.Polad; elmi məsl.: V.Məmmədəliyev, N.Cəfərov; elmi red. və son söz əvəzi R.Hüseynov, H.İsaxanlı; miniatürlər fotoşəkili A.Mustafazadə; cildçi Barın Cilt Evi.- Bakı: Səda, 2008.- 376 s.

Yüz bir rübai [Mətn] /Ö.Xəyyam; poetik tərc. müəl. Dönməz; red. N.Göyüşov; [rəssam Bulud].- Bakı :Azənəşr, 2011.- 231 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

115 illiyi

Hüseynağa Hacıbababəyov 1898-1972

Opera müğənnisi



Hüseynağa Soltan oğlu Hacıbababəyov 1898-ci il may ayının 19-da Şamaxıda toxucu ailəsində doğulmuşdur. Ailəsi ilə birlikdə 1902-ci ildə Bakıya köçmüşdür.

Hüseynağa burada əvvəlcə "Alekseyski" məktəbində, sonra görkəmli ziyalı, məşhur teatr xadimi Həbib bəy Mahmudbəyovun təşkil etdiyi təhsil ocağında oxumağa başlamışdır. 1910-cu ildə "Nicat" mədəni-maarif cəmiyyəti teatr truppasının xoruna qəbul olunmuş, 1913-cü ildən başlayaraq "Səfa" mədəni-maarif cəmiyyətinin teatr truppasında, Hüseynqulu Sarabskinin rəhbərlik etdiyi "Müsəlman opera artistləri" dəstəsində, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə dramatik və musiqili teatr aktyoru kimi çalışmışdır.

1919-cu ildən 1925-ci ilin avqustuna qədər Milli Dram Teatrının truppasında olmuş, 1925-ci ilin payız mövsümündən Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləmişdir.

Müxtəlif truppalarda çoxlu dramatik obrazlarla yanaşı, opera və operettalarda qadın obrazlarından Leylinin, Əslinin, Xurşidbanunun, Gülçöhrə və Cahan xalanın, Gülnazın ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid banu", "Arşın mal alan" və "O olmasın, bu olsun" (Üzeyir bəy Hacıbəyov), Qəribin anasının ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Gülzarın ("Şah İsmayıl", Müslüm Maqomayev) partiyalarını oxumuşdur.

Hüseynağa Hacıbababəyov dövlət teatrında zəngin yaradıcılıq yolu keçmiş, müğənni-aktyor milli və dünya klassik bəstəkarlarının ölməz operalarında eyni məharətlə çıxış etmişdir.

1925-ci ildən 1972-ci ilə qədər çıxış etdiyi əsas tamaşalar onun sənətkar böyüklüyünü açıqca göstərmişdir: Çar Brendey, Hindli qonaq ("Qar qız" və "Sadko", Nikolay Rimski-Korsakov), Qərib ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov), Sərvər, Əsgər, Məcnun, Kərəm ("Məşədi İbad", "Arşın mal alan", "Leyli və Məcnun" və "Əsli və Kərəm", Üzeyir bəy Hacıbəyli), Lenski ("Yevgeni Onegin", Pyotr Çaykovski), Əlyar, Şah İsmayıl ("Nərgiz" və "Şah İsmayıl", Müslüm Maqomayev), Qraf Almavivo ("Sevilya bərbəri", Coakkino Rossini).

Opera aktyoru Hüseynağa Hacıbababəyov 1934-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1938-ci ildə "Xalq artisti" fəxri adları ilə təltif olunmuşdur. Ömrünün sonlarında teatrda gənclərin sənət vərdişlərinə yiyələnmələri üçün böyük əmək sərf etmişdir.

Milli opera sənətimizin və gözəl aktyorluq qabiliyyəti olan müğənni, nadir səs tembri ilə yanaşı gözəl vokal texnikasına, yüksək aktyorluq məharətinə, lətafətli səhnə cazibəsinə malik Hüseynağa Hacıbababəyov 1972-ci il noyabr ayının 10-da Bakıda vəfat etmiş və ikinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Dadaşov, S. Azərbaycan SSR Xalq artisti Hüseynağa Hacıbababəyov [Mətn] /S.Dadaşov; red. M.Davudova.- Bakı: Azərbaycan Teatr Cəmiyyəti, 1958.- 31 s.

Təhmirazqızı, S.Mayda xatırlananlar [Mətn] /S. Təhmirazqızı //Mədəniyyət .-2010.- 19 may. - S. 5.

Rəhimli, İ. Hüseynağa Hacıbababəyov [Mətn] //Rəhiml, İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.417.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.mct.gov.az

120 illiyi Xədicə Qayıbova 1893-1938

Pianoçu



Xədicə Osman qızı Qayıbova 1893-cü il may ayının 24-də Tiflisdə anadan olmuşdur. İlk təhsilini "Müqəddəs Nina" məktəbində almışdır.Uşaq yaşlarından musiqi istedadı ilə fərqlənən X.Qayıbova ilk musiqi təhsilinə bu məktəbdə yiyələnmiş, elementar musiqi nəzəriyyəsini, fortepianoda çalmağı öyrənmişdir. Bir müddət X.Qayıbova Tiflisdəki tatar məktəbində dərs demiş, 1919-cu ildə həyat yoldaşı ilə birlikdə Bakıya köçmüşdür.

XX əsrin 20-ci illərinin əvvəllərində Xalq Maarif Komissarlığında Şərq musiqisi üzrə müəllim kadrların hazırlanması məqsədilə "Qısa müddətli Şərq musiqisi kursları"nı təşkil etmiş, sonralar Şərq musiqi şöbəsinin müdiri təyin olunmuşdur. 1927-ci ildə konservatoriyaya daxil olmuş, nəzəriyyə və bəstəkarlıqdan dərs almış, eyni zamanda teatr texnikumunda dərs demiş və elmi-tədqiqat işi ilə məşğul olmuşdur. Bakıda Şərq konservatoriyasının yaradıcılarından və ilk azərbaycanlı pianoçu - fortepianoda muğamların ilk ifaçısı olmuşdur.

X.Qayıbovanın evi əsl musiqi ocağı olmuşdur. Qonaqların arasında dövlət xadimləri, Bakıya qastrola gələn ifaçılar, müxtəlif tədbirlərdə iştirak edən xarici qonaqlar, xususilə də Türkiyədən alimlər, şairlər olmuş, musiqi gecələrinə Ü.Hacıbəyli, R.Qliyer, L.Rudolf, M.Pressman, H.Sarabski, Bülbül, V.Qorovits, N.Milşteyn, F.Köprülüzadə, İsmayıl Hikmət kimi görkəmli insanlar da qatılırdı.

Azərbaycanın yaradıcı ziyalılarına qənim kəsilən sovet imperiyasının qatil siyasəti bu vətənpərvər sənətkarın, bu zərif ruhlu pianoçu qadının taleyindən də yan keçməmişdir. Onun adı rus-sovet repressiyasının ilk iki ilində qətlə yetirilmiş səksən min Azərbaycan ziyalısının siyahısındadır. O, 1933-cü ildə Türkiyə ilə münasibətlərinə görə casusluqda ittiham edilərək həbs olunmuş, ancaq tezliklə heç bir sübut, dəlil olmadığına görə həbsdən azad edilmişdi. 1934-cü ildən Azərbaycan Dövlət Konservatoriyasında əmək fəaliyyətini davam etdirən professional musiqiçi burada elmi-tədqiqat musiqi kabinetinə rəhbərlik etmişdir. Onun rəhbərliyi altında xalq dastanları və muğamlarımız toplanmışdır.

Xədicə xanım 1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik İdarəsinin 4390 №-li orderi ilə ikinci dəfə əsassız şəkildə həbs edilmişdir. 1938-ci il may ayının 7-də Xədicə Qayıbovanın işi üzrə istintaq başa çatmış və o, heç bir dəlilin olmamasına baxmayaraq müqəssir hesab edilmişdir. Azərbaycan SSR XDİK-in Xüsusi Üçlüyünün 1938-ci il 19 oktyabr tarixli qərarına əsasən Qayıbova Xədicə xanım Osman qızı Türkiyə konsulluğu ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edilmişdir. Azərbaycan SSR Ali Məhkəməsi Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 14 fevral 1956-cı il qərarına əsasən Qayıbova Xədicə xanım Osman qızına bəraət verilmişdir.

Ə d ə b i y y a t

Məhərrəmova, T. Repressiyaya məruz qalan iki musiqiçidən biri [Mətn]:[azərbaycanın ilk peşəkar qadın pianoçusu və pianoda ilk muğam ifaçısı Xədicə Qayıbova haqqında] /T. Məhərrəmova //Kaspi.- 2010.- 25 may.- S.15.

Repressiyaya məruz qalan musiqiçi xanım - Xədicə Qayıbova [Mətn] //Azadlıq.- 2011.- 14 iyul.- S. 14.

Sərvi, S. Mir Cəfər Bağırovun güllələtdirdiyi pianoçu qadın [Mətn] /S.Sərvi //Azad Azərbaycan.- 2012.- 29 yanvar.- S.6.

Azəri, L. Xədicə Qayıbova [Mətn] /L.Azəri //Mədəniyyət.- 2012.- 17 fevral.- S.15.

Nizamiqızı, Həmidə. Susmuş pianoya elegiya [Mətn] /H.Nizamiqızı //Mədəniyyət.- 2012.- 30 mart.- S.10.

İ n t e r n e t d ə

www.anl.az

www.mugam.musigidunya.az

115 illiyi

Zülfü Adıgözəlov 1898-1963

Xanəndə



Zülfü Səməd oğlu Adıgözəlov 1898-ci il may ayının 31-də Şuşanın Qaradolaq kəndində anadan olmuşdur. 1927-ci ildə Şuşada muğam axşamlarından birində Zülfü Adıgözəlovun ifasını dinləyən Cabbar Qaryağdıoğlu, onu Bakıya dəvət edir.

Zülfü Adıgözəlov pəsxan xanəndə idi. O, muğam dəstgahını tam şəkildə bəm və orta tessiturada özünəməxsus oxuma məktəbini yaratmışdır. Bu gün adlarını fəxrlə çəkdiyimiz Əbülfət Əliyev, Sahib Şükürov, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, İldırım Həsənov, Ağaxan Abdullayev, Tələt Qasımov və başqa neçə-neçə gənc istedadlı xanəndələr Zülfü Adıgözəlov məktəbinin istedadlı davamçılarıdırlar.

Xanəndənin ifa etdiyi və lentə, qrammafon vallarına yazdırdığı "Rast", "Mahur-hindi", "Segah-Zabul", "Bayatı-Şiraz", "Humayun" muğam dəsgahları, bir sıra təsniflər, "Nəbi", "Mən gedirəm Zəngilana", "Dedim bir busə ver", "Kəklik" və b. bu kimi xalq mahnıları təkrarolunmaz, musiqi xəzinəmizin nadir incilərıdirlər. Məhz qədim klassik muğamlarımızı, təsnif və xalq mahnılarını oxuyarkən onların ənənəvi forma və quruluşunu saxlamaqla xanəndə özünəməxsus nəfəsləri, dəst-xətti ilə ifaçılıq sənətinə yeniliklər gətirmişdir.

Heç də təsadüfi deyil ki, Zülfü Adıgözəlovun xanəndə kimi ifaçılığının xüsusiyyətlərindən söz açarkən görkəmli şərqşünas alim, jurnalist Rafael Hüseynov yazır: "O muğamların labirintlərinə kamil bələd idi, bir muğamın qapısından girib bu muğamın ruhunu incitmədən, səslənmiş rəvanlığına xələl gətirmədən asudəcə sonra elə gəldiyi rəvanlıqla əvvəlki muğama qayıdıb yolunu davam etdirə bilirdi".

Zülfü Adıgözəlov muğam dəsgahların ayrı-ayrı uyğun şöbələrini birləşdirərək mikrosilsilə kimi müstəqil şəkildə təfsir etmişdir. Bu baxımdan "Əraq-Pəncgah", "Hasar-müxalif", "Vilayəti-Dilkeş" muğamları gözəl örnəklərdir.

Zülfü Adıgözəlov 1963-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Cəvahir. Zülfü Adıgözəlov anıldı [Mətn] /Cəvahir //Mərkəz.- 2009.- 4 iyun.- S. 11.

Əliağaqızı, X. Adıgözəlovlar və Azərbaycan musiqi mədəniyyəti [Mətn] /X.Əliağaqızı //Xalq qəzeti.- 2012.- 11 avqust.- S.7.

İbişova, R. Zülfü Adıgözəlov və xanəndəlik məktəbi [Mətn] /R.İbişova //Paritet.- 2009.- 12-13 mart.- S.12.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

www.karabakh.az

75 illiyi

Kamal Xudaverdiyev 1938-2008

Aktyor



Kamal Ağahüseyn oğlu Xudaverdiyev 1938-ci ildə may ayının 3-də Bakıda doğulmuşdur.

Aktyorluq sənətinə 21 yaşından maraq göstərmiş və Bakıda müxtəlif dram dərnəklərinə getmişdir. 1961-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuş, qüdrətli sənətkarlar Ədil İsgəndərov, Mehdi Məmmədov və Rza Təhmasibdən ixtisas təhsili almışdır.

1965-ci ildə ali təhsilini başa vuran Kamal Xudaverdiyev Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun təklifi ilə oktyabr ayının 1-də truppaya ştata götürülmüş, müəyyən qısa fasiləni çıxmaqla yalnız Akademik Milli Dram Teatrında işləmişdir. Aktyor teatrdan əlavə Azərbaycan Dövlət Televiziyasında da hazırlanan tamaşalarda çoxlu obrazlar ifa etmişdir. Bu baxımdan onun İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (İldırım), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Cavanşir bəy), Mehdi Hüseynin "Alov" (Qaşqay), Əlibala Hacızadənin "Yadigar" (Müəllim), Nazim Hikmətin "Bayramın son günü" (Firuz) və "Şöhrət və ya unudulan adam" (Doktor), Elçin Mehrəliyevin "Yurd yeri" (Mahal kişi) televiziya tamaşalarında oynadığı rollar bədii cəhətdən daha bitkindir. Müxtəlif illərdə "Azərbaycanfilm" kinostudiyasında "İstintaq davam edir" (Çingizov), "Sonuncu müsahibə" (Həsənov), "Dağlarda döyüş" (Rüstəmov), "Nəsimi" (Yusif), "Abşeron" (Əli), "Üzü küləyə" (Kombinat müdiri), "Adanı özünlə apara bilməzsən" (Ata), "Oteldə bir otaq" (Alim), "Dədə Qorqud" (Ata) filmlərində xaraktercə fərqli obrazlara çəkilmişdir. Kamal Xudaverdiyev aktyor kimi geniş mənada lirik psixoloji üslublu məktəbin nümayəndəsi olmuşdur. Ən parlaq rollarını məhz həmin janrlı əsərlərin tamaşalarında qazanmışdır. Bununla belə, romantik ruhlu tamaşalarda, komediyalarda da rollar oynamışdır.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev teatr və kino yaradıcılığındakı səmərəli fəaliyyətinə, qazandığı nailiyyətlərə görə 1982-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1991-ci ildə "Xalq artisti" fəxri adları ilə təltif olunmuş, Prezident təqaüdçüsü olmuşdur. 1991-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs demişdir.

Görkəmli aktyor 2008-ci il aprel ayının 23-də ürək çatışmazlığı səbəbindən vəfat etmişdir.

Ədəbiyyat

Xəlilzadə, F. Bir görüşün xatirəsi: Kamal Xudaverdiyev haqqında [Mətn] /F.Xəlilzadə //Mədəniyyət qəzeti.-2011.- 1 aprel.-S.3.

Kamal Xudaverdiyev dünyasını dəyişdi [Mətn] //Səs.- 2008.- 24 aprel.- S.12.

Rəhimli, İ. Kamal Xudaverdiyev (3 may 1938) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.231.

Samirə. Kamal Xudaverdiyev anıldı [Mətn] /Samirə //Həftə içi.- 2009.- 14 aprel.- S.7.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kinozal.az

www.mct.gov.az

95 illiyi

Mehdi Məmmədov 1918-1985

Teatrşünas



Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il may ayının 22-də Şuşada anadan olmuşdur. Orta təhsilini Bakıda almış, yeddinci sinifdən Bakı Türk İşçi Teatrının tamaşalarında kütləvi səhnələrə çıxan Mehdi Məmmədov 1935-ci ildə Bakı Teatr Məktəbini bitirmişdir.

1935-ci ildə Moskvada ali rejissor təhsili almağa getmiş,1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlamışdır. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləyərək sentyabrda Bakıya gəlmişdir. Müxtəlif sənət ocaqlarında əsasən monumental səpgili tamaşalar hazırlamışdır.

1942-1946-cı illərdə Gəncə Dövlət Dram Teatrında, 1960-1963-cü illərdə Milli Dram Teatrında, 1956-1960-cı illərdə Opera və Balet teatrında, 1977-1982-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor kürsüsünü tutmuşdu. Sıravi quruluşçu rejissor kimi ən çox Milli teatrda quruluşlar vermişdir. Milli Dram Teatrında ilk işi 1946-cı ildə Şekspirin "On ikinci gecə" komediyasının tamaşası olmuşdur. Müəyyən fasilələrlə bu sənət ocağında Cəfər Cabbarlının "Yaşar" (1947), Aleksandr Fadeyevin "Gənc qvardiya" (1948), Sabit Rəhmanın "Aydınlıq" (1949), "Əliqulu evlənir" (1961), Lope de Veqanın "Rəqs müəllimi" (1949), Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" (1950), Məmmədhüseyn Təhmasibin "Çiçəklənən arzular" (1951) və s. əsərlərinə müxtəlif janrlarda səhnə həyatı vermişdir.

1946-cı ildən ömrünün sonunadək Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs demiş, kafedra müdiri olmuşdur.

"Azərbaycanfilm"in 1959-cu ildə istehsal etdiyi "Onu bağışlamaq olarmı?" filmində Qaya roluna çəkilmişdir. Radio teatrında Şekspirin "Hamlet" faciəsində baş rolu səsləndirmişdir.

1968-ci ildə "Azəri drammaturgiyasının estetik problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru Mehdi Məmmədov "Azəri drammaturgiyasının estetik problemləri", "Teatr düşüncələri", "Teatrlar. Aktyorlar. Tamaşalar", "Hüseyn Ərəblinski", "Onun sənət ulduzu", "Moskva Akademik Bədaye Teatrı" "Aleksandr Tuqanov" (rusca), "Rejissor sənəti", "Sabit Rəhman" və digər kitabların müəllifidir.

Sənətdə qazandığı uğurlara görə Mehdi Məmmədov 1949-cu ildə "Respublikanın Əməkdar incəsənət xadimi", 1958-ci ildə "Xalq artisti" və 1974-cü ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Akademik teatrda hazırladığı Hüseyn Cavidin "İblis" faciəsinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı ilə təltif olunmuşdur.

Mehdi Məmmədov1985-ci il yanvar ayının 28-də qəflətən vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur.

Mehdi Məmmədovun 80 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti 14 iyun 1998-ci il tarixində Sərəncam imzalamışdır.

Ədəbiyyat

Cəfərov, R. Rejissurada və sənət baxışlarında fəlsəfi təfəkkür: (Görkəmli səhnə və elm xadimi Mehdi Məmmədovun fəaliyyətində tədqiq edilir) [Mətn] /R.Cəfərov; Azərb. Döv. Mədəniyyət və İncəsənət Un-ti.- Bakı, 2002.- 159 s.

Talıbzadə, A. Mehdi müəmması və ya sənətdə konseptual hamletizm [Mətn] /A.Talıbzadə; elmi red. Ə.Vəliyev; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Elm və Təhsil, 2009.- 382 s.

İnternetdə

www.adam.az


www.anl.az

www.az.wikipedia.org

65 illiyi

Fuad Poladov 1948

Aktyor



Ədəbiyyat

Fuad Poladov 63 yaşında: Məşhur aktyor ad gününü çəkiliş meydanında keçirib [Mətn] //Şərq.- 2011.- 25 may.- S.14.

Quluzadə, Z. Hamlet... Fuad Poladov... Zaur... [Mətn] /Z.Quluzadə //525-ci qəzet .-2009.- 22 iyul. - S.7.

Rəhimli, İ. Fuad Poladov (24 may 1948) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.196.

Səlimqızı,C. Dünya teatr xadimləri Bakıda: Fuad Poladov: "Beynəlxalq Teatr Konfransının respublikanın birinci teatrında reallaşması yaradıcı insanların qarşısında böyük vəzifələr qoyur" [Mətn] /C.Səlimqızı //Mərkəz.- 2010.- 11 noyabr.- S. 9.

Süleymanova, A. Fenomenal aktyor - Fuad Poladov [Mətn] /A.Süleymanova //Kaspi.- 2011.- 2-4 iyul.- S.22.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

www.milli.az

Fuad Ağarəhim oğlu Poladov 1948-ci il may ayının 24-də Bakıda doğulmuşdur.

1967-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. Sənətə 1966-cı ildə "İstintaq davam edir" filmində çəkildiyi Səlim rolu ilə gəlmişdir.

Sənət müəllimi Tofiq Kazımovun dəvəti ilə tələbə ikən Akademik Milli Dram Teatrında hazırlanan İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" pyesinin tamaşasında Savalan rolunu oynamışdır. Premyerası 1969-cu il noyabr ayının 29-da göstərilən tamaşadan sonra Fuad Poladov teatrın aktyor truppasına daxil olmuşdur. İyirmi il bu kollektivdə işləyən sənətkar 1989-cu ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının aktyorudur.

Aktyor 1987-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Fuad Poladovun səhnədə yaratdığı bütün obrazların taleyi ifa baxımından uğurlu olmuşdur. Aktyorun yüksək sənətkarlıqla oynadığı Rəhman, Valeh, Qədim, Mübarək Səltənə ("Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Büllur sarayda" və "Şeyx Xiyabani"- İlyas Əfəndiyev), Cığatay ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Fərhad ("Məhəbbət əfsanəsi", Nazim Hikmət), Şahbaz bəy ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Şöklü Məlik ("Torpağa sancılan qılınc", Nəbi Xəzri), Zaur ("Təhminə və Zaur", Anar), Baron ("Həyatın dibində", Maksim Qorki) rolları yüksək bədii dəyərli səhnə surətləridir.

Teatrın dəvəti ilə Fuad Poladov 29 mart 2002-ci ildə Akademik Milli Dram teatrında Vilyam Şekspirin eyniadlı faciəsində Hamlet rolunu uğurla oynamış və buna görədə 2003-cü ildə "Qızıl Dərviş", "Qran-pri" mükafatı almışdır. O, səhnədə düşünməyi, düşüncələrini fəlsəfi dəyərlərlə çatdırmağı, ən adi obraza da psixoloji ahəng verməyi bacarmışdır.

Fuad Poladovun səhnə plastikası ifa etdiyi obrazın psixoloji və emosional duyğularına uyğun şəkildə dəyişir. Bu yaradıcılıq xüsusiyyətləri hər dəfə yeni ölçüdə və orijinal təqdimdə tamaşaçılara çatdırılır. Fuad Poladov obraza ictimai dəyər gətirməyi, ona psixoloji-sosial mahiyyət aşılamağı sevən və bunu yüksək peşəkarlıqla öz oyununda realizə edən aktyordur.

55 illiyi

Yusif Mirzəyev 1958-1993

Milli Qəhrəman



Yusif Vəli oğlu Mirzəyev 1958-ci il may ayının 23-də Babək rayonunda anadan olmuşdur.

1975-ci ildə İ.Səfərli adına 1 saylı məktəbi bitirmişdir. 1988-ci ildə Xalq Hərəkatına qoşulmuşdur.

1991-ci ildə könüllü olaraq cəbhəyə yollanmış, tez bir zamanda taborun ən adlı-sanlı döyüşçülərindən birinə çevrilmişdir. Yusif 14 nəfərlik dəstə ilə bütün əməliyyatlarda iştirak etmişdir. Döyüşlərin birində mühasirəyə düşən bölüyü itkisiz azad edə bilmişdi.

Yusif Mirzəyev 1993-cü il 19 fevral tarixində Ağdərədə gedən qanlı döyüşlərdə mühasirəyə düşmüş döyüşçüləri xilas edərkən qəhrəmancasına həlak olmuşdur. Ailəli idi, bir övladı var.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı Fərmanı ilə Mirzəyev Yusif Vəli oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Naxçıvan şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmiş, şəhərdə büstü qoyulmuşdur. Bakının Nəsimi rayonundakı 44 saylı məktəbə qəhrəmanımızın adı verilmiş, qarşısında büstü qoyulmuşdur.

Ədəbiyyat

Yusif Vəli oğlu Mirzəyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [briqada komandirinin müavini - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 mart 1993-cü il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- №6.- S.7.- (Ölümündən sonra).

Əsgərov, V. Mirzəyev Yusif Vəli oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.155.

Mirzəyev Yusif Vəli oğlu (1958-1993) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.149.

Seyidzadə, M. Mirzəyev Yusif Vəli oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.158.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az



90 illiyi

Heydər Əliyev 1923-2003

Ümummilli lider



Azərbaycan Respublikasının ümummilli lideri, bütün dünya türklərinin əvəzsiz şəxsiyyətlərindən biri, XX əsr dünya siyasətində xüsusi yeri olan, Azərbaycan dövlətinin yaradıcısı, müdrik siyasətçi və müdrik insan Heydər Əlirza oğlu Əliyevin bu gün 90 yaşı tamam olur.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almış, lakin başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini, birinci müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək sovet dövrü ierarxiyasına uyğun olaraq respublikanın rəhbəri olmuşdur.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.

Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini kimi fəaliyyət göstərmişdir. Görkəmli dövlət xadimi 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa etmişdir.

O, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz

əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyun ayında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxmışdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur olmuşdular. O, 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyul ayının 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdı.

1993-cü il oktyabr ayının 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdi. O, 1998-ci il oktyabr ayının 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabr ayının 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev dörd dəfə "Lenin ordeni", "Qırmızı Ulduz" ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə "Sosialist Əməyi Qəhrəmanı" adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuş, 27 mart 1997-ci ildə Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı "Yaroslav Mudrı" ordeni təqdim edilmiş, 1999-cu il aprel ayının 13-də o, Türkiyənin ən nüfuzlu mükafatı - "Atatürk Sülh Mükafatı"na layiq görülmüş, 2001-ci il yanvar ayının 20-də - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Universitetinin "Fəxri professoru" adı verilmiş, 2003-cü il aprel ayının 3-də Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüş, 2003-cü il may ayının 10-da Rusiyanın yüksək mükafatı - "Müqəddəs Apostol Andrey Pervozvannı" ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın böyük oğlu, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti, ulu öndər Heydər Əlirza oğlu Əliyev 2003-cü il dekabr ayının 12-də Amerikanın Ohayo ştatında Klivlend şəhərində vəfat etmiş, Azərbaycanda Fəxri Xiyabanda dəfn edilmişdir.

Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi. Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan, Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün gücü olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdən idi.

Təsadüfi deyildir ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü, obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətrafdakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır. Hətta dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevlə məsləhətləşdiklərini, ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər. Siyasətçilər bu dahi insanı "liderlərin lideri" adlandırırdılar.

Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa

da, Heydər Əliyevin böyük siyasət adamı olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmamışdır. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi. Dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı, ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır.

Ə d ə b i y y a t

Andriyanov, V. Heydər Əliyev [Mətn] /V.Andriyanov, H.Mirələmov.- Bakı: Nurlan, 2008.- 558 s.

Əliyev, H. Heydər Əliyev [Mətn]: Səhnəarxası görüşlər /H.Əliyev; red. M.Soltan; rəy.: F.Qasımzadə, T.Əfəndiyev, S.Kərimi; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı, 2008.- 102 s.

Heydər Əliyev [Mətn]: biblioqrafik məlumat kitabı /tərt. ed.: A.Xələfov, S.Sadıqova; red. A.Məhərrəmov.- Bakı: Bakı Universiteti, 2003.- 434 s.

Heydər Əliyev dünyanın gözü ilə [Mətn] /burax. məs. B.Sadıqov; tərt. E.Mirələm, R.Qaraxanlı; red. T.Tofiq qızı.- Bakı: Təhsil, 2003.- 148 s.

Mirələmov, H. Zəfər yolu [Mətn]: esse /H.Mirələmov.- Bakı: Cənclik, 2003.- 66 s. (Azərbaycan, rus və ingilis dillərində)

Şəkərəliyev A. Ümummilli lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan ulu öndər [Mətn]: (son dövrdə mətbuatda çap edilmiş məqalələr toplusu) /A.Şəkərəliyev; red.: M.Meybullayev.- Bakı: Naksuana, 2007.- 491 s.

Абдулла, А. Гейдар Алиев и национально-духовные ценности [Текст] /А.Абдулла.- Баку, 2007.- 108 стр. (с илюс.)

Гусейнова, И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру [Текст]: [монография] /И.Гусейно

Adil Abdullah Al-Falah. Heydar Aliyev and national-spiritual values.- B.: Gismet, 2007.- 108 p. ва; науч. ред. А.Гасанов; рец. Дж.Гулиев, Г.Байрамов, О.Султанов.- Баку: Тахсил, 2005.- 504 с.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev.org

www.ebooks.preslib.az

www.president.az

125 illiyi Əbdülhəmid bəy Qaytabaşı 1888-1920

Dövlət xadimi



Əbdülhəmid bəy Şərif bəy oğlu Qaytabaşı 1888-ci il may ayının 21-də anadan olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 1918-ci il 15 noyabr tarixli əmri ilə Ümumi qərargahın tərkibindəki növbətçi general vəzifəsinə təyin olunmuşdu. Onun tabeliyində müfəttişlər bölməsi, təmir və bərpa bölməsi, ümumi bölmə, qeyri-nizami bölmə və nəşriyyat var idi.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər şurasının 1919-cu il 25 iyun tarixli qərarı ilə Qaytabaşı general-mayor rütbəsinə layiq görülmüşdü. 1919-cu il dekabr ayının 10-da general-mayor Həbib bəy Səlimov Bakı istehkamçılar hissəsinin rəisi təyin edilərkən, ümumi qərargah rəisi vəzifəsinin müvəqqəti icrası Qaytabaşıya həvalə olunmuşdu. O, bu vəzifəni Azərbaycan ordusunun qərargahı yaradılana qədər icra etmişdir.

1920-ci il mart ayının 1-dən fəaliyyətə başlayan Azərbaycan ordusu qərargahında Qaytabaşı növbətçi generalın idarəsinə rəhbərlik edirdi. Hərbi nazirlikdə struktur dəyişikliklərindən sonra ümumi bölmə, təftiş bölməsi, pensiya bölməsi və nəşriyyat işləri bu idarəyə verilmişdi.

1920-ci il aprel işğalından sonra Qaytabaşı qısa müddət Azərbaycan ordusu qərargahının rəisi vəzifəsini icra etmişdi. Lakin Azərbaycanda sovet-bolşevik rejiminə qarşı müqavimət hərəkatı genişləndikdə, bir çox cümhuriyyət generalları kimi, Qaytabaşı da bolşeviklər tərəfindən repressiyaya məruz qalmış və 1920-ci il iyun ayının 28-də güllələnmişdir.

Ə d ə b i y y a t

Qaytabaşı Əbdülhəmid bəy Şərif bəy oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: iki cilddə.-Bakı, 2005.- C.2.- S.143.

Nəzirli, Ş. General-mayor Əbdülhəmid bəy Şərifbəy oğlu Qaytabaşı [Mətn] //Ş.Nəzirli. Cümhuriyyət generalları.- Bakı, 1995.- S.178.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

65 illiyi

Fatma Abdullazadə 1948

İctimai-siyasi xadim



Fatma Hüseyn qızı Abdullazadə 1948-ci il may ayının 28-də Bakı şəhərində anadan olmuşdur.

O, 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1971-1974-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinda aspiranturada təhsil almış, 1981-ci ildə görkəmli riyaziyyatçı, fizika riyaziyyat elmləri doktoru R.A.Minlosun rəhbərliyi altında namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

Əmək fəaliyyətinə 1971-ci ildə Bakı Dövlət Universitetində baş laborant vəzifəsində çalışmaqla başlamışdır.

1974-cü ildən Azərbaycan EA Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, 1985-ci ildən Azərbaycan EA partiya komitəsinin katibi, Azərbaycabn KP MK elm və tədris müəssisələri şöbəsi müdirinin müavini, 1988-ci ildən Azərbaycan Neft Akademiyasında professor vəzifələrində işləmişdir.

1988-ci ildə Moskva Aviasiya Akademiyasında müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi adı almışdır.

Alimin müasir riyaziyyatla bağlı araşdırmaları respublikamızda və xarici ölkələrdə nəşr olunmuşdur. Bir sıra elmi əsərlərin, metodik vəsaitlərin müəllifi və redaktorudur. Din, mədəniyyət və mənəviyyat problemlərinə həsr edilmiş bir neçə tədqiqat əsəri nəşr edilmişdir.

Fatma Abdullazadə 1993-cü ildən indiyədək Azərbaycan Respublikası Prezidenti Administrasiyası Humanitar siyasət şöbəsinin müdiri vəzifəsində çalışır.

1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 2 iyun tarixli Sərəncamı ilə Fatma xanım Abdullazadə dövlət qulluğundakı səmərəli fəliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası 1991-2001 [Mətn] /F.Abdullazadə; red. R.Mehdiyev.- Bakı: XXI-Yeni nəşrlər Evi, 2001.- 358 s.

Heydər Əliyev [Mətn]: siyasi portret /F.Abdullazadə; rəssam N.Əliyeva.- Bakı: XXI nəşriyyatı, 1998.- 115 s.

F.H.Abdullazadənin "Şöhrət" ordeni il təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; 2 iyun 2008-ci il //Azərbaycan. - 2008.- 3 iyun. - S. 3.

Abdullazadə Fatma Hüseyn qızı //Azərbaycanda kim kimdir?: ensiklopedik sorğu kitabı.- Bakı:, 2010.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.csl-az.com

75
illiyi

Ataxan Paşayev
1938

Tarixçi



Ataxan Əvəz oğlu Paşayev 1938-ci il may ayının 1-də Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Başkənd kəndində anadan olmuşdur. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə 1962-ci ildə Oktyabr İnqilabı və Sosialist quruculuğu Mərkəzi Dövlət Arxivində (indiki Milli Arxiv İdarəsi) böyük elmi işçi kimi başlamışdır.

1963-1965-ci illərdə Arxiv İdarəsinin baş metodisti, 1966-1982-ci illərdə Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru, 1982-1984-cü illərdə Azərbaycan Dövlət Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) baş müəllimi işləmişdir. 1984-cü ildən bu günə qədər Milli Arxiv İdarəsinin rəisidir.

1981-ci ildə Tarix İnstitutunun İxtisaslaşdırılmış Müdafiə Şurasında dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 2008-ci ildə isə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Müdafiə Şurasında "XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

1968-ci ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmiş, 1981-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

1984-cü ildən "Azərbaycan arxivi" jurnalının baş redaktorudur.

Beynəlxalq Arxivlər Şurasının 7-ci (1972, Moskva), 13-cü (1996, Pekin) və 14-cü (2000, Sevilya) və Vyana (2004) konqreslərinin nümayəndəsi olmuş və bu konqreslərdə Beynəlxalq Arxivlər Şurası Baş Assambleyasının üzvü seçilmişdir.

Keçmiş SSRİ, Müstəqil Dövlətlər Birliyi, habelə, Türkiyə Cümhuriyyəti arxiv orqanlarının, tarix qurumlarının keçirdiyi elmi konfranslarda və simpoziumlarda Azərbaycan Respublikasını təmsil edərək, dəfələrlə elmi məruzələrlə çıxış etmişdir.

Hazırda Milli Arxiv İdarəsinin rəisidir.

Ə d ə b i y y a t

Açılmamış səhifələrin izi ilə [Mətn] /A.Paşayev.- Bakı: Azərbaycan, 2001.- 536 s.

Cümhuriyyət parlamentinə gedən yol [Mətn] /A.Paşayev.- Bakı: Adiloğlu, 2005.- 88 s.

XIX-XX əsərlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar [Mətn]: (arxiv sənəd və materialları əsasında) /A.Paşayev; AMEA, A.A.Bakıxanov ad. Tarix İn-tu.- Bakı, 2007.- 367 s.

Köçürülmə [Mətn] /A.Paşayev; red. T.Cahangir; rəssam E.Lazımov.- Bakı: Azərnəşr, 1995.- 40 s.

"Molla Nəsrəddin": dostları, düşmənləri [Mətn] /A.Paşayev.- Bakı: Çaşıoğlu, 2010.- 146 s.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.medeniyyet.az

www.milliarxiv.gov.az

150 illiyi

Rəşidbəy Əfəndiyev 1863-1942

Maarif xadimi, nasir



Rəşidbəy İsmayıl oğlu Əfəndiyev 1863-cü il may ayının 24-də anadan olmuşdur. Hələ XIX əsrin 80-ci illərində Qori müəllimlər seminariyasında oxuyarkən dram ilə maraqlanmış, ilk "Qan ocağı" pyesini yazıb məktəb səhnəsində tamaşaya qoymuşdur.

O, M.F.Axundzadədən sonra ilk dram yazanlardan sayılır. İlk əsərinin müvəffəqiyyətindən ruhlanan müəllif sonralar da ardıcıl olaraq bədii yaradıcılıqla məşğul olmuşdur. On il Qutqaşendə müəllimlik etdiyi, 8 il Tiflis idareyi-ruhaniyyəsində katib müavini vəzifəsində çalışdığı və nəhayət, 16 il Qori seminariyasında müəllim olduğu zamanlarda, heç vaxt yazıçılıqdan uzaqlaşmamış, xüsusilə təlim-tərbiyəyə aid səhnə əsərləri yazmağa səy etmişdir. Rəşid bəy Azərbaycanın məşhur və çalışqan müəllimlərindən olmuş, ömrünü məktəb, tərbiyə işinə, dərs kitablarının, uşaqların marağını oxşayan pyeslərin yaranmasına sərf etmişdir. Onun "Uşaq bağçası" adlı əlifba kitabı və "Bəsirətül-ətfal" adlı qiraət kitabı Azərbaycanda şöhrət qazanmış ilk dərs kitablarındandır. O, varlı ailədən olan qadının maddi köməyindən istifadə etməklə dəfələrlə İstanbula getmiş, dərs kitablarını min zəhmət ilə çap etdirmişdir.

Bununla yanaşı səhnə əsərləri yazmış, birinci növbədə məktəb səhnələrində qoyulmasını təşkil etmiş, hətta şəxsən artist kimi iştirak etmişdir. Rəşid bəyin "Qan ocağı"ndan başqa, "Saqqalın kəraməti", "Qonşu-qonşu olsa, kor qız ərə gedər", "Pul dəlisi", "Bir saç telin qiyməti", "Tiflis səfirləri", "Diş ağrısı", "Təbiətdə əhvaliməişət" adlı dramları vardır.

Rəşid bəy elmi, maarifi, məktəbi təbliğ edən bir sıra mənzumələr yazmış, rus klassiklərindən (Puşkin, Lermontov, Krılov) dərs kitablarına münasib parçalar seçib tərcümə etmişdir. Eləcə də farscadan Firdovsidən "Rüstəm və Söhrab" əhvalatını, Şillerdən "Cam" adlı mənzuməni tərcümə etmişdir. Rəşid bəy istər şeir tərcümələrində və istərsə müasir mövzularda yazdığı şeirlərində klassik şeir üslubu və yolu ilə getmişdir.

Görkəmli maarif xadimi, nasir Rəşidbəy Əfəndiyev 1942-ci il avqust ayının 31-də vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /R.Əfəndiyev; tərt. ed. A.Abdullayev; red. M.Adilov.- Bakı: Şərq-Qərb, 2006.-120 s.

Dram əsərləri [Mətn] /R.Əfəndiyev; topl. və tərt. ed. Ə.Abdullayev; red. C.Xəndan; S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti.- Bakı: Azərbaycan Universiteti, 1961.- 168 s.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.library.aliyev-heritage.org.az

www.muallim.edu.az

105 illiyi Murtuza Nağıyev 1908-1975

Akademik



Murtuza Fətulla oğlu Nağıyev 1908-ci il may ayının 5-də Aşqabadda doğulmuşdur. 1926-1929-cu illərdə Bakı Dövlət Universitetinin nəzdindəki fəhlə fakültəsinin tələbəsi olmuş, 1932-1935-ci illərdə isə Azərbaycan Sənaye İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) təhsilini davam etdirərək kimyaçı-texnoloq ixtisasına yiyələnmişdir.

1938-1942-ci illərdə Azərbaycan Sənaye İnstitutunun Neftzavod mexanikası kafedrasının dosenti olmuşdur. 1940-cı ildə namizədlik, 1944-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1945-ci ildə "Kimya texnologiyası" ixtisası üzrə professor adına layiq görülmüşdür.

1952-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir. Professor M.F.Nağıyev 1942-ci ildən ömrünün sonuna kimi akademiya sistemində işləmişdir. 1945-1946-cı illərdə AMEA-nın Neft İnstitutunda Neft emalı şöbəsinin müdiri, 1946-1956-cı illərdə isə həmin institutun direktoru və şöbə müdiri vəzifələrində işləmişdir.

1952-1957-ci illərdə AMEA-nın Fizika-Texnika bölməsinin akademik-katibi, 1957-1959-cu illərdə AMEA-nın vitse-prezidenti, 1961-1966-cı illərdə isə AMEA-nın baş elmi katibi olmuşdur. 1958-ci ildən ömrünün sonuna kimi keçmiş SSRİ Ali Təhsil Nazirliyi nəzdindəki Ali Attestasiya Komissiyasının üzvü olmuşdur. O, həmçinin keçmiş SSRİ-dəki Neft konqresinə dair Beynəlxalq komitənin (1962), Qarşılıqlı İqtisadi Yardım Şurası Kimya Komissiyasının (1960-1975) üzvü olmuşdur. Akademik M.F.Nağıyev elmi fəaliyyəti ilə yanaşı, pedaqoji işlə də daim məşğul olmuşdur. O, uzun müddət ASİ-nin Kimya texnologiyası fakültəsində krekinq proseslərinin texnologiyası fənnindən dərs demiş, 1959-1960-cı illərdə BDU-nun Fiziki-kimya kafedrasına rəhbərlik etmişdir.

Akademik M.F.Nağıyevin çoxşaxəli elmi-tədqiqat işlərinin nəticələri 30 fundamental monoqrafiyada, 300 elmi əsərdə və müəlliflik şəhadətnaməsində öz əksini tapmışdır. Onun rəhbərliyi ilə 3 elmlər doktoru, 30 elmlər namizədi hazırlanmışdır. Respublikada elmin inkişafına və elmi kadrların hazırlanmasındakı xidmətlərinə görə 1956-cı ildə "Azərbaycanın Əməkdar elm xadimi" adına layiq görülmüşdür.

Onun elm qarşısındakı əməyi dövlət tərəfindən qiymətləndirilərək, 1969-cu ildə ən yüksək mükafata - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. O, həmçinin Lenin, Qırmızı Əmək Bayrağı ordenləri ilə və bir sıra medallarla, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

M.F.Nağıyev 1975-ci il yanvar ayının 28-də uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Akademik M.F.Nağıyevin adını əbədiləşdirmək məqsədilə yaratdığı və rəhbərlik etdiyi AMEA-nın Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutuna 1991-ci ildə onun adı verilmişdir.

Ədəbiyyat

Nağıyev Murtuza Fətulla oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1983.-C.7.-S.145.

Akademik Murtuza Nağıyev: Həyat yolu - "fəlsəfə daşı"nın axatarışında [Mətn]: anadan olmasının yüz illiyinə /tərt.: Z.Zaytseva, T.Nağıyev; məsul red. E.Məmmədova; AMEA, akad. M.F.Nağıyev adına Kimya Problemləri İnstitutu.- Bakı: Elm, 2008.- 640 s.

M.F.Nağıyev [Mətn]: biblioqrafiya /AzSSR EA, Əsaslı Kitabxana; tərt. ed. A.Həmidov, S.Əliyeva; red.: M.Hüseynov, A.Rəhimova, M.Həsənova.- Bakı: AzSSR EA, 1968.- 142 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.net

Texnika

100 illiyi

Çingiz Cuvarlı 1913-2000

Akademik



Çingiz Mehdi oğlu Cuvarlı 1913-cü il may ayının 1-də Gəncədə ziyalı ailəsində doğulmuşdur.

1922-1931-ci illərdə orta məktəbdə təhsil almış, 1931-1936-cı illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) energetika fakültəsində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1936-1938-ci illərdə Mərkəzi istehsalat-tədqiqat laboratoriyasının və "Azenerji"nin mühəndisi kimi başlamışdır. Sonralar 1938-1939-cu illərdə yüksək gərginlikli elektrik ötürücü xətləri tikintisi üzrə iş icraçısı, 1939-1941-ci illərdə Bakı şəhər elektrik şəbəkəsinin baş mühəndisi, 1941-1942-ci illərdə L.Şmidt adına zavodun xüsusi laboratoriyasının baş mühəndisi, 1936-1942-ci illərdə Azərbaycan sənaye institutunun müəllimi və elmi işçisi, 1942-1946-cı illər Kirovabad (indiki Gəncə) elektrik şəbəkəsinin direktoru və baş mühəndisi, 1944-1947-ci illər Azərbaycan EA-nın Kirovabad elmi-tədqiqat bazasında baş elmi işçi vəzifələrində çalışmışdır. Ç.Cuvarlı 1941-ci ildə texnika elmləri namizədi, 1950-ci ildə texnika elmləri doktoru (Moskva) elmi adını almışdır.

Azərbaycan elektrofizika məktəbinin banisi, dünya energetika elminin tanınmış simalarından olan Çingiz Mehdi oğlu Cuvarlı bir sıra mükafatlarla, orden və medallarla təltif edilmişdir. 1945-ci ildə "Böyük Vətən müharibəsi illərindəki rəşadətli əməyə görə" medalını almış, 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı,1980-ci ildə SSRİ-nin Fəxri energetiki, 1982-ci ildə "Azərbaycan SSR Əməkdar elm xadimi", 1985-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, 1994-cü ildə Akademik Y.H.Məmmədəliyev adına mükafatın laureatı olmuş, Beynəlxalq Energetika Akademiyasının Qızıl medalına layiq görülmüş, 1998-ci ildə "Fəxri Ziyalı" diplomu ilə təltif olunmuşdur.

O, 1954-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) professoru, 1959-1960-cı illərdə Azərbaycan EA-nın müxbir üzvü, 1960-1962-ci ildə Azərbaycan EA Energetika İnstitutunun direktoru, 1961-1998-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının professoru, 1962-1985-ci illərdə Azərbaycan EA Fizika İnstitutunun Fizika və yüksək gərginliklər texnikası laboratoriyasının rəhbəri olmuşdur. Onun 87 illik ömrünün 67 ili Azərbaycan energetika elminin inkişafına, xalqın tərəqqisinə sərf olunmuşdur.

Görkəmli alim Çingiz Cuvarlı 2000-ci ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Elektrik enerjisi necə hasil edilir və ötürülür [Mətn] /Ç.Cuvarlı; red. Y.Qədimov; Azərbaycan SSR Elmlər Akademiyası, Fizika İnstitutu.- Bakı: Elm, 1974.- 6 s.

Elektrik sahələri və boşalmalarından texnoloji proseslərdə istifadə edilməsi [Mətn] /Ç.Cuvarlı; red. H.Abdullayev; Azərbaycan SSR EA, Fizika İnstitu.- Bakı: Elm, 1976.- 67 s.

Günəş və külək enerjisi, onun çevrilməsi və istifadəsi [Mətn] /Ç.Cuvarlı, V.Yesman; Azərb. SSR "Bilik" Cəmiyyəti.- Bakı: Gənclik, 1974.- 45 s.

Təbabətin elektron qurğuları və cihazları [Mətn] /Ç.Cuvarlı; ön söz müəl. və red. M.Topçubaşov; Azərb. SSR Səhiyyə Nazirliyi, Respublika Sanitariya Maarifi Evi.- Bakı, 1973.- 64 s.

Çingizoğlu, Ə. Cuvarlı və cuvarlılar [Mətn] /Ə.Çingizoğlu, R.Mahmudov; elmi red. Ə.Məmmədov.- Bakı: Adiloğlu, 2012.- 264 s.

www.adam.az

MAY
18

80 illiyi

Əmin Əfəndiyev 1933

Biblioqraf



Ə d ə b i y y a t

Anar-ömür yolu. Yaradıcılığı [Mətn] : Bio-biblioqrafik soraq kitabı /Ə. Əfəndiyev, Z. Əliyeva ; red. G. Anarqızı.- Bakı :[OSKAR NPM], 2011.- 607 s.

Həmid Məmmədtağı oğlu Araslı [Mətn]: biblioqrafik göstərici /tərt. ed.: Ə.Əfəndiyev; red.: Z.Əliyeva.- Bakı, 2009.- 301 s.

İlyas Əfəndiyevin yaradıcılığı [Mətn] /Ə.Əfəndiyev; elmi red. B.Nəbiyev; AMEA Milli Münasibətlər İnstitutu Buraxılış məlumatları.- Bakı: Elm, 2000.- 310 s.

Qələmə sarılmış ömür [Mətn]: yazıçı İsmayıl Qarayevin həyat və yaradıcılığı /Ə.Əfəndiyev, Z. Əliyeva; naşir. Q. İsmayıloğlu.-Bakı : Çinar-Çap, 2008.- 217s.

M.F.Axundov-200 [Mətn] / AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu; tərt.: Ə.Əfəndiyev, Z.Əsgərli; elmi red. Z.Əsgərli; ixtisas red. S.İbrahimova.-Bakı: Çaşıoğlu, 2012.- 632 s.

İ n t e r n e t d ə

www.anl.az

www.elibrary.az

Əmin Tahir oğlu Əfəndiyev 1933-cü il may ayının 18-də Qax rayonunun İlisu kəndində müəllim ailəsində anadan olmuşdur.

1941-1951-ci illərdə Qax rayon orta məktəbində təhsil almışdır.

1957-ci ildə ADU-nun (indiki BDU) filologiya fakültəsinin kitabxanaçılıq bölməsini bitirdikdən sonra universitetin kitabxanasında çalışmış, 1958-1976-cı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında baş biblioqraf, şöbə müdiri, elmi işlər üzrə direktor müavini kimi fəaliyyət göstərmişdir.

1976-1978-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasında Mətbuat, xalq maarifi və pedaqogika elmi şöbəsində müdir, 1973-1984-cü illərdə Azərbaycan Dövlət İncəsənət Universitetində (keçmiş Mədəniyyət və İncəsənət İnstitutunda) dekan müavini və kafedra müdiri, Milli Münasibətlər İnstitutunda baş elmi işçi, 1997-ci ildə isə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsində çalışmışdır.

1972-ci ildən filologiya elmləri namizədi, Jurnalistlər Birliyinin üzvüdür.

Əmin Əfəndiyevin "Amerika ədəbiyyatı Azərbaycan dilində" adlı ilk biblioqrafik oçerki 1959-cu ildə dövri mətbuatda çap olunmuşdur.

10-dan çox kitabın, 150-dən artıq məqalənin müəllifi, bir sıra biblioqrafik vəsaitlərin, kitabların tərtibçisi və redaktorudur. "Azərbaycan" - 80: 1923 - 2003" (2004), "Kamal Talıbzadə" (2000), "Orucov qardaşlarının mətbəəsi" (1999), "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu. QƏXTMT (SMOMPK)" (1998), "İlyas Əfəndiyev" (2002), "Həmid Məmmədtağı oğlu Araslı" (2009), "Əsrin əsiri Anar" (2010), "Anar - ömür yolu, yaradıcılığı" biblioqrafik soraq kitabı (2011), "Qardaşları Anar haqqında" (2011) adlı biblioqrafik göstəricilər tərtib etmişdir.

Əmin Əfəndiyev Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının, Kitabxana Direktorları Şurasının, Avroasiya Kitabxanalar Assambleyasının, Türkdilli Dövlətlərin Kitabxanaları Assosiasiyasının, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının və s. təşkilatların həm üzvü, həm də fəal iştirakçısıdır.

Onun həm biblioqraf, həm ədəbiyyatşünas, həm jurnalist, həm də gözəl nitq mədəniyyəti olan intellektual səviyyəli bir pedaqoq kimi fəaliyyəti təqdirəlayiqdir.

• *Ünvan: Bakı şəhəri, Xaqani küç., 29*
• *Tel.: (+994 12) 493 40 03*
• *Fax: (+994 12) 498 08 22*
• *E-mail: contact@anl.az*
• *Sayt: http://www.anl.az*

90 illiyi Milli Kitabxana 1923

Azərbaycan Respublikasının ən böyük dövlət kitabsaxlayıcısı, milli mətbuatımızın və kitabiyyatımızın dövlət arxivinin yaradıcısı, ölkənin bütün kitabxanaları üçün elmi metodik mərkəz funksiyasını yerinə yetirən, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparıcı elmi mərkəz rolunu oynayan və nəhayət, Azərbaycan elminin inkişafında xüsusi xidməti olan elm məbədi və mənəviyyat xəzinəsinin bu gün 90 yaşı tamam olur.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının təsis edilməsi, ona "Azərbaycan SSR Mərkəzi Dövlət Kitabxanası" statusunun verilməsi mərasimi dövlət səviyyəsində məhz 23 may 1923-cü ildə olduğundan, bu tarix M.F.Axundov adına Milli Kitabxananın yaranması günü kimi qəbul edilmişdir. İlk dəfə Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin hazırkı binasının birinci mərtəbəsində yerləşmiş kitabxana, halhazırda yerləşdiyi binaya 1960-cı ildə köçmüşdür. Bakı səhərinin ən əhəmiyyətli mədəniyyət abidələrindən biri olan bu bina, görkəmli Azərbaycan memarı, akademik Mikayıl Hüseynov tərəfindən layihələndirilmiş və şəhərimizi bəzəyən unikal memarlıq incilərindən olmuşdur. 1939-cu ilin iyul ayında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə kitabxanaya görkəmli mütəfəkkir, realist dramaturgiyamızın banisi M.F.Axundovun adı verilmişdir. Kitabxana yaranarkən Elmi-texniki cəmiyyətin ona ianə etdiyi cəmi 5 min nüsxə ədəbiyyat fonduna malik olmuş, lakin tezliklə dövlətin ayırdığı vəsait hesabına fondunu sürətlə artırmağa başlamış, 1940-cı ildə 645 min nüsxəyə çatdırmışdı. İkinci Dünya müharibəsindən sonra M.F.Axundov adına kitabxananın fondu daha sürətlə artmağa başlamış və 1960-cı ildə 1 742 300 nüsxəyə çatmışdır. Halhazırda Milli Kitabxananın fondunda 5 milyon nüsxəyə yaxın müxtəlif sənəd toplanmışdır.

1998-ci ilin dekabr ayında Azərbaycan Milli Məclisi tərəfindən qəbul edilmiş və 1999-cu ilin martında ümummilli liderimiz, mədəniyyətimizin, elmimizin və mənəviyyatımızın inkişafında əvəzolunmaz xidmətləri olan mərhum Prezidentimiz Heydər Əliyevin fərmanı ilə qüvvəyə minmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu bütövlükdə kitabxana işinin inkişafında yeni bir mərhələ açmış və M.F.Axundov adına kitabxananın da inkişafında mühüm rol oynamışdır.

"Kitabxana işi haqqında" Qanuna müvafiq olaraq M.F.Axundov adına Dövlət Kitabxanasına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə "Milli Kitabxana" statusu verilmişdir. Bu status, kitabxananın qarşısına qoyulmuş vəzifələrin əhatəsini xeyli genişləndirmiş və ölkənin ictimai həyatında onun rolunu artırmışdır.

Bu gün Milli Kitabxana Azərbaycan, rus və digər dillərdə təxminən 700 adda qəzet, jurnal və digər dövri və ardı davam edən nəşrlər alır və oxucuların istifadəsinə verir. Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatın sayının artmasında ölkədə nəşr olunan bütün çap məhsullarından pulsuz məcburi nüsxələrin alınması və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə hər biri 25 min nüsxə tirajla çap olunan kitabların mühüm rolu olmuş və bu oxucuların sayının artmasına da müsbət təsir göstərmişdir. Milli Kitabxananın daimi oxucularının sayı hazırda 38 426 nəfərə, kitabxanaya gələnlərin sayı isə 226 min nəfərə çatmışdır.

Milli Kitabxana "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanunu ilə ona verilmiş

milli çap məhsullarının arxiv fondunun yaradılması və milli biblioqrafiya vəsaitlərinin tərtibi funksiyasını da müvəffəqiyyətlə yerinə yetirir. Artıq 2004-cü ildən başlayaraq kitabxana ölkə ərazisində nəşr olunan bütün çap məhsullarının dövlət qeydini aparır və il ərzində ölkədə nəşr olunan bütün materialları özündə əks etdirən "Birillik Azərbaycan kitabiyyatı"nı, 2006-cı ildən isə fonduna daxil olan yeni ədəbiyyatın cari biblioqrafik göstəricisi olan "Yeni kitablar" biblioqrafik vəsaitini hər rübdə bir dəfə nəşr edərək, həmin dövr ərzində Milli Kitabxananın fondlarına daxil olan bütün yeni ədəbiyyat haqqında informasiya verir.

Dövrün tələbinə uyğun olaraq Milli Kitabxananın veb saytı (www.anl.az), elektron kataloqu (http://ek.anl.az/), elektron kitabxanası (www.anl.az/el.php) yaradılmış və oxucuların istifadəsinə verilmişdir.

Milli Kitabxanada dünyanın ən böyük və zəngin kitabxanalarında tətbiq olunan VTLS-VİRTUA sistemi üzrə həyata keçirilən kitabxana proseslərinin avtomatlaşdırılması oxucu sorğularının virtual rejimdə ödənilməsinə və ödənilən arayışların tam şəkildə məlumat bazasında saxlanmasına şərait yaradır və onların təkrar istifadəsinə imkan verir.

2008-ci ilin mart ayından Milli Kitabxanada oxuculara virtual kitab sifarişi imkanı da yaradılmışdır. 2011-ci ilin məlumatına görə virtual sifarişin xidmətlərindən 1687 nəfər oxucu yüzlərlə kitab sifariş etmişdir.

Müəllif hüquqlarının qorunması qanunlarını rəhbər tutaraq kitabların mühafizəsini təmin etmək, informasiya qıtlığını aradan qaldırmaq məqsədi ilə Milli Kitabxananın fondunda olan nəşrlərin qədim və nadir ədəbiyyat nümunələrinin, müasir ədəbiyyat nümunələrinin və klassiklərimizin ölkəmizdə və ya xaricdə nəşr olunmuş əsərlərinin rus və ingilis dilində nəşrlərinin, kitabxanamızın nəşrlərinin və müəlliflərin öz ərizələri ilə birgə elektron daşıyıcılarda təqdim etdikləri kitabların əsasında işlənilib hazırlanan elektron resursları saytımızın (anl.az) Elektron Kitabxanasında yerləşdirilmişdir. 2006-2012-ci illərdə Elektron Kitabxanada cəmi 35 552 resurs olmuşdur.

Saytımızda yerləşən "Heydər Əliyev irsi", "Zərifə xanım Əliyeva", "Mir Cəlal Paşayev irsi", "Mehriban xanım Əliyeva", "Fikrət Əmirov", "Bunları unutmaq olmaz", "Qan yaddaşımız", "Dağlıq Qarabağ müharibəsi", "Xocalı", "31 Mart", "Abuzər Xələfov", "Nəsir İmanquliyev", "Nizami Gəncəvi", "M.Ə.Sabir", "M.F.Axundzadə", "Nəriman Həsənzadə", "Qara Qarayev", "Üzeyir Hacıbəyli" və başqa elektron məlumat bazaları bu gün oxucularımız üçün dəyərli mənbələrdir.

Elektron resursların yaradılması istiqamətində atılan daha bir addım dövri mətbuat nümunələrinin tam komplektlərinin elektron versiyasını yaratmaqdan ibarətdir. Artıq bu istiqamətdə xeyli işlər görülmüş "Azərbaycan", "Ədəbiyyat", "Kaspi", "İrşad", "Açıq söz", "Həqiqət", "Sədayi həqq", "Doğru söz", "Bəsirət", "Ziyayi Qafqaziyə", "Əkinçi" qəzetlərinin, "Dəbistan", "İnqilab və mədəniyyət", "Məzəli", "Şəlalə" jurnallarının, "Zaqafqaziya Komissiyasının Aktları" və "Kavkazskiy kalendar" məcmuələrinin tam komplektlərinin elektron versiyası yaradılmış və kitabxananın lokal şəbəkəsinə yerləşdirilərək oxucuların istifadəsinə təqdim edilmişdir.

2008-ci ilin sentyabr ayından etibarən Milli Kitabxananın "Elektron Dissertasiya Fondunun təşkili və Ondan İstifadə Şöbəsi"ndə Rusiya Dövlət Kitabxanasının Elektron Dissertasiya fondunun virtual oxu zalı açılmışdır. Artıq bu gün kitabxanamızın oxucuları və eləcə də dünya miqyasında Azərbaycanla maraqlanan bütün insanlar Milli Kitabxananın saytı və elektron kataloqu vasitəsilə zaman və məkan problemi olmadan kitabxanamızın kataloq və fondlarına daxil olaraq ondan sərbəst bəhrələnə bilirlər. Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində də əsaslı işlər görülmüş, 2011-ci ilin məlumatına görə fondunda olan 3610 tammətnli elektron resursdan 1048 nüsxəsi avtoreferat, 2562 nüsxəsi isə dissertasiyadır.

Milli Kitabxanada 2009-cu ildən fonoteka fondunun qrammafon vallarının CD-yə köçürülməsi işinə başlanmışdır. Hazırda 3000-dən çox qrammafon valı CD-yə köçürülmüşdür ki, bu işdə milli musiqimizə xüsusi yer verilmişdir. Artıq "Azərbaycanın səs xəzinəsi" seriyasından bu materialların kataloqunun birinci buraxılışı çap olunaraq kitabxanalara, musiqi və incəsənət məktəblərinə göndərilmişdir.

Milli Kitabxana hər il kitabxana işinin bu və

ya başqa məsələlərinə dair xeyli miqdarda metodik vəsaitlər nəşr edir və region kitabxanalarına göndərir. "Kitabxana işinə dair normativ aktlar", "İkiraqəmli müəllif işarəsi cədvəlləri"ni, "Millimənəvi dəyərlərin təbliğində kitabxanaların rolu", "Sənədlərin biblioqrafik təsvir qaydaları haqqında (7.1-2003 Dövlət standartı əsasında)", "Elektron məlumat bazalarının yaradılması və virtual xidmət", "Kitabxanalarda kütləvi tədbirlərin ənənəvi və yeni formaları", "M.F.Axundzadə irsinin kitabxanalarda təbliği", "Azərbaycan maarifinin yorulmaz çarçısı: Həsən bəy Zərdabi - 170" adlı metodik vəsaitləri xüsusilə qeyd etmək lazımdır. Milli Kitabxana tərəfindən nəşr edilən bütün vəsaitlərin tam mətnləri kitabxananın saytında "Kitabxanamızın nəşrləri" düyməsində yerləşdirilir.

Milli Kitabxana bütün idarə və sistemlərin kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə virtual rejimdə metodik xidmət göstərir. Belə ki, kitabxananın saytında "Metodik xidmət" (metodik@anl.az) və "Bizdən soruşun" (ask-me@anl.az) bölməsi yaradılmış və ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi, müxtəlif oxucular, istifadəçilər müxtəlif sorğularını Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə öz sorğularına cavab ala bilirlər.

Son dövrdə Milli Kitabxana tərəfindən bir sıra biblioqrafik vəsaitlər çap olunaraq ölkə kitabxanalarına və oxuculara təqdim olunmuşdur. Bunların içərisində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin I-X cildlərinin köməkçi göstəricisi", "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir [Mətn]: çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi: (qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" adlı biblioqrafik göstəricini, "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə çap olunan "Mir Cəlal", "Qara Qarayev", "Fikrət Əmirov", "Üzeyir Hacıbəyli", "Müslüm Maqomayev", "Nizami Gəncəvi", "M.F.Axundov", "M.Ə.Sabir", "Aşıq Ələsgər-190", "Azərbaycan Xalq Cümhuriyyəti-90" və b. fundamental biblioqrafik vəsaitlərini, "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" göstəricisini və s. qeyd etmək olar. Milli Kitabxananın beynəlxalq əlaqələr və beynəlxalq kitab mübadiləsi sahəsində fəaliyyəti də gündən-günə genişlənir. Bu gün kitabxanamız Avropa Milli Kitabxanaları Konqresi (CENL), Avrasiya Kitabxana Assambleyası (BAE), Türkdilli Ölkələrin Milli Kitabxana Direktorları Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatına Üzv Ölkələrin Milli Kitabxanaları Şurası, Avrasiya Kitabxanaçılar Birliyinin və s. üzvüdür. Mədəniyyət və Turizm naziri cənab Əbülfəs Qarayevin qayğısı və yaxından köməyi sayəsində Milli Kitabxana dünyanın 30-a yaxın Milli kitabxanası ilə müqavilə imzalamışdır.

Müstəqillik illərində Milli Kitabxananın beynəlxalq kitab mübadiləsi sahəsində fəaliyyəti istiqamətində də xeyli işlər görülmüşdür. Artıq 2012-ci ildə kitabxananın beynəlxalq kitab mübadiləsini həyata keçirdiyi xarici ölkə milli kitabxanalarının sayı 70-dən çox olmuş və həmin ildə dünya kitabxanalarına 5000 nüsxədən artıq kitab göndərilmiş, beynəlxalq kitab mübadiləsi yolu ilə alınan kitabların sayı isə 2000 nüsxəni keçmişdir.

Milli Kitabxananın fəaliyyəti daima Mədəniyyət və Turizm Nazirliyinin və dövlətin diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzası ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda Azərbaycan Milli Kitabxanasına ayrıca bölmə ayrılmışdır. Dövlət proqramına uyğun olaraq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində intensiv iş aparılır.


Ə d ə b i y y a t

Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi [Mətn] (1923-2008-ci illər) /K.Tahirov; elmi red. A.Xələfov.- Bakı: Ulu, 2009.- 218 s.

Tahirov, K. M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində [Mətn] /K.Tahirov //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti.- 2010.- №2.- S. 373-381.

Tahirov, K. M.F.Axundov adına Milli Kitabxananın beynəlxalq əlaqələri [Mətn] /K.Tahirov //Kitabxanaşünaslıq və İnformasiya.- 2011.- № 1.- S.32-40.

Şuşanın işğalı günü 1992



Ərazisi: 289 km²
Əhalisi: 31499
İşğal tarixi: 08.05.1992

Azərbaycanın dilbər guşəsi, musiqi və mədəniyyət ocağı olan Şuşa şəhəri dünyanın bəzi aparıcı dövlətlərinin məzlum xalq kimi tanıdıqları, əslində nəinki xalqımıza, bütün insanlığa qarşı terror siyasəti həyata keçirən məkrli ermənilər tərəfindən keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə işğal edilmişdir.

289 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24.900 nəfər əhali yaşayırdı. İşğal zamanı 480 nəfər insan qətlə yetirilmiş, 600 nəfər yaralanmış, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür.

Qeyd etmək lazımdır ki, Şuşaya hücumdan bir neçə saat öncə Tehranda İran Prezidentinin vasitəçiliyilə Ermənistan və Azərbaycan dövlət başçıları Qarabağ münaqişəsinin dinc yolla həllinə dair saziş imzalamışdı.

İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilmişdir. Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça muzeyinin filialı və Xalq Tətbiqi Sənəti muzeyi, Qarabağ Dövlət Tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ermənilər Azərbaycana məxsus olan bir çox abidənin məhv edilməsinə və ya onların ermənilşdirilməsinə nail olmuşlar. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıtmışlar.

Artıq Şuşanın işğalından 21 il ötür. Tezliklə qədim Azərbaycan torpağının işğaldan azad olunacağı günü arzulayır və Allahdan bütün şəhidlərə rəhmət diləyirik!

Ədəbiyyat

Şirinova, A. Şuşasız 19 il... : Şuşada 480 nəfər soydaşımız qətlə yetirilib, 600 nəfər yaralanıb, 22 min nəfər didərgin düşüb [Mətn] /A.Şirinova //Xalq cəbhəsi .-2011.- 7 may.- S.10.

Şuşa rayonu [Mətn] //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.23-48.

Uğur. Düşmən tapdağı altında qalan Şuşa: Bura Azərbaycan türklərinin sevimli şəhəri, yurd yeri olub, yenə də olacaq... [Mətn] /Uğur //Xalq cəbhəsi.- 2011.- 6 may.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.shusha-ih.gov.az

www.voanews.com

MAY

9

Tarixdə bu gün

Faşizm üzərində Qələbə Günü 1945



XX əsrdə İkinci Dünya müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli dövr olmuşdur. Almaniyada və İtaliyada yaranmış faşizm nəinki bu ölkələrin özünü və hətta bütün bəşəriyyəti təhlükə altına almışdı. İkinci Vətən müharibəsi illərində Azərbaycan xalqı həm cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və igidlik nümunələri göstərmişlər. Qısa bir müddətdə respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə dəstələri təşkil olunmuşdu. 1941-1945-ci illərdə 600 mindən çox Azərbaycan oğul və qızları cəbhəyə yollanmışdılar. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək mübariz yol keçmiş, 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri "Şərəf ordeni" ilə təltif olunmuşdur. 170 min Azərbaycan əsgər və zabitlər SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Ruslan Vəzirov, Adil Quliyev, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə; generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə bizim xalqın şərəfli tarixinə yeni sətirlər yazmışlar.

Az bir zamanda Bakı dövşən ordunun ən mühüm cəbbəxanasına (arsenal) çevrilmişdi. Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənəyemizi yanacaqla təmin etmişlər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə hava flotu (aviasiya) benzini almaq üçün yeni texnologiya yaradılmışdır. 1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox neft (23,5 milyon ton) istehsal olunmuşdu ki, bu da SSRİ-də istehsal olunan neftin 71.4%-ni təşkil etmişdir. Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəni 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları ilə təmin etmişlər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanılmasında Bakı nefti əsas amillərdən biri olmuşdur.

İkinci Dünya müharibəsində əldə edilən qələbə Azərbaycan xalqının fədakar, qəhrəman, cəsarətli olmasını bir daha bütün dünyaya sübut etmişdir.

Ədəbiyyat

Azərbaycan aviatorları Böyük Vətən müharibəsində [Mətn]: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. N.Nağıyeva; burax. məs. və ixtisas red. K.Tahırov; red. M.Vəliyeva.- Bakı, 2010.- 81 s.

Jelev, J. Faşizm [Mətn] /J.Jelev; tərc. ed. R.Ramizoğlu; red. T.Barxudayev; rəyçi İ.Pçelintseva; Bakı Slavyan Un-ti.- Bakı: BSU "Kitab aləmi", 2005.- 280 s.

Şahmirov, Ə. Faşizm üzərindəki qələbədə Azərbaycan nefti və kimya sənayesinin həlledici rolu [Mətn] /Ə.Şahmirov; elmi red.: S.Aslanov; rəyçi: F.Məmmədov, M.Salahov.- Bakı: Maarif, 1996.- 120 s.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

MAY

17

Tarixdə bu gün

Laçın rayonunun işğalı günü 1992



Ərazisi: 1835 km²
Əhalisi: 72 228
İşğal tarixi: 17.05.1992

Bu gün Azərbaycanın strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Laçın rayonunun işğalından 21 il keçir.

1992-ci il may ayının 17-18-də erməni işğalçıları rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıdaraq talan etmişdir. İşğal nəticəsində 63 min 341 Azərbaycan vətəndaşı öz yurdundan didərgin düşmüş, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Rayonda 8950 bina, o cümlədən 7 sənaye və tikinti müəssisəsi, 471 xidmət idarəsi, 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qalmışdır.

Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən mayın 18-də Laçını işğal etmişdir. Əhəmiyyətli geostrateji mövqeyə malik olan Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurmuşdur.

Təbii sərvətlərlə zəngin olan Laçın rayonunda Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar mövcud olmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayonun işğalı ilə bağlı yaydığı məlumatda bildirilmişdir ki, Laçın rayonu ərazisində ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü və digər təbii sərvətləri var.

Laçın rayonundakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da hal-hazırda işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü var. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri məskunlaşmışdır. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağ-keçisi (bezoar keçisi) 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda canavar, porsuq, dələ, qırqovul, kəklik qeydə alınmışdır.

İşğalçı dövlət beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq hazırda Laçında qanunsuz məskunlaşma aparır.

Bu gün hər bir azərbaycanlı Qarabağın işğal altından qurtulacağı günü gözləyir.

Qarabağa böyük qayıdışın olacağına hamımız inanırıq.

Ə d ə b i y y a t

Ağamirzə, T. Ermənilər həmişə Laçına yiyələnmək arzusunda olmuşlar [Mətn] /T.Ağamirzə // Vətən səsi.- 2011.- 13 may.- S.3.

Alıoğlu, S. Laçın Azərbaycanın əzəli və əbədi torpağıdır [Mətn] /S.Alıoğlu // Respublika.- 2011.-18 may.- S.7.

Cəbrayılov, R. Laçınlılar tezliklə yurda dönəcəklərinə inanırlar [Mətn] /R.Cəbrayılov //Xalq qəzeti.- 2011.- 18 may.- S.9.

Laçın rayonu [Mətn] // Qarabağ: yaddaş.-Bakı, 2010.- S.63-82.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.avciya.az

www.lachin-ih.gov.az

MAY

28

Tarixdə bu gün

95 illiyi — Respublika Günü 1918



1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradılmışdı. Bu respublika millətimizin tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur.

Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Demokratik Cümhuriyyət Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

1918-ci il may ayının 28-də Azərbaycan milli Şurası İstiqlaliyyət Bəyannaməsi ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Demokratik Cümhuriyyəti yarandığını elan etmişdi. Bu tarixi sənədə görə Azərbaycan qonşu xalqlar və dövlətlərlə dostluq münasibəti quracaqdı. Müstəqil Azərbaycan dövlətinin təşkil idarəsi xalq cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görməmiş və bütün vətəndaşların siyasi hüquqlarını təmin etmişdi.

Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı isə Fətəli Xan Xoyski seçilmişdi. 10 gün Milli Şura Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülmüş, yalnız 1918-ci ilin sentyabrında Türkiyə ordusunun rəhbərliyi ilə Bakı daşnak-rus qüvvələrindən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçmüşdü.

Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. 95 il bundan əvvəl ilk dəfə qadınlara seçim hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən Müstəqil Azərbaycan Cümhuriyyəti, o cümlədən milli ordu, milli pul, demokratlaşma, milli bank, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının tanınması, Azərbaycanın bütövlüyünü təmin etmək, iqtisadi islahatları həyata keçirmişdir.

Azərbaycan Demokratik Respublikasını rəsmi surətdə 1918-ci il iyun ayının 4-də tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur.

1918-ci il 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Demokratik Respublikasının bayrağı qırmızı rəngdə idi.

Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bilmişdi. Təəssüflər olsun ki, Müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalmış, müvəqqəti olaraq devrilmişdi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etmişdi. Bolşeviklər tərifindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilməmiş və M.Ə.Rəsulzadənin "BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ" şüarı öz əksini tapmış və nəhayət, 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etmişdir.

1990-cı ildən Respublika günü – dövlət müstəqilliyinin bərpa edilməsi günü dövlət bayramı kimi qeyd edilir.

Ə d ə b i y y a t

Qocayev, Ə. 28 may - Respublika Günü [Mətn] //Qocayev Ə. //Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.26-29.

www.anl.az

www.az.wikipedia.org

MAY

28

Tarixdə bu gün

95 illiyi

Azərbaycan Ali Məhkəməsi 1918

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid olan mülki (o cümlədən inzibati və iqtisadi mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil edilir, onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Azərbaycanın məhkəmə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Çoxəsrlik dövlətçilik ənənəsi olan Azərbaycan Respublikasının məhkəmə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə eyni gündə may ayının 28-də təsis edilmiş və Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur.

Görülən bütün zəruri tədbirlərdən sonra Nazirlər Şurasının qərarı ilə 01 oktyabr 1918-ci ildə Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi təsdiq edilmişdir. 16 mart 1919-cu ildə Bakı Dairə Məhkəməsinin binasında Azərbaycan Məhkəmə Palatasının rəsmi açılışı olmuş və o gündən etibarən palataya Bakı və Gəncə dairə məhkəmələrinin işləri daxil olmağa başlamışdır.

1920-ci il aprel ayının 27-28-də Azərbaycan Demokratik Respublikası Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildikdən sonra ədliyyə sistemində də köklü dəyişikliklər başlanmışdı. Azərbaycan İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə bütün ədliyyə sistemi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. Lakin 1930-cu ildə komissarlıq ləğv edilərək onun səlahiyyətləri aidiyyati üzrə Ali Məhkəməyə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir. 1933-cü ildə Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, Ədliyyə Komissarı eyni vaxtda Respublika Prokurorunun, onun müavini isə Ali Məhkəmə Sədrinin səlahiyyətini daşımışdır. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilərək onun səlahiyyətləri xeyli məhdudlaşdırılmışdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 dekabr 1959-cu il tarixli qərarı ilə Ədliyyə Nazirliyi növbəti dəfə ləğv edilmiş, məhkəmə orqanlarının bütün fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmişdir.

Ədliyyə Nazirliyinin yenidən yaradılması ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Belə ki, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş, bununla da Azərbaycanın ədliyyə tarixində yeni mərhələ başlanmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ötən dövr ərzində ölkənin məhkəmə sistemində əsaslı islahatlar aparılmışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl məhkəmə hüquq islahatı nəticəsində ölkənin bütün hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, qısa müddət ərzində yeni mütərəqqi qanunlar qəbul edilmiş, 3 pilləli yeni məhkəmə sistemi yaradılmışdır. Yeni məhkəmə sisteminin fəaliyyətə başlaması üçün hakimlərin şəffaf prosedur əsasında, beynəlxalq tələblərə uyğun test üsulu ilə imtahan və müsahibə ilə seçilməsi qərara alınmış, ölkə Prezidentinin yanında Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin göstərilən tələblər səviyyəsində seçilməsi təmin edilmişdir. Seçilmiş şəxslərin sırasından müxtəlif təbəqələrin nümayəndələri geniş təmsil olunmuş, nəticə etibarilə ölkədə müstəqil məhkəmə hakimiyyətinin yaradılması istiqamətində mühüm addım atılmışdır.

www.supremecourt.gov.az

1 iyun

Gün çıxır 06:12
Gün batır 21:24

30 iyun

Gün çıxır 06:13
Gün batır 21:35

İYUN



Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünün keçdiyi dövrdə doğulanlar çox ağıllı olub, hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

Ş.	1
B.	2
B.E.	3
Ç.A.	4
Ç.	5
C.A.	6
C.	7
Ş.	8
B.	**9**
B.E.	10
Ç.A.	11
Ç.	12
C.A.	13
C.	14
Ş.	15
B.	**16**
B.E.	17
Ç.A.	18
Ç.	19
C.A.	20
C.	21
Ş.	22
B.	**23**
B.E.	24
Ç.A.	25
Ç.	26
C.A.	27
C.	28
Ş.	29
B.	**30**

- *Uşaqların Beynəlxalq Müdafiə Günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin prezident Elçibəyin dəvəti ilə Bakıya gəlişi (09.06.1993)*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir (15.06.1993)*

90 il Heydər Əliyev 1923-2003



Ulu öndərimizin 1995-ci ildə Milli Kitabxanada "Vətənə, Dövlətə, Xalqa sədaqət andı" kitabının təqdimat mərasimində iştirakı kitabxananın həyatında böyük bir hadisəyə çevrilmişdir. Bu mərasimdə Azərbaycan xalqının ümummilli lideri, ulu öndərimiz Heydər Əliyev Milli Kitabxananın fəaliyyətini və orada çalışan insanların əməyini yüksək qiymətləndirmişdir: "Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Tədbirdən sonra ulu öndər Milli Kitabxananın fondunun xarici dillərdə ədəbiyyatla komplektləşdirilməsi üçün hər il əlavə 5 min ABŞ dolları vəsait ayrılması barədə göstəriş vermişdir.

İYUN

2013



Milli ədəbiyyat

Görkəmli şair İsmayılzadə Mikayıl Əbdülqədir oğlunun (Mikayıl Müşfiq) (05.06.1908-06.01.1938) anadan olmasının **105** illiyi 180
Şair, dramaturq Ağayev Tofiq Hüseynbala oğlunun (06.06.1933) anadan olmasının **80** illiyi
Şair Səfiyev Əli Vəkil oğlunun (10.06.1938) anadan olmasının **75** illiyi
Xalq yazıçısı, ssenarist Hüseynov İsa Mustafa oğlunun (İsa Muğanna) (12.06.1928) anadan olmasının **85** illiyi 181
Şair Əliyev Zülfüqar Mənsur oğlunun (Zülfüqar Qodmanlı) (15.06.1933-24.03.1998) anadan olmasının **80** illiyi
Dövlət mükafatı laureatı, şair, tənqidçi, ədəbiyyatşünas Qasımzadə Qasım Xansuvar oğlunun (23.06.1923-28.07.1993) anadan olmasının **90** illiyi
Xalq şairi Rəfibəyli Nigar Xudadat qızının (29.06.1913-09.07.1981) anadan olmasının **100** illiyi 182



Folklor

Aşıq Ömərov Alıxan Qurban (Aşıq Alıxan Qarayazılı) oğlunun (25.06.1908-14.07.1998) anadan olmasının **105** illiyi



Dünya ədəbiyyatı

İspan şairi, dramaturq Qarsia Lorkanın (05.06.1898-19.08.1936) anadan olmasının **115** illiyi
Alman yazıçısı Remark Erix Mariyanın (22.06.1898-25.09.1970) anadan olmasının **115** illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Rəssamlıq təhsili almış ilk azərbaycanlı qadın Kaşıyeva Qeysər Seyfulla qızının (07.06.1893-17.04.1972) anadan olmasının **120** illiyi 183
Fransız rəssamı Qogen Pol Ejen Anrinin (07.06.1848-08.05.1903) anadan olmasının **165** illiyi
Əməkdar memar Salamova Avrora Əbdüləziz qızının (19.06.1933-

1986) anadan olmasının **80** illiyi



Musiqi.Opera.Balet

Xanəndə Abdullayev Vahid Əli oğlunun (01.06.1948-08.01.2001) anadan olmasının **65** illiyi
Əməkdar artist, opera müğənnisi Terequlova Aliyə Ramazan qızının (14.06.1913-23.03.1968) anadan olmasının **100** illiyi
Norveç klassik musiqisinin banisi, bəstəkar, pianoçu, dirijor Qriq Edvardın (15.06.1843-04.09.1907) anadan olmasının **170** illiyi
Xalq artist, bəstəkar Xanməmmədov Hacı Dadaş oğlunun (15.06.1918-07.04.2005) anadan olmasının **95** illiyi 184
Xalq artisti, xanəndə Qasımov Tələt Məmmədağa oğlunun (21.06.1933) anadan olmasının **80** illiyi 185



Teatr.Kino

SSRİ Xalq artisti, M.F.Axundov adına Respublika mükafatı laureatı, aktrisa Qurbanova Hökümə Abbasəli qızının (11.06.1913-02.11.1988) anadan olmasının **100** illiyi 186
Xalq artisti, kinodramaturq və rejissor Mirqasımov Oqtay Mir Əsədulla oğlunun (12.06.1943) anadan olmasının **70** illiyi 187
Xalq artisti, teatr xadimi, aktyor Abbasov Hacıağa Mütəllib oğlunun (16.06.1888- 07.05.1975) anadan olmasının **125** illiyi 188
Xalq artisti, aktyor Qurbanov Əli Mirzəli oğlunun (20.06.1898-04.10.1962) anadan olmasının **115** illiyi 189

Milli Qəhrəmanlar



Azərbaycanın Milli Qəhrəmanı Rəhimov Cavanşir İzzət oğlunun (05.06.1973-06.08.1992) anadan olmasının **40** illiyi 190
Azərbaycanın Milli Qəhrəmanı Axundov Səfa Fətulla oğlunun (19.06.1958-28.01.1992) anadan olmasının **55** illiyi 191
Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Əlif Lətif oğlunun (24.06.1953-26.02.1992) anadan olmasının **60** illiyi 192
Azərbaycanın Milli Qəhrəmanı Muradov Ruslan Həmid oğlunun (27.06.1973-22.08.1992) anadan olmasının **40** illiyi 193



Siyasət.Hərbi iş

Hərbi və siyasi xadim Fətəlibəyli Düdənginski Əbdürrəhman bəy Əli bəy oğlunun (12.06.1908-20.11.1954) anadan olmasının **105** illiyi 194
Akademik, tanınmış alim və ictimai xadim İsmayılov Tofiq Kazım oğlunun (21.06.1933-20.11.1991) anadan olmasının **80** illiyi 195
Görkəmli ictimai-siyasi xadim, şərqşünas-tarixçi Əliyev (Elçibəy) Əbülfəz Qədirqulu oğlunun (24.06.1938-22.08.2000) anadan olmasının **75** illiyi 196

Görkəmli hərbi xadim Hüseyn xan Kəlbəli xan oğlu Naxçıvanskinin (28.06.1863-01.1919) anadan olmasının **150** illiyi 197



Fəlsəfə.İqtisadiyyat. Hüquq

Fəlsəfə elmləri doktoru Balayev Məhəmməd Alı oğlunun (01.06.1938) anadan olmasının **75** illiyi




Coğrafiya.Geologiya

Coğrafiyaşünas, coğrafiya elmləri namizədi, professor Məmmədov Rafiq Hüseyn oğlunun (13.06.1933) anadan olmasının **80** illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar müəllim Vəliyev Zöhrab Əhməd oğlunun (04.06.1953) anadan olmasının **60** illiyi



Kimya.Biologiya.Tibb

Fizioloq Timiryazev Kliment Arkadyeviçin (03.06.1843-28.04.1920) anadan olmasının **170** illiyi
Əməkdar həkim, tibb alimi Abdullabəyov Həmidulla Ağabəy oğlunun (06.06.1903-07.04.1987) anadan olmasının **110** illiyi
Əməkdar elm xadimi, oftalmoloq Vəlixan Sona İbrahim qızının (19.06.1883-04.04.1982) anadan olmasının **130** illiyi 198
Tibb elmləri doktoru, Əməkdar elm xadimi Sadıqov Adil Abutalıb oğlunun (28.06.1903-26.07.1983) anadan olmasının **110** illiyi
Akademik Əliyev Cəlal Əlirza oğlunun (30.06.1928) anadan olmasının **85** illiyi 199



Texnika

Texnika elmləri doktoru, professor, alim Əliyev Tofiq Məmməd oğlunun (01.06.1928-1993) anadan olmasının **85** illiyi 200
Texnika elmləri doktoru, professor Hüseynov Firidun Həmzə oğlunun (17.06.1918-14.07.1984) anadan olmasının **95** illiyi
Əməkdar elm və texnika xadimi, professor, texnoloq Əliyev Vahab Səfər oğlunun (20.06.1908) anadan olmasının **105** illiyi
Azərbaycan Dövlət mükafatı laureatı, texnika elmləri doktoru, professor Zeynalova Gövhər Əli qızının (26.06.1923-1997) anadan olmasının **90** illiyi



Kitabxanaşünaslıq.Biblioqrafiya

Mətnşünas, biblioqraf Tağıyev Rasim Hümmət oğlunun (25.06.1938-30.12.1987) anadan olmasının **75** illiyi

Tarixdə bu gün



201

Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)
Azərbaycanda ilk mülki aviasiya dəstəsinin təşkil olunmasının **75** illiyi (02.06.1938)
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)
Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)
Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin prezident Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəlişi (09.06.1993)
Beynəlxalq Qan Donor Günü (14.06.2004)

202

Milli Qurtuluş Günü (15.06.1993)
Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir (15.06.1993)
Azərbaycan Cümhuriyyəti Milli Şurası və Hökuməti Tiflisdən Gəncəyə köçürülmüşdür (16.06.1918)
Ordubad Milli Parkının yaradılmasının (16.06.2003) **10** illiyi
Qax Dövlət Təbiət Yasaqlığının yaradılmasının (16.06.2003) **10** illiyi
Səhiyyə İşçiləri Günü (17.06.2001)
İnsan Hüquqları Günü (18.06.2007)
Azərbaycan Respublikasında insan hüquqları sahəsində ilk fundamental sənəd - "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"ı qəbul olunmuşdur (18.06.1998)

203

Ümumdünya Qaçqınlar Günü (20.06.2000)
Beynəlxalq Olimpiya Günü (23.06.1967)
Dövlət Qulluqçularının Peşə Bayramı (23.06.2006)
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.1987)

204

Milli Silahlı Qüvvələr Gününün (26.06.1918) **95** illiyi
Azərbaycan (türk) dili Azərbaycan Cümhuriyyətinin dövlət dili elan edilmişdir (26.06.1918)
Milli Məclis Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasını qəbul etmişdir (30.06.1998)

105 illiyi
Mikayıl Müşfiq 1908-1938

Şair



Ə d ə b i y y a t

Əsərləri [Mətn]: 3 cilddə /M.Müşfiq.- Bakı: Səda, 2004.

Seçilmiş əsərləri [Mətn] /M.Müşfiq; tərt. ed. və red. G.Hüseynoğlu.- Bakı: Şərq-Qərb, 2004.- 352 s.

Seçilmiş əsərləri [Mətn]: 3 cilddə /M.Müşfiq; tərt. ed., red. və ön sözün müəl. G.Hüseynoğlu.- Bakı: Avrasiya press, 2008.

Könlümü al, oxu! [Mətn]: şeirlər, poemalar /M.Müşfiq; tərtib ed və red. G.Hüseynoğlu.- Bakı: Maarif, 2002.- 96 s.

Axundzadə, D. Müşfiqli günlərim [Mətn] /D.Axundzadə; məsl. X.Bağırov; red. M.Çəmənli; nəşriyyat direktoru Ə.Əliyev; son söz Ə.Məhsəti.- Bakı: Gənclik, 2005.- 274 s.

Nəcəfzadə, A. Müşfiqin duyğu yarpaqları [Mətn] /A.Nəcəfzadə; red. V.Qaradağlı; məsl. G.Hüseynoğlu; [tərc. S. Məmmədzadə, Y. Filler, V. Qafarov]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2009.- 127 s.

Mikayıl Əbdülqadir oğlu İsmayılzadə (Mikayıl Müşfiq) 1908-ci il iyun ayının 5-də Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. Əslən Xızı rayonundandır.

İbtidai təhsilini inqilabdan əvvəl rus-tatar məktəbində almışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakı Darülmüəllimində və 12 saylı II dərəcəli məktəbdə oxumuşdur.

1927-1931-ci illərdə Azərbaycan Dövlət Darülfünunun (indiki Bakı Dövlət Universiteti) dil və ədəbiyyat fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə pedaqoq kimi başlamışdır. Bakı orta məktəblərində yeddi il müəllimlik etmiş, son iş yeri indi onun adını daşıyan 18 saylı Bakı şəhər orta məktəbi olmuşdur.

Poetik yaradıcılığa 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Bir gün" şeirilə başlamışdır. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. "Küləklər" (1930), "Günün səsləri" (1930), "Buruqlar arasında" (1932), "Vuruşmalar" (1932), "Pambıq" (1932), "Qaya" (1935), "Şəngül, Şüngül, Məngül" (1934), "Kəndli və ilan" (1935) adlı kitabları şairin sağlığında çap olunmuşdur.

O, bədii tərcümə ilə də ciddi məşğul olmuş, Yeqişe Çarensin "Şeirlər" (1934), Taras Şevçenkonun "Kobzar" (1934), A.S.Puşkinin "Qaraçılar" (1930), S.Marşakın "Huşsuza bax, huşsuza" (1935) əsərlərini tərcümə etmişdir.

1931-1937-ci illərdə Dilbər Axundzadə ilə ailə həyatı sürmüşdür.

1938-ci il yanvar ayının 6-da cəza tədbirləri dövründə M.Müşfiq də repressiya qurbanı olmuş və güllələnmişdir. Şairin xatirəsini əbədiləşdirmək üçün Bakıda Süleyman Rəhimov küçəsində, yaşadığı binanın qarşısına xatirə lövhəsi vurulmuş, büstü qoyulmuş, məktəbə, küçəyə və meydana adı verilmiş, Xızıda ev-muzeyi yaradılmışdır.

Müşfiqin "Yenə o bağ olaydı", "Oxu, tar", "Küləklər", "Duyğu yarpaqları", "Həyat sevgisi" və bir sıra başqa şeirləri Azərbaycan poeziya xəzinəsinin inciləri sırasındadır.

1968-ci ildə Bakıda Dilbər Axundzadənin "Müşfiqli günlərim" adlı xatirələr kitabı nəşr olunmuş, kitabın son genişləndirilmiş nəşri 2005-ci ildə "Gənclik" nəşriyyatında işıq üzü görmüşdür.

85 illiyi

İsa Muğanna 1928

Yazıçı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn]: 6 cilddə: [povest, hekayə] /İ.Muğanna; tərt. ed. F.Muğanna; burax. məs. V.Bəhmənli; red. U.Rəhimoğlu; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Avrasiya press, 2009.

İdeal [Mətn]: [roman] /İ.Muğanna.- Bakı: Lider, 2005.- 536 s.

İsahəq Musahəq (və ya Anadil ötən yerdə) [Mətn]: roman /İ.Muğanna.- Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003.- 124 s.

Məmmədova T. Ölümsüz həyat [Mətn] /İ. Muğanna //Mədəniyyət .-2010.- 11 iyun. - S. 5. .

Ölümsüz insan, əbədi həyat və Muğanna [Mətn] /İ.Muğanna; Müsahibəni apardı:Vahid Təranə //Mədəniyyət .-2012.- 13 iyun.- S. 11.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.isahuseynov.com

www.kultaz.com

İsa Mustafa oğlu Hüseynov (Muğanna) 1928-ci il iyun ayının 12-də Ağstafa rayonunun Muğanlı kəndində, ziyalı ailəsində dünyaya gəlmişdir. Orta məktəbi bitirdikdən sonra 1945-ci ildə N.Nərimanov adına Tibb Universitetinə daxil olsa da, 4 ay sonra kəndə qayıtmışdır. Sonradan Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, burada 4 illik təhsilini başa vurmuş və Moskvadakı Qorki adına Ədəbiyyat İnstitutunda oxumuşdur.

1952-ci ildən Yazıçılar Birliyinin üzvüdür.

1952-1954-cü illərdə "Azərnəşr"də Ədəbiyyat şöbəsinin redaktoru, 1960-1964-cü illərdə "Literaturnıy Azerbaydjan" qəzetində Nəsr şöbəsinin müdiri, 1964-1968-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, 1968-1974-cü ildə redaktor, 1974-1979-cu illərdə Ssenari şurasının üzvü, 1979-cu ildə Azərbaycan Kinematoqrafiya Komitəsində baş redaktor vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1947-ci ildə, 19 yaşında ikən "İnqilab və Mədəniyyət" qəzetində çap edilən "Anadil ötən yerdə" oçerki ilə başlamışdır. Yazıçının "Yanar ürək", "Doğma və yad adamlar", "Tütək səsi", "Məhşər", "İdeal" əsərləri nəsrimizə yeni təlatüm gətirmiş, Azərbaycan nəsri repressiya dövrünün vahimələrindən xilas olaraq cəsarətlə yeni mərhələyə qədəm qoymuşdu.

1950-ci ildən etibarən kitabları nəşr olunmuşdur. Ssenariləri əsasında ("Nəsimi", "Ulduzlar sönmür", "Nizami", "Tütək səsi", "Qərib cinlər diyarında" və s.) filmlər çəkilmiş, əsərləri xarici dillərə tərcümə olunmuşdur. İstər inqilabi-tarixi mövzuda və istərsə də müasirlərimizin həyatından bəhs edən kino əsərlərində İ.Muğanna həmişə həyat həqiqətlərinə, tarixi faktorlara, dəlillərə sadiq qalmağa çalışmış və bunun kino təcəssümünə nail ola bilmişdir. "26 Bakı Komissarı" filmi 1968-ci ildə Ümumittifaq Leninqrad Festivalının ən yaxşı tarixi-inqilabi film mükafatını almışdır.

Görkəmli yazıçı haqqında "Azərbaycanfilm" kinostudiyasında ssenari müəllifi Əhməd Oğuz, rejissoru Şahəddin Elxan Mayıloğlu olan "Muğanna" adlı sənədli televiziya filmi çəkilmişdir.

2007-ci ildə yazıçının həyat və fəaliyyətini əks etdirən sayt (www.isahuseynov.com) yaradılmışdır.

İsa Hüseynov (Muğanna) 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1988-ci ildə "Azərbaycanın Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür.

100 illiyi

Nigar Rəfibəyli 1913-1981

Şairə



Nigar Xudadat qızı Rəfibəyli 1913-cü il iyun ayının 23-də Gəncə şəhərində cərrah-həkim ailəsində anadan olmuşdur.

İbtidai təhsilini Gəncədə almış Nigar xanım, 1930-cu ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir. 1932-1936-cı illərdə Moskvada Pedaqoji İnstitutda təhsilini davam etdirmişdir.

1930-1932-ci illərdə Bakı Kinostudiyasının Ssenari şöbəsində, eyni zamanda fəhlə-gənclər məktəbində, "Azərnəşr"də Bədii-ədəbiyyat şöbəsində tərcüməçi və redaktor, 1937-1939-cu illərdə "Uşaqgəncnəşr"də Bədii ədəbiyyat şöbəsində redaktor vəzifələrində işləmişdir.

"Çadra" adlı ilk şeiri 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilmişdir. 1934-cü ildə nəşr olunmuş ilk "Şeirlər" kitabı Azərbaycan qadınlarının yeni həyat quruculuğunda iştirakından bəhs edir. "Zəfər nəğməsi" (1943), "Şeirlər" (1949), "Anaların səsi" (1951), "Yol xatirələri" (1957), "Dənizin səsi gəlir" (1964) və başqa kitabların müəllifidir.

Görkəmli şairə N.Rəfibəyli tərcümə fəaliyyəti ilə də məşğul olmuşdur. Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", F.Şillerin "Məkr və məhəbbət", A.P.Çexovun "Vanya dayı", "Albalı bağı" dramlarını, E.L.Voyniçin "Ovod", O.Qonçarın "Bayraqdarlar" romanlarını, Ə.Nəvai, A.S.Puşkin, M.Y.Lermontov, T.Q.Şevçenko, A.Mitskeviç, A.Sereteli və başqalarının əsərlərini tərcümə etmişdir.

Əsərləri xarici dillərə tərcümə olunmuşdur.

1934-cü ildən Azərbaycan Yazıçılar birliyinin üzvüdür.

Xidmətlərinə görə Nigar xanım 1967-ci ildə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi", 1981-ci ildə isə "Azərbaycanın Xalq şairi" fəxri adlarına layiq görülmüş, "Şərəf" nişanı və digər orden və medallarla təltif olunmuşdur.

Unudulmaz şairəmiz Nigar xanım Rəfibəyli 1981-ci il iyul ayının 9-da Bakıda vəfat etmiş Fəxri Xiyabanda dəfn edilmişdir.

Bakı küçələrindən biri onun adını daşıyır.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Nigar Rəfibəyli; tərt. ed. Anar; ön sözün müəl. B.Nəbiyev.- Bakı: Şərq-Qərb, 2004.- 392 s.

Bahar nəğməsi [Mətn]: şeirlər /N.Rəfibəyli; tərt. və red. Ə.Əliyev.- Bakı: Gənclik, 2003.- 192 s.

Şeirlər [Mətn] /N.Rəfibəyli; tərt. F.Rzayeva; red. T.Rzayeva.- Bakı, 2002.- 79 s.

Hüseynov, R. Rəfibəylilər [Mətn] /R.Hüseynov.- Bakı: Azərnəşr, 1996.- 672 s.

İnternetdə

www.anl.az

www az.wikipedia.org

www.clb.az

www.qadin.net

120 illiyi

Qeysər Kaşıyeva 1893-1972

Rəssam



Qeysər Seyfulla qızı Kaşıyeva 1893-cü il iyun ayının 7-də Tiflisdə anadan olmuşdur.

1907-1908-ci illərdə Qafqaz İncəsənətinin Təşviq Cəmiyyətinin nəzdindəki rəssamlıq sinfində oxumuşdur. Yaradıcılığının ilk dövründə Tiflisdə qadın xeyriyyə cəmiyyətlərinin keçirdiyi mədəni tədbirlər üçün afişa və məramnamələr tərtib etmişdir.

1907-1915-ci illərdə akvarel, qara tuş, karandaş və kömürlə çoxlu rəsm, portret və mənzərələr ("İ.Qonçarovun portreti" 1909, "Azərbaycan ziyalısı" 1912, "Göl sahili" 1914, "Küpəgirən qarı" 1915). çəkmişdir. 1918-ci ilin sonlarında müstəqil Azərbaycan Demokratik Respublikası yaradıldıqdan sonra Bakıya gəlmiş, gənc respublikanın mədəni həyatında iştirak etmiş, qadınlar arasında maarifçilik fəaliyyətilə məşğul olmuşdur. Rəssamlıq təhsili almış ilk azərbaycanlı qadındır. O dövrün tanınmış rəssamları sayılan R.Zommer və O.Şmerlinqdən dərs alan Qeysər xanımın yaradıcılığı müxtəlif janrlarda çəkilmiş əsərlərlə zəngindir. Onun sulu və yağlı boya ilə çəkdiyi əsərlərin arasında "Ziyalı qadın", "Qoca keşıkçi", "Gürcü qızı", "Ovçu", "Yanğınsöndürən", "Qoqolun portreti" və s. realizm ənənələrinə tapınan əsərləri özünəməxsus icra sənətkarlığı ilə seçilir. Sovet hakimiyyəti illərində Əli Bayramov adına qadınlar klubunda çalışmış, "Şərq qadını" jurnalına illüstrasiyalar çəkmişdir.

Rəsm albomları Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır.

Qeysər Seyfulla qızı Kaşıyeva 1972-ci il aprel ayının 17-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Kaşıyeva Qeysər Seyfulla qızı [Mətn] //Azərbaycan sovet ensiklopediyası: 10 cilddə.-Bakı, 1981.-C.5.-S.304.

İbrahimova, G. Qadın klubları (1920-1930-cu illər) [Mətn]: [məqalədə Qeysər Kaşıyeva haqqında da söhbət açılır] /G.İbrahimova //Bakı Universitetinin xəbərləri.- 2009.- №4.- S.26.

İ n t e r n e t d ə

www.azerbaycanli.org

www.az.wikipedia.org

www.gender-az.org

www.medeniyyet.az

95 illiyi

Hacı Xanməmmədov 1918-2005

Bəstəkar, tarzən



Hacı Dadaş oğlu Xanməmmədov 1918-ci il iyun ayının 15-də Dərbənd şəhərində anadan olmuşdur.

1934-cü ildə Ü.Hacıbəyli H.Xanməmmədovu özünün rəhbərlik etdiyi Azərbaycan Dövlət Radiosu nəzdindəki Xalq Çalğı Alətləri Orkestrinə solist kimi qəbul etmişdir.

1937-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Koroğlu" operası tamaşaya qoyulanda Ü.Hacıbəylinin simfonik orkestrə dəvət etdiyi 7 tarzəndən biri H.Xanməmmədov olmuşdu.

H.Xanməmmədov 1943-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir bəyin təşəbbüsü ilə açılan Xalq musiqisinin əsasları şöbəsinə qəbul olunmuşdur.

1947-ci ildə o, öz təhsilini Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində davam etdirmişdir.

1990-cı ildə H.Xanməmmədov yenə də musiqimizdə ilk dəfə olaraq kamança və orkestr üçün "Konsert" bəstələmiş və əsər mərhum sənətkarımız Ədalət Vəzirovun ilk və kamil ifasından sonra tez bir zamanda məşhurlaşmış, ifaçıların repertuarına və tədris proqramlarına daxil edilmişdir.

H.Xanməmmədov həm də gözəl mahnılar müəllifidir. Onun 150-dən çox mahnısı görkəmli müğənnilərimizin repertuarında layiqli yer tutmuşdur.

O, görkəmli bəstəkar, dirijor olduğu kimi, eyni zamanda, təcrübəli pedaqoq, hami, tərbiyəçi idi. Onun professional musiqi kadrlarının tərbiyəsində mühüm xidməti olmuşdur. 40 ildən artıq bir dövrdə H.Xanməmmədov Bakı Musiqi Texnikumunda dərs demiş, 1957-ci ildən isə indiki Bakı Musiqi Akademiyasında çalışmışdır. O, "Xalq çalğı alətləri" kafedrasının dirijorluq üzrə professoru, son illərdə isə "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasının məsləhətçisi olmuşdur.

1951-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan H.Xanməmmədov 1956-cı ildən onun İdarə Heyətinin üzvüdür.

O, müxtəlif illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri kimi məsul vəzifələrdə çalışmış, bir bəstəkar və ictimai xadim kimi çox faydalı işlər görmüşdür. Bu fədakar sənətkarın xidmətləri layiqincə qiymətləndirilmişdir. O, 1967-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi", 1988-ci ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına, 1985-ci ildə "Rəşadətli əməyə görə" medalına, 2000-ci ildə "Şöhrət" ordeninə və 2001-ci ildə Prezident təqaüdünə layiq görülmüşdür.

Görkəmli bəstəkar Hacı Dadaş oğlu Xanməmmədov 2005-ci il aprel ayının 7-də ömrünün 87-ci ilində vəfat etmişdir.

Ədəbiyyat

5 №-li konsert [Not]: tar və simfonik orkestr üçün (klavir) /H.Xanməmmədov; tar partiyasının redaktəsi: Ramiz Quliyev.- Bakı: Şuşa, 2002.- 80 s.

Konsert [Not]: ali və orta ixtisas musiqi məktəblərinin qanun sinfi üçün dərs vəsaiti: arfa ilə simfonik orkestr üçün /H.Xanməmmədov; qanun və fortepiano üçün işləyəni: Təranə Əliyeva.- Bakı, 2007.-47 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.musigi-dunya.az

80 illiyi

Tələt Qasımov 1933

Xanəndə



Tələt Məmmədağa oğlu Qasımov 21 iyun 1933-cü il iyun ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Erkən yaşlarından musiqiyə həvəs göstərərək, əvvəlcə dini musiqiyə çox meyl etmiş və mərsiyəxan olmuşdur. Sonradan isə xanəndəlik sənətinə gəlmişdir. Cabbar Qaryağdıoğlundan başlayaraq Keçəçioğlu Məhəmməd, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Hacıbaba Hüseynov, Mütəllim Mütəllimov, Qurban Pirimov, Bəhram Mansurov, Aşıq Şakirə kimi görkəmli sənətkarlara qulaq asmış, bəhrələnmiş, muğamın sirrlərini dərindən mənimsəyərək, onların ənənələrini davam etdirmişdir. İllər keçdikcə, xanəndə kimi sənətini təkmilləşdirən Tələt Qasımov öz dəstxətti ilə tanınmışdır.

Muğam sənətinin mahir ifaçılarından biri olan Tələt Qasımovun milli musiqi mədəniyyətimizin inkişafında müstəsna xidmətləri vardır.

Tələt Qasımovun repertuarı çox zəngindir. O, bir çox muğamları və təsnifləri, Azərbaycan xalq mahnılarını məharətlə və xüsusi şövqlə ifa edir. Onun ifasında "Rast", "Şur", "Seygah-Zabul" muğam-dəstgahları, "Şüştər" təsnifləri, "Ay dəli ceyran", "Sənsən", "Getdi yar", "Girdin yarın baxçasına" mahnıları məşhurdur. Tələt Qasımov Azərbaycan Dövlət Filarmoniyasının solistidir.

O, uzun illər "Azərkonsert" Birliyinin solisti olmuş, musiqi mədəniyyətimizi dünyanın müxtəlif ölkələrində-Türkiyə, İran, Almaniya, Rusiya, Misir, Əlcəzair, Tunis və Mərakeşdə ləyaqətlə təmsil etmişdir. Ustad sənətkarın ifa etdiyi muğamlar musiqi mədəniyyəti salnaməsinə daxil olmuşdur. T.Qasımov bugün də öz bilik və təcrübəsi ilə bölüşür, gənc xanəndələrin hazırlanmasında yaxından iştirak edir.

Qasımov Tələt Azərbaycan Respublikasının Xalq artisti, Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Nəbioğlu, A. Qocalmışam demə, ay Hacı Tələt! [Mətn] /Nəbioğlu, A. // Olaylar .-2010.- 28 yanvar.- S.15.

Təhmirazqızı, S. Ustad xanəndə [Mətn] /S.Təhmirazqızı // Mədəniyyət.- 2011.- 24 iyun.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.mugamradio.az

100 illiyi

Hökümə Qurbanova 1913-1988

Aktrisa



Ə d ə b i y y a t

Məmmədov, M. Onun sənət ulduzu [Mətn] /M.Məmmədov; xüs. red. Ə.Əliyeva.- Bakı: İşıq, 1983.- 102 s.

Abbaslı, T. Səhnəmizin təkrarsız səs-sədası: Ayrıca bir "səs" obrazı da yaratmış aktrisa [Mətn] /T.Abbaslı //Mədəniyyət.- 2011.- 10 iyun.- S.12.

Hədsiz zəhmətkeşlik və güclü istedad...: Bu vəhdət Hökumə Qurbanovanı teatr sənətinin korifeylərindən birinə çevirdi [Mətn] //Şərq.- 2011.- 11 fevral.- S.11.

Rəhimli, İ. Hökümə Qurbanova (11.6.1913-2.11.1988) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.184-186.

Səhnəmizin misilsiz faciə aktrisası - Hökumə Qurbanova [Mətn] //Mədəniyyət.- 2010.- 11 iyun.- S. 14.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Hökümə Abbasəli qızı Qurbanova 1913-cü il iyun ayının 11-də Bakıda, ziyalı ailəsində anadan olmuşdur.

O, 1931-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirmiş, Azərbaycan Dövlət Konservatoriyasına daxil olaraq iki il fortepiano sinfində təhsil almışdır.

Konservatoriyada təhsil alarkən dramaturq və teatr xadimi Cəfər Cabbarlının ciddi təşəbbüsü ilə "Almaz" filmində Yaxşı roluna çəkilmiş, ancaq film ekranlara ədibin ölümündən sonra, 1936-cı ildə çıxmışdır.

Milli Dram Teatrının tamaşalarında əvvəllər ara-sıra çıxış edən Hökümə Qurbanova 1938-ci ildən ömrünün sonunadək bu kollektivin əvəzolunmaz aktrisası kimi şöhrət tapmışdır. Hökümə xanımın bir neçə epizodik rollarını nəzərə almasaq, o, 1940-cı ildən əsas rolların ifaçısına çevrilmişdir. Teatr tariximizdə Hökümə Qurbanova kimi gözlə və səs variasiyaları ilə oynaya bilən ikinci qadın sənətkar olmamışdır.

Aktrisa lazım gələndə səhnədə dəqiqələrlə mərmər abidə kimi "donub" qala bilir (məsələn, Şekspirin "Qış nağılı"nda Hermiona rolunda), pauzaları baxış və hərəkətlərilə "doldururdu".

Hökümə Qurbanova romantik aktyor məktəbinin poetik göstəricilərini lirik-psixoloji aktyor məktəbinin ifadə vasitələri ilə qovuşduran, onları harmonik ayrılmazlıqda, bir estetik prinsiplərdə təqdim edən ilk aktrisa olmuşdur.

Komediya rollarında (məsələn: Bənövşə, Xanuma və s.) səhnəyə çıxan Hökümə Qurbanovanın məlahətli yumoru, sərrast və dürüst istiqamətli satirası tamaşaçıları heyran qoymuşdu. Hərəkətlərini personajın ictimai-sosial mənsubiyyətinə, mənəvi-əxlaqi xüsusiyyətlərinə, hadisələrin psixoloji dramatizminə ahəngdar həssaslıqla bağlayıb əlaqələndirmişdi.

Xumar (H.Cavid "Şeyx Sənan"), Solmaz (C.Cabbarlı "Od gəlini") obrazlarını Hökümə xanım romantik faciə janrında ifa etmiş, Zöhrə (S.S.Axundov "Eşq və intiqam"), Səhər (S.Vurğun "İnsan"), Günəş (Q.Rəsulov "Qarabağ əfsanəsi"), V.Nikolayevna (A.Boryanov "O tayda") rollarının ifası isə realist faciə janrında köklənmişdir.

Hökümə xanım Nataşa ("Mühəndis Sergeyev", V.Rokk), Sevgili ("Ana ürəyi", İ.Səfərli), Gülara, Sürəyya ("İşıqlı yollar" və "İntizar"), Zöhrəxan ("İpək naxışlar", A.Qəhhar), Reyhan ("Qardaşlar", R.Rza) rollarında realist-dramatik obrazları canlandırmışdır.

Aktrisa bir sıra filmlərdə rol almış, bəzi filmlərdə isə rolları səsləndirmişdir. "Azərbaycanfilm"in istehsal etdiyi "Bir ailə" filmində Leyla, "Onu bağışlamaq olarmı?" filmində Laçın, "Mən rəqs edəcəyəm" filmində Mahmudun anası, "İnsan məskən salır" filmində Ana rollarına çəkilmişdir.

Hökümə Qurbanova iki çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. 1943-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1960-cı ildə "Xalq artisti", 1965-ci ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Görkəmli aktrisa 1988-ci il noyabr ayının 2-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

70 illiyi

Oqtay Mirqasımov 1943

Rejissor



Oqtay Mir Əsədulla oğlu Mirqasımov 1943-cü il iyun ayının 12-də Bakı şəhərində anadan olmuşdur.

Burada şəhər orta məktəbini bitirdikdən sonra 1963-1968-ci illərdə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində təhsil almış, sonra Bakıya qayıtmış "Azərbaycanfilm" kinostudiyasında çalışmışdır.

Bir neçə sənədli, bədii filmlərin quruluşçu rejissoru və ssenari müəllifi olmuşdur. Filmləri Ümumittifaq festivallarında mükafat almışdır.

1993-2000-ci illərdə "Azərkinovideo"nun baş direktoru olmuşdur.

Dövri mətbuatda hekayə və povestlərini çap etdirmişdir: "Min birinci qastrol", "Anlamaq istəyirəm", "Ovsunçu", "Bu həqiqətin səsidir" və s. Onlarla bədii, sənədli və yumoristik ssenarilərin müəllifidir. "Əhməd Haradadır?" (1983), "Cin mikrorayonda" (film, 1985), "Azərbaycan Kinosu-80" (1996), "Arif Babayev" (2000), "Şəhidlik Zirvəsi" (2001), "Ovsunçu" (2003), "Mən Kitabımı Başlayıram" (2006), "Milli bomba" (film, 2004), "Qaşqayın Son Proqnozu" (2007), "Biz Qayıdacağıq" (2007), "Arzularını Çəkən Rəssam" (2007), "Günaydın, mələyim!" (2008) adlı sənədli, bədii filmlərin rejissorudur.

Amerika, İtaliya, İsrail, Meksika, Monqolustan, Polşa, Rusiya və digər ölkələrdə işgüzar səfərlərdə olmuşdur.

Milli kino sənətinin inkişafında xidmətlərinə görə bir sıra mükafatlara layiq görülmüşdür. Azərbaycanın Xalq artistidir.

Ə d ə b i y y a t

"Eurovision-2012" mahnı müsabiqəsi ölkəmizin imicini daha da yüksəltdi [Mətn] /O.Mirqasımov //Xalq qəzeti.- 2012.- 6 iyun.- S.6.

İnsanlar bir-birlərini heç bir zaman anlamır [Mətn] /O.Mirqasımov //Ayna.- 2010.- 9 yanvar.- S.19.

İş, yaradıcılıq və istək: Bunlar birləşdikdə çox uğurlu bir layihə ortaya çıxır [Mətn] /O.Mirqasımov //Ekran-efir.- 2010.- 16 iyul.- S.11.

Milli mənəvi dəyərlərimiz ulu öndər Heydər Əliyevin dühası işığında [Mətn] /O.Mirqasımov //525-ci qəzet.- 2011.- 29 aprel.- S.4.

Oqtay Mirqasımov: Arzu etməyi bacarmaq, təmiz niyyətli olmaq lazımdır [Mətn] //İki sahil.- 2008.- 4 oktyabr.- S. 16.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

125 illiyi

Hacıağa Abbasov 1888-1975

Aktyor



Hacıağa Mütəllib oğlu Abbasov 1888-ci il iyun ayının 16-da Bakının Maştağa kəndində, müəllim ailəsində doğulmuşdur. İbtidai təhsilini doğma kəndində rus-tatar (rus-türk) məktəbində almışdır.

1906-1909-cu illərdə Petrovsk-Portda (indiki Mahaçqala) pedaqoji təhsilə yiyələnmişdir. Burada oxuyarkən azərbaycanlılardan ibarət teatr dəstəsi yaratmış və həmin truppa ilə Teymurxanşurada (sonra Bunyaksk adlandırıldı) teatr açmışdı.

Təhsilini başa vurduqdan sonra müəllim diplomu ilə Bakıya qayıtmış, Balaxanı kəndində Mirzə Ələkbər Sabirlə birlikdə uşaqlara dərs demişdir. Eyni zamanda "Müsəlman artistləri cəmiyyəti"nin, "Nicat", "Həmiyyət" teatr truppalarının fəal üzvü olmuş, sonralar "Səfa" cəmiyyətinin teatr truppasında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti"ndə aktyorluq etmişdir. Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Mirzə Mehdi xan, Şamdan bəy ("Nadir şah" və "Şamdan bəy", Nəriman Nərimanov), Ağa Kərim xan, Hacı Qəmbər ("Ağa Kərim xan Ərdəbili" və "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər", Mirzə Fətəli Axundzadə), Qubad ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Osip ("Müfəttiş", Nikolay Qoqol), Moisey ("Yəhudilər", Yevgeni Çireov) rollarını müvəffəqiyyətlə ifa etmişdir.

1920-ci ildə bugünkü Akademik Milli Dram Teatrına üzv olan Hacıağa Abbasov bir müddət burada çalışmışdır. Həyat və sənət dostu Mirzağa Əliyevlə birgə 1921-ci il noyabr ayının 13-də Bakı Türk Azad Tənqid və Təbliğ Teatrını yaratmışdır. Həmin sənət ocağı bu iki aktyorun adı ilə bağlı olduğuna görə tamaşaçılar arasında "Hacımirz" teatrı kimi tanınmışdır.

1925-ci ildə Hacıağa Abbasov Akademik Milli Dram Teatrına direktor təyin olunmuşdur.

1929-1937-ci illərdə Bakı Teatr Məktəbində direktor işləmişdir. Repressiya illərində təqib olunduğuna görə bir müddət Orta Asiya respublikalarında yaşamışdır.

Hacıağa Abbasova həsr olunmuş "Səhnə Veteranı" (1974) adlı qısametrajlı sənədli televiziya filmi çəkilmişdir.

Sənətdə qazandığı nailiyyətlərə və teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə görə 1932-ci ildə aktyora "Xalq artisti" fəxri adı verilmişdir.

Hacıağa Abbasov 7 may 1975-ci ildə Bakıda vəfat etmiş və doğulduğu Maştağa kəndində dəfn edilmişdir.

Ədəbiyyat

Quluzadə, Z. Atamın heykəli ağlayır... Talelər [Mətn] /Z.Quluzadə //Mədəniyyət.- 2009.- 20 may.- S. 11.

Rəhimli, İ. Hacıağa Abbasov (16.6.1888-07.05.1975) //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı: Çaşıoğlu, 2005.- S.113-114.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

115 illiyi

Əli Qurbanov 1898-1962

Aktyor



Əli Mirzəli oğlu Qurbanov 1898-ci il iyun ayının 20-də Tbilisi şəhərində dünyaya gəlmişdir.

O, bir müddət məktəbdə oxuduqdan sonra atası ailəni dolandırmaq üçün oğlunu da özu ilə müxtəlif iş yerlərində fəhləlik etməyə aparmış, lakin Əlinin çalıb oxumağını, muğənnilik istedadını və dərslərdə fərqlənməsini görən məktəbin müdiriyyəti ona işləyə-işləyə təhsilini davam etdirməyə icazə vermişdir. Əlinin teatrla yaxınlığı da elə bu illərdən başlanmışdır. Hətta bir neçə dəfə yaxın qohumu və dostu Möhsünlə (Möhsün Sənani) tamaşaya da getmişdi.

Əli Qurbanov birinci dəfə Möhsün Sənaninin təkidi ilə 1915-ci ildə həvəskarların "Gaveyi-Ahəngar" tamaşasında səhnəyə çıxmışdır. Bundan sonra isə M.Sənaninin təşəbbüsü ilə hazırlanmış "Məşədi İbad" tamaşasında Əli Qurbanov Rüstəm bəy rolunu kifayət qədər yaxşı oynamışdır. Məlahətli səsi onun müvəffəqiyyətini daha da artırmışdır.

1917-ci ildə Tbilisidə təşkil olunmuş "İttihad" truppasına Əli Qurbanov da dəvət edilmişdir. Bu truppaya İ.İsfahanlı, K.Səbri, M.Sənani, Ə.Naxçıvanlı, Əhməd Salahlı və başqaları daxil idi. Onlar N.Nərimanov adına klubda xalq çalğı alətləri orkestri təşkil edib yerlərdə konsertlər vermişdir. 1922-ci ildə belə konsertlərdən birində olmuş N.Nərimanov orkestrin çıxışını bəyənmiş və onun üzvlərinə şəxsən təşəkkür etmişdir.

Əli Qurbanov 1922-ci ildə Türkiyə, 1925-ci ildə İranda olmuş və bir sıra maraqlı çıxışlar etmişdir. Onun səhnə fəaliyyətinin daha məhsuldar dövrü 1925-ci ildən sonraya təsadüf etmişdir. 1925-ci ilin axırlarında Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamı ilə Tbilisi teatrının bir sıra tanınmış aktyorları ilə birlikdə Əli Qurbanov da Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət olunmuşdur.

50 ilə yaxın bir müddətdə Ə.Qurbanov Niyaz rolunun yeganə ifaçısı olduğu "Pəri Cadu"nun müxtəlif quruluşlarında bu rolu dəfələrlə oynamışdır.

Əli Qurbanov 50 ildən artıq böyük səhnədə olmuşdur. Bu müddətdə 200-ə yaxın müxtəlif rollarda çıxış etmiş, bəzi rolları bir neçə yüz dəfə oynamışdır. Məsələn, Vidadi rolunu 700, Əzizbəyov və Hacı Əhməd rollarını 350 dəfədən artıq ifa etmişdir. Aktyor 40 ildən artıq C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının filmlərində də çəkilmişdir. İlk dəfə 1928-ci ildə "Hacı Qara" filmində Aşıq roluna çəkilmiş yaddaqalan, yüksək səviyyəli obrazlar yaratmışdır. Əli Qurbanovun xidmətləri nəzərə alınaraq ona 1938-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1940-cı ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" adı verilmişdir. O, "Şərəf Nişanı", "Qırmızı Əmək Bayrağı"ordenlərinə və bir neçə medallara layiq görülmüşdür. 1951-ci ildə Lenin ordeni ilə təltif olunmuşdur.

Aktyor 1962-ci il oktyabr ayının 4-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

İsmayılova, A. Azərbaycan SSR Xalq artisti Əli Qurbanov [Mətn] /A. İsmayılova; red. C. Cəfərov; Azərb. Teatr Cəmiyyəti.- Bakı:[s.n.],1962.-50 s.

Səhnədən keçən yollar [Mətn] /tərt. ed. R. Quliyev (tərc. ed.),A. Paşayev, M. Teymur.-Bakı:Yazıçı, 1983.- 277 s.

Bayramov, A. Əli Qurbanov Tiflis teatrında /A.Bayramov//Mədəniyyət .-2012.- 29 fevral.- S. 13.

Əli Qurbanov (20.06.1898-04.10.1962) [Mətn] /İ.Rəhimli //Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005.- S. 135.

Məhərrəmova, T. Orijinal yaradıcılıq yolu olan aktyor [Mətn] /T. Məhərrəmova //Kaspi .-2010. - 22 iyun.- S.15.

Təranə. 50 ildən artıq böyük səhnədə [Mətn] /Təranə // Kaspi .-2011.- 21 iyun.- S. 15.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

40 illiyi

Cavanşir Rəhimov 1973-1992

Milli Qəhrəman



Cavanşir İzzət oğlu Rəhimov 1973-cü il iyun ayının 5-də Qax rayonunda dünyaya göz açmışdır.

Bir yaşında olarkən ailəsi ilə birgə Bakının Qaraçuxur qəsəbəsinə köçmüşlər. Cavanşir buradakı Suraxanı rayonu 104 saylı orta məktəbə getmiş, səkkizinci sinfi bitirdikdən sonra isə texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. O, qısa müddət ərzində karate idman növünü öyrənmiş və idman ustası normativini ödəmişdi. 1992-ci ildə Cavanşir hərbi xidmətə çağırılmış, Hərbi Hava Qüvvələrində xidmət etmişdir. Bir müddət təlim keçən Cavanşir Rəhimov bort-atıcı peşəsinə yiyələnmişdir. Daha sonra könüllü olaraq müharibəyə getmək istədiyini bildirəndə onu Mİ-24 vertolyotuna bort-atıcı təyin etmişlər.

Dəfələrlə təhlükəli uçuşlar etmiş, erməni silahlılarını ağır itkilərə məruz qoymuşdur. 6 avqust 1992-ci il Kasapet yüksəkliyindəki döyüşdə Cavanşir ağır yaralanmış və vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə Rəhimov Cavanşir İzzət oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Suraxanı rayonundakı 146 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır. Qaraçuxur qəsəbə parkında büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Hərbi-Hava qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rəhimov Cavanşir İzzət oğlu – sıravi-xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №17.- S.33.- (Ölümündən sonra).

Əsgərov, V. Rəhimov Cavanşir İzzət oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.182.

Rəhimov Cavanşir İzzət oğlu (1973-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.175-776.

Seyidzadə, M. Rəhimov Cavanşir İzzət oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.190.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.zengilan.com

İYUN
19

Milli Qəhrəmanlar

55 illiyi

Səfa Axundov
1958-1992

Milli Qəhrəman



Səfa Fətulla oğlu Axundov 1958-ci il iyun ayının 19-da Masallı rayonunda anadan olmuşdur.

İlk təhsilini Saatlı rayonunda almış, sonra ailəsi ilə birlikdə Cəlilabad rayonuna köçdüklərinə görə təhsilini burada davam etdirmişdir. Səfa uşaqlıq vaxtlarından təyyarəçi olmaq arzusunda olmuş, bu istəyi onu Bakı hava limanına gətirmişdir. Daha sonra isə Orenburq Mülki Aviasiya Məktəbinə daxil olmuşdur.

1979-cu ildə bu məktəbi bitirərək Yevlax rayonunda yerləşən hava limanında pilot təyin edilmişdir.

1987-ci ildə Riqada yaşayan Səfa erməni quldurlarının vətənimizə təcavüzünə biganə qalmayaraq Azərbaycana dönmüşdür. 1989-cu ildə Zabrat "Azal-aero" Aviaşirkətinə məxsus Mİ-8 vertolyotuna 2-ci pilot təyin edilmişdir. 1992-ci il yanvar ayının 28-də Şuşaya iki uğurlu uçuş etmiş, yenidən Şuşa istiqamətində uçuş edərkən Xankəndi istiqamətindən atılan raket vertolyotu parçalamışdı. Üç heyət üzvü və 47 nəfər sərnişin faciəli surətdə həlak olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Axundov Səfa Fətulla oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Cəlilabad şəhərinin mərkəzində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Axundov Səfa Fətulla oğlu – Mİ-8 vertolyotunun ikinci pilotu – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 noyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №22.- S.68.- (Ölümündən sonra).

Axundov Səfa Fətulla oğlu (1958-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.26-27.

Əsgərov, V. Axundov Səfa Fətulla oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.16-17.

Seyidzadə, M. Axundov Səfa Fətulla oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.32.

İ n t e r n e t d ə

www..anl.az

www.az.wikipedia.org


www.infocenter.gov.az

www.milliqahraman.az

60 illiyi

Əlif Hacıyev 1953-1992

Milli Qəhrəman



Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hacıyev Əlif Lətif oğlu – Xocalı Hava Limanı Xətt daxili işlər bölməsinin rəisi, milis mayoru–Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Cəmilzadə, H. Qarabağ cəngavəri [Mətn] //Cəmilzadə H. Azərbaycanın ilk Milli Qəhrəmanları.- Bakı, 1993.- S.69-90.

Əsgərov, V. Hacıyev Əlif Lətif oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.75-76.

Hacıyev Əlif Lətif oğlu (1953-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.80-81.

Əlif Lətif oğlu Hacıyev 1953-cü il iyun ayının 24-də Xocalı şəhərində doğulmuşdur.

1970-ci ildə məktəbi bitirərək, Xankəndi şəhərində sürücülük peşəsinə yiyələnmişdir.

1971-ci ildə ordu sıralarına çağırılmış, hərbi xidməti Minsk şəhərində keçmişdir.

1973-cü ildə ordudan tərxis olunaraq Xankəndi Avtonəqliyyat Müəssisəsində sürücü işləmişdir.

1974-1984-cü illərdə Belorusiya DİN-nin və Azərbaycan SSR DQMV-nin daxili işlər orqanlarında müxtəlif vəzifələrdə işləmişdir.

1976-cı ildə SSRİ DİN-in Frunze adına Xüsusi Orta Milis Məktəbinə daxil olmuşdur.

O, 1979-cu ildə həmin məktəbi bitirmiş, 1981-ci ildən təhsilini SSRİ DİN-nin Akademiyasında davam etdirmişdir. DQMV-də işləyərkən uzun müddət fəaliyyət göstərən gizli millətçi mərkəzi ifşa etməyə çalışmışdır. Buna görə də erməni millətçiləri onu saxta ittihamlarla günahlandıraraq 10 il həbs cəzasına məhkum etmişdilər.

1987-ci ildə işinə yenidən baxılmış, 10 il həbs cəzası 6 ilə endirilmişdi. Sonra o, bəraət almış, azadlığa buraxılmışdır.

Ə.Hacıyev 1990-cı ildə Xocalıya qayıtmış və Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsində, Qarabağa Xalq Yardımı Komitəsində fəaliyyət göstərərək erməni millətçilərinə qarşı mübarizəsini yenidən davam etdirmişdir.

O, 1990-cı ilin dekabr ayında daxili işlər orqanlarına yenidən bərpa olunmuş və Xocalı Təyyarə limanı xətt daxili işlər bölməsinə rəis təyin edilmişdir. Eyni zamanda o, Xocalı Aeroportunun komendantı olmuşdur.

Yaxşı fəaliyyətinə görə 1991-ci ilin dekabr ayında ona mayor rütbəsi verilmişdir.

Qarabağ cəngavəri Əlif Hacıyevin əzmkarlığı nəticəsində Xocalı hava limanı erməni millətçilərinin nəzarətindən tamamilə çıxmış və bu, onlar üçün ağır zərbə olmuşdu. Bunun əvəzini çıxmaq üçün düşmən 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalıya hücum etmişdi. Əlif və onun dəstəsi səhər saat beşə qədər azğınlaşmış rus hərbiçiləri və erməni yaraqlıları ilə vuruşmuşdular. O, bu qanlı döyüşdə misilsiz qəhrəmanlıqlar göstərərək, bir dəstə dinc əhalini Ağdamın Şelli kəndinə tərəf təhlükəsiz yerə çıxarmışdı. Əlif bir daha geriyə dönərək, yenidən döyüşə atılmış və bu zaman ağır yaralanmışdır. Vətənini, torpağını canından əziz bilən Əlif, Qarabağ torpağında – Xocalı faciəsi zamanı şəhid olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə mayor Hacıyev Əlif Lətif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhəri Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bakının Nizami rayonundakı küçələrdən biri qəhrəmanın adını daşıyır.

İYUN
27

Milli Qəhrəmanlar

40 illiyi

Ruslan Muradov 1973-1992

Milli Qəhrəman



Ruslan Həmid oğlu Muradov 1973-cü il iyun ayının 27-də Mingəçevir şəhərində doğulmuşdur.

1990-cı ildə burada 10 saylı məktəbi bitirmişdir. 1992-ci il 22 yanvar tarixində Milli Ordu sıralarına daxil olmuş, bir müddət hazırlıq keçdikdən sonra Ağdamın Papravənd kəndinə göndərilmişdir.

Papravənd kəndinə gəldiyi gündən burada qızğın döyüşlərdə iştirak etmiş, kənd erməni işğalçılarından azad edilmişdir. 1992-ci ildə Azərbaycana məxsus təyyarələrdən biri düşmən əlində olan əraziyə düşmüş, yaralıları xilas etmək üçün aparılan əməliyyat uğurla nəticələnmişdir. Bu əməliyyatda Ruslan xüsusilə fərqlənmişdi. 1992-ci il 22 avqust tarixində Ağdam rayonunun Papravənd kəndi uğrunda gedən növbəti döyüşlərdə qəhrəmancasına həlak olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Muradov Ruslan Həmid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Mingəçevir şəhərindəki 15 saylı məktəb qəhrəmanın adını daşıyır və burada büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Muradov Ruslan Həmid oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Əsgərov, V. Muradov Ruslan Həmid oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.157.

Muradov Ruslan Həmid oğlu (1973-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.152-153.

Seyidzadə, M. Muradov Ruslan Həmid oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.161.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

105 illiyi

Əbdürrəhman Fətəlibəyli-Düdənginski 1908-1954

Hərbi və siyasi xadim



Ə d ə b i y y a t

Yaqublu, N.Q. Əbdürrəhman Fətəlibəyli-Düdənginski [Mətn]: Azərbaycan legionunun komandiri, "Azadlıq" radiosu "Azərbaycan" redaksiyasının baş redaktoru /N.Yaqublu; [elmi məsləhətçilər. M. Teymur, R. Abutalıbov, M. Kəngərli; elmi red. S. Məmmədli].- Bakı:Adiloğlu, 2008.- 260 s.

Yaqublu, N.Q. Azərbaycan legionunun komandiri: Mayor Ə.Fətəlibəyli-Düdənginskinin 100 illiyi münasibətinə [Mətn] /N.Yaqublu //525-ci qəzet .-2008.- 27 dekabr. - S.19.

Yaqublu, N.Q. Azərbaycan mətbuatının irsi öyrənilməmiş xadimləri [Mətn]: [Ə.Fətəlibəyli-Düdənginski və Mirzə Bala Məmmədzadə haqqında] /N.Yaqublu //525-ci qəzet .-2010.- 26 iyun . - S.25.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.diplomatiya.az

www..lent.az

Əbdürrəhman Əli bəy oğlu Fətəlibəyli-Düdənginski 1908-ci il iyun ayının 12-də Şərurun Düdəngə kəndində anadan olmuşdur. Ata-babaları məşhur Səfəvi nəslinə mənsub olmuşdur. O, gənc yaşlarında əsgər getmiş, hərbi piyada məktəbini bitirmiş, Azərbaycan diviziyasının zabiti olmuşdur.

1935-1936-cı illərdə Moskva Hərbi Akademiyasında təhsil almağa göndərilmiş bacarıqlı zabit, 1939-cu ildə Finlandiya müharibəsində iştirak etmiş, "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.

O, bir müddət Leninqrad dairəsi qərargahında şöbə rəisi işləmişdir. 1940-cı ildə Sovet hissələri Pribaltika respublikalarını işğal etdikdən sonra, Ə.Fətəlibəyli Riqada yerləşən hərbi qərargaha göndərilmiş, orada almanlara əsir düşmüşdür.

1943-cü ilin noyabr ayının 6-11-də Berlində Azərbaycan "Milli Birlik" Məclisinin təşəbbüsü ilə çağırılan Milli Azərbaycan Qurultayının keçirilməsində Ə.Fətəlibəylinin böyük rolu olmuşdu. Müharibənin sonlarına yaxın Şərq cəbhəsində vuruşan Azərbaycan legionerlərinin sovet ordu hissələrinin əlinə keçməməsi üçün Ə.Fətəlibəylinin təşəbbüsü ilə birliklərin əvvəlcə cənub və qərb cəbhələrinə, bir müddətdən sonra isə o dövrdə daha sakit bölgə olan İtaliyaya köçürülməsinə başlanılmışdı. Qeyd edək ki, bu, çox çətin və ağır prosesin həyata keçirilməsində mayor Ə.Fətəlibəylinin böyük xidmətləri olmuşdu.

1953-cü ilin mart ayında "Qurtuluş" radiosunun Azərbaycan redaksiyası fəaliyyətə başlamış və redaksiyanın ilk baş redaktoru mayor Ə.Fətəlibəyli-Düdəndinski olmuşdu. "Azadlıq" radiosu fəaliyyətə başladığı ilk gündən Ə.Fətəlibəyli sovet siyasətinin əleyhinə verilişlər hazırlamışdı. Qeyd edək ki, mühacir və legionerlərin XX əsrin 50-ci illərdəki bu fəallığı Sovet dövlətini ciddi narahat etməyə başlamışdı.

1954-cü ilin noyabr ayının 20-də hərbi və siyasi xadim Ə.Fətəlibəyli-Düdəngin ski Münhenin "Alpenplate-6" meydanındakı bir mənzildə qətlə yetirilmişdi.

80 illiyi

Tofiq İsmayılov 1933-1991

Akademik



Tofiq Kazım oğlu İsmayılov 1933-cü il iyun ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra Moskva Elektrotexnika Rabitə İnstitutuna daxil olmuşdur.

1956-cı ildə Moskva şəhərinin aparıcı müəssisələrində işləmiş, sonralar aspiranturaya daxil olmuşdur. 1966-cı ildə Bakıya köçmüş və Azərbaycan Politexnik İnstitutunda (indiki Azərbaycan Texniki Universiteti) çalışmışdır.

1969-cu ildə texnika elmləri namizədi, 1979-cu ildə isə texnika elmləri doktoru adını almış, bir qədər sonra isə professor elmi adına layiq görülmüşdü. Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdi.

Beynəlxalq elmi-texniki jurnal "Məsafədən duyma üzrə xülasə jurnalı"nın (Vaşinqton), "Kosmik Tədqiqatları EİB məlumatları" dövri nəşrin redaktoru, "Azərbaycan Respublikası Elmlər Akademiyasının Xəbərləri"nin (fizika, texniki və riyazi elmlər üzrə) redaksiya kollegiyasının üzvü, həmçinin Beynəlxalq Astronomik İttifaqın, SSRİ Elmlər Akademiyası Astrosovetinin, SSRİ Elmlər Akademiyası kosmik vasitələrlə təbii sərvətlərin öyrənilməsi bürosu, SSRİ Baş kosmos idarəsinin elmi-texniki şurasının, SSRİ Elmlər Akademiyası Elmi Şurasının və Dövlət elm və texnika komitəsinin üzvü, Azərbaycan Respublikası kosmonavtika federasiyasının sədri olmuşdur.

1989-cu ildən SSRİ Xalq deputatı, SSRİ Ali Soveti Rəyasət Heyətinin, Sov. İKP MK və Azərbaycan KP MK-nın üzvü olmuşdu.

Akademik T.K.İsmayılov məxsusi cihazqayırma sahəsində məşhur alim idi. Onun aerokosmik nəzarət kolibrləmə poliqonlarında peykaltı ölçmə texniki vasitələrinin nəzəriyyəsinə və tətbiqinə verdiyi təkliflər xüsusi mahiyyət kəsb etmişdir. Onun rəhbərliyi və şəxsi iştirakı ilə hazırlanmış "PS - 17 BK" və "Pulsar X-1" rentgen teleskopları böyük müvəffəqiyyətlə "Salyut-Soyuz-T-11", "Mir" orbital stansiyalarında fəaliyyət göstərmişdi. "Pulsar X-1" ifrat ulduzunun kəşfində iştirak etmiş, həmçinin "PS - 17 BK" (vertolyot variantında) Çernobıl AES rayonunda radiasiya vəziyyətinin müəyyənləşdirilməsində geniş istifadə olunmuşdu.

200-dən çox elmi işin müəllifidir, onlardan 90-ı ixtiradır. Onun rəhbərliyi ilə 3 doktorluq və 12 elmlər namizədi dissertasiyaları müdafiə edilmişdir.

T.K.İsmayılov 1991-ci ilin sentyabrında Azərbaycan Respublikasının ilk Dövlət Katibi vəzifəsinə təyin edilmişdi. Xalq qarşısında xidmətlərinə görə "Qırmızı əmək bayrağı" ordeni, "Əməkdə rəşadət" medalı, elm və texnika sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş, K.E. Sialkovski, S.P. Korolyov və Y.A. Qaqarin adına fəxri medallarla təltif edilmişdi.

1991-ci il noyabr ayının 20-də Tofiq Kazım oğlu İsmayılov Qarabağın Qarakənd kəndi üzərində "Mİ-8" hərbi vertolyotunda faciəli şəkildə həlak olmuşdu.

Ədəbiyyat

Xalid. Qarakənd faciəsindən 20 il ötür [Mətn] /Xalid //Üç nöqtə.- 2011.- 19 noyabr.- S.8.

Şirinova, A. Qarakənd düyünü [Mətn] /Arzu Şirinova //Xalq Cəbhəsi.- 2010.- 20 noyabr.- S.10.

Qarakəndin səmasında qara olay... hələ də "dillənməyən" qara yeşik... [Mətn]: (1991-ci il noyabrın 20-də Ağdamın Qarakənd yaxınlığında baş vermiş faciəli hadisə haqqında) //Ədalət.- 2011.- 19 noyabr.- S.21.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

www.ismayilli-ih.gov.az

75 illiyi

Əbülfəz Əliyev 1938-2000

Siyasi xadim



Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) 1938-ci il iyun ayının 24-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndində anadan olmuşdur.

1957-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olmuşdur. 1963-cü ilin yanvarında Misir Ərəb Respublikasına göndərilən Əbülfəz bəy 1964-cü ilin oktyabr ayınadək tərcüməçi kimi çalışmışdır. Xarici ezamiyyətdən dönərək 1965-ci ildə BDU-nun aspiranturasına daxil olmuş və aspirantura təhsilini 1968-ci ildə uğurla tamamlamışdır. 1969-cu ildə "Tulunilər dövləti (868-905)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1968-1975-ci illərdə BDU-nun "Asiya və Afrika ölkələri tarixi" kafedrasında müəllim və baş müəllim işləmişdir.

1975-ci ilin yanvar ayında tələbələr arasında millətçi və antisovet təbliğatı aparmaq adıyla həbs edilmiş və 17 iyul 1976-cı ilədək siyasi dustaq olaraq azadlıqdan məhrum edilmişdir. Əsasən Qaradağ daş karxanasında ağır fiziki işlərə məhkum edilmişdir.

Həbsdən buraxıldıqdan sonra bir müddət işsiz qalmış, 1976-cı ilin dekabrında AMEA Azərbaycan EA Əlyazmalar İnstitutunda kiçik elmi işçi kimi elmi fəaliyyətə başlamışdır. Sonralar 1992-ci ilədək böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdiri vəzifələrinə qədər yüksəlmişdir.

Əbülfəz Elçibəy hələ tələbəlik illərindən sovet rejiminin müstəmləkə siyasətinə qarşı mübarizə aparmış, gizli tələbə dərnəkləri yaratmış və azadlıq ideyalarını geniş şəkildə yaymışdır. Eyni zamanda o, Bütöv Azərbaycan ideyasını da dönmədən təbliğ etmişdir. 1975-ci ildə həbs edilməsi də onu yolundan döndərə bilməmiş, 1988-ci ildə Azərbaycan Xalq Hərəkatı başlayanda Elçibəy onun öndərlərindən biri olmuşdur. O, Hərəkatın təşkilatlanmış forması olan Azərbaycan Xalq Cəbhəsini yaradanlardan (iyul, 1989) biri olmuş və ömrünün sonunadək partiyanın sədri kimi fəaliyyət göstərmişdir.

Əbülfəz Qədirqulu oğlu Əliyev 7 iyun 1992-ci il tarixində Azərbaycan Respublikasında ilk dəfə demokratik yolla keçirilən prezident seçkilərində qələbə qazanmış və 17 iyun 1993-cü ilə qədər hakimiyyətdə olmuşdur. Prezidentlik səlahiyyəti bitdikdən bir qədər sonra - 1997-ci ilin 30 oktyabrında Bakıya dönən Əbülfəz Elçibəy, yenidən Azərbaycan müxalifətinin liderinə çevrilmişdi. O, 1997-ci ilin noyabr ayında "Bütöv Azərbaycan Birliyi"ni yaratmış və ona başçılığı öz üzərinə götürmüşdü, eyni zamanda Türk Xalqları Assambleyasının fəxri sədri seçilmişdi.

O, Azərbaycan tarixşünaslıq və şərqşünaslığında əsaslı elmi araşdırmalar aparmış, onun 40-dan artıq sanballı elmi əsəri nəşr edilmişdir.

Əbülfəz Elçibəy 2000-ci il avqust ayının 22-də - 63 yaşındaykən Türkiyənin Ankara şəhərində vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Bütöv Azərbaycan yolunda [Mətn] /Ə.Elçibəy.- Bakı: Nurlan, 2004.- 376 s.

Deyirdim ki, bu quruluş dağılacaq [Mətn] /Ə.Elçibəy.- Bakı: Gənclik, 1992.- 96 s.

Müstəqillik. İkinci cəhd [Mətn] /Ə.Elçibəy; məsl. və ön sözün müəl. M.Mirəlioğlu; rəyçi A.Əliqızı; red. B.Əbil.- Bakı: Elçibəy kitabxanası, 2001.- 30 s.

Siz xalqın sevgisiylə haqqa catacaqsınız [Mətn] /Ə.Elçibəy.- Bakı: Tanıtım, 2001.- 52 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azdiaspora.org

www.musavat.com

150 illiyi

Hüseyn xan Naxçıvanski 1863-1919

Hərbi xadim



Hüseyn xan Kəlbəli xan oğlu Naxçıvanski 1863-cü il iyun ayının 28-də Naxçıvanda anadan olmuşdur.

On beş yaşında ikən Peterburqdakı Paj korpusu məktəbinə verilmiş, 1881-ci ildə oranı əla qiymətlərlə bitirərək, çarın xüsusi süvari qoşununda xidmət etmişdir. Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan H.Naxçıvanskiyə 1903-cü ildə polkovnik rütbəsi verilmişdir.

1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsində qafqazlılardan təşkil olunmuş 2-ci Dağıstan süvari alayına komandirlik etmişdir.

1906-cı ildə Leybqvardiya polkunun komandiri olmuş, 1907-ci ildə generel-mayor rütbəsinə layiq görülmüşdür.

1912-ci ildə 1-ci Əlahiddə süvari briqadasının komandiri olmuş, Birinci Dünya müharibəsində 1-ci və 2-ci süvari diviziyalarının komandiri Naxçıvanski alman cəbhəsinin məhv edilməsində fərqlənmişdir.

Birinci Dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Naxçıvanskiyə tam süvari qoşunu generalı rütbəsi verilmişdir. Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmiş, Rusiyada Fevral İnqilabından (1917) sonra hərbi işdən uzaqlaşdırılmışdır.

Dördüncü və üçüncü dərəcəli müqəddəs Georgi ordenləri ilə, Müqəddəs Vladimir, ikinci dərəcəli Müqəddəs Aleksandr, Müqəddəs Anna, İgidliyə görə, İranın almazla bəzədilmiş 2-ci və 4-cü dərəcəli Şir-Xurşid, zabitlərə məxsus Rumın ulduzu, Avstriyanın Dəmir xaç, Bolqarıstanın Döyüş xidmətlərinə görə ordenləri, dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla təltif olunmuşdur.

1919-cu ildə 56 yaşında Petroqradda vəfat etmişdir. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastrının qəbiristanlığındadır. Görkəmli Azərbaycan generalının bolşeviklər tərəfindən güllələndiyi ehtimal edilir.

Ədəbiyyat

İvanov, R.N. Əlahəzrətin general-adyutantı [Mətn]: Hüseyn xan Naxçıvanski haqqında hekayə /R.N.İvanov; ön sözün müəl. İ.Həbibbəyli; rus dilindən tərc. və izahların müəl. Q.Qurbanlı; [Heydər Əliyev Fondu].- Naxçıvan: Əcəmi, 2008.- 367 s.

Naxçıvanski Hüseyn xan Kəlbəli xan oğlu [Mətn] //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.438-439.

Nəzirli, Ş. Hüseyn Xan Naxçıvanski [Mətn] //Nəzirli Ş. Arxivlərin sirri açılır.- Bakı, 1999.- S.15-17.

Rusiyada qüdrətli sərkərdə Hüseyn xan Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi barədə məsələ qaldırıb [Mətn] //Azərbaycan.-2008.- 10 avqust.- S.6.

İnternetdə

www..anl.az

www.adam.azlent.az

www.az.wikipedia.org

www.shexsiyyetler.nakhchivan.az

130 illiyi

Sona Vəlixan 1883-1982

Göz həkimi



Sona İbrahim qızı Vəlixan 1883-cü il iyun ayının 19-da Xarkov şəhərində anadan olmuşdur.

O, Peterburq Tibb İnstitutunu 1908-ci ildə bitirmiş və Azərbaycanda ilk ali təhsilli qadınlar arasında layiqli yer tutmuşdur.

1923-1939-cu illərdə Sona Vəlixan Azərbaycan Tibb İnstitutunun Göz xəstəlikləri kafedrasında assistent, dosent və professor vəzifəsində çalışmış, 1939-1971-ci illərdə isə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuşdur.

1946-1960-cı illərdə Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır.

Sona Vəlixan 60-dan artıq elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Onun elmi işləri əsasən cüzam, sifilis, vərəm və müxtəlif şişlər nəticəsində zədələnmiş görmə üzvünün morfoloji dəyişiklikləri, gözün zədəsi, qlaukoma və traxoma problemlərinə həsr olunmuşdur.

Tibb elmləri doktoru elmi dərəcəsini alan ilk Azərbaycan qadını olmuşdur. Elmi işinin dərinliyinin və dəyərinin təsdiqi 1931-ci ildə "Endoftalmitin patoloji anatomiyasına dair" məqaləsi ilə Nobel Komitəsinin diqqətini özünə cəlb etməsi olmuşdur.

Ömrünün böyük hissəsini oftalmoloq kadrların hazırlanması kimi nəcib işə həsr etmiş, onun rəhbərliyi altında 3 doktorluq və 18 namizədlik dissertasiyası müdafiə edilmişdir. Professor Sona xanım kliniki işlə bərabər geniş konsultativ iş də aparmış, elmi-pedaqoji, müalicə fəaliyyəti ilə yanaşı ictimai problemlərə də böyük məsuliyyətlə yanaşmışdır.

1945-1950-ci illərdə o, Respublika Oftalmoloqlar Cəmiyyətinin sədri olmuşdur.

O, 1942-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, orden və medallarla təltif olunmuşdur.

Sona Vəlixan 1982-ci il aprel ayının 4-də vəfat etmişdir.

Ədəbiyyat

Vəlixan Sona İbrahim qızı [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası.- Bakı, 1978.- C.2.-S.463.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

www.gender-az.org

www.kataloq.net

www.zarifa-aliyeva.az

85 illiyi Cəlal Əliyev 1928

Akademik



Ədəbiyyat

Bioloji müxtəliflik [Mətn] /C.Əliyev, Z.Əkpərov, A.Məmmədov.- Bakı: Elm, 2008.- 231 s.

Tərəvəz bitkilərinin mineral elementlərlə qidalanması və məhsulun fiziologiyası [Mətn] /C.Əliyev; red. T.Cahangirov.- Bakı: Azərnəşr, 1981.- 90 s.

Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı [Mətn] /C.Əliyev, B.Budaqov; red. R.Kərimova.- Bakı: Azərnəşr, 2003.- 72 s.

Cəlal Əlirza oğlu Əliyev [Mətn]: biblioqrafiya /tərt. Ç.Əhmədova; red. A.Orucova; Azərbaycan Elmlər Akademiyası, Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 1994.- 144 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.jalal-aliyev.az

www.meclis.gov.az

Cəlal Əlirza oğlu Əliyev 1928-ci il iyun ayının 30-da Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini və Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. 1948-ci ildən Azərbaycan Dövlət Universitetinin Bitki fiziologiyası kafedrasında laborant işləmişdir. 1954-cü ildən Azərbaycan EA-nın Elmi Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1971-1990-cı illərdə Azərbaycan EA-nın Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, laboratoriya müdiri, şöbə müdiri, Azərbaycan EA-nın Biologiya elmləri bölməsinin akademik-katibi olmuşdur. Biologiya elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının həqiqi üzvü, Ukrayna Aqrar Elmlər Akademiyasının və Belarus Kənd Təsərrüfatı Elmlər Akademiyasının xarici üzvüdür. Əməkdar elm xadimidir. Onlarla monoqrafiyanın, kitabın və yüzlərlə elmi məqalənin müəllifidir. Akademik C.Əliyev və onun hazırladığı kadrlar 1993-cü ildə bioloji məhsuldarlıq proseslərinin molekulyar əsaslarının öyrənilməsində böyük nailiyyətlərə görə Beynəlxalq Soros Fondunun 8 qrantına layiq görülmüşlər.

C.Əliyev bir sıra beynəlxalq və milli cəmiyyətlərin, o cümlədən Bitkilərin molekulyar biologiyası üzrə beynəlxalq cəmiyyətin (1994), Amerika bitki bioloqları cəmiyyətinin (1994), Forosintez tədqiqatları üzrə beynəlxalq cəmiyyətin (1995), Yaponiya bitki fizoloqları cəmiyyətinin (1997), Hüceyrə stresi üzrə beynəlxalq cəmiyyətin (1998) üzvüdür. Eyni zamanda YUNESKO yanında "Bioetika, elmi biliklərin və texnologiyaların etikası" Milli Komitəsinin (1999) sədridir. C.Əliyev həm də 1994-cü ildən etibarən Azərbaycanda biologiya elminin yeni sahələrini inkişafı fondunun (BEYSİF) prezidentidir.

I-III çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2011-ci il noyabrın 7-də 62 saylı Saatlı seçki dairəsindən yenidən Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir. Hazırda Azərbaycan MEA-nın Rəyasət Heyətinin, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. Akademik Cəlal Əliyev elm qarşısında böyük xidmətlərinə görə 2 dəfə "Qırmızı əmək bayrağı" (1978, 1986), Müstəqil Azərbaycan Respublikasının ən ali mükafatı olan "İstiqlal" (1998) və Gürcüstan Respublikasının "Şərəf" (2003) ordenləri ilə, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" (2008) ilə təltif olunmuşdur.

Texnika

85 illiyi

Tofiq Əliyev 1928-1993

Alim,Mühəndis



Tofiq Məmməd oğlu Əliyev 1928-ci il iyun ayının 1-də Gəncə şəhərində anadan olmuşdur.

1945-ci ildə Gəncə şəhərində 4 saylı orta məktəbi qızıl medalla bitirmiş və həmin il Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə daxil olmuşdur.

1951-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək mühəndis elektrik ixtisasına yiyələnmişdir.

1967-ci ilin iyun ayında doktorluq dissertasiyasını müdafiə etmişdir.

1988-ci ilin iyun ayından etibarən o, indiki Azərbaycan Dövlət Neft Akademiyasına elmi işlər üzrə prorektor vəzifəsinə, həmin ilin dekabrından isə rektor vəzifəsinə təyin edilmiş və 1993-cü ilə kimi bu vəzifədə çalışmışdır. O, Azərbaycan "Cihazsənaye" Elmi-Texniki Cəmiyyətinin sədri, Sumqayıt şəhər Xalq Deputatları Şurasının deputatı seçilmiş, 1969-cu və 1983-cü illərdə 2 dəfə SSRİ və 1974-cü ildə 1 dəfə Azərbaycan SSR Dövlət Mükafatları laureatı olmuş, 1981-ci ildə "Azərbaycanın Əməkdar elm və texnika xadimi" fəxri adına, "Şərəf Nişanı" ordeninə layiq görülmüşdür.

Akademik T.M.Əliyev xarici ölkələrdə keçirilən elmi forumlarda Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

O, 227 elmi məqalənin, 213 ixtiranın, 40-a yaxın monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifi olmuşdur. Onun rəhbərliyi altında 5 elmlər doktoru, 38 elmlər namizədi hazırlanmışdır.

Görkəmli alim 1993-cü ildə vəfat etmişdir.

Ədəbiyyat

Elektrik ölçmələri: ossiloqraflar, qeyri-elektrik kəmiyyətlərinin ölçülməsi, informasiya-ölçmə sistemləri[Mətn]: dərs vəsaiti /T.Əliyev, R.Mirsəlimov, T.Həsənov; red. M.Qasımzadə.- Bakı, 1986.- 104 s.

Mikroprosessorlu ölçmə cihazları, qurğuları və sistemləri [Mətn]: dərs vəsaiti /T.Əliyev, R.Mirsəlimov, T.Həsənov; red. T.Əliyev; Azərbaycan SSR Xalq Təhsili Nazirliyi, M.Əzizbəyov adına Azərbauycan Neft və Kimya İnstitutu.- Bakı, 1989.-227 s.

İnternetdə

www.anl.az

www.azerbaijan.az

İYUN

1

Uşaqların Beynəlxalq Müdafiəsi Günü 1950



Uşaqların Beynəlxalq Müdafiəsi Günü (ing. International Children's Day) 1950-ci il iyun ayının 1-dən etibarən BMT Baş Assambleyasının qərarı ilə qeyd olunmağa başlanmışdır. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənmiş və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilmişdir. Bundan sonra iyun ayının 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir.

Bu bayramla yanaşı BMT-nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. "Ümumdünya Uşaqlar Günü" 1954-cü ildə BMT-nin Baş Assambleyasının №836 (IX) saylı qətnaməsində 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayram kimi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama görə 2009-cu il "Uşaq ili" elan olunmuşdur.

Tarixə nəzər salsaq görərik ki, ilk dəfə olaraq Uşaqların hüquqlarını təmin edən bəyənnamə 1924-cü ildə qəbul edilmişdir. Bu bəyənnamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyənnamənin qəbul edilməsində ilk işlər Eglantyne Djebb tərəfindən edilmişdir. Eglantyne Djebb bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə, uşaqlara yardım göstərmiş, onların müdafiəsini təmin etmək məqsədilə Londonda "uşaqlara yardım fondu"nun əsasını qoymuşdu.

Ədəbiyyat

Qocayev, Ə. 1 iyun-Uşaqları Beynəlxalq Müdafiə Günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.-Bakı: Altun Kitab, 2006.- S.110-112.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.fenomen.az

www.milli.az

Milli Qurtuluş Günü
1993



1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdü. Qiyamçı hərbi hissənin rəhbərliyi, əvvəlcə o vaxtki Baş nazir və Milli Məclis Sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdi. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdı. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdü. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdı. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdu. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdi. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdi. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil edilmişdir.

Ulu öndərin 1993-cü ilin 15 iyun tarixində Ali Sovetin Sədri seçilməsi Azərbaycanda eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etmişdi. Heydər Əliyev bu vəzifədə səylə çalışaraq ilk növbədə parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdı. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdi.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdi. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir. Artıq bir neçə ildir ki, xalq bu günü Heydər Əliyevin məzarını ziyarət etməklə anır.

Ədəbiyyat

İbrahimov, E. 15 iyun olmasaydı, nə Azərbaycan, nə də suveren dövlət olacaqdı: Eldar İbrahimov: "Heydər Əliyev işığında müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcəyinə əminik" [Mətn] /E. İbrahimov //Kaspi.- 2010.- 12-14 iyun.- S.5.

Qasımov, A. Qayıdışdan başlanan Qurtuluş [Mətn] /A.Qasımov //Azərbaycan .-2012.- 9 iyun.- S. 2.

Niyazov, X. Tarixi taleyimizin Qayıdış səhifəsi 1993-cü il iyunun 9-da Heydər Əliyevi Naxçıvandan Bakıya gətirən yol Azərbaycan xalqının və onun dövlətçiliyinin nicat və qurtuluş yoluna çevrildi [Mətn] /X.Niyazov //Azərbaycan.-2012.- 12 iyun.- S. 2.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

İYUN

20

Tarixdə bu gün

Ümumdünya Qaçqınlar Günü 2000



Hər il iyun ayının 20-də BMT Ümumdünya Qaçqınlar Gününü qeyd etməklə bütün dünyanı qaçqınların və məcburi köçkünlərin vəziyyətinə diqqət ayırmağa çağırır. Ümumdünya Qaçqınlar Günü 2000-ci il 4 dekabr tarixində BMT Baş Assambleyası tərəfindən yekdilliklə qəbul olunmuş qətnamə ilə müəyyən edilmişdir. 20 iyunda qaçqınların və məcburi köçkünlərin cəsurluğu, mətanət və iradəsi qeyd olunmaqla onlara mənəvi dəstək verilir.

Bu gün BMT QAK 6300 nəfər heyətlə 120 ölkədə fəaliyyət göstərir. Heyətin 80 faizdən çoxu dünyanın müxtəlif yerlərindəki sahə ofislərində, tez-tez isə ailələrindən ayrı, çətin şərtlər altında çalışır.

BMT-nin açıqlamasına görə dünyada 15.4 milyon qaçqının beşdə dördü kasıb ölkələrin payına düşür. Qaçqınların ümumi sayının dördə birindən bir qədər çox isə 3 ölkəyə - Pakistan, İran və Suriyaya aiddir. Bu göstəriciyə Şimali Afrika və Yaxın Şərqdə baş verən son ixtişaşlardan qaçqın düşən insanlar daxil edilməmişdir. Onların sayı isə artmaqda davam edir. Dünya qaçqınları sırasında Azərbaycanın da 20 faiz torpaqları erməni yaraqlıları tərəfindən işğal edilib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı öz yurd-yuvasından qaçqın düşüb.

Azərbaycanda BMT QAK-ın 20 nəfərlik heyəti qaçqın və sığınacaq axtaran şəxslərə zəruri maddi yardımın göstərilməsi və mümkün olduqca fəal şəkildə davamlı həll yollarını təmin etməkdən ibarətdir. Azərbaycan hökumətinin 250 mindən çox qaçqının inteqrasiya edilməsi və yarım milyondan artıq məcburi köçkünün yaşayış şəraitinin yaxşılaşdırılması BMT-nin Qaçqınlar üzrə Ali Komissarı və BMT Baş Katibinin məcburi köçkünlərin hüquqları üzrə xüsusi nümayəndəsi tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilmişdir. Təşkilat məcburi köçkünlərin hələ də üzləşdikləri humanitar problemlərin aradan qaldırılmasında və onların hüquqlarının, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli nəticəsində öz doğma yurdlarına qayıtma hüququnun qorunması sahəsində hökumətin səylərinə fəal şəkildə qoşulmuş və dəstək vermişdir.

20 iyunda biz dünya qaçqınlarını yada salır, həyata ruhlandırır, onlara mənəvi dəstək göstəririk. Bu şərəf və ləyaqətini ən çətin şəraitdə qorumaq üçün mücadilə edən didərgin və yurd yuvasından məhrum olmuş insanların həmrəyliyi günüdür.

Ümumdünya Qaçqınlar Günü münaqişələr nəticəsində doğma yurd yuvalarından didərgin düşənlərə dəstək olmaq üçün imkan yaradır. Ümumdünya Qaçqınlar gününün qeyd edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini bu insanların yaşadıqları ağır şəraitə cəlb etməkdir.

Ədəbiyyat

Ümumdünya Qaçqınlar Günü...: Əli Həsənov: "Ermənistandan qovulmuş insanlar öz doğma yurdlarına qayıdana qədər onların qaçqın statusu saxlanılır" [Mətn] //Hürriyyət.- 2009.- 19-21 iyun.- S.11.

Sultanova, M. Qaçqın və məcburi köçkünlərə dövlət qayğısı daim diqqət mərkəzindədir: 20 iyun Ümumdünya Qaçqınlar Günüdür [Mətn] /M.Sultanova //Ekran-efir.- 2009.- 19 iyun.- S.1,2.

İnternetdə

www.azadliq.org

www.refugees-idps-committee.gov.az

95 illiyi

Milli Silahlı Qüvvələr Günü 1918



26 iyun tariximizin əlamətdar səhifələrindən biri - Azərbaycan Milli Ordusunun yarandığı gündür. 1918-ci il iyun ayının 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk milli diviziyanın və Hərbi Nazirliyin yaradılması barədə qərar qəbul etmişdir.

Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri idi. Məhz güclü, nizami ordu 1918-ci il may aının 28-də elan edilmiş istiqlalın bütün ölkə ərazisində qələbə çalmasını təmin edə bilərdi. Artıq iyun ayının əvvəlində Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə cümhuriyyətə qarşı savaşa başlamışdı. Məqsəd milli hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin daşnaklar buna nail ola bilmədilər.

İyun ayının 26-da ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul edilmiş, Azərbaycan Milli Ordusunun təməli qoyulmuşdu. General Səmədağa Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin olunmuşdu.

1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ olmuşdu. Ordunun yaradılması prosesi 1920-ci il yanvar ayında əsasən başa çatdırılmışdı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi

1920-ci ilin aprel ayında XI Qızıl Ordu Azərbaycan sərhədlərinə yaxınlaşmış və A.Mikoyan başda olmaqla Bakı bolşevikləri rus ordusunu Bakıya çağırmışdı. Milli Ordunun sərhəddəki azsaylı hissələri ruslara müqavimət göstərə bilməmişdi. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamış, Bakıda milli hökumət süqut etmişdi. Azərbaycan istiqlaliyyətinin süqutu ilə Milli Ordunun mövcudluğuna da son qoyulmuşdu. Bolşevik hökuməti isə artıq 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret vermişdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i bolşeviklər tərəfindən güllələnmiş, komandirlərin böyük hissəsi repressiyaya məruz qalmışdı.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Məhz Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğuna başlanmışdı.

Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilmişdir. Hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

1 iyul

Gün çıxır 06:14
Gün batır 21:35

31 iyul

Gün çıxır 06:36
Gün batır 21:16

İYUL



Xərcəngin Nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

B.E.	1
Ç.A.	2
Ç.	3
C.A.	4
C.	5
Ş.	6
B.	**7**
B.E.	8
Ç.A.	9
Ç.	10
C.A.	11
C.	12
Ş.	13
B.	**14**
B.E.	15
Ç.A.	16
Ç.	17
C.A.	18
C.	19
Ş.	20
B.	**21**
B.E.	22
Ç.A.	**23**
Ç.	24
C.A.	25
C.	26
Ş.	27
B.	**28**
B.E.	29
Ç.A.	30
Ç.	31

- *Azərbaycan Polisi Günü (02.07.1998)*
- *TÜRKSOY (Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) yaranmasının (12.07.1993) 20 illiyi*
- *Qadınların ilk dəfə müasir olimpiya oyunlarında (Londonda) iştirak etməsi tarixi (13.07.1908)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.1875)*
- **Ağdam rayonunun işğalının 20-ci ildönümü (23.07.1993)**

90 il Heydər Əliyev 1923-2003



Türkdilli dövlətlər birliyi əmələ gələndən sonra bizim təşkilatlar içərisində ən irəli getmiş qurumlardan biri TÜRKSOY-dur. TÜRKSOY hamını birləşdirir. Amma hansısa başqa bir təşkilatda hərə bir tərəfə çəkir. Ona görə biz sizin təşkilata çox diqqət yetirir, əhəmiyyət veririk. Biz dövlət başçıları olaraq, türkdilli dövlət başçılarının toplantılarında birinci növbədə mədəni əlaqələri inkişaf etdirmək məsələsini qoyuruq. Təbiidir, iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi məsələləri də vardır. Bunların hamısı vardır. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur.

Bizi bir-birimizə bağlayan nədir? Dilimizin kökü. Düzdür, bəziləri bir-birini başa düşmür. Amma biz dinimizə görə eyni kökdən gəlmiş xalqlarıq.

İkincisi, bizim müştərək mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bizim yaxın adət-ənənələrimiz vardır.

Heydər Əliyev, ümummilli lider

İYUL

2013



Milli ədəbiyyat

Şair Məmmədov Sultan İsgəndər oğlunun (Sultan Mərzili) (01.07.1948) anadan olmasının **65** illiyi

Yazıçı, tərcüməçi Ağayeva Şəfiqə Əli qızının (06.07.1918-07.10.1983) anadan olmasının **95** illiyi

Publisist, şair, Əməkdar jurnalist Nəcəfova Svetlana Hacı qızının (08.07.1938) anadan olmasının **75** illiyi

Tərcüməçi Mirkişiyev Mehdi Mirkişi oğlunun (15.07.1928-27.09.1992) anadan olmasının **85** illiyi

Şair, ədəbiyyatşünas, publisist Nuriyev Sabir Ayyət oğlunun (Sabir Nuri Türkel) (16.07.1938) anadan olmasının **75** illiyi

Ədəbiyyatşünas, publisist Məmmədzadə Əbdülvahab Hacı Zeynalabdin oğlunun (Yurdsevər) (17.07.1898-07.10.1976) anadan olmasının **115** illiyi

Ədəbiyyatşünas, tərcüməçi, professor Bayramov Akif Əmirxan oğlunun (20.07.1938) anadan olmasının **75** illiyi

Ədəbiyyatşünas və publisist Abdulla Tofiq-Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadənin (Abdulla Sur) (23.07.1883-08.05.1912) anadan olmasının **130** illiyi 209

Dramaturq, ssenarist Haqverdiyev Marat Xanlar oğlunun (21.07.1938) anadan olmasının **75** illiyi



Folklor

Şair Xudiyev Bayraməli Abbasəli oğlunun (Xəstə Bayraməli) (10.07.1898-1952) anadan olmasının **115** illiyi 210



Dünya ədəbiyyatı

Avstriya yazıçısı Kafka Fransın (03.07.1883-03.06.1924) anadan olmasının **130** illiyi 211

İsrail yazıçısı, Nobel mükafatı laureatı Aqnon (Çaçkes) Şmuel Yosefin (17.07.1888-17.02.1970) anadan olmasının **125** illiyi

Rus yazıçısı Çernışevski Nikolay Qavriloviçin (24.07.1828-29.10.1889) anadan olmasının **185** illiyi 211



Heykəltəraşlıq.Rəssamlıq. Memarlıq

SSRİ Xalq rəssamı, heykəltəraş Sabsay Pinxos Vladimiroviçin (02.07.1893-25.04.1980) anadan olmasının **120** illiyi 212



Musiqi.Opera.Balet

Xalq artisti, tanınmış müğənni Babayev Mirzə Əbdülcabbar oğlunun (16.07.1913-13.01.2003) anadan olmasının **100** illiyi 213
Fransız bəstəkarı, Adan (Adam) Adolf Şarlın (24.07.1803-03.05.1856) anadan olmasının **210** illiyi



Teatr. Kino

Xalq artisiti, aktyor Jarikov Pyotr Pavloviçin (08.07.1888-09.01.1969) anadan olmasının **125** illiyi
Xalq artisti, aktyor Adıgözəlov Telman Abbasqulu oğlunun (17.07.1953-15.04.2010) anadan olmasının **60** illiyi
Əməkdar incəsənət xadimi Qələndərli Baxşı Həsən oğlunun (20.07.1903-14.09.1985) anadan olmasının **110** illiyi
Xalq artisti, kino rejissor Əzizbəyli Ramiz Hacıağa oğlunun (20.07.1948) anadan olmasının **65** illiyi 214



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı İsgəndərov Əlabbas Qara oğlunun (25.07.1958-04.03.1992) anadan olmasının **55** illiyi 215
Azərbaycanın Milli Qəhrəmanı Yusifov Roman Yasəf oğlunun (28.07.1973-17.03.1995) anadan olmasının **40** illiyi 216



Siyasət.Hərbi iş

Dövlət xadimi Musabəyov Qəzənfər Mahmud oğlunun (26.07.1888-09.02.1938) anadan olmasının **125** illiyi



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Akademik, hüquqşünas Kərimov Cahangir Abbas oğlunun (18.07.1923) anadan olmasının **90** illiyi
Kənd təsərrüfatı elmləri doktoru, professor Güləhmədov Əbdürrəhman Niyaz oğlunun (25.07.1908-1989) anadan olmasının **105** illiyi
ABŞ sənayeçisi Ford Henrinin (30.07.1863-07.04.1947) anadan olmasının **150** illiyi



Mədəniyyət.Maarif.Elm

Əməkdar elm xadimi, "Qızıl qələm" mükafatı laureatı, publisist, tədqiqatçı, şair Rəhimov Kamran Nəbi oğlunun (04.07.1928-2007) anadan olmasının **85** illiyi 217
Əməkdar mədəniyyət işçisi, əmək veteranı Əzimov Hüseynqulu Qurban oğlunun (05.07.1913-08.02.1987) anadan olmasının **100** illiyi



İdman

İdmançı Səfərov Əfqan Heydər oğlunun (19.07.1918) anadan olmasının **95** illiyi

Kimya. Biologiya.Tibb



Kimya elmləri doktoru, Rzazadə Püstəxanım Fərəməz qızının (02.07.1913-02.05.1981) anadan olmasının **100** illiyi

Əməkdar elm xadimi, fizioterapevt Allahverdiyev Əliheydər Nəcəfqulu oğlunun (30.07.1888-12.05.1972) anadan olmasının **125** illiyi

Texnika



Mühəndis-geoloq, geologiya-mineralogiya elmləri doktoru Salmanov Fərman Qurban oğlunun (28.07.1928) anadan olmasının **85** illiyi

Tarixdə bu gün



Bakıda Xəzər gəmiçiliyi fəaliyyətə başlamışdır (01.07.1858)
Bakıda ilk ümumi siyasi (tətil) başlanmışdır (01.07.1903)
İlk dəfə Beynəlxalq SOS fəlakət siqnalı verilməsinin (dəniz gəmilərinin xilası üçün universal çağırış) (01.07.1908) **105** illiyi 218
Azərbaycanla Tunis arasında diplomatik əlaqələr yaranıb (01.07.1998)
AzXC dövründə ilk polis bölümü yaradılmışdır (02.07.1918)
Azərbaycan Polisi Günü (02.07.1998) 218
Azərbaycan Respublikası ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunub (07.07.1923) 219
Ermənistan silahlı qüvvələri tərəfindən Ağdərə (Mardakert) rayon mərkəzinin işğalının 20 ili (07.07.1993)
TÜRKSOY (Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının) yaranmasının (12.07.1993) **20** illiyi 220
Qadınların ilk dəfə müasir olimpiya oyunlarında (Londonda) iştirak etdiyi gün (13.07.1908)
Milli Mətbuat və Jurnalistika Günü (22.07.1875) 221
Azərbaycan SSR MİK və Azərbaycan SSR XKS-i məcburi qaydada yeni - latın qrafikalı əlifbaya keçilməsi haqqında qərar vermişdir (22.07.1928)
Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalının 20-ci ildönümü (23.07. 1993) 222
I Pyotrun göndərdiyi rus qoşunlarının Bakını işğal etdiyi gün (28.07.1723)

130 illiyi Abdulla Sur 1883-1912

Ədəbiyyatşünas



Ədəbiyyat

Cəfərov, T. Abdulla Sur (1883-1912) [Mətn] //Cəfərov T. Məktəblinin ədəbiyyat lüğəti.- Bakı, 2007.- S.6.

Əlizadə, Ə. Məhəmmədzadə Abdulla Tofiq ağa Məhəmməd oğlu (Abdulla Sur) //Əlizadə Ə. XX əsr Gəncənin görkəmli elm, mədəniyyət, partiya və dövlət xadimləri.- Bakı, 2008.- S.204-205.

Abdulla Sur [Mətn] //Əhmədov T. XX əsr Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı, 2004.- S.24-25.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

Abdulla Tofiq-Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə (Abdulla Sur) 1883-cü il iyul ayının 23-də Gəncədə doğulmuş, ilk təhsilini Gəncədəki Xeyriyyə məktəbində almışdır. Burada müxtəlif dünyəvi elmlərlə yanaşı ərəb və fars dillərini də öyrənmiş, çox gənc yaşda təhsil aldığı məktəbin müəllimi olaraq işləməyə başlamışdır. Dərin savadı, ədəbi zövqü və geniş mühakiməsiylə çox qısa zamanda bütün Gəncə ziyalıları arasında tanınmışdır. İlk məqalələri 1903-cü ildə Tiflisdə nəşrə başlayan "Şərqi-Rus" qəzetində çap olunmuşdur. Həmin ildə Tiflisə köçərək bu qəzetin təsisçisi işləmişdir. Abdulla Surun 1903-cü ildə başlayan mətbuat həyatı, qəzetçilik fəaliyyəti onun qısa ömrünün sonuna qədər davam etmişdir.

O, Qafqazın müxtəlif mətbuat orqanlarına "A.Sur", "Məhəmmədzadə", "Qafqasiyalı", "A.Tofiq", "Gəncəli", "Abdulla Məhəmmədzadə", "Bir Adam" və başqa imzalarla məqalələr yazmışdır. "Şərqi-Rus" bağlandıqdan sonra yenidən Gəncəyə qayıdan Abdulla Sur burada müəllimlik fəaliyyətini davam etdirmiş, eyni zamanda "Həyat" və "İrşad" qəzetlərinə ədəbiyyat və mədəniyyət mövzularında məqalələr yazmışdır.

1906-cı ildə Abdulla Sur İstanbula getmiş, iki il yarım burada yaşayaraq, İstanbul Darülfünunda (Universitetində) ədəbiyyat müəllimi kimi çalışmışdır. Türk qəzetlərində məqalələri çap olunmuşdur. Həyatının İstanbul dövründə ən böyük və ən önəmli əsərini -"Türk ədəbiyyatına bir baxış" kitabını yazmağa başlamışdır. Həcmi min səhifədən artıq olan bu kitabı bitirsə də, çap etdirməmiş, əlyazma halındakı kitabın çox hissəsi itmiş, yalnız ayrı-ayrı parçaları qalmışdır.

İstanbulda 1908-ci ilin noyabr ayına qədər yaşayan Abdulla Sur burada Osmanlı ədəbiyyatı haqda araşdırmalar aparmış, İbrahim Şinasinin "Şair evlənməsi" əsərini Türkiyə türkcəsindən Azərbaycan türkcəsinə çevirmişdir. Rus dilində yazılmış olan coğrafiyaya dair bir kitabı da türkcəyə çevirmişdir. Bütün bunlardan əlavə üç cildlik bir antalogiya hazırlamağa başlamışdır.

Azərbaycana qayıtdıqdan sonra Abdulla Surun Azərbaycanın mədəniyyət həyatına daha böyük qatqısı olmuşdur. O, 1910-cu ildə Gəncədə "Ədəbiyyat və Sənət" cəmiyyətini qurmuşdu. Bu cəmiyyətin əsas məqsədi istedadlı gəncləri üzə çıxarmaq, onların qarşıdakı təhsillərinə kömək etmək idi. Cəmiyyət yeni ədəbiyyat və sənət əsərlərini ortaya çıxarmaq üçün müsabiqələr də təşkil etmişdi.

XX əsrin tanınmış şairlərindən olan Əhməd Cavad Gəncədə Abdulla Surdan ədəbiyyat dərsləri almış və uzun müddət onun təsirində qalmışdır. Sur isə Firidun bəy Köçərlini özünün müəllimi saymaqla bərabər "Azərbaycan Ədəbiyyatı" əsərinin yazılmasında ona kömək etmişdir.

Abdulla Sur 1912-ci il may ayının 8-də ağır xəstəlikdən sonra Tiflis xəstəxanasında dünyasını dəyişmiş və Gəncə Səbiskar qəbiristanlığında dəfn olunmuşdur.

115 illiyi

Xəstə Bayraməli 1898-1952

Aşıq-şair



Bayraməli Abbasəli oğlu Xudiyev (Xəstə Bayraməli) 1898-ci il iyul ayının 10-da Göyçə mahalının Nərimanlı kəndində anadan olmuşdur. Yaradıcılığa çox erkən yaşlarından başlamışdır.

Görkəmli aşıq zəngin yaradıcılığı, epik-lirik poema səpgili hekayətləri, əruz vəznində yazdığı qəzəlləri, beşlikləri, doqquzluqları ilə Göyçə ədəbi mühitinə yeni bir abu-hava gətirmiş, yazılı ədəbiyyatla şifahi xalq ədəbiyyatı arasında möhtəşəm bir körpü salmışdı. Onun qəzəllərini və hekayətlərini xanəndələr, sözlərinə yazılan bəstəkar mahnılarını müğənnilər, qoşmalarını, gəraylılarını, təcnislərini, müxəmməslərini, divanilərini aşıqlar oxuyur. Bir neçə mövzuda yazdığı silsilə şeirlərinə xanəndələrin, müğənnilərin ifasında yazılan audiokassetlər bütün Şərq aləminə yayılmışdır. Şairin "Durnalar" şeirinə yazılan bəstəkar mahnısı məzmununa görə böyük maraq doğurmuşdur. Onun Azərbaycan, Türkiyə və İranda dərc olunmuş kitabları milyonlarla poeziya həvəskarının stolüstü kitabına dönmüşdür.

1987-ci ildə "Yazıçı" nəşriyyatında buraxılan "Mənim Göyçəm" adlı şeirlər kitabı neçə illər ərzində öz populyarlığını saxlamışdır.

2003-cü ildə Cənubi Azərbaycanın Təbriz şəhərindəki "Əxdər" nəşriyyatında fars əlifbası ilə dərc edilən "Mənim Göyçəm" kitabı da böyük marağa səbəb olmuşdur.

2008-ci ildə "Nərgiz" (Bakı) nəşriyyatında Xəstə Bayraməlinin öz misrası ilə ad alan böyük tirajlı "Mən ulu Göyçəmin şair oğluyam" adlı kitabı da geniş oxucu kütləsinin və mütəxəssislərin maraq dairəsindədir.

Bunlardan əvvəl və sonra da bir çox almanaxlarda şairin əsərləri özünəməxsus yer tutmuşdur.

Hələ sağlığında onun bütün həyatı Göyçə mahalına olan erməni təzyiqləri ilə mübarizələrdə keçmiş, bununla yanaşı möhtəşəm Göyçə epopeyasını yaratmışdır.

Vətənpərvər şair, son dərəcə xeyirxah insan Xəstə Bayraməli 1952-ci il mart ayının 15-də Nərimanlı kəndində vəfat etmişdir.

Ədəbiyyat

Mən ulu Göyçənin şair oğluyam [Mətn]: şeirlər /Xəstə Bayraməli; tərt. M.Xudubəyli; red.: Ə.Ağahüseynqızı, E.Xuduyeva.- Bakı: Nərgiz, 2008.- 156 s.

Mənim Göyçəm [Mətn]: [şeirlər] /X. Bayraməli; köçürən H. Siyami.- [Təbriz] : [s. n.], 2004.- 175 s.

İnternetdə

www.anl.az

www.az.wikipedikia.org

www.elibrary.az

www.kitab.az

3

130 illiyi

Frans Kafka
1883-1924

Avstriya yazıçısı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /F.Kafka; ön sözün müəl. M.Qarayev; burax. məsul: Ə.Güləliyev.- Bakı: Şərq-Qərb, 2006.- 360 s.

www.franz-kafka.ru

Frans Kafka 1883-cü il iyul ayının 3-də Praqanın keçmiş qetto məhəlləsi olan Yozef rayonunda yəhudi ailəsində anadan olmuşdur.

1889-cu ildən 1893-cü ilə qədər Kafka Praqada Flayşmarktdakı "Alman uşaq məktəbi"ndə təhsil almışdır. Sonra o, atasının arzusu ilə Praqada Humanitar gimnaziyaya getmişdir.

1901-1906-cı illərdə Praqada Karl-Ferdinads-Universitetində təhsil almışdır. Yaşadığı dövrdə Kafka yazıçı kimi tanınmamışdır. O, ölüm qabağı bütün əsərlərinin məhv edilməsini vəsiyyət etmişdir. "Hökm", "Çevrilmə", "Cəza koloniyası", "Kənd həkimi" və "Ac sənətçi", "Baxış", "Qəsr" kimi əsərləri dünya ədəbiyyatı nümunələri sırasında əhəmiyyətli əsərlərdən sayılır və XX əsr dünya ədəbiyyatına böyük təsir göstərmişdir.

Onun ölümündən sonra dostu Maks Brod onun əsərlərini vəsiyyətinin əksinə olaraq çap etdirir. Həyat və yaradıcılığına həsr edilmiş həmçinin əsərləri əsasında filmlər çəkilmişdir.

Frans Kafka Kirlinq sanatoriyasında 1924-cü il iyun ayının 3-də vərəm xəstəliyindən vəfat etmişdir.

24

185 illiyi

Nikolay Çernışevski
1828-1889

Rus yazıçısı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /N.Q.Çernışevski, A.İ.Gertsen; red. şurası. A.Zamanov və b.; illüs. R.Hüseynov; tərc. ed. M.İbrahimov, A.Məhərrəmov.- Bakı: Gənclik, 1987.- C.XXX.- 710 s.

Рустамова, З. Концепция человека в наследии Н.Г.Чернышевского [Текст]: тоногрaфия /З.Рустамова.- Баку: Нурлан, 2006.- 271 с.

Nikolay Qavriloviç Çernışevski 1828-ci il iyul ayının 24-də Saratov şəhərində keşiş ailəsində doğulmuşdur. 1853-cü ildə Peterburqa köçmüş, "Отечественные записки" jurnalında əməkdaşlıq etmişdir. Nikolay Qavriloviç 1853-1856-cı illərdə "Современник" jurnalının redaktoru və ideya rəhbəri olmuşdur.

1850-ci ildə Peterburq Universitetinin tarix-filologiya fakültəsini bitirmişdir. 1861-1862-ci illərdə "Земля и воля" inqilabi təşkilatının təsisçisi olan Çernışevskinin daim artan nüfuzundan təşvişə düşən çar hökuməti onu 1862-ci ildə həbs edərək, Petropavlovsk qalasına salmış, sonra katorqaya Sibirə ömürlük sürgünə məhkum etmişdir. Çernışevskiyə 1883-cü ildə Həştərxanda yaşamağa, 1889-cu ildə isə Saratova qayıtmağa icazə verilmişdir.

1855-ci ildə magistrlik dissertasiyası ilə Rusiyada materialist estetikanın əsasını qoymuşdur.


Çernışevski Şərq, eləcə də Qafqaz, o cümlədən Azərbaycan mədəniyyətinə dərin maraq göstərmiş, onu təbliğ etmişdir. 1855-ci ildə Tiflisdə nəşr olunmuş "Zurna" almanaxı haqqında "Современник" jurnalında 1855-ci ilin 7-ci nömrəsində dərc olunmuş resenziyada Çernışevski almanaxın nəşrini müsbət qiymətləndirmiş, onun müəllifləri sırasında M.F.Axundzadənin adını ikinci çəkmişdir. Çernışevski məşhur şərqşünas alim Kazım bəylə tanış olmuş, ondan Şərq dillərini öyrənmişdir.

Nikolay Qavriloviç Çernışevski 1889-cu ildə oktyabr ayının 29-da Saratov şəhərində vəfat etmişdir.

120 illiyi

Pinxos Sabsay 1893-1980

Heykəltəraş



Pinxos Vladimiroviç Sabsay 1893-cü il iyul ayının 2-də (bəzi mənbələrdə 19 iyun) Odessa şəhərində anadan olmuşdur. Sovet dövrünün heykəltəraşıdır. Odessa Rəssamlıq Texnikumunu və Peterburq Rəssamlıq Akademiyasını bitirmişdir.

1917-ci ildə Odessa Təsviri İncəsənət İnstitutunda pedaqoji fəaliyyətə başlamışdır.

1918-ci ildə "Əmək" monumental barelyefini yaratmışdır.

Sabsay 1926-cı ildə Bakıya gəlmiş və bu dövrdən heykəltəraşın yaradıcılığı sıx şəkildə Azərbaycanla bağlı olmuşdur.

1928-ci ildən başlayaraq Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs deməyə başlamış, 1930-cu ildə onun Mirzə Fətəli Axundova həsr etdiyi abidəsinin təntənəli açılışı olmuşdur. Bakıda monumental heykəllərlə yanaşı, həm də barelyeflərin üzərində işləmişdir.

1932-ci ildə Sabsay 55 fiqurdan ibarət olan 22 metr hündürlüyündə "İdmandan əməyə və müdafiəyə doğru" barelyefini yaratmışdır. Bu əsər Bakıda İdman Sarayında qoyulmuşdur.

1933-cü ildə Bakı Fəhlə Teatrının foyesində onun müəllifi olduğu bir sıra barelyeflər yer almışdır.

1937-ci ildə Sabsay Bakı neftçilərinə həsr etdiyi 12 metrlik "Qazma zərbəçiləri" barelyefinin də açılışı baş tutmuşdu. "Neftçi Kaveroçkin", "Rəssam S.Bəhlulzadə", "Neftçi Babayev", "Yazıçı Süleyman Rəhimov", S.Vurğunun mənzil-muzeyi üçün monumental portreti və s. ibarət portretlər qalereyası var. "A.S.Puşkinin portreti" ("Elegiya") onun ən kamil əsərlərindəndir.

1959-cu ildə Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi, 1973-cü ildə SSRİ-nin Xalq rəssamı olmuşdur. 1947-ci ildə SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, 1-ci dərəcəli Stalin mükafatı laureatı idi.

Pinxos Vladimiroviç Sabsay 1980-ci il aprel ayının 25-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Sabsay Pinxos(Pyotr) Vladimiroviç [Mətn] //ASE:10 cilddə.-Bakı, 1984.-C.8.-S.147.

Новрузова, Д. Монументальная скульптура Советского Азербайджана [Текст] /Д.Новрузова.- Баку, 1960.

Рогинская, Ф. П.В.Сабсай [Текст] /Ф.Рогинская.- Москва, 1958.- 54 с.

İnternetdə

www.anl.az

www.azerbaijan.az

www.ru.wikipedia.org

www.dic.academic.ru

100 illiyi

Mirzə Babayev 1913-2003

Müğənni



Mirzə Əbdülcabbar oğlu Babayev 1913-cü il iyul ayının 16-da Bakı şəhərində Maştağa qəsəbəsində dünyaya gəlmişdir.

O, 1935-1940-cı illərdə ali təhsilini M.Əzizbəyov adına Sənaye İnstitutunun memarlıq fakültəsində almışdır. Mirzə Babayev Bakıda ("Nizami" muzeyi) və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin layihə müəllifidir. O, müğənnilik fəaliyyətinə 1940-cı illərdə, müharibədən qayıdan zaman görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlamışdır.

1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olmuşdur.

Mirzə Babayev 30-dan artıq filmdə rol almışdır. "Qaraca qız" (1966), "Dəli Kür" (1969), "Alma almaya bənzər" (film, 1975), "Dərviş Parisi Partladır" (1976), "Bağ mövsümü" (1985), "Bəyin oğurlanması" (1986), "Qorxma, mən sənin-ləyəm", "Telefonçu qız", "Romeo mənim qonşumdur" filimlərində yaratdığı maraqlı və rəngarəng obrazlar kino sənətimizin şərəfli səhifələrinə yazılmışdır.

1953-cü ildə konservatoriya təhsilini başa vuran istedadlı müğənni, vokal sənətinin incəliklərinə yiyələnərək ürəyəyatımlı səsi, gözəl ifa tərzi, dərin musiqi duyumu və yüksək səhnə mədəniyyəti ilə az bir zamanda tamaşaçıların böyük rəğbətini qazanmışdır. Mirzə Babayevin ifasında səslənmiş "Liman", "Saçlarına gül düzüm", "Uzaq yaşıl ada", "Kəpənək", "Bahar sənsiz", "Bir axşam", "Dayan zaman", "Gəlmədi", "Kimlər gəldi, kimlər getdi", "Möcüzələr adası", "Naxçıvanım", "Tanqo" dillər əzbəri olan məşhur mahnılardandır.

Uzun illər Azərbaycan Dövlət Filarmoniyasında çalışmışdır. Azərbaycan Respublikasının Xalq artisti, Prezidentin fəxri təqaüdçüsü olmuş, bir sıra orden və medallarla təltif edilmişdir. O cümlədən, 2002-ci il may ayının 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Şöhrət Ordeni" ilə təltif edilmişdir.

Böyük sənətkar, qayğıkeş və səmimi insan Mirzə Babayev 2003-cü il yanvar ayının 13-də, ömrünün 90-cı ilində vəfat etmişdir.

Ədəbiyyat

Mirzə Babayev: "Mən yaşayacağam" [Mətn] //Ədalət.- 2011.- 14 yanvar.- S.8.

Pafiqqızı, N. Kimlər gəldi, kimlər keçdi bu dünyadan [Mətn] /N.Rafiqqızı //Olaylar.- 2009.- 18-20 iyul.- S.13.

Zümrüd. Azərbaycan estradasının təkrarsız müğənnisi [Mətn] /Zümrüd //Səs.- 2011.- 16 iyul.- S.12.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

www.milli.az

65 illiyi

Ramiz Əzizbəyli 1948

Aktyor, rejissor



Ramiz Hacıağa oğlu Əzizbəyli 1948-ci il iyul ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) mədəni-maarif fakültəsini bitirmişdir. İstedadlı aktyor və rejissor "Azərbaycanfilm" kinostudiyasında çalışır.

Ömrünün çox hissəsini teatra və kinoya həsr etmiş istedadlı sənətkar Azərbaycanın görkəmli sənət ustaları Möhsün Sənani, Ağadadaş Qurbanov, Hökümə Qurbanova, Əliağa Ağayev, Leyla Bədirbəyli, Adil İsgəndərov və neçə-neçə səhnə korifeyləri ilə çiyin-çiyinə çalışmış və onların təcrübəsindən bəhrələnərək kino, teatr və televiziyada müxtəlif səpgili parlaq və tamaşaçı tərəfindən sevilən obrazlar yaratmış, filmlərə quruluş vermişdir.

Rejissorluq fəaliyyətinə 1987-ci ildə "Debüt" studiyasında çəkdiyi "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi ilə başlamışdır. Film bir neçə Beynəlxalq kinofestivalda müvəffəqiyyətlə iştirak etmiş, Kiyev şəhərində keçirilən Ümumittifaq festivalda isə rejissor debütünə görə mükafata layiq görülmüşdür.

1992-ci ildə isə "Bəxt üzüyü" tammetrajlı bədii filmini çəkmişdir. Film kinoteatrlarda nümayiş olunan ən baxımlı "kassa" filmi və yeni tariximizdə çəkilən ilk ən gəlirli kino işi kimi yadda qalmışdır.

Film Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin kinofestivalında xüsusi diploma layiq görülmüşdür. Rejissoru olduğu "Yalan" bədii filmi isə Qarabağ probleminə, onun törətdiyi faciələrə həsr edilmişdir.

Ramiz Əzizbəyli Kinematoqrafçılar İttifaqının və Professional Kinorejissorlar Gildiyasının üzvü olaraq milli kinematoqrafiyanın ictimai həyatında fəal iştirak edən, ADMİU-nun dosenti kimi gənc kadrların hazırlanmasına, formalaşmasına öz töhfəsini verən, həmkarları və dostları arasında nüfuza, hörmətə malik sənətçidir.

Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə Ramiz Əzizbəyli 2008-ci ildə "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Cızma qaralarım [Mətn]/R. Əzizbəyli.- Bakı,2011.-139 s.

Vəlizadə, İ. Həyatım mənim, taleyim mənim [Mətn] : Roman /İnqilab Vəlizadə; Red.: Ə. Ələkbərli; Sponsoru: Sami firması.-Bakı: Ağrıdağ, 1998.- 198 s.

Ramiz Əzizbəylinin yaradıcılığının 55 illiyi Tədris Teatrında qeyd edilib //525-ci qəzet .-2012.- 21 aprel.- S. 17.

Ayxan. Ramiz Əzizbəylinin "cızma-qaraları": Rejissor ilk kitabını təqdim etdi [Mətn] / Ayxan //Ekspress .-2011.- 5 aprel.- S. 14.

Hacızadə, N.Xöş gördük, şair Ramiz Əzizbəyli! [Mətn] /N.Hacızadə //Ədalət .-2011. - 2 aprel. - S. 18.

Rəhimli, İ. Səmimiyyətin dadı və şirinliyi: Və yaxud yaradıcılığına rəğbət bəslədiyim Ramiz Əzizbəylinin sənəti barədə bir neçə xoş söz [Mətn] /İ.Rəhimli // Mədəniyyət .-2011.- 4 may .- S. 7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

www.kultaz.com

İYUL

25

Milli Qəhrəmanlar

55 illiyi

Əlabbas İsgəndərov 1958-1992

Milli Qəhrəman



Əlabbas Qara oğlu İsgəndərov 1958-ci il iyul ayının 25-də Ağdam rayonunda anadan olmuşdur. O, cavanlığında Kolanı obasında ad-san çıxarmış, əyilməzliyi ilə hamının hörmətini qazanmışdır. 18 yaşı tamam olduqda ordu sıralarına çağırılmış, tərxis edildikdən sonra isə öz doğma obasına dönərək təsərrüfatla məşğul olmuşdur. 1991-ci ildə Ağdamda könüllülərdən ibarət batalyon yarananda bura ilk yazılanlardan biri də Əlabbas olmuşdu.

1992-ci ildə Umudlu kəndində mühasirəyə düşmüş 40 döyüşçümüz məhz Əlabbasın qəhrəmanlığı ilə gizli yollarla hərbi hissəyə dönə bilmişdilər. 1992-ci il mart ayının 4-də Qazançı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 13 avqust 1992-ci il tarixli 135 saylı Fərmanı ilə İsgəndərov Əlabbas Qara oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ağdamın Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Əlabbas Qara oğlu İsgəndərova "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi haqqında: [Kəşfiyyatçı – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 13 avqust 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №15.- S.72.- (Ölümündən sonra).

Əsgərov, V. İsgəndərov Əlabbas Qara oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.102.

İsgəndərov Əlabbas Qara oğlu (1958-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.106-107.

Seyidzadə, M. İsgəndərov Əlabbas Qara oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.106.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az



İYUL

28

Milli Qəhrəmanlar

40 illiyi

Roman Yusifov 1973-1995

Milli Qəhrəman



Roman Yasəf oğlu Yusifov 1973-cü il iyul ayının 28-də Dəvəçi rayonunda anadan olmuşdur.

1980-1990-cı illərdə buradakı 2 saylı orta məktəbdə təhsil almışdır. 1992-ci ildə Milli Orduya çağırılmış Roman bir müddət Naxçıvan şəhərində təlim keçdikdən sonra Sədərək rayonuna göndərilmişdir.

Roman bir neçə dəfə döyüşlərə atılmış, 1992-ci il oktyabr ayında yaralanmış və müalicə olunduqdan sonra "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdi.

1995-ci il daxili satqınlar ucbatından ölkədə vəziyyət yenidən pisləşmişdi. Rövşən Cavadovun rəhbərlik etdiyi "OMON"-çular dövlət çevirilişinə cəhd etmişdilər. 1995-ci il 13-17 mart tarixində baş vermiş bu hadisələrdə xeyli günahsız insan həlak olmuşdu. Silahlı dəstənin zərərsizləşdirilməsi üçün keçirilən əməliyyatda Roman da iştirak etmiş, qəlbi daima Vətən eşqi ilə döyünən qəhrəman, dövlətçiliyimiz uğrunda, ömrünün ən gözəl bir zamanında - 22 yaşında əbədiyyətə qovuşmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il 307 saylı Fərmanı ilə Yusifov Roman Yasəf oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Dəvəçi rayonunun Qalagah kəndində dəfn edilmişdir.

Təhsil aldığı 2 saylı orta məktəb onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Yusifov Roman Yasəf oğlu – Müdafiə Nazirliyi, kiçik leytenant – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il [Mətn] //Azərbaycan.-1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Yusifov Roman Yasəf oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.216.

Seyidzadə, M. Yusifov Roman Yasəf oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.221.

Yusifov Roman Yasəf oğlu (1973-1995) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.203-204.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

85 illiyi

Kamran Rəhimov 1928-2007

İctimai xadim



Kamran Nəbi oğlu Rəhimov 1928-ci il iyul ayının 4-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qarabağlar kəndində dünyaya göz açmışdır. Qeyri-adi qabiliyyəti, elmə, biliyə marağı sayəsində Naxçıvan ikiillik Müəllimlər İnstitutunun tarix, dil-ədəbiyyat fakültəsini 1945-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuşdur. Ali təhsilini başa vurduqdan sonra universitetin Yeni tarix kafedrasında baş müəllim kimi çalışmışdır. 1954-cü ildə Kamran Rəhimov Partiya Tarixi İnstitutunun aspiranturasına qəbul olmuş, Azərbaycan KP MK-nın nəzəri-siyasi jurnalı olan "Azərbaycan kommunisti"nə şöbə müdiri vəzifəsinə göndərilmişdir. 1959-1962-ci illərdə baş redaktorun müavini, 1962-ci ildən 1975-ci ilə qədər baş redaktor vəzifəsində çalışmışdır.

Jurnalda işləməklə yanaşı elmi və müəllimlik fəaliyyətini davam etdirmiş, universitetdə saathesabı mühazirələr oxumuşdur. 1958-ci ildə namizədlik, 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin böyük elmi şurasında, 1967-ci ildə isə SSRİ Ali Attestasiya Komissiyasının plenumunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Kamran Rəhimov bir sıra monoqrafiya, dərslik, çoxsaylı elmi-nəzəri və publisistik məqalələrin müəllifidir. Dəfələrlə Moskvanın, keçmiş müttəfiq respublikaların və bir sıra digər ölkələrin mətbuat orqanlarında aktual nəzəri mövzularda məqalələrlə çıxış etmişdir.

O, 1975-1983-cü illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi işlədiyi dövrdə sənaye obyektləri, dəryaçalar, meyvə və üzüm bağları, heyvandarlıq kompleksləri tikilib istifadəyə verilmiş, Azərbaycan EA-nın Naxçıvan Elmi Mərkəzinin fəaliyyəti canlandırılmışdır. Həmin illərdə mədəniyyət sahəsində də nəzərəçarpan işlər görülmüşdür. Naxçıvan, Ordubad şəhərlərində, Şahbuz rayonunda, vilayətin bir çox kəndlərində mədəniyyət sarayları tikilib istifadəyə verilmiş, bütün rayonlarda ölkəşünaslıq muzeyləri yaradılmış, tariximizin qədim yadigarlarının ermənilər tərəfindən oğurlanıb aparılmasının qarşısı alınaraq eksponatlar həmin muzeylərdə cəmləşdirilmişdir.

1983-cü ildə professor Kamran Rəhimov Azərbaycan Respublikasının Xalq maarifi naziri vəzifəsinə təyin edilmiş, bir sıra layihələrin həyata keçirilməsi işinə başlamışdır.

1988-ci ildə respublikanın Maarif, Ali və Orta İxtisas Təhsili nazirlikləri, Texniki Peşə Təhsili Komitəsi vahid bir qurumda birləşdirilərək Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi yaradılmışdır. Yeni nazirliyin strukturu müəyyənləşdirilərkən professor Kamran Rəhimov xalq təhsili nazirinin birinci müavini təyin olunmuşdur.

Kamran Rəhimov Milli Məclisin üzvü kimi Azərbaycan nümayəndə heyətlərinin tərkibində dəfələrlə xarici ölkələrdə səfərlərdə olmuşdur.

Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Kamran Rəhimov 2007-ci ildə vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan: ulu və müasir tariximizə baxış [Mətn] /K.Rəhimov; elmi red. A.Hacıyeva; red. M.Əlizadə.- Bakı: Şirvannəşr, 2006.- 396 s.

İnsannamə [Mətn] /K.Rəhimov; elmi red. Əlisa Əhmədov.- Bakı: Adiloğlu, 2004.- 444 s.

Mənim Azərbaycanım [Mətn]: İnsan və zaman, vətən və xalq haqqında düşüncələr, mülahizələr, xatirələr /K.Rəhimov.- Bakı: Öyrətmən, 1995.- 224 s.

İnternetdə

www. anl.az

www.elibrary.az

www.medeniyyet.az

www.muallim.edu.az

İYUL

Tarixdə bu gün

1

105 illiyi

Beynəlxalq SOS fəlakət siqnalı 1908



İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.lent.az

SOS - beynəlxalq fəlakət siqnallarından biridir. CQD siqnalını əvəz etmiş, 1905-ci il aprel ayının 1-də Almaniyada qəbul edilmiş, 1908-ci il iyul ayının 1-dən qüvvədədir. Zaman keçdikcə 3 hərfdən ibarət çağırışla bağlı əfsanələr yaranmağa başlamışdır. Ən maraqlı versiya "SOS"un "Bizim ruhumuzu xilas edin" (Save Our Souls) kimi oxunmasıdır.

Çoxları bu siqnalı "Save our Ship" gəmimizi qurtar; "Stop Other Signals" digər siqnalları dayandırın sözlərinin qısaldılmış versiyası kimi də başa düşür. Halbuki SOS siqnalı teleqraf zamanından qalma Morze əlifbasıyla əlaqədar olmuşdur. O zaman səsi radiodalğalar vasitəsilə uzaq məsafələrə ötürmək mümkün olmadığından dənizçilərə çətin vəziyyətdə olduqlarını bildirmək üçün Morze əlifbası çərçivəsində standart siqnal lazım olmuşdu. İmdad çağırışını yadda saxlamaq üçün asan, qulaq asmağa sadə olması üçün 1908-ci ildə üç xətt, üç nöqtə, üç xətt olan S. O. S seçilmişdir (• • • — — — • • •).

Artıq tətbiq edilməsindən bir il sonra "SOS" böyük uğur əldə etmişdir. "Cunard" şirkətinin Azor adaları yaxınlığında qəzaya uğrayan "SS Slavonia" gəmisi "SOS" siqnalı göndərmiş və nəticədə bir nəfər belə ölməmişdir. Lakin siqnal əsl məşhurluğu "Titanik" gəmisinin qəzaya uğramasından sonra qazanmışdır. 1912-ci ildə aysberqlə toqquşan gəminin heyəti köhnə "CQD" və yeni "SOS" siqnalını göndərmişlər. .

2

15 illiyi

Azərbaycan Polisi Günü 1998



Ədəbiyyat

Azərbaycan Polisi Günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.38.

İnternetdə

www.library.aliyev-heritage.org.az.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və Daxili İşlər naziri Fətəli xan Xoyski 1918-ci il 2 iyul tarixində ölkədə ilk polis bölümünün yaradılması barədə əmr vermişdir. Bununla da Azərbaycan polis orqanlarının əsası qoyulmuşdur. Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət etmiş, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirmişdi. AXC süqut etdikdən sonra, bolşevik diktaturası bütün milli dövlət və hüquq-mühafizə strukturlarını, o cümlədən milli polisi ləğv etdi. Əvəzində "milis" adlandırılan bir qurum yaradıldı.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra polis adı bərpa olundu, onun funksiya və vəzifələri dəqiqləşdirildi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün - 2 iyul Azərbaycan polisi günü elan edilmişdir.

İYUL

7

Tarixdə bu gün

90 illiyi Dağlıq Qarabağ Muxtar Vilayəti 1923

- **Ərazisi: 4,4 000 km²**
- **Əhalisi: 150.313 nəfər**
- **İşğal altındadır: 11 000 km²**
- **Vilayətin tərkibinə daxil idi: Əsgəran, Hadrut, Mardakert, Martuni, Şuşa və vilayət tabeli Stepanakert**

Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü il iyul ayının 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində yaradılmışdır. 1981-ci il iyun ayının 16-da isə Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qəbul etmiş və muxtariyyətin səlahiyyətlərində yeniliklər edilmişdir. Dağlıq Qarabağdakı muxtariyyətin sonuncu rəsmi statusu da bu qanunla müəyyənləşmişdir.

Dağlıq Qarabağ Azərbaycanın mərkəzi hissəsində yerləşir. Ərazisi 4,4 min kv. kmdir. Azərbaycan Respublikasının ümumi ərazisinin 5,1 faizini təşkil edir. Vilayətin tərkibinə Xankəndi şəhəri, Əsgəran, Hadrut, Ağdərə, Xocavənd və Şuşa inzibati rayonları daxildir. Tarixən Qafqaz Albaniyasının (Arranın), Qarabağ xanlığının, Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Sovet Respublikasının, tərkib hissəsi olmuşdur. Tarixən azərbaycanlıların yaşadığı bölgədir və 1820-ci ildən başlayaraq ermənilərin Azərbaycana kütləvi şəkildə köçürüldüyü ərazilərdən biri olmuş Azərbaycan Respublikasının tərkib hissəsidir.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin indiki mərhələsi başlayanda ərazisi 4,4 min kvadrat kilometr olan bölgə köçürülmə siyasəti nəticəsində ermənilərin çoxluq təşkil etdiyi Stepanakert (Xankəndi) şəhəri (paytaxt), Mardakert, Əsgəran, Martuni və Hadrut rayonları və azərbaycanlıların çoxluq təşkil etdiyi Şuşa şəhərindən ibarət idi.

Azərbaycan torpaqlarına 1988-ci il boyunca davam edən təcavüzün ardınca SSRİ Ali Soveti Dağlıq Qarabağda birbaşa Moskvanın tabeçiliyi altında çalışan Xüsusi İdarəetmə Komitəsi yaratmışdır. 1989-cu ilin sonunda bu komitə ləğv edilərək Bakıya tabe olan Respublika Təşkilat Komitəsiylə əvəz edilmişdir. Həmin ilin dekabrında Ermənistan parlamenti Dağlıq Qarabağın bu respublikaya birləşdirilməsi haqda qərar qəbul etmişdir.

1991-ci ilin avqustunda SSRİ-nin dağılması prosesi sürətlənmiş, avqust ayının 30-da Azərbaycan parlamenti respublikanın müstəqilliyini bəyan etmişdir. Bundan 2 gün sonra DQMV və bu bölgəyə heç bir dəxli olmayan Şaumyan rayonu Xalq Deputatları sovetləri birgə sessiya keçirərək Dağlıq Qarabağ Respublikası adlı saxta qurum yaratmışlar. Respublika Təşkilat Komitəsi Stepanakertdən Ağdama köçmüş, ardınca Dağlıq Qarabağda azərbaycanlıların total etnik təmizlənməsi – qanlı müharibə başlamışdır.

1991-ci il noyabrın 20-də Martuninin azərbaycanlılar yaşayan kəndlərinə uçan nümayəndə heyətini aparan vertolyot Qarəkənd üzərində terrora məruz qalmışdır. DQMV hüquq-mühafizə, təhlükəsizlik orqanlarına başçılıq edən rusiyalı generallar daxil olan 20-dən çox adam həlak olmuşdur. Bu hadisə DQMV-nin ləğvinə təkan vermişdir.

1991-ci il noyabr ayının 26-da Azərbaycan parlamenti DQMV-ni milli ərazi qurumu kimi ləğv etmişdir, "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında"Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli qanunu qüvvədən düşmüş sayılır.

Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert-Xankəndi, Mardakert-Ağdərə, Martuni-Xocavənd adlandırılmışdır.

Əsgəran və Hadrut rayonları ləğv edilmiş, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılmış, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilmişdir.

Hazırda keçmiş DQMV və onun ətrafında daha 7 rayon tam və ya qismən erməni qəsbkarlarının işğalı altındadır.

Əliyev, H. Dağlıq Qarabağ həqiqətləri [Mətn] /H. Əliyev; red. İ. X. Zeynalov.- Bakı:RENESSANS, 2005.-140 s.

İmanov, R. Azərbaycanın ərazi bütövlüyünə qəsd-qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. /İmanov, R.C.; Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Dövlət Dəniz Akademiyası; Elmi red.: İ.Babayev, E.Məhərrəmov.- Bakı: Adiloğlu, 2005.- 260 s.

İYUL

12

Tarixdə bu gün

20 illiyi

TÜRKSOY (Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı) 1993

Mədəniyyətimizi, elmimizi, təhsilimizi, insanların mənəviyyatını daha da yüksəklərə qaldırmaq üçün mədəni, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi çox zəruri vəzifələrdən biridir. TÜRKSOY bu işi görür və indiyə qədər, qısa müddətdə ərzində toplanmış təcrübə sübut edir ki, bu təşkilat bundan sonra da çox səmərəli fəaliyyət göstərə və ölkələrimiz, xalqlarımız üçün mədəniyyət, ədəbiyyat vasitəsilə mövcud əlaqələri daha da genişləndirmək sahəsində çox işlər görə bilər.

Son illər türk dünyasında milli özünüdərk istiqamətində canlanmanın işartıları görünməkdədir. Belə ki, tarixi və kökü bir olan türk xalqları arasında mədəniyyət və incəsənət sahəsində birlik yaratmaq üçün türk dövlət və muxtariyyətlərinin mədəniyyət nazirləri bir araya gələrək 1993-cü ildə TÜRKSOY (Türk Kültür və Sənətləri Ortaq Yönətimi) adlı bir təşkilat yaratmışdılar.

TÜRKSOY türkdilli ölkələrin mədəniyyət nazirləri tərəfindən yaradılmış və onun yaradılması haqqında ilkin fikirlər hələ 1992-ci ildə irəli sürülmüşdür. Bu təşkilatın yaradılması ilə bağlı Bakı və İstanbul şəhərlərində bir sıra görüşlər keçirilmişdir.

Nəhayət, 12 iyul 1993-cü ildə Almatıda TÜRKSOY-un yaradılması haqqında türkdilli ölkələrin mədəniyyət nazirləri tərəfindən protokol imzalanmışdı. TÜRKSOY-un yaradılması zərurəti ondan irəli gəlmişdir ki, bu təşkilatı yaradan ölkələrin dilləri, xalqları, mədəniyyətləri bir-birinə çox yaxın idi və bəzi xalqların hətta dinləri də eyni idi.

Məlumdur ki, bəzi türk xalqları müxtəlif dinlərə sitayiş edirlər. Ancaq TÜRKSOY-un yaradılmasında türkdilli xalqların əsasən din deyil, dil prinsiplərinə üstünlük verilmişdir. TÜRKSOY-un əsas üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan 8 üzvləri isə (Altay respublikası, Bolqarıstan, Qaqauziya, Xakasiya, Şimali Kipr Türk Respublikası, Yakutiya, Tıva, Tatarıstan) əsasən müşahidəçi qismində iştirak edirlər. Buna baxmayaraq bu üzvlər də əsas üzvlər kimi eyni hüquqa və səlahiyyətə malikdilər. Ümumiyyətlə, TÜRKSOY-un fəaliyyətində demokratik prinsiplər əsas götürülür. Yəni səsvermədə 8 müşahidəçi ölkə də əsas 6 üzvlər kimi eyni səsvermə hüququna malikdirlər.

TÜRKSOY təşkilatının ev sahibi ölkəsi Türkiyə Cümhuriyyətidir. Rəsmi dili türk dilidir, idarə mərkəzi Ankarada yerləşir.

Ədəbiyyat

Babayev, A. TÜRKSOY-un birlik səsi [Mətn]: monoqrafiya] /Adil Babayev; elmi red. A.Axundov.- Bakı: Təhsil, 2006.- 364 s.

2012-ci il TÜRKSOY çərçivəsində "M.F.Axundov ili elan edilmişdir" [Mətn] //Azərbaycan.- 2012.- 10 yanvar.- S.3.

İnternetdə

www.anl.az

www. az.wikipedia.org

www. turkkon.org

www. türksoy.orq.az

İYUL

22

Tarixdə bu gün

Milli Mətbuat və Jurnalistika Günü 1875



22 iyul - Azərbaycanda Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Dövrün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 1875-ci il 22 iyul tarixində nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində mətbuat orqanları Azərbaycanda milli-azadlıq hərəkatının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşlar. Milli siyasi mətbuatın təşəkkül dövrü adlandırılan 1905-1907-ci illərdə KİV-lər Azərbaycan cəmiyyətinin siyasi və ideoloji fəallığının artırılmasında mühüm rol oynamışlar. "Şərqi-rus", "Həyat", "Füyuzat", "Tazə həyat", "Şəlalə", "Açıq söz", "Dirilik" və digər qəzetlər xalqın milli özünüdərk hissinin formalaşmasına çalışmışlar.

Azərbaycan mətbuatı Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də milli varlığını qoruyub saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Ölkədə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli Fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan mətbuatı və jurnalistikası günü elan edilmişdir.

Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanda KİV-lərin sayında önəmli dərçədə irəliləyiş baş vermişdir. Hazırda ölkədə 4500-dən artıq kütləvi informasiya vasitəsi qeydiyyata alınmışdır. Ölkədə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından region ölkələrini qabaqlamışdır.

Bir çox demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da Mətbuat Şurası yaradılmış və "Mətbuat haqqında" Qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilmişdir.

Ulu öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilmişdir.

Ədəbiyyat

Milli mətbuat və jurnalistika günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- S.40-41.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

İYUL

23

Tarixdə bu gün

20 ili Ağdam rayonunun işğalı 1993



Ərazisi: 1154 km²
Əhalisi: 175400 nəfər
İşğal tarixi: 23.07.1993

Bu gün Azərbaycanın Ağdam rayonunun işğalından 20 il keçir.

1993-cü il 23 iyul tarixində birinci Qarabağ müharibəsinin ən geniş miqyaslı əməliyyatlarından biri baş vermiş, 1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı vermişdir.

Ağdam üzərinə edilən birinci hücum nəticəsiz qalmış, ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirmiş, iyun ayının 26-da Ağdərə düşmən əlinə keçmişdir.

Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başlamışdır. 600 minlik erməni ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın milli ordusu durmuş. 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatmışdır. Ərazisi 1154 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometri, bir şəhər və 80 kəndi işğal olunmuş, işğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşayır. Bunların 17 mini yaşlı nəslin nümayəndəsidir.

İşğal nəticəsində Ağdamın rayon mərkəzi ilə birlikdə 90 kəndi, 38 kolxozu, 12 sənaye, 74 məktəb,271 mədəniyyət evi, 67 idarə və 99 klub düşmən əlinə keçmişdir.

Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuşdur. Ağdamdan olan məcburi köçkünlər Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdır.

Ərazisinin 70 faizini itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirmişdir. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda indi 17 min ha sahədə əkin aparılır.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonunun işğalı nəticəsində ölkəmizə ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəymişdir.

Hər bir azərbaycanlı, hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musiqi səslərinə möhtac qalmış bərli-bərəkətli torpaqlarımız, ata-babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək.

O gün də uzaqda deyil.

Ədəbiyyat

Abbasoğlu, B. Ağdam ağrıları [Mətn]: [məlumat kitabı] /B.Abbasoğlu; red.: Vasif Quliyev.- Bakı: Şuşa, 2003.- 151 s.

Abbasoğlu, B. Seyidlidə bitən qeyrət [Mətn] /B.Abbasoğlu; red.: S.Ağayev.- Bakı: Azərbaycan, 1998.- 128 s.

Ağdam rayonu [Mətn] //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.105-122.

Nağıyev, Z. Ağdamın bir kəndi Zəngişalı və onun yetirmələri [Mətn] /Z.Nağıyev; red. Ş.Səlimbəyli.- Bakı: Avropa, 2009.- 216 s.

İnternetdə

www.anl.az

www.az.trend.az.new

www.az.wikipedia.org

www.milli.az

AVQUST

1 avqust

Gün çıxır 06:49
Gün batır 21:17

31 avqust

Gün çıxır 07.07
Gün batır 20:37

22 iyul-
23 avqust

Şirin Nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxili aləmləri zəngin olur.

C.A.	1
C.	2
Ş.	3
B.	**4**
B.E.	5
Ç.A.	6
Ç.	7
C.A.	8
C.	9
Ş.	10
B.	**11**
B.E.	12
Ç.A.	13
Ç.	14
C.A.	15
C.	16
Ş.	17
B.	**18**
B.E.	19
Ç.A.	20
Ç.	21
C.A.	22
C.	**23**
Ş.	24
B.	**25**
B.E.	26
Ç.A.	27
Ç.	28
C.A.	29
C.	30
Ş.	**31**

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.1898)*
- *"Azərbaycan Respublikasında söz, fikir azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalamışdır (08.08.1998)*
- ***Cəbrayıl rayonunun işğalının 20-ci ildönümü (23.08. 1993)***
- ***Füzuli rayonunun işğalının 20-ci ildönümü (23.08. 1993)***
- ***Qubadlı rayonunun işğalının 20-ci ildönümü (31.08.1993)***

90 il Heydər Əliyev 1923-2003



AVQUST 2013



Milli ədəbiyyat

Yazıçı, publisist Babayev Rafiq Təvəkkül oğlunun (01.08.1953) anadan olmasının **60** illiyi

Tənqidçi, ədəbiyyatşünas Əfəndiyev Hidayət Əli oğlunun (01.08.1908-29.04.1979) anadan olmasının **105** illiyi

Fəlsəfə və filologiya doktoru, professor, Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü Əhmədov Ənvər Misir oğlunun (Ənvər Əhməd) (08.08.1943) anadan olmasının **70** illiyi 228

"Qızıl qələm" mükafatı laureatı, tərcüməçi Məmmədov Kamil Həsən oğlunun (12.08.1923-09.08.1989) anadan olmasının **90** illiyi

Tənqidçi, tərcüməçi, Əməkdar incəsənət xadimi Qasımov İntiqam Böyükağa oğlunun (İntiqam Qasımzadə) (12.08.1943) anadan olmasının **70** illiyi 229

Əməkdar elm xadimi, tənqidçi, ədəbiyyatşünas Talıbzadə Kamal Abdulla Şaiq oğlunun (14.08.1923-2006) anadan olmasının **90** illiyi 230

Yazıçı İsabəyli Qəşəm İsa oğlunun (14.08.1948) anadan olmasının **65** illiyi 231

Şair, dramaturq, tərcüməçi Məmmədov Ramiz Heydər oğlunun (Ramiz Heydər) (14.08.1933) anadan olmasının **80** illiyi

Tənqidçi, ədəbiyyatşünas, professor Salmanov Şamil Məmməd oğlunun (17.08.1933) anadan olmasının **80** illiyi

Şair, tərcüməçi Cəbiyev Əjdər Feyzulla oğlunun (Əjdər Ol) (17.08.1958) anadan olmasının **55** illiyi

Filologiya elmləri doktoru, professor Əliyev Vilayət Hüseyn oğlunun (23.08.1938) anadan olmasının **75** illiyi



Folklor

Filologiya elmləri doktoru, folklorşünas, professor Qasımlı Məhərrəm Paşa oğlunun (05.08.1958) anadan olmasının **55** illiyi



Dünya ədəbiyyatı

Rus şərqşünası, qafqazşünas Berje Adolf Petroviçin (10.08.1828-13.02.1886) anadan olmasının **185** illiyi

Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatı laureatı, rus yazıçısı Çakovski Aleksandr Borisoviçin (26.08.1913-17.02.1994) anadan olmasının **100** illiyi



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı, Əməkdar incəsənət xadimi, Dövlət Mükafatı laureatı, qrafik Kazımzadə Kazım Məmmədəli oğlunun (10.08.1913-10.1992) anadan olmasının **100** illiyi 232
Əməkdar memar Axundova Naimə Vəli qızının (10.08.1933) anadan olmasının **80** illiyi
Azərbaycan klassik miniatür sənətinin görkəmli nümayəndəsi Nizaməddin Sultan Məhəmmədin (21.09.1493-1555) anadan olmasının **520** illiyi



Musiqi.Opera.Balet

Xalq artisti, müğənni Quliyeva İlhamə Məzahir qızının (17.08.1943) anadan olmasının **70** illiyi 233
Musiqişünas, sənətşünaslıq doktoru, professor Babayev Elxan Əlisəttar oğlunun (28.08.1948-02.02.2003) anadan olmasının **65** illiyi 234



Teatr.Kino

Xalq artisti, rejissor Səfərov Firudin Səttar oğlunun (01.08.1933) anadan olmasının **80** illiyi
Azərbaycanın Xalq artisti, aktyor Məlikov Ramiz Ağarza oğlunun (Ramiz Məlik) (04.08.1943) anadan olmasının **70** illiyi 235
Xalq artisti, Dövlət Mükafatı laureatı, kinoaktyor Balayev Rasim Əhməd oğlunun (08.08.1948) anadan olmasının **65** illiyi 236
Xalq artisti, görkəmli aktyor Ələkbərov Şahmar Zülfüqar oğlunun (23.08.1943-1992) anadan olmasının **70** illiyi 237
Xalq artisti, Əməkdar incəsənət xadimi, rejissor və ssenarist Mustafayev Vaqif Behbud oğlunun (28.08.1953) anadan olmasının **60** illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Cəbrayılov Fəxrəddin Mövsüm oğlunun (12.08.1958) anadan olmasının **55** illiyi 238
Azərbaycanın Milli Qəhrəmanı Atakişiyev Aslan Qabil oğlunun (16.08.1953-07.08.1992) anadan olmasının **60** illiyi 239



Siyasət.Hərbi iş

İctimai-siyasi və dövlət xadimi, professor İsrafilbəyov (Qədirli) Möhsün Nəcməddin oğlunun (12.08.1893-1941) anadan olmasının **120** illiyi
İkinci Dünya müharibəsinin qəhrəmanı Qəniyeva Ziba Paşa qızının (20.08.1923) anadan olmasının **90** illiyi



Tarix

Filosof, tarixçi Adoratski Vladimir Viktoroviçin (19.08.1878-05.05.1945) anadan olmasının **135** illiyi



Mədəniyyət. Elm. Maarif

Pedaqoji elmlər doktoru, professor Muxtarova Nübar Muxtar qızının (30.08.1948) anadan olmasının **65** illiyi



İdman

Əməkdar artist, SSRİ-nin idman ustası Hacıyeva Züleyxa Hacıbaba qızının (25.08.1923) anadan olmasının **90** illiyi
Sərbəst güləş üzrə Azərbaycan çempionu, beynəlxalq turnirlərin qalibi, Dünya çempionatının qızıl medal sahibi Abdullayev Arif Yadulla oğlunun (28.08.1968) anadan olmasının **45** illiyi
Azərbaycan idmançısı, gimnast, SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Ümumittifaq dərəcəli hakim Məmmədova Məsmə Müseyib qızının (28.08.1923) anadan olmasının **90** illiyi



Coğrafiya.Geologiya

Coğrafiyaşünas alim, hidroloq, coğrafiya elmləri doktoru, professor Tarverdiyev Ramazan Baxşəli oğlunun (05.08.1928-27.05.1983) anadan olmasının **85** illiyi



Riyaziyyat.Fizika.Astronomiya

240

Akademik, fizik Abdullayev Həsən Məmmədbağır oğlunun (20.08.1918-01.09.1993) anadan olmasının **95** illiyi

241



Kimya.Biologiya.Tibb

Əməkdar həkim Mirişli Adil Cəfər oğlunun (25.08.1938) anadan olmasının **75** illiyi



Texnika

Texnika elmləri doktoru Axundov Abdulla Qasım oğlunun (02.08.1913-16.03.1970) anadan olmasının **100** illiyi



Tarixdə bu gün

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) 242
Azərbaycan Kinosu Günü (02.08.1898) 243
Bakıda ilk beynəlxalq peyk rabitə sisteminin açılışı olmuşdur (03.08.1993) 243
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996)

Şəhidlər Xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması barədə Sərəncam imzalanmışdır (05.08.1998)
Rusiyada Xristianlıq rəsmi din kimi qəbul edilmişdir (06.08.988)
"Azərbaycan Respublikasında söz, fikir azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalamışdır (08.08.1998) 244
Ramazan bayramı (09-10.08.)
Beynəlxalq Gənclər Günü (12.08.1999) 245
Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000) 245
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü (23.08.2008)
Cəbrayıl rayonunun işğalının 20-ci ildönümü (23.08. 1993) 246
Füzuli rayonunun işğalının 20-ci ildönümü (23.08. 1993) 247
Beynəlxalq Azərbaycan Muğamı Günü (26.08.2010) 248
Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Xalq maarifinin, orta məktəblərin millileşdirilməsi haqqında qərar qəbul etmişdir (28.08.1918)
Qubadlı rayonunun işğalının 20-ci ildönümü (31.08.1993) 249

70 illiyi

Ənvər Əhməd
1943

Ədəbiyyatşünas



Ənvər Misir oğlu Əhmədov (Ənvər Əhməd) 1943-cü il avqust ayının 8-də Azərbaycanın Kəbilli mahalının Sarıyer yaylağında doğulmuşdur. Ağcabədinin 5 saylı şəhər orta məktəbində ibtidai təhsil alandan sonra Bakı Statistika Texnikumunda təhsilini davam etdirmişdir. 1961-1962-ci illərdə Ağcabədi rayonundakı Salmanbəyli kəndində mühasib köməkçisi işləmişdir. Ənvər Əhmədin poeziyaya gəlişi XX əsrin altmışıncı illərinin əvvəllərinə təsadüf edir. "Dağ və mən" adlı ilk şeiri 1962-ci ildə "Ağcabədi pambıqçısı" qəzetində dərc olunmuşdur. 1963-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsilini davam etdirmişdir. Sonra 1968-1976-cı illərdə Ağcabədi rayon "Sürət" qəzetində ədəbi işçi, müxbir, məktublar şöbəsinin müdiri, 1976-1994-cü illərdə isə Xankəndi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, sonra dosenti işləmişdir. Ənvər Əhməd 1982-ci ildə dissertasiya müdafiə etmişdir. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Qarabağ filialının sədri seçilmişdir. 1994-2000-ci illərdə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının direktoru, 2000-2002-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru olmuşdur. Bədii tərcümə ilə ciddi məşğul olur. "Qızıl qələm" mükafatı laureatı, 2000-ci ildə beynəlxalq dərəcəli fəlsəfə və filologiya doktoru, professor, 2001-ci ildən Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvüdür.

Ə.Əhməd milli poeziyamızın B.Vahabzadə, N.Xəzri, Qabil, H.Arif, Ə.Kürçaylı, M.Araz, X.Rza kimi görkəmli simalarının davamçısıdır. Milli mənəvi duyğuların, vətənpərvərlik və Azərbaycançılıq ideyalarının təbliği, tarixi həqiqətlərin bu günün meyarları ilə qiymətləndirilməsi, vahid, bütöv mənəvi Azərbaycan uğrunda mübarizə, əsrlərdən bəri vəsf və tərənnüm olunan Ana, Vətən, Təbiət, Sevgi mövzularında təzə söz demək hünəri, Nizamidən üzü bəri davam edən və poeziyamızın başlıca leytmotivini özündə əks etdirən humanizm konsepsiyasının davam etdirilməsi, insana xas olan ən nəcib, ən ülvi duyğuların tərənnümü Ənvər Əhmədin poeziyasında da öz əksini tapır. "Nəslimiz", "Anamın izləri", "Sevgi yurdu", "Sevgi cavan qalır", "Oğullar və qartallar", "Sağlıq olsun", "Kəfənim qandan biçilər", "M.Ə.Sabirin poetikası", "Od qanı", "Qanlı torpaq", "Bu qılınc pas ata bilməz", "Dünya əlimdən sürüşür", "Salam, ay anası ölmüş oğullar" kitablarının müəllifidir. "İttiham", "Bu yara köz bağlamaz", "Qara qutu", "Qırğın", "Qalx ayağa, Üzeyir", "Gəl, dərdləşək" poemalarında Qarabağ hüznü, dərd, qınaq, ittiham, kədərin böyüklüyündən yaşanan hisslərin tüğyanı, hətta acı göz yaşları şairin öz dərdi, kədəri kimi ifadə edilmişdir.

Ədəbiyyat

Bu qılınc pas ata bilməz [Mətn]: (şeirlər, poemalar) /Ə.Əhməd.- Bakı: Yazıçı, 2000.- 200 s.

Dünya əlimdən sürüşür [Mətn] /Ə.Əhməd.-Bakı: Qarabağ, 2007.-528 s.

Qanlı torpaq [Mətn] /Ə.Əhməd.- Bakı: Qorqud, 1998.- 125 s.

Salam, ay anası ölmüş oğullar [Mətn]: şeirlər və poema /Ə.Əhməd; [red. E. İsgəndərzadə].-Bakı: Vektor, 2008.- 229 s.

Bura bizim şəhərdi... [Mətn] /Ə.Əhməd //525-ci qəzet.- 2010.- 24 dekabr.- S.5.

Ənvər Əhməd [Mətn] // Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.302.

Yusifli, V. Ənvər Əhmədin şeir dünyası-1 [Mətn] /V.Yusivli //Ədalət..- 2012.- 8 sentyabr.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

70 illiyi

İntiqam Qasımzadə 1943

Tənqidçi



İntiqam Böyükağa oğlu Qasımov (Qasımzadə) 1943-cü il avqust ayının 12-də Şuşa şəhərində anadan olmuşdur.

1960-1965-ci illərdə Bakıdakı 7 saylı şəhər orta məktəbini bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır.

AMEA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi şöbəsinin aspirantı olmuşdur.

1969-1974-cü illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının ssenari-redaksiya heyətinin üzvü, "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, 1976-1979-cu illərdə Tənqid şöbəsinin müdiri, məsul katib, 1979-1997-ci illərdə baş redaktorun müavini vəzifələrində çalışmışdır.

1997-ci ildən həmin jurnalın baş redaktoru vəzifəsində işləyir. İ.Qasımzadə ədəbi yaradıcılığa erkən başlasa da, 1968-ci ildən dövri mətbuatda ədəbi-tənqidi məqalələri müntəzəm çap olunur.

Bədii tərcümə ilə ardıcıl məşğul olmuşdur. 1980-ci ildən "Bayatı" ədəbi televiziya almanaxının müəllifidir. Onun ssenarisi əsasında bir neçə animasiya və sənədli film çəkilmişdir.

1984-cü ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimidir.

Ə d ə b i y y a t

Düşünməyə dəyər [Mətn] /İ.Qasımzadə //525-ci qəzet .-2010.- 30 oktyabr. - S.19.

Ədəbiyyatımızın güzgüsü [Mətn] /İ.Qasımzadə //Mədəniyyət .-2011.- 11 fevral.- S. 5.

İçində işıq öləziyəndə gənclik bitir [Mətn] /İ.Qasımzadə //Zaman .-2011.- 31 mart-1 aprel.- S.7.

"Türk Dünyası Ədəbiyyat Dərgiləri Konqresinin fəaliyyəti əhəmiyyətli nəticələr verir" [Mətn] /İ.Qasımzadə //525-ci qəzet. .-2011.- 22 oktyabr.- S. 19.

İntiqam Qasımzadə [Mətn] //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə):ensiklopedik məlumat kitabı.-Bakı, 2011.-S.476.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Kamal Talıbzadə 1923-2006

Akademik



Kamal Abdulla Şaiq oğlu Talıbzadə 1923-cü il avqust ayının 14-də Bakı şəhərində anadan olmuşdur. O, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş və 1945-ci ildən etibarən Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda elmi fəaliyyətə başlamışdır.

1948-ci ildə aspirantura təhsilini başa vuraraq "Abbas Səhhətin həyat və yaradıcılığı" mövzusunda dissertasiya müdafiə etmiş, filologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

K.Talıbzadə 1954-cü ildən Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin, 1965-1976-cı illərdə isə Rəyasət heyətinin üzvü olmuş, eyni zamanda 1957-1975-ci illərdə Tənqid və ədəbiyyatşünaslıq bölməsinə rəhbərlik etmişdir.

O, 1971-1978-ci illərdə "Azərbaycan" jurnalı və Azərbaycan KP MK-nın orqanı olan "Azərbaycan kommunisti" jurnalının redaksiya heyətində çalışmışdır.

1965-ci ildə Azərbaycan ədəbi tənqidinin tarixi və inkişaf xüsusiyyətləri ilə bağlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən K.Talıbzadə 1972-ci ildə professor olmuş, 1982-cü ildə isə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmiş və elə həmin ildən 1987-ci ilə qədər Nizami adına Ədəbiyyat İnstitutunda Tənqid tarixi və nəzəriyyəsi şöbəsinə rəhbərlik etmişdir. Elmi işindəki müvəffəqiyyətlərinə görə, xüsusilə, milli tənqidi fikrin tarixi mənzərəsini əks etdirən "Azərbaycan ədəbi tənqidinin tarixi" adlı əsərinə görə Kamal Talıbzadəyə 1986-cı ildə Azərbaycan SSR Dövlət mükafatı təqdim edilmişdir.

1993-cü ildə AMEA-nın Fəxri fərmanı, 1998-ci ildə "Şöhrət" ordeni və Azərbaycan Jurnalistlər İttifaqı tərəfindən verilmiş "Qızıl qələm" mükafatı ilə təltif edilmişdir.

Çoxplanlı və gərgin yaradıcılığın nəticəsində Kamal Talıbzadə Azərbaycan ədəbiyyatşünaslığı, elmi-ictimai və pedaqoji fikrinin inkişafında əhəmiyyətli yer tutan əsərlərin müəllifi kimi tanınmışdır. Onun "Abbas Səhhət" (1949), "Qorki və Azərbaycan" (1959), "XX əsr Azərbaycan tənqidi" (1966), "Tənqidimiz haqqında qeydlər" (1967), "Ədəbi irs və varislər" (1974), "Sənətkarın şəxsiyyəti" (1978), "Azərbaycan ədəbi tənqidinin tarixi" (1984), "Abbas Səhhət" (1986) əsərləri bu qəbildəndir.

Kamal Abdulla Şaiq oğlu Talıbzadə 2006-cı ildə vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: iki cilddə /K.Talıbzadə.- Bakı: Azərnəşr, 1991.-C.1.- 399 s.

Seçilmiş əsərləri [Mətn]: iki cilddə /K.Talıbzadə.- Bakı: Azərnəşr, 1994.- C.2.-432 s.

Firidun bəy Köçərlinin Abdulla Şaiqə məktubları [Mətn] /K.Talıbzadə //Ədəbiyyat.- 2011.- 20 may.- №18.- S.1.

Həmişə yadımda olan insan [Mətn]: [XX əsr Azərbaycan yazıçısı Abdulla Şaiq haqqında oğlu akademik Kamal Talıbzadənin 45 il öncə atası haqqında yazdığı xatirələri] /K.Talıbzadə //Qarapapaqlar. - 2010. - №8.- S.21-35.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.science.az

65 illiyi

Qəşəm İsabəyli 1948

Yazıçı



Qəşəm İsa oğlu İsabəyli 1948-ci il avqust ayının 14-də Azərbaycanın Kürdəmir rayonunun Xəlsə kəndində ziyalı ailəsində anadan olmuşdur.

1955-1966-cı illərdə ibtidai təhsilini Xəlsə kəndində, səkkizilliyi Beyi kəndində oxumuş, doqquzuncu sinfi Kürdəmir şəhər dəmiryol məktəbində, onbirilliyi isə Axtaçı kəndində bitirmişdir. Üç ay Bakıda metro tikintisində, sonra Xəlsədə mövsümi işdə çalışmışdır.

1967-1972-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geoloji-coğrafiya fakültəsini bitirmişdir.

Q.İsabəyli 1972-1975-ci illərdə Kürdəmirin Axtaçı və Beyi kənd orta məktəblərində müəllim, 1975-1976-cı illərdə AzTV-də ştatdankənar müxbir, 1976-1982-ci illərdə nəşriyyat redakoru, 1984-1992-ci illərdə "İşıq" nəşriyyatında redaksiya müdiri, 1992-1998-ci illərdə Mədəniyyət Nazirliyinin "Şur" nəşriyyatında ilk direktor olmuşdur.

1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin və 1983-cü ildən Jurnalistlər İttifaqının üzvüdür.

1993-cü ildən "Cih-Cih" uşaq qəzetinin təsisçisi və baş redaktoru, 1996-cı ildən "Şirvannəşr" nəşriyyatının təsisçisi və naşiridir.

"Balaca-bapbalaca"(1982), "Heç nə istəmir ana" (1983), "Şam nağılı" (1984), "Əkil-Bəkil" (1987, 1990), "Üüü..." (1990, 2000, 2003), "Cin" (nağıl,1993), "Nənəm təkdi" (1995), "Şamaxı -Şam nağılı" (1996), "Qəşəm İsabəyli 50 yaşında" (1998), "Elnur, Əkil və onların başına gələnlər." (2000), "Ay külək, nə əsirsən"(2002), "Bir qarıyla bir qoca..."(2006) və başqa əsərləri oxucular arasında xüsusilə də kiçikyaşlılar arasında məşhurdur.

1967-ci ildən dövri mətbuatda çıxış edir. Rus, ukrayna, şotland, moldova, tacik, litva və latviya ədəbiyyatından (rus dili vasitəsilə) tərcümələri vardır. Əsərləri rus, ingilis, ukrayna, belarus və qırğız dillərinə tərcümə olunmuşdur.

1980-ci ildə "Sovet Azərbaycanı maarifi-60" mahnı mətnləri müsabiqəsində mükafat almışdır.

Q.İsabəylinin "Əkil-Bəkil" poeması 1989-cu ildə "İlin ən yaxşı uşaq kitabı" I Respublika müsabiqəsinin qalibi olmuşdur. Müsabiqədən əldə edilmiş mükafat müəllif tərəfindən şəhidlərin xatirəsinə abidə ucaldılması məqsədilə xeyriyyə fonduna köçürülmüşdür.

Ədəbiyyat

Bu şəhər mənə göz dağı olub [Mətn]/Q. İsabəyli.-Bakı: Şirvannəşr, 2011.- 192 s.

Nənəm təkdi [Mətn] /Q. İsabəyli.-Bakı: Şirvannəşr, 2008.- 84 s.

Ölü bilər, mən bilərəm [Mətn] /Q. İsabəyli.- Bakı: Şirvannəşr, 2008.- 232 s.

Üüü... [Mətn] /Q. İsabəyli.- Bakı: Şirvannəşr, 2003.- 64 s.

Xəlilova, A. Azərbaycanın görkəmli uşaq yazıçısı Qəşəm İsabəyli [Mətn] /A.Xəlilova.- Bakı: Şirvannəşr, 2011.- 252 s.

Мы старые кафказцы [Текст] /Г.Исабейли.- Баку, Ширваннешр, 2011.- 80 с.

Ууу...[Текст] /Г.Исабейли.- Баку: Ширваннешр, 2011.- 96 с.

İnternetdə

www.anl.az

www.kitabklubu.org

100 illiyi

Kazım Kazımzadə 1913-1992

Rəssam



Kazım Məmmədəli oğlu Kazımzadə 1913-cü il avqust ayının 10-da Bakıda anadan olmuşdur.

1936-cı ildə Azərbaycan Rəssamlıq Texnikumunu və 1960-cı ildə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir.

1942-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru, 1954-cü ildə Beynəlxalq Muzeylər Şurası Sovet Komitəsinin əsas üzvü olmuşdur.

O, əsasən kitab illüstrasiyası və dəzgah qrafikası sahəsində fəaliyyət göstərmişdir. İlk dövrlərdə Nizaminin "İsgəndərnamə" ("İqbalnamə"), "Sirlər xəzinəsi" (1940), "Leyli və Məcnun" (1947), "Xosrov və Şirin" (1948) poemalarına, eləcə də uşaqlar üçün işlənmiş "Fitnə", "Sehirli üzük", "İsgəndər və çoban" kitablarına illüstrasiyalar çəkmişdir.

"Cəbhə yollarında" (1943) rəsmlər silsiləsində müharibənin fəlakətlərini əks etdirmişdir. Yaradıcılığında siyasi plakat və karikaturalar da mühüm yer tutur.

1952-ci ildən "Kirpi" jurnalında əməkdaşlıq etmişdir. Kazımzadə tarixi-inqilabi və məişət mövzularında rəsm silsilələri ("Bakıda inqilabi-tarixi hadisələr", "Tibb işçiləri") və tablolar ("416-cı diviziya döyüşdə", "Azad Kubada", "İraq lövhələri" və s.) yaratmışdır.

Dram və opera tamaşalarına, həmçinin kinofilmlərə hazırlanmış geyim eskizlərinin, süjetli xalıların müəlliflərindəndir. Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur.

1943-cü ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1950-ci ildə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1965-ci ildə "Azərbaycanın Xalq rəssamı" adını almışdır.

Kazım Kazımzadə 1992-ci il oktyabr ayında vəfat etmişdir.

Ədəbiyyat

Bayramov, A.Unudulmaz Kazım müəllim [Mətn] /A.Bayramov //Mədəniyyət.- 2010.- 25 avqust.- S.12.

Kazımzadə Kazım Məmmədəli oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.- Bakı,1981.-C.5.- S.209-210.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.epistolyar.musigi-dunya.az

www.kinozal.az

70 illiyi İlhamə Quliyeva 1943

Müğənni



İlhamə Məzahir qızı Quliyeva 1943-cü il avqust ayının 17-də Bakıda, musiqiçi ailəsində anadan olmuşdur.

İbtidai təhsilini tamamladıqdan sonra 1963-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. Səhnə fəaliyyətinə tələbəlik illərindən başlamışdır.

1965-1970-ci illərdə Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti Estrada Orkestrinin, 1970-1980-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur.

1980-ci ildən Azərbaycan Dövlət Qastrol-Konsert Birliyinin ("Azkonsert") solistidir. Repertuarına Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri daxildir. Yaradıcılığında T.Quliyev, F.Əmirov, C.Cahangirov, H.Məmmədov, F.Sücəddinov, N.Aslan və başqa bəstəkarların mahnıları xüsusi yer tutur. İlhamə Quliyevanın ifasında "Neylərsən?", "Bilməzdim" (E.İbrahimova), "İncitmə qəlbimi", "Toy mahnısı" (F.Əmirov) "De görüm neyləmişəm" (F.Əmirov), "Görüş yeri", "Anam Azərbaycanım", "Bağışla", "Gedirəm", "Çiçək yağışı", "Unuda bilməzsən", "Qaragilə", "Ağla", "Göy göl" (F.Əmirov) və başqa mahnılar tamaşaçılar tərəfindən sevə-sevə dinlənilir. Bir sıra xarici ölkələrdə (İngiltərə, İspaniya, İsveçrə, Danimarka, Türkiyə, Almaniya və s.) qastrolda olmuş, Azərbaycan diasporunun fəal nümayəndəsi kimi fəaliyyət göstərmişdir.

Məşhur müğənni 1998-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüş, 2003-cü ildə Azərbaycanın "Şöhrət ordeni" ilə təltif edlmişdir. 2008-ci ildə ona "Dağıstanın Xalq artisti" adı verilmiş və "Humay" mükafatına layiq görülmüşdür.

2011-ci ildə İlhamə Quliyeva "Türk sənət dünyasının kraliçası" tituluna layiq görülmüşdür.

Ədəbiyyat

Xatun. İlhamə Quliyeva adına mədəniyyət mərkəzi: İstanbulda ayın sonunda belə bir mərkəzin açılışı olacaq [Mətn] /Xatun // Ayna .-2010.- 13 mart.- S.21.

Məhərrəmova, T. "Yaşın nə fərqi var ki..." : Hər fəslin öz gözəlliyi, hər çiçəyin öz ətri olduğu kimi, hər yaşın öz gözəlliyi var [Mətn] /T. Məhərrəmova //Kaspi.- 2010.- 17 avqust.- S.12.

Quliyeva İlhamə Məzahir qızı [Mətn] //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.139.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milli.az

www.music.day.az

65 illiyi

Elxan Babayev 1948 - 2003

Musiqişünas



Elxan Əlisəttar oğlu Babayev 1948-ci il avqust ayının 28-də Bakıda anadan olmuşdur.

O, 1971-ci ildə ifaçılıq, 1973-cü ildə tarix və nəzəriyyə fakültələri üzrə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1971-1978-ci illər Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində əvvəlcə simfonik orkestrin solisti, sonra Musiqi verilişləri baş redaksiyasında şöbə müdiri vəzifəsində çalışmışdır.

1978-ci ildən Azərbaycan Dövlət Konservatoriyasının müəllimi vəzifəsinə dəvət olunmuşdur.

1981-1984-cü illərdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının musiqi nəzəriyyəsi kafedrasının dissertantı olmuş, 1985-ci ildə Moskva Dövlət Konservatoriyasında "Azərbaycan dəstgahlarının ritmikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1985-1988-ci illər İraq respublikasına ezam edilmiş, Milli simfonik orkestrin solisti, İncəsənət Akademiyasının, musiqi və balet məktəbinin müəllimi vəzifələrində işləmişdir. Ezamiyyətdən sonra konservatoriyaya qayıdan E.Babayev bir sıra rəhbər vəzifələrdə çalışmışdır. O, 1992-ci ildə Nəfəs və zərb alətləri kafedrasının müdiri, həmin ildə ifaçılıq fakültəsinin dekanı, 1993-cü ildən Konservatoriyanın (1994-cü ildən Bakı Musiqi Akademiyasının) I prorektoru vəzifələrinə irəli çəkilmişdir. E.Babayev 1992-ci ildə dosent, 1994-cü ildə professor elmi adlarına layiq görülmüşdür. 1999-cu ildə "Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri" mövzusunda dissertasiya müdafiə etmiş, sənətşünaslıq doktoru elmi dərəcəsi almışdır.

O, bir sıra respublika müsabiqələrinin, o cümlədən, nəfəs alətləri ifaçılarının F.Əmirov adına respublika müsabiqəsinin təşəbbüskarı, münsiflər heyətinin sədri olmuşdur.

Musiqişünasların B.Asafyev adına beynəlxalq müsabiqəsi laureatı (1991), "Bakılı" Beynəlxalq Cəmiyyətinin "Humay-98" mükafatı laureatı E.Babayev 4 monoqrafiyanın, məqalələr toplusunun, 6 elmi-metodik nəşrin, tədris proqramlarının, 100-dən artıq elmi və elmi-publisistik məqələlərin, onlarla televiziya və radio verilişlərinin müəllifidir.

ABŞ-ın Çikaqo, Enarbor, Flint, Eydrian, Almaniyanın Köln şəhərlərində, eləcə də Bağdad, Tehran, Moskva, Yekaterinburq, Düşənbə, Tbilisi, Almatı şəhərlərində keçirilən beynəlxalq konfrans, simpozium və konqreslərdə məruzələr etmiş, görüşlərin iştirakçısı olmuşdur. Elmi məqalələri Türkiyədə, Rusiyada, Qazaxıstanda, Tacikistanda, İraqda nəşr edilmişdir.

Görkəmli musiqişünas alim, sənətşünaslıq doktoru, profesor Elxan Babayev 2003-cü il fevral ayının 2-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan muğam dəstgahlarında ritmintonasiya problemləri [Mətn] /E.Babayev; elmi red. R.Zöhrabov.- Bakı: Ergün, 1996.- 128 s.

Ənənəvi musiqimiz [Mətn]: [müşahidələr və mülahizələr] /E.Babayev; elmi red. F.Əliyeva; rəyçi R.Məmmədova.- Bakı: Elm, 2000.- 116 s.

Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri [Mətn]: dərs vəsaiti /E.Babayev; elmi red. F.Əliyeva; rəyçi Z.Səfərova.- Bakı: Elm, 1998.- 146 s.

İnternetdə

www.anl.az

www.azerbaijans.com

www.mugam.musigi-dunya.az

www.musakademiya.musigi-dunya.az

70 illiyi

Ramiz Məlikov 1943

Aktyor



Ramiz Ağarza oğlu Məlikov (Ramiz Məlik) 1943-cü il avqust ayının 4-də Bakıda doğulmuşdur.

1961-ci ildə Yasamal rayonundakı 31 saylı orta məktəbi bitirmiş, iki il bu məktəbdə pioner baş dəstə rəhbəri kimi çalışmışdır.

1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuş, Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs almışdır.

1967-ci ildə Akademik Milli Dram Teatrının truppasına aktyor kimi işə götürülmüşdür. Aktyorluq etməklə yanaşı, Əkrəm Əylislinin "Yastı təpə" (quruluşçu rejissor Tofiq Kazımov), Leonard Frankın "Yad adam" (quruluşçu rejissor Oruc Qurbanov), İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" (quruluşçu rejissor Mərahim Fərzəlibəyov) və s. pyeslərinin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışmışdır.

Demək olar ki, hər yeni mövsümdə aktyor yeni-yeni rollar oynayır: Marsel ("Hamlet", V.Şekspir), Aqşin ("Od gəlini", C.Cabbarlı), Barat ("Almaz", C.Cabbarlı), Leytenant ("Mahnı dağlarda qaldı", İ.Əfəndiyev), Mikayılov ("Xurşid banu Natəvan", İ. Əfəndiyev), Mayis ("Sevgililərin cəhənnəmdə vüsalı", İ.Əfəndiyev), Teymur ("Yastı təpə", Ə.Əylisli), Valter ("Yad adam", L.Frank), Arif ("İblis", H.Cavid), Jan ("Dəfn edilməmiş ölülər", J.P.Sartr), Toğrul ("Atabəylər", N.Həsənzadə), Antoni ("Kölgələrin oyunu", Y.Edlis), Katib ("Gecə döyülən qapılar", N.Xəzri), Dulu Xaqan ("Özümüzü kəsən qılınc", B.Vahabzadə), Vilyams ("Kəllə", N.Hikmət), Qaçaq Süleyman ("Dirilən adam", İ.Şıxlı) və s.

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Bəhruz), Əlibala Hacızadənin "İnanmırsansa…" (Adil), Nəriman Həsənzadənin "Kimin sualı var?" (Ədalət) və s. əsərlərin tamaşalarında oynamışdır.

1984-ci ildə Ramiz Məlik Respublika Dövlət mükafatına layiq görülmüş, 1982-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1998-ci ildə isə "Xalq artisti" fəxri adları ilə təltif olunmuşdur. Hazırda Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Bürcəliyeva, S. Sənətinin vurğunu [Mətn] /S.Bürcəliyeva //Mədəniyyət.- 2011.- 3 avqust.- S.10.

Xalq artisti Kamil Məlik: "Teatrdan ayrılmaq mənim üçün" stress ola bilər [Mətn] //Olaylar.- 2012.- 14-16 yanvar.- S.8.

Ramiz Məlik [Mətn] //Novxanı sərvətimiz, şəxsiyyətlərimizdir /təsisçi və baş red. V.Ağayev; red. Ə.Əlimədətoğlu, Hacı Arif Bahadıroğlu, N.Qəhrəmanlı.- Bakı, 2010.- S.127.

Rəhimli, İ. Ramiz Məlik [Mətn] //Rəhimli İ. Üç əsrin yüz otuz ili (Akademik Milli Dram Teatrı bu gün).- Bakı, 2003.- S.95-99.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.azerbaijans.com

www.mct.gov.az

65 illiyi

Rasim Balayev 1948

Aktyor



Rasim Əhməd oğlu Balayev 1948-ci il avqust ayının 8-də Ağsu rayonunda anadan olmuşdur. 1964-1969-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) təhsil almışdır. 1972-ci ildən "Azərbaycanfilm" kinostudiyasında çalışmışdır. Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolda çəkilmişdir. Aktyorun kinoda ilk uğurlu rolu 1973-cü ildə lentə alınmış "Nəsimi" filmində olmuşdur. Rasim Balayevin ulduzu da məhz, "Nəsimi" rolundan sonra parlamağa başlamışdır. 1974-cü ildə keçirilən 7-ci Ümumittifaq kino festivalında "Nəsimi" roluna görə Rasim Balayev "Kişi rolunun ən yaxşı ifaçısı" mükafatına layiq görülmüşdür. Sonralar o, "Ömrün ilk anı" (1974), "Qatır Məmməd" (1974), "Dədə Qorqud" (1975), "Arxadan vurulan zərbə" (1977), "Babək" (1979), "Atları yəhərləyin" (1982), , "İlıq dənizdə buz parçası" (1983), "Gözlə məni", "Həm ziyarət, həm ticarət", "Otel otağı" kimi filmlərdə yaddaqalan obrazlar yaratmışdır. Böyük və çətin rollardan əlavə Rasim Balayev kiçik rolları da məharətlə ifa etmişdir. "Bu şirin söz, azadlıq", "Sənin birinci saatın", "Xoşbəxtlik səhnəsi", "Mən hələ qayıdacağam", "Birisigün gecəyarısı" kimi filmlərdə o, epizodik rollarda oynamışdır.

Görkəmli aktyor R.Balayev xarici kinostudiyaların çəkdiyi "Azadlıq şirin sözdür"(1972,"Mosfilm"),"Əlişimşəkli atlı" (1974, M.Qorki ad. kinostudiya, Moskva), "Pusqu" (1977, "Tacikfilm"), "Oyanma" (1982,"Özbəkfilm"), "Əgər Yer kürəsi dəyirmi olsaydı" (1980, "DEFA", ADR) və başqa filmlərdə də rol almışdır.

Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibidir. Bir sıra orden və medallarla, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1982-ci ildə "Xalq artisti" fəxri adını almış, 1986-cı ildə Dövlət mükafatı laureatı olmuşdur.

70-ə yaxın filmə çəkilən Azərbaycanın görkəmli aktyoru Rasim Balayevin bu gün 65 yaşı tamam olur.

Ədəbiyyat

Quliyev, E. Rasim Balayev [Mətn] /E.Quliyev, C.Mirzəliyev.- Bakı: Azərbaycan, 1999.- 96 s.

Məhərrəmov, A. Balayev Rasim Əhməd oğlu [Mətn] //Məhərrəmov A. Müasir Azərbaycan kinoaktyorları.- Bakı, 1984.- S.24.

Məhərrəmova, T. "Kino mənzilini dəyişib": Rasim Balayev: "Hərdən fikirləşirəm, nə qədər ki, canım salamatdır, çəkilmək lazımdır" [Mətn] /T.Məhərrəmova //Kaspi.- 2010.- 3 iyun.- S.8.

"Sənət xalqdan bir addım irəlidə olmalıdır": Rasim Balayev: "Əsl işimdən ayrı düşmüşəm deyə, bəzən özümü lazımsız, bəzən də gücsüz hesab edirəm" [Mətn] /R.Balayev //Paritet.- 2009.- 18-19 iyun.- S.12.


www.adam.az

www.az.wikipedia.org

70 illiyi

Şahmar Ələkbərov 1943-1992

Aktyor



Şahmar Zülfüqar oğlu Ələkbərov 1943-cü il avqust ayının 23-də Gəncədə anadan olmuşdur. 9 yaşında ikən ailəsi ilə birlikdə Gəncədən Bakıya köçmüşdür. Teatr İnstitutunun aktyorluq fakültəsinə qəbul olmuş, Rza Təhmasibin kursunda təhsil almışdır. Hələ III kursda təhsil alarkən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına işə götürülmüşdür. Teatrda ilk dəfə Şekspirin "Lope de Veqa" tamaşasında çıxış etmişdir. "Ustalar" tamaşasında qazandığı uğurdan sonra böyük tamaşaçı auditoriyasının rəğbətini qazanmışdır. Bundan sonra məşhur sənətkar Adil İsgəndərov onu kinostudiyanın nəzdində özünün yaratdığı "kino aktyorluğu" studiyasına dəvət etmişdir. "Azərbaycanfilm" kinostudiyasında aktyor və rejissor kimi fəaliyyət göstərmişdir. Şahmar Ələkbərov kinoda ilk aktyor karyerasına 1967-ci ildə kinorejissor Kamil Rüstəmbəyovun yazıçı-jurnalist Əhmədağa Qurbanovun "Tikanlı məftillər" povestinin motivləri əsasında ekranlaşdırdığı "Dağlarda döyüş" filmindəki Fərrux obrazı ilə başlamışdır.

Təhsilini başa vurduqdan sonra müəllim-assistent kimi institutda saxlanılmışdır. Şahmar Ələkbərov onlarca televiziya tamaşasında yadda qalan obrazlar yaratmışdır. Bundan başqa teleradio sahəsində də fəal olmuşdur. O, radioda ilk dəfə "Ulduz" proqramının aparıcısı kimi çıxış etmişdir. "Molla Nəsrəddin" radio verilişinin də aparıcısı olmuş, bir çox filmlərin dublyajında iştirak etmişdir.

Ümumiyyətlə, 20 illik yaradıcılığı dövründə Şahmar Ələkbərov - Qəzənfər ("Yeddi oğul istərəm"), Oğul ("İntizar"), İman ("Axırıncı aşırım"), Arif ("Həyat bizi sınayır"), Rizvan ("Qızıl qaz"), Azad ("Bakıda küləklər əsir"), Qatır Məmməd ("Gəncəbasarlı qisasçı"), Feyzi ("Firəngiz"), Gündüz Kərimli ("Arxadan vurulan zərbə"), Cavidan ("Babək"), Nuru ("Qəribə adam"), Tahir ("Gözlə məni"), Xaliq ("Qocalar, qocalar..."), Cümşüd ("Avqust gələndə"), İbrahim ("Atları yəhərləyin") kimi obrazlarda bir-birindən fərqli, xarakter və dünyagörüşcə müxtəlif insanları canlandırmışdır. O, nəinki özünün çəkildiyi 30-a yaxın filmdə, eyni zamanda dublyajdan səsləndirdiyi onlarla personajların xarakterlərini də tam dolğunluğu ilə tamaşaçıya çatdırmağı bacarmışdı. Yaradıcılığındakı amplua çərçivəsizliyini o, dublyajlarda səs artikulyasiyasına istinadən səsləndirərək yaratdığı obrazlarla da sübut etmişdi. Aktyorun filmoqrafiyasına daxil olan 100-dək dublyaj filmlərindən "O qızı tapın", "Uşaqlığın son gecəsi", "Şərikli çörək" və "Mozalan" studiyasında istehsal olunmuş çox sayda filmlərin adlarını çəkmək olar.

Şahmar Ələkbərov kinoya bağlılığını rejissoru olduğu filmləri ilə də təsdiqləmişdi. O, 1987-ci ildə ilk olaraq G. Əzimzadə ilə birlikdə "İmtahan" bədii televiziya filmini ekranlaşdırdıqdan sonra müstəqil olaraq "Sahilsiz gecə" və Azərbaycanın görkəmli şairi Əliağa Vahidin həyat və yaradıcılığına həsr olunmuş "Qəzəlxan" filmlərini çəkmişdi.

Xalq artisti, dövlət mükafatı laureatı Şahmar Ələkbərov ağır xəstəlikdən əziyyət çəkmiş və 1992-ci ilin sonunda vəfat etmişdir.

Ə d ə b i y y a t

Bürcəliyeva, Ş. Şahmarın sənət dünyası [Mətn] /Ş. Bürcəliyeva //Mədəniyyət.- 2010.- 20 avqust.- S. 10.

Elsevər, S.Əlliyə çatmayan "uzunömürlü" [Mətn] /S.Elsevər // Mədəniyyət .-2009.- 14 avqust.- S. 11.

Mehdixanlı, T. Bu dünyada Şahmar da vardı [Mətn] /T.Mehdixanlı //Təzadlar.-2008.- 14 noyabr.- S. 11.

Məhərrəmova, T. 50 yaşın nağılı [Mətn] /T. Məhərrəmova//Kaspi .-2010. - 24 avqust .- S.15.

Mükərrəmoğlu, M. Ömür ki var, bir yelkənli gəmidir... Xarakterlər ustası Şahmar Ələkbərovun xatirəsinə [Mətn] /M. Mükərrəmoğlu //Xalq qəzeti .-2009.- 22 avqust.- S. 6.

Oktay. Sənətin Şahmarı /Oktay //Xalq cəbhəsi .-2012.- 2 fevral.- S. 15.

www.az.wikipedia.org

55 illiyi

Fəxrəddin Cəbrayılov
1958

Milli Qəhrəman



Fəxrəddin Mövsüm oğlu Cəbrayılov 1958-ci il avqust ayının 12-də Qərbi Azərbaycanın Gorus şəhərində anadan olmuşdur.

Ailəsi ilə birlikdə Almaniyaya getmiş və ibtidai təhsilini orada almışdır. Sonra Bakıya gələrək orta təhsilini burada bitirmişdir.

1975-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər məktəbinə daxil olmuş, 1979-cu ildə təhsilini başa vurmuşdur. Təyinatla Almaniyada yerləşən Sovet ordusuna qrup komandiri göndərilmişdir. 1984-cü ildə fəaliyyətini Zaqafqaziya Hərbi Dairəsində davam etdirmişdir.

1986-cı ildə Ali Zabitlər Kursunu bitirmişdir. Sonralar Vətənə dönən Fəxrəddin Bakı şəhəri Nəsimi rayon Hərbi Komissarlığında çalışmağa başlamışdır.

1992-ci ildə Müdafiə Nazirliyində Beynəlxalq Əlaqələr İdarəsində müqavilələrin imzalanması şöbəsinin rəisi, 1992-ci ildə "N" saylı taborun komandiri vəzifəsinə təyin olunmuşdur.

1993-cü ildə Beyləqan rayonunda gedən döyüşlərdə Fəxrəddinin hazırladığı plana əsasən onun taboru buradakı erməni yaraqlılarını tam məhv etmiş və xeyli silah-sursat ələ keçirmişdi.

1994-cü ildə Füzuli rayonunda və Kəlbəcər rayonunda gedən döyüşlərdə yenidən düşməni ağır itkilərə məruz qoymuşdur. 1996-2010-cu illərdə Qaradağ rayonunda Hərbi Komissarlıqda çalışmışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 1994-cü ilin oktyabr ayında "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə polkovnik Cəbrayılov Fəxrəddin Mövsüm oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Cəbrayılov Fəxrəddin Mövsüm oğlu– Müdafiə Nazirliyi, polkovnik – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il [Mətn] //Azərbaycan.- 1995.- 5 aprel.-S.1.

Cəbrayılov Fəxrəddin Mövsüm oğlu (1958) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.44-45.

Əsgərov, V. Cəbrayılov Fəxrəddin Mövsüm oğlu [Mətn] /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.227-228.

Seyidzadə, M. Cəbrayılov Fəxrəddin Mövsüm oğlu [Mətn] /Seyidzadə M. //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.42.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org


www.e-qanun.az

www.milliqahraman.az

60 illiyi

Aslan Atakişiyev 1953-1992

Milli Qəhrəman



Aslan Qabil oğlu Atakişiyev 1953-cü il avqust ayının 16-da Qubadlı rayonunun Muradxanlı kəndində anadan olmuşdur. 1960-cı ildə burada birinci sinfə getmiş, 1970-ci ildə məktəbi bitirmişdir.

1972-1974-cü illərdə hərbi xidmətdə olmuşdur.

1977-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur.

1981-ci ildə təhsilini başa vuraraq Qubadlı rayonunun Muradxanlı kənd orta məktəbində müəllimliyə başlamışdır. Aslan erməni quldurlarının doğma torpaqlarımızda törətdikləri vəhşiliklərə dözməyərək 1992-ci ildə Milli Ordu sıralarına yazılmış, leytenant rütbəsi ilə komandir müavini təyin olunmuşdur. Aslan Atakişiyev Laçın rayonu uğrunda gedən döyüşlərdə Mazutlu, Səfiyan, Türklər, Suarası kimi kəndlərdə əsl qəhrəmanlıq göstərmişdir.

1992-ci il avqust ayının 7-də Laçın dəhlizi və Susuzdağ yüksəkliyində gedən döyüşdə düşmənə əsir düşməmək üçün son gülləsini öz ürəyinə sıxmış və özünü Vətən uğrunda qurban verərək həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Atakişiyev Aslan Qabil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakının Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Atakişiyev Aslan Qabil oğlu-bölmə komandiri – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 24.- S.50.- (Ölümündən sonra).

Atakişiyev Aslan Qabil oğlu: (1953-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.33-34.

Əsgərov, V. Atakişiyev Aslan Qabil oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.26.

Seyidzadə, M. Atakişiyev Aslan Qabil oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.30.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

www.zengilan.com



85 illiyi

Ramazan Tarverdiyev
1928-1983 *Coğrafiyaşünas alim*



Ramazan Baxşəli oğlu Tarverdiyev 1928-ci il avqust ayının 5-də indiki Hacıqabul rayonunun Navahı kəndində anadan olmuşdur.

1953-cü ildə Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsini bitirmişdir.

1953-1956-cı illərdə Azərbaycan Hidrometeoroloji Xidmət İdarəsində, 1956-1968-ci illərdə Azərbaycan SSR EA Coğrafiya İnstitutunda, 1968-1973-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Fiziki coğrafiya kafedrasında dosent və 1973-cü ildən ömrünün sonuna kimi kafedra müdiri vəzifəsində çalışmışdır.

Tədqiqatları əsasən Azərbaycanın gölləri və su anbarlarının hidroloji xüsusiyyətlərinə həsr edilmişdir. Azərbaycanın Böyük Qafqaz təbii vilayətində yerləşən Cavanşir, Nohurqışlaq, Qaranohur, Aşıq Bayramlı, Yekəxana su anbarlarının, Tufangöl, Ağrıbir, Taxtagöl, Xalaxı göllərinin hidroloji xüsusiyyətlərini öyrənmişdir. Əsas tədqiqat obyekti Mingəçevir su anbarı, onun suyunun səviyyə rejimi, külək-dalğa rejimi, temperaturu, lillənməsi, donma halları, suyun rəngi, şəffaflığı, su balansını öyrənmişdir. Su anbarının lillənməsinin təkcə çayın gətirdiyi lil materialları ilə deyil, həm də sahillərin yuyulub uçması, külək vasitəsilə gətirilən materiallar hesabına da baş verməsini tədqiq etmişdir. Məhz onun irəli sürdüyü elmi-metodik hesablama üsulları Şəmkir SES-in tikintisində tətbiq olunmuşdur.

Ramazan Tarverdiyev 1980-ci ildə Rusiyanın Baykal gölündə elmi-tədqiqat işləri aparmışdır. Həmçinin, 1963-cü ildə Azərbaycanın İsmayıllı rayonu ərazisindəki Qafqaz Albaniyası dövrünə aid Cavanşir qalasının (VII əsr) tam sxemini bussol planaalma yolu ilə tərtib etmişdir.

ASE-nin I-VII cildlərində əhatə olunmuş göl və su anbarlarına aid bir çox məqalələrin müəllifidir.

1977-ci ildə coğrafiya elmləri doktoru elmi dərəcəsi almış, 1978-ci ildən professordur.

R.B.Tarverdiyev 1945-ci ildə "1941-1945-ci illər Böyük Vətən Müharibəsində fədakar əməyə görə", 1975-ci ildə "Böyük Vətən Müharibəsində Qələbənin 30 illiyi" və 1980-ci ildə "Sosializm yarışının qalibi" medalları ilə təltif edilmişdir.

Görkəmli coğrafiyaşünas alim 1983-cü il may ayının 27-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Böyük Qafqazın gölləri və su anbarlarının hidroloji xüsusiyyətləri [Mətn] /R.Tarverdiyev, X. Zamanov.-Bakı: Elm, 1965.- 152 s.

Заиление Мингечаурского водохранилища [Текст] /Р.Тарвердиев.- Баку, 1974.- 78 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.sia.az

www.zoologiya.az

95 illiyi

Həsən Abdullayev 1918-1993

Akademik



Həsən Məmmədbağır oğlu Abdullayev 1918-ci il avqust ayının 20-də Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur. 1941-ci ildə o, fizika-riyaziyyat elmləri namizədi, 1954-cü ildə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almışdır.

1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir.

1957-1958-ci illərdə Həsən Abdullayev Azərbaycan SSR EA Fizika-Riyaziyyat İnstitutu, 1959-1993-cü illərdə Fizika İnstitutunun direktoru vəzifəsində işləmişdir.

1968-1970-ci illərdə Azərbaycan SSR EA Fizika-Riyaziyyat və Texnika elmləri bölməsinin akademik-katibi olmuşdur.

1970-ci ildə isə SSRİ EA müxbir üzvü seçilmişdir.

Akademik Həsən Abdullayev 1970-1983-cü illərdə Azərbaycan SSR EA-nın Prezidenti seçilmişdir.

1972-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı, 1974-cü ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1975-ci ildə Qırmızı Əmək Bayrağı ordeni, 1978-ci ildə Lenin ordeni ilə, 1970-ci ildə S.İ.Vavilov adına medal, 1972-ci ildə Beynəlxalq Leypsik yarmarkasının (ADR) böyük qızıl medalı, 1972, 1975, 1977 və 1978-ci illərdə isə SSRİ XTNS-nin qızıl medalları ilə təltif olunmuşdur.

Akademik Abdullayevin təşəbbüsü ilə 1956-cı ildə ADU-da Yarımkeçiricilər fizikası kafedrası təşkil edilmişdir. Abdullayevin yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük xidmətləri olmuş, Azərbaycanda yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaratmışdır. 1957-ci ildən Azərbaycan SSR EA-nın Fizika və Riyaziyyat İnstitutu Həsən Abdullayevin rəhbərliyində SSRİ-də baş təşkilat adını almışdır. SSRİ Elmlər Akademiyası "Yarımkeçiricilər fizikası və kimyası" elmi şurasının üzvü, Azərbaycan SSR "Fizika problemləri" elmi şurasının, elm təşkilatlarının və ali təhsil məktəblərinin elmi fəaliyyətinin koordinasiyası üzrə Elmi şura sədri, "Bilik" cəmiyyətinin və Azərbaycan SSR Dövlət Mükafatı komitəsinin sədri olmuşdur. 1970-1983-cü illər Akademik Həsən Abdullayevin rəhbərliyi altında Elmlər Akademiyasının sistemi genişlənmiş: 20 yeni elmi təşkilat - institutlar, xüsusi konstruktor büroları, təcrübi zavodlar, texniki emalatxanalar fəaliyyətə başlamışdı.

Akademik Həsən Abdullayevin rəhbərliyi altında 60 doktorluq, 100 namizədlik dissertasiyası müdafiə olunmuşdur. H.M.Abdullayev 17 monoqrafiyanın, 240 ixtiranın, 600 elmi məqalənin və s. müəllifidir.

Görkəmli alim Abdullayev Həsən Məmmədbağır oğlu 1993-cü il sentyabr ayının 1-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Yarımkeçirici çeviricilər [Mətn] /H.Abdullayev, Z.İsgəndərzadə; red. M.Axundov; Azərb.SSR Elmlər Akademiyası, Fizika İn-tu.- Bakı: Elm, 1974.- 296, [3] s.

Abdullayev Həsən Məmmədbağır oğlu [Mətn] //Fəxri Xiyaban /Heydər Əliyev Fondu.- Bakı, 2007.- S.14.

Quliyev, R. Akademik Həsən Abdullayev [Mətn]: Azərbaycanda yarımkeçiricilər fizikası məktəbinin banisi. Böyük elmin sükanı arxasında. Xatirələrdə yaşayan ömür /R.Quliyev; red. hey. M.Kərimov, A.Həşimov, S.Abdullayeva, A.Quluzadə.- Bakı: Azərbaycan, 2008.- 376 s.

İ n t e r n e t d ə

www.adam.az

www.az.wikipedia.org

www.science.az

www.shexsiyyetler.nakhchivan.az

Tarixdə bu gün

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü 2001



1 avqust ölkəmizdə ən əziz günlərdən biri kimi qeyd olunur. Çünki milli varlığımızın əsas atributlarından olan Ana dilimizlə bağlıdır. Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Ulu öndər millimənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atmışdır. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoymuşdu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, ulu öndərin Ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi olmuşdu.

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilmişdi. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi ulu öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etmişdi.

Ümummilli liderin 9 avqust 2001-ci il tarixli Fərmanı ilə avqustun 1-i ölkəmizdə "Azərbaycan dili və Azərbaycan əlifbası günü" kimi qeyd olunur. 2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" Sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ədəbiyyat

Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı [Mətn] //Azərbaycan.-2001.-10 avqust.-S.4.

Qocayev, Ə. 1 avqust-Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.-Bakı, 2006.-S.42-43.

İnternetdə

www.anl.az

www.azterm.az

www.aztv.az

www.files.preslib.az

2

115 illiyi

Azərbaycan Kinosu Günü
1898



1898-ci il avqust ayının 2-də yeni proqram hazırlanmış və bu proqrama "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin "Великий князь Алексей" paroxodunda yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal-sənədli və "İlişdin" bədii kinosüjetləri daxil edilmişdi. Bu kinosüjetləri fransız yəhudisi, 25 ildən artıq Bakıda yaşayıb işləmiş, Bakı elmi foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mixayloviç Mişon lentə almışdır. Bununla da Azərbaycanın kino tarixində ilk süjetlər yaranmışdır. Həmin kinosüjetlərdən 2-si – "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" 2001-ci ildə Azərbaycan Dövlət Filmfondunun təşəbbüsü ilə Fransanın kino arxivindən Azərbaycana göndərilmiş və hazırda filmfondda 35 mm-lik plyonkada və videokasetdə qorunub saxlanılır.

Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və ölkəmizdə çəkilmiş kinosüjetlərin 1898-ci il avqustun 2-də ilk kinoseansının həyata keçirildiyini nəzərə alaraq, ulu öndər Heydər Əliyev 18 dekabr 2000-ci il tarixli Sərəncamı ilə avqustun 2-si tarixini kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü elan etmişdir.

Ə d ə b i y y a t

Kazımzadə, A. Azərbaycan kinosu: 1898-2002 [Mətn]: 2 cilddə /A.Kazımzadə; Azərb. Resp. Mədəniyyət Nazirliyi; elmi red.: İ.Rəhimli, A.Salayev.- Bakı: Nağıl evi, 2003.- C.1.- 239 s .2.-372 s.

5

Hərbi-Dəniz Qüvvələri Günü
1996



"Qars", "Ərdahan" qayıqları, "Astrabad", "Göytəpə" poçt gəmiləri, "Araz" hidroqrafik gəmisi və "Bayıl" liman daşıyıcı gəmisindən ibarət Azərbaycanın hərbi dəniz donanması 1918-ci ildə yaradılmışdır. Daha sonra Bakını tərk edən ingilis əsgərləri özlərinin döyüş gəmilərinin və yardımçı üzgüçü vasitələrinin bir hissəsini Azərbaycana vermişlər. Demokratik cümhuriyyətin süqutundan sonra donanma Sovet Azərbaycanının Qırmızı donanması adlandırılmış və 1920-ci ilin yayında bu donanma Xəzər Dəniz Qüvvələrinin tərkibinə daxil olunmuşdur.

Keçmiş SSRİ-nin Qırmızı bayraqlı Xəzər Donanmasının Bakı və Moskva arasında bölünməsi 1992-ci ildə həyata keçirilmişdir. Hərbi gəmilərin Azərbaycanın balansına qəbul edilməsində HDQ-nın keçmiş komandanı, kontr-admiral Rafik Əsgərov mühüm rol oynamışdır. 1992-ci ilin iyul ayında Azərbaycan hərbi gəmiləri ölkəmizin bayrağı altında reydə çıxmışlar. Hazırda Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin sayı 3000 nəfərdən çoxdur.

1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olunmuş və həmin ildə ulu öndər Heydər Əliyevin fərmanı əsasında 5 avqust tarixi - Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü kimi qeyd olunmuşdur.

Ə d ə b i y y a t

5 avqust- Hərbi Donanma Günü [Mətn]/Qocayev, Ə.//Bayramlar və tarixi günlər.- Bakı: Altun kitab, 2006.-S.44-45.

www.anl.az

www.az.wikipedia.org

Tarixdə bu gün

Ramazan bayramı

İslam dininin müqəddəs bayramları arasında Ramazan bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 622-623-cü il) başlanmışdır.

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfqətli və ən müqəddəs ay hesab edilir. Onu "on bir ayın sultanı" da adlandırırlar. Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Oruc ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Orucluq ayında günün işıqlı vaxtı yemək, içmək, siqaret çəkmək, və s. olmaz. Oruc tutmaqdan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, cəbhədə vuruşanlar, uzaq yola çıxanlar azad olunurlar. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın." ("Bəqərə" surəsi, 187)

Məhəmməd peyğəmbər (s.ə.s.) buyurmuşdur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzinə oruc (qəzasını) tutmalı və ya fidyə verməlidirlər.

Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran hədiyyə edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə "leylət al-Qadr" qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqda belə yazılır: "Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!" ("Qədr" surəsi, 3-5)

Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan edilmişdi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur olmuşdular. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdi. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlamışdır.

Ə d ə b i y y a t

Hicrani, Ə.T. Orucun tarixi və mənəvi dəyərləri [Mətn] /Əli Təbrizi Hicrani.-[Yersiz]:[Məhdiyar], 2005.-141 s.

Qocayev, Ə. Orucluq bayramı [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.-S. 5-7.

Səbr və təvəkkül ayı Ramazan [Mətn] /elmi red. M.Camalov.-Bakı: Xəzər nəşriyyatı "MMC", 2007.- 65 s.

AVQUST

12

Tarixdə bu gün

Beynəlxalq Gənclər Günü
1999



İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.files.preslib.az

1998-ci il 8-12 avqust tarixində Lissabon şəhərində keçirilmiş Gənclər Nazirlərinin I toplantısında Beynəlxalq Gənclər Gününün keçirilməsi BMT-nin Baş Assambleyasının 54/120 saylı qətnaməsi ilə 17 dekabr 1999-cu ildən bəri 12 avqust tarixində qeyd olunur.

Respublikamızda Beynəlxalq Gənclər Günü ilk dəfə 2000-ci il avqust ayının 12-də qeyd edilmişdir.

Hazırda dünya əhalisinin təqribən 3 milyard nəfəri, yaşı 25-ədək olan gənclərdir. Onların yarım milyarddan çoxu kasıbçılıq həddində yaşayır. 100 milyondan artıq uşaq məktəbə gedə bilmir. Hər gün 30 min uşaq aclıqdan ölür. BMT-nin Baş katibi dünya birliyini gənclərin problemlərini həll etməyə çağırmışdır. Azərbaycanda gənclər dövlətin qayğısı ilə hərtərəfli şəkildə əhatə olunmuşdur. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2 fevral tarixi 1996-cı ildən etibarən Azərbaycan gəncləri günü kimi təsdiq olunmuşdur. Bu, ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Onu da qeyd edək ki, gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunmuşdur.

18

Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü
2000

Məlum olduğu kimi, Azərbaycanda milli sərhəd xidmətinin yaranma tarixi 1918-ci il dövrünə gedib çıxır. 1918-ci il iyun ayının 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılmış, digər istiqamətlərdə də oxşar məntəqələrin yaradılması işinə başlanılmışdır. 1919-cu il avqust ayının 18-də Azərbaycan Demokatik Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul etdikdən sonra əlavə olaraq 99 post yaradılaraq Azərbaycan sərhədlərinin mühafizəsi təşkil edilmişdir.

Müstəqillik illərində Azərbaycan Ordusunun yaradılması, formalaşdırılması proseslərinə bilavasitə rəhbərlik edən ulu öndər Heydər Əliyev Sərhəd Qoşunlarının formalaşdırılması, ölkəmizin sərhədlərinin qorunması işinin təşkili istiqamətində əvəzsiz xidmət göstərmiş, milli sərhəd siyasətinin əsasını qoymuş, sərhəd strategiyasını müəyyənləşdirmişdir. Ümumiyyətlə, üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.


2000-ci il avqust ayının 16-da Prezident Heydər Əliyev ADR-in ilk sərhəd mühafizəsinin təsis edildiyi tarixin - 18 avqustun Azərbaycan Respublikasının Sərhəd Qoşunları Əməkdaşlarının peşə bayramı Günü kimi elan edilməsi haqqında sərəncam imzalamışdır.

Tarixdə bu gün

20 ili

Cəbrayıl rayonunun işğalı 1993

Sahəsi: 1049 km²
Əhalisi: 54430
İşğal tarixi: 23.08.1993



1993-cü il avqust ayının 23-də Cəbrayıl rayonu işğalçı erməni silahlı qüvvələri tərəfindən zəbt edilmişdir.

1994-cü il Horadiz əməliyyatı zamanı Milli Ordunun hərbi silahlı qüvvələri şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində irəliləsə də, Cəbrayılın yalnız Cocuq -Mərcanlı kəndi düşmən işğalından azad olunmuşdu.

İşğaldan əvvəl rayonda 72 orta və natamam orta məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğu fəaliyyət göstərmişdi. Zəngin eksponatları olan tarix-diyarşünaslıq muzeyi olmuşdu. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi xidmət göstərirdi.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 16 nəfər həlak olmuş, 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişmiş, 90 nəfərə yaxın isə əsir və itkin düşmüşdür. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu almış, 6 nəfər isə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var.

2006-2007-ci illər ərzində erməni işğalçıları tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilmişdir.

Ölkənin 58 bölgəsinə səpələnən cəbrayıllılar daha çox Beyləqan, İmişli, Sabirabad, Saatlı, Biləsuvar rayonlarında məskunlaşmışlar.

Biz inanırıq ki, qələbə uzaqda deyil. Ali baş komandanın yürütdüyü uzaqgörən siyasət, apardığı danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad olacaq, bütün həmvətənlərimiz öz yurd-yuvalarına dönəcəklər.

Ədəbiyyat

Arazlı, A. Cəbrayılım [Mətn]: şeirlər /Abbas Arazlı; nəşrə hazırl. və red.: Müşfiq Çobanlı.- Bakı: Təhsil, 1997.- 96 s.

Quliyev, Ş. Cəbrayıl [Mətn]: [tarixi oçerk] /Ş.Quliyev, T.Abbasov, F.Quliyev; red. Q.İsabəyli; foto S.Məmmədvəliyev.- Bakı: İşıq, 1993.- 112 s.

Təhməzli, H. Cəbrayıl [Mətn] /H.Təhməzli; red. B.Zeynalov.- Bakı: Nurlan, 2007.- 61 s.

İnternetdə

www.anl.az

www.azecology.az

www.cabrail-ih.gov.a

AVQUST
23

Tarixdə bu gün

20 ili

Füzuli rayonunun işğalı 1993

- **Ərazisi: 1386 km²**
- **Əhalisi: 105000**
- **125368 hektar ərazisi işğal olunub**
- **İşğal tarixi: 23.08.1993**

23 avqust 1993-cü ildə ümumi sahəsi 1386 km² hektar olan Füzuli rayonunun qərb hissəsindən (50 kənd) 125368 hektar ərazinin erməni bədxahları tərəfindən işğal olunmasından 20 il ötür.

Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə yenidən təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlamışdı.

İşğaldan əvvəl rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd, 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri - zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi kimi torpaq sahələri olan rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdi. Kənd təsərrüfatı ilə yanaşı, tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzuli sakini döyüşmüş, yüzlərlə insan şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid verən Füzuli rayonunun əhalisi olmuşdur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır.

Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılmışdır.

Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək. Minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır. O gün gələcək ki, Füzuli rayonu yenidən öz əvvəlki qüdrətini, əzəmətini bərqərar edəcək.

AVQUST

26

Tarixdə bu gün

Beynəlxalq Azərbaycan Muğamı Günü 2010

26 avqust - Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunmuşdur. Qərar Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul olunmuşdur.



Muğam Azərbaycanın qədim musiqisi olub, 1975-ci ildə YUNESKO tərəfindən "Musiqi mənbələri" seriyasına daxil edilmişdir.

Son illərdə "Qarabağ xanəndələri" albomu buraxılmış, "Muğam" jurnalı, "Muğam ensiklopediyası" nəşr edilmişdir. Muğama dair müasir texnologiyalara əsaslanan və 8 diskdən ibarət "Azərbaycan muğamı" multimedia toplusu ilk tədris vəsaiti kimi hazırlanmışdır.

Bəşəriyyətin şifahi və mənəvi irsinin bənzərsiz xəzinələrindən olan muğam ötən əsrin əvvəllərindən başlayaraq dünya mədəniyyəti məkanına daxil olmağa başlamışdır. 1971-ci ildə YUNESKO 50 albomdan ibarət olan "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" plastinkasını da daxil etmişdir. Azərbaycan muğamı Andrey Tarkovskinin bütün dünya ekranlarını dolaşan "Stalker" filmində də səslənmişdir.

Bütün bunlarla yanaşı muğamlarımız təkcə Yer kürəsi sakinlərini deyil, həm də göy cisimlərini özünə cəlb etmişdir. ABŞ Milli Kosmik Agentliyi (NASA) Azərbaycanın milli sərvəti olan muğam musiqi nümunəsini 1977-ci ildə peyklə kosmosa göndərmişdir.

Muğam Şərqin ən qədim musiqi janrlarından biri olduğu üçün dünya musiqişünaslarının, sənətsevərlərin daim diqqətini cəlb etmişdir. Qədim və orta əsr Şərq musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində bu janr əsas amillərdən biri kimi tədqiqatçıların təhlil obyektinə çevrilmişdir.

Azərbaycanın müstəqilliyi dövründə milli muğam ifaçılığı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Yüzilliklərlə cilalanan, zaman-zaman üslub, obraz, məzmun, ifaçılıq mahiyyəti zənginləşən Azərbaycan muğamının müasir tarixində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynamışdır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı ən müxtəlif aspektlərdən hərtərəfli dəstək alaraq, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

YUNESKO-nun qərarı ilə muğamın dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirilməsinə bariz nümunədir.

Ə d ə b i y y a t

Muğam ensiklopediyası [Mətn] /Heydər Əliyev Fondu; baş red. M.Əliyeva; red. hey. A.Babayev [və b.]; haz.: G.Abdullazadə [və b.].- Bakı: Heydər Əliyev Fondu, 2008.-215 s.

Sadıqov, F. Muğam [Mətn]: dərs vəsaiti /F.Sadıqov; elmi red. O.Rəcəbov; rəy.: G.Abdullazadə, V.Xəlilov, C.Əkbərov, N.Kazımov; red. Ş.Tahirova; Azərb. Resp. Təhsil Nazirliyi, Təhsil Problemləri İn-tu; Bakı Elm və Təhsil Mərkəzi.- Bakı: [Maarif], 2011.- 254 s.

Tarixdə bu gün

20 ili Qubadlı rayonunun işğalı 1993

- **Ərazisi: 802 km²**
- **Əhalisi: 37 400**
- **İşğal tarixi: 31.08.1993**



Qubadlı rayonunun 31 avqust 1993-cü il tarixində ermənilər tərəfindən işğalından artıq 20 il ötür.

Qubadlı rayonu 1933-cü ildə yaradılmışdır. İnzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid idi. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən Ermənistanla həmsərhəddir.

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil etmişdir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olmuşdur. Rayonda üzümün ilkin emalı üzrə 2 zavod fəaliyyət göstərmişdi. Tam gücü ilə işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət etmişdir. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəmişdi. Qubadlıda 21 rabitə müəssisəsi var idi. 8 avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində dururdu.

Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərmişdir.

Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 orta tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 əczaxana əhalinin sağlamlığının keşiyində durmuşdu. Rayon gigiyena-epidemiologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

Erməni işğalçıları Qubadlıda 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırmış və talan etmişlər. İşğala qədər 33 800 nəfər əhalisi olan Qubadlıda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Qubadlının işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-diyarşünaslıq Muzeyini də talan etmişlər.

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Rayonda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klub, 6 avtoklub olmuşdur. Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olmuş, Qarabağ müharibəsində isə Qubadlının ümumilikdə 232 sakini şəhid, 146-sı əlil olmuşdur.

20 ildir ki, rayonun 30 min əhalisi məcburi köçkün həyatı yaşayır.

Ədəbiyyat

Əvəzoğlu, T. Qubadlıdan nigaranam [Mətn]: şeirlər /T.Əvəzoğlu; red.: X.Rəhimli.- Bakı: Mütərcim, 2001.- 200 s.

Fətiyev, Y. Qubadlı, görüşünə gəlmişəm [Mətn]: Xatirələr, düşüncələr /Y.Fətəliyev.- Bakı: Zaman, 2002.- 516 s.

Tapdıqoğlu, N. Qubadlı toponimləri [Mətn] /Nazim Tapdıqoğlu; red.: F.Turan.- Bakı, 2001.- 121 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.azeri.net

www.karabakhblog.com

www.milliqahraman.az

1 sentyabr

Gün çıxır 07:08
Gün batır 20:32

30 sentyabr

Gün çıxır 07:36
Gün batır 19:44

SENTYABR

B.	**1**
B.E.	2
Ç.A.	3
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	**8**
B.E.	9
Ç.A.	10
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	**15**
B.E.	16
Ç.A.	17
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	**22**
B.E.	23
Ç.A.	24
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	**29**
B.E.	30



24 avqust-
23 sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

- *Tarixi İpək yolunun bərpası ilə bağlı Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə Beynəlxalq Bakı Konfransı keçirilmişdir (08.09.1998)*
- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Neftçilər Günü (20.09.1994)*
- *Beynəlxalq Sülh Günü (21.09.1981)*
- *Beynəlxalq Turizm Günü (27.09.1970)*

90 il Heydər Əliyev 1923-2003



"Bəşər sivilizasiyasının tarixində yollar, nəqliyyat xətləri həmişə çox böyük rol oynayaraq, həyatın bütün sahələrinə - siyasətə, iqtisadiyyata, mədəniyyətə təsir göstərmişdir. Bunun parlaq nümunələrindən və rəmzlərindən biri də bir çox ölkələrin və xalqların minillik tarixini, Çinin qədim mədəniyyətini, avropalıların böyük coğrafi kəşflərini, orta əsr müsəlman intibahının nailiyyətlərini və bir sıra digər cəhətləri ehtiva etmiş qlobal, nadir hadisə olan Böyük İpək yoludur.

Azərbaycan əzəldən Böyük İpək yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolu oynamışdır. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək, Böyük İpək yolunun özgür tərkib hissələrindən biri olmuşlar".

Heydər Əliyev, ümummilli lider

SENTYABR

2013



Milli ədəbiyyat

Nasir, publisist Xasməmmədov Tələt Əli oğlunun (05.09.1933) anadan olmasının **80** illiyi

Şair, nasir, publisist Qulubəyli Nurəngiz Xudadat qızının (Nurəngiz Gün) (21.09.1938) anadan olmasının **75** illiyi

Yazıçı, nasir Əsgərov Şəmistan Yusif oğlunun (25.09.1913-07.1985) anadan olmasının **100** illiyi



Dünya ədəbiyyatı

Dağıstanın Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Lenin Mükafatı laureatı Həmzətov Rəsul Həmzətoviçin (08.09.1923-03.11.2003) anadan olmasının **90** illiyi 255

Rus yazıçısı Tolstoy Lev Nikolayeviçin (09.09.1828-20.11.1910) anadan olmasının **185** illiyi

Fransız yazıçısı Merime Prosperin (23.09.1803-23.09.1870) anadan olmasının **210** illiyi 256



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Ağababayev Tofiq Məmmədəli oğlunun (08.09.1928) anadan olmasının **85** illiyi

Sənətşünas, memarlıq doktoru, professor Kərimov Vilayət Hidayət oğlunun (09.09.1948) anadan olmasının **65** illiyi

Xalq rəssamı, heykəltəraş Salayev Fuad Məmmədəmin oğlunun (24.09.1943) anadan olmasının **70** illiyi



Musiqi.Opera.Balet

Gürcü bəstəkarı Maçavariani Aleksey Davidoviçin (10(23).09.1913-31.12.1995) anadan olmasının **100** illiyi

Xalq artisti, bəstəkar Məlikov Arif Cahangir oğlunun (13.09.1933) anadan olmasının **80** illiyi 257

Əməkdar elm xadimi, tarzən Quliyev Oqtay Süleyman oğlunun (22.09.1938) anadan olmasının **75** illiyi

Xalq artisti, opera müğənnisi Əhmədova Firəngiz Yusif qızının (23.09.1928-17.12.2011) anadan olmasının **85** illiyi 258



Teatr.Kino

Xalq artisti, tanınmış kinorejissor və operator Dadaşov Muxtar Baba oğlunun (11.09.1913-07.05.1998) anadan olmasının **100** illiyi 259

Əməkdar incəsənət xadimi, aktyor Həmzəyev Nizami İbrahim oğlunun (12.09.1943) anadan olmasının **70** illiyi

Xalq artisti, teatr-dekorasiya sənətçisi Fətullayev Nüsrət Möhsün oğlunun (25.09.1913-01.10.1987) anadan olmasının **100** illiyi 260

Əməkdar incəsənət xadimi, Dövlət Mükafatı laureatı, kinorejissor Babayev Arif Hacağa oğlunun (25.09.1928-26.08.1983) anadan olmasının **85** illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Müslümov Valeh Əlizaid oğlunun (02.09.1968-14.04.1992) anadan olmasının **45** illiyi 261

Azərbaycanın Milli Qəhrəmanı Tağızadə Eldar Abdulla oğlunun (06.09.1963-03.06.1992) anadan olmasının **50** illiyi 162

Azərbaycanın Milli Qəhrəmanı Hümbətov Fərhad Qənbər oğlunun (10.09.1968-29.03.1992) anadan olmasının **45** illiyi 263

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Aqil Sahib oğlunun (19.09.1963-25.02.1992) anadan olmasının **50** illiyi 264

Azərbaycanın Milli Qəhrəmanı Fərzəliyev Pəhlivan Əhliman oğlunun (27.09.1958-11.04.1992) anadan olmasının **55** illiyi 265

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Mədət Qəzənfər oğlunun (27.09.1958) anadan olmasının **55** illiyi 266

Azərbaycanın Milli Qəhrəmanı Allahverdiyev Elbrus Hacı oğlunun (27.09.1958-16.06.1993) anadan olmasının **55** illiyi 267



Siyasət.Hərbi iş

Əməkdar hüquqşünas, professor Ələsgərov Murtuz Nəcəf oğlunun (20.09.1928-07.08.2012) anadan olmasının **85** illiyi 268



Mədəniyyət.Elm.Maarif

Mətbuat xadimi, naşir, publisist Orucov Oruc Əli oğlunun (12.09.1878-02.03.1954) anadan olmasının **135** illiyi 269



İdman

Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi Abbasov Adil Seyfulla oğlunun (05.09.1933) anadan olmasının **80** illiyi

Sərbəst güləş üzrə Əməkdar idman ustası, beynəlxalq dərəcəli hakim, SSRİ-nin Əməkdar məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman xadimi, dünya çempionu, SSRİ çempionu, Avropa



çempionu, beynəlxalq turnirlərin qalibi İbrahimov Aydın Əli oğlunun (17.09.1938) anadan olmasının **75** illiyi

Coğrafiya.Geologiya

Əməkdar elm xadimi, geoloq Babazadə Vasif Məmməd Ağa oğlunun (02.09.1938) anadan olmasının **75** illiyi

270


Riyaziyyat.Fizika.Astronomiya



Orta əsr ensiklopediyaçı alimi Biruni Əbu-r-Reyhan Məhəmməd ibn Əhməd əl Biruni əl-Xarəzminin (04.09.973-09.12.1048) anadan olmasının **1040** illiyi

Sovet fiziki, fizika-riyaziyyat elmləri doktoru, professor Hacıyev Sabir Əbdülmanaf oğlunun (25.09.1928) anadan olmasının **85** illiyi

Kimya.Biologiya.Tibb



Tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi Tağızadə Tağı Ələkbər oğlunun (04.09.1923) anadan olmasının **90** illiyi

Əməkdar elm xadimi, akademik Ağayev Böyükkişi Ağa oğlunun (10.09.1928) anadan olmasının **85** illiyi

Tibb alimi, professor Babayev Teymur Əsəd oğlunun (11.09.1938) anadan olmasının **75** illiyi

Tibb elmləri doktoru, professor, Əməkdar həkim Nəzərli Saraxanım Hüseyn qızının (20.09.1903-19.02.1966) anadan olmasının **110** illiyi

Texnika



Əməkdar elm və texnika xadimi, Dövlət Mükafatı laureatı, akademik Mirzəcanzadə Azad Xəlil oğlunun (30.09.1928-17.07.2006) anadan olmasının **85** illiyi

271

Kitabxanaşünaslıq.Biblioqrafiya



Nardaran qəsəbə kütləvi kitabxanasının yaranmasının (13.09.1958) **55** illiyi

Tarixdə bu gün



“Google” şirkəti təsis olunmuşdur (04.09.1998)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin yaradılmasının (03.09.1993) **20** illiyi

Tarixi İpək yolunun bərpası ilə bağlı Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə Beynəlxalq Bakı Konfransı keçirilmişdir (08.09.1998)


Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)

İlk teleqraf xətti işə düşmüşdür (11.09.1853)
Prezident İlham Əliyev "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır (15.09.2008)
Bilik Günü (15.09.2004)
Bakı Türk Şəhidliyi abidəsinin ucaldılmasının (15.09.1918) **95** ili 272
Bakı şəhərinin Azərbaycan Respublikasının paytaxtı elan edilməsinin (15.09.1918) **95** illiyi 272
Milli Musiqi Günü (18.09.1995)
Neftçilər Günü (20.09.1994)
Azərbaycan Parlamenti MDB-yə üzv olmaq bərədə qərar qəbul etmişdir (20.09.1993)
Beynəlxalq Sülh Günü (21.09.1981)
Xalq Cümhuriyyəti hökuməti ölkənin milli valyutasının - manatın (Bakı bonları) çap olunması barədə qərar qəbul etmişdir (22.09.1918)
Azərbaycan Respublikası Albaniya ilə diplomatik əlaqələr qurmuşdur (23.09.1993)
Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmuşdur (24.09.1993)
Beynəlxalq Lal-Kar Günü (24.09.951)
Azərbaycan Demokratik Respublikası hökuməti Bakıda əskinasların dövriyyəyə buraxılması haqqında qərar qəbul etmişdir (25.09.1918)
Beynəlxalq Turizm Günü (27.09.1980)

90 illiyi

Rəsul Həmzətov 1923-2003

Dağıstan şairi



Rəsul Həmzət oğlu Həmzətov 1923-cü il sentyabr ayının 8-də Dağıstanın Xunzax rayonunun Sada kəndində, şair Sadasa Həmzətin ailəsində dünyaya göz açmışdır.

Milliyyətcə avardır. Onun ilk müəllimi atası olmuşdur. Rəsul Həmzətov özünün ilk şeirini 11 yaşında yazmışdır. Kənd məktəbini bitirdikdən sonra pedaqoji məktəbə daxil olmuşdur.

1940-cı ildə təhsil aldığı məktəbdə müəllim işləmişdir. Ancaq burada o, uzun müddət qalmamış, bir neçə iş yerini dəyişən Həmzətov, Avar Səyyar Teatrında rejissor köməkçisi, "Bolşevik qor" qəzetində və radioda işləmişdir.

1943-cü ildə "Sevgi məşəli və acı ədavət" adlı ilk şeirlər toplusu çap olunmuşdur. 1945-1950-ci illərdə Maksim Qorki adına Moskva Ədəbiyyat İnstitutunda oxumuşdur. 1947-ci ildə rus dilində ilk şeirlər kitabı işıq üzü görmüşdür. Rus, avar dillərində və bir çox Dağıstan və Qafqaz xalqlarının dillərində Rəsul Həmzətovun poetik onluqları, nəsr və publisistik əsərləri, həmçinin 25-dən çox kitabı dərc olunmuşdur: "Слово о старшем брате" (1952), "Дагестанская весна" (1955), "Горянка" (1958), "В горах мое сердце" (1959), "Высокие звезды" (1962), "Две шали", "Письмена", "Берегите друзей", "Суди меня по кодексу любви", "Сонеты", "О бурных днях Кавказа" və s.

O, Dağıstan şairi olsa da, Dağıstanda böyüyüb boya-başa çatsa da, Azərbaycana, onun xalqına, poeziyasına çox bağlı olmuşdur. O, özünün bir çox müdrik şeirlərini Azərbaycana-Bakıya, neftçilərə, dəniz şəhərimizə və özü "böyük ustadım" deyə çağırdığı Səməd Vurğuna həsr etmişdir.

Şeirlərinin çoxunu Azərbaycan dilinə Tofiq Bayram tərcümə etmişdir.

Rəsul Həmzətovun bir çox şeirlərinə mahnılar bəstələnmişdir. Onun şeirləri bir çox Dağıstan, Qafqaz və Rusiya bəstəkarlarının diqqətini cəlb etmişdir. Yan Frenkel, Oskar Felsman, Polad Bülbüloğlu, Raymond Pauls, Yuri Antonov, Qotfrid Hasanov, Sergey Ağababov, Murad Kajlayev, Şirvani Çalayev və başqa bəstəkarlar Həmzətovla sıx əməkdaşlıq etmişlər.

O, müxtəlif vaxtlarda Dağıstan Muxtar SSR-nın Ali Sovetinin deputatı, Dağıstan Muxtar SSR Ali Sovetinin sədr müavini, SSRİ Ali Sovetinin deputatı və üzvü seçilmişdir. Uzun müddət Dağıstan, RSFSR və SSRİ yazıçılar qurultayının nümayəndəsi olmuşdur.

Rəsul Həmzətov 2003-cü il noyabr ayının 3-də Moskvada vəfat etmiş Mahaçqalada dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] [şeirlər, poemalar] /R.Həmzətov; [tərc. Ə.Ziyatay, İ.Soltan, A.Əlisoltan; red. F.Məmmədov].- Bakı: Azərnəşr, 1962.- 150 s.

Dostları qoruyun [Mətn]: şeirlər /R.Həmzətov; tərc ed. T.Bayram; ön söz müəl. N.Xəzri.- Bakı: Yazıçı, 1984.- 303 s.

Durnalar [Mətn] /R.Həmzətov; tərc. ed. T.Bayram; [red. M.İsgəndərzadə].- Bakı: Azərnəşr, 1973.- 234 s.

Mənim Dağıstanım [Mətn] /R.Həmzətov; tərc. ed. V.Rüstəmzadə.- Bakı: Gənclik, 1977.- 301 s.

İnternetdə

www.anl.az

www.az.wikipedikia.org


www.kitab.az

Dünya ədəbiyyatı

210 illiyi

Prosper Merime 1803-1870

Fransız yazıçısı



Prosper Merime 1803-cü il sentyabr ayının 23-də kimyaçı alim və rəssam, yenilik tərəfdarı Jan Fransua Leonor Merimenin ailəsində doğulmuşdur.

Prosper erkən yaşlarından özündə gözəl zövq və incəsənət sevgisini inkişaf etdirməyə başlamışdır. Parisdə hüquq elmləri kursunu bitirən gənc Prosper əvvəlcə iyul monarxiyası dövrünün nazirlərindən qraf de Arturun katibi olmuş, sonralar isə Fransa tarixi abidələrinin baş inspektoru təyin edilmişdir.

1853-cü ildə P.Merime senator dərəcəsi almışdır.

Merimenin ədəbiyyat sahəsində ilk addımı 20 yaşında yazdığı "Kromvel" tarixi dramıdır. Lakin müəllif bu əsərdən razı qalmadığına görə onu nəşr etdirməmişdir. 1825-ci ildə o, özünün bir neçə dramatik pyesini "Klara Qasul teatrı" başlığı altında nəşr etdirmişdi.

Realizm dövrünün novella ustadı Prosper Merime hesab edilmişdir. Bu novellalarda güclü və parlaq xarakterli, orijinal naturalar, yüksək hisslərə xas insanlar təcəssüm olunmuşdur. Bunlara "Karmen" (Bizenin operası bu novella əsasında yazılmışdır), "Kolomba", "Falkone" aiddir. Merime həm də pyeslər müəllifidir. Onun "Jakeriya" adlı pyes-xronikasında XVI əsrdəki kəndli hərəkatı təsvir edilmişdir. Onun yeganə böyük romanı "IX Karl dövrünün xronikası" adlı əsəridir. Bu əsərdə o, Varfolomey gecəsinin hadisələrinin, katoliklərlə protestantların mübarizəsinin bədii təsvirini vermişdir.

1960-cı ildə yazıçının "Matteo Falkone" əsəri əsasında "Azərbaycanfilm" kinostudiyası eyniadlı film çəkmişdir.

Məşhur fransız yazıçısı Prosper Merime 1870-ci il sentyabr ayının 23-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /P.Merime; ön söz Ə.Ağayev.- Bakı: Şərq-Qərb, 2006.- 176 s.

Seçilmiş əsərləri [Mətn] /P.Merime; fransız dilindən tərcümə ed. Ş.Zaman; ön sözün müəl. Ə.Ağayev; bədii red. A.Bədəlzadə.- Bakı: Şərq-Qərb, 2008.- 304 s.

İ n t e r n e t d ə

www.anl.az

www.en.wikipedia.org

www.merimee.culture.fr

80 illiyi

Arif Məlikov 1933

Bəstəkar



Arif Cahangir oğlu Məlikov 1933-cü il sentyabr ayının 13-də Bakıda anadan olmuşdur.

1958-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq sinfi üzrə bitirmişdir.

Yaradıcılığı müxtəlif janrları əhatə edir. Hisslərin poetik, romantik ifadəsi, musiqi dilinin zənginliyi və əlvanlığı A.Məlikov musiqisinin xarakterik cəhətləridir. "Məhəbbət əfsanəsi" (1961), "İki nəfər" (1969), "İki ürək dastanı" (1981), "Fövqəlgözəl Yusif" (1999) baletlərinin, simfonik poemaların, altı simfoniyanın müəllifidir.

Nağıl mövzusu və əfsanəvi obrazlar bəstəkarın həm balet yaradıcılığında ("Əlibaba və qırx quldur"), həm simfonik əsərlərində ("Nağıl" simfonik poeması), həm kamera yaradıcılığında əks etdirilmişdir. "Məhəbbət əfsanəsi", "İki qəlbin dastanı" baletləri, İkinci, Dördüncü, Altıncı simfoniyalar, "Metamorfozlar" simfonik poeması dramatik obrazların parlaq təcəssümünün, Nazim Hikmətin sözlərinə bəstələnmiş romansların çoxu isə xəfif məhəbbət lirikasının nümunəsidir.

"Sehirli xalat" (1964), "Axırıncı aşırım" (1971), "Qərib cinlər diyarında" (1977), "İşarəni dənizdən gözləyin" (1986), "Gecə qatarında qətl" (1990), "Heydər Əliyev. Dördüncü film. Lider" (1999), "Hacı Qara" (2002), "Müstəqillik yollarında. Üçüncü film" (2004), "Mücadilə. Birinci hissə. İstiqlalın beşiyi" (2006), "Maestro Niyazi" (2007) kimi bədii və sənədli filmlərin bəstəkarı olmuşdur.

Vaxtilə təhsilini A.Zeynallı adına məktəbin xalq çalğı alətləri şöbəsindən başlayan, Əhməd Bakıxanov, Mansur Mansurov kimi sənətkarlardan tar ifaçılığının sirlərini öyrənən A.Məlikov, bəstəkar kimi püxtələşib yetişdikdən sonra öz musiqisində milli musiqi incilərinə yeni həyat vermişdir. A.Məlikov həm də gözəl pedaqoqdur.

1965-ci ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 1971-ci ildə "Şərəf Nişanı" ordeni ilə təltif olunmuşdur.

1978-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" adına layiq görülmüşdür. 1979-cu ildə professor adı almış və 1982-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında Bəstəkarlıq kafedrasının müdiri işləyir.

1986-cı ildə Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, SSRİ Xalq artisti adına layiq görülmüşdür. 1998-ci ildə İstiqlal Ordeni ilə təltif olunmuşdur. 2009-cu ildə "Heydər Əliyev mükafatı" ilə təltif edilmişdir.

2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

Bəstəkar, pedaqoq, vətəndaş kimi Ü.Hacıbəyli tərəfindən bünövrəsi qoyulmuş məktəbin ən gözəl ənənələrini yaşadan A.Məlikovun yaradıcılığı vətənimizin, millətimizin mədəniyyəti tarixində bütöv bir mərhələdir. Arif Məlikov bu gün də mədəniyyətimizin tərəqqisi uğrunda çalışaraq, XXI əsr musiqimizin salnaməsini yaradan sənətkarlar sırasında şərəfli bir yer tutur.

Ədəbiyyat

Arif Məlikovun 75 illik yubileyinin keçirilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; 24 iyun 2008-ci il [Mətn] //Azərbaycan.- 2008.- 25 iyun.- S.1.

Cəfərova, N. Görkəmli bəstəkarın yubileyinə həsr olunmuş tədbir [Mətn] /N.Cəfərova //İki Sahil.- 2009.- 17 aprel.- S.8.

Məlikov Arif [Mətn] //Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı.- Bakı, 2005.- C.2.- S.159.

Ramazanova, S. Azərbaycan kino musiqisi tarixində Arif Məlikov yaradıcılığının rolu və yeri [Mətn]: sənətşün. n.a.dərəcəsi iddiası üçün təq. ed. dis.: 17.00.02.- Bakı, 1999.- 148 s.

Təranə. Canlı əfsanənin müəllifi [Mətn] /Təranə //Kaspi.- 2010.- 14 sentyabr.- S.15.

www.adam.az

www.anl.az

85 illiyi

Firəngiz Əhmədova
1928-2011

Opera müğənnisi



Firəngiz Yusif qızı Əhmədova 1928-ci il sentyabr ayının 23-də Bakıda doğulmuşdur.

Orta məktəbi başa vurduqdan sonra Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində oxumuşdur. Sonralar təhsilini davam etdirərək 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında M.Kolotovanın sinfini bitirmişdir.

O, əmək fəaliyyətinə gənc yaşlarında başlamış 1946-1951-ci illərdə Azərbaycan radiosu xorunun, 1951-1988-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, 1989-1997-ci illərdə isə həmin teatrda ustad dərsləri aparmışdır.

Müasir Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən olan Firəngiz Əhmədovanın milli musiqinin inkişafında mühüm xidmətləri olmuşdur. Özünün unikal tembrli, geniş diapazonlu, güclü və məlahətli səsi ilə seçilən sənətkar klassik opera səhnəmizin ilk qadın ifaçılarından biri idi. Onun yaradıcılığı yüksək ifaçılıq qabiliyyəti və orijinal aktyorluq məharəti ilə səciyyələnərək ölkəmizin vokal sənəti tarixində silinməz izlər qoymuşdur. Firəngiz xanım opera səhnəmizdə Azərbaycan və dünya klassiklərinin şah əsərlərində aparıcı partiyaların mahir ifaçısı kimi şöhrət qazanmış, musiqi salnaməmizə yeni parlaq səhifələr yazmağa müvəffəq olmuşdur.

Azərbaycan bəstəkarları-F.Əmirovun "Sevil"ində Sevil, Ü.Hacıbəylinin "Koroğlu"sunda Nigar, M.Maqomayevin "Nərgiz" və "Şah İsmayıl"ında Nərgiz və Gülzar, C.Cahangirovun "Azad"ında Səriyyə, S.Ələsgərovun "Bahadır və Sona"sında Sona partiyalarında Şərq qadınının bütün milli koloritini təcəssüm etdirən bu obrazları özünəxas temperamentlə və bütövlüklə yaratmışdır.

F.Əhmədova həm də Avropa bəstəkarlarının əsərlərinin gözəl ifaçısı kimi tanınmışdır. D.Puççininin "Toska"sında Toska, C.Verdinin "Aida" sında Aida partiyalarını ifa etmişdir. F.Əhmədova həm də konsertlərdə Azərbaycan xalq mahnıları və romanslarının - Ü.Hacıbəylinin "Sənsiz", A.Zeynallının "Ölkəm", "Sual", Niyazinin "Arzu", Ə.Abbasovun "Heyran olmuşam", A.Rzayevin "Oxuma gözəl", habelə S.Raxmaninovun, P.Çaykovskinin, S. Tanayevin əsərlərini böyük məharətlə ifa etmişdir.

O, bir sıra xarici ölkələrdə qastrollarda olmuşdur.

SSRİ Ali Sovetinin (4-cü çağırış) və Azərbaycan SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuş, opera sənətinin inkişafı sahəsində nailiyyətlərinə görə Firəngiz xanım Əhmədova müxtəlif orden və medallara - 1967-ci ildə "SSRİ Xalq artisti" fəxri adına layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif edilmiş, 2002-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Firəngiz Əhmədova 2011-ci il dekabr ayının 17-də vəfat etmişdir.

Ədəbiyyat

Görkəmli opera müğənnisi Firəngiz Əhmədova son mənzilə yola salınmışdır [Mətn] //Azərbaycan.-2011.-18 dekabr.-S.7.

Hüseynov, A. Xalqın musiqi yaddaşında qalan sənətkar [Mətn] /A.Hüseynov //Azərbaycan.- 2008.- 7 oktyabr.- S.6.

Məhərrəmova, T. Operaların əvəzsiz ifaçısı [Mətn] //Kaspi.- 2010.- 21 sentyabr.- S.15.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kultaz.com

www.mugamradio.az

100 illiyi

Muxtar Dadaşov 1913-1998

Kinorejissor



Muxtar Baba oğlu Dadaşov 1913-cü il sentyabr ayının 11-də Bakı şəhərində anadan olmuşdur.

On bir yaşında, hazırkı Akademik Milli Dram Teatrının səhnəsinə epizodik rolda çıxmış, dörd il sonra isə görkəmli dramaturq Cəfər Cabbarlının "Sevil" pyesinin ilk tamaşasında epizodik rol olan Gündüzü oynamışdı.

1929-cu ildən Gənc Tamaşaçılar Teatrının aparıcı aktyorlarından biri kimi tanınmışdır.

1931-ci ildən kino sənətinə gələn Muxtar Dadaşov gərgin əməyi, istedadı ilə tanınmış, operator assistenti işləmiş, bir çox sənədli, publisistik, bədii filmlərin lentə alınmasında fəal iştirak etmişdir.

O, ali operator təhsili almaq üçün 1933-cü ildə Moskvaya getmiş və üç il ərzində operator kimi təkmilləşmiş, Moskvada bir sıra filmlərin çəkilişlərində iştirak etmiş, hətta görkəmli rus kinematoqrafçısı M.Vernerin "Canlı Allah" bədii filmində aktyor M.Ştraux ilə birgə baş rolda çəkilmişdir.

Onun çəkdiyi filmlər bu gün də sənədli kino tarixində olduqca əhəmiyyətli yer tutur. Görkəmli sənətkar "Sovet Azərbaycanı", "Arazın o tayında", "Səadət yolu ilə", "Bizim Azərbaycan", "Sabir", "Kür", "Əbədi qardaşlıq", "Respublika haqqında həqiqət" və başqa sənədli filmlərin rejissor-operatoru, "Qanun naminə", "Bakıda küləklər əsir" bədii, tammetrajlı filmlərin quruluşçu rejissoru, "Arşın mal alan" ekran əsərinin operatoru olmuşdu.

1939-cu ildə M.Dadaşov rejissor-operator kimi "Samur-Dəvəçi kanalı" kinooçerkini çəkmişdir.

O, 1977-1983-cü illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Sənədli Filmlər Birliyinin bədii rəhbəri vəzifəsində çalışmışdır.

Muxtar Dadaşovun yaradıcılığı Azərbaycan kinosunun 50 ildən artıq bir dövrünü əhatə etmişdir. Onun əsərləri dünyanın bir sıra ölkələrində göstərilmiş, böyük maraqla qarşılanmışdır.

Rejissorun gərgin, yaradıcı əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, "Xalq artisti" fəxri adına, "Şöhrət" ordeninə layiq görülmüşdür. Muxtar müəllim, həm də Dövlət mükafatı laureatı olmuşdur.

Muxtar Dadaşovun yaradıcılığı, çəkdiyi və quruluş verdiyi bədii-publisistik filmlər mövzu etibarilə müxtəlifdir. Lakin onları birləşdirən bir ümumi ideya var: Azərbaycanı, füsunkar təbiətimizi, əmək adamlarını, yaradıcı insanları ekran yaddaşında əbədiləşdirib, gələcək nəsillərə çatdırmaq operator-rejissorun əsas məqsədi, amalı olmuşdur.

Görkəmli kinorejissor, Xalq artisti Muxtar Dadaşov 1998-ci il may ayının 7-də vəfat etmişdir.

Ədəbiyyat

Ağaoğlu T. Çəkdiyi filmlər onu qəlblərdə yaşadır [Mətn] /T.Ağaoğlu //Azərbaycan.- 2008.- 14 iyun.- S.7.

Mükərrəmoğlu, M. Xatırlama [Mətn]: [kinorejissor, Xalq artisti Muxtar Dadaşov haqqında] /M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2009.- 12 sentyabr.- S.6.

İnternetdə

www.anl.az

www.azerifilm.com

www.az.wikipedia.org

www.kino-teatr.ru

100 illiyi Nüsrət Fətullayev 1913-1987

Teatr rəssamı



Nüsrət Möhsün oğlu Fətullayev 1913-cü il sentyabr ayının 25-də Lənkəran rayonunda doğulmuşdur. 1930-1934-cü illərdə Bakı Rəssamlıq Məktəbində təhsil almışdır. Rejissor Yusif Yulduzun 1934-cü ildə quruluş verdiyi Aleksandr Korneyçukun "31-43" ("Eskadranın məhvi") dramının tamaşası ilə Akademik Milli Dram Teatrında ilk işinə başlamışdır. 1938-ci ilin ikinci yarısından bu kollektivə baş rəssam təyin olunmuş və ömrünün sonunadək həmin vəzifəni ləyaqətlə icra etmişdir. Sənətdəki xidmətlərinə görə 1940-cı il may ayının 4-də "Əməkdar incəsənət xadimi" və 1949-cu il iyul ayının 21-də "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasına görə 1948-ci ildə Stalin mükafatı, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" dramının tamaşa tərtibatı üçün isə 1972-ci ildə Azərbaycanın Dövlət mükafatı laureatı olmuşdur. Gənc Tamaşaçılar Teatrında 1938-ci ildə Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyasına, 1940-cı ildə Musiqili Komediya Teatrında Rauf Hacıyevin "Tələbələrin kələyi", 1943-cü ildə Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan", 1944-cü ildə Fikrət Əmirovun "Ürəkçalanlar", 1945-ci ildə Süleyman Ələsgərovun "Məhəbbət gülü", 1945-ci ildə Vladimir Dolidzenin "Keto və Kote", 1972-ci ildə Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettalarına səhnə tərtibatı vermişdir. Milli Dram Teatrında əllidən çox tamaşanın rəssamı olmuşdur. Onların arasında estetik səciyyələrinə, forma əlvanlığına və monumentallıq xüsusiyyətlərinə görə "Almaz" (Cəfər Cabbarlı, 1936), "Skapenin kələkləri" (Jan Batist Molyer, 1936), "Həyat" (Mirzə İbrahimov, 1937), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə) və "Vaqif" (Səməd Vurğun, 1938), "Xanuma" (Avksenti Saqareli, 1975), "Cehizsiz qız"(Aleksandr Ostrovski, 1979), "Yad adam" (Leonqard Frank, 1980), "Təhminə və Zaur" (Anar, 1985) və s. xüsusi yer tutan tamaşalardır.

Nüsrət Fətullayev əsasən realist səhnə tərtibatına üstünlük vermiş, yaradıcılığının bir qolunu da monumental-romantik üslub təşkil etmişdir. Teatrın texniki prinsiplərini dərindən bilməsi, səhnə ölçülərinə dəqiqliklə riayət etməsi onun işlədiyi tərtibatlara tamlıq, əzəmət və obrazlılıq gətirmişdi. Tərtibat verdiyi tamaşalarda aktyorların sərbəst səhnə davranışlarını yaradıcı həssaslıqla nəzərə almışdı. Milli etnoqrafiyanı dərindən bilən Nüsrət Fətullayev tərtibat rəssamlığında klassik üslub ənənələrini yaşatmışdır. Onun tərtibatında janr-üslub qarışıqlığı olmurdu, ancaq müxtəlif formaların harmonik sintezi, bir poetikada füsunkarlıqla birləşməsi dururdu ki, bu da həm tamaşaya möhtəşəm obrazlılıq gətirmiş, həm də tamaşaçını heyrətdə saxlamışdı.

Milli teatr rəssamlığımızın inkişafında və formalaşmasında böyük xidmətlər göstərmiş Nüsrət Fətullayev 1987-ci il oktyabr ayının 1-də, Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Qaliboğlu, E. İstedadlı teatr rəssamı [Mətn]: Nüsrət Fətullayevin özünəməxsus yaradıcılıq dəst-xətti olub /E.Qaliboğlu //Xalq cəbhəsi.- 2008.- 24 iyun.- S.14.

Fətullayev Nüsrət Möhsün oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı,1986.- C.9.- S.539-540.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az

www.teatrmuzeyi.musigi-dunya.az

45 illiyi

Valeh Müslümov 1968-1992

Milli Qəhrəman



Valeh Əlizaid oğlu Müslümov 1968-ci il sentyabr ayının 2-də Lerik rayonunda doğulmuşdur.

1983-cü ildə 2 saylı Lerik rayon orta məktəbinin səkkizinci sinfini bitirmiş və Sumqayıt şəhər 17 saylı peşə məktəbində dülgər ixtisası üzrə təhsilini davam etdirmişdir. Bir müddət Tikinti Trestinin Səyyar Mexanikləşdirilmiş dəstəsində çalışmışdır.

1986-cı ildə hərbi xidmətə çağırılmış, 1988-ci ildə ordudan tərxis olunaraq Sumqayıta qayıtmışdır. 1991-ci ilin avqustunda DİN-nin Xüsusi Təyinatlı Milis Dəstəsində xidmətə başlamışdır. Şuşa, Tovuz və Qubadlıda keçirilən döyüş əməliyyatlarında iştirak etmişdir.

1992-ci il aprel ayının 14-də Marquşevan kəndində gedən döyüşdə qəhrəmanlıq göstərmiş, qeyri-bərabər döyüşdə yaralanmış, çoxlu qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmamışdı.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 6 iyun tarixli 831 saylı Fərmanı ilə Müslümov Valeh Əlizaid oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Milli Qəhrəman Lerik rayonunda dəfn edilmişdir.

Vaxtilə təhsil aldığı Lerik rayonundakı 2 saylı orta məktəb Müslümov Valehin adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Müslümov Valeh Əlizaid oğlu – XTMD milis serjantı – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S. 24.- (Ölümündən sonra).

Əsgərov, V. Müslümov Valeh Əlizaid oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.164.

Müslümov Valeh Əlizaid oğlu (1968-1992)[Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.161-162.

Seyidzadə, M. Müslümov Valeh Əlizaid oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.169.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

www.zengilan.com



50 illiyi

Eldar Tağızadə 1963-1992

Milli Qəhrəman



Eldar Abdulla oğlu Tağızadə 1963-cü il sentyabr ayının 6-da Bakı şəhərində anadan olmuşdur.

1970-1980-ci illərdə Nəsimi rayonundakı 164 saylı məktəbdə təhsil almışdır. Məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinə daxil olmuş və 1985-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Daha sonra polis olmaq istəyən Eldar Səbail rayon polis idarəsində çalışmağa başlamışdır. 1989-cu ildə Sverdlovsk şəhərində kurs keçmişdir və baş leytenant rütbəsini almışdır. Tağızadə Eldar Daxili İşlər Nazirliyində əməliyyat müvəkkilili vəzifəsində çalışmışdır.

Cəsur polis işçisi tez-tez cəbhəyə getmiş və girovların azad edilməsində iştirak etmişdir. Eldarın sayəsində neçə-neçə insan girovluqdan azad edilmişdir. 1991-ci ildə ona kapitan rütbəsi də verilmiş, DİN-nin Terrorizmə və Banditizmə Qarşı Mübarizə İdarəsinin rəis müavini təyin edilmişdir. 1992-ci il 3 iyun tarixində Tağızadə yenidən Qarabağa göndərilmişdir.

Döyüş zamanı "Şaka" ləqəbli təhlükəli qatili zərərsizləşdirmək üçün, Eldar onun gizləndiyi binaya daxil olmuş, polis kapitanının silahsız olduğunu görən namərd Şaka qəfil olaraq Eldarın sinəsinə atəş açmış, cəsur polis qəhrəmancasına həlak olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 3 sentyabr tarixli 162 saylı Fərmanı ilə Tağızadə Eldar Abdulla oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Təhsil aldığı 164 saylı orta məktəb və Bakı şəhərinin küçələrindən biri Tağızadə Eldarın adını daşıyır.

Ə d ə b i y y a t

Eldar Abdulla oğlu Tağızadəyə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [DİN-nin terrorizmə və banditizmə qarşı mübarizə idarəsinin rəis müavini – "Şaka" ləqəbli təhlükəli qatili və onun dəstəsinin zərərsizləşdirilməsində göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 sentyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.-№ 17.- S.23.- (Ölümündən sonra).

Əsgərov, V. Tağızadə Eldar Abdulla oğlu[Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.211.

Seyidzadə, M. Tağızadə Eldar Abdulla oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- S.214.

Tağızadə Eldar Abdulla oğlu (1963-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.199-200.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

Milli Qəhrəmanlar

45 illiyi

Fərhad Hümbətov 1968-1992

Milli Qəhrəman



Fərhad Qənbər oğlu Hümbətov 1968-ci il sentyabr ayının 10-da Qərbi Azərbaycanın Qarakilsə (Quqark) rayonunun Arçut kəndində doğulmuşdur.

1983-cü ildə burada orta məktəbin səkkizinci sinfini bitirmiş və texniki-peşə məktəbində sürücü mexanik vəzifəsinə yiyələnmişdir.

1986-cı ildə ordu sıralarına çağırılmış, hərbi xidməti əvvəlcə Çitada, sonra isə Monqolustanda keçmişdir. 1988-ci ildə İrkutsk şəhərində ordudan tərxis olunmuşdur. Ailəsi ilə birlikdə Bakıya köçən Fərhad, Məişət Xidməti İdarəsində sürücü kimi fəaliyyətə başlamışdı.

1991-ci ilin oktyabr ayında cəbhəyə yollanaraq, könüllülərdən ibarət olan Şıx batalyonunda döyüşə atılmışdır. 1992-ci ilin mart ayında Kosalar, Xankəndi istiqamətlərində gedən döyüşlərdə vuruşmuşdur. Hümbətov Fərhad həmin il martın 29-da Xankəndi yaxınlığında gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 iyun tarixli 833 saylı Fərmanı ilə Hümbətov Fərhad Qənbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakının Binəqədi rayonunda adına park salınmış və burada büstü qoyulmuşdur.

Təhsil aldığı 164 saylı orta məktəb və Bakı şəhərinin küçələrindən biri Tağızadə Eldarın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hümbətov Fərhad Qənbər oğlu-sıravi-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.25.- (Ölümündən sonra).

Ənsər, B. O, bizim üçün yaşayırdı [Mətn]: [Həyatı və döyüş şücaəti haqqında] //Ənsər, B. Ağrıdağlı qəhrəmanlar.- Bakı, 2004.- S.27-32.

Əsgərov, V. Hümbətov Fərhad Qənbər oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.85.

Hümbətov Fərhad Qənbər oğlu (1968-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.87-88.

Seyidzadə, M. Hümbətov Fərhad Qənbər oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.90.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.milliqahraman.az

Milli Qəhrəmanlar

50 illiyi

Aqil Quliyev 1963-1992

Milli Qəhrəman



Aqil Sahib oğlu Quliyev 1963-cü il sentyabr ayının 19-da Qərbi Azərbaycanın Qarakilsə rayonunda doğulmuşdur.

1980-ci ildə məktəbi bitirmiş və Azərbaycan Neft Akademiyasına daxil olmuşdur. Üçüncü kursda oxuyarkən hərbi xidmətə çağırılmışdır. Ordudan tərxis edildikdən sonra yarımçıq qalmış təhsilini davam etdirmiş, 1985-ci ildə Xarkov Ali Milis Məktəbinə daxil olmuşdur.

1988-ci ildə ermənilər Qərbi Azərbaycan torpaqlarından soydaşlarımızı deportasiya edərkən onun da ailəsi bu təcavüzə məruz qalmışdır. Aqil ailəsini Bakıya gətirmiş, burada müvəqqəti sığınacaq tapmışdır.

Sonra Milli Ordunun qərargahına gələrək cəbhəyə göndərilməsini xahiş etmişdir. O, 45 nəfər döyüşçü ilə Ağdama göndərilmiş, rota komandiri təyin olunmuşdur. Aqil Quliyev ilk hərbi əməliyyatını Xocalıda həyata keçirmişdir. 1992-ci il fevral ayının 18-də ermənilər Rusiyaya məxsus 366-cı moto-atıcı alayın köməkliyi ilə Xocalı şəhərini mühasirəyə alıb atəşə tutduğu vaxt Aqilin komandirlik etdiyi rota onlara qarşı rəşadətlə vuruşmuş, onlarla qulduru məhv edə bilmişdilər. Amma cəsur komandir burada hər iki ayağından yaralanmışdı.

25 fevral 1992-ci ildə döyüşçü dostları onu təhlükəsiz yerə aparmaq istəyərkən xain düşmənin gülləsinə tuş gəlmiş və şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 iyun tarixli 833 saylı Fərmanı ilə Quliyev Aqil Sahib oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bakının Bayıl qəsəbəsindəki küçələrdən birinə onun adı verilmiş, yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Aqil Sahib oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Quliyev Aqil Sahib oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.119-120.

Quliyev Aqil Sahib oğlu (1963-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S. 122-123.

Seyidzadə, M. Quliyev Aqil Sahib oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.124.

İnternetdə

www.anl.az

www.milliqahraman.az

55 illiyi

Pəhlivan Fərzəliyev
1958-1992 Milli Qəhrəman



Pəhlivan Əhliman oğlu Fərzəliyev 1958-ci il sentyabr ayının 27-də Füzuli rayonunun Qobu Dilağarda kəndində doğulmuşdur. Doğma kənddə səkkizinci sinfi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. İdmanla məşğul olmuş, Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanmışdır. O, 1979-cu ildə orduya çağırılmışdır. 1986-cı ildə Orenburq Politexnik Universitetini bitirmişdir.

Zirehli avtomobil (piyada qoşun və sursat daşımaq üçün) ekipajının komandiri olan Pəhlivanın taqımı Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında mərdliklə vuruşmuşdu. Onun şücaəti nəticəsində Xələfşə kəndində bir erməni bölüyü və bir zirehli avtomobil ekipajı məhv edilmişdi. 1992-ci il aprel ayının 11-də taqım komandirinin son döyüşü olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilmişdir.

Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Fərzəliyev Pəhlivan Əhliman oğlu-taqım komandiri, polis baş leytenantı - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan.-1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Fərzəliyev Pəhlivan Əhliman oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.72.

Fərzəliyev Pəhlivan Əhliman oğlu (1958-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.77-78.

Seyidzadə, M. Fərzəliyev Pəhlivan Əhliman oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.78.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

Milli Qəhrəmanlar

55 illiyi

Mədət Quliyev 1958

Milli Qəhrəman



Mədət Qəzənfər oğlu Quliyev 1958-ci il sentyabr ayının 27-də Gəncə şəhərində anadan olmuşdur.

1965-1975-ci illərdə orta təhsilini Gəncədə almış, 1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olaraq 1980-ci ildə oranı bitirmişdir. 1979-cu ildə dzü-do üzrə SSRİ İdman ustası adını almışdır.

1980-1982-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 1982-ci ildə Gəncə şəhərində "Dinamo" idman cəmiyyətində işləmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Polis Akademiyasını bitirmişdir.

1982-ci ildə Daxili işlər orqanlarında işə qəbul edilmiş, 1994-1995-ci illərdə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Yevlax-Qazax Regional Şöbəsinin rəisi, 1996-2001-ci illərdə Baş Mütəşəkkil Cinaytəkarlıqla Mübarizə İdarəsinin rəis müavini, 2001-2002-ci illərdə həmin idarənin rəisi, 2002-2004-cü illərdə Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi vəzifələrində çalışmışdır.

Mədət Quliyevin rəhbərliyi ilə keçirilən əməliyyatlar nəticəsində respublikada fəaliyyət göstərən bir çox cinayətkar dəstələr və reket qrupları məhv edilmişdi. 1993-cü il dekabr ayının 10-da cinayətkar dəstənin zərərsizləşdirilməsi zamanı ağır yaralansa da öz məqsədinə müvəffəq olmuşdur. O, 1994-cü il oktyabr hadisələri zamanı da silahlı dəstənin zərərsizləşdirilməsində iştirak etmişdir.

2006-cı ildən DİN-in Baş Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışmış, 2011-ci il fevral ayının 15-də Ədliyyə nazirinin müavini, nazirliyin Penitensiar Xidmətinin rəisi təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 26 dekabr tarixli Fərmanı ilə polis polkovniki Quliyev Mədət Qəzənfər oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər Nazirliyinin bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Mədət Qəzənfər oğlu - Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin şöbə rəisi - Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında, əmin-amanlığın təmin edilməsində, qeyri-qanuni silahlı dəstələrin zərərsizləşdirilməsində, mütəşəkkil cinayətkarlığa, banditizmə və digər cinayətlərə qarşı mübarizədə öz xidməti borcunu şərəflə yerinə yetirərkən şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 dekabr 1995-ci il [Mətn] //Azərbaycan.- 1995.- 27 dekabr.-S.1.

Əsgərov, V. Quliyev Mədət Qəzənfər oğlu [Mətn] //V.Əsgərov Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S. 237-238.

Quliyev Mədət Qəzənfər oğlu (1958) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S. 124-125.

Seyidzadə, M. Quliyev Mədət Qəzənfər oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.128.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.milliqahraman.az

55 illiyi

Elbrus Allahverdiyev 1958-1993

Milli Qəhrəman



Elbrus Hacı oğlu Allahverdiyev 1958-ci il sentyabr ayının 27-də Gəncə şəhərində fəhlə ailəsində anadan olmuşdur.

18 saylı məktəbi bitirdikdən sonra 1976-1978-ci illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur.

1990-cı ildə Orconikidze Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. O bir müddət Vladiqafqazda yaşamış, erməni faşistlərinin vətənimizə təcavüzünü eşidən zaman Azərbaycana dönmüş və könüllü olaraq 17 may 1992-ci il tarixində cəbhəyə yollanmışdır.

Elbrus Allahverdiyev Azərbaycan Silahlı Qüvvələrində artilleriyanın ilk təşkilatçılarından olmuşdur. Ağdam ətrafındakı döyüşlərdə şücaət göstərmiş və düşmənin xeyli zirehli texnikasını sıradan çıxarmışdır. Ağdərədə Ermənistan Silahlı Qüvvələrinin reaktiv artilleriyasını sərrast atəşlərlə susdurmuşdur.

1993-cü il 12 iyun tarixində işğalçılar Ağdam üzərinə hücuma keçərkən Elbrus Allahverdiyev düşmənin xeyli canlı qüvvəsini məhv etmiş və onları geri çəkilməyə məcbur etmişdir. Ermənistan hərbi hissələrinin Ağdam rayonuna növbəti hücumu iki gün sonra iyun ayının 14-də olmuşdur. Onlar Ağdamın Şelli kəndi istiqamətində irəliləmək istəsələr də Elbrus Allahverdiyevin dəqiqliyi ermənilərin xeyli itkisi ilə nəticələnmiş və onlar geri çəkilmişdir.

16 iyunda işğalçıların növbəti hücumu zamanı Elbrus əsgər yoldaşları ilə piyadaların köməyinə getmiş və mərmi partlayışından ağır yaralanmışdı. Komandiri hospitala çatdırsalar da, onu xilas etmək mümkün olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı Fərmanı ilə Allahverdiyev Elbrus Hacı oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Gəncə şəhərindəki Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Allahverdiyev Elbrus Hacı oğlu-leytenant-Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il [Mətn] //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1. (Ölümündən sonra).

Allahverdiyev Elbrus Hacı oğlu (1958-1994)[Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.29-30.

Əsgərov, V. Allahverdiyev Elbrus Hacı oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S. 20-21.

Seyidzadə, M. Allahverdiyev Elbrus Hacı oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.25.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

www.milliqahraman.az

85 illiyi

Murtuz Ələsgərov 1928-2012

İctimai-siyasi xadim



Murtuz Nəcəf oğlu Ələsgərov 1928-ci il sentyabr ayının 20-də Gəncə şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsini bitirmişdir. 1953-cü ildə hüquq elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etmiş, 1954-cü ildən Azərbaycan Dövlət Universitetinin Dövlət hüququ kafedrasının baş müəllimi, dosenti, 1957-ci ildən Beynəlxalq hüquq kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1965-ci ildə BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri olmuş, 1968-ci ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

1993-1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru kimi fəaliyyət göstərmişdir.

Murtuz Ələsgərov hüquq elmləri doktoru, professor, respublikanın Əməkdar hüquqşünası olmuşdur. "İstiqlal" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir. MDB-nin "Sodrujestvo" ordeninə və Rusiya Federasiyasının "Dostluq" ordeninə layiq görülmüşdür.

Kiyev Milli Universitetinin fəxri doktorudur. Beynəlxalq Hüquq Assosiasiyasının və Azərbaycan Hüquqşünaslar İttifaqının üzvüdür. Tanınmış alim Murtuz Ələsgərovun Azərbaycanda hüquq elminin inkişafında mühüm xidmətləri vardır. O, öz qiymətli araşdırmaları ilə elmi ictimaiyyətin dərin rəğbətini qazanmışdır. Beynəlxalq hüquq sahəsində böyük nüfuz sahibi olan Murtuz Ələsgərov 200-dən artıq elmi əsərin, dərslik və dərs vəsaitinin müəllifidir. O, ABŞ, Böyük Britaniya, Fransa və Yaponiya kimi ölkələrdə iştirakçısı olduğu müxtəlif konfrans və simpoziumlarda elmimizi layiqincə təmsil etmişdir. O, yarım əsrdən artıq bir dövrü əhatə edən çoxşaxəli fəaliyyəti ərzində ölkəmizdə elmin və təhsilin inkişafına layiqli töhfələr vermişdir. Onun yetirmələri bu gün ölkəmizin hüquq-mühafizə orqanlarında uğurla çalışırlar.

Yeni Azərbaycan Partiyası sədrinin müavini olmuşdur. M.Ələsgərov birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 1996-cı il oktyabrın 16-dan 2005-ci il dekabrın 2-dək parlamentin sədri vəzifəsində çalışmışdır.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının, Azərbaycan-Fransa, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü olmuşdur.

Yeni Azərbaycan Partiyası 2010-cu ildə keçirilən parlament seçkilərində yaşını nəzərə alaraq M.Ələsgərovun adını namizədlər siyahısına daxil etməmişdir.

Murtuz Nəcəf oğlu Ələsgərov 7 avqust 2012-ci ildə uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Ələsgərov Murtuz Nəcəf oğlu [Mətn]: biblioqrafiya /tərt. ed. R.Süleymanov; elmi red. Z.Əliyev; məsl.: M.Mərdanov, T.Baxşəliyev.- Bakı, 1995.- 141 s.-(Azərbaycanın elm və mədəniyyət xadimləri)

Ələsgərov Murtuz Nəcəf oğlu [Mətn] //XXI əsr Azərbaycan hüquqşünasları: ensiklopedik nəşr / layih. rəhb., tərt.ed. və red. E.İsgəndərzadə; ingilis dil. çevirən və ing. mətn. red. K.Zamanlı.- Bakı, 2003.- S.22.

Ömür yolları: Murtuz Ələsgərov - 75 [Mətn] /elmi red. N.Xudiyev; tərt.: A.Babayev, H.Babayev, fotolar: R.Qəmbərov, R.Bağırov.-Bakı: Azərnəşr, 2004.-344 s.

Əmircanov, P. Böyük alim, görkəmli ictimai-siyasi xadim, sadiq silahdaş [Mətn]: Bakı Dövlət Universitetində millət vəkili Murtuz Ələsgərovun 80 illik yubileyi qeyd olunmuşdur /P.Əmircanov //Xalq qəzeti.- 2008.- 24 sentyabr.- S.3.

İnternetdə

www.az.wikipedia.org

135 illiyi

Oruc Orucov 1878-1954

Maarif xadimi



Oruc Əli oğlu Orucov 1878-ci il sentyabr ayının 12-də Yelizavetpol quberniyasının Cavanşir qəzasında (indiki Bərdə rayonu) anadan olmuşdur.

Kənd mollaxanasında oxumuş, Yelizavetpol (Gəncə) sənət məktəbini bitirmişdir. 1896-cı ildə Bakıya köçərək, ticarətlə məşğul olmuşdur. 1905-ci ildə naşirlik fəaliyyətinə başlamış, qardaşları Qənbər və Abuzərlə birlikdə "Orucov qardaşları" nəşriyyatını təşkil etmişdir. Nəşriyyatın müasir avadanlıqla təchiz olunmuş mətbəəsi, kitab və yazı ləvazimatı satılan mağazası vardı.

1905-1917-ci illərdə "Orucov qardaşları nəşriyyatı"nda müxtəlif adda və məzmunda 333 kitab, bir neçə qəzet, o cümlədən "Həqiqət", "Yeni həqiqət", "Günəş", "Asari-həqiqət", "Bəsirət", "İqbal", "Yeni iqbal" və s. qəzetlər çap olunmuşdur.

Orucov 1909-cu ildən etibarən qəzetçilik fəaliyyətinə başlamış, "Həqiqət" (1909-1910), "Günəş" (1910-1911), "Yeni həqiqət" (1911) qəzetlərinin naşiri olmuşdur. Publisistik məqalələrində Avropa imperializminin Şərqdə yeritdiyi müstəmləkəçilik siyasətini tənqid etmişdir.

Orucov 1911-ci ilin martında panislamizm ideyalarını təbliğ etməkdə təqsirləndirilərək, bir qrup jurnalistlə birgə 2 il müddətinə həbs olunmuş və Rusiyanın daxili quberniyalarına sürgün edilmişdi. Saratov, Nijni Novqorod və Varşavadan "İqbal" qəzetinə göndərdiyi məqalələrdə Bakıda baş verən hadisələrə münasibət bildirmişdi. Romanovlar sülaləsinin 300 illik yubileyi ilə əlaqədar elan edilən əfvi-ümumidən sonra Bakıya dönərək, naşirlik fəaliyyətini davam etdirmişdir. 1917-ci ilin dekabr ayında qardaşları Abuzər və Qənbərdən ayrılaraq, "Açıq söz" qəzetində Məhəmməd Əmin Rəsulzadə ilə əməkdaşlığa başlamış, qəzetin nəşriyyat işləri üzrə müdiri vəzifəsini icra etmişdir.

Oruc Orucov 1954-cü il mart ayının 2-də Bərdə rayonunda vəfat etmişdir.

Ədəbiyyat

Əfəndiyev, Ə. Orucov qardaşlarının mətbəəsi [Mətn]: biblioqrafik göstərici /Ə.Əfəndiyev, Z.Əliyeva; elmi red.: X.Məmmədov; AEA, Milli Münasibətkər İnstitutu; Mərkəzi Elmi Kitabxana.- Bakı:Qartal,1999.- 97 s.

Orucov qardaşları mətbəəsinin inventarı [Mətn].-Bakı: [nəşriyyatbəradəran Orucov], 1917.- 104 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.elibrary.az

75 illiyi

Vasif Babazadə
1938

Geoloq alim



Vasif Məmməd Ağa oğlu Babazadə 1938-ci il sentyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) geologiya-coğrafiya fakültəsində oxumuş və mühəndis-geoloq ixtisasına yiyələnmişdir. Əmək fəaliyyətinə 1959-1961-ci illərdə SSRİ Geologiya Nazirliyinin Pyatiqorsk şəhərində I saylı Geoloji-kəşfiyyat Trestinin Qafqaz Kompleks Geoloji-kəşfiyyat ekspedisiyasında böyük kollektor kimi başlamış, sonra böyük geoloq, geoloji kəşfiyyat partiyasının rəisi vəzifələrində çalışmışdır.

1961-1964-cü illərdə BDU-nun qiyabi aspirantı olmuş, 1964-cü ildə "Kiçik Qafqazın ofiolit zolağının xromit yataqlarının geoloji əmələ gəlmə və yerləşmə şəraitləri" adlı namizədlik dissertasiyasını müdafiə etmişdir. 1964-1965-ci illərdə Bakı Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsində Faydalı qazıntılar kafedrasının müəllimi olmuş, 1967-1968-ci illərdə həmin fakültəsinin dekan müavini, 1973-1980-ci illərdə dekanı vəzifəsində çalışmışdır. 1975-ci ildə "Sevan-Qarabağ zonasının endogen filiz formasiyaları" (Kiçik Qafqaz) adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. 1977-ci ildən Faydalı qazıntılar kafedrasının professorudur. 250-dan artıq elmi əsərin, 25 monoqrafiya və kitabın, 3 nəşr olunmuş xəritənin və bir çox kitabların müəllifidir. 25 elmlər namizədi və 10 elmlər doktoru hazırlamışdır.

"Xidmət istifadə üçün" qrifi altında ekspert kimi elmi-tətbiqi tutumlu layihələr hazırlamış, 2005-2007-ci illərdə ABŞ-ın "Mülki tədqiqatlar və inkişaf fondu"nun (CRDF), 2007-2009-cu illərdə Avropa Birliyi 6-cı çərçivə proqramının (İNTAS) qrantlarına layiq görülmüşdür. "Yerin təki haqqında" (1998) və "Təhsil haqqında" Qanunların hazırlanmasında yaxından iştirak etmişdir. AFR, Rusiya, Çin, Türkiyə, İran, İspaniya, Gürcüstan, Ukrayna və digər ölkələrdə beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

1978-ci ildə təbii resurslardan səmərəli istifadə etmə sahəsində əsərlər silsiləsinə görə Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. 2000-ci ildə elm sahəsindəki göstəricilərinə görə "Əməkdar elm xadimi" və 2007-ci ildə Bakı Dövlət Universitetinin "İlin alimi" adına layiq görülmüşdür. Bakı Dövlət Universitetinin əməkdaşlarının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Babazadə Vasif Məmmədağa oğlu "Şöhrət ordeni" ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycanın filiz formasiyaları [Mətn]: dərs vəsaiti /V.Babazadə.- Bakı: Maarif, 1990.- 280 s.

Faydalı qazıntı yataqlarının kəşfiyyatının texnikası [Mətn]: dərslik /V.Babazadə; Bakı Dövlət Universiteti.- Bakı, 2007.- 236 s.

Petroqrafiya [Mətn]: dərslik /V.Babazadə, M.Məmmədov, N.İmamverdiyev; Bakı Dövlət Universiteti.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007.- 512 s.

İnternetdə

www.anl.az

www. elibrary.az

www.e-qanun.az

www.geology.bsu.edu.az

www. sience.qov.az

85 illiyi

Azad Mirzəcanzadə 1928-2006

Akademik



Azad Xəlil oğlu Mirzəcanzadə 1928-ci il sentyabr ayının 30-da, Bakı şəhərində anadan olmuşdur. 1944-1949-cu illərdə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsində (indiki Azərbaycan NA) təhsil almış və dağ mühəndisi ixtisasına yiyələnmişdir.

O, 1948-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutunda və Neft Ekspedisiyasında baş laborant, kiçik elmi işçi, böyük elmi işçi və şöbə müdiri vəzifələrində 1958-1968-ci illərdə Azərbaycan Neft Sənayesi Nazirliyi nəzdində Elmi Tədqiqat Neftçıxarma İnstitutunda, həmçinin, 1966-1969-cu illərdə SSRİ Elmlər Akademiyasının Mexanika Problemləri İnstitutunda laboratoriya müdiri, 1969-1973-cü illərdə SSRİ Elmlər Akademiyası və Neft Sənayesi Nazirliyinin müştərək laboratoriyasının, 1973-1989-cu illərdə keçmiş Ümumittifaq Elmi Tədqiqat Neft İnstitutunun neft-qaz dinamikası laboratoriyasının müdiri, 1992-ci ildən isə Azərbaycan Neft Akademiyası nəzdində Neft-Qaz Geotexnoloji Problemləri və Kimya Elmi Tədqiqat İnstitutunun direktoru vəzifələrində çalışmışdır.

Azad Mirzəcanzadə 1951-ci ildə texnika elmləri üzrə namizədlik, 1957-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir.

1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Nəzəri mexanika kafedrasının dosenti, 1957-1959-cu illərdə professoru, 1959-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri işləmişdir. 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir.

1992-2001-ci illərdə Azərbaycan Ali Attestasiya Komissiyasının sədri olmuş, 1993-2001-ci illərdə Dövlət Elm və Texnika Komitəsinə rəhbərlik etmişdir.

Azərbaycan elminin inkişafında mühüm xidmətləri olan Azad Mirzəcanzadə ölkəmizdə tətbiqi mexanika və neft-mədən işləri sahəsində qiymətli araşdırmaları ilə böyük şöhrət qazanmışdır. 400-ə yaxın elmi əsərin, 50-dən artıq ixtira və patentin müəllifidir.

1970-ci ildən Azərbaycan SSR Əməkdar elm və texnika xadimi, 1971-ci ildən SSRİ-nin Fəxri neftçisi, 1977-ci il və 1982-ci illərdə 2 dəfə SSRİ EA-nın Qubkin adına mükafatları, 1978-ci ildə SSRİ Qaz sənayesinin Fəxri işçisi, 1980-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan Respublikası "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Azad Xəlil oğlu Mirzəcanzadə 2006-cı il iyul ayının 17-də 78 yaşında vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

İxtisasa giriş [Mətn]: neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti /A.Mirzəcanzadə.- Bakı: Qanun, 2010.- 432 s.

Hidravlika [Mətn]:Neftçi mühəndis hazırlayan ali texniki məktəb və fakültələr üçün dərslik /A.Mirzəcanzadə.- Bakı: Maarif, 1990.- 276 s.

Riyazi mozaika [Mətn] /A.Mirzəcanzadə, F.Maqsudov.- Bakı: Elm, 1992.- 176 s.

Mirzəcanzadə Azad Vəli oğlu (30.09.1928-17.07.2006) [Mətn] //Fəxri Xiyaban.- Bakı, 2007.- S.157.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.qanun.az

www.science.az

SENTYABR

15

Tarixdə bu gün

95 illiyi

Bakıda Türk Şəhidliyi abidəsi 1918

1918-ci ilin may ayında Azərbaycanın müstəqilliyi elan olunsa da ölkəmizin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə qardaş Osmanlı Türkiyəsi özü çox ağır durumda olsa da, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini ölkəmizə göndərmişdi.1918-ci il sentyabr ayının 15-i Bakıya çatan Nuru Paşa tarixi zəfərə imza ataraq Azərbaycanın paytaxtı olacaq şəhəri erməni və ruslardan qurtarmışdı. Sentyabrın 15-də türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etmiş oldu. Nuru Paşa sentyabrın 16-da parad qəbul etmiş və təntənəli şəkildə şəhərə daxil olmuşdu. Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncədən Bakıya köçürülmüşdü. Vəziyyəti nəzərə alan ingilislər də heç bir müqavimət göstərmədən geri durmağa məcbur olmuşlar. Beləcə, 15 sentyabr tarixə Nuru Paşa komandanlığı altında Bakının qurtuluş günü kimi düşmüşdü. Bakı əsl sahiblərinin əlinə keçmişdi. Osmanlı ordusu Bakının azad olunması əməliyyatında 1130 şəhid vermişdi.

Beləliklə, 1918-ci ildə sentyabr ayının 15-də Bakının bolşevik-erməni daşnakları və ingilis qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə canından keçmiş türk şəhidlərinin xatirəsinə Bakı Türk Şəhidliyi abidəsi ucaldılmışdır.

18

Milli Musiqi Günü 1995



Sentyabr ayının 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

Həmin gün təkcə musiqisevərlərin deyil, həm də xalqımızın bayramıdır. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur. Görkəmli bəstəkar və dirijor Niyazi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edərmiş.

Üzeyir bəyin doğum gününün musiqi tariximizin ən əlamətdar hadisəsi kimi anılması tez bir zamanda ənənə halını almışdır. 1995-ci ildə isə ulu öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınmışdır.

Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Görkəmli musiqi xadimləri onu "professional Şərq musiqisinin atası" adlandırmışlar. Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü.Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Ədəbiyyat

Qocayev, Ə. 18 sentyabr - Milli Musiqi Günü [Mətn] // Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.23.

www.anl.az

OKTYABR

1 oktyabr

Gün çıxır 07:37
Gün batır 19:42

31 oktyabr

Gün çıxır 07:09
Gün batır 17:59

Ç.A.	1
Ç.	2
C.A.	3
C.	4
Ş.	5
B.	**6**
B.E.	7
Ç.A.	8
Ç.	9
C.A.	10
C.	11
Ş.	12
B.	**13**
B.E.	14
Ç.A.	15
Ç.	16
C.A.	17
C.	18
Ş.	19
B.	**20**
B.E.	21
Ç.A.	22
Ç.	23
C.A.	24
C.	25
Ş.	26
B.	**27**
B.E.	**28**
Ç.A.	**29**
Ç.	30
C.A.	31



24 sentyabr-
23 oktyabr

Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə doğulanlar yumşaq xasiyyətli, parlaq zəkalı olurlar.

- **Xocavənd rayonunun işğalı günü (02.10.1992)**
- *Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir (03.10.1993)*
- *Beynəlxalq Müəllimlər Günü (05.10.1966)*
- *Azərbaycan Respublikası Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə İlham Əliyev qalib gəlmişdir (15.10.2003)*
- *Dövlət Müstəqilliyi Günü (18.10.1991)*
- **Zəngilan rayonunun işğalının 20-ci ildönümü (29.10.1993)**

90 il Heydər Əliyev 1923-2003



1990-cı ilin iyul ayında Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin iyununda ölkədə siyasi böhranın son dərəcə kəskinləşməsi ilə əlaqədar, o zamankı respublika rəhbərliyi Heydər Əliyevi Bakıya, siyasi rəhbərliyə dəvət etmişdi. Heydər Əliyev 1993-cü il 15 iyun tarixində Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyul ayının 24-də isə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

1993-cü il oktyabr ayının 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

OKTYABR

2013



Milli Ədəbiyyat

Nasir, şair, publisist Yusifli Yunis Mirzə oğlunun (01.10.1938) anadan olmasının **75** illiyi
Ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü Kərimli Teymur Həşim oğlunun (02.10.1953) anadan olmasının **60** illiyi
Tənqidçi, ədəbiyyatşünas Vəliyev Məsud Əli oğlunun (Məsud Əlioğlu) (05.10.1928-23.07.1973) anadan olmasının **85** illiyi
Fəlsəfə elmləri doktoru, nasir, publisist professor (Həbiboğlu) Məcidov Vəli Həbib oğlunun (06.10.1948-18.02.2007) anadan olmasının **65** illiyi 278
Publisist, ssenarist, tərcüməçi Ağayev Emil Güləli oğlunun (11.10.1938) anadan olmasının **75** illiyi
Nasir, dramaturq, tərcüməçi Əlixanov Vaqif Ənvər oğlunun (Vaqif Əlixanlı) (13.10.1943) anadan olmasının **70** illiyi
Xalq şairi, Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, publisist İbrahimov Məmməd İnfil oğlunun (Məmməd Araz) (14.10.1933-01.12.2004) anadan olmasının **80** illiyi 279
Filologiya elmləri doktoru, professor Abdullayev Gülhüseyn Hüseyn oğlunun (16.10.1923) anadan olmasının **90** illiyi 280
Tənqidçi, ədəbiyyatşünas Seyidov Mirəli Mir Ələkbər oğlunun (18.10.1918-26.04.1992) anadan olmasının **95** illiyi 281
Dövlət Mükafatı laureatı, şair Cəmilzadə Əhməd Səttar oğlunun (Əhməd Cəmil) (20.10.1913-27.09.1977) anadan olmasının **100** illiyi 282
Ədəbiyyatşünas, tənqidçi İsrafilov Hüseyn Əsgər oğlunun (24.10.1928) anadan olmasının **85** illiyi
Pedaqoji elmlər doktoru, professor, yazıçı Rəhimov Ağarəhim Nüsrət oğlunun (26.10.1948) anadan olmasının **65** illiyi 283
Yazıçı Əmirli Əli Məmməd oğlunun (30.10. 1948) anadan olmasının **65** illiyi 284



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar incəsənət xadimi, rəssam Feyzullayev Lətif Əbdülbağı oğlunun (13.10.1918-1987) anadan olmasının **95** illiyi 285
Xalq rəssamı Hüseynov Yusif İsmayıl oğlunun (15.10.1928) anadan olmasının **85** illiyi
Akademik, görkəmli sənətşünas alim, rəssam Əfəndiyev Rasim Səməd oğlunun (30.10.1928-13.02.2010) anadan olmasının **85** illiyi 286



Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, pianoçu Əliyeva Gülarə Əziz qızının (07.10.1933-27.07.1991) anadan olmasının **80** illiyi 287

İtalyan bəstəkarı Verdi Fortunino Françesko Cüzeppenin (10.10.1813-27.01.1901) anadan olmasının **200** illiyi

Xanəndə Məmmədov Səxavət Əmirxan oğlunun (23.10.1953-30.09.1991) anadan olmasının **60** illiyi 288

Fransız bəstəkarı Bize (Aleksandr Sezar Leopold) Jorjininin (25.10.1838 -03.06.1875) anadan olmasının **175** illiyi



Teatr.Kino

Xalq artisti, aktrisa Koltunova Qalina Borisovnanın (05.10.1918-1994) anadan olmasının **95** illiyi

Xalq artisti Əliyev Mirzağa Əli oğlunun (25.10.1883-25.10.1954) anadan olmasının **130** illiyi 289



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Nofəl Zahid oğlunun (04.10.1963-12.1991) anadan olmasının **50** illiyi 290

Azərbaycanın Milli Qəhrəmanı Niftəliyev Cəmil Səmədxan oğlunun (05.10.1968-29.03.1992) anadan olmasının **45** illiyi 291

Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yunis Əsgər oğlunun (09.10.1958-05.05.1992) anadan olmasının **55** illiyi 292

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Səfəralı Qurban oğlunun (16.10.1963-16.02.1992) anadan olmasının **50** illiyi 293

Azərbaycanın Milli Qəhrəmanı Rəhimov Koroğlu İsmayıl oğlunun (31.10.1953-03.07.1992) anadan olmasının **60** illiyi 294



Siyasət.Hərbi iş

Dövlət xadimi İbrahimov Əli İsmayıl oğlunun (01.10.1913-15-16.02.1990) anadan olmasının **100** illiyi 295

Görkəmli sərkərdə və hökmdar Nadir şah Əfşarın (22.10.1688-19.06.1747) anadan olmasının **325** illiyi 296

Görkəmli siyasi və dövlət xadimi Xasməmmədov Xəlil bəy Hacıbaba oğlunun (25.10.1873-1947) anadan olmasının **140** illiyi 297

ABŞ dövlət xadimi Ruzvelt Teodorun (27.10.1858-06.01.1919) anadan olmasının **155** illiyi

Sərkərdə Vəli bəy Sadıq bəy oğlu Yadigarovun (təq.31.10.1898-03.12.1971) anadan olmasının **115** illiyi 298



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Fransız yazıçısı, maarifçi, filosofu Didro Deninin (05.10.1713-31.07.1784)

anadan olmasının **300** illiyi



Mədəniyyət.Maarif.Elm

Əməkdar mədəniyyət işçisi Rasizadə Turan Hüseyn Cavid qızının (Turan Cavid) (02.10.1923-2004) anadan olmasının **90** illiyi 299

İdman



Dünya çempionu, Beynəlxalq qrossmeystr Məmmədyarova Zeynəb Həmid qızının (03.10.1983) anadan olmasının **30** illiyi 300
Əməkdar bədən tərbiyəsi və idman xadimi, həndbolçu, məşqçi Şabanova Rəfiqə Mahmud qızının (31.10.1943) anadan olmasının **70** illiyi 300

Riyaziyyat.Fizika.Astronomiya



Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Əsgərov Bəhram Mehralı oğlunun (05.10.1933) anadan olmasının **80** illiyi 301
Fizika-riyaziyyat elmləri doktoru İsayev Abasət İsa oğlunun (07.10.1948) anadan olmasının **65** illiyi
Akademik, 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Kərimov Mahmud Kərim oğlunun (18.10.1948) anadan olmasının **65** illiyi 302

Kimya.Biologiya.Tibb



Kimya elmləri doktoru, professor İbrahimov İbrahim İsmayıl oğlunun (10.10.1928-24.01.1990) anadan olmasının **85** illiyi
Tibb elmləri doktoru, oftalmoloq İsmayılzadə Şəfiqə İsa qızının (12.10.1918-2004) anadan olmasının **95** illiyi 303
Məşhur isveç kimyaçısı, mühəndisi, ixtiraçısı Alfred Bernhard Nobelin (21.10.1833-10.12.1896) anadan olmasının **180** illiyi 303
Kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Səlimxanov İsa Rzabəy oğlunun (31.10.1908) anadan olmasının **105** illiyi

Tarixdə bu gün



Ankara Türkiyənin paytaxtı olmuşdur (01.10.1923)
Beynəlxalq Musiqi Günü (01.10.1975)
Prokurorluq İşçiləri Günü (01.10.1998) 305
Beynəlxalq Ahıllar Günü (01.10.1992) 305
Xocavənd rayonunun işğalı günü (02.10.1992) 306
Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir (03.10. 1993) 307
Beynəlxalq Müəllim Günü (05.10.1966)
Azərbaycanın Sovet Hökuməti (Mərkəzi İcraiyyə Komitəsi) Dağlıq

Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi qəsəbəsinin adını dəyişdirərək Stepanakert adlandırılmışdır (06.10.1923)
Bakıda Azərbaycan Milli Bankının yeni binası istifadəyə verilmişdir (06.10.1998)
Ağsu rayonunun yaradılmasının **70** illiyi (08.10.1943) 308
Ümumdünya Poçt Günü (09.10.1970)
Heydər Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir (11.10.1998)
Rusiya İmperiyası ilə Qacar-İran dövləti arasında tarixi Azərbaycan ərazisini bölən Gülüstan müqaviləsi imzalanmışdır (12.10.1813)
Azərbaycan Respublikası Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə İlham Əliyev qalib gəlmişdir (15.10.2003)
Azərbaycanda keçirilən növbəti prezident seçkilərində, ölkə başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev ikinci müddətə Prezident seçilmişdir (15.10.2008)
Qurban bayramı (16-17.10) 309
"Uolt Disney" şirkəti təsis edilmişdi (16.10.1923)
Dövlət Müstəqilliyi Günü (18.10.1994) 310
Azərbaycan SSR rəsmi olaraq latın qrafikalı əlifbaya keçmişdir (20.10.1923)
Beynəlxalq Kulinariya Günü (20.10.2007)
Azərbaycan Respublikası ilə Braziliya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 26-da tanıyıb) arasında diplomatik münasibətlər qurulmuşdur (21.10.1993)
Babək rayonunun təşkil edilməsinin (23.10.1978) **35** illiyi 311
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1945) 312
Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin məşhur "Arşın mal alan" operettasının Tağıyev teatrında ilk tamaşasının səhnələşdirilməsinin **100** illiyi (25.10.1913)
Zəngilan rayonunun işğalının 20-ci ildönümü (29.10.1993) 313
İsveçrəli Anri Dünan Qızıl Xaç təşkilatını qurmuşdur (29.10.1863)
Bakı-Ceyhan neft əsas ixrac kəmərinin çəkilməsinə başlanmışdır (29.10.1998)
Türkiyə Cümhuriyyəti elan edilmiş və Mustafa Kamal Paşa onun ilk Prezidenti seçilmişdir (29.10.1923)
I Dünya müharibəsində məğlub duruma düşən Osmanlı dövləti Antanta ölkələri ilə Mudros Sülh sazişi imzalayaraq qoşunlarını Azərbaycandan və bütün Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürmüşdür (30.10.1918)
Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə Günü (31 oktyabr, 2003)

65 illiyi

Vəli Həbiboğlu 1948-2007

Publisist



Vəli Həbib oğlu Məcidov 1948-ci il oktyabr ayının 6-da Bakı şəhərində anadan olmuşdur.

1967-ci ildə 201 saylı şəhər orta məktəbini bitirmişdir.

1967-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və biblioqrafiya fakültəsində (indiki BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi) təhsil almışdır.

Əmək fəaliyyətinə 1971-1992-ci illərdə Azərbaycan Mətbuat Komitəsində nəzarətçi redaktor kimi başlamış, 1975-1984-cü illərdə "Azərnəşr"də redaktor, 1986-1992-ci illərdə "Gənclik" nəşriyyatında redaksiya müdiri, 1992-1994-cü illərdə "Quruluş", "Respublikaçı", "Açıq fikir" qəzetlərində baş redaktor, 1992-2002-ci illərdə Azərbaycan Milli EA-nın Milli Münasibətlər İnstitutunda şöbə müdiri, direktor müavini vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1969-cu ildən başlamış, ilk rəyi "Бакинский рабочий" qəzetində dərc edilmişdir. Bundan sonra dövri mətbuatda hekayə, publisistik məqalə və rəylər dərc etdirmişdir. "Dünyamızı yaşadaq", "Əsgər rəşadəti", "Didərginlər", "Şahidlər" toplularında publisist yazıları çap olunmuşdur. Uşaqlar üçün bir sıra "Bilgə Xaqan" (1993), "Mete Xaqan" (1993), "Tanrı qılıncı Atilla" (2001) adlı bədii-tarixi kitablar yazıb nəşr etdirmişdir.

XX əsrin 80-ci illərindən türk xalqlarının tarixi, fəlsəfi dünya görüşü, mifik baxışları istiqamətində elmi-tədqiqat işləri üzərində çalışmışdır. Bu mövzuda onlarla məqalə dərc etmişdir.

V.Həbiboğlu 1998-ci ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar mərkəzinin direktor müavini vəzifəsində çalışmışdır.

O, dövlət quruculuğu, Azərbaycan diasporu, mədəniyyət, həyat tərzi, soyqırım və s. problemlərin tədqiqi ilə məşğul olmuşdur.

Vəli Həbib oğlu Məcidov 2007-ci il fevral ayının 18-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycanlıların soyqırımının təşkilatçısı /Həbiboğlu Vəli; Elmi red.: İsrafil Məmmədov .-Bakı: Qartal , 2001.

Heydər Əliyev və Azərbaycan diasporu /V. Həbiboğlu ; red. və ön sözün müəl. V. Arzumanlı; AMEA, Beynəlxalq Münasibətlər İn-tu.- Bakı : Qartal, 2001.- 358 s.

Qədim türklərin dünyagörüşündə təbiətə münasibətin sosial-fəlsəfi aspektləri [Mətn]: fəls.e.d-ru a.dər.a.üçün elmi məruzə formasında təqdim edilmiş dis.: 09.00.11. /V. H. Məcidov; M. Ə. Rəsulzadə ad. BDU.-Bakı, 1998.-79 s.

Terrorçu Andranik və "Böyük Ermənistan" xülyası [Mətn] /V. Həbiboğlu; Elmi red. İ. Məmmədov.-Bakı: Gənclik, 2002.-212 s.

İnternetdə

www.adam.az

www.anl.az


www.ebooks.preslib.az

Milli ədəbiyyat

80 illiyi

Məmməd Araz 1933-2004

Şair



Məmməd İnfil oğlu İbrahimov (Məmməd Araz) 1933-cü il oktyabr ayının 14-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Nursu kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra 1950-1954-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsində təhsilini davam etdirmişdir.

Məmməd Araz ədəbi yaradıcılığa 1952-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Yanan işıqlarım" adlı şeiri ilə başlamışdır.

Əmək fəaliyyətinə isə doğma kəndindəki orta məktəbdə müəllimliklə başlamış, sonra Bakıya köçmüş, burada 1957-1959-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Baş Mətbuat İdarəsində müvəkkil vəzifəsinə işə qəbul edilmişdir. Daha sonra 1959-1961-ci illərdə Moskvada, keçmiş SSRİ Yazıçılar İttifaqı nəzdindəki Ali ədəbiyyat kursuna daxil olmuşdur.

O, 1963-1967-ci illərdə "Maarif" nəşriyyatında Bədii ədəbiyyat redaksiyasının müdiri, 1967-1970-ci illərdə "Ulduz" jurnalının məsul katibi, 1970-1972-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında baş redaktorun müavini, 1972-1974-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini, 1974-cü ildən "Azərbaycan təbiəti" jurnalının redaktoru vəzifəsində işləmişdir. 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında Poeziya bölməsinə rəhbərlik etmişdir. "Eyfel qülləsində", "Araz yadıma düşdü", "Qoruyun dünyanı", "Nobel mükafatı", "Azərbaycanım mənim" şeirləri həm şairin, həm də Azərbaycan poeziyasının təkamülündən, yeni mənəvi iqlim və tarixi mərhələlərindən xəbər vermiş, bir ənənənin yox, minillik əxlaq, fəlsəfə, hünər və poeziya irsinin varisi kimi çıxış etmişdir.

M.Araz öz yaradıcılığında poema janrına tez-tez müraciət etmiş və ilk poeması 1957-ci ildə yazdığı "Üç oğul anası" olmuşdur. O, uzun illər bədii tərcümə ilə də məşğul olmuşdur. Gəncliyindən bu işə yaradıcı sənətkar kimi yanaşan şair müxtəlif xalqların poeziyasına xüsusi maraq göstərmişdir. Bunlardan N.Nekrasov, M.Lermontov, H.Heyne, Şarl Bodler, Jan Raynis, Abay, Q.Sevçenko, V.Luqovskoy, M.Lukonin, Y.Smelyakov, M.Kərim, P.Brovka, O.Şestinski və başqalarını nümunə göstərmək olar. M.Araz istedadlı tərcüməçi kimi dünya xalqları ədəbiyyatından 195 şeir və 5 poema tərcümə edərək onları "Ocaq başında" adı ilə 1988-ci ildə kitab halında çap etdirmişdir.

1982-ci ildə Azərbaycan SSR Fəxri fərmanı ilə təltif olunmuş,1984-cü ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 1988-ci ildə "Azərbaycan" və "Ulduz" jurnallarında çap olunmuş şeirlər silsiləsinə görə Azərbaycan Respublikasının Dövlət mükafatını almış, Azərbaycan milli ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə 1991-ci ildə "Azərbaycanın Xalq şairi" adına layiq görülmüş, 1995-ci ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Xalq şairi Məmməd Araz 2004-cü il dekabr ayının 1-də 71 yaşında vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: 2 cilddə /Məmməd Araz; ön sözün müəl. Y.Qarayev, tərt. ed. G.Fətəli qızı.- Bakı: Lider, 2004.- C.1.- 224 s.; C.2.- 232 s.

Publisistika: I kitab [Mətn] /Məmməd Araz; tərt. ed. G.Fətəli qızı; red. Q.Əzizxanlı.- Bakı: Adiloğlu, 2001.- 438 s.

Eminalıyev, E. Məmməd Araz [Mətn] /Eyvaz Eminalıyev; elmi red. K.Əliyev; rəyçi və ön sözün müəl. S.Qəniyev.- Bakı: Səda, 2006.- 130 s.

Fətəli qızı, G. Məmməd Arazlı günlərim [Mətn] /G.Fətəliqızı; red. Q.Əzizxanlı.-Bakı: Zəkioğlu, 2008.- 216 s.

İnternetdə

www.adam.az


www.az.wikipedia.org

www.azadliq.org

www.memmedaraz.az

90 illiyi

Gülhüseyn Hüseynoğlu
1923 *Yazıçı, ədəbiyyatşünas*



Gülhüseyn Hüseyn oğlu Abdullayev 1923-cü il oktyabr ayının 16-da Azərbaycanın Masallı rayonunun Mollaoba kəndində anadan olmuşdur. 3-4 yaşında ikən ailəsi Bakıya köçdüyündən orta təhsilini Bakıda almışdır. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirmiş, aspiranturaya qəbul olmuş, lakin şəxsiyyətə pərəstiş dövründə həbs olunmuş, 25 il azadlıqdan məhrum edilmişdir. 1956-cı ildə ona tam bəraət verilmiş, yenidən aspiranturaya bərpa edilmişdir. Aspiranturada təhsilini tamamladıqdan sonra ADU-da müəllim saxlanmışdır. 1988-ci ildən universitetin Azərbaycan sovet ədəbiyyatı kafedrasının professoru, filologiya fakültəsi elmi şurasının üzvü olmuşdur. Gülhüseyn Hüseynoğlu ədəbiyyata müharibə illərində gəlmış, "Ana" adlı ilk hekayəsi 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur. Sonra müharibə mövzusunda "Ağ kələğayı" hekayəsi, 1946-cı ildə isə "Bənövşə əfsanəsi" adlı ilk mənsur şeiri nəşr edilmişdir. 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiq yaradıcılığının tədqiqatçısı olmuş, elmi monoqrafik əsərin, çoxlu tədqiqat xarakterli məqalələrin müəllifidir. Oçerk, povest və elmi-tədqiqat əsərləri yazsa da, bədii yaradıcılığında mənsur şeir və hekayə başlıca yer tutur. Onun hekayə və povestləri lirik-psixoloji nəsrimizin inkişafında mühüm rol oynamışdır. "Nigarançılığın sonu" adlı hekayəsi bu janrın XX əsrdəki ən gözəl nümunələrindən biri hesab edilir. Gülhüseyn Hüseynoğlu nəsrinin dili həm gözəl və mənalı, həm də sadə və poetikdir. Odur ki, hadisələrin izahı inandırıcı və valehedicidir. Yazıçı seçdiyi mövzuların hamısına eyni həssaslıqla yanaşır, onları özünəməxsus ustalıqla işləyir. Məzmunun oxucu tərəfindən asanlıqla qavranılması üçün bir-birindən fərqli, bir-birindən düşünülmüş ədəbi priyomlar işlədir. "Xəzərin qoynunda", "Bir ömrün çıraqları", "Poylunun gənc çobanı", "Etiraf", "M.Müşfiqin yaradıcılıq yolu", "Kişi kimi", "Məhəbbətdirmi bu" adlı 30-a yaxın kitabı kütləvi tirajla buraxılmışdır. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

Ədəbiyyat sahəsindəki xidmətlərinə görə 2005-ci ildə "Azərbaycan Respublikasının Xalq yazıçısı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Ana qoynu [Mətn]: hekayələr /G.Hüseynoğlu; red. A.İsabəyli; rəssam Ələşrəf.- Bakı: Şirvannəşr, 2003.- 16 s.

Məhəbbətdirmi bu?! [Mətn]: mənsur şeirlər, povestlər, novellalar, hekayələr /G.Hüseynoğlu; ön söz C.Əhmədov.- Bakı: Gənclik, 1996.- 352 s.

Mikayıl Müşfiq [Mətn]: fotoalbom /G.Hüseynoğlu.- Bakı: İşıq, 1999.- 152 s.

Gülhüseyn Hüseynoğlu [Mətn] //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.366-367.

Yusifli, V. Sabir Nuridən Gülhüseyn Hüseynoğluna ehtiramla [Mətn] /V.Yusifli //Ədalət.- 2011.- 23 aprel.- S.19.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

95 illiyi

Mirəli Seyidov 1918-1992

Ədəbiyyatşünas, tənqidçi



Mirəli Mir Ələkbər oğlu Seyidov 1918-ci il oktyabr ayının 18-də Qərbi Azərbaycanın İrəvan şəhərində, fəhlə ailəsində anadan olmuşdur. Burada ibtidai təhsilini başa vurduqdan sonra, 1938-ci ildə Bakıda S.Ağamalıoğlu adına Hidromeliorasiya Texnikumunu bitirmişdir.

1938-1944-cü illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində təhsil almışdır. Eyni zamanda 1941-1945-ci illərdə Ermənistan Dövlət Universitetinin Şərq şöbəsində oxumuşdur. Həmin illər "Sovet Ermənistanı" qəzeti redaksiyasında korrektor, ədəbi işçi, Gənclər şöbəsinin müdiri, məsul katibin müavini vəzifələrində işləmiş, mətbuat müvəkkili olmuşdur.

1945-1953-cü illərdə AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, 1953-1960-cı illərdə Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, 1960-1967-ci illərdə ədəbi əlaqələr şöbəsində baş elmi işçi, 1967-1980-ci illərdə şöbə müdiri, 1980-1988-ci illərdə Azərbaycan mifologiyası və orta əsrlər folkloru şöbəsinin müdiri, 1987-ci ildən institutun Xalq yaradıcılığı şöbəsində aparıcı elmi işçi kimi çalışmışdır.

1982-ci ildə Türkiyədə keçirilən 4-cü türkoloji konqresdə Sovet nümayəndə heyətinin tərkibində olmuş, "Azərbaycan mərasimlərində teatr ünsürləri (Yuğ mərasiminə əsasən)" mövzusunda məruzə etmişdir.

Ədəbi fəaliyyətə 1941-ci ildə "Sovet Ermənistanı" qəzetində çap etdirdiyi rəy və oçerklərlə başlamışdır. Həmin dövrdən mətbuatda vaxtaşırı çıxış etmişdir. 1969-cu ildə "Azərbaycan-erməni ədəbi əlaqələri (ən qədim dövrdən XVIII əsrin sonunadək)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. "Azərbaycan mifologiyası Azərbaycan xalqının mənşəyini öyrənməkdə bir mənbə kimi" mövzusunda tədqiqat üzərində çalışmış, 1969-cu ildə filologiya elmləri doktoru, 1973-cü ildə professor olmuşdur.

Ümumittifaq türkoloji müşavirə və konfranslarda iştirak etmişdir.

1976-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1983-cü ildə Azərbaycanın Əməkdar elm xadimi, 1992-ci ildə Azərbaycan milli yaradıcılıq akademiyasının müxbir üzvü olmuşdur.

1992-ci il aprel ayının 26-da Bakıda vəfat etmiş, ikinci Fəxri Xiyabanda dəfn olunmuşdur. Yaşadığı binanın divarına xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Böri-qurt [Mətn] /M.Seyidov; elmi red. O.Musayev; red. P.Quliyeva.- Bakı: Adiloğlu, 2006.- 40 s.

Yaz bayramı [Mətn] /M.Seyidov; red. E.Fərruxzadə.- Bakı: Gənclik, 1990.- 96 s.

Mirəli Seyidov [Mətn] //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə):ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.641.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.baku.baku.sahil.az

www.elibrary.az

100 illiyi

Əhməd Cəmil 1913-1977

Şair



Əhməd Səttar oğlu Cəmilzadə (Əhməd Cəmil) 1913-cü il oktyabr ayının 20-də İrəvan quberniyasının İrəvan şəhərində sənətkar ailəsində doğulmuşdur. Dörd yaşında ikən atasını itirmiş, anasının himayəsi altında boya-başa çatmışdır. İbtidai və orta təhsilini Gəncə şəhər məktəblərində almışdır.

Orta məktəbin yeddinci sinfində oxuyarkən "Gözəl Qafqaz" adlı ilk şeiri 1928-ci ildə "Qızıl Gəncə" jurnalında dərc olunmuşdur. Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin Gəncə bölməsində fəal iştirak etmişdir. Onun şeirləri "Qızıl Gəncə", "Dağıstan füqərası", "Gənc bolşevik", "Hücum", "İnqilab və mədəniyyət" qəzet və jurnallarında vaxtaşırı dərc olunmuşdu.

Sonra o, 1930-1933-cü illərdə Bakıda Ali Pedaqoji İnstitutun ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. 1933-1936-cı illərdə Şəmkir rayonunun Zəyəm kəndində, 1936-1940-cı illərdə isə Gəncədə orta və ali məktəb müəllimi, metodist olmuşdur.

1940-cı ilin sentyabr ayından Azərbaycan Sovet Yazıçıları İttifaqında şeir bölməsində məsləhətçi, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, məsul katib işləmiş, sonra 1940-1942-ci illərdə ittifaqın məsul katibi seçilmişdir.

İkinci Dünya müharibəsi dövründə, 1942-1943-cü illərdə Şimali Qafqaz, Krım cəbhə qəzetləri ("Döyüş zərbəsi", "Hücum", "Vətən uğrunda irəli") redaksiyalarında çalışmışdır.

1944-1947-ci illərdə Yazıçılar İttifaqı İdarə Heyətinin məsul katibi, həm də idarə heyətinin üzvü seçilmişdir. Uzun müddət "Ədəbiyyat qəzeti", "Azərbaycan" və "Ulduz" jurnalları redaksiya heyətinin üzvü olmuşdur.

Bir müddət səhhətindəki problemlərdən işləməmiş, 1948-ci ilin oktyabr ayında Azərbaycan Sovet Yazıçıları İttifaqında İdarə heyətinin məsul katibi seçilmişdir.

1950-ci ildə Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1951-ci ildə "Ədəbiyyat qəzeti"ndə müvəqqəti redaktor işləmişdir.

1953-1955-ci illərdə "Azərnəşr"də baş redaktor, redaktor, 1956-1959-cu illərdə Azərbaycan Mədəniyyət Nazirliyində məsləhətçi, 1959-1960-cı illərdə "Azərbaycan" jurnalının redaktoru, 1962-1963-cü illərdə "Azərnəşr"in baş redaktoru, 1964-1967-ci illərdə "Gənclik" nəşriyyatında redaktor, 1973-1977-ci illərdə "Ulduz" jurnalında baş redaktor işləmişdir.

Rus, gürcü, Ukrayna, erməni, özbək, belorus, tacik və s. dillərdən Azərbaycan dilinə tərcümələr etmişdir.

Xidmətlərinə görə iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və medallarla təltif olunmuşdur.

Əhməd Cəmil 1977-ci il sentyabr ayının 27-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Əsərləri [Mətn] /Ə.Cəmil; tərt. ed. E.Cəmilzadə; red. hey.: Y.Qarayev, H.Arif, N.Həsənzadə; ön sözün müəl. B.Nəbiyev.- Bakı: Azərnəşr, 1988.-335 s.

Dünyanın gözəlliyi [Mətn] /Ə.Cəmil; tərt. ed. E.Cəmilzadə ; red. V.Rüstəmzadə.- Bakı: Yazıçı, 1983.-302 s.

Əhməd Cəmil [Mətn] //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.234.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.edebiyyat.info

65 illiyi

Ağarəhim Rəhimov 1948

Yazıçı



Ağarəhim Nüsrət oğlu Rəhimov 1948-ci il oktyabr ayının 26-da Ucar rayonunun Boyat kəndində anadan olmuşdur.

Burada kənd orta məktəbini bitirdikdən sonra 1967-1972-ci illərdə Həsənbəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə təyinatla göndərildiyi Ucar rayonu Boyat kənd orta məktəbində müəllim kimi başlamış, 1972-1976-cı illərdə dərs hissə müdiri işləmişdir.

1976-1992-ci illərdə Bakı şəhərində Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda elmi işçi, şöbə müdiri olmuşdur. 1985-ci ildə elmlər namizədi, 1993-cü ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi və professor elmi adını almışdır. 1992-ci ildən özünün yaratdığı Bakı Ali Pedaqoji Qızlar Seminariyasının rektorudur.

1998-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür.

Dövri mətbuatda elmi-pedaqoji məqalələri və nəsr əsərləri vaxtaşırı dərc olunur. 50-yə yaxın kitab və kitabçaları vardır: "Azərbaycan dili dərslərində şagirdlərin şifahi monoloji nitqinin inkişafı", "Azərbaycan dilində sintaksisin tədrisinin nəzəri və praktik əsasları", "İbtidai siniflərdə ana dilinin tədrisi metodikası" və digər elmi-pedaqoji əsərləri, "Yaddaşda yaşar xatirələr" (1997), "Gəmiqayada qoşa məzar" (1997), "Canavar balası" (1998), "Qoşa qanad" (1998), "Ovlaq keçidi" (1999), "Mənim ikili dünyam" (1999) kitablarında hekayə, povest, pyes və romanları toplanmışdır.

Yaradıcılığında etik fəlsəfə sahəsində tədqiqatlar xüsusi yer tutur. "Allahla ünsiyyət" (1997), "Ölüm və ölməzlik" (1998), "Zəka simfoniyası" (1999) və s. əsərləri bu qəbildəndir. "Əsgər anası", "Məhəbbət və cinayət" pyesləri tamaşaya qoyulmuşdur. "Canavar balası", "Qırmızı qar" kinossenariləri əsasında bədii filmlər çəkilmişdir.

Ədəbiyyat

Azərbaycan dilindən sintaksisin tədrisinin nəzəri və praktiki əsasları [Mətn]: İbtidai kurs / Ağarəhim Rəhimov; elmi red. N.Məmmədov; rəyçilər: M.Həmzəyev, S.Həsənov, Ə.Abbasov; Bakı Ali Pedaqoji Qızlar Seminariyası.- Bakı: Mütərcim, 1996.- 220 s.

Girdab [Mətn]: roman və pyeslər /A.Rəhimov.- Bakı: Azər, 2001.- 688 s.

Səfalət [Mətn]: roman /A.Rəhimov; red. T.Hüseynoğlu.- Bakı: Yazıçı, 1999.- 602 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.bgu.az

65 illiyi

Əli Əmirli 1948

Yazıçı



Əli Məmməd oğlu Əmirov (Əli Əmirli) 1948-ci il oktyabr ayının 30-da Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. Ağdamda 1 saylı orta məktəbi bitirdikdən sonra Bakıda Elektrik maşınqayırma zavodunda fəhlə işləmiş, 1967-1972-ci illərdə indiki BDU-nun filologiya fakültəsinin axşam şöbəsində təhsil almışdır.

1971-ci ildən ədəbi yaradıcılıqla məşğul olur. "Meydan", "Axirətdən qabaq gəzinti", "Ölü doğan şəhər" romanlarının, ümumiyyətlə, hekayə, povest və romanlardan ibarət 7 kitabın müəllifidir. 1981-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvüdür.

Əli Əmirli 1990-cı ildən başlayaraq dramaturji yaradıcılıqla məşğuldur. Məşhur "Bala - başa bəla", "Köhnə ev", "Ağqoyunlular və qaraqoyunlular", "İyirmi ildən sonra", "Varlı qadın" və s. pyeslərin müəllifidir. Onun iyirmidən çox pyesi ölkənin əksər teatrlarında, o cümlədən Akademik Milli Dram Teatrında, Musiqili Komediya, Gənc Tamaşaçılar, Gənclər Teatrlarında, habelə, Sumqayıt, Gəncə, Şəki, Lənkəran, Qazax, İrəvan, Mingəçevir, Qusar Dövlət Teatrlarında tamaşaya qoyulmuşdur. Ə.Əmirlinin "Onun iki qabırğası" komediyası Tbilisidə, "Varlı qadın" pyesi isə Tacikistanda V.Mayakovski adına Dövlət Rus Dram Teatrında (rus dilində) və Vohidov adına Tacikstan Dövlət Gənclər Teatrında tacik dilində tamaşaya hazırlanmışdır. Vohidov teatrının tacik dilində hazırladığı tamaşa Almaatada keçirilmiş Yaxın Şərq ölkələrinin II Beynəlxalq Teatr festivalında iki nominasiya üzrə mükafata və qızıl medala layiq görülmüşdür. Elə həmin festivalda digər teatrların diqqətini cəlb edən "Varlı qadın" 2009-cu ildə Qırğızıstanın paytaxtında A.Umuraliyev adına Bişkek şəhər Dram teatrında rus və qırğız dillərində tamaşaya qoyulmuşdur. Dramaturqun əsərləri rus, türk, tacik, qazax, qırğız və sair dillərə tərcümə olunmuşdur. Ə.Əmirlinin 1993-cü ildə yazdığı "Bala bəla sözündəndir?" komediyası əsasında çəkilmiş "Bala - başa bəla" televiziya tamaşası (1995-ci il) Azərbaycan televiziyası (AzTV) və ölkənin digər televiziya kanalları ilə dəfələrlə nümayiş etdirilmiş və böyük populyarlıq qazanmışdır. Yaradıcılıq uğurlarına görə Əli Əmirli 2000-ci ildə "Humay İlahəsi" ictimai mükafatına layiq görülmüşdür.

2006-cı ildə "15 pyes" adlı kitabı nəşr edilmişdir.

Onlarla hekayəsi, povest və romanları dövri mətbuatda, o cümlədən "Azərbaycan", "Ulduz", "Литературный Азербайджан" jurnallarında dərc edilmişdir. "İldırımötürən", "Axirətdən qabaq gəzinti", "Haram", "Meydan", "Sonalar gölü", "Bir il", "Ərizə", "Tapança", "Ölü doğan şəhər" kimi roman və povestlərin və iyirmidən yuxarı hekayənin müəllifidir.

Ə.Əmirli 1999-cu ildən pedaqoji fəaliyyətlə də məşğuldur. Hazırda o, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Ədəbi yaradıcılıq kafedrasının dosentidir.

Ə d ə b i y y a t

Axirətdən qabaq gəzinti [Mətn]: Roman və povest /Ə. Əmirli.-Bakı: Yazıçı, 1989.- 279 s.

Haram [Mətn]: Roman və povestlər /Ə. Mirli;Red. R. Muradova.-Bakı: Gənclik, 1992.-376 s.

Hasarın o üzü [Mətn]: Ə. Əmirli; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.-Bakı:[İdeal-Print], 2010.- 501 s.

15 pyes [Mətn] /Ə. Əmirli.-Bakı: [Öndər], 2006.-568 s.

Əli Əmirli: "Teatra tamaşaçı marağının az olmasından gileylənənlər məhz teatra getməyən, teatrdan xəbəri olmayan adamlardır" [Mətn] /Ə.Əmirli //Palitra.-2011.- 14 dekabr.- S. 7.

Əlvida, Nazif [Mətn] /Ə.Əmirli //Ədəbiyyat qəzeti.-2012.- 1 sentyabr.- S.6.

Hasarın o üzü İki hissəli dram [Mətn] /Ə.Əmirli // Azərbaycan : jurnal .-2008.- №8.- S.97-128.


www.anl.az

www.az.wikipedia.oz.

95 illiyi

Lətif Feyzullayev 1918-1987

Rəssam



Lətif Əbdülbağı oğlu Feyzullayev 1918-ci il oktyabr ayının 13-də anadan olmuşdur.

1939-cu il oktyabr ayının 13-də Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna daxil olan Lətif Feyzullayev, buranı bitirdikdən sonra təhsilini Moskvada - V.İ.Surikov adına Dövlət Rəssamlıq İnstitutunun rəngkarlıq fakültəsində davam etdirmişdir. Bu illərdə o, müəllimləri Moçalski, Pokarjevski və Qrabardan təsviri sənətin incəliklərini böyük həvəslə öyrənmişdir.

Hələ tələbə ikən gələcək rəssam "Qaçaq Nəbi" və "Qatır Məmməd" kimi tarixi mövzulu əsərləri ilə respublika sərgilərində iştirak etmişdir. Rəssam Böyük Vətən müharibəsi illərində hərbi vətənpərvərlik ruhunda bir sıra əsərlər çəkmiş, hərbi hissələrdə təbliğat-təşviqat xarakterli plakatların müəllifi kimi tanınmışdır. O, eyni zamanda Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda da dərs demişdir.

1944-cü ildə Lətif Feyzullayev yarımçıq qalmış təhsilini davam etdirmək məqsədilə Moskvaya qayıtmış, elə həmin il Moskvada təhsil alan Vəcihə Səmədova ilə ailə qurmuşdur.

1949-cu ildə institutu uğurla bitirən gənc rəssam Bakıya qayıtmışdır. Müharibədən sonrakı illərdə qurub-yaradan insanların - müharibə qəhrəmanlarının, kənd zəhmətkeşlərinin, fəhlələrin əməyi rəssamın əsərlərinin əsas mövzusunu təşkil etmişdir.

XX əsrin 50-ci illərindən əfsanəvi Neft Daşlarının istismarına başlanılması ilə Lətif Feyzullayevin yaradıcılığında Xəzər neftçilərinə həsr olunmuş yeni, romantik mövzulu silsilə əsərlər dövrü başlanmışdır. "Vaxta" (1951), "Küləkli gün" (1957), "Tufandan qabaq" (1959), "Fontan" (1962) bu silsiləyə aid olan əsərlərdəndir.

Abşeronun özünəməxsus, təkrarolunmaz təbiəti rəssamı klassik mənzərə janrından kənara çıxan, sərt kontrastları və parlaq rəng üslubu ilə seçilən bir sıra orijinal mənzərələr yaratmağa sövq etmişdir. "Abşeronda bahar", "Buruqlar", "Yay", "Abşeron qumları", "Qayalar", "Abşeron bağları" əsərləri buna bariz nümunədir.

İstedadlı rəssam bir çox maraqlı portretlərin müəllifi kimi də tanınır. Buna misal olaraq "Rəssam Vəcihə Səmədovanın portreti", "Neftçi Gülbala Əliyev", "Fatimə", "Qoca", "Abşeronun qonağı" və "Güclü"nu göstərmək olar.

XX əsrin 60-cı illərində Lətif Feyzullayevin Bolqarıstana yaradıcılıq ezamiyyəti çox məhsuldar keçmiş və rəssam bu ölkə haqqında maraqlı bir sərgi ilə sənətsevərlər qarşısında hesabat vermişdir.

Abşeron rəngkarlıq məktəbinin bənzərsiz nümayəndələrindən sayılan, pedaqoji fəaliyyəti dövründə böyük bir rəssam nəsli yetişdirən Lətif Feyzullayevin əsərləri bu gün də bir çox muzeyləri bəzəyir və sərgilərdə tamaşaçıların böyük marağına səbəb olur.

Görkəmli rəssam, Əməkdar incəsənət xadimi L.Feyzullayev 1987-ci ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Feyzullayev Lətif Əbdülbağı oğlu[Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1986.- C.9.- S.518.

İ n t e r n e t d ə

www.anl.az

az.wikipedia.org

85 illiyi

Rasim Əfəndiyev 1928-2010

Sənətşünas



Rasim Səməd oğlu Əfəndiyev 1928-ci il oktyabr ayının 30-da Qazax rayonunda anadan olmuşdur.

O, Bakı şəhərində orta məktəbi bitirdikdən sonra 1944-1950-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxumuş, 1950-1955-ci illərdə isə Repin adına Leninqrad Dövlət Rəssamlıq İnstitutunun incəsənət nəzəriyyəsi və tarixi fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1955-ci ildən Azərbaycan Dövlət İncəsənət Muzeyində Azərbaycan və Şərq incəsənəti şöbəsinin müdiri kimi başlayan Rasim Əfəndiyev 1965-ci ildən etibarən öz taleyini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlamışdır. 1965-1969-cu illərdə Memarlıq və İncəsənət İnstitutunda kiçik elmi işçi, 1969-1984-cü illərdə baş elmi işçi, 1984-1995-ci illərdə şöbə müdiri və direktor müavini olmuş, 1996-cı ildən ömrünün sonunadək həmin institutun direktoru vəzifəsində çalışmışdır.

O, 1961-ci ildə namizədlik, 1972-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilmişdir.

Rasim Əfəndiyev Azərbaycan sənətşünaslıq elminə layiqli töhfələr verən tədqiqatçı kimi tanınmışdır. O, çoxsaylı araşdırmalarında xalqımızın əsrlər boyu yaratdığı nadir sənət nümunələrinin hərtərəfli təhlilini aparmış, həmin əsərlərin bədii sənətkarlıq xüsusiyyətlərini üzə çıxararaq milli mədəni inkişafın tarixi baxımından yeri və əhəmiyyətinin müəyyənləşdirilməsində böyük əmək sərf etmişdir. Alimin Azərbaycanın maddi mədəniyyəti və xalq sənətinin müxtəlif sahələrinə həsr etdiyi 30-dan artıq kitabı və 200-dən çox məqaləsi ölkəmizdə və onun hüdudlarından kənarda elmi ictimaiyyət tərəfindən dərin maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir. Dünya muzeylərində və kolleksiyalarında qorunub saxlanan sənət abidələrimizin aşkara çıxarılmasında Rasim Əfəndiyevin mühüm xidmətləri olmuşdur.

Rasim Əfəndiyev sənətşünasların beynəlxalq miqyaslı mötəbər konfrans və simpoziumlarındakı məzmunlu çıxışları ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir. O, elmi kadrların hazırlanması işinə də xüsusi diqqət yetirmişdir.

Rasim Əfəndiyevin yarım əsrdən artıq bir dövrü əhatə edən elmi fəaliyyəti lazımınca qiymətləndirilmişdir. O, 2004-cü ildə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Sənətşünaslıq doktoru, professor Rasim Səməd oğlu Əfəndiyev 2010-cu il fevral ayının 13-də, ömrünün 82-ci ilində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan bəzək sənəti = Azerbaijan Dekoration [Mətn] /R.Əfəndiyev, T.Əfəndi.- Bakı: [s.n.], 2002. - 80 s.

Azərbaycan incəsənəti [Mətn] /R.Əfəndiyev; bur. məsul Ə.Güləliyev; tərt. rəs. N.Əliyeva.- Bakı: Şərq-Qərb, 2007.- 160 s.

Rasim Səməd oğlu Əfəndiyev [Mətn] //Azərbaycan.- 2010.- 14 fevral.- S.4.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.csl-az.com

www.elm.az

www.elibrary.az

www.science.gov.az

80 illiyi

Gülarə Əliyeva 1933-1991

Pianoçu



Ə d ə b i y y a t

Elçin. Daima təzə-tər melodiyalar...[Mətn]: (Gülarə Əliyevanı xatırlayarkən) /Elçin //525-ci qəzet.- 2010.- 24 yanvar.- S.4.

Nəbioğlu, A.Dan ulduzu, susma [Mətn] /A.Nəbioğlu // Olaylar.- 2009.- 7oktyabr.- S.10.

Nizamiqızı, H. Sönməyən ulduzun nağılı və ya "Dan ulduzu"ndan düşən işıq [Mətn] /H.Nizamiqızı //Mədəniyyət.- 2012.- 11 yanvar.- S.5.

Yuxularımın qonağı ol, ay ana!!! Gülarə Əliyeva [Mətn] /Əfşani N. //Məhəbbət harayı.- Bakı, 2002.-S. 322-323.

Zeynallı, S. "Gülarə Əliyeva sağ olsaydı, mən bu günə qalmazdım" [Mətn] /S.Zeynallı //Mövqe .-2011.- 15 aprel.- S.13.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az

www.mugam.musigi-dunya

Gülarə Əziz qızı Əliyeva 1933-cü il oktyabr ayının 7-də Bakıda anadan olmuşdur. 1955-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrində, eləcə də Ə.Dadaşov adına Xalq Çalğı Alətləri ansamblında çalışmışdır. 1966-cı ildən özünün təşkil etdiyi "Dan ulduzu" instrumental ansamblının rəhbəri, həm də fortepiano partiyasının ifaçısı olmuşdur.

1966-cı ildə sənətşünaslıq namizədi elmi adını, 1977-ci ildə isə "Əməkdar incəsənət xadimi" fəxri adını almışdır.

Eyniadlı muğamlar əsasında "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifi olmuş, ansambl üçün bir sıra xalq mahnısını aranje etmişdir. Gülarə xanımın sənətə münasibətində sidq-ürəkdən gələn məhəbbət və həssaslıq var idi və bu məhəbbət onun istedadının tərkib hissəsi idi, buna görə də onun sənəti, onun yaratdığı və bədii rəhbəri olduğu "Dan ulduzu" ansamblının ifası Azərbaycan milli estradasının, ümumiyyətlə, ifaçılıq sənətimizin çox effektli bədii-estetik uğurlarından biri olmuşdur.

Ansambl ilə birgə Əlcəzair, Suriya, Livan, Anqola, İtaliya, Bolqarıstan, Efiopiya, İsveçrə, Hindistan, Finlandiya və s. xarici ölkələrdə çıxış etmişdir. Gülarə xanımın virtuoz ifası, "Dan ulduzu" instrumental ansamblını böyük ustalıqla idarə etməsi, ifaçıların məharəti və səhnə mədəniyyəti, səsləndirilən əsərlərin zəngin bədii-estetik səviyyəsi xarici ölkələrdə tamaşaçıları heyrətə salmış və Azərbaycan haqqında bu ölkələrdə mövcud olan informasiya blokadasını dağıtmaqda, ölkəmiz haqqında, o dövrdə baş verən hadisələr barədə obyektiv təsəvvürün yaranmasında belə qastrol səfərlərinin, möhtəşəm konsertlərin, konkret olaraq Gülarə xanımın ciddi xidmətləri olmuşdur.


Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmiş, 1966-1988-ci illərdə Musiqi nəzəriyyəsi kafedrasının müdiri olmuşdur. "Dan ulduzu" ansamblına onun adı verilmişdir.

Görkəmli pianoçu Gülarə Əliyeva 27 iyul 1991-ci ildə Bakıda faciəli şəkildə dünyasını dəyişmişdir.

60 illiyi

Səxavət Məmmədov 1953-1991

Xanəndə



Səxavət Əmirxan oğlu Məmmədov 1953-cü il oktyabr ayının 23-də Ağdamın Abdalgülablı kəndində dünyaya göz açmışdır. Uşaqlıqdan, muğamlara olan hədsiz sevgisi, onu xanəndəliyə gətirib çıxarmış, məlahətlə oxuduğu el havaları və təsniflər onu əvvəlcə doğma kəndinin, sonra isə bütün Qarabağın sevimlisinə çevirmişdi.

Səxavət Məmmədovun professional sənət yolu 1970-ci illərdən başlamışdır. O, əvvəlcə Asəf Zeynallı adına Orta ixtisas musiqi məktəbinin muğam sinfində, daha sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışdır. Muğam sənətinin incəliklərini görkəmli muğam ustası, xanəndə Hacıbaba Hüseynovdan öyrənmişdi.

O, qədim xalq mahnılarına, aşıq havalarına diqqət yetirərək, onları öz repertuarına daxil etmiş, unudulmuş melodiyalara öz ifası ilə yeni həyat vermişdi. Onun xarici ölkələrdə qastrol səfərləri də çox olmuş, Fransada, Almaniyada, İsraildə, Avstriyada, Nikaraquada, Hindistanda konsertləri böyük müvəffəqiyyətlə keçmişdi.

Xanəndənin muğam və təsniflərindən ibarət diskləri geniş yayılmışdır. Görkəmli Azərbaycan xanəndəsi Səxavət Məmmədovun səs xəzinəsinin ilk nəşri olan "Azad bir quşdum" diski 2003-cü ildə Kiyevdə hazırlanaraq muğamsevərlərə təmənnasız paylanmışdır.

Yüksək keyfiyyət və tərtibatı ilə seçilən "Səxavətli muğamlar" diski Ukraynanın paytaxtı Kiyevdə yerləşən nüfuzlu studiyaların birində hazırlanmışdır.

2008-ci ildə xanəndənin 55 illiyi münasibətilə "Səxavətli xalq mahnıları və təsniflər", "Səxavətli görüntülər", "Səxavətli segahlar", "Səxavətli yazılar" disklər də hazırlanmışdır.

Öz ifaçılıq üslubunda Qarabağ xanəndələrinin ənənələrini yaşadan Səxavət Məmmədov həm də özünəməxsus oxu tərzi ilə fərqlənmişdir. O, səsinin incə çalarları ilə oxuduğu muğamlarda yeni cizgilər açmağa nail olmuşdur. Səxavət Məmmədovun yaradıcılığında xüsusilə, "Rast", "Şahnaz", "Mirzə-Hüseyn Segahı" muğam dəsgahları, "Heyratı", "Səmayi-Şəms" zərbi muğamları bənzərsiz keyfiyyətlərə malikdir.

Xanəndə Səxavət Məmmədov 1991-ci il sentyabr ayının 30-da avtomobil qəzasında faciəli şəkildə dünyasını dəyişmişdir.

Ədəbiyyat

Çəmənli, M. Səsin ruhu [Mətn]: (xatirələr) /Mustafa Çəmənli; red. H.Sadıqova.- Bakı: Gənclik, 2003.- 288 s.

Əzimli, F. Pünhan qəlblərin xaqanı [Mətn] /F.Əzimli; red. Ş.Səlimbəyli.-Bakı: Avropa, 2003.- 240 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

130 illiyi Mirzağa Əliyev 1883-1954

Aktyor



Mirzağa Əli oğlu Əliyev 1883-cü il oktyabr ayının 25-də Bakının Hövsan qəsəbəsində kəndli ailəsində doğulmuşdur. İlk təhsilini mollaxanada almış, Bakıda rus-müsəlman məktəbini bitirmişdir. 1901-ci ildə səhnə fəaliyyətinə həvəskar kimi Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" əsərində Şahmar bəy rolunun ifası ilə başlamışdır. Azərbaycan teatr xadimlərindən Nəcəf bəy Vəzirov və Cahangir Zeynalov onun aktyor kimi yetişməsinə təsir göstərmişdir.

Mirzağa Əliyev 1906-1907-ci illərdə "Həmiyyət" teatr truppasının rəhbəri və aktyoru olmuşdur. Bu truppa, əsasən, fəhlə rayonlarında tamaşalar vermişdir.

1907-1912-ci illərdə "Nicat" cəmiyyətinin teatr truppasında çıxış etmişdir. 1912-ci ildə çar rejimini ifşa edən çıxışlarına və ictimai fəaliyyətinə görə Həştərxana sürgün olunmuşdur.

1912-1916-cı illərdə Volqaboyu şəhərlərində, Tbilisidə, İrəvanda, İran və Türkiyənin bir sıra şəhərlərində tamaşalar vermişdi. Üzeyir Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun", "Ər və arvad" Z.Hacıbəylinin "Əlli yaşlı cavan", "Evliykən subay" komediyaları teatrın daimi repertuarında olmuşdur.

1916-cı ildə Bakıda tamaşaya qoyulmuş "Ölülər" (Cəlil Məmmədquluzadə) komediyasındakı İsgəndər rolu onun yaratdığı klassik obrazlar silsiləsinə daxildir.

M.Əliyev Bakı Azad Tənqid Təbliğ Teatrının təşkilatçısı olmuş, burada aktual mövzulu kupletlərdə çıxış etmişdir. 1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Dram Teatrında çalışmış, Azərbaycan səhnə realizmi ənənələrini davam etdirmişdir. Mirzağa Əliyev fitri komediya istedadına, milli koloritə, ifadəli yumor boyaları və zəngin səhnə nüanslarına malik aktyor olmuşdur.

O, kino aktyoru kimi də məşhur olmuş, "Arşın mal alan"da Süleyman bəy, "Bismillah"da Molla Mirzə Əbdürrəhim, "Müxtəlif sahillərdə" filmində Amerikan Fəhləsi, "Hacı Qara"da Hacı Qara, "Məhəbbət oyunu"nda VVAQ müdiri və başqa filmlərdə müxtəlif rollarda maraqlı obrazlar yaratmışdır.

1943 və 1948-ci illərdə SSRİ Dövlət Mükafatı laureatı olmuş, 1949-cu ildə "SSRİ Xalq artisti" adı almış, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Mirzağa Əliyev 1954-cü il oktyabr ayının 25-də Bakıda vəfat etmişdir. Anadan olduğu Hövsan qəsəbəsindəki mədəniyyət evi, Bakının Yasamal rayonundakı küçələrdən biri görkəmli aktyorun adını daşıyır.

Ədəbiyyat

Allahverdiyev, M. Mirzağa Əliyev [Mətn]: [monoqrafiya] /M. Allahverdiyev.-Bakı: İşıq, 1988.- 110 s.

Azərbaycan teatrının mogikanı - Mirzağa Əliyev. Səhnədəki sözlərinə görə həbs... [Mətn] //Azadlıq.- 2012.- 7 fevral.- S.14.

Əliyev Mirzağa Əli oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1980.- C.4.- S.175.

Nəcəfov, F. "Teatr korifeyləri" silsiləsindən: Böyük aktyor, unudulmaz sima və həmişə xatırlanan səs [Mətn] /F.Nəcəfov //Mədəniyyət.-2008.- 5 aprel.- S.4.

Nəcəfov, F. Təbəssüm bəxş edən ömür [Mətn]: (Mirzağa Əliyevin xatirəsinə) /F.Nəcəfov //Müasir mədəniyyətşünaslıq: elmi, metodiki, publisistik jurnal.- 2010.- №3.- S.122-125.

Rəhimli, İ. Mirzağa Əliyev [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi: dərslik.- Bakı, 2008.- S.143.

Təranə. Dərin səmada parlayan ulduz [Mətn] /Təranə //Kaspi.- 2010.- 26 oktyabr.- S.15.

www.adam.az

Milli Qəhrəmanlar

50 illiyi

Nofəl Quliyev 1963-1991

Milli Qəhrəman



Nofəl Zahid oğlu Quliyev 1963-cü il oktyabr ayının 4-də indiki Şirvan şəhərində anadan olmuşdur.

1981-ci ildə orta məktəbi bitirmiş və 1982-1983-cü illərdə ordu sıralarında hərbi xidmət keçmişdir. Xidmətdən sonra 1984-cü ildən 1990-cı ilə kimi Tümen şəhərində işləmişdir.

1990-cı ilin dekabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı milis dəstəsinə daxil olmuşdu.

Nofəl Quliyev az bir vaxtda Füzulidə, Goranboyda, Daglıq Qarabağda erməni faşistləri ilə mübarizədə fərqlənmişdir.

1991-ci il iyul ayının 15-də ermənilər güclü qüvvə və texnika ilə Todan kəndinə hücuma keçmişlər. Dinc sakinləri döyüş zonasından çıxarmaq üçün Nofəl Quliyev düşmənlə ölümdirim mübarizəsinə girmişdi. Neçə-neçə adamı ölümün pəncəsindən xilas etmiş və bu döyüşdə qəhrəmancasına həlak olmuşdu. Həyatını Qarabağ torpaqlarının toxunulmazlığı və Azərbaycanın müstəqilliyi uğrunda qurban vermiş, ölümü ilə şəhidlik zirvəsinə ucalmışdı.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Nofəl Zahid oğlu Quliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Vaxtilə oxuduğu 9 saylı orta məktəbə onun adı verilmiş və məktəbin həyətində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Nofəl Zahid oğlu– XTMD milis starşinası– Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Əsgərov, V. Quliyev Nofəl Zahid oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.125.

Quliyev Nofəl Zahid oğlu (1963-1991)[Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.127-128.

Seyidzadə, M. Quliyev Nofəl Zahid oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.132.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.shirvaninfo.webs.com

45 illiyi

Cəmil Niftəliyev 1968-1992

Milli Qəhrəman



Cəmil Səmədxan oğlu Niftəliyev 1968-ci il oktyabr ayının 5-də Yardımlı rayonunda anadan olmuşdur. 1975-ci ildə ailəsi ilə birgə Bakının Lökbatan qəsəbəsinə köçmüş, burada 233 saylı məktəbdə təhsil almışdır.

1986-cı il oktyabr ayının 11-də hərbi xidmətə çağırılmış, Özbəkistanda snayperlik kursunu bitirdikdən sonra Əfqanıstan müharibəsinə göndərilmişdir. 1989-cu ildə ordudan tərxis edilmiş Cəmil, Vətənə dönərək Səbail rayonunda Yanğından Mühafizə İdarəsinə daxil olmuşdur.

Vətənin dar günlərində Cəmil könüllü olaraq cəbhəyə göndərilməsini xahiş etmiş və 10 mart 1992-ci il tarixindən onun döyüş yolu başlanmışdı. O, peşəkar atıcı olduğu üçün erməni quldurlarını ağır itkilərə məruz qoymuşdu. Ağdamda rəşadətlə vuruşan C.Niftəliyev tezliklə cəbhədə hörmət qazanmışdı. 1992-ci il mart ayının 29-da Ağdamın Şelli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Niftəliyev Cəmil Səmədxan oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Qaradağ rayonundakı 233 saylı məktəb və Yanğından Mühafizə İdarəsinin yanğınsöndürən gəmisi qəhrəmanımızın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Niftəliyev Cəmil Səmədxan oğlu-daxili xidmət serjantı-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Niftəliyev Cəmil Səmədxan oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.173.

Niftəliyev Cəmil Səmədxan oğlu (1968-1992) [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.168-169.

Seyidzadə, M. Niftəliyev Cəmil Səmədxan oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.178.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.muallim.edu.az

www.milliqahraman.az



55 illiyi

Yunis Əliyev 1958-1992

Milli Qəhrəman



Yunis Əsgər oğlu Əliyev 1958-ci il oktyabr ayının 9-da Goranboy rayonunun Qızılhacılı kəndində anadan olmuşdur.

1973-cü ildə həmin kənddə səkkizinci sinfi bitirmiş, sonra təhsilini Dəliməmmədli şəhərindəki 102 nömrəli texniki-peşə məktəbində davam etdirmişdi.

Yunis 1976-cı ildə ordu sıralarına çağırılmış və hərbi xidmətini Tacikistanda başa çatdırmışdı.

1992-ci ildə Goranboy rayonunda yaradılmış ikinci batalyona üzv yazılmış, erməni quldurlarına qarşı ilk döyüşü Ağdərə bölgəsində olmuşdu.

O, 1992-ci il may ayının 4-də Goranboy rayonunun Tap-Qaraqoyunlu kəndini mühafizə edən Talış kəndində yerləşən ermənilərin mövqelərini susdurmaq üçün "Yaltaxıl" adlı əməliyyat planı hazırlamışdı. Həmin əməliyyat uğurla başa çatmışdı. Bir gün sonra ermənilərin qəfil hücumu nəticəsində döyüşçülərimiz əvvəlki mövqelərindən çəkilməli olmuşdular. Elə həmin döyüşdə Yunis erməni gülləsinə tuş gələrək qəhrəmancasına həlak olmuşdu. Onun cəsədi 43 gündən sonra Talış kəndi azad edildiyi zaman tapılmışdı.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Əliyev Yunis Əsgər oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Yunis Əliyev 1992-ci il iyun ayının 16-da doğma Qızılhacılı kəndində dəfn olunmuşdur. Qızılhacılı kənd 3 nömrəli uşaq bağçası onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev Yunis Əsgər oğlu-sıravi-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Əliyev Yunis Əsgər oğlu (1958-1992)[Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.67.

Əsgərov, V. Əliyev Yunis Əsgər oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.62.

Seyidzadə, M. Əliyev Yunis Əsgər oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.62.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqehremanlar.az

Milli Qəhrəmanlar

50 illiyi

Səfəralı Məmmədov
1963-1992

Milli Qəhrəman



Səfəralı Qurban oğlu Məmmədov 1963-cü il oktyabr ayının 16-da Masallı rayonunda anadan olmuşdur.

1981-ci ildə burada məktəbi bitirmiş və hərbi xidmətə çağırılmışdır. 1983-cü ildə ordudan tərxis edilmiş, Krasnodar şəhərinə gələrək milis sisteminə daxil olmuşdur.

1990-cı ildə Bakı Xüsusi Orta Milis Məktəbinə göndərilmiş və buranı leytenant rütbəsi ilə bitirən Səfəralı Qarabağa getmək istədiyini bildirmişdir. Ona Bakıda Hava limanında iş təklif edilsə də, o, inadından dönməmişdir.

Səfəralı Məmmədov Ağdam rayonunda polis komandiri kimi döyüşlərə atılmışdır. Sarışın olması, rus dilini səlis bilməsi ona ermənilər arasına təkbaşına getməsinə imkan vermiş, Fərruxda, Ağbulaq fermasında, Qarakənd kəndində onlarla ermənini girov götürmüşdü.

1992-ci il 16 fevral tarixində Səfəralının son döyüşü olmuşdu. Azğınlaşmış erməni dəstələri Xocavənd rayonunun Qaradağlı kəndinə hücum etmiş, insanları vəhşicə qətlə yetirmiş, meyitləri silos quyularına atmışdılar. Səfəralının başçılıq etdiyi dəstə erməni yaraqlılarını məhv edərək irəliləmiş, onun idarə etdiyi maşın qumbaraatanla vurulmuş, qəlpələrdən bir neçəsi kəmərindəki əl qumbarasına dəydiyindən o, faciəli surətdə həlak olmuşdu.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Məmmədov Səfəralı Qurban oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Masallı rayonunun Sərçuvar kəndində dəfn edilmişdir. Masallı şəhərindəki küçələrdən biri və təhsil aldığı orta məktəb qəhrəmanımızın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məmmədov Səfəralı Qurban oğlu-Ağdam RDİŞ vzvod komandiri, milis leytenantı-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.- №13.- S. 24.- (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Səfəralı Qurban oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S. 148.

Məmmədov Səfəralı Qurban oğlu (1963-1992)[Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.146-147.

Seyidzadə, M. Məmmədov Səfəralı Qurban oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.150.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org


www.milliqahraman.az

Milli Qəhrəmanlar

60 illiyi

Koroğlu Rəhimov 1953-1992

Milli Qəhrəman



Koroğlu İsmayıl oğlu Rəhimov 1953-cü il oktyabr ayının 31-də Oğuz rayonunda anadan olmuşdur.

1960-cı ildə Yaqublu kənd orta məktəbinə getmişdir. 1961-ci ildə ailəsi ilə birlikdə ata-baba yurdları olan Qərbi Azərbaycanın Zəngibasar rayonuna köçmüşdür. Burada təhsilini başa vurduqdan sonra isə 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. 1972-ci ildə hərbi xidmətə çağırılmış, 1974-cü ildə Almaniyada hərbi xidmətini başa vurmuş və yarımçıq qalmış təhsilini tamamlamışdır.

Qəlbi Vətən eşqi ilə döyünən Koroğlu, Xocalı faciəsindən sonra könüllü olaraq 1992-ci il 17 mart tarixində Milli Ordu sıralarına yazılmışdı. 1992-ci il 30 aprel tarixində "N" saylı bölüyə komandir təyin edilmiş Koroğlunun şərəfli döyüş yolu başlanmışdı. 13 iyun 1992-ci il tarixində Buzluq, Çartaz, Erkəç kəndlərinin azad edilməsində bu bölüyün adı dilləri gəzmişdi. Onlar 15 erməni yaraqlısını məhv edərək xeyli silah-sursat ələ keçirmişdilər. Koroğlu buradakı döyüşdə dörd "faşisti" şəxsən özü məhv etmişdi. 14 iyunda cəsur döyüşçülər Mənəşli kəndini, 15 iyunda Başkəndi erməni işğalçılarından azad etmişdilər. Bu əməliyyatlar nəticəsində Koroğlunun komandirlik etdiyi alay erməni qəsbkarlarının onlarla canlı qüvvəsini məhv etmiş, xeyli silah-sursat ələ keçirmişdilər. Bölüyün zəfər yürüşü davam etmiş, Madagiz və Gülüstan kəndləri də bir-birinin ardınca qəsbkarlardan təmizlənmişdi. Koroğlu Goranboy və Ağdərədə gedən digər qanlı döyüşlərdə də iştirak etmişdi. O, 1992-ci il iyul ayının 3-də Ağdərədə gedən qanlı döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli, 203 saylı Fərmanına əsasən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə leytenant Rəhimov Koroğlu İsmayıl oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Bakının küçələrindən birinə Koroğlu Rəhimovun adı verilmişdir.

2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin "Salnamə" kinostudiyasında istehsal olunan "Qarabağ qəhrəmanları" silsiləsindən 4-cü sənədli film Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimova həsr olunmuşdur. 10 dəqiqəlik sənədli ekran əsəri Koroğlu Rəhimovun keçdiyi şücaətli döyüş yolunu əks etdirən xroniki kadrlar üzərində qurulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Rəhimov Koroğlu İsmayıl oğlu-leytenant-Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedəndöyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il [Mətn] //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Seyidzadə, M. Rəhimov Koroğlu İsmayıl oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.189.

www.anl.az

100 illiyi

Əli İbrahimov 1913-1990

Dövlət xadimi



Əli İsmayıl oğlu İbrahimov 1913-cü il oktyabr ayının 1-də Rusiya imperiyasının Çita vilayətinin Ust-Kara kəndində, kəndli ailəsində anadan olmuşdur.

1929-cu ildə İbrahimovlar ailəsi Bakıya köçmüş, Ə.İbrahimov Bakı mexaniki texnikumuna daxil olmuşdur. 1932-ci ildə texnikumu texnik-mexanik peşəsi ilə bitirən Ə.İbrahimov leytenant Şmidt (indiki Səttarxan) adına zavodda əmək fəaliyyətinə başlamışdır.

1932-ci ildə Azərbaycan Sənaye İnstitutunun mexanika fakültəsinə daxil olmuşdur. 1937-ci ildə institutu mühəndis-mexanik kimi bitirmişdir.

1938-1940-cı illərdə Ə.İbrahimov sovet ordusunun Sakit okean donanmasının tərkibində Olqa limanında qulluq etmişdir. 1941-1943-cü illərdə Ə.İbrahimov 1 May adına Bakı maşınqayırma zavodunun baş mühəndisi vəzifəsində, 1943-1945-ci illərdə o, Kirov adına Bakı qazıma dəzgahları zavodunun direktoru olmuşdur.

Ə.İbrahimov 1945-1946-cı illərdə Bakı Partiya Komitəsi katibinin maşınqayırma sənayesi üzrə müavini olmuş, 1946-1948-ci illərdə "Azneftmaş" trestinə rəhbərlik etmişdir.

1948-1950-ci illərdə Ə.İbrahimov Azərbaycan KP MK katibinin müavini, sənaye və nəqliyyat şöbəsinin müdiri olmuşdur. O, Azərbaycan MK-da işlədiyi zaman müəssisələrdə siyasi-kütləvi işin yüksəldilməsi, istehsalat planlarının yerinə yetirilməsi sahəsində xeyli iş görmüş, yüngül, toxuculuq, yeyinti nazirliklərinin sənayenin və nəqliyyatın başqa sahələrinin müəssisələrinin əksəriyyəti plan tapşırıqlarını vaxtından əvvəl ödəmişdi. Respublikanın dəmiryol, su və avtomobil nəqliyyatında vəziyyətin yaxşılaşdırılması və inkişaf etdirilməsi, işgüzar kadrlarla təmin olunmasında var qüvvəsini sərf etmişdir.

1950-1953-cü illərdə Azərbaycan Nazirlər Sovetinin Dövlət Plan Komissiyasının sədri, 1953-1954-cü illərdə Respublika Dövlət Plan Komitəsi sədrinin birinci müavini, 1954-1963-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədri, 1963-1965-ci illərdə Zaqafqaziya iqtisadi rayonunun Plan Komissiyasının sədri, 1965-1970-ci illərdə isə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevin tövsiyəsi ilə Ə.İbrahimov 1970-1981-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinə sədrlik etmiş və SSRİ Nazirlər Sovetinin üzvü olmuşdur. Artıq təcrübəli və bacarıqlı təşkilatçı kimi özünü göstərmiş Ə.İbrahimov respublikanın bu məsul vəzifəsində Azərbaycan sənayesinin, iqtisadiyyatının, mədəniyyətinin hərtərəfli inkişaf etməsi işində var qüvvəsi ilə çalışmış, böyük əmək sərf etmişdir.

Ə.İbrahimov 1981-ci ilin yanvarında öz xahişi ilə İttifaq əhəmiyyətli pensiyaya getdiyi üçün Azərbaycan SSR Nazirlər Soveti sədri vəzifəsindən azad edilmişdir.

Ə.İbrahimovun əmək fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 3 dəfə "Lenin ordeni", 3 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və müxtəlif medallarla təltif edilmişdir. Ə.İbrahimov 1990-cı il fevralın 15-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

İbrahimov Əli İsmayıloviç [Mətn] /Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1980.- C.4.- S.359.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

325 illiyi

Nadir şah Əfşar 1688-1747

Sərkərdə və hökmdar



Nadir şah Əfşar 1688-ci il oktyabr ayının 22-də Xorasanın Dərəgəz vilayətinin Dəstgird kəndində dünyaya göz açmışdır.

İran şahı Nadir şah türk tayfalarından əfşarların Qırxlı boyundan idi. Başına bir dəstə toplayaraq Xorasan əyalətlərinin bir neçəsini tutduqdan sonra özünü Nadir bəy adlandırmağa başlamışdır.

I Təhmasib Nadir bəyi Xorasanda öz canişini təyin etmiş, bundan sonra Nadir özünə Təhmasibqulu xan adını götürmüşdü.

Məlik Mahmud idarəçiliyinin mərkəzi Məşhəd alınan zaman, Şah Təhmasibin əmri ilə Fətəli xan öldürülmüş, bundan sonra Nadir şahın silahlı qüvvələrinin baş komandanı təyin olunmuşdu. Bir qədər keçmiş Nadir Məlik Mahmudun qoşunlarını əzərək, onun özünü qətlə yetirmiş və saraydakı mövqeyi güclü şəkildə möhkəmlənmişdir.

1729-cu ilin 30 sentyabrında Mimandost çayı sahilindəki döyüşdə (Mimandost döyüşü) Əşrəfin qoşunları darmadağın edilmiş, bu parlaq qələbəsi ilə də Nadir ölkənin yadellilərdən təmizlənməsi uğrunda mübarizəsinin başlanğıcını qoymuşdu.

Nadirlə Əşrəf arasında həlledici döyüş 1729-cu ilin 13 noyabrında İsfahan yaxınlığında (İsfahan döyüşü) baş vermişdi. Bu dəfə Nadir birləşmiş əfqan-türk qoşunları üzərində parlaq qələbə qazanmışdı. Nadir təntənəli şəkildə şəhərə girmiş və öz əlləri ilə Səfəvi tacını Şah Təhmasibin başına qoymuşdu.

Ölkənin Şərqi tamamilə təmizlənmiş, qarşıda yalnız Azərbaycanı və onun yaxınlığındakı torpaqları Osmanlı türklərindən azad etmək qalmışdı. 1731-ci ildəki hərbi əməliyyatlar nəticəsində Nadir şah osmanlıları əzərək, Azərbaycanı, Həmədanı və Kirmanşahı azad etmişdi. Osmanlılar yalnız Arazdan şimalda qalmışlar.

Təhmasib özünün zəifləmiş nüfuzunu bərpa etməkdən ötrü həmin əyalətləri şəxsən azad etmək qərarına gəlmişdi. Ancaq məğlub olaraq, 1731-ci ildə ölkə üçün biabırçı bir sülh müqaviləsi (Kirmanşah müqaviləsi) bağlamışdı. Həmin müqaviləyə əsasən, Araz çayının şimalındakı bütün ərazilər, eləcə də Kirmanşahın bir sıra əyalətləri osmanlılara verilmişdir.

Nadir şah müqaviləni tanımaqdan imtina etmiş və qədim türk ənənələrinə görə, xan və əyanların qurultayını çağırmışdı. Qurultay şah Təhmasibi taxtından salaraq, onun III Şah Abbas adlandırılan səkkiz aylıq oğlunu şah elan etmişdi. Faktiki olaraq, bütün hakimiyyət Nadirin əlində cəmləşmişdi.

Nadir şahın tabeçiliyindən ilk çıxan belə müstəqil xanlıq Şəki xanlığı olmuşdu.

1737-ci ildə Nadir şah üsyana qalxmış əfqanlara qarşı çıxmış və həm Heratı, həm də Qəndəharı tutmuşdu. Hindistanı tutduqdan sonra 1740-cı ildə Buxara və Xivə xanlıqlarını öz dövlətinin tərkibinə qata bilmişdi.

1741-ci ildə Mazandaran meşələrindən keçərkən Nadirə olan sui-qəsd, Dağıstandakı uğursuzluqlar və 1743-1747-ci illərin üsyanları Nadir şahı qəzəbləndirmiş və o, kütləvi cəza tədbirlərinə başlamışdı. Bunun da nəticəsində sarayda sui-qəsd havası yetişmiş və 1747-ci ilin iyununda, Nadir şah gecə ikən öz çadırında qətlə yetirilmişdi.

Ədəbiyyat

Nadir şah Əfşarın məktublaşması [Mətn] /AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu; red. M.Nağısoylu; nəşrə hazırl., ön söz. müəl. və şərh. müəl. R.Şeyxzamanlı.-Bakı: Nurlan, 2007.- 62 s.

Oğuz, Y. Nadir şah [Mətn] /Y.Oğuz; [red. F.Abbasquliyeva; C.Əlibəyzadə].- Bakı: Apostrof, 2008.- 559 s.

Tahirzadə, Ə. Nadir şah Əfşar: Tərcümeyi-hal oçerki [Mətn] /Ə.Tahirzadə; elmi red.: İ.Musayev.-Bakı: Kür, 2002.- 40 s.

Разгром Надир-шаха: определение 27 сентября как Дня единения народов Дагестана [Текст]: материалы круглого стола : [тезисы выступлений круглого стола] Союз журналистов Дагестана ; ред. кол. А. А. Камалов [и др.].- Махачкала :[ООО "Радуга-1"] ;2010.- 48 с. ;20 см.

İnternetdə

www.az.wikipedia.org

140 illiyi

Xəlil bəy Xasməmmədov 1873-1947

Dövlət xadimi



Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov 1873-cü il oktyabr ayının 25-də Gəncədə doğulmuşdur. Orta təhsilini Gəncədə almış, 1895-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir.

Azərbaycan Demokratik Partiyası "Müsavat"ın əsas ideoloqlarından biri olmuş, 1895-1919-cu illərdə Yekaterinodar və Yelizavetpol qəzalarının məhkəmələrində işləmiş, II və III çağırış Dövlət Dumasına deputat seçilmişdir.

1913-1918-ci illərdə Yelizavetpol şəhər bələdiyyə rəisi, Yelizavetpol qəza icraiyyə komitəsinin sədri olmuşdur.

1917-ci ildə Rusiyada fevral inqilabından sonra Zaqafqaziya Komissarlığı yaradıldıqda nəzarət komissarı, habelə, Zaqafqaziya Seyminin üzvü olmuşdur. 1918-ci ilin mayında Azərbaycan Milli Şurasında İcraiyyə komitəsinin tərkibində olmuşdur. O, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bütün beş kabinetinin tərkibində ədliyyə, yollar, daxili işlər, təkrarən ədliyyə naziri, habelə Azərbaycan parlamentinin üzvü olmuşdur.

1920-ci ilin aprelində Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov Azərbaycanın Türkiyədəki səfiri təyin olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda kommunist rejimi qurulmasından sonra vətənə qayıtmamış, siyasi-publisistik fəaliyyət göstərmişdir.

Xasməmmədov Azərbaycan Milli Mərkəzi (1924, İstanbul) Mərkəzi komitəsinin və "Müsavat" partiyası xarici bürosunun (İstanbulda fəaliyyət göstərirdi) 3 nəfərdən ibarət rəyasət heyətinin üzvü idi. 1930-cu illərin əvvəllərində Milli Mərkəz və xarici Büro daxilindəki ixtilafların dərinləşməsi Azərbaycan siyasi mühacirətinin parçalanması ilə nəticələnmişdi. Mustafa bəy Vəkilov, Səfi bəy Rüstəmbəyli və digərləri ilə birlikdə Xasməmmədov M.Ə.Rəsulzadəyə qarşı müxalif mövqedə dayanmışdı. Sovet hökümətinin təzyiqi ilə M.Ə.Rəsulzadə Türkiyəni tərk etdikdən sonra Xəlil bəy və başqaları Avropadakı mərkəzdən göstəriş almadan, müstəqil fəaliyyət göstərməyə başlamışlar. Nəticədə, Milli Müsavat Xalq partiyasının konfransında (avqust, 1936, Varşava) Xəlil bəy Xasməmmədov partiya sıralarından xaric edilmişdi.

Azərbaycanın bütün Qafqazın türk-müsəlman xalqları ilə sıx birliyinin tərəfdarı olan Xasməmmədov Azərbaycan və Şimali Qafqaz mühacirləri tərəfindən yaradılmış "Azərbaycan-Dağlılar birliyi" adlanan qurumun ilk sədri seçilmişdir. 1942-ci ilin yazında Almaniyanın Xarici İşlər Nazirliyi xətti ilə Berlinə görüşə dəvət edilmiş tanınmış Qafqaz siyasi mühacirləri sırasında Xəlil bəy də olmuşdur.

Xəlil bəy Xasməmmədov 1947-ci ildə Türkiyədə vəfat etmiş, İstanbulun Fəridköy qəbiristanlığında dəfn edilmişdir.

Bakıdakı Hüquq Kadrlarının Təkmilləşdirmə İnstitutu onun adını daşıyır.

Ədəbiyyat

Xasməmmədov Xəlilbəy Hacıbaba oğlu //Azərbaycan Xalq cümhuriyyəti ensiklopediyası:iki cilddə.-Bakı,2005.-C.II.-S.18-20.

İbrahimli, X. Azərbaycan siyasi mühacirəti [Mətn] /X.İbrahimli.-Bakı,1997

Seyidzadə,D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyi aparan yollar [Mətn] /D.Seyidzadə.-Bakı, 1998

Oruclu, M.R. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992) [Mətn] /M.R.Oruclu.-Bakı,2001.

İnternetdə

www.adam.az

www.anl.az

www.files.preslib.az

115 illiyi

Vəli bəy Yadigarov 1898-1971

Hərbçi



Vəli bəy Sadıq bəy oğlu Yadigarov 1898-ci il oktyabr ayının 31-də Borçalının Təkəli kəndində zadəgan ailəsində anadan olmuşdur. Vəli bəy 1909-cu ildə Tiflis hərbi gimnaziyasına qəbul edilmiş və 1916-cı ilədək burada oxumuşdur. 1916-cı ildən Rusiyanın Əlahiddə Qafqaz Korpusunun süvari hissələrində xidmət etməyə başlamışdır. Birinci Dünya müharibəsini Qafqaz Cəbhəsində qarşılayan gənc kornet (hərbi rütbə) cəbhəyə göndərilmiş və məşhur Brusilov hücumunda iştirak etmişdir.

Bir müddət 1-ci Dağıstan süvari alayında xidmət etdikdən sonra Vəli bəy Artilleriya Zabit Məktəbinə göndərilmiş, lakin bolşeviklərin Peterburqda çevrilişi və Rusiyanın parçalanması nəticəsində onun ordusu iflic vəziyyətinə düşmüşdü. Bu zaman çox böyük çətinliklərlə Vəli bəy 1918-ci ilin sentyabrında Azərbaycana gəlmiş, dərhal Milli Ordu sıralarında xidmət etmək arzusunu bildirmiş və 3-cü Şəki süvari alayı təşkil ediləndə o, bu alayda eskadron komandiri vəzifəsində çalışmağa başlamışdır.

1920-ci il mart ayının 22-də Ermənistan silahlı qüvvələri və qiyamçı ermənilərin Şuşa, Laçın, Xankəndi, Xocalı, Əsgəran hücumlarının qarşısını alan Qarabağ Ərazi Qoşunlarının sırasında Vəli bəy Yadigarovun eskadronu xüsusilə fərqlənmişdir.

1920-ci ildə Azərbaycanın Sovet Rusiyası qoşunları tərəfindən işğalı zamanı Vəli bəy tabeliyində olan hissə ilə birlikdə Azərbaycanı tərk etmək məcburiyyətində qalmış, 1921-ci ilin mart ayında Polşada sığınacaq tapmış, müqavilə ilə polyak ordusu sıralarına daxil olmuşdur.

O, Qrozdendə Süvari Məktəbini və Varşava Ali Hərbi Məktəbini bitirdikdən sonra 7-ci süvari polkunun komandir müavini təyin edilmişdir. Polşaya hücum etmiş hitlerçi qəsbkarlara qarşı 1939-cu il sentyabr ayının 11-də təşkil olunmuş müdafiə kampaniyasında iştirak etmiş, Mazovetsk süvari briqadasının qərargah rəisi olmuşdur. Polşanın işğalından sonra 1944-cü ildə Armiya Krayovanın tərkibinə daxil olan "Jelen" polkunun komandiri kimi Varşava üsyanında iştirak etmişdir. Vəli bəy 1945-ci ildə Polşaya sovet qoşunları yeridiləndə onlara tabe olmaq istəməmiş, istefa ərizələri yazmış və 1949-cu ildə istefaya çıxaraq Argentinaya yollanmış, burada Polşa və Qafqaz mühacirləri cəmiyyətlərinin fəal üzvü olmuşdur.

Vəli bəy 1933-cü ildə Varşavada "Mustafa Axmatoviç adına tatar-ulan alayının hərbi tarixi oçerki" adlı kitab yazmış və Polşa, Krım, Litva, Rusiya müsəlmanlarının Polşada xidmətini əks etdirmişdir. Kitab 1990-cı ildə Varşavada təkrarən nəşr olunmuşdur. Zəngin döyüş bioqrafiyası illərində Vəli bəy Azərbaycanın "İgid nişanı" ordeni, Polşanın 4 ordeni ilə təltif edilmişdir.

Vəli bəy Yadigarov 1971-ci il dekabr ayının 3-də Buenos-Ayresdə vəfat etmiş, öz vəsiyyəti ilə 1990-cı ildə məzarı Varşava mərkəzi qəbiristanlığına köçürülmüşdür.

Ədəbiyyat

Əhmədov, S. Vəli bəy Yadigarov (1898-1971) [Mətn] /S.Əhmədov //Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.- S.197-199.

İnternetdə

www.adam.az

www.anl.az

www.borchali.net

www.history.az

www.milaz.info

90 illiyi Turan Cavid 1923-2004

Mədəniyyət xadimi



Turan Hüseyn Cavid qızı Rasizadə (Turan Cavid) 1923-cü il oktyabr ayının 2-də Bakıda anadan olmuşdur. 1945-1950-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsində təhsil almış, həmin institutda müəllim kimi saxlanılmış, 1950-1983-cü illərdə "Azərbaycan teatrı tarixi"ndən mühazirələr oxumuşdur. 1968-ci illərdə C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində elmi işçi və 1968-1991-ci illərdə direktor vəzifələrində çalışmışdır. 1991-ci ildən Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləmişdir. Respublikanın mədəni həyatında iştirak etmiş, mətnşünaslıq sahəsində də yaxından fəaliyyət göstərmişdir. Hüseyn Cavidin 1958-1985-ci illərdə nəşr olunmuş bütün kitablarının tərtibçisi idi. 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, 1997-ci ildə Hüseyn Cavid mükafatı laureatı olmuşdur.

2008-ci ildə Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Hüseyn Cavidin qızı Turan Cavidin xatirəsinə həsr olunmuş sənədli film çəkilmişdir. Turan xanımın anadan olmasının 85 illiyinə həsr edilmiş filmin ssenari müəllifi Sadıq Elcanlı, rejissoru Ramiz Həsənoğludur. Filmdə Xalq yazıçısı Anar, filologiya elmləri namizədi Aydın Talıbzadə, Gülbəniz Babaxanlı, Fəridə Quliyeva və başqaları çıxış edərək Cavidlər ailəsinin taleyindən, Turan Cavidin xidmətlərindən söz açmışlar. Gülbəniz Babaxanlı Turan Cavidin 85 illiyinə həsr olunmuş kitabın da nəşrə hazırlandığını bildirmişdir. Kitabda Turan xanımın həyat və yaradıcılığına dair sənədlər, onun məqalələri, mühazirələri, yazışmaları, fəaliyyəti ilə bağlı məlumatlar toplanmışdır.

Turan Cavid 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Hüsniyyə. Turan Cavidə həsr olunmuş sərgi açılıb [Mətn]:[Hüseyn Cavidin ev-muzeyində]/Hüsniyyə //525-ci qəzet.- 2010.- 15 sentyabr.- S.7.

İntiqam. Mədəniyyət və İncəsənət Universitetində Turan Cavid anıldı [Mətn]/İntiqam //525-ci qəzet.- 2011.-19 aprel.- S. 7.

Kərimova, S. Turan Cavidin doğum gününə həsr edilmiş tədbir keçirildi [Mətn] /S.Kərimova //Elm.- 2009.- 8 oktyabr.- S.15.

"Mən həmişə minnətdaram Sizə..." [Hüseyn Cavidin ev-muzeyinin yaradılmasının 30 illiyi ərəfəsində dahi şairin qızı Turan Cavidin Heydər Əliyev ilə bağlı xatirələri] //Ədəbiyyat qəzeti.- 2011.- 9 dekabr.- S. 1.

Turan Cavid anıldı [Mətn] //Ədəbiyyat qəzeti.- 2009.- 9 oktyabr.- S.6.

Zümrüd. Turan Cavidin doğum günü qeyd olundu [Mətn]: Tədbirdə "Hüseyn Cavidin ev-muzeyi" kitabının təqdimat mərasimi keçirildi [AMEA Hüseyn Cavidin ev-muzeyində adı çəkilən Əməkdar mədəniyyət xadiminin doğum gününə həsr olunmuş tədbir və S.Əhmədlinin eyniadlı kitabı haqqında]/Zümrüd //Səs. - 2009.- 3 oktyabr.- S. 14.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.elibrary.az

70 illiyi

Rəfiqə Şabanova 1943

İdmançı



Rəfiqə Mahmud qızı Şabanova 1943-cü il oktyabr ayının 31-də Bakıda anadan olmuşdur. 1968-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunu bitirmişdir. 1976-cı ildə Monrealda keçirilmiş XXI Olimpiya oyunlarının çempionu olmuş, SSRİ çempionatının 1970-1974, 1976-1977-ci illər üzrə gümüş, 1965, 1978, 1980, 1982-1984-cü illərdə bürünc, 1974-cü ildə SSRİ Xalqları Spartakiadasının gümüş və 1975-1979-cu illərdə bürünc mükafatçısı olmuşdur. 1983-cü ildə "Avtomobilçi" komandasının tərkibində Beynəlxalq Əl Topu (həndbol) Federasiyası kubokunu almışdır.

1976-cı ildə "SSRİ Əməkdar idman ustası" 1982-ci ildə "Azərbaycanın Əməkdar bədən tərbiyəsi və idman ustası" adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

www.adam.az

www.anl.az

www.gender-az.org



80 illiyi

Bəhram Əsgərov 1933

Akademik



Bəhram Mehralı oğlu Əsgərov 1933-cü il oktyabr ayının 5-də Tovuz rayonunun Əhmədabad kəndində anadan olmuş, orta təhsilini Gədəbəy rayonunun Nəriman kəndində almışdır.

O, 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur.

1957-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fizika institutunun aspiranturasına daxil olmuş, 1962-ci ildə Leninqrad şəhərindəki Yarımkeçiricilər İnstitutunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1966-cı ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsinin Molekulyar fizika kafedrasına dosent vəzifəsinə seçilmişdir.

Bəhram Əsgərov 1971-ci ildə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə yiyələnmiş, 1972-ci ildə professor adını almışdır. 1974-cü ildə Yarımkeçiricilərin genetik əhəmiyyətinə aid "Nauka" nəşriyyatı tərəfindən çap olunmuş monoqrafiyasına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

O, Moskvada dərc olunan bir elmi məqaləsinə görə isə Kembric şəhərində yerləşən bioqrafiya mərkəzi tərəfindən "XX əsrin görkəmli alimi" fəxri adına layiq görülmüşdür.

1993-cü ildə xarici jurnallarda çap olunan məqalələrinə görə Soros Fondunun qrantını almışdır.

Bəhram Əsgərov 1994-2004-cü illərdə BDU-nun Elmi işlər üzrə prorektoru işləmişdir.

O, 2001-ci ildə fizika ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Onun rəhbərliyi altında 10 namizədlik, 4 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Bəhram Əsgərov 130-dan çox elmi məqalənin, 4 monoqrafiyanın və 3 dərsliyin müəllifidir.

1974-cü ildə Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı olmuş, 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2004-cü ildə isə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Bərk cisimlər nəzəriyyəsi [Mətn] /B.Əsgərov.- Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2001.-153 s.

Termodinamika və statistik fizika [Mətn] /B.Əsgərov; rəyçi F.Həşimzadə.- Bakı: Bakı Universiteti, 2005.- 625 s.

Thermodynamics, Gibbs Method and Statistical Physics of Electron Gases [Text] /B.Askerov, S.Figarova.- Springer, 2010.- 215 p.

İnternetdə

www.anl.az

www.gedebey.net

www.xeber.azeri.net

www.science.az

www.tovuz-ih.gov.az

65 illiyi

Mahmud Kərimov 1948

Akademik



Mahmud Kərim oğlu Kərimov 1948-ci il oktyabr ayının 18-də İrəvan şəhərində anadan olmuşdur.

1966-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1973-1974-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Fizika institutunda mühəndis kimi başlamışdır.

1975-1978-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Radiasiya tədqiqatlar sektorunun aspirantı olmuş, 1978-1980-ci illərdə kiçik elmi işçi, 1980-1984-cü illərdə elmi katib, 1984-cü ildən Radiasiya tədqiqatlar sektorunun direktoru vəzifəsində çalışmışdır.

1979-cu ildə fizika-riyaziyyat elmləri namizədi, 1989-cu ildə Yarımkeçiricilər və dielektriklər fizikası ixtisası (01.04.10) üzrə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır.

2000-ci ildən professor, 2001-ci ildən akademikdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş və həmin ildən Azərbaycan Milli Elmlər Akademiyasının prezidentidir.

Şüalanma və elektrik boşalma plazmasının təsirləri ilə oksid dielektriklərdə nöqtəvi deffektlərin yaranma mexanizmi və kinetikasını tədqiq etmiş, suyun radiasiya və plazma katalik parçalanması proseslərində şüalanma enerjisinin kimyəvi enerjiyə çevrilməsi və sudan hidrogenin alınması üçün səmərəli üsullar təklif etmişdir.

Mahmud Kərimovun son illərdə apardığı tədqiqatlar nəticəsində molekulyar yarımkeçiricilərdə paramaqnitizm ilə elektrik keçiriciliyinin qarşılıqlı əlaqəsi aşkar edilməsinə həsr olunmuş elektrik keçiriciliyində spin-maqnit effektləri, maqnitorezonans keçiriciliyində isə ifrat incə quruluş aşkar edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 oktyabr tarixli Sərəncamı ilə Mahmud Kərimov "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Керимов, М. Современная оптика полупроводников [Текст] /М.Керимоа, А.Мехтиев, В.Салманов; научн.ред.:Т.Керимов; НАН Азербайджана, БГУ.- Баку: Елм, 2006.- 468 с.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimovun çıxışı [Mətn] /M.Kərimov //Azərbaycan.-2011.- 27 aprel. - S. 2, 3, 4.

Azərbaycanda elmşünaslıq elmi [Mətn]/M.Kərimov //Azərbaycan.- 2011.- 15 may.- S.3.

Böyük Azərbaycan alimi və ictimai xadimi [Mətn] /M.Kərimov //Azərbaycan.-2012.- 23 avqust.- S. 5.

Heydər Əliyev və müasir Azərbaycan elminin inkişaf strategiyası [Mətn] /M.Kərimov //Respublika.-2011.- 23 iyul.- S. 6.

XX əsrin görkəmli dilçi-alimi Afad Qurbanov /M.Kərimov //Ədəbiyyat.- 2011.-11 mart. - №9. - S. 3.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

12

95 illiyi

Şəfiqə İsmayılzadə 1918-2004

Oftalmoloq



Ə d ə b i y y a t

İsmayılzadə Şəfiqə İsa qızı [Mətn]/Azərbaycan Sovet Ensiklopediyası.10 cilddə.- Bakı,1980.-C.4.- S.549.

Şəfiqə İsa qızı İsmayılzadə 1918-ci il oktyabr ayının 12-də Gəncə şəhərində anadan olmuşdur. 1939-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirmiş, 1952-ci ildən Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda fəaliyyətə başlamışdır. 1952-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 1958-1989-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun Göz zədələnmələri və onların prafilaktikası şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, müxtəlif zədələr nəticəsində baş verən görmə üzvünün dəyişiklikləri üzrə, sənaye və kənd təsərrüfatı şəraitində əmələ gələn gözün peşə patologiyası üzrə tədqiqatlara rəhbərlik etmiş, bu mövzularda 70-dən artıq elmi əsərlər yazmış, oftalmotravmatoloq kadrlarının hazırlanmasında yaxından iştirak etmişdir. Onun rəhbərliyi ilə 2 namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Görkəmli oftalmoloq Şəfiqə xanım İsmayılzadə 2004-cü ildə vəfat etmişdir.

21

180 illiyi

Alfred Nobel 1833-1896

Mühəndis-kimyaçı

Alfred Bernhard Nobel 1833-cü il oktyabr ayının 21-də İsveçin paytaxtı Stokholmda dünyaya gəlmişdir. 1842-ci ildə ailəsi ilə birlikdə Sankt-Peterburqa getmiş, professor N.N.Zinindən kimyanı öyrənməyə başlamışdır. 1849-cu ildə professor Zininin məsləhəti ilə təhsilini davam etdirmək üçün Alfred, Avropa və Amerikaya getmişdir. 2 illik səyahətdən sonra Rusiyaya qayıtmış və çar ordusu üçün silah istehsal edən ailə fabriklərini idarə etməyə başlamışdır. 1853-cü ildə Krım müharibəsinin başlaması "Nobel" şirkətinin çiçəklənməsinə səbəb olmuşdu. Lakin ailə biznesinin iflasa uğramasından sonra atası ilə İsveçə qayıtmış, həyatını partlayıcı maddələrin tədqiqinə həsr etmiş, tüstüsüz barıtın, uğultulu-civəli kapsul detonatorun, dinamitin ixtiraçısı olmuş və 1868-ci ildə ixtirasının patentini almışdır. 1875-ci ildə Nobel qardaşları Bakıda "Товарищество Бранобель" adlı "Nobel Qardaşları" şirkətini yaratmışdır. Az müddətdə Nobel qardaşları Abşeronun bir sıra neft mədənlərinin sahibi olmuş, zavodlar almış və xeyli kapitala yiyələnmişdilər.

O, 1889-cu ildə Ümumdünya konqresində iştirak etmişdir.

Lakin Rusiyada proletar inqilabından sonra 1920-ci ilin aprel ayında bolşeviklər Bakıya daxil olmuş və neft sənayesini milliləşdirmişlər. Lakin Nobellərin milyonları batmamış, pullar xarici banklara yatırılmışdı. İndi həmin pullar "Nobel mükafatı" formasında müxtəlif sahədə mühüm kəşf və ixtiraları olan alimlərə təqdim olunur. Nobel mükafatının məbləği təxminən 1 mln. 450 min dollara bərabərdir.

Alfred Nobel az da olsa dramaturq kimi fəaliyyət göstərmişdir. Onun yeganə əsəri 4 hissəli "Nemezida" faciəsidir. Pyesin 1896-cı ildə Parisdə çap olunmuş bütün tirajı (3 nüsxədən başqa) Nobelin ölümündən sonra məhv edilmişdir.

Görkəmli ixtiraçı-alim Alfred Nobel 1896-cı il dekabr ayının 10-da vəfat etmiş, Stokholmda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Nobellər və Bakı nefti [Mətn].- Bakı, 2010.- 188 s.

Ипполитова, Н. Династия Нобелей [Текст] /Н.Ипполитова; под ред. В.Тютюнника.- Тамбов: Изд-во МИНЦ, 2002.- 112 с.

Tarixdə bu gün

Prokurorluq işçiləri günü 1998



Ə d ə b i y y a t

Qocayev, Ə. 1 oktyabr-Prokurorluq işçiləri günü [Mətn] //Qocayev Ə. // Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.25.

İ n t e r n e t d ə

www.anl.az

www.sia.az

www.ebooks.preslib.az

Ümummilli lider Heydər Əliyev oktyabr ayının 1-ci gününün Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixində Sərəncam imzalamışdır. Bu tarix Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlaması ilə əlaqədardır. Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Filip tərəfindən qoyulmuşdur. Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25 mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir örnək kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir. 1918-ci il noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. F.Xoyski, X.Xasməmmədov, A.Səfikürdski, T.Makinski AXC-nin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. AXC-nin süqutundan sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv olunmuşdu. Sovetləşmənin ilk illərində bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması zəruriliyini nəzərə alaraq Azərbaycan SSR MİK-in 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyulmuşdu. Xalq ədliyyə komissarları Ə.Qarayev, S.Çivanov, B.Vəlibəyov, B.Talıblı, H.Hacıyev, A.Sultanova və başqaları həm də Azərbaycan SSR-in baş prokurorları olmuşlar. 1936-cı ilin iyul ayında Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə ayrıca qurum kimi fəaliyyətə başlamışdır. Kommunist partiyasının mütləq hakim olduğu Sovet hakimiyyəti dövründə prokurorluq bu rejimə və partiya liderlərinə xidmət edən bir orqan olmuşdur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yoluna qədəm qoymuşdur. 2002-ci il sentyabr ayının 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

OKTYABR

1

Tarixdə bu gün

Beynəlxalq Ahıllar Günü 1992



BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutmuşdur. 2002-ci ilin aprel ayında İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səslənmişdi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir.

Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən hörmətə layiqdirlər.

İnsanın qocalıq dövründə heç nəyə qadir olmadığını söyləmək səhv olardı. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunmuşlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşmış, fikirləri ilə hesablaşmışlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

2001-ci il iyun ayının 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. Beynəlxalq Ahıllar Günü ərəfəsində bütün dünyada olduğu kimi, Respublikamızın şəhər və rayonlarında İcra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Həmin tədbirlərdə respublika üzrə 10 minlərlə ahıl və əlil vətəndaş bayram süfrələrinə dəvət olunur, onlara ərzaq paylanır, maddi yardım göstərilir.

Ədəbiyyat

Qocayev, Ə. 1 oktyabr-Beynəlxalq ahıllar günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.53.

İnternetdə

www.anl.az

www.azadliq.org

Tarixdə bu gün

Xocavənd rayonunun işğalı Günü 1992



Ərazisi: 1458 km²
Əhalisi: 41 725
İşğal tarixi: 02.10.1992

Xocavənd rayonunun erməni qəsbkarları tərəfindən işğalından 21 il ötür.

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli Qanununa əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmiş, Martuni şəhəri Xocavənd şəhəri, Martuni rayonu Xocavənd rayonu adlandırılmışdır. Hadrut rayonu isə ləğv edilərək ərazisi Xocavənd rayonunun tərkibinə verilmişdir.

Ərazisi alçaq dağlıq və düzənlikdən ibarət olan Xocavənd rayonunun ümumi sahəsi 1458 km², əhalisi 41725 (o cümlədən azərbaycanlılar-10.648) nəfər olmuşdur. Rayonda 1 şəhər (Xocavənd şəhəri-rayon məkəzi), 2 iri qəsəbə (Qırmızı Bazar və Hadrut), 81 kənd vardı.

Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənub-şərqində yerləşir.

1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Xocavənd rayonu 145 şəhid vermiş, 3600 uşaq zərər çəkmişdir.

2 oktyabr 1992-ci il tarixində Xocavənd rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində Xocavənddə 71 arxeoloji-memarlıq abidəsi, 41 klub, 40 kitabxana, 12 ziyarətgah, 10 məktəbəqədər müəssisə, 21 səkkizillik məktəb məhv edilmişdir. İşğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalmış, Azıx mağarasını ermənilər silah anbarına çevirmişlər.

Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınmış, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilmişdir. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilmişdir.

Ədəbiyyat

Xocavənd rayonu [Mətn] //Qarabağ.Yaddaş.-Bakı, 2010.-S.179-186.

Şirinova, A. Xocalı və Xocavənd faciələri [Mətn] /A.Şirinova //Xalq Cəbhəsi.- 2009.- 19 fevral.- S.8.

Tapdıqoğlu, N. Xocavənd ensiklopediyası [Mətn] /N.Tapdıqoğlu.-Bakı: [Zərdabi LTD], 2009.- 543 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.xocavend-ih.gov.az

Tarixdə bu gün

Beynəlxalq Müəllim Günü 1966



Bu tarixin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabr ayının 5-də YUNESKO tərəfindən verilmişdir. Bu təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilmişdir. İndi dünyanın 100-dən çox ölkəsində müəllimlər hər il oktyabr ayının 5-ni öz peşə bayramları kimi qeyd edirlər.

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Bu gözəl və şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə yanaşmışlar.

Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də, ondan daha çox, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür.

Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir. Hazırda dövlətimizin müstəqilliyinin möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllim əməyinin yetirmələridir.

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdırlar. Hər birimizin layiqli vətəndaş kimi yetişməsində müəllimlərimizin əvəzsiz xidmətləri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimlərə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalmışdır.



Ədəbiyyat

Qocayev, Ə. 5 oktyabr-Müəllim günü [Mətn] /Ə.Qocayev //Bayramlar və tarixi günlər.-Bakı, 2006.-S.54.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.yeniazerbaycan.com

Tarixdə bu gün

70 illiyi

Ağsu rayonu 1943

- **Ərazisi: 1020,1 km²**
- **Əhalisi: 69400 nəfər**
- **Yaşayış məntəqələrinin sayı:1 şəhər, 78 kənd**
- **İnternet saytı http://agsu-ih.gov.az**



Ağsu rayonu 1943-cü il oktyabr ayının 8-də təşkil edilmişdir. Rayonun mərkəzi olan Ağsu şəhəri isə 1967-ci ilə qədər şəhər tipli qəsəbə olmuş, həmin ildə isə şəhər statusu almışdır. Qərbdən və şimal-qərbdən İsmayıllı, şimal-qərbdən və şərqdən Şamaxı, cənubdan isə Kürdəmir və Hacıqabul rayonları ilə sərhəddir. Ərazisi 1020 kvadrat kilometr, əhalisi 69,4 min nəfərdir. Rayonda 1 şəhər (Ağsu şəhəri), 78 kənd vardır. Bu yaşayış məntəqələri 24 ərazi icra nümayəndəliyini və 32 bələdiyyəni əhatə edir. Ən böyük kəndləri Gəgəli, Kəndoba, Kalva, Pirhəsənli, Bico, Cəlayır, Padar, Ərəbuşağı və Qaraqoyunludur. Əhalinin ümumi sayının 49,1%-ni kişilər, 50,9%-ni qadınlar təşkil edir. Əhalinin 99%-i azərbaycanlılardan, 1%-i ləzgilərdən, türklərdən və s. ibarətdir. Əhalinin 25,7%-i şəhərdə, 74,3%-i kənd yerlərində yaşayır. Rayonda 2068 nəfər qaçqın və məcburi köçkün məskunlaşmışdır. Bunlar Ermənistandan, Özbəkistandan və işğal olunmuş rayonlarımızdan gələn soydaşlarımızdır. Coğrafi mövqeyinə görə Ağsu rayonu Şirvan düzündə və Böyük Qafqazın ətəklərində yerləşir. 16 kənd, 3 ərazi dairəsi dağlıq zonadadır. Rayonun ərazisindən 2 çay - Girdiman, Ağsuçay və onların qolları - Ağdarçay və Nazirçay keçir. Qərbdə Kükəş qobusu (Kür sellər oylağı) və Cavanşir gölü, cənubda Yuxarı Şirvan kanalı, onun Ağsu qolu yerləşir. Ağsu rayonu kənd təsərrüfatı rayonudur. İqtisadiyyatında heyvandarlıq, taxılçılıq, pambıqçılıq, meyvə və tərəvəzçilik mühüm yer tutur. Ərazisinin 75,2%-ni və ya 76742 hektarını kənd təsərrüfatına yararlı torpaqlar, bundan 46,3%-ni və ya 35550 hektarını əkin yeri təşkil edir. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında aparılan aqrar islahatlar nəticəsində rayonda 43892 nəfər mülkiyyətçi 36184 hektar əkin yeri və çoxillik əkmələr altında olan torpaqları əvəzsiz olaraq pay kimi almışdır. Rayonda 69 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar və 8 məktəbəqədər müəssisə fəaliyyət göstərir. 6 xəstəxana, 18 ambulator-poliklinika, 22 feldşer-mama məntəqəsi əhaliyə səhiyyə xidməti göstərir. Rayonda 1 mədəniyyət sarayı, 10 mədəniyyət evi, 47 kitabxana, 1 uşaq musiqi məktəbi və tarix-diyarşünaslıq muzeyi vardır. Rayonda ilk dəfə 1954-cü ildə "Yeni həyat", 1961-ci ildə rayonlararası "İrəli" və 1966-cı ildə isə "Birlik" qəzetləri nəşr edilmişdir. Hazırda rayonda Ağsu rayon İcra Hakimiyyətinin orqanı olan "Ağsu" qəzeti buraxılır. Qəzet 13 yanvar 2003-cü ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Rayon ərazisindən 55 kilometr uzunluqda respublika əhəmiyyətli avtomobil yolu keçir. 37 km uzunluğu olan Bakı-Şamaxı-Yevlax yolu ikinci kateqoriya, 18 kilometr uzunluğu olan Ağsu-Kürdəmir-Bəhrəmtəpə yolu üçüncü kateqoriyaya aiddir. Ağsuda 19 siyasi partiyanın rayon təşkilatı və 16 ictimai-siyasi təşkilatın (o cümlədən 3 qeyri-hökumət təşkilatının) rayon şöbəsi fəaliyyət göstərir.

Ədəbiyyat

Ağsu arxeoloji ekspedisiyasının 2010-cu il tədqiqatları [Mətn] /nəşrə haz. Ağsu arxeoloji ekspedisiyası; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu; Milli Azərbaycan Tarixi Muzeyi; "Miras" Mədəni İrsin öyrənilməsinə kömək İctimai Birliyi; nəşrə məsul Q.Cəbiyev, F.Xəlilli; ing. dil. tərc. Ş.Bayramova; italyan dil. tərc. Z.Muradova; bədii tərt. S.Hüseynov.- Bakı, 2010.-3 bur. II.- 86 s.

Əliyev, V. Ağsunun tarixi səhifələri [Mətn] /Vəli Əliyev, F.Xəlilov; elmi red. F.Osmanov.- Bakı: Adiloğlu, 2001.- 94 s.

Mirzəliyev, C. Ağsu [Mətn] /C.Mirzəliyev; red. E.Mehrəliyeva; rəssam Əşrəf.- Bakı: Gənclik, 1998.- 160 s.

İnternetdə

www.agsu-ih.gov.az

www.az.wikipedia.org

www.kataloq.azeri.net

Tarixdə bu gün

Qurban Bayramı



Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (S.S.)İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdır. Lakin uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdi. Buna görə də bu bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da demişlər.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Qurban bayramında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Kəsiləcək qurbanlıq gözəgəlimli olmalıdır. Qurbanın bir hissəsindən din xadimlərinə pay göndərilir, bir hissəsi isə kasıblara paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə dilənçi və kasıblar bayram günü ac qalmasınlar deyə bu gün həmin mərasimlərə dəvət olunurlar.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar - Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə - dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

Çox sevdiyi övladını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Allah kəsilən bütün qurbanlarımızı qəbul etsin!

OKTYABR

18

Tarixdə bu gün

Dövlət Müstəqilliyi Günü 1994



Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanmışdı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirilmişdi.

1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamışdı. İkinci tarixi imkan bir də 70 il sonra yetişmiş, Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı vermişdi.

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunmuşdur. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşmuş, bununla da, Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyulmuşdu.

Azərbaycan Respublikasında 1991-ci il dekabr ayının 29-da ümumxalq səsverməsi keçirilmiş, Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxmışdı.

Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı. Onun müstəqilliyini dünya dövlətləri tanımışdır. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabr ayının 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanımışdılar.

Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlanmışdı. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşmişdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırmışdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşmuşdu.

1994-cü ilin 15 oktyabr tarixindən etibarən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 18 Oktyabr tarixi Dövlət Müstəqilliyi Günü kimi qeyd edilir.

Ədəbiyyat

Qocayev, Ə. 18 oktyabr-Müstəqillik günü [Mətn] /Ə.Qocayev//Bayramlar və tarixi günlər.-Bakı, Altun Kitab, 2006.- S. 26.

İnternetdə

www.anl.az

www.az.trend.az

www.az.wikipedia.org

www.portal.edu.az

OKTYABR

23

Tarixdə bu gün

35 illiyi

Babək rayonu 1978

- **Ərazisi: 749,81 km²**
- **Əhalisi: 66,2 000 nəfər (01.08.2011)**
- **Yaşayış məntəqələrinin sayı: 1 qəsəbə, 39 kənd**



Babək rayonu 1978-ci il oktyabr ayının 23-də ümummilli lider Heydər Əliyevin qərarı ilə rayon kimi təşkil olunmuşdur. Ərazisi 749,81 km², əhalisi 66,2 min nəfərdir (01.08.2011-ci ilin məlumatına görə). Mərkəzi Babək qəsəbəsidir. Rayonda 1 qəsəbə, 39 kənd vardır.

Rayon ərazisi Zəngəzur, Dərələyəz dağ silsilələrinin təpələri, Naxçıvan və Gülüstan düzənliklərindən ibarətdir. Rayonun ən yüksək zirvəsi Buzqov dağıdır (2475 m). Yayı quraq keçən soyuq yarımsəhra, quru çöl və qışı quraq keçən soyuq iqlim tipinə malikdir.

Babək rayonu Naxçıvan Muxtar Respublikası mərkəzi hissəsində yerləşir. Rayon şimaldan Ermənistanla, cənubdan İranla həmsərhəddir. Rayonun şimalında və cənub-şərqində relyef dağlıq, cənubunda və cənub-qərbində isə ovalıqdır. Rayondakı ən hündür nöqtələr Keçəltəpə (2740 metr), Qaraquş (2617 metr) və Buzqov dağlarıdır (2470 metr). Babək rayonu ərazisində daş duzu və tikinti materialları yataqları, Sirab, Vayxır, Qaxab və başqa mineral su bulaqları vardır.

Rayonun iqtisadiyyatında üzümçülük, taxılçılıq, bostançılıq, tərəvəzçilik və heyvandarlıq mühüm yer tutur. Bundan əlavə daş hasilatı, üzüm emalı, qida məhsulları istehsalı da inkişaf etmişdir. Rayonun təbii və coğrafi şəratiti lap qədim dövrlərdən əkinçilik və maldarlıqla məşğul olan qəbilələri buraya cəlb etmişdir. Təsadüfi deyildir ki, bütün dünyada məşhur olan Kültəpə-1 və Kültəpə-2 abidələri bu ərazidə yerləşir. Burada, həmçinin, Çalxanqala, Vayxır, Əznəburt, Abasabad kimi memarlıq abidələri qorunub saxlanmışdır.

Bundan başqa rayon ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrünə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı, orta əsrlərə aid yaşayış yerləri, nekropollar, maddi mədəniyyət qalıqları və onlarla digər arxeoloji, tarixi, memarlıq abidəsi, zəngin materiallar aşkara çıxarılmış və tədqiq edilmişdir. Son illər rayonun Çeşməbasar kəndində "Heydər" məscidi, Nehrəm, Qahab, Zeynəbbin, Cəhri, Sirab kəndlərində və Babək qəsəbəsində memarlıq baxımından gözəl məscidlər inşa edilmişdir.

Rayonun mərkəzində Babəkin heykəli, Şəhidlərin abidə kompleksi, Nehrəmdə şəhidlər abidə kompleksi, Çeşməbasarda Şəhid bulağı, Tumbulda İkinci Dünya müharibəsi iştirakçılarının xatirə abidəsi ucaldılmışdır.

Ədəbiyyat

Babək rayonu [Mətn] //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.56.

Naxçıvan Muxtar Respublikası 80 [Mətn]: tarixi-statistik məcmuə / Məcmuənin ümumi rəhbəri: Vasif Talıbov, İsmayıl Hacıyev, Bəxtiyar İsmayılov.- Bakı:Səda, 2004. - 212 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.nakhchivan.az

www.mct.gov.az

OKTYABR

24

Tarixdə bu gün

Birləşmiş Millətlər Təşkilatı Günü 1945

Birləşmiş Millətlər Təşkilatı-BMT (ing. United Nations Organization, UNO) 1945-ci il oktyabr ayının 24-də yaradılmışdır. Hal-hazırda 192 ölkə təşkilatın üzvüdür. Müstəqil dövlətlərdən yalnız Vatikan BMT-nin üzvü deyil.

Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

Birləşmiş Millətlər Təşkilatı İkinci Dünya müharibəsindən sonra, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqiyyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmışdır. BMT-nin Nizamnaməsi 1945-ci il iyul ayının 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il oktyabr ayının 24-də qüvvəyə minmişdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Üzv ölkələr öz aralarında BMT-nin Nizamnaməsinin - onların dünya birliyinin üzvləri kimi hüquq və vəzifələrini müəyyənləşdirən beynəlxalq müqavilənin prinsipləri ilə əlaqələnirlər.

Birləşmiş Millətlər Təşkilatı "ailəsi" aşağıdakı qurumlardan ibarətdir:

Altı əsas orqandan ibarət olan BMT-nin özü: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Hamilik Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. Niderlandın Haaqa şəhərində yerləşən Beynəlxalq Məhkəmədən başqa, digər qurumlar Nyu-Yorkda, BMT-nin Mərkəzi idarələrində yerləşirlər.

BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Uşaq Fondu (UNICEF), BMT-nin İnkişaf Proqramı (BMTİP) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) kimi inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində fəaliyyətləri həyata keçirən ixtisaslaşmış təşkilatları mövcuddur.

Məqsədləri:

-münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər qəbul etməklə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması;

-xalqın özünüdərketmək və bərabərlik prinsipinə hörmət etmək əsasında ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi;

- beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək, insanlara heç bir fərq qoymadan azadlıq, insan hüquqlarına hörmət və onun genişləndirilməsi;

- müxtəlif ölkələrin razılaşması üzrə; bu məqsədlərə çatmağa yönəldilmiş mərkəzi orqanın funksiyalarının yerinə yetirilməsi.

Prinsipləri:

-onun bütün üzvlərinin bərabərliyi;

- nizamnamə üzrə qəbul edilən öhdəçiliyi vicdanla yerinə yetirmək;

- beynəlxalq münasibətlərin sülh vasitəsi ilə həll edilməsi;

- beynəlxalq münasibətlərdə bir ölkənin digər ölkəyə güc tətbiq etməsindən imtina etmək;

-bu prinsipləri qəbul etməklə bütün hərəkətlərdə BMT-nin bütün üzvlərinə köməklik göstərmək;

- beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək (BMT-nin üzvü olmayan dövlət BMT-nin prinsiplərinə uyğun olaraq lazım gələrsə hər şeyi təmin etməlidir);

- dövlətlərin daxili işlərinə qarışmamaq;

- insanların əsas hüquq və azadlıqlarına hörmət etmək;

- xalqların özünüidarə etməsi və bərabər hüquqlu olması;

- əməkdaşlıq və tərksilah.

OKTYABR

29

Tarixdə bu gün

20 ili

Zəngilan rayonunun işğalı 1993

- **Ərazisi: 707 km²**
- **Əhalisi: 33900**
- **İşğal tarixi: 29.10.1993**



Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da erməni işğalçıları tərəfindən işğal olunmuşdur. Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir.

Zəngilan rayonu 1930-cu ildə təşkil olunmuşdur. Rayonun sahəsi 707 km², əhalisi isə 33900 nəfərdir. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir.

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazılmışdı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da, digər rayonlarımız kimi xəyanətin qurbanı olmuş, təqvimimizdə daha bir qara günün sayı artmışdı - 29 oktyabr 1993-cü il.

Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Ermənilərin hücumu iyunun 29-da olmuş, çox ağır və qanlı döyüşlər iki saat çəkmişdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutmuş, bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalmışdı. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalamışdı. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçmişdi. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşmüşdü. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunmuş, bununla da Zəngilanın mühasirəsi başa çatmışdı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Xalqımızın xilaskarı, ulu öndərimiz H.Əliyev bu dəfə də xalqın köməyinə gəlmişdi. O, İran hökuməti ilə danışıqlar aparmış və Araz çayı üzərindəki bənddə suyu bağlatdırmışdı. Yalnız bundan sonra əhali çayı keçib xilas olmuşdu. Buna görə də, zəngilanlılar Heydər Əliyeva daim minnətdardırlar.

Zəngilanda nəyimiz qaldi?

Zəngilan boyda Vətən;

Dünyada II, Avropada I Nadir Çinar meşələri;

Torpaq üzərində olan bütün var-dövlət;

67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmiryol stansiyası, 2 şərab zavodu, konserv zavodu, dəmiryol deposu...

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Ədəbiyyat

Kərimli, A. Zəngilan şəhidləri [Mətn] /A.Kərimli; red. Q.Aslanov.-Bakı: İşıq, 1994.- 192 s.

Məmmədov, S. Şərikanlı, şərikansız günlərim [Mətn] /S.Məmmədov; red. S.Mirzəyeva.- Bakı: Adiloğlu, 2010.- 109, [1] s.

Tapdıqoğlu, N. Zəngilanın toponimləri [Mətn] / Nazim Tapdıqoğlu; red. B.İdrisoğlu.- Bakı, 2002.- 140 s

Zəngilan rayonu [Mətn] //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.152-178.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org

www. az.wikipedia.org

www.zengilan-ih.gov.az

www.zengilan.com

1 noyabr

Gün çıxır 07:09
Gün batır 17:56

30 noyabr

Gün çıxır 07:43
Gün batır17:34

NOYABR

24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

C.	1
Ş.	2
B.	**3**
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	**10**
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	**17**
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	21
C.	22
Ş.	23
B.	**24**
B.E.	25
Ç.A.	26
Ç.	27
C.A.	28
C.	29
Ş.	30

- *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalqa müraciət etmişdir (02.11.1993)*
- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1988)*
- **Qarakənd faciəsi (20.11.1991)**
- *Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.1999)*
- *Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)*

90 il Heydər Əliyev 1923-2003



Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən AZƏRBAYCANLIYAM!

Heydər Əliyev, ümummilli lider

NOYABR

2013



Milli ədəbiyyat

Şair Rzayev Əliağa Hacağa oğlunun (Əliağa Bakir) (01.11.1923-22.05.1998) anadan olmasının **90** illiyi
Şair, publisist Əhmədov Muxtar İsmayıl oğlunun (Muxtar Əhməd) (01.11.1948) anadan olmasının **65** illiyi
Görkəmli alim, şair və jurnalist Əhmədov (Mütəllibzadə) Əmin Mütəllib oğlunun (Əmin Abid) (02.11.1898-21.10.1938) anadan olmasının **115** illiyi 319
Ədəbiyyatşünas, professor Mahmudov Malik Rüstəm oğlunun (05.11.1938-03.06.1991) anadan olmasının **75** illiyi
Şair, qəzəlxan Mədətzadə Atababa Seyidəli oğlu (Baba Pünhan) (05.11.1948-17.04.2004) anadan olmasının **65** illiyi
Şair, pedaqoq, Özbəkistanın Əməkdar incəsənət xadimi Şeyxzadə Məqsud Məsim oğlunun (07.11.1908-19.02.1967) anadan olmasının **105** illiyi 320
Dilçi, filologiya elmləri doktoru Məhərrəmova Rəhilə Cavad qızının (07.11.1923-30.09.2011) anadan olmasının **90** illiyi 321
Ədəbiyyatşünas, tənqidçi Hüseynov Firidun Cəlal oğlunun (15.11.1933-31.08.1986) anadan olmasının **80** illiyi
Nasir Əmrahov Əmrah Bala oğlunun (23.11.1923-18.11.1988) anadan olmasının **90** illiyi
Xalq yazıçısı, dramaturq və kinossenarist Qasımov İmran Haşım oğlunun (25.11.1918-20.04.1981) anadan olmasının **95** illiyi 322



Dünya ədəbiyyatı

Rus yazıçısı Turgenev İvan Sergeyeviçin (09.11.1818-03.09.1883) anadan olmasının **195** illiyi 323



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar inşaatçı, memar Kəngərli Nəsrulla Yaqub oğlunun (25.11.1913-25.02.1991) anadan olmasının **100** illiyi 324
SSRİ Xalq rəssamı, Avropa Elm və İncəsənət Akademiyasının incəsənət bölməsi üzrə həqiqi üzvü Salahov Tahir Teymur oğlunun (29.11.1928) anadan olmasının **85** illiyi 325

Musiqi.Opera.Balet



Xalq artisti, klarnet ustası və dirijor Əhmədov Tofiq Qəzənfər oğlunun (08.11.1923-23.03.1981) anadan olmasının **90** illiyi 326

Əməkdar incəsənət xadimi, pianoçu Nəzirova Elmira Mirzərza qızının (30.11.1928) anadan olmasının **85** illiyi 326

Teatr.Kino



Xalq artisti, Azərbaycan və Çeçen-İnquş MSSR Əməkdar incəsənət xadimi, Dövlət Mükafatı laureatı, aktyor Məmmədov Həsən Ağaməmməd oğlunun (22.11.1938-26.08.2003) anadan olmasının **75** illiyi 327

Xalq artisti, rejissor Ocaqov Rasim Mirqasım oğlunun (22.11.1933-07.07.2006) anadan olmasının **80** illiyi 328

Milli Qəhrəmanlar



Azərbaycanın Milli Qəhrəmanı Şahbazov Yavər Əlibala oğlunun (01.11.1973-13.03.1995) anadan olmasının **40** illiyi 329

Azərbaycanın Milli Qəhrəmanı Murtuzəliyev Sergey Murtuzəli oğlunun (17.11.1963-30.08.1993) anadan olmasının **50** illiyi 330

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Şahlar İsa oğlunun (26.11.1968-10.04.1992) anadan olmasının **45** illiyi 331

Siyasət.Hərbi iş



İctimai-siyasi xadim Xoyski Rüstəm xan İskəndər xan oğlunun (05.11.1888-1939) anadan olmasının **125** illiyi

Dövlət xadimi, ilk ali təhsilli neftçi-mühəndis Tahirova Tahirə Əkbər qızının (07.11.1913-26.10.1991) anadan olmasının **100** illiyi 332

Hərbçi, general-mayor Züvanov Vladimir Pavloviçin (Heybətov Heybət Heybət oğlu) (10.11.1898-07.10.1959) anadan olmasının **115** illiyi

Siyasi və dövlət xadimi Qaplanov Rəşid xan Zavid oğlunun (11.11.1883-28.01.1937) anadan olmasının **130** illiyi 333

Neft



Akademik, Əməkdar elm xadimi, neftçi alim Quliyev Səftər Mehdi oğlunun (21.11.1908-26.01.1973) anadan olmasının **105** illiyi 334

Mədəniyyət.Elm.Maarif



İctimai xadim, filosof Cəmaləddin Əfqaninin (əsl adı Seyid Məhəmməd ibn Səftər) (01.11.1838-1897) anadan olmasının **175** illiyi

Riyaziyyat.Fizika.Astronomiya



Avstriya fiziki və astronomu Dopler Kristianın (29.11.1803-17.03.1853) anadan olmasının **210** illiyi



Kimya.Biologiya.Tibb

Cərrah, akademik, Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlunun (17.11.1883-20.07.1958) anadan olmasının **130** illiyi 335
Əməkdar elm xadimi, Əməkdar həkim Abasov Bəybala Xutkar oğlunun (17.11.1923-16.02.2012) anadan olmasının **90** illiyi
Tibb elmləri doktoru, professor, ginekoloq Mehdiyeva Turan Camal qızının (22.11.1928-1991) anadan olmasının **85** illiyi
Əməkdar həkim Əliyev Mahmud İsmayıl oğlunun (22.11.1908-24.09.1958) anadan olmasının **105** illiyi



Texnika

Texnika elmləri doktoru, professor Tağıyev Rəfael Əbülfəz oğlunun (12.11.1943) anadan olmasının **70** illiyi



Kitabxanaşünaslıq.Biblioqrafiya

Şirvan şəhər Mərkəzi Kitabxanasının açılışının (06.11.1953) **60** illiyi
V.Q.Korolenko adına Mərkəzi şəhər Gənclər Kitabxanasının yaranmasının (25.11.1928) **85** illiyi



Tarixdə bu gün

Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (01.11.2008)
Maastrixt sazişi qüvvəyə minmiş və Avropa İqtisadi Birliyi rəsmən Avropa Birliyi adlandırılmışdır (01.11.1993)
Avropa İnsan Haqları Məhkəməsi təsis edilmişdir (01.11.1998)
Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin əsası qoyulmasının **90** illiyi (02.11.1923) 336
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xalqa müraciət etmişdir (02.11.1993) 337
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kosmik sənayenin yaradılması və milli telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında fərman imzalamışdır (04.11.2008)
Televiziya və Radio İşçiləri Günü (06.11.) 338
Parisdə Luvr muzeyinin açılmasının **220** illiyi (08.11.1793)
Azərbaycan Respublikası Argentina ilə diplomatik əlaqələr qurmuşdur (08.11.1993)
Azərbaycan Bayrağı Günü (09.11.2009)
Azərbaycan Cümhuriyyətinin üçrəngli (göy, qırmızı, yaşıl) bayrağı qəbul edilmişdir (09.11.1918) 339
Microsoft şirkəti "Windows 1.0" əməliyyat sistemini təqdim etmişdir (10.11.1983)
Mingəçevir şəhərinin yaranmasının **65** illiyi (11.11.1948) 340
Konstitusiya Günü (12.11.1995) 341


Ümumdünya Diabet Günü (14.11.1991)
Milli Dirçəliş Günü (17.11.1988) 342
Qarakənd faciəsi (20.11.1991)
Azərbaycan Fotoqraflar Birliyi (AFB) (20.11.1998) yaradılmışdır 343
Ümumdünya Salam Günü (21.11.1973)
İstanbulda Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan parlament nümayəndə heyətlərinin ikigünlük görüşünün yekunu olaraq Türkdilli Ölkələrin Parlament Assambleyası təsis edilmişdir (21.11.2008)
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.1999) 344
Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzalamışdır (24.11.2003)
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988) 345

Milli ədəbiyyat

115 illiyi

Əmin Abid
1898-1938

Şair



Əhmədov Əmin Mütəllib oğlu (Əmin Abid Gültəkin) 1898-ci il noyabr ayının 2-də Bakıda anadan olmuşdur. İlk təhsilini burada almışdır. 1919-cu ildə Türkiyəyə səfər etmiş, burada pedaqoji məktəbi bitirdikdən sonra İstanbul Universitetinin ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1919-1926). İlk gənclik dövründən sərbəst və heca vəznində şeirlər yazmışdır. "Yeni Qafqaz", "Azəri-türk", "Odlu yurd" və digər jurnallarda "Gültəkin" təxəllüsü ilə dərc etdirdiyi şeirlərində Azərbaycan Milli Demokratik Cümhuriyyətinin bolşevik ordusu tərəfindən vəhşicəsinə işğalına, Sibirə sürgünlərə, təqib və təhqirlərə qarşı etirazla yanaşı, sabaha - üç rəngli ayulduzlu bayrağın müstəqil Azərbaycan üzərində dalğalanacağı günə inam güclü idi. Onun Türkiyədə qələmə aldığı şeirlər siyasi mühacirlərin köməyi ilə "Buzlu cəhənnəm" adı altında ayrıca kitabda nəşr edilmişdir. 1919-cu ildə Azərbaycana qayıtmış, Bakı Dövlət Universitetində çalışmışdır. Tələbəlik dövründə "Azərbaycan türklərinin ədəbiyyat tarixi" monoqrafik əsərini qələmə almışdır. Dövri mətbuatda müasir və klassik ədəbiyyata, şifahi xalq yaradıcılığına dair ədəbi-elmi məqalələrlə çıxış etmişdir. Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti nəzdində açılan ədəbiyyat seminariyasında müəllimlik etmişdir. "Azərbaycan türklərinin ədəbiyyat tarixi", "Türk ədəbiyyatında bayatımani növü", "Bayatının türk xalqları ədəbiyyatında mövqeyi", "Azərbaycan ədəbiyyatının qədim abidələrindən" monoqrafik əsərləri, eyni zamanda "Kitabi-Dədə Qorqudun mətni haqqında məlumat", "XVII əsr Azərbaycan ədəbiyyatı", "Ədəbiyyatımız tarixində Sabirin mövqeyi", "Mirzə Şəfi haqqında yapılan tədqiqlərə bir baxış", "Türk el ədəbiyyatına elmi bir baxış (Oğuznamə)" kimi milli ədəbiyyatşünaslıq, folklor və mətbuat tarixi haqqında onlarca məqalələri geniş erudisiyalı alimin zəngin irs yaratdığını sübut edir. Axundovşünaslıq elminin yaranmasında xidmətləri misilsizdir. M.F.Axundov ədəbi irsinə həsr etdiyi məqalələri, monoqrafiya və tərtibləri, eləcə də tərcümələri vardır. Məhəmməd Füzulinin "Söhbətül-əsmar" əsərini aşkara çıxarıb elm aləminə tanıtmışdır. "Azərbaycan proletar qəzetçiliyinin tarixinə bir baxış" (1928) məqaləsi Azərbaycan inqilabi jurnalistika tarixinin öyrənilməsinə hədiyyədir. 1938-ci ilin iyul ayının 14-də casusluqda günahlandırılaraq həbs edilmiş, üç ay sonra oktyabr ayının 21-də saat 21:30-da güllələnmişdir. Əmin Abid gec də olsa, 1962-ci il dekabr ayının 21-də bəraət qazanmış, ancaq ömür yolunun öyrənilməsi, yaradıcılığının araşdırılıb təbliğ edilməsi qadağan edilmişdi.

Ə d ə b i y y a t

Seçilmiş əsərlər [Mətn] /Ə.A.Mütəllibzadə; nəşrə hazırlayan və ön sözün müəl. Sona Xəyal.- Bakı: Nurlan, 2007.- 261 s.

Əmin Abid [Mətn] //Cəlil Məmmədquluzadə ensiklopediyası.-Bakı, 2008.- S.105-106.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.folklorinstitutu.com

105 illiyi Maqsud Şeyxzadə 1908-1967

Şair



Ədəbiyyat

Seçilmiş əsərləri: 2 cilddə [Mətn].- Bakı, 1973.- 284 s.

Əks-səda [Mətn]: şeirlər və poemalar /M.Şeyxzadə; [red. P. Yəhyayev; tərc. ed.: İ.Səfərli [və b.].- Bakı: Yazıçı, 1978.-140, [4] s.

Aytən. "İki xalqın şairi" – Maqsud Şeyxzadə Mahnı Teatrında anıldı [Mətn] //525-ci qəzet.- 2009.- 11 dekabr.- S.7.

Rza, Xəlil Ulutürk. Maqsud Şeyxzadə [Mətn]: anadan olmasının 70 illiyi münasibətilə /R.Xəlil; red. A.Cəfərov; AzSSR Bilik Cəmiyyəti.- Bakı, 1978.- 66 s.

İnternetdə

www.adam.az

www.kataloq.net

www.az.wikipedia.org

Maqsud Məsim oğlu Şeyxzadə 1908-ci il noyabr ayının 7-də keçmiş Yelizavetopol (Gəncə) quberniyasının Ağdaş kəndində doğulmuşdur. İbtidai təhsilini "Rüşdiyyə" məktəbində almış, ilk qələm təcrübələrini də bu vaxt etmişdir.

Bütün ədəbiyyat dərsliklərində "Özbək yazıçısı və şairi" kimi tanıdılan qürbət məhkumu Maqsud Şeyxzadənin Azərbaycan 1918-ci ildə müstəqilliyinə qovuşanda hələ 12 yaşı vardı. Atasının Ağdaşda açdığı məktəbdə oxuyarkən Nəriman Nərimanov bu şəhəri ziyarət edir. Məktəbin əlaçı şagirdi olan Maqsud şeir oxumaq üçün kürsüyə çıxır. Oxuduğu şeirlər Nərimanovun çox xoşuna gəlir. Nərimanov sonralar həmin şeirlərin üçünü 21 dekabr 1921-ci ildə "Kommunist" qəzetində dərc etdirir. Bir müddət sonra Maqsud Şeyxzadə Ağdaşdan Bakıya yola düşür. Bakı Pedaqoji Məktəbində o vaxtların iki sevilən müəllimi dərs deyirdi - Hüseyn Cavid və Abdulla Şaiq... Maqsud onlardan vətən eşqi, millət eşqi, ədəbiyyat eşqi və türklüyün gerçək üzünü öyrənir. Sonralar Özbəkistanda yaşayanda "Mirzə Uluqbəy" əsərini qələmə alarkən Hüseyn Cavidin ona olan təsirlərindən də söz açır. Məktəbi bitirər-bitirməz Dərbəndə göndərilir. Orada həm müəllimlik edir, həm də şeirlər yazır. Qəzetlərdə "Azad dağlar qızına", "Şeyx Şamil", "Bu axşam" və "Sahildə" adlı şeirləri dərc olunur. Dərbənddə yaşamasına baxmayaraq, tez-tez Bakıya gəlir. Həm Bakı Pedaqoji İnstitutunda oxuyur, həm də Mayakovski, Nazim Hikmət kimi şairlərlə tanış olur. 1927-ci ili Maqsud Şeyxzadənin qaranlıq illərinin başlanğıcı saymaq olar. Dağıstanın Sovet İttifaqına daxil olub-olmaması mövzusunda aparılan müzakirələrin ən fəal iştirakçılarından biri də Maqsud Şeyxzadə olur. Çox keçmir ki, Stalinin cəlladları tərəfindən yaxalanır və milliyyətçi damğası ilə həbsə atılır. Sonra isə sürgün edilir. Maqsud Şeyxzadəyə türklüyün odlu, alovlu müdafiəçilərinin yaşadığı Krım və Qafqaza getmək qadağan olunur. Atası onu Özbəkistanın paytaxtı Daşkəndə göndərir. Maqsud Şeyxzadə Daşkənddə ətrafına özü kimi düşünən insanları toplayır və mübarizəsini davam etdirir. 1952-ci ildə yenidən millətçilikdə günahlandırılaraq həbs edilən və 25 il həbs cəzası alıb Sibirə göndərilən şairin anası, Stalinin vəfatından sonra SSRİ Ali Sovetinin Rəyasət Heyətinə oğlunun əfv olunması üçün məktub göndərir. 1954-cü ildə Məqsud azad olunur. Kitabları həm özbəkcə, həm də türkcə nəşr edilir. "Mirzə Uluqbəy" adlı əsəri ekranlaşdırılır. Maqsud Şeyxzadənin əsərləri sonuncu dəfə 1971-1974-cü illərdə altı cild şəklində nəşr olunmuşdur.

Maqsud Şeyxzadə 1967-ci ildə Daşkənddə vəfat etmişdir.

90 illiyi

Rəhilə Məhərrəmova 1923 -2011

Dilçi alim



Rəhilə Cavad qızı Məhərrəmova 1923-cü il noyabr ayının 7-də Bakıda anadan olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirmişdir. 1949-cu ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1945-ci ildən Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun Azərbaycan dili tarixi şöbəsində kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri vəzifələrində çalışmış, institutun baş elmi işçisi olmuşdur.

O, 60 ildən artıq respublikanın müxtəlif universitetlərində pedaqoji fəaliyyətini uğurla davam etdırmişdir.

Ümummilli lider Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin yanında yaradılmış Dövlət Dil Komissiyasının üzvü olmuşdur.

Dil tarixi, üslubiyyat, leksikologiya və dialektologiyaya dair 8 kitabı, 200-dən artıq məqaləsi respublika və xarici ölkələrdə, habelə bir məqaləsi YUNESKO-nun xətti ilə bir neçə dildə nəşr olunmuşdur. Onlarla əsərin elmi redaktoru, respublika və xarici ölkələrin elmi şuralarında namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olmuşdur.

Respublikamızın görkəmli şəxsiyyətlərinə (Mirzə İbrahimov, Mir Cəlal, Səməd Vurğun, Hadi Mirzəzadə və b.), tarixi abidələrə həsr olunmuş tədbirlərdə dəyərli məruzələr etmişdir.

Rəhilə xanım xalqımızın minilliyin dərinliklərindən qaynaqlanan yüksək mənəvi əxlaqi dəyərlərinin, dilinin qoruyucusu və yorulmaz təbliğatçısı olmuşdur. O, keçmiş Sovet İttifaqının müxtəlif respublikalarında keçirilmiş (Almatı, Daşkənd, Düşənbə, Moskva, Ufa, Nalçik, Kişinyov, Ujqorod, Aşqabad, Frunze, Sverdlovsk və s.) elmi konfrans və simpoziumlarda dilçiliyin, türkologiyanın aktual problemlərinə dair maraqlı elmi-nəzəri məruzələrlə çıxış etmiş, Azərbaycan dilçilik elmini ləyaqətlə təmsil etmişdir.

Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda çoxlu sayda gənc dilçi kadrlar hazırlamış, namizədlik və doktorluq dissertasiyalarına rəhbərlik və opponentlik etmişdir. Bununla da özünün, demək olar ki, elmi məktəbini yaratmışdır. "Sabirin söz dünyası" (2006), "Kitabi-Dədə Qorqud"un söz xəzinəsi" (2007) adlı böyük həcmli kitabları son illər onun yaradıcılıq potensialının real göstəriciləridir.

Xidmətlərinə görə "Şöhrət" ordeni, "Qızıl qələm" mükafatı ilə təltif edilmiş və Prezident təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat

Azərbaycan ədəbi dili tarixi: XVII-XVIII əsrlər [Mətn] /R. Məhərrəmova, F.Parənci; red. S.Mehdiyeva; AMEA Nəsimi ad. Dilçilik İnstitutu.- Bakı: Şərq-Qərb, 2007.- C.2.- 327 s.

XV-XVI əsrlər Azərbaycan ədəbi dili: Leksika. Söz yaradıcılığı [Mətn] /R.Məhərrəmova; elmi red. T.Hacıyev.- Bakı: Elm və təhsil, 2012.- 221 s.

XV-XVII əsrin əvvəllərində klassik Azərbaycan ədəbi dilində onomastik vahidlər [Mətn] /R.Məhərrəmova, Ş.Allahverdiyeva //Türkologiya -beynəlxalq elmi jurnal.- 2011.- №2.- S.3-22.

Rəhilə Cavad qızı Məhərrəmova [Mətn] //Elm.-2011.- 30 sentyabr.- S.16.

İnternetdə

www.anl.az

www.dil-tarix-poeziya.gen.az

www.elibrary.az

Milli ədəbiyyat

95 illiyi

İmran Qasımov 1918-1981

Yazıçı



İmran Haşım oğlu Qasımov 1918-ci il noyabr ayının 25-də Bakıda doğulmuşdur.

Orta məktəbi 1935-ci ildə bitirmiş, ADU-nun filologiya fakültəsinə (qiyabi) daxil olmuş, həm də Bakı Kinostudiyasında işləmişdir. Oradan Moskvaya kinossenaristlər kursuna göndərilmiş, 1937-ci ildə Bakı kinostudiyasında təcrübə stajı keçmiş, sonra ssenarist və məsləhətçi olmuşdur (1938-1942). Bu dövrdə "Yeraltı uğultu" (1937), "Yeni üfüqlər" (1940) kinossenarilərini və "Arzu" (1938) pyesini yazmışdır. 1942-ci ildə beş ay Hərbi rəis məktəbinin dinləyicisi olmuş, 1944-cü ilədək "Azərbaycanfilm"də ssenari şöbəsinin rəisi vəzifəsində işləmişdir. Azərbaycan Nazirlər Soveti yanında Kinematoqrafiya nazirinin birinci müavini vəzifəsinə irəli çəkilmişdir. Sonra 1944-1953-cü illərdə orada kollegiya üzvü və "Literaturnaya qazeta"nın xüsusi müxbiri, 1953-1954-cü illərdə Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi, 1954-1956-cı illlərdə "Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru işləmişdir. 1961-ci ilin iyununda Azərbaycan yazıçılarının IV qurultayında Yazıçılar İttifaqının katibi seçilmiş, 1975-ci ilin yanvarından ömrünün sonunadək Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. O, həm də Azərbaycanın Ədəbiyyat, İncəsənət və Arxitektura üzrə Dövlət mükafatları Komitəsinin sədri olmuşdur. Onun irsi zəngindir: kinossenari, pyes, roman, hekayə, oçerk, esse və publisistika onun yaradıcılığında xüsusi yer tutur, 50-yə yaxın qısametrajlı filmlərin ssenarisini (novella, oçerk, multiplikasiya və s.) yaratmışdır. "Xəzər üzərində şəfəq", "İnsan məskən salır", "Dairəni genişləndirin", "Ömrümüz qısadır" pyesləri, "Yeni üfüqlər", "Odlar ölkəsi", "İradə", "Sovet Azərbaycanı", "Abşeron ritmləri" və s. kinossenariləri, "Ceyran", "Fransız qobeleni", "İtaliya mozaikası" əsərləri rəğbət qazanmışdır. H.Seyidbəyli ilə müştərək əsərləri "Dəniz cəsurları sevir" (1954), "Sən nə üçün yaşayırsan?" (1959) pyesləri, "Uzaq sahillərdə" (1953), "İllər keçir" (1967) romanlarıdır. "Uzaq sahillərdə" əsəri 22 dildə 30 dəfədən çox nəşr olunmuşdur.

Xidmətlərinə görə Azərbaycanın "Əməkdar incəsənət xadimi" (1960), "Xalq yazıçısı" (1979) fəxri adlarına layiq görülmüş, Azərbaycan Dövlət mükafatı laureatı (1980) olmuş, Lenin ordeni, "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenləri, SSRİ medalları və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

İmran Qasımov 1981-ci il aprel ayının 20-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı küçələrindən biri yazıçının adını daşıyır.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: 2 cilddə /İmran Qasımov; red. heyəti. İ.Əfəndiyev, Anar, Z.Qiyasbəyli; tərt.ed. Ç.Əyyubov; ön sözün müəl. A.Səfiyev.-Bakı: Azərnəşr, 1988.- C.I.- 205 s.; C.II.- 267 s.

Ölkələr və insanlar [Mətn] /İ.Qasımov; tərt. E.Axundova.- Bakı: Azərnəşr, 2009. - 240 s.

Uzaq sahillərdə [Mətn]: povest /İ.Qasımov, H.Seyidbəyli; rəs. O.Sadıqzadə; red. R.Salamova.- Bakı: Uşaqgəncnəşr, 1961.- 322 s.

Xəlilzadə, F. Xəzərdən "Uzaq sahillər"ədək gedən yol [Mətn] /F.Xəlilzadə //Azərbaycan.- 2009.- 2 aprel.- S.6.

Tahir. Qələm "Mixaylo"su - ədəbi "kontr-kəşfiyyatçı", qurucu-yaradıcı: İmran Qasımov [Mətn] /Tahir //Mədəniyyət.- 2010.- 30 noyabr.- S.11.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

Dünya ədəbiyyatı

195 illiyi

İvan Sergeyeviç Turgenev 1818-1883

Rus yazıçısı



İvan Sergeyeviç Turgenev 1818-ci il noyabr ayının 9-da Rusiya imperiyasının Oryol şəhərində anadan olmuşdur.

1827-ci ildə Sergey Tugenev ailəsi ilə birgə Moskvaya köçmüş, 1833-cü ildə 15 yaşlı Turgenev Moskva Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. Bir il sonra onlar Peterburqa köçmüş və buna görə Turgenev təhsilini Peterburq Universitetində davam etdirməli olmuşdur.

1838-ci ildə elmlər namizədi dərəcəsinə yiyələnən şair Almaniyaya köçmüş, Berlində qədim latın və yunan dillərini dərindən öyrənmişdir.

1842-ci ildə vətəninə qayıtmaqla yazıçı, ədəbiyyat sahəsində fəaliyyətə başlamışdır. 1846-cı ildə "Bretter" və "Üç portret" povestlərini, daha sonra "Mumu", "Yakov Pasınkov", "Sakitlik" kimi məşhur əsərlərini qələmə almışdır. O, ən böyük romanlarının toplandığı "Nov" adlı kitabını 1860-cı ildə artıq Parisə köçdüyü zaman dərc etdirmişdir.

Böyük rus yazıçısı İvan Sergeyeviç Turgenev Puşkin, Lermontov və Qoqoldan sonra XIX əsrin ikinci yarısında realist rus ədəbiyyatı və ictimai-siyasi fikir tarixində özünəməxsus, əzəmətli yer tutmuşdur.

Onun mənsur şeirləri, hekayə və povestlərində çar Rusiyasının əsas təzadı - kəndlilərlə mülkədar təsərrüfatının böhranının sərtliklə yox, dünyagörüşünün liberal təbiətinə uyğun bir yumorla göstərmişdir.

Turgenevin romanlarında eyşişrətə sonsuz meyl, harınlıq, avara həyata aludəçilik, ehtiras düşkünlüyü rus dvoryanlarının çürüməkdə olan mənəviyyatını səciyyələndirən əsas əlamətlər kimi pislənilmiş və qarşıya XIX əsr rus mühitinin müsbət qəhrəmanını yaratmaq probleminin həlli məsələsi qoyulmuşdur.

İvan Sergeyeviç Turgenev 1883-cü il sentyabr ayının 3-də Parisdə dünyasını dəyişmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: iki cilddə /İ.S.Turgenev.- Bakı: Şərq-Qərb, 2006.- C.I.- 320 s.; C.II.-260 s.

Atalar və oğullar [Mətn]: [roman] /İ.S.Turgenev; [tərc. ed. M.Rzaquluzadə; red. R.Salamova].- Bakı: Gənclik, 1981.- 194 s.

Povestlər [Mətn] /İ.S.Turgenev; tərc. C.Məcnunbəyov.- Bakı: Gənclik, 1976.-256 s.

İnternetdə

www.anl.az

www.tr.wikipedia.org

www.deyerler.org

100 illiyi

Nəsrulla Kəngərli
1913-1991

Memar



Nəsrulla Yaqub oğlu Kəngərli 1913-cü il noyabr ayının 25-də Naxçıvanda anadan olmuşdur.

1929-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu və 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) memarlıq-inşaat fakültəsini bitirmişdir.

1945-ci ildən "Azərdövlətmemarlayihə", "Bakışəhərbaşlayihə", "Azərdövlətlayihə" institutlarında çalışmış, Bakıda bir çox yaşayış evlərinin və ictimai binaların (Mərkəzi univermaq, Tibb Universitetinin fizika-kimya korpusu və idman kompleksi və s.) habelə Gəncə Dəmiryol vağzalının, Xankəndində inzibati binaların layihələrini vermişdir. Kəngərlinin yaradıcılığında Sumqayıt şəhəri xüsusi yer tutmuşdur.

1968-1985-ci illərdə şəhərin baş planı, yaşayış məhəllələrinin, ictimai və digər təyinatlı binaların layihələri "Azərdövlətlayihə" institutunda onun başçılıq etdiyi emalatxanada işlənib hazırlanmışdır.

1951-ci ildən respublikanın orta ixtisas və ali məktəblərində dərs demiş, 1968-1990-cı illərdə Azərbaycan Politexnik institutunda (indiki Azərbaycan Texniki Universiteti), sonralar isə İnşaat Mühəndisləri İnstitutundakı (indiki Memarlıq və İnşaat Universiteti) Memarlıq konstruksiyaları kafedrasının dosenti olmuşdur. "Qırmızı Ulduz" ordeni, digər orden və medallarla təltif edilmişdir.

1960-cı ildə Azərbaycan Respublikasının "Əməkdar inşaatçısı" fəxri adına layiq görülmüş, 1972-ci ildə SSRİ Dövlət Mükafatı laureatı olmuşdur.

Nəsrulla Kəngərli 1991-ci il fevral ayının 25-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan SSR şəraitində yaşayış və mədəni-məişət binalarının tipləşdirilməsi məsələləri [Mətn] /Azərbaycan SSR EA, Memarlıq və İncəsənət İn-tu; red. hey. Q. M. Əlizadə, V. İ.Toçilov, N. Y.Kəngərli. - Bakı :AzSSR EA ,1962. - 230 s.

Kəngərli Nəsrulla Yaqub oğlu [Mətn] //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.229.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Tahir Salahov 1928

Rəssam



Tahir Teymur oğlu Salahov 1928-ci il noyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. 1957-ci ildə V.İ.Surikov adına Moskva Dövlət İncəsənət İnstitutunu rəssam-nəqqaş peşəsi üzrə bitirmişdir.

1960-1961-ci illərdə Azərbaycan Rəs-samlar Birliyində məsul katib vəzifəsində, sonra dosent, 1963-1974-cü illərdə isə M.Ə.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda professor vəzifəsində çalışmışdır. 1980-1992-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun Rəssamlıq və kompozisiya kafedrasını idarə etmişdir.

Bu gün sənətkarın bacarıqlı əllərinin məhsulu olan əsərlər dünyanın mötəbər muzeylərində və qalereyalarında, şəxsi kolleksiyalarda saxlanılır.

Həmyerlimiz Rusiyanın və MDB-nin bir çox ölkələrinin rəssamlıq akademiyaları ilə birgə, Madriddəki San-Fernando Kral İncəsənət Akademiyasının və Fransa Zərif Sənətlər Akademiyasının müxbir üzvüdür. Bundan başqa, "Ölməzlər Akademiyası" adlanan Fransa Zərif Sənətlər Akademiyasına SSRİ-dən cəmi üç nəfər üzv seçilmişdir ki, onlardan biri də həmyerlimiz Tahir Salahovdur. O, həm də Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşıdır.

Onun şah əsərlərindən biri müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin portretidir. İkinci əsər isə dünya şöhrətli həmyerlimiz Mstislav Rostropoviçin monumental portretidir.

Tahir Salahov Azərbaycan Rəssamlıq Akademiyasında bakalavr və magistr buraxılışı üzrə Dövlət Komissiyasına sədrlik etmişdir. Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üzrə Dövlət Komissiyasının, Heydər Əliyev Mükafatı Komissiyasının üzvüdür. Moskvada isə Rusiya Federal Məclisi Federasiya Şurasının sədri yanında Mədəniyyət Şurasının üzvü seçilmişdir.

T.Salahov həm də YUNESKO–nun nəzdində Millətlərarası Rəssamlar Federasiyasının vitse-prezidenti, 1997-ci ildə Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti seçilmişdir. Elə buna görə də, çox zaman onu "incəsənətin səlahiyyətli səfiri" də adlandırırlar.

Sənətinə dövlət qayğısı göstərilən bu böyük sənətkar saysız-hesabsız mükafatlar almışdır. Rusiyanın "Vətən qarşısında xidmətlərinə görə" ikinci və üçüncü dərəcəli ordenlərinə, müstəqil vətənimiz Azərbaycanın ali mükafatı olan "İstiqlal" ordeninə, Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin ordenlərinə, müxtəlif medallara və mükafatlara layiq görülmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci il noyabr ayının 27-də SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Xalq rəssamı T. Salahova "Heydər Əliyev" ordenini təqdim etmişdir.

8 iyul 2011-ci il tarixində Tahir Salahov Avropa Elm və İncəsənət Akademiyasının incəsənət bölməsi üzrə həqiqi üzvü seçilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2011-ci il 19 noyabr tarixli Fərmanı ilə təsviri sənətin inkişafındakı xidmətlərinə görə Tahir Salahova "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

Ədəbiyyat

Rəhmanzadə, F. Böyük yaşantının naxışları [Mətn]: Xalq rəssamı Tahir Salahovun həyatına bir baxış /F.Rəhmanzadə; red. O.Şıxəliyev, F.Qurbanova; burax. məsul T.Salahov.- Bakı, 2008.- 134 s.

Hər zaman müasir olan sənətkar [Mətn] /T.Salahov //Pəncərə: mədəniyyətə baxış.- 6 noyabr- 2007.- S.15-22.

Таир Салахов: жизнь и творчество [Текст] /автор текста В.С.Манин.-Баку, 2008.- 469 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.referat.day.az

90 illiyi

Tofiq Əhmədov 1923-1981

Dirijor



Tofiq Qəzənfər oğlu Əhmədov 1923-cü il noyabr ayının 8-də Bakıda anadan olmuşdur.

1955-57-ci illərdə E.Roznerin rəhbərlik etdiyi estrada orkestrinin (Moskva) konsertmeysteri, 1957-1961-ci illərdə özünün yaratdığı "Biz Bakıdanıq" estrada ansamblının bədii rəhbəri və drijoru olmuşdur.

1961-ci ildən Azərbaycan Televiziya və Radiosu Estrada Orkestrinin bədii rəhbəri və baş dirijoru dur. O, bir sıra estrada mahnısının, instrumental əsərlərin müəllifidir. Əhmədov rəhbərlik etdiyi orkestrlə birgə Çexoslovakiya, Kuba, Bolqarıstan, Finlandiya və s. ölkələrdə çıxış etmiş, 1968-ci ildə Sofiyada keçirilən Beynəlxalq Estrada musiqisi müsabiqəsinin laureatı olmuş və qızıl medalına layiq görülmüşdür. 1977-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adını almışdır.

Tofiq Əhmədov 1981-ci il mart ayının 23-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Əhmədov Tofiq Qəzənfər oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1980.-C.IV.-S.-258.

www.az.wikipedia.org

30 — 85 illiyi

Elmira Nəzirova 1928

Pianoçu



Elmira Mirzərza qızı Nəzirova 1928-ci il noyabr ayının 30-da Bakıda anadan olmuşdur.

1950-1954-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının fortepiano və bəstəkarlıq siniflərini bitirmişdir.

Fortepiano ilə orkestr üçün 12 prelüd, sonatina, ərəb mövzuları əsasında fortepiano ilə orkestr üçün konsert (1957, F.Əmirovla birgə), sonata-poema, Azərbaycan xalq mahnıları işləmələri (3 dəftər) və s. əsərlərin müəllifidir.

1951-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir. Azərbaycan SSR Əməkdar incəsənət xadimi, professor Elmira Nəzirova xidmətlərinə görə (1971), "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1990-cı ildən İsraildə yaşayıb yaradır.

Ə d ə b i y y a t

5 prelüd [Notlar]: fortepiano üçün /E.Nəzirova.- Bakı: İşıq, 1977.- 12 s.

Rüstəmova, A. Elmira Nəzirovanın fortepiano pyeslərində Azərbaycan xalq melodiya işləmələrinin ifa üslubu [Mətn] /A.Rüstəmova //Musiqi dünyası.- №3-4.- 2010.- S.194-196.

www.adam.az

www.gender-az.org

75 illiyi

Həsən Məmmədov 1938-2003

Aktyor



Həsən Ağaməmməd oğlu Məmmədov 1938-ci il noyabr ayının 22-də Salyan rayonunda doğulmuşdur. Burada 2 saylı orta məktəbi 1956-cı ildə bitirmiş və Azərbaycan Dövlət Universıtetinin (indiki Bakı Dövlət Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. İkinci kursda universitetdən çıxmış və bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq etmişdir.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində müəyyən fasilələrlə Dövlət radiosunda diktor işləmişdir (1960-1961). Məşhur teatrşünas Mehdi Məmmədovun kursunu 1962-cı ildə bitirmiş və təyinatla Akademik Milli Dram Teatrına göndərilmişdir.

1962-ci il sentyabr ayının 10-da bu qədim sənət ocağının aktyor truppasına üzv olmuşdur. On il ərzində kino çəkilişləri ilə əlaqədar olaraq müxtəlif müddətlərə dəfələrlə teatrdan işdən çıxmış və yenə kollektivə qayıtmışdır.

İldən ilə kino aktyoru kimi məşhurlaşan Həsən Məmmədov 1972-ci il fevral ayının 2-də köçürmə yolu ilə Akademik teatrdan çıxaraq "Azərbaycanfilm" kinostudiyasına işə qəbul edilmişdir. O, 1989-cu il may ayının 27-də dəvətlə Cəmil Əlibəyovun "Gülüstanda qətl" (quruluşçu rejissor Ağakişi Kazımov) dramının tamaşasında İlyas İbrahimov rolunu oynamışdır. O, Akademik Teatrın direktoru və bədii rəhbəri Həsən Turabovun dəvətilə 1992-ci il noyabr ayının 21-dən ömrünün sonunadək doğma kollektivin aktyor truppasında çalışmışdır.

Aktyorun rollar siyahısında milli və Avropa klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların əsərlərinin tamaşalarındakı səhnə obrazları var.

Kinoda çəkildiyi çoxsaylı rollar Həsən Məmmədovun yaradıcılığında xüsusi yer tutur. O, "Azərbaycanfilm"də istehsal olunmuş filmlərdə aparıcı rollar oynamışdır.

Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov teatr və kino sənətində göstərdiyi xidmətlərə görə 1970-ci ildə Respublika Lenin komsomolu mükafatı laureatı, 1971-ci il noyabr ayının 18-də "Azərbaycan Respublikasının Əməkdar artisti", 1 dekabr 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, "İstintaq" bədii filmindəki Murad roluna görə 5 noyabr 1981-ci ildə SSRİ Dövlət, "Birisi gün gecə yarısı" kino lentindəki Baba Əliyev obrazına görə Azərbaycan Respublikasının Dövlət mükafatları ilə təltif edilmişdir.

Həsən Məmmədov 2003-cü il avqust ayının 26-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Məmmədov Həsən Ağaməmməd oğlu [Mətn] //Məhərrəmov, A. Müasir Azərbaycan kinoaktyorları.- Bakı, 1984.- S.7.

İnternetdə

www.anl.az


www.az.wikipedia.org

www.kinozal.az

80 illiyi

Rasim Ocaqov 1933-2006

Rejissor



Rasim Mirqasım oğlu Ocaqov 1933-cü il noyabr ayının 22-də Şəkidə, həkim ailəsində anadan olmuşdur.

1951-1956-cı illərdə Moskvada ÜDKİ-nun kinooperatorluq fakültəsində təhsil almış, 1977-ci ildə M.A.Əliyev adına ADİİ-nun rejissorluq fakültəsini bitirmişdir. 1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator, 1973-cü ildən quruluşçu-rejissor işləmişdir. Moskva Kinematoqrafiya İnstitutunu bitirəndə kinooperator olmaq istəmiş, 1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator kimi çalışmağa başlamışdır.

1957-ci ildə ilk dəfə operator kimi "Bir məhəlləli iki oğlan" filmində işləmişdi. 1958-ci ildə "Onun böyük ürəyi" flimi isə R.Ocaqovun ilk sərbəst işi idi. "Uzaq sahillərdə" (1968), "Bir cənub şəhərində" (1969) "Əsl dost", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Sən niyə susursan?" və "Skripkanın sərgüzəşti" filmlərində Rasim Ocaqov Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrini yaratmışdır.

1973-cü ildən quruluşçu-rejissor kimi çalışmışdır.

Rasim Ocaqov ilk dəfə rejissor kimi 1975-ci ildə yarımçıq qalmış "Gəncəbasarlı qisasçı" filmini çəkməli olmuşdu. Film ekranlara çıxanda isə müəyyən iradlar deyilsə də, bütövlükdə filmin uğurlu olduğu mətbuatda geniş qeyd edilmişdi.

Xalq artisti Rasim Ocaqov rejissor kimi 28 ildən artıq bir dövrdə Azərbaycan kinosunun bədii salnaməsini yaratmışdır. Tarixi filmdə də, psixoloji dram janrında da eyni ciddiyyətlə işləmişdir.

Xalq yazıçısı Rüstəm İbrahimbəyovla Rasim Ocaqovun yaradıcılıq əməkdaşlığını xüsusi olaraq qeyd etmək lazımdır. "Ad günü" (1977), "Bağlı qapı" (1981), "Özgə ömür", "Park", "Ölsəm, bağışla", "Həm ziyarət, həm ticarət" və bir də "İstintaq" , "Təhminə", "Otel otağı" kimi son filmlərində də Rasim müəllim ciddi mövzulara toxunur, yenə də insanın ətraf aləmə münasibəti mövzusunda söhbət açır. Ancaq Rasim Ocaqov hansı mövzuda film çəkirdisə-çəksin, heç şübhəsiz ki, bizi düşündürən, xalqımızı narahat edən məsələlərdən danışırdı.

1990-cı ildən "Ocaq" müstəqil studiyasının rəhbəri olmuşdur.

Xidmətlərinə görə Azərbaycan və Çeçen-inquş Respublikasının "Əməkdar incəsənət xadimi" (1967,1964), Azərbaycanın "Xalq artisti" (1982) fəxri adlarına layiq görülmüş, Azərbaycanın (1980) və SSRİ-nin (1981) Dövlət mükafatı laureatı olmuşdur.

Rasim Ocaqov 2006-cı il iyul ayının 7-də, 73 yaşında, ürək çatışmazlığından vəfat etmişdir.

Ədəbiyyat

Mükərrəmoğlu, M. Ocaqov Rasim [Mətn] //Mükərrəmoğlu M. Ömrün çarpaz rakursları: Kinoşünaslıq; red. İ.Abbasov.- Bakı: Nurlan, 2007.- S.126.

Sadıxov, N. Ocaqov Rasim [Mətn] //Sadıxov Nazim. Azərbaycan kino rejissorları: Portretlər.- Bakı: İşıq, 1988.- S.67.

Qaraqızı, U. Rasim Ocaqovun "Təhminə" filmi [Mətn] /U.Qaraqızı //Кино.- 2005.- 25 noyabr. -№41.- S.4 .

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www. rasimocaqov.sheki.az

40 illiyi

Yavər Şahbazov 1973-1995

Milli Qəhrəman



Yavər Əlibala oğlu Şahbazov 1973-cü il noyabr ayının 1-də Xaçmaz rayonunda anadan olmuşdur.

1981-1991-ci illərdə burada orta məktəbdə təhsil almışdır. Vətənpərvərliyi ilə müəllimlərinin və sinif yoldaşlarının diqqətini çəkən Yavər, müharibəyə getmək və torpaqlarımızın bütövlüyü uğrunda savaşmaq istəyirdi.

1994-cü il iyun ayının 8-də o, öz arzusuna çatdı. Rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırıldı.

1995-ci il 13-17 mart hadisələri baş vermişdi. Milli Ordu işə qarışmış və Yavər də bu silahlı dəstənin zərərsiləşdirilməsində iştirak etmişdi. Güclü atışma başlayanda o, bir neçə yaralı döyüşçünü xilas etmiş, özü isə qəhrəmancasına həlak olmuşdu.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Şahbazov Yavər Əlibala oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Xaçmaz rayonunda dəfn edilmişdir.

Oxuduğu orta məktəb qəhrəmanımızın adını daşıyır. Məktəbin önündə və Xaçmaz şəhərində qəhrəmanımızın büstü qoyulmuş, 2003-cü ildə onun xatirəsinə Alekseyevka kəndində Şəhidlər abidəsi ucaldılmışdır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Şahbazov Yavər Əlibala oğlu – Müdafiə Nazirliyi, sıravi – Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il [Mətn] //Azərbaycan.- 1995.-5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Şahbazov Yavər Əlibala oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.206.

Seyidzadə, M. Şahbazov Yavər Əlibala oğlu [Mətn] //Seyidzadə M. Milli Qərhəmanlar zirvəsi.-Bakı, 2010.- S.208.

Şahbazov Yavər Əlibala oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.196.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

50 illiyi

Sergey Murtuzəliyev 1963-1993

Milli Qəhrəman



Sergey Murtuzəli oğlu Murtuzəliyev 1963-cü il noyabr ayının 17-də Bakının Pirallahı qəsəbəsində anadan olmuşdur.

Qəsəbələrindəki orta məktəbi bitirdikdən sonra təyyarəçi olmaq arzusu ilə Rusiyanın Yeysk şəhərində Ali Hərbi Aviasiya məktəbinə daxil olmuşdur. Sergey, burada təhsilini başa çatdırdıqdan sonra, bir müddət Rusiyada işləmiş, daha sonra, Azərbaycana qayıdaraq Kürdəmirdəki Hərbi Aviasiya alayında xidmət etməyə başlamışdır. O, polkovnik-leytenant rütbəsinə kimi yüksəlmişdir. Qarabağa - cəbhə bölgəsinə ilk uçuş edən təyyarəçilərdən biri Sergey olmuşdur. Onun idarə etdiyi təyyarə erməni yaraqlıları tərəfindən iki dəfə vurulmasına baxmayaraq, dəfələrlə cəbhə bölgəsinə uçuşlar edərək əhalinin təhlükəsiz yerlərə köçürülməsində böyük şücaət göstərmişdir.

Sergey Murtuzəliyev 1993-cü il avqustun 30-da təlim uçuşu zamanı qəzaya uğrayaraq həlak olmuşdur.

Ailəli idi. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 nömrəli Fərmanı ilə polkovnik-leytenant Murtuzəliyev Sergey Murtuzəli oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Sergey Dərbənd şəhərinin Darğuş kəndində dəfn olunub. Kürdəmir Hərbi Aviasiya alayında büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Murtuzəliyev Sergey Murtuzəli oğlu –polkovnik leytenant – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il [Mətn] //Azərbaycan.-1994.- 21 sentyabr.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Murtuzəliyev Sergey Murtuzəli oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.158.

Faxralı, R. Şəhid pilotlar [Mətn] //Faxralı R. Ömrün üfüqləri.- Bakı, 1996.- S.94.

Murtuzəliyev Sergey Murtuzəli oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli kitabxanası.- Bakı, 2008.- S.153

Seyidzadə, M. Murtuzəliyev Sergey Murtuzəli oğlu [Mətn] //Seyidzadə, M. Milli Qərhəmanlar zirvəsi.- Bakı, 2010.- S.163.

İ n t e r n e t d ə

www.anl.az

www.muallim.edu.az


www.az.wikipedia.org

Milli Qəhrəmanlar

45 illiyi

Şahlar Hüseynov 1968-1992

Milli Qəhrəman



Şahlar İsa oğlu Hüseynov 1968-ci il noyabr ayının 26-da Qərbi Azərbaycanın Razdan rayonunun Hankavan kəndində anadan olmuşdur. 1985-ci ildə burada təhsilini rus dilində başa vurmuşdur. 1986-1988-ci illərdə hərbi xidmətdə olmuşdur.

Şahlar, erməni vəhşilərinin 1992-ci il 25-26 fevral tarixində Xocalıda törətdikləri dəhşətli soyqırım hadisəsindən sonra könüllü olaraq Gəncə batalyonuna daxil olmuşdur. O, erməni dilini təmiz bildiyi üçün kəşfiyyata həmişə tək getmiş, çox mühüm məlumatlar əldə etmiş və bu məlumatlar sayəsində 10 aprel 1992-ci il Şıxarx (keçmiş Marquşevan) kəndinə hücum edən erməni qəsbkarlarının hücumunun qarşısı alınmış, bu döyüşdə Şahlar Hüseynov şücaət göstərərək qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Şahlar İsa oğlu Hüseynov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Şahlar İsa oğlu – sıravi –Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 13.- S.25.- (Ölümündən sonra).

Ənsər, B. Düşmənə qənim oğlan: [Həyatı, təhsili və döyüş şücaəti haqqında] [Mətn] //B.Ənsər Ağrıdağlı qəhrəmanlar.- Bakı, 2004.- S.19-23.

Əsgərov, V. Hüseynov Şahlar İsa oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.92.

Hüseynov Şahlar İsa oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.91.

Seyidzadə. M. Hüseynov Şahlar İsa oğlu [Mətn] //Seyidzadə M. Milli Qərhəmanlar zirvəsi.- Bakı, 2010.- S.98.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.muallim.edu.az

www.e-qanun.az



100 illiyi

Tahirə Tahirova 1913-1991

Dövlət xadimi



Tahirə Əkbər qızı Tahirova 1913-cü il noyabr ayının 7-də ziyalı ailəsində anadan olmuşdur.

T.Tahirova 1935-ci ildə Azərbaycan Sənaye İnstitutunu (AzSİ) bitirmiş, neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis olmuşdur. Daha sonra, 1940-cı ildə o, Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutuna direktor təyin olunmuşdur.

1942-ci ildən etibarən T.Tahirova Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində çalışarkən, Böyük Vətən müharibəsi dövründə cəbhənin fasiləsiz neft təchizatına cavabdeh idi.

1949-cu ildə isə partiya işindən AzSİ-nin Neft yataqlarının istismarı kafedrasında elmi-pedaqoji fəaliyyətinə qayıdaraq, o, 1953-cü ildə texniki elmlər namizədi dərəcəsini almışdır.

1954-cü ildən başlayaraq Tahirə Tahirova ayrı-ayrı rəhbər vəzifələrdə - Azərbaycan Həmkarlar İttifaqı Şurasının, Azərbaycan SSR Nazirlər Şurası nəzdində Dövlət Elm və Texnika Komitəsinin sədri, Nazirlər Şurası sədrinin müavini vəzifələrində çalışmışdır.

1957-ci ildə o, Xarici işlər naziri vəzifəsinə təyin olunmuşdur. Lakin vəzifəsinin praktiki icrasına yalnız 1959-cu ildə öz təşəbbüsü ilə SSRİ XİN-nin Diplomatik Akademiyasını bitirdikdən sonra başlamışdır. 1968-ci ilədək olan dövrdə o, SSRİ-nin müttəfiq respublikalarında (BMT-də öz nümayəndəlikləri olan Ukrayna SSR və Belarusiya SSR istisna olmaqla) mövcud olmuş qaydaya əsasən, Xarici İşlər nazirinin vəzifəsini digər vəzifələrlə yanaşı icra etmişdir.

1968-ci ildə öz xahişi ilə başqa hökumət vəzifələrindən azad olunaraq bütün gücünü diplomatik fəaliyyətə səfərbər etmişdir.

O, nazir işlədiyi müddətdə Azərbaycan diplomatlarının SSRİ-nin səfirliklərində işləməsinə, Diplomatik Akademiyada oxumasına daima diqqət yetirmişdir.

Bundan əlavə, o, Sovet hökumət və parlament nümayəndə heyətlərinin üzvü olaraq, BMT Baş Assambleyasının iclaslarında iştirak edərək, eləcə də respublikamıza səfər edən bəzi yüksək səviyyəli qonaqları qəbul edərək, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə çalışmışdır. 1976-cı ildə Tahirə Tahirova diplomatik fəaliyyətdə xüsusi xidmətlərinə görə SSRİ Xarici İşlər Nazirliyinin təqdimatı ilə "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmuşdur.

Türk, ingilis və rus dillərini bilmişdir.

1991-ci il oktyabrın 26-da Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Tahirə Tahirova [Mətn] Azərbaycan qadın ensiklopediyası.-Bakı, 2002.-S.378.

Tahirə Tahirova [Mətn] //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar.- Bakı, 2008.-S.39.

İnternetdə

www.adam.az


www.anl.az

www.az.wikipedia.org

130 illiyi

Rəşid xan Qaplanov 1883-1937

Dövlət xadimi



Rəşid xan Zavid oğlu Qaplanov 1883-cü il noyabr ayının 11-də Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndində zadəgan ailəsində doğulmuşdur. Milliyyətcə Şimali Qafqazda yaşayan qumuq türklərindən olan Rəşid xan Qaplanov Vladiqafqazda realnı məktəbdə oxumuş, 1910-cu ildə Parisdəki Sorbonna Universitetinin hüquq fakültəsini bitirmişdir.

Ali təhsil aldıqdan sonra İstanbula (Türkiyə) dəvət olunmuş, 1913-cü ilə qədər burada pedaqoji fəaliyyət göstərmişdir. O, bu müddətdə Osmanlı tarixini və ədəbiyyatını dərindən öyrənmişdir.

1913-cü ildə Vladiqafqaza qayıdan Rəşid xan Qaplanov şəhər dairə məhkəməsində andlı müvəkkil müavini vəzifəsində çalışmışdır.

Çərkəz-Dağıstan və Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətlərində müxtəlif nazir vəzifələrində çalışmışdır.

1919-cu ildən Bakıda yaşayan Rəşid xan Qaplanov Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğunda fəal iştirak etmişdir. 4-cü Hökumət Kabinetində xalq maarifi və dini etiqad naziri vəzifəsinə təyin olunmuşdur. Onun rəhbərliyi ilə Bakıda və Azərbaycanın bir çox şəhərlərində yeni məktəblər fəaliyyətə başlamış, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təhsil sahəsində uğurlu addımlar atılmışdır. Bakı Dövlət Universitetinin açılmasında yaxından iştirak etmiş, eyni zamanda burada "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs demişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 5-ci hökumət kabinəsində Qaplanov maliyyə naziri təyin olunmuş, dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərmişdir. 1920-ci il fevral ayının əvvəllində Bakı bonlarının Zaqafqaziya pullarının dəyişdirilməsini dayandırmaq barədə qərar vermişdi. Qərara əsasən, "500 manat" dəyərində olan kağız pul əlli beş seriya ilə dövriyyəyə buraxılmışdı. Pulun üzərində baş nazir Nəsib bəy Yusifbəylinin və maliyyə naziri Rəşid xan Qaplanovun imzaları olmuşdur. 1920-ci il Aprel işğalından bir həftə əvvəl Qaplanov Batuma ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam vermişdir. Aprel işğalından sonra, 1920-ci ilin iyununda Qaplanov Bakıda həbs olunaraq, əvvəlcə Vladiqafqaza, sonra isə Moskvaya göndərilmişdir. Moskvadakı Şərq Xalqları Universitetində "Osmanlı imperiyası tarixi"ndən dərs demiş, eyni zamanda, vəkil kimi özəl fəaliyyət göstərmişdir. Repressiyaya məruz qalmışdır. 1937-ci il yanvar ayının 28-də Bakıda dünyasını dəyişmişdir.

Ədəbiyyat

Əliyev, M. Rəşidxan Qaplanov. "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti - 1918-1920"[Mətn].- Bakı, 1990.

Mərdanov, M. Azərbaycan çağdaş milli təhsil sisteminin təməlini qoyanlar [Mətn] /Misir Mərdanov, Əsgər Quliyev //El.- 2010.- №88.-S.4-16

Məmmədzadə, N. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi kursunun formalaşdırılmasında siyasi partiyaların rolu [Mətn] "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları. 28 aprel, 2003.

Rəşid xan Zavid oğlu Qaplanov [Mətn] //Azərbaycan müəllimi.- 13 may.- 2011.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.muallim.edu.az

Neft

105 illiyi

Səftər Quliyev 1908-1973

Akademik



Səftər Mehdi oğlu Quliyev 1908-ci il noyabr ayının 21-də Bakıda anadan olmuşdur.

1930-cu ildə M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunu bitirmiş (indiki Azərbaycan Texniki Universiteti), 1932-ci ildən həmin institututda dərs demiş, 1949-1960-cu illərdə Neft və qaz quyularının qazılması kafedrasının müdiri olmuşdur.

1948-ci ildə texnika elmləri doktoru elmi dərəcəsini, 1949-cu ildə professor elmi adlarını almışdır.

1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1959-cu ildə akademiki olmuşdur.

1960-1971-ci illərdə Azərbaycan SSR EA-nın Dərin neft və qaz yataqları Problemləri İnstitutunun direktoru işləmişdir. Qazıma rejiminin əsasları və quyuların möhkəmləndirilməsi, sürətli qazıma texnologiyası, maili və şaquli quyuların turbinlə qazılması, süxurların pillə-pillə dağıdılması, süxurlardan neftin süzülməsi və s. sahədə elmi-tədqiqat işi aparmışdır. Çox dərin qazımanın texnoloji və nəzəri məsələlərinə aid ilk elmi-tədqiqat işi Quliyevə məxsusdur.

Quliyev 20 monoqrafiyanın müəllifidir. Azərbaycan dilində elmi texniki terminlərin yaradılması, elmi texniki kadrların hazırlnmasında xidməti olmuşdur Xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı Ordeni" və medallarla təltif edilmiş, 1958-ci ildə "Əməkdar elm xadimi", 1968-ci ildə "SSRİ-nin Fəxri neftçisi" fəxri adını almışdır.

Səftər Quliyev 1973-cü il yanvar ayının 26-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Quliyev Səftər Mehdi oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı,1979.-C.III.-S.268

Neft-mədən işlərinə dair ingiliscə- azərbaycanca- rusca lüğət [Mətn]: 17700 termin /tərt. ed. S.Quliyev, A.Mdivani; red. A.Quliyev, A.Qurbanov; nəşr ed. Vahid Əziz.- Bakı: Ergün: Bakı-İnvest BM, 1995.-724 s.

Neft və qaz quyularının qazılmasına dair məsələ və hesablamalar [Mətn]: ali texniki məktəblərin tələbələri üçün dərs vəsaiti /S.Quliyev; red.: M.Seyid-Rza, S.Həşimzadə.- Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı, 1962.- 268 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

130 illiyi

Mir Əsədulla Mirqasımov 1883-1958

Akademik



Mir Əsədulla Mir Ələsgər oğlu Mirqasımov 1883-cü il noyabr ayının 17-də Bakı şəhərində ruhani seminariyası müəlliminin ailəsində anadan olmuşdur. 1908-ci ildə o, gimnaziyanı bitirmişdir. Oxuduğu illərdə ictimai fəaliyyətə başlamış, qəzet və jurnallara məqalələr yazmışdır. Bu məqalələrdə müəllif, əsasən, Şərq ölkələrində müsəlman qadınlarının acınacaqlı vəziyyəti məsələsindən bəhs etmişdir.

1913-cü ildə Odessa şəhərində yerləşən Novorossiysk Universitetinin tibb fakültəsini bitirmişdir. Mirəsədulla Mirqasımov universitetdə təhsil almaqla bərabər Uzaq Şərq mədənlərində feldşer işləmişdir. Elmi işə erkən meyl göstərdiyinə və böyük iş qabiliyyəti olduğuna baxmayaraq M.Mirqasımovun klinikada işləmək cəhdləri baş tutmamışdır. O, Odessanın şəhər xəstəxanalarından birində çox çətinliklə xəstəxana həkimi vəzifəsinə işə düzəlmiş, sonra isə ordinator olmuşdur.

1916-1919-cu illərdə Bakıda hərbi hospitalda həkim-cərrah işləmişdir. 1919-1929-cu illərdə ADU-nun tibb fakültəsinin dosenti, 1929-1958-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun hospitalcərrahiyyə fakültəsinin professoru, kafedra müdiri olmuşdur.

1945-1947-ci illərdə Azərbaycan SSR EA-nın ilk prezidenti vəzifəsini tutmuşdur.

Azərbaycanda müasir tibb təhsilinin və elminin banilərindəndir. 1927-ci ildə tibb elmləri doktoru, 1929-cu ildə prfessor, 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü olmuşdur. Azərbaycan EA-nın və Tibb Universitetinin təşkilatçılarından olmuşdur. İlk azərbaycanlı alim-cərrahdır. 1929-1958-ci illərdə Azərbaycan Tibb Universitetinin Hospital cərrahiyyə kafedrasının professoru və müdiri olmuşdur.

Azərbaycanda tibbi cərrahiyyə elmi məktəbinin təşkilatçısıdır. Alimin elmi fəaliyyəti əsasən sidik daşı xəstəliklərinin etiologiyası, klinikası və müalicəsinin öyrənilməsinə, irinli peritonitlər, anesteziologiya, travmotologiya, urologiya və cərrahlığın aktul məsələlərinə həsr olunmuşdur. Yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətləri var. Azərbaycan dilində ümumi cərrahiyyəyə aid ilk elmi əsərlərin və dərsliklərin müəllifidir. Ümumiyyətlə, 6 monoqrafiya və dərsliyi, 50 elmi əsəri nəşr olunmuşdur.

Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına, "Lenin ordeni", 2 "Qırmızı Əmək Bayrağı" ordeni, "Qırmızı Ulduz" ordeni və metallarla təltif edilmişdir. Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlu 1958-ci il iyul ayının 20-də, Bakı şəhərində vəfat etmişdir.

Bakıdakı Respublika xəstəxanası və küçələrdən biri onun adını daşıyır.

Ədəbiyyat

Əliyeva, İ. Elmlər Akademiyasının ilk prezidenti [Mətn] /İ.Əliyeva //Azərbaycan.- 2008.-19 noyabr.-S.6.

Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlu [Mətn] //Fəxri Xiyaban.- Bakı: Heydər Əliyev Fondu, 2007.- S.156.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.science.az

Tarixdə bu gün

90 illiyi

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əsası qoyulmuşdur

1923-cü il noyabr ayının 1-də elmi-tədqiqat işləri aparmaq məqsədilə Əbdürrəhim bəy Haqverdiyevin sədrliyi ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılmışdı. Bu cəmiyyət respublikanın baş elmi müəssisəsi olmuşdu.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" respublikada elmin və mədəni-maarif işinin inkişafında boyük rol oynamışdır. İlk dövrlərdə Cəmiyyətin tərkibinə Tarix-Etnoqrafiya, İqtisadiyyat və Təbiətşünaslıq bölmələri daxil edilmiş, 1925-ci ildə ayrıca Türkologiya bölməsi yaranmışdı. Ayrı-ayrı elm sahələri istiqamətində tədqiqatlar aparılması məqsədilə tarix, tarix-ədəbiyyat, etnoqrafiya, dilçilik, lüğətçilik, hüquq, coğrafiya, Xəzər dənizinin tədqiqi, sovet quruculuğu, sənaye, təsviri incəsənət, teatr, musiqi və s. sahələr üzrə komissiya və yarımkomissiyalar təşkil edilmişdi. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" respublikada elmin və mədəni-maarif işinin inkişafında boyük rol oynamışdır. Azərbaycanın, eləcə də qonşu regionların tarixi, arxeologiyası, etnoqrafiyası, təbii sərvətləri, elm və mədəniyyətinin öyrənilməsində bu cəmiyyətin mühüm xidmətləri olmuşdur. Azərbaycan haqqında materialın toplanması, tədqiqi və nəşri ilə məşğul olmaqla yanaşı cəmiyyət, eyni zamanda həmin nəşrlərin elmi ictimaiyyət arasında təbliğini və yayılmasını da təşkil etmişdi.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (DETİ) adlandırılmışdı. İnstitutun təbiyyat, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, Sovet Şərqi və xarici Şərq, dövlət və hüquq bölmələri mövcud idi. 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan Şöbəsi təşkil edilmişdi. Ruhulla Axundovun rəhbərlik etdiyi şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər - F.Y.Levinson-Lessinq, İ.M.Qubkin, A.A.Qrossheym, N.Y.Marr, İ.İ.Meşşanov, A.N,Derjavin, İ.Q,Yesman, ilk Azərbaycan alimlərindən B.Çobanzadə, V.Xuluflu, M.Əfəndiyev, A.Tağızadə, S.Mümtaz, A.S.Məmmədov və başqaları burada elmi-tədqiqat işləri aparırdılar.

1935-ci ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan Filialına çevrilmişdi. Filialın yanında mövcud bölmələr əsasında kimya, botanika, zoologiya, tarix, etnoqrafiya və arxeologiya, dil və ədəbiyyat elmi-tədqiqat institutları, habelə energetika, fizika, geologiya, torpaqşünaslıq sektorları yaradılmışdı. Filialın Rəyasət Heyətinin sədri əvvəl akademik İ.M.Qubkin, sonralar isə akademik S.S.Namyotkin olmuşdur. SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan Elmlər Akademiyasına çevrilmişdi. Həmin il Azərbaycan EA-na 15 həqiqi üzv seçilmişdi. Ü.Hacıbəyli, S.Vurğun, M.İbrahimov, Y.Məmmədəliyev, M.Qaşqay, A.A.Qrossheym, S.Dadaşov, İ.Q.Yesman, M.Mirqasımov, Ş.Əzizbəyov, Ə.Əlizadə, M.Topçubaşov, M.Hüseynov, H.Hüseynov və İ.İ.Şiroqorov onun ilk heyət üzvləri idi.

Ə d ə b i y y a t

Xələfov, A. Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyətinin kitabxanası [Mətn]/A.Xələfov //Azərbaycanda kitabxana işinin tarixi: dərslik.- Bakı, 2007.- Hissə II.- S.319-324.

İ n t e r n e t d ə

www.science.gov.az

www.istoriya.az

referat.day.az

Tarixdə bu gün

Ümummilli lider Heydər Əliyevin xalqa müraciəti 1993

Müstəqilliyimizin ilk illərində ölkədə xoşagəlməz meyllərin mövcud olduğu, anarxiya, xaos və özbaşınalığın hökm sürdüyü bir dövrdə müstəqilliyimiz yenə də təhlükə altına düşmüşdü. 1991-1993-cü illərdə ölkə idarəolunmaz vəziyyətdə idi. Total böhran həm iqtisadi sahədə, həm siyasi, həm də hərbi sahədə hökm sürürdü. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımız əldən getmiş, 1992-ci ilin mayında Şuşa və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində demək olar ki, Dağlıq Qarabağ ilə Ermənistan arasında bir bağlantı əldə edilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurmuşdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq halları, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac vermişdi.

Azərbaycan xalqı öz xilasını, öz gələcəyini ancaq Heydər Əliyevdə görürdü və bu münasibətin, bu fikirlərin əlbəttə ki, çox böyük əsasları vardı. Çünki XX əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Azərbaycanda yaşanan inkişaf Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan üçün həlledici anlarda məhz onun qətiyyəti, onun sözü həlledici rol oynamışdır.

1993-cü il noyabr ayının 1-də Azərbaycanda Müdafiə Şurası yaradılmış, noyabr ayının 2-də isə Prezident Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı televiziya ilə xalqa müraciət etmişdir: - "Əziz həmvətənlər, hörmətli bacılar və qardaşlar! Azərbaycan vətəndaşlarına məlumdur ki, mən Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən gündən indiyə qədər, indi isə Prezident vəzifəsində olduğum zaman Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulması, işğal edilmiş torpaqlarımızın geri qaytarılması və ümumiyyətlə, bu hərbi münaqişənin kəsilməsi tərəfdarı olmuşam. Münaqişənin həll edilməsində sülh yoluna üstünlük vermişəm və bu məsələlərin danışıqlar yolu ilə həll olunmasını daha lüzumlu bilmişəm. Milli Məclisin iclaslarında bu barədə dəfələrlə fikir mübadiləsi olubdur və Milli Məclis, Azərbaycan ictimaiyyəti bu siyasəti bəyənmişdir. Biz bu yolla getməyə çalışmışıq".

Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başlamışdı. Respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirilmiş, vətəndaş müharibəsinin qarşısı alınmış, Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edilmişdi.

Ə d ə b i y y a t

Əliyev, H. Ermənistan silahlı qüvvələrinin Azərbaycan respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Milli Televiziya və Radio ilə xalqa müraciəti, 2 noyabr 1993-cü il //Əliyev Heydər. Mustəqilliyimiz əbədidir.- Bakı, 1997.- 1997.-K.I.: iyun,1993- may, 1994.-S.148-155.

www.anl.az

Televiziya və Radio İşçiləri Günü



Milyonlarla insan hər gün radio və televiziyanın köməyi ilə dünyanın müxtəlif yerlərində baş vermiş mühüm hadisələrdən xəbər tutur. Səs və görüntülər uzaq məsafələrə xüsusi cihazlar və peyk antenaları vasitəsilə ötürülür.

1895-ci ildə rus fiziki A.S.Popov radioqəbuledici və radioötürücü aparatı icad etmişdir.

Avropada isə radionun kəşfi çox vaxt italyan alimi Qulyelmo Markoniyə aid edilir.

Televizorun (yunanca "tele"- uzaqlıq, latınca "vizor" - görmə sözlərindəndir) ixtirası isə bir qədər sonraya - XX əsrin 20-30-cu illərinə təsadüf etmişdir. 1933-cü ildə amerikalı mühəndis, rus mənşəli Vladimir Zvorikin televizorun əsas hissələrindən biri olan ötürücü qurğunu ixtira etmişdi. XX əsrin 30-cu illərin ortalarından televiziya verilişlərinin yayımı başlanmışdı. İlk televiziya verilişi 1936-cı ildə Londonda olmuşdur. 1939-cu ildə ABŞ mühəndisləri A.Roze və X.Yoms tərəfindən televiziya ötürücü trubkası (optikon) ixtira edilmişdi.

Avropada yalnız 50-ci illərdə televiziya geniş yayılmağa başlamışdı.

Azərbaycanda radionun tarixi XX əsrin 20-ci illərindən başlayır. Bakıda ilk radio qurğusu 1924-cü ildə quraşdırılmış, 1926-cı ildə isə ilk radiostansiya fəaliyyətə başlamışdır. Məhz həmin il noyabrın 26-da ilk radio verilişi efirə çıxmışdır. O dövrdə radio verilişlərinin gündəlik efir vaxtı cəmi 2 saat təşkil edirdi. Sonradan bu vaxt 4 saata, daha sonra 6 saata çatmışdı.

Azərbaycanda ilk televiziya verilişi isə 1956-cı il fevralın 14-də efirə çıxmışdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra müstəqil teleradio şirkətlərin sayı da artmışdır.

Hazırda ölkədə dövlət radio və televiziyası ilə yanaşı "ANS", "Lider", "Speys", "Azad Azərbaycan", "Bürc FM" kimi özəl televiziya və radio kanalları müxtəlif məzmunlu verilişlər yayımlayırlar.

2004-cü il setyabrın 11-də "İctimai Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikası qanununun qəbul edilməsilə şəffaflıq, qərəzsizlik və ictimai maraq prinsiplərini önə çəkən İctimai Teleradionun yaradılmasına start verildi. Qanun İctimai TV-nin müstəqil, tərəfsiz, qərəzsiz və doğrudürüst informasiya çatdırmasını, plüralizm, dözümlülük, rəngarənglik və başqalarından fərqlənmək prinsiplərini əsas götürür.

Azərbaycanda hər il noyabr ayının 6-sı Radio və Televiziya İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.

Ədəbiyyat

Dəmirçioğlu, N. İnformasiya yayımının canlı və kütləvi vasitəsi [Mətn] /N.Dəmirçioğlu //Xalq qəzeti .-2008.- 6 noyabr.- S.7.

Mehdixanlı, T. Günümüzün aynası: 6 noyabr- teleradio işçilərinin peşə bayramıdır /T.Mehdixanlı //Azərbaycan.-2007.- 6noyabr.- S.5.

Televiziya və Radio İşçiləri Günü [Mətn] //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S. 27.

İnternetdə

www.anl.az

www.ebooks.preslib.az

Tarixdə bu gün

Azərbaycan Respublikasının üçrəngli bayrağı

95 illiyi

1918



Azərbaycan Respublikasının Döv-lət Bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verilmişdir. Həmin qərara görə Azərbaycan bayrağını qırmızı materialdan, üstündə ağ aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək nəzərdə tutulmuşdu. Bu qərar qəbul edilərkən Azərbaycan hökuməti hələ Gəncə şəhərində yerləşirdi. Hökumət Bakıda yalnız 15 sentyabr - şəhər türk qoşunlarının köməyi ilə düşmən qüvvələrdən təmizləndikdən sonra fəaliyyət göstərə bilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Bakıda fəaliyyətə başlamasından az sonra, bayraq haqqında ikinci qərar qəbul edilmişdi.

1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası milli bayraq haqqında qərar vermişdir. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı həmin qərarda deyilir: "Milli bayraq kimi yaşıl, qırmızı, mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin".

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilmişdir.

İkinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bu bayraq bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir.Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan bayrağının dalğalandığı dirək dünyada ən hündür bayraq dirəyi hesab olunur. "Ginnes"in dünya rekordları təşkilatı Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Qeyd edək ki, bayrağın çəkisi 350 kiloqramdır. İnşa olunmuş dayağın hündürlüyü isə 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri isə 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur.

Prezident İlham Əliyev 2009-cu il 17 noyabr tarixli Sərəncamla noyabr ayının 9-nu Azərbaycanda Dövlət Bayrağı Günü elan etmiş və bu bayram ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilmişdir.

Ədəbiyyat

Əliyev İ. Azərbaycan Respublikasının dövlət rəmzləri [Mətn] /İ.qrar Əliyev, E.Ə. Məhərrəmov.- Bakı: Nurlan, 2008.-56 s.

Əhmədov, S. Azərbaycan Respublikasının Dövlət Bayrağı [Mətn] /S.Əhmədov, V.Məmmədov; elmi red. və ön sözün müəl. N.Vəlixanlı.- Bakı: Mega basım, 2010.- 153 s.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org


www.gov.az

www.mct.gov.az

Tarixdə bu gün

65 illiyi

Mingəçevir şəhəri 1948



Ərazisi: 130 km2
Əhalisi: 98.4000 (01.2011)

Mingəçevir şəhəri Kür çayının üzərində su elektrik stansiyasının tikintisi ilə bağlı salınmışdır. 11 noyabr 1948-ci ildə şəhər statusu almışdır. Bakı-Tbilisi dəmir yolundan 17 km aralıda yerləşir.

Coğrafi cəhətdən şəhər, respublikanın mərkəzində, Kür çayının hər iki sahilində salınmışdır. Mingəçevir su anbarı şəhərin şimal-qərbində 3 km məsafədə yerləşir.

Gənc sənaye şəhəri Mingəçevirdə aparılan arxeoloji qazıntılar zamanı çox maraqlı qədim əşyalar tapılmışdır. Qədim Mingəçevir adının mənası haqqında müxtəlif əfsanələr mövcuddur. Mingəçevir adını türk mənşəli Mingiçöhr adlı sərkərdənin adı ilə əlaqələndirirlər. Ərəb tarixçisi Təbarinin yazdığına görə, IX əsrdə, ərəb xilafətinin hökmranlığı dövründə Azərbaycanın müvəqqəti hakimi olmuş sərkərdə Mingiçöhr indiki Mingəçevirin ətrafında özü üçün iqamətgah düzəltmiş və az sonra xilafətdən uzaqlaşmışdır. Lakin xilafət qoşunları onu məğlub edərək əsir tutmuş və zindana salmışdır. Sonradan bu sərkərdənin şərəfinə həmin məntəqə Mingiçöhr adlanmışdı. Bu barədə başqa bir fərziyyəyə görə isə şəhərin adının mənası: "geri qayıt, daha yol yoxdur" deməkdir. XVII əsrdə yaşamış türk səyyahı Övliya Çələbi özünün "Səyahətlər" adlı kitabına yazırdı: "Qədimdə Kür çayının sağ sahilində Mingəçevir adlı yer olmuşdur". 4500 ildən çox tarixə malik olan bu yerin mənasını Ziya Bünyadov elmi cəhətdən belə izah edir: "Bu ad 839-cu ildə yaşamış və xəlifəyə qarşı mübarizə aparmış Minqiçevir əl-Fərqaninin adı ilə bağlıdır."

Kür çayının sahilində, mənzərəli bir yerdə salınmış Mingəçevir şəhəri yerli və əcnəbi turistlərin diqqətini cəlb etmişdir. Şəhərdə maraqlı arxitekturaya malik müasir binalar, o cümlədən, böyük bir təzə məscid vardır. Kür çayının yaxınlığında tikilmiş restoranlar və çayxanalar qonaqların istirahəti üçün hər cür şəraitə malikdir. Şəhərin yaxınlığında süni göl və kiçik bir çimərlik var. Kürün sahilində Olimpiya avarçəkmə bazası yerləşir.

Mingəçevir şəhərində Politexnik İnstitutu, Azərbaycan Müəllimlər İnstitutunun filialı, Bakı İslam Universitetinin şöbəsi, Mingəçevir Tibb məktəbi, Bakı Bədən Tərbiyəsi və İdman Kollecinin şöbəsi, 22 ümumtəhsil məktəbi, internat məktəb və lisey, 21 uşaq bağçası, mərkəzi şəhər xəstəxanası, "Ana və uşaq" müalicə sağlamlıq mərkəzi, doğum evi, müxtəlif sahələr üzrə dispanser və mərkəzlər, dövlət dram teatrı, dövlət rəsm qalereyası, tarix muzeyi, 16 kitabxana, 3 musiqi məktəbi, 6 klub var.

Mingəçevir Arxeoloji kompleksi Bozdağ silsiləsinin cənub ətəklərində, Kürün hər iki sahilində Tunc dövründən son orta əsrlərədək dövrü əhatə edən abidələrdən - 4 yaşayış yeri və 4 böyük qəbiristanlıqdan ibarətdir.

Ədəbiyyat

Bayramoğlu, N. Mingəçevirdə qalan ömür [Mətn] /N.Bayramoğlu.- Bakı: Çinar-Çap, 2006.- 223 s.

İsaoğlu, A. Nurlu şəhər [Mətn] /A.İsaoğlu //Ədalət.- 2011.- 11 yanvar.- S.7.

Mingəçevir [Mətn] //Azərbaycan Milli Ensiklopediyası.- Bakı, 2007.- S.849


İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.mingechevir-ih.gov.az

Konstitusiya Günü 1995



Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası, müstəqil Azərbaycanın ilk Konstitusiyası idi.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti, dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşmüşdür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il may ayının 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSR Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunmuşdur. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yaranmış, ulu öndər Heydər Əliyev başda olmaqla xüsusi komissiya təşkil edilmiş və Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi. 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu ilə, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını qoymuş yeni Konstitusiya 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

2009-cu il martın 18-də keçirilən referendumda isə Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur.

Ölkəmizdə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günü kimi qeyd olunur.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir, dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir.

Konstitusiyanın yaranma tarixinə nəzər salsaq görərik ki, dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə təsbit olunmuş, ölkədə qəbul olunan Azadlıqların Böyük Toplusu ilk konstitusiya aktı sayılmışdır. İlk yazılı ali qanun isə ABŞ Konstitusiyasıdır.

"Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünün dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır".

Heydər Əliyev, ümummilli lider

Ədəbiyyat

Azərbaycan Respublikasının Konstitusiyası [Mətn]: 12 noyabr 1995-ci ildə qəbul edilmişdir, 24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələrlə.- Bakı: Qanun, 2003. -48 s.

Azərbaycan Respublikası Konstitusiyası əsas qanundur [Mətn] /tərt. müəl. R.Yusifova; rəy.: R.Hüseynov, İ.Cəfərov, Ş.Xuduoğlu, Y.Balakişiyeva; Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Qeyri-Hökumət Təşkilatları üçün Resurs və Təlim Mərkəzi, Azərbaycan Maarifçi Gənclər Təşkilatı.- Bakı: Şur, 2000.- 292 s.

Xəlilov, Y. Azərbaycan Respublikası Konstitusiyasına dair 555 sual – 555 cavab [Mətn].- Bakı: Qanun, 2008.- 93 s.

İnternetdə

www.anl.az

www.dia.edu.az

www.country.az

www.az.wikipedia.org

Milli Dirçəliş Günü 1988



1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovmuşdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürmüş, diri-diri yandırmışdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya verməmişdilər. Ermənilər bununla da kifayətlənməmiş, 1988-ci il fevral ayının əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətmişdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırmışdılar.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxmış, xalq öz etirazını şəkildə rəhbərliyə bildirmiş, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V.İ.Lenin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər.

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlanmışdı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdılmışdı. 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

"XX əsri sona vuraraq, 2000-ci ilə gedərək qürur hissi ilə deyə bilərəm ki, həyatımızın nə qədər çətin, faciəli bir dövrünü yaşadıqsa, eyni zamanda ölkəmizin dirçəlişini, inkişafını, daha da gözəl gələcəyini təmin edə bildik".

Heydər Əliyev, ümummilli lider

Ədəbiyyat

Əliyeva, Y. 17 noyabr Milli Dirçəliş günüdür! Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir: Milli azadlığa nail olmaq üçün milli dirçəliş lazımdır [Mətn] / Y. Əliyeva //İki sahil. - 2005.- 17 noyabr.-224. -S.2.

Hüseynova, Z.17 noyabr -milli dirçəliş günü! Azərbaycan xalqı 17 noyabrda birliyini bütün dünyaya sübut etdi [Mətn] /Z. Hüseynova //Səs. - 2005.- 17 noyabr. -N221.-S.6.

Milli Dirçəliş Günü [Mətn] //Əkbər Qocayev Bayramlar və tarixi günlər.- Bakı, Altun Kitab, 2006.-S.30.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadliq.org

Tarixdə bu gün

Qarakənd faciəsi 1991

Qarakənd faciəsi və ya 20 noyabr faciəsi - 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür. Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulmuşdu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatmış, lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verlişinin xəbərlər bölümündə, saat 15:30-də yayımlanmışdı. Həmin gün bu məlumatı saat 16:15-də Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlamışdı.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV prokuroru İqor Aleksandroviç Plavski, DQMB Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnik-leytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, videooperator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov, Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdi.

Üstündən iyirmi iki il keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Məsələn, nə üçün bu qədər dövlət rəsmisi eyni zamanda bir helikopterdə toplanmışdır? Nə üçün döyüş zonasında mühafizə üçün onu hərbi helikopter müşayiət etməmişdir? Uçuşun dəqiq marşrutunu ermənilər haradan bilmişdir? Yeri gəlmişkən, həmin məlumata yalnız Qarabağda sovet silahlı qüvvələrinin komandanlığı malik olmuşdu. Helikopterin vurulduğu raketin mənbəyi də məlum deyil. Qarabağda o zaman ən çox istifadə edilən silah təyyarəvuran zenit raketləri və eyninövlü "Alazan" raketləri idi. İstilik raketlərindən istifadə edilmirdi. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır.

Bu terror aktı ilə erməni separatçıları özlərinin terrorçu mahiyyətini bir daha sübut etmişdilər. Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Hazırda isə cinayət işi üzrə istintaq dayandırılmış və buna səbəb terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır.

Ə d ə b i y y a t

Abbasoğlu, B. Qarakəndin səmasında qara olay... hələ də "dillənməyən" qara yeşik...: və yaxud Tamerlan Qarayevi onlarla getməyə kim qoymadı?! [Mətn]//Ədalət. .-2011.- 19 noyabr.- S.21.

Ədliyyə İşçilərinin Peşə Bayramı Günü 1999



Azərbaycanda ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini, onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. Belə ki, Ədliyyə Nazirliyinin təsis edilməsinə xüsusi əhəmiyyət verilərək 1918-ci il may ayının 28-də - Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün Ədliyyə Nazirliyi də yaradılmışdır.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi, ümummilli lider, cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmişdi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmışdır.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və cənab Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı, səlahiyyət dairəsi genişləndi.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək 22 noyabr - 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi günün Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməsi üçün dövlət başçısına müraciət edilmiş və cənab H.Ə.Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilmişdir.

Ə d ə b i y y a t

Abbasov, İ. 22 noyabr Ədliyyə İşçiləri Günüdür [Mətn]: Ədliyyə orqanları və hüquq islahatları //Xalq qəzeti.- 2010.- 21 noyabr.- S.5.

Əkbərov, M. İnsan və şəxsiyyət azadlığının aliliyinə əsaslanan idarəetmə fəlsəfəsi: 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günüdür [Mətn] /M.Əkbərov //Respublika.- 2009.- 19 noyabr.- S.4.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.az.trend.az

NOYABR
30

Tarixdə bu gün

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə "Morris soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilmişdir.

"Morris soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi həqiqətən də çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başlamışdı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq informasiya cəmiyyəti inkişaf etdikcə bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq 1988-ci ildə Kompyuter avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü elan etmişdi. Ona görə ki, informasiya təhlükəsizliyi bir ölkəni yox, bütün bəşəriyyəti təhdid edən problemdir.

İnformasiya Təhlükəsizliyi Günü çoxdan istifadə olunan parolların yeniləşdirilməsi, sistemdə virusların mövcudluğunun yoxlanması, verilənlərin arxivləşdirilməsi, lazımsız informasiyanın silinməsi, vacib informasiyaların mühafizə səviyyəsinin auditi, kompleks təhlükəsizliyin və digər bu kimi tədbirlərin həyata keçirilməsi, ictimaiyyətin diqqətinin artırılması, müvafiq qurumların və mütəxəssislərin məsuliyyətinin xatırlanması və ümumiyyətlə, bir monitorinq günüdür. Həmin vaxtdan etibarən informasiya təhlükəsizliyi problemlərinin müxtəlif aspektlərinə həsr olunmuş beynəlxalq tədbirlər keçirilir.

Keçən müddət ərzində bu günün əhəmiyyəti daha da artmışdır. Cəmiyyətin bütün sahələrinin və insanların informasiya-kommunikasiya texnologiyalarından (İKT) asılılığı gücləndikcə informasiya təhlükəsizliyinin əhəmiyyəti özünü daha çox büruzə verir. İnformasiya təhlükəsizliyi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilir.

İnternetin sürətli inkişafı və kütləvi halda istifadəçilərin meydana çıxması ilə kompyuter və kommunikasiya sistemlərinə olan təhdidlər daha ehtimallı olur və onların realizəsinin nəticələri daha da geniş miqyas alır.

İnformasiya təhlükəsizliyinin təmin edilməsinin ən vacib vəzifələrindən biri də yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Bu istiqamətdə ölkədə müəyyən işlər görülür. Bir sıra ali məktəblərdə müvafiq ixtisaslar üzrə kadr hazırlanmasına başlanmışdır.

Vətəndaşlarda informasiya mədəniyyətinin vacib hissəsi olan informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması istiqamətində davamlı və məqsədyönlü tədbirlərin görülməsi zəruriyyəti də dövrümüzün reallıqlarıdır. Belə ki, istifadəçilərdə informasiya-kommunikasiya sistemlərində iş zamanı təhdidlərin vura biləcəyi ziyan, həmin təhdidlərdən mühafizə mexanizmləri haqqında zəruri bilikləri və onlarla işləmək bacarıqları olmalıdır. İnternet şəbəkəsindən istifadə mədəniyyətini formalaşdırmaq, neqativ təsirlərə qarşı "immunitet"in möhkəmləndirilməsi üçün bu mədəniyyət normalarını təbliğ etmək lazımdır.

30 noyabr - Beynəlxalq İnformasiya Təhlükəsizliyi Gününün əsas məqsədlərindən biri də elə budur.

Ə d ə b i y y a t

Əliquliyev, R. İnformasiya və telekommunikasiya sistemləri cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır [Mətn] /R.Əliquliyev, Y.İmamverdiyev //Azərbaycan.- 2007.- 30 noyabr.- S.5.

1 dekabr

Gün çıxır 07:44
Gün batır 17:34

31 dekabr

Gün çıxır 08:03
Gün batır 17:42

DEKABR



23 noyabr-
21 dekabr

Oxatanın Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar. Kişilər qadınların xoşuna gəlirlər.

B.	**1**
B.E.	2
Ç.A.	3
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	**8**
B.E.	9
Ç.A.	10
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	**15**
B.E.	16
Ç.A.	17
Ç.	18
C.A.	19
C.	20
Ş.	21
B.	**22**
B.E.	23
Ç.A.	24
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	**29**
B.E.	30
Ç.A.	31

- *QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)*
- *Beynəlxalq Əlillər Günü (03.12.1992)*
- *Azərbaycan Respublikasının sabiq prezidenti, ümummilli lider Heydər Əliyev ABŞ-ın Klivlend klinikasında vəfat etmişdir (12.12.2003)*
- **Xankəndinin işğalı günü (26.12.1991)**
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

90 il Heydər Əliyev 1923-2003



Dekabrın 12-də Azərbaycanın ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev Bakıda Fəxri Xiyabanda, ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur.

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatından 10 il keçir. O vaxtdan bəri milyonlarla insan, o cümlədən Azərbaycana rəsmi səfər edən dövlət və hökumət başçıları, nüfuzlu nümayəndə heyətləri, həmçinin vətənə gələn xaricdəki soydaşlarımız ulu öndərin xatirəsini anmaq üçün Fəxri Xiyabanı ziyarət edirlər.

Hər il Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən diaspora təşkilatları da Heydər Əliyevin vəfatının ildönümləri ilə əlaqədar anım mərasimləri təşkil edirlər.

DEKABR

2013



Milli ədəbiyyat

Şair, Əməkdar jurnalist Zeynalov Zeynalabdin İsmayıl oğlunun (Zeynal Vəfa) (02.12.1938) anadan olmasının **75** illiyi 351

Əməkdar incəsənət xadimi, tənqidçi, tərcüməçi Məmmədov Cəlal Cabbar oğlunun (09.12.1918-04.02.1983) anadan olmasının **95** illiyi

Xalq yazıçısı Bayramov Bayram Salman oğlunun (11.12.1918-09.11.1994) anadan olmasının **95** illiyi 352

Publisist Mustafayev Feyzi Əzizəli oğlunun (20.12.1938-24.05.2002) anadan olmasının **75** illiyi

Nasir, publisist Abdullayev Şakir Zakir oğlunun (20.12.1923) anadan olmasının **90** illiyi

Şair, tərcüməçi Cəfərov Ələkbər Həsən oğlunun (Ələkbər Ziyatay) (21.12.1913-02.07.1982) anadan olmasının **100** illiyi

Filologiya elmləri doktoru, Azərbaycan Milli yaradıcılıq akademiyasının akademiki Nəsirov Yasif Mirzə oğlunun (Yasif Nəsirli) (23.12.1938) anadan olmasının **75** illiyi

Nasir Rəhimova Sara Məmməd qızının (27.12.1928-04.02.1975) anadan olmasının **85** illiyi

Ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru Səfərov Şahin Tağı oğlunun (31.12.1928-15.11.1995) anadan olmasının **85** illiyi



Dünya ədəbiyyatı

Rus yazıçısı, publisist, Nobel mükafatı laureatı Soljenitsın Aleksandr İsayeviçin (11.12.1918-03.08. 2008) anadan olmasının **95** illiyi

Qırğız Xalq yazıçısı Aytmatov Çingiz Torekuloviçin (12.12.1928-10 06.2008) anadan olmasının **85** illiyi 353

Türk şairi Məhmət Akif Ərsoyun (20.12.1873-27.12.1936) anadan olmasının **140** illiyi

Polyak şairi Mitskeviç Adamın (24.12.1798-26.11.1855) anadan olmasının **215** illiyi 354



Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

SSRİ-nin Xalq rəssamı Xələfov Rasim Həşim oğlunun (03.12.1928-2010) anadan olmasının 85 illiyi

İtalyan memarı və heykəltəraşı Bernini Covanni Lorensonun (07.12.1598-28.11.1680) anadan olmasının 415 illiyi 355

Azərbaycanın Xalq rəssamı Xalıqov Qəzənfər Ələkbər oğlunun (16.12.1898-03.03.1981) anadan olmasının **115** illiyi 355
AMEA-nın müxbir üzvü, Əməkdar memar Fətullayev Şamil Seyfulla oğlunun (24.12.1928) anadan olmasının **85** illiyi 356



Musiqi.Opera.Balet

Xalq artisti, müğənni Həsənova Gülxar İbrahim qızının (10.12.1918-30.03.2005) anadan olmasının **95** illiyi 357
Fransız bəstəkarı, dirijor və musiqişünas Berlioz Hektorun (11.12.1803-08.03.1869) anadan olmasının **210** illiyi
Müğənni Əsgərov Qulu Rüstəm oğlunun (18.12.1928-11.04.1989) anadan olmasının **85** illiyi 358
Əməkdar incəsənət xadimi, bəstəkar, professor Qarayev Fərəc Qara oğlunun (19.12.1943) anadan olmasının **70** illiyi 359
Xalq artisti, müğənni İsmayılova Tükəzban Məhərrəm qızının (21.12.1923-24.03.2008) anadan olmasının **90** illiyi 360
İtalyan bəstəkarı Puççini Cakomonun (22.12.1858-29.11.1924) anadan olmasının **155** illiyi



Teatr.Kino

Xalq artisti, aktrisa Abdullayeva Tamilla İslam qızının (10.12.1943) anadan olmasının **70** illiyi
Xalq artisti, aktyor Şərifzadə Abbas Mirzə Mirzə Əbdülrəsul oğlunun (12.12.1893-16.10.1938) anadan olmasının **120** illiyi 361
Əməkdar artist, aktyor Mövləvi Tofiq Səməd oğlunun (21.12.1938) anadan olmasının **75** illiyi
Xalq artisti, aktyor, rejissor Həmzəyev İbrahim (Mir İbrahim) Tağı oğlunun (25.12.1908-4.2.1982) anadan olmasının **105** illiyi 362
Əməkdar artist, aktyor Bağırov İmamverdi Salman oğlunun (23.12.1913 - 06.05.1985) anadan olmasının **100** illiyi
Əməkdar incəsənət xadimi, rejissor Sultanov Hüseyn Musa oğlunun (23.12.1923-30.03.1993) anadan olmasının 90 illiyi
Xalq artisti, aktrisa İbrahimova Safurə Ağabala qızının (27.12.1938) anadan olmasının **75** illiyi 363



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Arazov Ənvər Talış oğlunun (02.12.1953-02.11.1992) anadan olmasının **60** illiyi 364
Azərbaycanın Milli Qəhrəmanı Şikarov Şikar Şükür oğlunun (03.12.1953-13.06.1992) anadan olmasının **60** illiyi 365
Azərbaycanın Milli Qəhrəmanı Məhərrəmov Səxavət Ələmdar oğlunun (05.12.1973-27.06.1992) anadan olmasının **40** illiyi 366
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov İbrahim İsmayıl oğlunun (20.12.1958-16.02.1994) anadan olmasının **55** illiyi 367

Siyasət.Hərbi iş

Dövlət xadimi, tarix elmləri doktoru Hüseynov Kamran Əsəd bəyoğlunun (15.12.1913-20.04.2006) anadan olmasının **100** illiyi 368
Sovet İttifaqı Qəhrəmanı, rəssam, şair, partizan Hüseynzadə Mehdi Hənifə oğlunun (22.12.1918-16.11.1944) anadan olmasının **95** illiyi 369
Azərbaycan Respublikasının Daxili İşlər naziri Usubov Ramil İdris oğlunun (22.12.1948) anadan olmasının **65** illiyi 370



Tarix

Tarixçi, professor Abbasov Məzahir Həmid oğlunun (15.12.1918-04.02.2002) anadan olmasının **95** illiyi
Tarix elmlər doktoru, şərqşünas, tarixçi Əlibəyli Həsən Cahangir oğlunun (16.12.1938) anadan olmasının **75** illiyi
Əməkdar elm xadimi, akademik Bünyadov Ziya Musa oğlunun (21.12.1923 – 21.02.1997) anadan olmasının **90** illiyi 371
Tarixçisi, şərqşünas, ictimai xadim Qafurov Bobocan Qafuroviçin (31.12.1908-12.07.1977) anadan olmasının **105** illiyi



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Kənd təsərrüfatı elmləri doktoru Aslanov Hamlet Qurbanəli oğlunun (10.12.1938) anadan olmasının **75** illiyi

Neft



Əməkdar elm və texnika xadimi, fəxri neftçi Rüstəmbəyov Tofiq Fətulla oğlunun (04.12.1918) anadan olmasının **95** illiyi
Azərbaycanın Əməkdar mühəndisi, Dövlət Mükafatı laureatı, neftçi alim Babayev Nəsrulla Xanbaba oğlunun (14.12.1918-03.03.1975) anadan olmasənən **95** illiyi



Coğrafiya. Geologiya


Geoloq, SSRİ-nin fəxri neftçisi Ağabəyov Məmmədhüseyn Heydər oğlunun (27.12.1908-10.02.1987) anadan olmasının **105** illiyi
Geologiya-mineralogiya elmləri doktoru, professor Sultanov Qədir Məmməd oğlunun (31.12.1918-1995) anadan olmasının **95** illiyi



Riyaziyyat.Fizika.Astronomiya

Amerika fiziki, Nobel Mükafatı laureatı Anderson Filip Uorrenin (13.12.1923) anadan olmasının **90** illiyi
Fizika-riyaziyyat elmləri doktoru Muxtarov Abdulla İbrahim oğlunun (24.12.1918) anadan olmasının **95** illiyi 372
Fizika-riyaziyyat elmləri doktoru, professor, akademik Salayev Eldar Yunis oğlunun (31.12.1933) anadan olmasının **80** illiyi 373

Kimya.Biologiya.Tibb



Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Zülfüqarov Zülfüqar Hüseynqulu oğlunun (03.12.1913-31.07.1992) anadan olmasının **100** illiyi
Fransız kimyaçısı, kimyəvi tarazlıq nəzəriyyəsinin əsasını qoymuş Bertolle Klod Luinin (09.12.1748-06.11.1822) anadan olmasının **265** illiyi
Akademik, bitki fizioloqu Abutalıbov Müzəffər Heydər oğlunun (14.12.1908-08.11.1984) anadan olmasının **105** illiyi 374
Fransalı həkim və münəccim Mişel de Notrdamın (Nostradamus) (14.12.1503–02.07.1566) anadan olmasının **510** illiyi
Əməkdar səhiyyə işçisi Məmmədova-Kosmodemyanskaya Dürrə Əlabbas qızının (25.12.1923) anadan olmasının **90** illiyi 375
Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Mövsümzadə Məmməd Mirzə oğlunun (25.12.1908-1984) anadan olmasının **105** illiyi 375
Kimya elmləri doktoru Nuriyev Əli Nəcəfqulu oğlunun (29.12.1928) anadan olmasının **85** illiyi

Texnika



Texnika elmləri doktoru, professor Sultanzadə Nazim Müzəffər oğlunun (21.12.1938) anadan olmasının **75** illiyi
Texnika elmləri doktoru, professor Kazımzadə Zəki İsgəndər oğlunun (24.12.1908) anadan olmasının **105** illiyi

Tarixdə bu gün



QİÇS-lə Mübarizə Günü (01.12.1988) 376
Beynəlxalq Əlillər Günü (03.12.1992) 376
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı (06.12.2006) 377
Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı olmuşdur (07.12.1918) 378
BMT Baş Assambleyası "İnsan hüquqları Bəyannaməsi"ni qəbul etmişdir (10.12.1948)
İlk müsəlman qadın İran azərbaycanlısı Şirini Əbadi insan hüquqları sahəsində Nobel mükafatı almışdır. (10.12.1948)
Ümummilli lider Heydər Əliyev ABŞ-ın Klivlend klinikasında vəfat etmişdir (12.12.2003) 379
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (12 dekabr)
Sərhəd Qoşunları Günü (16.12.2000)
ABŞ-da insanın genetik xəritəsi hazırlanmışdır (16.12.1993)
İlk rəngli televiziya yayımı həyata keçirilmişdir (18.12.1953)
SSRİ-də əmək kitabçalarının tətbiqinə başlanılmışdır (20.12.1938)
Azərbaycan ATƏM-in Paris Xartiyasına qoşulmuşdur (20.12.1993)
Xankəndinin işğalı günü (26.12.1991) 380
Beynəlxalq Muğam Mərkəzi açılmışdır (27.12.2008) 381
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991) 382

75 illiyi

Zeynal Vəfa
1938

Şair



Zeynalabdin İsmayıl oğlu Zeynalov (Zeynal Vəfa) 1938-ci il dekabr ayının 2-də Naxçıvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. M.T.Sidqi adına Naxçıvan şəhər 4 nömrəli orta məktəbini bitirdikdən sonra ADU-nun (indiki BDU) filologiya fakültəsində (1957-1962) təhsilini davam etdirmişdir.

İlk əmək fəaliyyətinə 1962-ci ildə Naxçıvan Vilayət Partiya Komitəsinin orqanı olan "Şərq Qapısı" qəzetində başlamışdır. Sonra Naxçıvan MSSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor (1963-1969) və Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor (1969-1990) işləmişdir. Arada Azərbaycan Xarici Dillər İnstitutu nəzdində 2 illik ərəb dili kursunu bitirərək tərcüməçi kimi 1980-1982-ci illərdə Yəmən Xalq Demokratik Respublikasında çalışmışdır. Orada savadsızlığın ləğvi sahəsindəki səmərəli fəaliyyətinə görə Yəmən-Sovet Departamentinin fəxri fərmanı ilə təltif edilmişdir. 1982-1987-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, 1987-1989-cu illərdə Yəmən Ərəb Respublikasında tərcüməçi, 1990-1992-ci illərdə "Aydınlıq" qəzetində baş redaktorun birinci müavini, 1992-1993-cü illərdə "Meydan" qəzetində baş redaktor vəzifələrində çalışmışdır.

Zeynal Vəfa hazırda Respublika Milli Məclisinin orqanı olan "Azərbaycan" qəzetində baş redaktorun müavini vəzifəsindədir (1993-cü ildən). O, poeziya sahəsində fəaliyyətə 12 yaşından başlasa da "Tunc altı" adlı ilk şeiri 1955-ci ildə "Şərq Qapısı" qəzetində işıq üzü görmüş, həmin vaxtdan fəal bədii yaradıcılıqla məşğuldur. 1970-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvüdür. Şeir və poemaları rus, ukrayna, özbək, tacik, eston, latış, ərəb və digər dillərdə dərc olunmuşdur. Avropa və Asiya şairlərindən xeyli poetik tərcümələri var. "Mənim körpə çinarım", "Qəlbimin səsi","Əgər sevirəm desən","Körpələrin xətrinə","Beşiklərdən gələn səslər", "Ömrün beşinci fəsli","Millətin xilaskarı" (Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən poema),"O dünyaya xəbər verin gələn var" və digər şeir kitablarının müəllifidir. Sözlərinə 70 mahnı bəstələnmişdir. Yüksək vətənpərvərlik ruhu ilə dolu şeir və poemaları respublikamızın müxtəlif mətbu orqanlarında, həmçinin "Ulduz" və"Azərbaycan" jurnallarında müntəzəm olaraq dərc edilməkdədir.

Mətbuatda uzun illər səmərəli fəaliyyətinə və yaradıcılıq uğurlarına görə 1995-ci ildə "Qızıl Qələm" mükafatına layiq görülmüşdür. Respublika Prezidentinin 2005-ci il 21 iyul tarixli 924 nömrəli Sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir. 2009-cu il dekabrın 25-də Azərbaycan Respublikası Prezidenti Yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qalibi kimi, "Azərbaycançılıq ideyası milli həmrəyliyin təməl prinsipləridir" mövzusundakı publisist yazısına görə diplomla təltif edilmişdir. 22 iyul 2010-cu ildə milli mətbuatımızın 135 illiyi ilə əlaqədar "Əməkdar jurnalist" adına layiq görülmüşdür.

Ədəbiyyat

Əgər sevirəm desən [Mətn]: şeirlər /Z.Vəfa; red. Ç.Əlioğlu.- Bakı: Gənclik, 1978.- 63 s.

Körpələrin xətrinə [Mətn]: şeirlər /Z.Vəfa; red. T.Bayram; rəssam Faiq.- Bakı: Yazıçı, 1981.- 83 s.

Qürbətdə vətən eşqilə döyünən ürək [Mətn] /Z.Vəfa //Azərbaycan.- 2010. - 7 yanvar.- S.3.

Millətin xilaskarı [Mətn]: [poema] /Z.Vəfa.- Bakı: Azərbaycan, 2004.- 56 s.

Vətən övladları şəhidlikləri ilə tarixdə silinməz izlər qoydular [Mətn] /Z.Vəfa //Azərbaycan.- 2010.- 16 yanvar.- S.4.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

95 illiyi

Bayram Bayramov 1918-1994

Yazıçı



Bayram Salman oğlu Bayramov 1918-ci il dekabr ayının 11-də Yelizavetpol quberniyasının (indiki Ağdam rayonunun) Şivənd kəndində əkinçi ailəsində anadan olmuşdur.

1934-1938-ci illərdə yeddiillik kənd məktəbini bitirmiş, Ağdam Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir. 1938-1940-cı illərdə Tərtər rayonundakı müxtəlif kənd məktəblərində müəllim işləmişdir. Böyük Vətən müharibəsində Mozdok uğrunda döyüşlərdə iştirak etmiş, ağır yaralanmış və geriyə göndərilmişdir (1942).

1943-cü ilin aprelində yenidən Sovet Ordusu sıralarında qulluq etmişdir. Tərxis olunub doğma kəndlərinə qayıtmış, burada pedaqoji fəaliyyətini davam etdirmişdir.

1944-1945-ci illərdə yeddiillik məktəbin müəllimi işləmişdir.

1945-1950-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır. 1948-1955-ci illərdə N.K.Krupskaya adına Kitabxanaçılıq Texnikumunda müəllim, radionun ədəbi dram verilişləri redaksiyasında məsul redaktor (1956-1958), "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi (1958-1960), Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi (1960-1963) işləmişdir.

1966-1971-ci illərdə "Dövlətnəşrkom"da sədr müavini olmuşdur.

1989-cu ildən Qarabağa Xalq Yardımı Komitəsinin sədri vəzifəsində işləmişdir.

1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Şurasının üzvü seçilmişdir.

Bədii yaradıcılığa 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Körpü" adlı ilk hekayəsi ilə başlamış, həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış etmişdir.

"Arakəsmələr", "Xəzinə", "Bəlalı sevgim", "Fəhlə qardaş", "Yarpaqlar", "Cıdır düzü" və s. romanların müəllifidir. Sovet dövründə ən çox oxunan yazıçılardan biri olmuşdur. Əsərləri SSRİ-də, eyni zamanda xarici ölkələrdə tərcümə və nəşr olunmuşdur.

Bayram Bayramovun 80-ci illərin axırlarında "Azərbaycan" jurnalında "Üzlü-astarlı günlər" adlı avtobioqrafik romanı çap olunmuşdur.

O, həmçinin, "Mən ki, gözəl deyildim" (1968), "Firəngiz" (1975), "Onun bəlalı sevgisi" (1980) filmlərinin ssenari müəllifidir.

Xidmətlərinə görə 1967-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və medallarla təltif edilmişdir.

"Azərbaycanın Xalq yazıçısı" fəxri adına layiq görülmüş, "Böyük Vətən müharibəsi", "Qırmızı əmək bayrağı", "Şərəf nişanı", "Xalqlar dostluğu", ordenləri ilə təltif edilmişdir. Əsərləri SSRİ-də, eyni zamanda xarici ölkələrdə tərcümə və nəşr olunmuşdur.

Bayram Bayramov 1994-cü il noyabr ayının 9-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn]: üç cilddə /B.Bayramov; red. Z.Əsgərova.-Bakı: Yazıçı, 1985.- C.I.- 325 s.; C.II.- 322 s.; C.III.- 388 s.

Gün batanda [Mətn]: roman və povest /B.Bayramov.- Bakı: Yazıçı, 1981.- 446 s.

Cıdır düzü [Mətn]: [roman] /B.Bayramov.- Bakı: Yazıçı, 1979.- 472 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.az.wordpress.com

www.kataloq.net

Dünya ədəbiyyatı

85 illiyi

Çingiz Aytmatov 1928-2008

Qırğız yazıçısı



Çingiz Torekuloviç Aytmatov 1928-ci il dekabr ayının 12-də Qırğızıstanın Şəkər qışlağında anadan olmuşdur. 1937-ci ildə valideynləri Stalin repressiyasının qurbanları olduğuna görə o, bibisinin himayəsi altında böyümüş, 8 sinif bitirdikdən sonra Cambul Zootexnikumuna daxil olmuş, həmin təhsil ocağını əla qiymətlərlə bitirmişdi.

1948-1953-cü illərdə Aytmatov Bişkəkdəki Kənd Təsərrüfatı Universitetində təhsil almışdır. 1952-ci ildə dövri mətbuatda onun qırğız dilindəki ilk əsərləri çap olunmağa başlamışdır. Ali təhsil aldıqdan sonra o, 3 il ərzində Qırğız SSR-in Maldarlıq Elmi-Tədqiqat İnstitutunda çalışmışdır.

1956-cı ildə Aytmatov Moskvadakı Ali ədəbiyyat kursuna yazılmışdır. Kursu bitirdiyi ildə "Oktyabr" jurnalında onun qırğız dilindəki "Üz-üzə" hekayəsinin rus dilinə tərcüməsi dərc olunmuşdur. Həmin il "Yeni dünya" jurnalında Aytmatovun bir sıra hekayələri və yazıçıya dünya söhrəti qazandıran "Cəmilə" povesti işıq üzü görmüşdür.

Məşhur yazıçı 1961-ci ildən Qırğızıstan Kinematoqrafiya İttifaqının üzvü, 1964-cü ildən birinci katib, 1969-cu ildən isə sədri, 1978-ci ildə Qırğızıstan Elmlər Akademiyasının akademiki olmuşdur.

Çingiz Aytmatov keçmiş SSRİ Ali Sovetinin deputatı, Qırğızıstan Kommunist Partiyasının Mərkəzi Komitəsinin, Yazıçılar İttifaqının üzvü, Asiya və Afrika ölkələri ilə Sovet həmrəylik komitəsinin rəhbərlərindən biri, "Xarici ədəbiyyat" jurnalının baş redaktoru, "İssıqqul forumu" adlı beynəlxalq intellektual hərəkatın təşəbbüskarı olmuşdur.

1980-ci ildə qələmə aldığı "Gün var əsrə bərabər" adlı romanında yer verdiyi bir qırğız əfsanəsində "manqurt" - əsil-nəsli və yaddaşı unutdurulmuş insan sözü bütün dünya ədəbiyyatına daxil olmuşdur. Onun əsərlərindəki hakim mövzu müasir normalar ilə qədimi yaşatmağı özünə çətinlik bilən insanların tənqidindən ibarətdir.

1990-1994-cü illərdə Aytmatov SSRİ-nin və sonradan Rusiyanın Benilüks ölkələrindəki səfiri vəzifəsində çalışmış, 2008-ci ilin martınadək Qırğızıstanın Fransada, Belçika, Lüksemburq və Niderlanddakı səfiri olmuşdur.

Əsərləri 160 dilə tərcümə olunmuş, sağlığında kitabları dünya klassikləri sırasına daxil olmuş, yazıçının romanlarından bir qismi kinoya da çəkilmişdir.

1963-cü ildə Lenin mükafatına, SSRİ Dövlət mükafatlarına layiq görülmüş, 1976-cı ildə isə Qırğızıstanın Dövlət mükafatını almışdır. Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci il fevralın 25-də Çingiz Aytmatovu Azərbaycanın yüksək ordeni olan "Dostluq" ordeni ilə təltif etmişdir. Çingiz Aytmatov Azərbaycanda bu ordenə layiq görülən ilk şəxs olmuşdur.

Hələ sağlığında Qırğızıstanda 2008-ci il "Çingiz Aytmatov ili" elan edilmişdir.

Çingiz Aytmatov 2008-ci il iyun ayının 10-da Almaniyanın Nürnberq şəhərində yerləşən müalicə keçdiyi klinikada vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /Ç.Aytmatov; tərc. İ.İbrahimov; tərt. A.Hacıyev; ön sözün müəl. B.Vahabzadə; red. F.Quliyev.- Bakı: Şərq-Qərb, 2009.- 760 s.

Seçilmiş əsərləri [Mətn]: 2 cilddə /Ç.Aytmatov; ön sözün müəl. B.Vahabzadə; bur. məsul Ə.Güləliyev; tərc.: İ.İbrahimov, X.Əliyev, C.Əlibəyov.- Bakı: Öndər nəşriyyat, 2004.- C.I.- 504 s.; C.2.- 385 s.

Tağıyev, H. Çingiz Aytmatovun əsərlərinin ekran təcəssümü [Mətn] /H.Tağıyev // Mədəniyyət.- 2009.- 3 aprel.- S.14.

Həşimov, A. Çingiz Aytmatov [Mətn] //İrfan.- 2008.- №20.- S.44.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.legend.az

215 illiyi
Adam Mitskeviç 1798-1855
Polyak şairi



Adam Mitskeviç 1798-ci il dekabr ayının 24-də Novoqrudka yaxınlığındakı Zaosye kəndində (indiki Belarus ərazisində) anadan olmuşdur.

Məktəbdə tarix və ədəbiyyata maraq göstərsə də, Mitskeviç 1815-ci ildə Vilnüs Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur.

1817-ci ildən gizli polyak inqilabçı gənclər təşkilatları "Filomat", "Filapet"in yaradılmasında fəal iştirak etmiş, ədəbi yaradıcılığa da bu dövrdə başlamışdır.

Mitskeviçin ilk şeirlər toplusu ("Poeziya", C.1-2, 1822-1823) polyak ədəbiyyatında romantik cərəyanın manifesti olmuş, 1822-ci ildə çıxan balladа və romanslardan ibarət şeirlər kitabı onu Polşanın demokratik düşüncəli insanlarının sevimlisinə çevirmişdi.

1823-cü ildə tələbə gənclər təşkilatının üzvləri, o cümlədən Mitskeviç çar hakimiyyəti tərəfindən həbs olunmuş və 1824-cü ildə Rusiyaya sürgün edilmişdir. Peterburqda, Odessada yaşamış, 1829-cu ilədək Rusiyada qalmış, burada dekabristlərvəA.S.Puşkinlə dostluq etmişdir. Puşkin onun istedadını yüksək qiymətləndirmişdir.

Mitskeviç Peterburqda olarkən polyak əsilli şərqşünas Senkeviçlə görüşmüş, universitetdə çalışan azərbaycanlı alim, şair Mirzə Cəfər Topçubaşovla tanış olmuşdur. Topçubaşov Mitskeviçin şeirlərini tələbəsi - polyak şairi, "Koroğlu" eposunun ilk tərcüməçisi Xodzkonun köməyi ilə fars dilinə çevirməklə onun Şərqdə ilk tərcüməçisi və təbliğatçısı olmuşdur.

Mitskeviçin "kiçik Şərq" adlandırdığı Krımda (1825) yaratdığı "Krım sonetləri" dünya poeziyasının qiymətli və dəyərli nümunələrindəndir.

"Konrad Vallenrod" (1828) poemasında Mitskeviç şəxsi səadətini xalq işi uğrunda mübarizəyə qurban verən qəhrəman obrazı yaratmışdır.

1830-cu ildə Polşa üsyanında iştirak etmək cəhdləri puça çıxdıqdan sonra, Mitskeviç mühacirətdə (Parisdə) yaşamağa məcbur olmuşdur. İlk dəfə 1831-ci ildə nəşr olunan "Pan Tadeuş" epopeyası Mitskeviçin mühacirətdə yazdığı ən gözəl əsərlərindən biridir. "Pan Tadeuş" (1834) poeması o dövr Polşa ədəbiyyatının realist ensiklopediyasıdır.

Mitskeviç poeziyası polyak milli azadlıq hərəkatına, inqilabi demokratik fikrinə, polyak ədəbiyyatı və teatrının inkişafına güclü təsir göstərmişdir.

Əsərləri bir sıra dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə olunmuşdur.

Krım müharibəsi zamanı siyasi məqsədlə İstanbula getmiş, 1855-ci il noyabr ayının 26-da orada vəba xəstəliyindən vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri [Mətn] /A.Mitskeviç; tərc.: S.Rüstəmxanlı, G.Abdullabəyova; bur. məsul Ə.Güləliyev. - Bakı: Şərq-Qərb, 2006.- 240 s.

Krım sonetləri. Pan Tadeuş [Mətn]: şeirlər və poema /A.Mitskeviç; red. T.Vəlixanlı.- Bakı: Mütərcim, 1998.- 336 s.

Очерки русско-азербайджанско-польских литературных связей XIX века [Текст].- Баку, 1975.

İnternetdə

www.anl.az

www.kirimdernegi.org

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

7 — 415 illiyi

Covanni Lorenso Bernini
1598-1680 — *İtalyan heykəltəraşı*



Ə d ə b i y y a t

Bernini Covanni Lorenso [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı,1978.- C.II.- S.120.

Covanni Lorenso Bernini 1598-ci il dekabr ayının 7-də Neapol şəhərində anadan olmuşdur.

17-ci əsr Romasında italyan barokkosunun ən görkəmli nümayəndələrindən biri olmuşdur. Onun "David" (1623), "Apollon və Dəfnə" (1622-1625), "Müqəddəs Terezenanın vəcdə gəlməsi" (1644-1652) və s. heykəltəraşlıq kompozisiyalarında dinamizm və işıq-kölgə traktovkası güclüdür.

Romadakı əsərlərin təxminən 70 faizi Berniniyə aiddir. Ən məşhur əsəri Romadakı Navona meydanında yerləşən "Dörd çay fəvvarəsi"dir (it. Fontana dei Quattro Fiumi). Vatikandakı bir çox binanın müəllifi olmuşdur. Romadakı, o cümlədən Vatikandakı əsərlərin əksəriyyətinin müəllifi olmasına səbəb böyük qabiliyyəti sayəsində kilsənin himayəsində olması idi. Öz dövrünün xalq rəssamı mövqeyindəki Bernini, əsərlərinin böyük hissəsini kiçik maketlər halında hazırlayaraq öz şagirdlərinə düzəltdirmişdir.

Bernini Covanni Lorenso 1680-ci il noyabr ayının 28-də Romada vəfat etmişdir.

16 — 115 illiyi

Qəzənfər Xalıqov
1898-1981 — *Rəssam*

Qəzənfər Ələkbər oğlu Xalıqov 1898-ci il dekabr ayının 16-da Bakı yaxınlığındakı Qobu qəsəbəsində anadan olmuşdur.

1928-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmiş, boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Bir müddət AOBT-nda işləmiş, Hacıbəylinin "Koroğlu" operasının geyim eskizlərini hazırlamışdır. Yaradıcılığının erkən dövründə "Molla Nəsrəddin" jurnalında karikaturaçı kimi çalışmışdır.

1930-cu ildə boyakarlıq əsərləri plakatlar və kitablara illüstrasiyalar çəkmişdir. Böyük Vətən müharibəsi illərində Xalıqov siyasi və satirik plakatlar çəkmiş, müharibədən sonrakı dövrdə dəzgah qrafikası, plakat, illüstrasiya və monumental boyakarlıq sahələrində fəaliyyət göstərmişdir. Xalıqov Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin interyer tərtibatı müəlliflərindən olmuşdur.

Xalıqov həmçinin teatr və kino dekorativ sənətkarı kimi fəaliyyət göstərmişdir.

Xidmətlərinə görə Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmiş, 1973-cü ildə "Azərbaycanın Xalq rəssamı " fəxri adını almışdır.

Qəzənfər Xalıqov 1981-ci il mart ayının 3-də Bakıda vəfat etmişdir.

Abşeron rayonunun Qobu qəsəbəsində Q.Xalıqovun şərəfinə orta məktəb və küçə adlandırılmışdır.

Ə d ə b i y y a t

Xalıqov Qəzənfər Ələkbər oğlu [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.X.- S.42.
Наджафов, М.Казанфар Халыгов [Text] /М.Наджафов.- Баку, 1978.-45с.

85 illiyi Şamil Fətullayev 1928

Memar



Şamil Seyfulla oğlu Fətullayev 1928-ci il dekabr ayının 24-də Bakı şəhərində anadan olmuşdur.

1953-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirmiş, 1959-cu ildən Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunda işləmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan şəhərlərinin, yaşayış binaları və ictimai tikililərin memarlıq-planlaşdırma məsələləri, əsas memarlıq üslubları, milli memarlıq ənənələri haqqında elmi əsərlərin müəllifidir. Bir sıra Azərbaycan memarlıq abidələrinin və Azərbaycan memarlarının aşkar edilməsi Fətullayevin elmi tədqiqatları ilə bağlıdır.

1979-cu ildən memarlıq doktoru, professordur. 1989-cu ildə AMEA-nın müxbir üzvü seçilmiş, 82 elmi əsəri, Azərbaycanın və İranın memarlıq tarixinə aid 6 əsaslı monoqrafiyası Azərbaycanda, 1 əsəri isə xaricdə çap olunmuşdur. Onun rəhbərliyi ilə 13 elmlər namizədi, 4 elmləri doktoru dissertasiya müdafiə etmişdir.

Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının prezidentidir.

Xidmətlərinə görə 1979-cu ildə "Azərbaycanın Əməkdar memarı", 1988-ci il aprel ayının 26-da XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda şəhər tikintisi və və memarlıq mövzusunda yazdığı əsərlərə görə Azərbaycan SSR Dövlət Mükafatı laureatı olmuş, 18 aprel 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycan memarlığına töhfəsinə görə "İZAL-DİZAİNGROUP" Azərbaycan memarlıq İTT dəstəyi ilə Dizayn və memarlıq üzrə "Memarlıq mükafatı-2005" diplomuna layiq görülmüşdür.

2008-ci ildən "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Bakı memarlığının ensiklopediyası [Mətn] /Ş.Fətullayev. -Bakı-Ankara, 1998.

Şamil Seyfulla oğlu Fətullayev [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1987.- C.IX.- S.540.

Градостроительство Баку XIX – начала XX веков [Текст] /Ш.Фатуллаев.- Л., 1978.

İ n t e r n e t d ə

www.anl.az

www.csl-az.com

www.science.az

95 illiyi

Gülxar Həsənova 1918-2005

Opera müğənnisi



Gülxar İbrahim qızı Həsənova 1918-ci il dekabr ayının 10-da Şəmkir rayonunun Kolxozkənd kəndində anadan olmuşdur. 1935-37-ci illərdə Bakı Teatr Texnikumunda oxumuş, 1959-cu ildə ADU-nu (indiki BDU) bitirmişdir.

Səhnə fəaliyyətinə Azərbaycan Gənc Tamaşaçılar Teatrında 1936-1942-ci illərdə başlamışdır. 1942-ci ildən ömrünün sonunadək Azərbaycan Opera və Balet Teatrının solisti, 1980-ci ildən isə Gənc Tamaşaçılar Teatrının məşqçi-pedaqoqu olmuşdur.

Müğənni Azərbaycan operasının şah əsərlərində aparıcı partiyalarda çıxışları ilə tamaşaçıların rəğbətini qazanmış və ifaçılıq sənəti tariximizə əbədi həkk edilmişdir. "Leyli və Məcnun"da Leyli və Leylinin anası, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da xanəndə qız, "Aşıq Qərib"də Şahsənəm, "Şah İsmayıl"da Ərəbzəngi, "Bahadır və Sona"da Təravət xanım, "Arşın mal alan"da Telli, "Vaqif"də Qarı, "Gəlin qayası"nda Ana kimi yaddaqalan obrazlar yaratmışdı.

Ömrünün yarıməsrdən çox bir dövrünü opera ifaçılığına həsr etmiş, milli operamızın canlı tarixinə çevrilmiş Gülxar Həsənova musiqi mədəniyyətimizdə öz dəst-xəttilə seçilən bir sənətkar olmuşdur. Onun yaratdığı bütün obrazlar dolğunluğu, kamilliyi və təbiiliyi ilə səciyyələnirdi.

Azərbaycan səhnəsinin korifeylərinin müasiri olmuş müğənninin həyat və yaradıcılığı yetişməkdə olan sənətkarlar üçün əsl örnək olmuşdur. Ondan sonra onun oynadığı rollarda çıxış edən bütün müğənnilərin ifasında böyük sənətkarın üslubu hiss edilmişdir. Gülxar Həsənovanın oxuduğu müğam əsərləri və xalq mahnıları musiqisevərlərin rəğbətini qazanmışdır. Məlahətli səsi, təkrarolunmaz səhnə mədəniyyəti sayəsində klassik ifaçılıq ənənələrini, Azərbaycan xalq müsiqisinin saflığını qoruyub saxlamaq və daha da təkmilləşdirməklə o, böyük bir məktəb yaratmışdır.

Gülxar xanım Azərbaycan teatr səhnəsində və xalq musiqisi tarixində silinməz iz buraxmışdır. O, "Şərəf nişanı" ordeni, müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni və saysız-hesabsız hökumət mükafatları ilə təltif olunmuşdur. 1954-cü ildə "Əməkdar artist", 1982-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Gülxar Həsənova 2005-ci il mart ayının 30-da vəfat etmişdir.

Ədəbiyyat

İbişova, R. Həsənova Gülxar İbrahim qızı [Mətn] //İbişova R. Əbədiyyət notları.- Bakı, 2011.- S.45.

Ləman, F. Gülü xar olan Gülxar [Mətn] /F.Ləman; red. B.Abbasova.- Bakı: Nurlan, 2000.- 248 s.

Təhmirazqızı, S. Səhnəmizin unudulmaz Leylisi və Ərəbzəngisi: Gülxar Həsənova [Mətn] //Mədəniyyət.- 10 dekabr.- 2010.- S.5.

İnternetdə

www.anl.az

www.adam.az

www.e-qanun.az

www.kinozal.az

85 illiyi

Qulu Əsgərov 1928-1989

Müğənni



Qulu Rüstəm oğlu Əsgərov 1928-ci il dekabr ayının 18-də Salyan rayonunda anadan olmuşdur. Hələ uşaqlıqdan musiqiyə, el muğamlarına böyük həvəsi olan Qulu Əsgərov 1954-1958-ci illərdə Azərbaycan Dövlət Musiqi Məktəbində təhsil almışdır.

Qulu Əsgərov sənət dünyasına qədəm qoyanda Azərbaycan klassik muğamlarının virtuoz ustadları vardı. Həmin xanəndələr on iki muğamın on ikisini də bənzərsiz şəkildə ifa edirdilər. "Rast"ı, "Çahargah"ı, "Şur"u, "Segah"ı Cabbar Qaryağdı oğlu, Seyid və Xan Şuşinskilər, İslam Abdullayev, Zülfü Adığözəlov kimi qüdrətli sənətkarlar tamam-kamal dəsgah çalıb-oxumuşlar. Bayatı muğamlar isə - "Bayatı Qacar", "Bayatı Şur", "Bayatı İsfahan", "Bayatı Kürd" öz ifaçısını gözləyirdi. Belə bir şəraitdə sənət aləminə gələn Qulu Əsgərov özünün geniş diapazonlu, insan qəlbini riqqətə gətirən yanıqlı səsi ilə bu muğamlara yeni həyat verdi. Adlı-sanlı müğənnilərimiz – Alim Qasımov, Qəndab Quliyeva, Mələkxanım Əyyubova məhz, Qulu Əsgərovun köməyilə musiqi aləminə vəsiqə qazanmışlar.

Qulu Əsgərov həm də qayğıkeş və səriştəli bir pedaqoq idi. O, Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alan tələbələrinə muğam sənətinin incəliklərini yorulmadan və səylə öyrədirdi.

Onun lent yazıları AzTR Fondunda qorunur, yeni gələn nəsil tərəfindən ilhamla ifa olunur. Xanəndə uzun illər boyu Azərbaycan Dövlət Opera və Balet Teatrında solist kimi çalışmışdır. O, bu teatrın səhnəsində muğam operalarında bir sıra yaddaqalan obrazlar yaratmışdır: "Leyli və Məcnun" da Məcnun, "Aşıq Qərib" də Qərib, "Əsli və Kərəm" də Kərəm kimi təkrarolunmaz rollar yaratmışdır.

Həmin illərdə onun məlahətli səsi İtaliyadan, İspaniyadan, Almaniyadan, Monqolustandan gəlirdi. Öz pərəstişkarlarını dərindən sevindirən Qulu Əsgərov həqiqi mənada gözəl ifaçı, milli muğam və opera sənətimizin ustadlarından biri idi. Eyni zamanda bəstəkar və sənətçi kimi şöhrət tapan istedadlı müğənninin lirik stildə ifa etdiyi fərdi yaradıcılıq məhsulu da az deyildi. "Dolanaram başına", "Ürək", "Muğan", "Nə hə deyir, nə yox deyir", "Bizimdir" və digər mahnıları bu gün də öz bədii-estetik əhəmiyyətini itirməmişdir.

O, Azərbaycanın muğam sənətində bir ulduz kimi parladı. Ona sağlığında da, dünyasını dəyişəndən sonra da xalq öz qiymətini verib və verəcək.

Qulu Əsgərov 1989-cu il aprel ayının 11-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Abdin, T. Onların dünəni: Qulu Əsgərov "Bayatı-Kürd" Havasında [Mətn] /Tofiq Abdin //Ədalət.- 2010.- 6 noyabr.- S.15.

Təhmirazqızı, S. Sev ki, sevən mərd olar: Qulu Əsgərovu xatırlayarkən [Mətn] /S.Təhmirazqızı //Mədəniyyət.- 17 dekabr.- 2010.- S.7.

İnternetdə


www az.wikipedia.org

www salyan-mks.az

70 illiyi

Fərəc Qarayev 1943

Bəstəkar



Fərəc Qara oğlu Qarayev 1943-cü il dekabr ayının 19-da Bakıda anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini (Q.Qarayevin sinfi, 1966) bitirmişdir.

1966-cı ildən Azərbaycan Konservatoriyasında dərs deməyə başlamışdır.

1991-ci ildən fasilələrlə Bakı və Moskvada yaşamışdır.

1999-cu ildən Moskva Konservatoriyasının Nəzəriyyə kafedrasının professorudur.

A.Krupp Fondunun təqaüdçüsü olub, 1991-ci ildə "Volkwang Hochschule Essen"də composer-in-residence kimi fəaliyyət göstərmişdir.

1980-1994-cü illərdə BaKaRa-ensemble kollektivinin bədii rəhbəri, 1994-1996-cı illərdə Moskvada Müasir Musiqi Assosiasiyasının (ACM) vitse-prezidenti olmuşdur.

1995-ci ildən Bakıda Yeni Musiqi Cəmiyyətinin prezidentidir.

2003-2005-ci illərdə Kazan Konservatoriyasının Bəstəkarlıq kafedrasında professor kimi çalışmışdır.

Musiqisi MDB, Avropa, Cənubi Amerika ölkələri, ABŞ və Yaponiyada keçirilən müxtəlif festival və konsertlərdə ifa olunur.

Əsas əsərləri: "Journey to love" mono operası, "Qobustan kölgələri", "Kaleydoskop" baletləri, "İntizarda..." – teatr səhnəsində ifa üçün musiqi, iki orkestr üçün Tristessa II, kamera orkestri üçün Tristessa I (Vida simfoniyası), simfonik orkestr üçün 1791, fp. və kamera orkestri üçün Konsert, orkestr və solo violino üçün Konsert, simli kvartet üçün "In memoriam..." süitası (A.Berg'ə ithaf), müxtəlif instrumental ansambllar üçün: "...a crumb of music for george crumb", "Klänge einer traurigen nacht", "...lla nostalgia", "Der stand der dinge", "Ist est genug?..", "Xütbə, muğam və surə", "Cancion de cuna", "Babil qülləsi", Postludio I-X (müxtəlif solo alətlər və instrumental heyətlər üçün); "... messeur bee line – eccentric və ya siz hələ sağsınız, cənab nazir?" (müxtəlif solo alətlər və instrumental heyətlər üçün versiyalar); iki ifaçı üçün sonata, "Drei bagatellen" (fp. və 5 (6) alət üçün), solo violonçel üçün "Terminus".

Almaniya istehsalı olan "Qoyya" filminin musiqi müəllifidir (1971, Q.Qarayevlə birlikdə).

Xidmətlərinə görə 1999-cu ildə "Humay" mükafatı laureatı, 1982-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adını almışdır.

Ədəbiyyat

Qara Qarayev IV müasir musiqi festivalı [Mətn]: 2-8 aprel 2011, Bakı /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; festivalın bədii rəhbəri. F.Qarayev.- Bakı, 2011.- 49 s.

Birinci sonata [Notlar]: fortepiano üçün /F.Qarayev; red. R.Hacıyeva.- Bakı: İşıq, 1986.- 21 s.

Conserto grosso [Notlar]: kamera orkestri üçün /F.Qarayev.- Bakı: Azərb. Döv. Musiqi (Azmusnəşr), 1973.- 33 s.

İnternetdə

www.anl.az

www.karaev.net

www.kinozal.az

www.mct.gov.az

90 illiyi

Tükəzban İsmayılova 1923-2008

Xanəndə



Tükəzban Məhərrəm qızı İsmayılova 1923-cü il dekabr ayının 21-də Bakıda anadan olmuşdur. O, Bakı muğam məktəbinin yetirməsi idi. Tükəzban xanım klassik xanəndəlik məktəbinin korifeylərindən olan Hüseynqulu Sarabskinin muğam sinfində təhsil almışdı. Milli musiqimizdə özünəməxsus ifa xüsusiyyətləri ilə seçilən sənətçi, varislik ənənələrini də sədaqətlə davam etdirirdi.

1942-ci ildə Bakı Musiqi Texnikumunu bitirmişdir. A.Zeynallı adına Musiqi Məktəbini bitirəndən sonra Azərbaycan Dövlət Televiziya və Radiosunun Xorunda və M.Maqomayev adına Dövlət Filarmoniyasında solist işləyən Tükəzban İsmayılova gözəl vokal imkanlarına malik idi. Üzeyir Hacıbəyli onun dolğun, sərbəst cövlanlı orta-zil səsini çox bəyənirdi, "Qaragöz", "Şəfqət bacısı" və başqa bir neçə mahnısını da məxsusi olaraq Tükəzban xanım üçün yazmışdı. Ələkbər Tağıyevin, Tamella Məmmədzadənin və müxtəlif üslublu digər Azərbaycan bəstəkarlarının əsərləri də, sənətçinin repertuarına bir əlvanlıq gətirirdi. Onun ifa etdiyi "Sənin vüqarın mənəm", "Sənsən", "Ceyran", "Qonşu qız", "Sən mənimlə get", "Çiçək" və digər vokal bəstələr 60-70-ci illərin sevilən mahnılarından idi.

Tükəzban xanım yaxşı vokalist olduğu qədər də yaxşı xanəndəydi. Repertuarında muğam, təsnif və xalq mahnıları xüsusi yer tuturdu. "Qatar", "Şahnaz", "Mahur-hindi", "Heyratı", "Xaric segah", "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" kimi milli musiqi incilərimizdən olan bu muğam və zərb muğamlar onun dolu, güclü səsində fərqli bir cazibə qazanırdı. Bu cazibədə xanəndənin təkcə səsinin deyil, təcrübə və sənətkarlığının da payı vardı.

İkinci Dünya müharibəsi illərində cəbhədə əsgərlər üçün konsertlər vermişdir. Azərbaycan Dövlət Filarmoniyasının (1939-1946, 1949-1978), Azərbaycan Radio Verilişləri Komitəsi Xorunun (1946-1949), 1978-ci ildən Azərbaycan Dövlət Qastrol-Konsert Birliyinin solisti olmuşdur. Repertuarında muğam, təsnif, xalq mahnıları ("Kürdün gözəli", "Yeri, dam üstə yeri", "Qarabağ şikəstəsi", "Qaragöz" və s.) və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Almaniya, Polşa, İraq, İran, Türkiyə, Misir, Əlcəzair və b. ölkələrdə qastrol səfərlərində olmuşdur.

Tükəzban xanım səhnə fəaliyyətini böyük məhəbbətlə sevdiyi, adətən onu tarda müşaiyət edən Respublikanın Xalq artisti Həbib Bayramovun ölümündən sonra dayandırmış, pedaqoji fəaliyyət göstərmişdir.

Xidmətlərinə görə T.İsmayılova "Azərbaycan Respublikasının Xalq artisti" (1993) fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, 1998-ci ildə isə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

Tükəzban İsmayılova 2008-ci il mart ayının 24-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Nizamiqızı, H. Həzin səsin nağılı və ya 65 illik sənət tarixçəsi [Mətn] /H.Nizamiqızı //Mədəniyyət.- 2012.- 2 may.- S.10.

Ömrünün 60 ilini muğama həsr edən qadın... : Tükəzban İsmayılova yüksək ifaçılıq qabiliyyəti və səhnə mədəniyyəti ilə fərqlənirdi [Mətn] // Şərq.- 2011.- 20 aprel.- S.11.

Rafiqqızı, N. "Qatar"la tanınan xanəndə - Tükəzban İsmayılova: Həm də bənzərsiz ifası ilə ürəklərə köçdü [Mətn] /N.Rafiqqızı //Olaylar.- 2010.- 3 mart.- S.13.

İnternetdə

www.mugamradio.az

www.mugam.musigi-dunya.az

120 illiyi

Abbas Mirzə Şərifzadə 1893-1938

Aktyor



Ə d ə b i y y a t

Akademik Milli Dram Teatrı [Qeyri musiqili səsyazma] [Mətn]: "Od gəlini", "Almaz", "Bahar suları", "Hacı Qara", "Hamlet", "İldırım", "Kəllə", "Kəndçi qızı", "Otello", "Sevil", "Ölülər", "Şeyx Sənan", "Solğun çiçəklər", "Vaqif", "Yaşar", "Xanlar" tamaşalarından səslər /tamaşaları səsləndirdilər A.Şərifzadə [və b.] .- Bakı, 2011.- 1 CD.

Rəhimli, İ. Abbasmirzə Şərifzadə (9.3.1891-16.11.1938) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.123.

Kazımzadə, A. "Bismillah" filminin 85 yaşı tamam olur [Mətn] /A.Kazımzadə //Mədəniyyət.- 2010.- 25 avqust.- S.10.

Səhnəmizin ilk Hamleti: "Eurovision"un parlaq qalibi Eldar Qasımovun ulu babası Abbas Mirzə Şərifzadənin həyat hekayəti [Mətn] //Şərq.-2011.- 20 may.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www. abbasmirzasharifzade. info

Abbas Mirzə Mirzə Əbdülrəsul oğlu Şərifzadə 1893-cü il dekabr ayının 12-də Şamaxının Yuxarı Qala məhəlləsində ziyalı ailəsində anadan olmuşdur.

1902-ci ildə Şamaxıda baş verən zəlzələdən sonra ailəsi şəhəri tərk etmiş, Bakıya köçmüşlər. Abbas Mirzənin əmisi Mirzə Məmməd Tağı teatr sənətinə meyl göstərmiş, dini tamaşalar hazırlamışdır. Abbas hələ uşaq ikən əmisinin "Şəbeh" tamaşasında əsir qız uşağı rolunu oynamışdır. Peşəkar səhnə fəaliyyətinə gəlincə, o, ilk dəfə 1908-ci ildə Molyerin "Zorən Təbib" əsərində epizodik rolda oynamış, iki ildən sonra isə "Maarif" cəmiyyəti nəzdində yaradılmış teatr kollektivinə qəbul olunmuşdur.

1910-cu ildən "Səfa", "Nicat" cəmiyyətlərinin teatr truppalarında çıxış edən Abbas Mirzə 1911-ci ildə onu bir sənətkar kimi təsdiq edən ilk obrazını yaratmışdır. Bu, Əbdürəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar" faciəsinin əsas qəhrəmanı Qacar obrazı idi.

Abbas Mirzə Şərifzadə 1916-cı ildə Hacıbəyov qardaşlarının truppasına rejissor kimi dəvət olunmuş, bir il sonra isə "Müsəlman artistləri İttifaqına" sədr seçilmiş, ittifaqın nəzdində teatr studiyası yaratmaqla ölkəmizdə teatr təhsili sahəsində ilk təşəbbüsü göstərmişdir. Azərbaycan teatrı səhnəsində ilk dəfə 1927-ci ildə Hamleti obrazını məhz Abbas Mirzə Şərifzadə oynamışdır. Aktyorun oynadığı rolları beş qismə bölmək olar: faciə rolları, romantik qəhrəmanlıq obrazları, dramatik psixoloji surətlər, komediya personajları, opera partiyaları.

1929-cu ildə Moskvada keçirilən Otello və Hamlet rolları ifasının Ümummittifaq müsabiqəsində Şərifzadə birinci yeri tutmuşdur. Böyük sənətkar həm də ilk rejissorlarımızdan sayılır. "Şeyx Sənan", "Oqtay Eloğlu", "Aydın", "Ağa Məhəmməd Şah Qacar", "Qaçaq Kərəm" əsərlərini səhnələşdirmiş, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Şah İsmayıl" operalarının quruluşçu rejissoru olmuşdur. Azərbaycan kino sənəti tarixində onun adı birincilər sırasındadır. O, ilk milli kinorejissorumuz olmuşdur.

Qüdrətli sənətkar 1919-cu ildə Bakıdakı Mərkəzi fəhlə klubunda, sonralar Fəhlə-kəndli Türk Dram Dərnəyində həvəskarlar dəstəsinə rəhbərlik etmiş, bir sıra tamaşaların quruluşçu rejissoru olmuşdur. Abbas Mirzə Şərifzadənin təşəbbüsü ilə həmin dərnəklərdəki həvəskarların bir çoxu peşəkar aktyorluğa gəlmişlər.

Xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar artisti" (19 dekabr 1928) və "Xalq artisti "(1 fevral 1936) fəxri adlarına layiq görülmüşdür.

Abbas Mirzə Şərifzadə 1937-ci ildə həbs olunmuş, 1938-ci il oktyabr ayının 19-da ona "casusluq fəaliyyətinə görə" güllələnmə hökmü verilmişdir. Hökm noyabrın 16-da yerinə yetirilmişdir. Bakı küçələrindən biri və vaxtilə özünün sədr olduğu Cəmiyyətin yerləşdiyi Aktyor Evi Abbas Mirzə Şərifzadənin adını daşıyır.

105 illiyi

İbrahim Həmzəyev 1908-1982

Rejissor



İbrahim (Mir İbrahim) Tağı oğlu Həmzəyev 1908-ci il dekabr ayının 25-də Gəncə şəhərində doğulmuşdur.

Səhnə sənətinə məhəbbəti yeniyetmə yaşlarından başlamışdır. Əvvəlcə Gəncə İşçi klubunda, sonralar Qadınlar klubunda, bir müddət paralel olaraq Dəmiryolçular klubunda dram dərnəklərinin rəhbəri olmuşdur. Əksəriyyətini özü və həmçinin Ədil İsgəndərovun hazırladıqları tamaşalarda baş rolları ifa etmişdir. Dram dərnəyinin repertuarının əsasını İbrahim Həmzəyevin səhnə təfsiri verdiyi "Aydın", "Solğun çiçəklər" (Cəfər Cabbarlı), Bəxtsiz cavan" (Əbdürrəhim bəy Haqverdiyev), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə) tamaşaları təşkil etmişdir.

İbrahim Həmzəyev 1930-cu illərin əvvəllərində Bakı Teatr Məktəbində təhsil almışdır. Tələbəlik illərində Türk İşçi Teatrında yardım heyətinin üzvü olmuşdur. Teatr təhsilini başa vurandan sonra Gəncəyə qayıdıb. TİT Gəncəyə köçəndə kollektivə üzv olmuşdur.

Son dərəcə yaraşıqlı səhnə görkəmi, ifa məharəti, ehtiraslı və emosional daxili aləmi, səhnədəki tərəfdaşları ilə münasibətlərində psixoloji dürüstlüyü olan İbrahim Həmzəyev bu kollektivdə çoxlu sayda rol oynamışdır.

İbrahim Həmzəyev 1937-ci ildə Xalq Maarif komissarlığı İncəsənət İşləri İdarəsinin sərəncamı ilə sənət yardımı üçün Naxçıvan teatrına göndərilmiş, əvvəlcə bu teatrda quruluşçu rejissor və aktyor işləmişdir. Yüksək təşkilatçılıq bacarığına və kollektivlə işləmək səriştəsinə görə 1941-1945-ci illərdə bu teatrda direktor və aktyor, 1943-1961-ci illərdə direktor və baş rejissor, 1964 -cü ildə qısa fasilələrlə direktor işləmişdir. 1947-1948-ci il teatr mövsümündə yardım üçün Qaryagin (indiki Füzuli) Dövlət Dram Teatrına göndərilmişdir Burada həyat yoldaşı Zəroş Həmzəyeva ilə birlikdə aktyor və rejissor kimi çahşmışdır. Qısa müddətdə teatrın yaradıcılığındakı durğunluğu aradan qaldırmağa nail olmuşdur.

Bütün bu illərdə aktyorluq fəaliyyətindən ayrılmayıb. Onun aktyorluq yaradıcılığının zəngin rollar qalereyasında 150-dən artıq səhnə obrazı var.

Naxçıvan teatrının aparıcı aktyorları 1940-1980-ci illərdə özlərinin möhtəşəm rollarının, teatrın tarixində hadisəyə çevrilən səhnə obrazlarının əksəriyyətini İbrahim Həmzəyevin quruluş verdiyi tamaşalarda ifa etmişlər. Rejissor teatrın səhnəsində həm milli, həm də dünya dramaturqlarının klassik və çağdaş mövzulu əsərlərini tamaşaya hazırlamışdır.

Rejissor musiqili komediya janrında Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan", "Ər və arvad", "Məşədi İbad", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", "Əlli yaşında cavan", Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna", Sabit Rəhman və Süleyman Ələsgərovun "Ulduz" əsərlərinə quruluş vermişdir.

Aktyorluq və rejissorluq fəaliyyətinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 15 oktyabr 1965-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunmuşdur. İbrahim Həmzəyev 1982-ci ildə Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat

İbrahim Həmzəyev (25.12.1908-4.2.1982) [Mətn] //İlham Rəhimli. Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005.-S.239.

Rəhimli, İ. Səhnədə ucalan əzəmət.-Bakı: "Çaşıoğlu", 2010.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.lent.az

www.adam.az

75 illiyi

Safurə İbrahimova 1938

Aktrisa



Safurə Ağabala qızı İbrahimova 1938-ci il dekabr ayının 27-də Bakıda doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra dram dərnəyində çalışmış, 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Birinci kursda onu Akademik Milli Dram Teatrının repertuarında olan İslam Səfərlinin "Ana ürəyi" dramının tamaşasında Xatirə roluna dəvət etmişlər. Bundan sonra daha bir neçə rol oynayan tələbə-aktrisa 1961-ci il noyabr ayının 1-də Akademik teatrın truppasına daxil olmuşdur.

Xaraktercə lirik-dramatik aktrisadır. Komik personajlarda da məharətlə oynaya bilir. Səhnədə səmimiyyəti, obrazın psixoloji xarakterini həssaslıqla duyması ilə seçilir. Mənalı sifət ifadələrindən və plastik emosional hərəkətlərdən istifadə etməkdə səriştəlidir. Safurə İbrahimova səhnədə Kamalə, İnci ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Əsmər ("Alov", Mehdi Hüseyn), Fernando ("Dəlilər", Lope de Veqa), Gülnar və Tamara ("Vaqif", Səməd Vurğun), Nazlı ("Ölülər", Cəlil Məmmədquluzadə), Ofeliya ("Hamlet", Vilyam Şekspir), Hafizə ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Karola ("Füsunkar qız", Mikolaş Dyarfaş), Jasmen, Vəfa ("Knyaz" və "Xəyyam", Hüseyn Cavid), Daduno ("Darıxma, ana!", Nodar Dumbadze), Sona ("Xanuma", Avksenti Saqareli), Cen ("Mariya Tüdor", Viktor Hüqo), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Saşa ("Canlı meyit", Lev Tolstoy), Sevil ("Sevil", Cəfər Cabbarlı), Balaxanım ("Adamın adamı", Anar), Mədinə, Tubu xanım ("Sevgililərin cəhənnəmdə vüsalı" və "Hökmdar və qızı", İlyas Əfəndiyev), Durdensiya ("Dişi canavar", Federiko Qarsia Lorka), Zəhra bəyim ("Anamın kitabı", Cəlil Məmmədquluzadə), Mələk ("Köhnə ev", Əli Əmirli) rollarında daha çox sənət uğurları qazanıb. Aktrisanın kino rolları arasında Telli ("Arşın mal alan"), Həbibə ("Qatır Məmməd"), Dilbər ("Sevil"), Gülpəri ("Dərviş Parisi dağıdır"), Mədinə ("Alma almaya bənzər") obrazları daha məşhurdur. "Qaynana" və "Bizim Cəbiş müəllim" bədii filmlərində də unudulmaz obrazlar yaratmışdır.

Safurə İbrahimova teatr sənətindəki xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar artisti" (1 iyun 1974) və "Xalq artisti" (24 dekabr 2002) fəxri adları ilə təltif edilmişdir. Mehdi Məmmədovun quruluşunda Hüseyn Cavidin "İblis" faciəsindəki Rəna roluna görə Dövlət mükafatı laureatıdır.

SSR-i dövründə Novruz bayramı keçirilərkən, ilk bahar qızı da məhz Səfurə İbrahimova olmuşdur.

Ədəbiyyat

Rəhimli, İ. Safurə İbrahimova: Xalq artisti [Mətn] //Rəhimli İ. Üç əsrin yüz otuz ili (Akademik Milli Dram Teatrı bu gün).- Bakı, 2003.- S.61-63.

Rəhimli, İ. Safurə İbrahimova (27 dekabr 1938) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.190.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

60 illiyi

Ənvər Arazov
1953-1992

Milli Qəhrəman



Ənvər Talış oğlu Arazov 1953-cü il dekabr ayının 2-də Gəncə şəhərində anadan olmuşdur. Həmin şəhərdəki 15 nömrəli orta məktəbin səkkizinci sinfini bitirmiş, sonra texniki peşə məktəbində oxumuşdu. Bir müddət əmək fəaliyyəti ilə məşğul olduqdan sonra Gəncə Politexnik Texnikumuna daxil olmuşdur.

1974-cü ildə hərbi xidmətə çağırılan Ənvər Murmansk vilayətində Şimal Hərbi Dəniz Donanmasında xidmət etmişdi. Hərbi xidmətini başa çatdırdıqdan sonra Gəncəyə dönmüş, büllur zavodunda işləməyə başlamışdı. Ə.Arazov eyni zamanda yarımçıq qalmış təhsilini davam etdirərək, 1980-ci ildə texnikumu müvəffəqiyyətlə bitirmiş, zavodda əvvəlcə nizamlayıcı, sonra növbə ustası kimi çalışmağa başlamışdır.

1988-ci ildə ermənilər Dağlıq Qarabağ ərazisində müharibəyə başlayarkən Daxili İşlər Nazirliyində işə qəbul olunaraq cəbhəyə yollanmış, 1989-cu ildə Çaykəndin alınması uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

1992-ci ildə Gəncədə Milli Müdafiə Qərargahının müdirinin II müavini olmuşdur. 1992-ci ilin avqustunda Tərtərdə alay komandiri təyin olunmuşdur. Göstərdiyi sücaətlərə görə ona polkovnik rütbəsi verilmişdir.

Ağdərə rayonunda bir çox uğurlu əməliyyatlarda iştirak etmişdi.1992-ci il noyabrın 1-dən 2-nə keçən gecə Ağdam rayonunun Sırxavənd kəndində erməni quldurları ilə qeyri-bərabər döyüşə girərək, mərdliklə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 nömrəli Fərmanı ilə Arazov Ənvər Talış oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Gəncə şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Arazov Ənvər Talış oğlu – alay komandiri, kapitan – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Arazov Ənvər Talış oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.31.

Əsgərov, V. Arazov Ənvər Talış oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.23.

Seyidzadə, M. Arazov Ənvər Talış oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.-S.29.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.zengilan.com

Milli Qəhrəmanlar

60 illiyi

Şikar Şikarov
1953-1992

Milli Qəhrəman



Şikar Şükür oğlu Şikarov 1953-cü il dekabr ayının 3-də Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə 46 saylı orta məktəbi bitirmiş və Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə qəbul olunmuşdur.

1975-ci ildə təhsilini başa vuraraq, təyinatla Primorsk vilayətindəki hərbi hissələrin birində rota komandiri kimi fəaliyyətə başlamışdır.

1986-cı ildə Moskvada Frunze adına Hərbi Akademiyaya qəbul olunmuş, 1989-cu ildə oranı bitirərək polkovnik-leytenant rütbəsi ilə Ukraynanın Luqansk şəhərində yerləşən hərbi hissələrdən birinə qərargah rəisi təyin olunmuşdur.

1990-cı il 20 yanvar hadisələrindən sonra vətənə qayıtmış, əvvəl Mülki Müdafiə Baş Qərargahında əməliyyat şöbəsinin rəisi, 1992-ci ildə Respublika Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini təyin edilmişdir. 1992-ci ildə Goranboy rayonunda əməliyyata bilavasitə rəhbərlik etmiş, uğurlu əməliyyatlar keçirmişdir.

1992-ci il iyun ayının 13-də yenidən Ağdərəyə yola düşmüşdür. Ağır döyüşlərin birində qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə polkonik Şikarov Şikar Şükür oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Qobustan rayon Sündü kənd orta məktəbi onun adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Şikarov Şikar Şükür oğlu – polkovnik – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 12.- S.35.- (Ölümündən sonra).

Əsgərov, V. Şikarov Şikar Şükür oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.209.

Seyidzadə, M. Şikarov Şikar Şükür oğlu[Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.212.

Şikarov Şikar Şükür oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası..- Bakı, 2008.- S.196-197.

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

Milli Qəhrəmanlar

40 illiyi

Səxavət Məhərrəmov
1973-1992 *Milli Qəhrəman*



Səxavət Ələmdar oğlu Məhərrəmov 1973-cü il dekabr ayının 5-də Qərbi Azərbaycanın Amasiya rayonunda anadan olmuşdur. 1988-ci ildə erməni faşistləri azərbaycanlıları buradan deportasiya edərkən onun ailəsi Gürcüstana köçmüş, sonra isə Lökbatan qəsəbəsində məskunlaşmışlar.

Səxavət 1990-cı ildə burada 106 saylı məktəbi bitirmişdir. Milli Azadlıq hərəkatının fəal üzvlərindən biri olur. 1991-ci ilin noyabrında O, könüllü olaraq əvvəlcə Daxili Qoşunlarda, sonra isə yenicə yaranmış Milli ordu sıralarında hərbi xidmətə başlamışdır. Bir çox döyüşlərdə rəşadət nümayiş etdirmişdir. 1992-ci il iyun ayının 27-də Ağdərənin Möhrədağ kəndi uğrunda qanlı döyüşlər gedirdi, onlarla erməni yaraqlısı məhv edildikdən sonra bölmə geri dönərkən meşədə mühasirəyə düşmüş, 19 yaşlı Səxavət canından əziz tutduğu vətən uğrunda qəhrəmancasına həlak olmuşdur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Məhərrəmov Səxavət Ələmdar oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Lökbatan qəsəbəsindəki 106 saylı məktəbə qəhrəmanın adı verilmiş, burada büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məhərrəmov Səxavət Ələmdar oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.- (Ölümündən sonra).

Əsgərov, V. Məhərrəmov Səxavət Ələmdar oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.135.

Məhərrəmov Səxavət Ələmdar oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2008.- S.136.

Seyidzadə, M. Məhərrəmov Səxavət Ələmdar oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.154.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.azerbaycanqehremani.org

www.milliqahraman.az

www.muallim.edu.az



Milli Qəhrəmanlar

55 illiyi

İbrahim Məmmədov 1958-1994 *Milli Qəhrəman*



İbrahim İsmayıl oğlu Məmmədov 1958-ci il dekabr ayının 20-də Naxçıvanda dünyaya gəlmişdir.

1976-cı ildə 3 saylı Naxçıvan şəhər orta məktəbini bitirmişdir. Bir il Su Tikinti İdarəsində işlədikdən sonra 1977-ci ildə hərbi xidmətə çağırılmışdır. Ordu sıralarında xidmət edərkən PDM hərbi texnikasının birinci dərəcəli tuşlayıcı-operatoru ixtisasına yiyələnmişdir.

Ordudan tərxis olunan İbrahim, 1988-ci lidə Bakı Dövlət Universitetinin tarix fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Moskvada yaşamasına baxmayaraq, Qarabağ müharibəsi başlayanda vətənə qayıtmış, könüllü batalyonlardan birinin tərkibində döyüşlərə qatılmışdır.

1993-cü ildə Milli Orduda xidmətini davam etdirmiş, Kəlbəcər uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. İ.Məmmədovun komandanlığı altında strateji əhəmiyyətli bir yüksəklik düşməndən azad edilmişdir. 1994-cü il 16 fevralda Kəlbəcər uğrunda gedən qızğın döyüşdə düşmənin 3 tankını və xeyli canlı qüvvəsini sıradan çıxarmış lakin, düşmən snayperinə tuş gəlmişdir. Aldığı yaradan qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 1994-cü il tarixli 156 saylı Fərmanı ilə Məmmədov İbrahim İsmayıl oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Naxçıvan şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

İbrahim İsmayıl oğlu Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Bölük komandiri, leytenant – Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 20 iyun 1994-cü il [Mətn] //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1994.- №12.- S.8; Azərbaycan.- 1994.- 22 iyun.-(Ölümündən sonra).

Əsgərov, V. Məmmədov İbrahim İsmayıl oğlu [Mətn] //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2005.- S.143.

Məmmədov İbrahim İsmayıl oğlu [Mətn] //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.141.

Seyidzadə, M. Məmmədov İbrahim İsmayıl oğlu [Mətn] //Seyidzadə M. Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.143.

İ n t e r n e t d ə

www.anl.az

www.muallim.edu.az

www.milliqahraman.az

www.zengilan.com

100 illiyi

Kamran Hüseynov 1913-2006

Dövlət xadimi



Kamran Əsəd bəy oğlu Hüseynov 1913-cü il dekabr ayının 15-də Zəngəzur qəzasının Çərəli kəndində anadan olmuşdur. O, əmək fəaliyyətinə gənc yaşlarından başlamış, 1934-cü ildən etibarən isə Bakı neft sənayesində müxtəlif vəzifələrdə çalışmışdır.

Kamran Hüseynov 1938-1940-cı illərdə Xarkov İnşaat Mühəndisləri İnstitutunda, 1940-1941-ci illərdə Azərbaycan Sənaye Akademiyasında təhsil almışdır. O, 1949-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini və respublika Ali Partiya Məktəbini bitirmişdir.

Kamran Hüseynov 1941-1944-cü illərdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərmiş, 1944-1945-ci illərdə Sumqayıt rayon Partiya Komitəsinin sənaye və kadr işləri üzrə katibi, 1945-1947-ci illərdə indiki Binəqədi rayon Partiya Komitəsinin birinci katibi işləmişdir. 1949-1952-ci illərdə Mingəçevirdə aparılan inşaat işlərinin rəhbərlərindən biri olmuş Kamran Hüseynov 1952-1953-cü illərdə Neftçala rayon Partiya Komitəsinin birinci katibi, 1953-1958-ci illərdə isə Sumqayıt şəhər Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır.

Kamran Hüseynov 1958-1961-ci illərdə respublika Həmkarlar İttifaqları Şurasının sədri olmuş, 1961-1968-ci illərdə Moskva şəhərində Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi işləmişdir. Kamran Hüseynov 1968-1980-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini olmuşdur. O, 1980-1993-cü illərdə respublika Ticarət və Sənaye Palatasının sədri, 1993-cü ildən isə həmin Palatanın müşaviri olmuşdu.

Kamran Hüseynov Azərbaycanın ictimai-siyasi həyatında uzun illər səmərəli fəaliyyət göstərən şəxsiyyətlərdən idi. Onun dövlət idarəçiliyi və iqtisadiyyatın müxtəlif sahələrində gördüyü işlər böyük bir dövrü əhatə etmişdir. O, sıravi fəhləlikdən başlamış strateji əhəmiyyətli mühüm dövlət obyektlərinin tikilib istismara verilməsinə qədər çalışdığı bütün sahələrdə yüksək peşəkarlıq, fədakarlıq və yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Azərbaycanda yeni yaşayış məntəqələrinin salınmasında, onların sənaye mərkəzlərinə çevrilərək inkişaf etməsində Kamran Hüseynovun xidmətləri təqdirəlayiqdir. Tutduğu vəzifələrdən, gördüyü işlərdən asılı olmayaraq, onun mövqeyi daim öz vətənpərvərlik ruhu ilə səciyyələnmişdir. O, 1967-ci ildə tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

Kamran Hüseynov Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçısı kimi yaxşı tanınmışdı. O, uzun illər Azərbaycan Respublikası Ali Sovetinin, eləcə də RSFSR Ali Sovetinin deputatı kimi səmərəli fəaliyyət göstərmişdir.

Kamran Hüseynovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallara layiq görülmüş, o cümlədən müstəqil Azərbaycan Respublikasının ali mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Kamran Əsəd oğlu Hüseynov 2006-cı il aprel ayının 20-də vəfat etmişdir.

Ədəbiyyat

Bir ömrün salnaməsi [Mətn]: [avtobioqrafik memuar] /Kamran Hüseynov; red. E.Əliyev.- Bakı: Günəş, 1998.- 312 s.

Quruculuğa həsr olunmuş ömür: [avtobioqrafik memuar] [Mətn] /Kamran Hüseynov; red. E.Əliyev.- Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2001.- 384 s.

Gəncəli, Ə. Görkəmli ictimai-siyasi xadim haqqında monoqrafiya [Mətn] /Ə.Gəncəli //Respublika.- 2010.- 1 sentyabr.- S.4.

İsmayılov, İ. Quruculuğa həsr olunmuş ömür [Mətn] /İ.İsmayılov //Azad Azərbaycan.- 2009.- 14 aprel.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

95 illiyi Mehdi Hüseynzadə 1918-1944

Sovet İttifaqı Qəhrəmanı



Mehdi Hənifə oğlu Hüseynzadə 1918-ci il dekabr ayının 22-də Bakının Novxanı kəndində anadan olmuşdur.

1932-ci ildə o, Azərbaycan Dövlət Rəssamlıq məktəbinə daxil olmuşdur. 1937-ci ildə Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutunda təhsil almış, 1940-ci ildə isə yenidən Bakıya qayıtmış, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda öz təhsilini davam etdirmişdi.

Böyük Vətən müharibəsi başlananda müha-ribəyə yollanmış, 1942-ci ilin yayında Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanmış və faşistlər tərəfindən əsir alınmışdı. 1943-cü ilin sonlarında, bir dəstə azərbaycanlı əsir ilə faşist əsarətindən qaçmış, Yuqoslaviya və İtaliya partizanlarına qoşulmuşdu. İgidliyi və "Mixaylo" ləqəbi ilə məşhurlaşmışdır.

1944-cü il noyabr ayının 16-da Mehdi Hüseynzadə, partizan birləşməsi qərargahının tapşırığı ilə faşistlərin böyük hərbi ləvazimat anbarını partlatmış və geri qayıdarkən faşist keşikçiləri ilə üz-üzə gəlmişdi. Qəhrəman döyüşçü ağır yaralanmış, çoxlu qan itirərək həlak olmuşdur. "Mixaylo"nun ölüm xəbəri bütün Adriatik sahilinə yayılmışdı. Çepovani kəndində qəhrəmanın başdaşı üzərinə aşağıdakı sözlər həkk olunmuşdur: "Rahat yat, Azərbaycan xalqının qəhrəman oğlu, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır".

1957-ci il aprel ayının 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Yazıçılarımızdan İmran Qasımov və Həsən Seyidbəylinin Mehdi Hüseynzadənin bədii surətini yaratdıqları "Uzaq sahillərdə" povesti əsasında eyniadlı bədii film çəkilmişdir.

Partizana Nova Qoritsa şəhəri yaxınlığındakı Şempas qəsəbəsində abidə ucaldılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Sloveniya Respublikasının Prezidenti Danilo Türk 2011-ci il iyun ayının 10-da Novo Qoritsa şəhərində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin memorialını ziyarət etmiş və memorial muzeyin açılışında iştirak etmişlər. Xalqımızın qəhrəmanlıq tarixində mühüm yeri olan Mehdi Hüseynzadənin memorial muzeyindəki bütün eksponatlar onun adı ilə bağlıdır. Muzeydə Mixaylonun abidəsi də qoyulmuşdur. Vaxtilə ona məxsus olan döyüş sursatları, şəxsi əşyalar da muzeydə nümayiş etdirilir. Mehdi Hüseynzadə haqqında çəkilmiş "Uzaq sahillərdə" filmindən fotolar da bura gələnlərə xalqımızın igid oğlunun xatirəsinin hər zaman soydaşlarımızın qəlbində yaşadığını bir daha nümayiş etdirir. Bir sözlə, memorial muzeyin yaradılması bu torpaqların faşizm təhlükəsindən azad olunması yolunda öz canından keçmiş Mehdi Hüseynzadənin xatirəsinə həm Azərbaycan, həm də Sloveniya hökumətinin ehtiramını göstərir.

Ədəbiyyat

Əfsanəvi Mixaylo [Mətn] /tərt.ed. Ş.Nəzirli.- Bakı: Gənclik, 1988.- 86 s.

Qasımov, İ. Uzaq sahillərdə [Mətn]: povest /İ.Qasımov, H.Seyidbəyli; rəss. O.Sadıqzadə; red. R.Salamova.- Bakı: Uşaqgəncnəşr, 1961.- 322 s.

Mehdi Hüseynzadənin xatirəsinə həsr olunmuş film və fotosərgi [Mətn] //Mədəniyyət.- 2010.- 3 noyabr.- S.2.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

actionmeinhof.wordpress.com

65 illiyi

Ramil Usubov 1948

Dövlət xadimi



Ramil İdris oğlu Usubov 1948-ci il dekabr ayının 22-də Xocalı şəhərində anadan olmuşdur.

1973-cü ildə N.Rzayev adına Bakı Xüsusi Orta Milis məktəbini, 1980-ci ildə isə keçmiş SSRİ DİN-in Polis Akademiyasını bitirmişdir.

Əmək fəaliyyətinə 1970-ci ildə Azərbaycan Respublikası Xankəndi Daxili İşlər İdarəsində polis nəfəri kimi başlamışdır. 1973-cü ildən Xankəndi DİŞ Cinayət-axtarış qrupunda əməliyyat müvəkkili, Şuşa rayon DİŞ cinayət-axtarış bölməsinin rəisi, Xankəndi Daxili İşlər İdarəsi rəisinin müavini, Əli Bayramlı (indiki Şirvan) şəhər DİŞ-in rəisi vəzifələrində işləmişdir.

1987-1989-cu illərdə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri təyin olunmuş, 1989-1993-cü illərdə Azərbaycan Respublikası DİN-in Cinayət Axtarış İdarəsinin rəisi, Pasport İşləri, Viza və Qeydiyyat İdarəsinin rəisi, Kadrlar İdarəsinin şöbə rəisi vəzifələrində çalışmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 avqust 1993-cü il tarixli Fərmanı ilə yenidən Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 29 aprel 1994-cü il tarixli 140 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Daxili İşlər naziri təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 3 may 1994-cü il tarixli 144 nömrəli Fərmanı ilə Ramil Usubova general-mayor, 26 dekabr 1995-ci il tarixli 418 nömrəli Fərmanı ilə general-leytenant, 15 yanvar 2002-ci il tarixli 637 nömrəli Fərmanı ilə general-polkovnik hərbi rütbəsi verilmişdir.

Ramil Usubov Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsində, cinayətkarlıqla mübarizənin, ictimai təhlükəsizliyin və əmin-amanlığın təmin edilməsində, ölkədə dönməz sabitliyin əldə olunub, qorunub saxlanılmasında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1998-ci il tarixli 41 nömrəli Fərmanı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın beynəlxalq polis strukturlarına inteqrasiya olunmasında, dünya birliyi dövlətlərinin müvafiq qurumları ilə faydalı qarşılıqlı əlaqələrin təşkil edilməsində transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsində xüsusi xidmətləri olmuş, bu sahədə uğurlu nəticələrinə və müsbət göstəricilərinə görə çox sayda müxtəlif yüksək mükafatlara layiq görülmüşdür.

2009-cu ildə Polşa Prezidentinin sərəncamı ilə iki ölkə arasında münasibətlərin inkişafına göstərdiyi xidmətlərə görə "Böyük zabit" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat

Usubov Ramil İdris oğlu [Mətn] // Azərbaycanda kim kimdir.- Bakı, 2010.-S.107.

Hər yüz min nəfərə düşən cinayətlərin sayına görə Azərbaycan MDB məkanında sonuncu yerlərdən birini tutur [Mətn] // Azərbaycan.- 2011.- 3 iyun.- S.4.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org


www.mia.gov.az

www.e-qanun.az

90 illiyi

Ziya Bünyadov 1923-1997

Akademik



Ədəbiyyat

Azərbaycan tarixi [Mətn]: ali məktəblər üçün dərslik /red. Z.Bünyadov, Y.Yusifov.- Bakı: Çıraq, 2005.- C.I.- 720 s.

Azərbaycan Atabəylər dövləti [Mətn]: (1136-1225-ci illər) /Z.Bünyadov; red. V.Beylis; tərc. ed. C.Qəhrəmanov; Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutu.- Bakı: Elm, 1985.- 266 s.

Qırmızı terror [Mətn] /Z.Bünyadov; red.: R.Mirqədirov, S.Cabbarova; rəssam E.İsmayılov; tərt. ed. İ.Əliyeva.- Bakı: Azərnəşr, 1993.- 331 s.

Qur'ani-Kərim [Mətn] /ərəb dilindən tərc. ed.: Z.Bünyadov, V.Məmmədəliyev; ön söz V.Məmmədəliyev; məsl. red. Şeyxülislam A.Paşazadə.- Bakı: Çıraq, 2004.- 636 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Ziya Musa oğlu Bünyadov 1923-cü il dekabr ayının 21-də Astara şəhərində anadan olmuşdur. 1939-cu ildə orta məktəbi bitirdikdən sonra Bakı Ali Birləşmiş Komandirlər məktəbində təhsilini davam etdirmişdir.

İkinci Dünya müharibəsi dövründə vuruşaraq Berlinədək şərəfli döyüş yolu keçmişdir. 1945-ci il fevral ayının 27-də ona "Sovet İttifaqı Qəhramanı" adı verilmişdir.

Z.Bünyadov ordudan tərxis olduqdan sonra, 1946-cı ildə Moskva Şərqşünaslıq İnstitutuna daxil olmuş, 1950-ci ildə həmin institutun aspiranturasına qəbul edilmişdir. Sonra o, Azərbaycan EA-nın Tarix İnstitutunda elmi axtarışlarını davam etdirmişdir. O, Xilafət və Azərbaycanın VII-XIII əsrlər tarixinin tədqiqatçılarından biri olmuşdur. 1964-cü ildən Yaxın və Orta Şərq Xalqları İnstitutunda Orta əsrlər tarixi şöbəsinin rəhbəri olmuş, tarix elimləri doktoru elmi dərəcəsi, 1965-ci ildə isə professor elmi adına layiq görülmüşdür. 1967-ci ildə Azərbaycan Elmlər Akademyasının müxbir üzvü, 1973-cü ildə akademiyanın həqiqi üzvi seçilmişdir.

1981-ci ildən isə Şərqşünaslıq İnstitutunun direktoru, 1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir. Ziya Bünyadov "Qırmızı Bayraq", "Aleksandr Nevski", "2-ci dərəcəli vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri və medallarla təltif edilmişdir.

Görkəmli akademik 1980-ci ildə dövlət mükafatına layiq görülmüş, 1981-ci ildən ömrünün sonunadək Azərbaycan EA-nın Şərqşünaslıq İnstitunun direktoru vəzifəsini icra etmiş, 1990-cı ildə isə Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir. Elmi fəaliyyəti ilə yanaşı, siyasətlə də məşğul olan Z.Bünyadov milli məclisin deputatı olduğu müddətdə öz çıxışlarında dəfələrlə həyasız, saxtakar erməni tarixçilərinin əsassız iddialarını faktlarla ifşa etmişdir.

Akademik Ziya Bünyadov Berlin şəhərinin Pankov rayonunun (Almaniya), Urgənc (Özbəkistan), Astara və Göyçay şəhərlərinin fəxri vətəndaşı olmuşdur.

Ziya Bünyadov həm də Şərq dillərinin bilicisi kimi gözəl tərcüməçi idi. Onun əsərləri Fransada, İraqda, Rusiyada, Türkiyədə və dünyanın bir sıra başqa ölkələrində nəşr olunmuşdur. O, dünyanın bir sıra alimlərinin əsərlərini ingilis, ərəb, rus və türk dillərindən tərcümə etmişdir. Görkəmli alim həyatının son illərində Tacəddin əs-Salmaninin "Tarixnamə", V.V.Bartoldun "Xəzəryanı vilayətlərin müsəlman aləmində yeri" əsərlərini tərcümə etmişdir Xüsusilə qeyd etməliyik ki, akademik Z.Bünyadovun ən yaddaqalan töhfələrindən biri də professor Vasim Məmmədəliyevlə birgə müqəddəs "Qurani-Kərim"i Azərbaycan dilinə tərcümə etməsi olmuşdur.

Akademik Ziya Bünyadov 1997-ci il fevral ayının 21-də cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

95 illiyi

Abdulla Muxtarov 1918

Fizik



Abdulla İbrahim oğlu Muxtarov 1918-ci il dekabr ayının 24-də Dağıstanın Rutul rayonunun Saxur kəndində anadan olmuşdur.

1939-1944-ci illərdə Azərbaycan Dövlət Universiteti fizika-riyaziyyat fakültəsini bitirmişdir.

1947-1950-ci illərdə Moskva Dövlət Universitetinin aspirantı olmuş, fizika-riyaziyyat elmləri doktoru, professordur.

Əmək fəaliyyətinə 1944-1946-cı illərdə ADU-nun tərkibində Riyaziyyat-fizika İnstitutunda kiçik elmi işçi kimi başlamışdır.

1947-1950-ci illərdə Moskva Dövlət Universitetində aspirant, 1950-ci ildən indiyə kimi BDU-da baş müəllim, dosent, professor, kafedra müdiri, 1972-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

30-a yaxın aspirant, 5 elmlər doktorunun elmi rəhbəri olmuş, 140 elmi məqalənin, 4 dərsliyin müəllifidir. 5 dərsliyi rus dilindən Azərbaycan dilinə tərcüməçisi olmuşdur. Bakalavr və magistr pilləsində təhsil alan tələbələrə elementar zərrəciklər fizikası, kvant mexanikası, kvant elektrodinamikası kurslarından mühazirə dərsləri aparır. Tədqiqat sahəsi kvant nəzəriyyəsi, elektro-zəif qarşılıqlı təsir nəzəriyyəsidir. "Statistik fizika", (1961), "Kvant mexanikası", (1999) adlı tədris kitablarının müəllifidir.

Xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, "Azərbaycan SSR Xalq təhsili əlaçısı" medalı (1975), "Şərəf nişanı" ordeni (1978); "SSRİ-nin təhsil əlaçısı" (1980); "Əmək veteranı" medalları (1981) ilə təltif edilmişdir.

1992-ci ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1998-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni və BDU-nun "Xatirə" medalı ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t

Kvant mexanikası [Mətn]: ali məktəblər üçün dərs vəsaiti /A.Muxtarov; elmi red. R.Muradov; rəy.: N.Quliyev, S.Hacıyev.- Bakı: Bakı Universiteti, 2007.- 656 s.

Fizikadan olimpiada məsələləri [Mətn]: (həlli ilə) /A.Muxtarov, Ş.Həmidov; rəy. Q.Əfəndiyev.- Bakı: Maarif, 1987.- 122 s.

Statistik fizika [Mətn] /A.Muxtarov; red. Y.Seyidov; Azərb. SSR Nazirlər Sovetinin Ali və Orta İxt. Təhsili Komitəsi, S.M.Kirov ad. ADU.- Bakı: Azərtədrisnəşr, 1961.- 275 s.

İnternetdə

www.azerilobbi.com

www.seyranfizik.narod.ru

www.e-qanun.az

80 illiyi

Eldar Salayev 1933

Akademik



Eldar Yunis oğlu Salayev 1933-cü ildə dekabr ayının 31-də Naxçıvan şəhərində anadan olmuşdur.

1956-cı ildə Azərbaycan Dövlət Universitetini (BDU) bitirmişdir.

1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda elmi işlər üzrə direktor müavini, 1973-cü ildə isə həmin institutun direktoru olmuşdur.

1975-ci ildə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini, 1979-cı ildə professor adını almışdır.

1980-cı ildə EA-nın müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü, 1983-1997-ci illərdə Azərbaycan EA-nın prezidenti seçilmişdir.

E.Y.Salayev bərk cisim fizikası, kvant elektronikası və fotoelektronika sahəsində görkəmli alimdir. Əsas işləri yarımkeçiricilərin tədqiqinə müxtəlif halların enerji spekterlərinin öyrənilməsinə aiddir. Salayev sürətli elektronlar dəstəsi vasitəsilə ilk dəfə laylı kristallarda induksiyalanmış şüalanmanı aşkara çıxarmış və bu sinif yarımkeçiricilərdə qeyri-xətti optik xassələri öyrənmişdir. Həmin tədqiqatlar lazer şüaları çeviricilərinin yaranmasına imkan vermişdir. Salayevin rəhbərliyi ilə yarımkeçiricilər əsasında deflektor, deşifrator, fotoqəbuledicilər, elektron mikrosoyuducuları, metroloji tətdqiqatlar üçün qurğular yaradılmışdır. Xüsusi təyinatlı, analoqu olmayan optoelektron sistem və cihazların istiqamətinin yaradıcısıdır. Bu sistem və cihazlar, kosmik aparatlar hərbi sənayedə və digər sahələrdə geniş tətbiq olunmuşdur.

4 monoqrafiyanın, dünyanın mötəbər jurnallarında dərc olunmuş 250-dən artıq elmi məqalənin, 100-ə qədər ixtiranın müəllifidir. Yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətləri olmuşdur.

Eldar Salayev 1972-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, akademik S.İ.Vavilov, H.Z.Tağıyev, N.Nərimanov adına, Avropa Türk-İslam Cəmiyyəti mükafatlarının laureatı, İslam Akademiyasının üzvüdür.

Ədəbiyyat

Azərbaycan Elmlər Akademiyası - 50 [Mətn] /tərt. və red. heyəti E.Y.Salayev və b.- Bakı: Sabah, 1995.- 368 s.

Vəliyev, M. Lazerlər: bu günü və sabahı [Mətn] /M.Vəliyev, E.Salayev; red. H.Abdullayev; AzSSR EA, Fizika İn-tu.- Bakı: Elm, 1983.- 158 s.

Salayev Eldar Yunis oğlu [Mətn] //Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı.- Bakı, 2005.- C.I.- 456 s.

Salayev Eldar Yunis oğlu [Mətn] //Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.- S.490-491.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.science.az

105 illiyi

Müzəffər Abutalıbov 1908-1984

Akademik



Müzəffər Heydər oğlu Abutalıbov 1908-ci il dekabr ayının 14-də Ordubad şəhərində anadan olmuşdur.

1930-cu ildə Azərbaycan Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsini bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı İnstitunun (indiki Kənd Təsərrüfatı Akademiyası) və Azərbaycan Dövlət Universitetinin (indiki BDU) dosenti, Azərbaycan Elmi Tədqiqat Pambıqçılıq İnstitutunun baş elmi işçisi, SSRİ EA Azərbaycan filialı Botanika İnstitutunun şöbə müdiri və direktor müavini (1935-1947), Azərbaycan Dövlət Universiteti Bitki fiziologyası kafedrasının müdiri (1949-1959), Azərbaycan Milli EA Genetika və Seleksiya İnstitutunun (1960-1962), Botanika İnstitutunun (1947-1949;1962-1978) direktoru vəzifələrində çalışmış, 1978-1984-cü illərdə Botanika İnstitutunda özünün yaratdığı Bitki fiziologiyası şöbəsinə rəhbərlik etmişdir.

Tədqiqatları əsasən pambıq, kartof və digər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasına, onların mikroelementlərlə qidalandırılmasının nəzəri və əməli problemlərinin öyrənilməsinə, o cümlədən mikroelementlərin azotobakterin inkişafına və torpağın azotmənimsəyən mikroorqanizmlərinin fəaliyyətinə təsirinə, mineral maddələrin bitkilərə daxil olmasına, orqanizmdə hərəkətinə və hüceyrələrdə paylanmasına və s. həsr olunmuşdur.

Bir neçə monoqrafiya və ali məktəb dərsliyinin, 220-dən çox elmi məqalənin müəllifidir. Elmi məclislərdə, o cümlədən beynəlxalq biokimya (1961), botanika (1969), biofizika (1973) konqreslərində məruzələr etmişdir. Bir sıra elmi şura və cəmiyyətlərin üzvü olmuşdur. Elmi kadrların hazırlanmasında xidmətləri var.

Bitki fiziologyası sahəsində ilk azərbaycanlı elmlər doktoru (1944), professor (1950), Azərbaycan Milli EA-nın (müxbir üzvü 1960) akademiki (1968) olmuşdur.

Görkəmli akademik Müzəffər Abutalıbov 1984-cü il noyabr ayının 8-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Azərbaycanın bitki örtüyü [Mətn] /tərt. ed. M.Abutalıbov, V.Hacıyev; foto Y.Şamilov; rəssam S.Qənbərov.- Bakı: İşıq, 1976.- 48 s.

Abutalıbov Müzəffər Heydər oğlu [Mətn] // Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.- S.13.

İnternetdə

www.anl.az

www.ordubadli.az

www.az.wikipedia.org

90 illiyi

Dürrə Məmmədova-Kosmodemyanskaya 1923

Səhiyyə işçisi



Dürrə Əlabbas qızı Məmmədova-Kosmodemyanskaya 1923-ci il dekabr ayının 25-də Şəkidə anadan olmuşdur.

1940-ci ildə Bakı Əczaçılıq Texnikumunu bitirmiş, müharibənin ilk günlərindən könüllü cəbhəyə getmişdir. Qara Dəniz Donanmasında 43 №-li hərbi hospitalda xidmət etmiş, Novorossiysk şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə 18-ci Ordunun tərkibində tibb işçisi kimi iştirak etmişdir. 1948-ci ildə ordudan tərxis olunmuşdur. 1949-1951-ci illərdə Leninqradda, 1951-1961-ci illərdə Uzaq Şərqdə hərbi hospitallarda işləmiş, 1961-ci ildən Bakıda, Baş Aptekler İdarəsi sistemində çalışmışdır. 2-ci Dünya müharibəsi iştirakçısı, baş leytenant, SSRİ tibb xidməti əlaçısı olmuş, 1981-ci ildə Azərbaycan SSR Əməkdar səhiyyə işçisi adını almışdır. "Qırmızı Ulduz", II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Abdullayeva, F. Xanım zabitlərimiz və... generalımız: [Mətn] Onların arasında təyyarəçilər, gəmi kapitanları, tibb işçiləri də olub //Mədəniyyət.- 2010.- 5 mart.- S. 8.

25

105 illiyi

Məmməd Mövsümzadə 1908-1984

Kimyaçı alim

Məmməd Mirzə oğlu Mövsümzadə 1908-ci il dekabr ayının 25-də Bakıda anadan olmuşdur.

1930-1938-ci illərdə Bakının müxtəlif ali məktəblərində müəllimlik etmiş, 1939-1960-cı illərdə Azərbaycan Tibb İnstitutunda dosent, professor və kafedra müdiri işləmişdir.

1939-1948-ci illərdə Azərbaycan Sənaye İnstitutunun kimya fakültəsinin dekanı olmuş, 1945-ci ildə kimya elmləri doktoru, 1947-ci ildə professor elmi adını almışdır.

Əsas elmi işləri α-oksidlər sahəsindədir. α-oksid almaq üçün olefinlərin hipoxloridlə oksidləşdirilməsi üsulunu təklif etmiş, trimetiletilenoksiddən izopen və metilizopropilketon almış, buketon vasitəsilə yağları parafinsizləşdirməyin mümkün olduğunu göstərmiş, bromla oksidlərdən alınan kompleks birləşmələrin aşağı temperaturda reaksiya qabiliyyətini öyrənmiş, daxili molekulyar əlaqəli üzvi sintezlər aparmış və üzvi kimyanın bəzi nəzəri məsələlərini aydınlaşdırmışdır.

1950-1960-cı illərdə D.İ.Mendeleyev adına Ümumittifaq Kimyaçılar Cəmiyyəti Azərbaycan İdarəsinin sədri olmuşdur. "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

1967-ci ildən Azərbaycan EA-nın müxbir üzvü, 1971-ci ildə "Əməkdar elm xadimi" fəxri adlarını almışdır. M.Mövsümzadə 1984-cü ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Üzvi kimya [Mətn]: ali məktəblər üçün dərslik /M.Mövsümzadə, P.Qurbanov.- Bakı: Maarif, 1983.- H.1.- 325 s.

Məmməd Mirzə oğlu Mövsümzadə: biblioqrafiya [Mətn] /AMEA Ə.M.Quliyev ad. Aşqarlar Kimyası İn-tu; Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 2008.- 199 s.

DEKABR

1

Tarixdə bu gün

QİÇS-lə Mübarizə Günü
1988



Hər il dekabr ayının 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. İlk dəfə 1988-ci ildə təsis edilmiş AİDS günü bu il Azərbaycanda artıq 25-ci ildir ki, keçirilir.

Azərbaycanda ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən bugünədək QİÇS-lə Mübarizə Mərkəzində HİV infeksiyası təsdiq olunmuş 3199 nəfər rəsmi qeydiyyata götürülmüşdür.

Səhiyyə Nazirliyi tərəfindən HİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsinin təmin edilməsi işi Respublika QİÇS-lə Mübarizə Mərkəzində davam etdirilir. Belə ki, AİDS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondun dəstəyi ilə 08.11.2006-cı il tarixdən etibarən HİV-lə yaşayan insanlara pulsuz qaydada həyata keçirilən antiretrovirus terapiyasına hazırda 310 nəfər cəlb olunmuşdur.

Dünyada hər gün 6800-dən artıq insan HİV-ə yoluxur, 5700-dən artıq insan isə AİDS səbəbindən vəfat edir. 2007-ci ilin sonuna Yer kürəsində HİV-lə yaşayan insanların sayı 33,2 milyon təşkil etmişdir ki, onlardan da 15,4 milyonu qadın, 2,5 milyonu uşaqdır.

Ədəbiyyat

Nəzakət. 1 Dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür [Mətn] /Nəzakət //Səs.- 2010.- 1 dekabr.- S. 4.

www.joy.az

3

Beynəlxalq Əlillər Günü
1992



Dekabrın 3-nün Əlillər Günü kimi qeyd olunmasıyla bağlı qərar Rusiya Federasiyasının təşəbbüsü ilə 1992-ci ildə BMT-nin Baş Məclisində qəbul edilmişdir. Hər il bu tarixdə BMT-yə üzv olan ölkələrdə əlillərin cəmiyyətdəki mövqelərinin daha da möhkəmlənməsinə yönələn tədbirlər görülür. Hər il keçirilən Beynəlxalq əlillər günü, əlillərin ehtiyaclarını başa düşmək və məhdud imkanlara malik olan insanların ləyaqət, hüquq və rifahına dəstəyi irəli çəkmək və həmçinin, məhdud imkanlı insanların siyasi, sosial və mədəni həyatın bütün aspektlərinə cəlb edilməsindən əldə olunan xeyir haqda məlumatlandırmanı yaxşılaşdırmaq məqsədilə elan edilmişdir.

Bu günün elan olunmasının digər bir məqsədi - insan hüquqlarına tam və bərabər riayət edilməsinə və əlillərin cəmiyyətin həyatında iştirakına nail olmaqdır. Bu məqsəd 1982-ci ildə Baş Məclis tərəfindən qəbul edilmiş əlillərə münasibətdə Ümumdünya hərəkət proqramında göstərilmişdir.

Hazırda dünyada 150 milyondan çox xüsusi qayğıya ehtiyacı olan əlil uşaq var.

Azərbaycanda isə bu gün 462 min 672 nəfər əlil var. Bunların müəyyən hissəsi əmək pensiyası, digər qismi isə sosial müavinətlə dolanır.

İnternetdə

www.anl.az

www.un.org

www.sia.az

www.icmal.az

Tarixdə bu gün

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü 2006



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli sərəncamına əsasən, hər il dekabrın 6-sı Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü kimi qeyd edilir.

Ən qədim dövrlərdə insanlar hündürlükdə tonqal yandırmaqla, çaparlarla, göyərçinlərlə informasiya ötürülməsi prosesini təmin edə bilmişdilər. Lakin zaman ötdükcə, insan zəkası inkişaf etdikcə daha mütərəqqi üsullara ehtiyac artmış və informasiya texnologiyalarının yaranması üçün labüd şərait yaranmışdır. Azərbaycanda rabitənin tarixi çox qədimdir. 1881-ci ildə ölkəmizdə ilk telefon xəttinin Bakıda "Nobel qardaşları Cəmiyyəti" tərəfindən çəkilməsilə tarixə düşən Azərbaycan rabitəsi yarandığı gündən özünəməxsus inkişaf yolu keçərək bugünkü dövrə çatmışdır.

1901-ci ildə Tiflis Poçt Teleqraf Dairəsi İdarəsinin tərkibində Bakı Poçt-Teleqraf kontoru yaradılmışdır.

1916-cı ildə bu kontor ləğv edilmiş və ayrı-ayrılıqda poçt və teleqraf kontorları təşkil edilmişdir. 1918-ci il may ayının 25-də Azərbaycan Milli Şurası müstəqillik haqqında Bəyannamə qəbul etdikdən sonra Müvəqqəti Hökumətin tərkibində Yollar, Poçt və Teleqraf Nazirliyi yaradılmışdı.

II Kabinə hökumətdaxili dəyişikliklərdən sonra oktyabr ayının 6-da Azərbaycan Respublikası Poçt və Teleqraf Nazirliyi, 1954-cü ildə Azərbaycan SSR-də Respublika Rabitə Nazirliyi, 2004-cü il fevral ayının 20-də Azərbaycan Respublikası Prezidentinin 94 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdı.

Qədim tarixə malik olan rabitə sahəsi müasir dövrdə yüksək inkişaf səviyyəsinə çatmışdır. Dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilən bu sahənin daha da inkişaf etdirilməsi ilə əlaqədar olaraq ölkəmizdə məqsədyönlü işlər aparılmış, müxtəlif dövlət proqramları, layihələr həyata keçirilmişdir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" və "Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı" bu gün də uğurla icra edilir.

Ədəbiyyat

Sadıqov, Ə. Rabitə sistemi dinamik inkişaf edir: 6 dekabr Rabitə və İnformasiya Texnologiyaları sahəsi işçilərinin peşə bayramı günüdür [Mətn] //Respublika.- 2008.- 6 dekabr.- S.2.

İnternetdə

www.anl.az

www.aztelekom.org


www.ict.az

www.mincom.gov.az

Tarixdə bu gün

95 illiyi

Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı 1918



Azərbaycan Xalq Cümhuriyyəti və onun Parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdir.

Parlamentin açılışı 1918-ci il dekabr ayının 3-nə təyin olunmuşdu. Lakin, Bakıda fəaliyyət göstərən rus və erməni Milli Şuraları əleyhinə olduqları Azərbaycan Parlamentinin açılmasına hərtərəfli mane olduqları üçün Parlamentin ilk iclasının açılışı dekabr ayının 7-nə keçirilmişdi. Həmin gün gündüz saat 13:00-da H.Z.Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman Şərqində ilk parlamentin birinci iclası təntənəli şəraitdə açılmışdı. Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə böyük təbrik nitqi söyləmişdir.

Parlamentin təşkili haqqında qəbul edilmiş qanunda onun 120 nəfərdən ibarət olması nəzərdə tutulmuşdusa da, müxtəlif səbəblərdən heç vaxt bu sayda deputat olmamışdır. Artıq 1919-cu ilin axırına yaxın Parlamentdə II müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi. Buradakı siyasi partiyalar və qrupların qüvvələr nisbəti aşağıdakı kimi idi: "Müsavat" və bitərəflər fraksiyası (39 nəfər), "İttihad" (13 nəfər), "Əhrar" (6 nəfər), sosialistlər bloku (13 nəfər), partiyasızlar (4 nəfər), müstəqillər (3 nəfər), erməni fraksiyası (5 nəfər), daşnaksütun fraksiyası (6 nəfər), azlıqda qalan millətlər fraksiyası (4 nəfər). Azərbaycan Parlamentinin ilk iclaslarında onun işində iştirak edən partiya fraksiya və qrupları öz fəaliyyət proqramları haqqında bəyanatlar vermişlər. Bu bəyanatlarda ümumi bir məqsəd diqqəti cəlb edirdi - gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq, Azərbaycan xalqının və hökumətinin digər xalqlar və hökumətlərlə, xüsusilə qonşu hökumətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq. Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti özünün həyatiliyi və yüksək işgüzarlıq qabiliyyətini sübut etmişdi. O göstərmişdi ki, Azərbaycan xalqı həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. O vaxt Azərbaycan Cümhuriyyəti bütün müsəlman Şərqində yeganə parlamentli respublika idi.

Özünün 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. İlk iclas 1918-ci il dekabr ayının 7-də, son iclas isə 1920-ci il aprel ayının 27-də olmuşdur.

Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu. Öz fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir. Parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi rolu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

Ədəbiyyat

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) [Mətn] Parlament (Stenoqrafik hesabatlar).- Bakı: Azərbaycan, 1998.- S.10-21.

Parlamentli respublikaya doğru [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: iki cilddə.-Bakı: Lider, 2004.- C.1.- S.34-51.

İnternetdə

www.anl.az

www.muallim.edu.az

www.ebooks.preslib.az

Tarixdə bu gün

Ümummilli lider Heydər Əliyev ABŞ-ın Klivlend klinikasında vəfat etmişdir 2003



2003-cü il dekabr ayının 12-də Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, Azərbaycanın eks Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi və taleyi ümummilli lider Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, məhz, onun adı ilə bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

12 dekabr - Bu gün bütün dünya azərbaycanlıları milli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. O indi aramızda olmasa da, yoxluğuna inanmaq çox çətindir. Çünki bizi əhatə edən gözəl Bakımız, əzəmətli Azərbaycanımız milli liderimiz Heydər Əliyevin əməlləri ilə əhatə olunmuşdur. Son illər ölkəmizdə görülmüş və müvəffəqiyyətlə davam etdirilən quruculuq işləri, respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafı, xalqımızın rifahının yüksəldilməsi istiqamətində həyata keçirilmiş genişmiqyaslı tədbirlər Heydər Əliyev şəxsiyyətinin unudulmaz xatirəsinə ən böyük ehtiramdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Heydər Əliyev bizim dahi müasirimizdir. bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir.

Deyirlər dahilər yüz ildən, min ildən bir dünyaya gəlir... Böyük tarixi olan Azərbaycan əsrlər boyu çox dahilər yetişdirmişdi... Ancaq belə dahi insan dünyaya nə gəldi, nə də çətin ki, bundan sonra gələ...

Heydər Əliyev Bakıda, Fəxri Xiyabanda, ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.

Biz həmişə onunla fəxr etmişik, bu gün də fəxr edirik..

Necə ki o, azərbaycanlı olduğu üçün fəxr edirdi!

Ədəbiyyat

Abdullazadə, F. Heydər Əliyev [Mətn]: siyasi portret / Fatma Abdullazadə; rəssam N.Əliyeva.- Bakı, 1998.- 115 s.

Axundova, E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Həyat və fəaliyyətinin xronikası [Mətn]: 1969-1989 /tərt. ed. E.Axundova, Y.Axundova; red. N.Qurbanova; rəssam İ.Məmmədov.- Bakı: Ozan , 2008.- Hissə 4.- 327 s.

Heydər Əliyev [Mətn]: biblioqrafik məlumat kitabı /tərt. ed.: A.Xələfov, S.Sadıqova; red.:A. Məhərrəmov.- Bakı : Bakı Universiteti, 2003 .- 434 s.

Şəkərəliyev, A. Ümummilli lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan ulu öndər [Mətn]: (Son dövrdə mətbuatda çap edilmiş məqalələr toplusu) /A.Şəkərəliyev; red.: M.Meybullayev.- Bakı: Naksuana, 2007.- 491 s.

İnternetdə

www.heydar-aliyev.org

www.aliyevheritage.org

www.heydar-aliyev-foundation.org

Xankəndinin işğalı 1991



Ərazisi: 1043 km²
Əhalisi: 57000

26 dekabr – Yuxarı Qarabağın mərkəzi olan Xankəndi şəhərinin işğalı günüdür. Şəhər 26 dekabr 1991-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, separatçı rejim yaradılmışdır. Məhz həmin tarixdə Xankəndindən sonuncu azərbaycanlı ailələr qovulmuş və 1989-cu ildən soydaşlarımıza qarşı aparılan etnik təmizləmə başa çatmışdır.

1991-ci il dekabr ayının 26-da Xankəndinin itirilməsi, qarşıda Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilanın işğalına yol açdı.

Yuxarı Qarabağın mərkəzi, Qarqar çayının sahilində, Qarabağ silsiləsinin Şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşən Xankəndi, Azərbaycanın inkişaf etmiş sənaye mərkəzi idi. Şəhərdə yüngül və yeyinti sənayesi müəssisələri var idi. Elektrotexnika, avtomobil təmiri və asfalt-beton zavodları, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris istehsalat kombinatları belə müəssisələrdən idi.

Tarixi sənədlərə görə Xankəndi şəhəri XVIII əsrin axırlarında, o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdı. Elə şəhərin adı da buradan yaranmışdır. 1813-cü ilədək bircə nəfər ermənin də yaşamadığı Xandəndində sonralar çar Rusiyası tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bura İrandan köçürülən ermənilər yerləşdirilmişdir.

SSRİ dövründə Xankəndində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da güclənmiş, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılmışdır. 1923-cü ildə Rusiya İmperiyasının siyasətilə Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Bundan sonra vilayətin ermənileşdirilməsi siyasəti aktivləşmiş, 6 oktyabr 1923-cü ildə ermənilərin müraciəti nəzərə alınaraq Xankəndinin adı dəyişdirilərək Azərbaycan xalqına qarşı genosid törətmiş cinayətkar Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılmışdır. Muxtar Vilayətdə rəhbər vəzifələrə ermənilər irəli çəkilmiş, beləliklə də, Xankəndi erməni işğalı altına düşmüşdü.

Keçmiş SSRİ dövründə Xankəndində yaşayan azərbaycanlılar tədricən buradan didərgin salınmışlar.

1988-ci il hadisələri başlayanda Xankəndində erməni əhalisi azərbaycanlılardan xeyli çoxluq təşkil edirdi. Həmin vaxt azərbaycanlıların sayı 17 minə yaxın idisə, ermənilər artıq 40 min nəfərədək artmışdılar.

1988-1989-cu ildə Xankəndi artıq erməni separatizminin mərkəzinə çevrilmişdi. Moskvanın himayəsilə güclənən erməni separatizmi sonuncu azərbaycanlıları 26 dekabr 1991-ci ildə Xankəndindən qovmağa nail olmuş, şəhərin işğalı tam başa çatdırılmışdı.

Təəssüf ki, bu gün işğal tarixləri qeyd olunarkən Xankəndinin işğalı bir çox hallarda unudulur.

Ə d ə b i y y a t

Qasımova, F. 18 sentyabr: Xankəndlilərin yaddaşından silinməyən gün [Mətn] /F.Qasımova //525-ci qəzet.- 2011.- 20 sentyabr.- S.5.

5 illiyi

Beynəlxalq Muğam Mərkəzi 2008



2008-ci il dekabr ayının 27-də Bakıda, Dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzinin açılışı olmuşdur.

Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəzin inşası, fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. Belə bir mədəniyyət ocağının tikilməsi, muğamın daha da inkişaf etdirilməsi və təbliği üçün görkəmli xanəndələrin, muğam bilicilərinin iştirakı ilə "dəyirmi masa" keçirilmiş və Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdı. Bundan sonra 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır. Beləliklə, xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Dünyada tanınan ərəb əsilli memar Zaha Radidinin layihəsi olan Mərkəzin səmadan görünüşü Azərbaycanın qədim musiqi alətlərindən olan tar çanağı formasındadır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.

Yaxşı akustikası olan salonda milli musiqi və estrada-caz konsertləri üçün hər cür imkan var.

Azərbaycan-YUNESKO əməkdaşlığının bəhrəsi olan Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası vardır. Bina müasir havalandırma və istilik sistemləri ilə təchiz edilmişdir. Azərbaycanın Muğam Mərkəzinin qapısını açanlar tarın qolunu xatırladan dəhlizdə, adları Azərbaycan xalq musiqisi tarixi səhifəsinə qızıl hərflərlə yazılmış Mirzə Sadıqcan, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Xan Şuşinski, Bülbül və b. kimi 30 məşhur ifaçıya qoyulmuş büstlərin arasından keçirlər.

Ədəbiyyat

AzərTAc. Beynəlxalq Muğam Mərkəzi ilə tanışlıq [Mətn] //Azərbaycan.-2011.-13 oktyabr.-S.7.

Nizamiqızı, H. Möhtəşəm muğam ocağı [Mətn] /H.Nizamiqızı //Mədəniyyət.-2010.-29 yanvar.- S.10.

Safeguarding Azerbaijan's culture [Text]: /foreword M.Aliyeva.- [Baku]: [s.n.], 2008. -59 p.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.aze.embrus-az.com

DEKABR

31

Tarixdə bu gün

Dünya Azərbaycanlılarının Həmrəylik Günü 1991



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilmiş, Yeni il isə ikinci plana keçmişdir. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

SSRİ-nin son günləri, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü, bu birləşmək istəyinin simvolik nişanıdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda, sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyulmuş, Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdılmışdı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verilmişdi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmiş, beləliklə, bütün azərbaycanlılar üçün əziz olan bu gün bütün dünyada bayram edilir.

• Bu bölmədə 2013-cü ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz.

90 il Heydər Əliyev 1923-2003






Ümummilli lider Heydər Əliyev xalqın milli-mənəvi dəyərlər sistemində ailənin rolunu daim müstəsna dəyərləndirirdi. Böyük strateq ailəni ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi qiymətləndirir, xalqın mənəvi kamillik səviyyəsinin təmin olunmasında, genefondun saflığının qorunmasında əhəmiyyətini daim önə çəkirdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Ulu öndər Heydər Əliyevin möhkəm mənəvi təməl və niyyətlər, ülvi arzular üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda böyük rəğbət hissi doğurur.

Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti, istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Əlavələr

2013



Milli ədəbiyyat

Şair, filosof Baba Kuhi Bakuvinin (Məhəmməd, yaxud Məhəmmədəli ibn Abdullanın təxəllüsü) (948-1050) anadan olmasının **1065** illiyi

Şair Hümam Təbirizinin (1238-1314) anadan olmasının **775** illiyi

Ədəbiyyatşünas, şair Ağamirzadə Hacı Mirəhməd oğlunun (1833-1918) anadan olmasının **180** illiyi

Şair, ədəbiyyatşünas, xəttat, rəssam, musiqişünas, pedaqoq Mir Möhsün (Mir Möhsün Nəvvab) Hacı Mirəhəməd oğlunun (1833-1918) anadan olmasının **180** illiyi 392

Yazıçı Hacı Zeynalabdin Məşədi Səfərəli oğlu Marağayinin (1838-1910) anadan olmasının **175** illiyi

Şair Hidəci Məhəmməd Məsuməli oğlunun (1853-1928) anadan olmasının **160** illiyi

Şair Cəfərov Müniri Ağadadaşın (1863-1940) anadan olmasının **150** illiyi

Jurnalist, yazıçı Vəzirov Haşımbəy Mir İman oğlunun (1868-04.02.1916) anadan olmasının **145** illiyi

Nasir, publisist, maarifçi Hacırəsulov Zeynalabdin Məşədi Əli oğlunun (1873-1910) anadan olmasının **140** illiyi

Şair, ədəbiyyatşünas, tərcüməçi Məmmədzadə Əli Məhəmməd oğlunun (Əli Nəzmi) (1878-04.01.1946) anadan olmasının **135** illiyi 393

Şair, ədəbiyyatşünas Əhmədov Əliabbas Mütəllib oğlunun (Əliabbas Müznib) (1883-1938) anadan olmasının **130** illiyi 394

Şair, ədib, publisist Axundzadə Mirzə Məmmədsadıq Səmih oğlunun (Məmmədsadıq Aran) (1898-1972) anadan olmasının **115** illiyi

Şair, publisist, ictimai xadim Şəmsizadə Əli Məşədi Yəhya oğlunun (Əli Razi) (1888-1939) anadan olmasının **125** illiyi

Nasir, publisist, tərcüməçi Sadıqov Əbülfəz Əli oğlunun (Əvəz Sadıq) (1898-27.08.1956) anadan olmasının **115** illiyi

Şair Həbib Sahirin (1903-1985) anadan olmasının **110** illiyi

Ədəbiyyatşünas, nasir Axundov Əhliman Əli oğlunun (1903-02.10.1977) anadan olmasının **110** illiyi

Şair, publisist Yaycılı Kərimin (1913-1979) anadan olmasının **100** illiyi

Yazıçı, nasir, dramaturq Abbasquliyev Əbülfəz Həsən oğlunun (05.1918 - 27.06.1985) anadan olmasının **95** illiyi

Cənubi Azərbaycan yazıçı və maarifçisi Məhəmmədəli Fərzanənin (1923-17.01.2006) anadan olmasının **90** illiyi

Şair, publisist, tərcüməçi Nəsibov Nəsib Yusif oğlunun (Nəsib Yusifoğlu) (1938) anadan olmasının **75** illiyi

Şair, nasir Rzayev Şəmşad Hüseyn oğlunun (Şəmşad Rza) (1938-

31.05.2000) anadan olmasının **75** illiyi
Ədəbiyyatşünas, jurnalist Zeynalov Nəriman Nəsrulla oğlunun (1933-1989) anadan olmasının **80** illiyi

Folklor



Aşıq Quliyev Hüseyn Cəfərqulu oğlunun (Hüseyn Bozalqanlı) (1868-13.11.1941) anadan olmasının **145** illiyi 395
Aşıq Cəfərov Cəfər Məmiş oğlunun (Çobankərəli Cəfər) (1883) anadan olmasının **130** illiyi
Əməkdar mədəniyyət işçisi Həsənov İmran Mehralı oğlunun (Aşıq İmran) (1928-2000) anadan olmasının **85** illiyi
Aşıq-şair, Əməkdar mədəniyyət işçisi Cəfərov Əkbər Zərbalı oğlunun (Aşıq Əkbər) (1953-24.08.1990) anadan olmasının **60** illiyi

Dünya ədəbiyyatı



İtalyan yazıçısı Bokaççо Covanninin (1313-21.12.1375) anadan olmasının **700** illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq



Rəssam, şair, xəttat, təzkirəçi alim Sadıq bəy Əfşarın (1533-1610) anadan olmasının **480** illiyi 396
Memar, rəssam Əhmədbəyov Zivər bəy Gəray bəy oğlunun (1873-16.02.1925) anadan olmasının **140** illiyi 397
Rəssam Səfiyev İbrahim Qafar oğlunun (İbrahim Səfi) (1898-1983) anadan olmasının **115** illiyi
Teatr rəssamı, qrafik Almaszadə Ənvər Hacağa oğlunun (1918) anadan olmasının **95** illiyi
Xalq rəssamı, görkəmli qrafika ustası Hüseynov Arif Şahbaz oğlunun (1943) anadan olmasının **70** illiyi
Memar Qasımzadə Elbəy Ənvər oğlunun (1948) anadan olmasının **65** illiyi

Musiqi.Opera.Balet



Musiqi nəzəriyyəçisi, bəstəkar Əbdülqədir İbn Qeybi əl-Hafiz əl-Marağayinin (Əbdülqədir Marağayi) (1353-1435) anadan olmasının **660** illiyi 398
Xanəndə Abdullayev Qasım İbrahim oğlunun (1873-1927) anadan olmasının **140** illiyi
Tarzən Axundov Şirin Məşədi Hüseyn oğlunun (1878-1927) anadan olmasının **135** illiyi
Xanəndə Bahadır Mehralıoğlunun (1883-05.12.1962) anadan olmasının **130** illiyi
Xanəndə Şuşinski Musa Fərhad oğlunun (1893-1971) anadan olmasının **120** illiyi
Əməkdar artist, opera müğənnisi Zülalov Əli Əbdül oğlunun (1893-1963)

anadan olmasının **120** illiyi
Əməkdar artist, müğənni Rzayev Yaqub Kazım oğlunun (1898-1975) anadan olmasının **115** illiyi
Əməkdar artist, müğənni Titarenko Marina Sergeyevnanın (1918-2002) anadan olmasının **95** illiyi
Əməkdar incəsənət xadimi, dirijor Hacıbəyov Çingiz Zülfüqar oğlunun (1913-1971) anadan olmasının **100** illiyi
Musiqişünas, sənətşünaslıq namizədi, professor Məlikov Xanlar Həmid oğlunun (1923) anadan olmasının **90** illiyi
Əməkdar artist, müğənni Mustafayev Faiq İsmayıl oğlunun (1923-1977) anadan olmasının **90** illiyi
Əməkdar artist, müğənni Qafarov Cavanşir Qafarağa oğlunun (1928-1994) anadan olmasının **85** illiyi
Bəstəkar, Rzayev Həsən Hüseyn oğlunun (1928) anadan olmasının **85** illiyi
Əməkdar artist, müğənni Məlikov Adil İbrahim oğlunun (1933) anadan olmasının **80** illiyi

Teatr.Kino



Rejissor, teatr xadimi, yazıçı, dramaturq, SSRİ Xalq artisti Nemiroviç-Dançenko Vladimir İvanoviçin (1858-1943) anadan olmasının **155** illiyi
Rejissor, teatr xadimi Şəfizadə Mehdixanın (1873-1943) anadan olmasının **140** illiyi
Əməkdar artist Hüseynov Rza Nəcəfəli oğlunun (Darablı) (1883 -23.03.1942) anadan olmasının **130** illiyi 399
Əməkdar artist, aktyor Mirişli Mir Həsən Miriş ağa oğlunun (1903-1973) anadan olmasının **110** illiyi
Rejissor Kazımovski Rauf Mirmahmud oğlunun (1928-1976) anadan olmasının **85** illiyi
Əməkdar artist, aktyor Qurbanov Hamlet Ağadadaş oğlunun (1938-16.11.1995) anadan olmasının **75** illiyi
Azərbaycanın Əməkdar incəsənət xadimi, rejissor Rzayev Baba Fazil oğlunun (1943) anadan olmasının **70** illiyi\

Siyasət.Hərbi iş



Alim, dövlət xadimi Naxçıvani Məhəmməd ibn Hinduşah ibn Səncər ibn Abdullah əl-Girani ən-Naxçıvani (təqr.1293-1376) anadan olmasının **720** illiyi
Ağqoyunlu dövlətinin banisi, mənşəcə Oğuz türklərindən olan sərkərdə və dövlət xadimi Həsən bəy Bayandur - Uzun Həsənin (1423-06.01.1478) anadan olmasının **590** illiyi 400
Gəncə xanlığının hökmdarı Cavad xan Şahverdi xan oğlu (Ziyadoğlu) Qacarın (1748-1804) anadan olmasının **265** illiyi 401
Hərbi xadim Şahtaxtinski Əbülfət Nəcəfqulu oğlunun (1858-13.03.1913) anadan olmasının **155** illiyi

Hərbi xadim, general-mayor Qacar Əmir Kazım Mirzə Bəhmən Mirzə oğlunun (1853-1920) anadan olmasının **160** illiyi

Hərbi xadim Ağalarov Fərhad Əbülfət bəy oğlunun (1868-?) anadan olmasının **145** illiyi

İctimai xadim, şair, maarifçi Sanıyev Hacı Kərim Kərbəlayi Hüseyn oğlunun (Sanılı) (1878-16.09.1937) anadan olmasının **135** illiyi

Dövlət xadimi Məlik-Yeqanov Cavad bəy Rza bəy oğlunun (1878-18.05.1942) anadan olmasının **135** illiyi 403

Hərbi xadim Şıxlinski Rüstəm bəy Məmməd ağa oğlunun (1878-1920) anadan olmasının **135** illiyi 403

Dövlət xadimi Şahsuvarov Nurməmməd bəy Ədilxan oğlunun (1883-11.08.1958) anadan olmasının **130** illiyi 404

Türk zabiti, hərbi xadim Cəmil Cahid bəy Məhəmməd Cahid bəy oğlu Toydəmirin (1883-15.07.1956) anadan olmasının **130** illiyi

İctimai-siyasi və dövlət xadimi Şeyxzamanlı Nağı bəy Salah bəy oğlunun (Keykurun) (1883-1967) anadan olmasının **130** illiyi

Hərbi xadim Kazımbəyli Cahangir bəyin (1888-1955) anadan olmasının **125** illiyi

İctimai-siyasi xadim Məmmədbəyli Heybətqulu Həbibulla oğlunun (1888-16.12.1937) anadan olmasının **125** illiyi

Hərbi və dövlət xadimi, komissar Vəzirov Heydər Sadıq oğlunun (1893-1937) anadan olmasının **120** illiyi

İctimai-siyasi və dövlət xadimi Pepinov Əhməd bəy Ömər oğlunun (1893-1938) anadan olmasının **120** illiyi

İctimai xadim Rüstəmbəyli Şəfi bəy Mustafa oğlunun (1893-1960) anadan olmasının **120** illiyi

Hərbçi, general-mayor Əbilov Mahmud Əbdülrza oğlunun (1898-03.01.1972) anadan olmasının **115** illiyi

Sovet İttifaqı Qəhrəmanı, starşina Əliyev Məstan Astan oğlunun (1918-16.04.1945) anadan olmasının **95** illiyi

Sovet İttifaqı Qəhrəmanı, qvardiya serjantı Əsədov Gəray Lətif oğlunun (1923-19.10.1944) anadan olmasının **90** illiyi

Tarix



Alim, tarixçi Səmani Əbu Səd Əbdəl-Kəriməs-Səmaninin (1113-1167) anadan olmasının **900** illiyi

Türk alimi, tarixçi Hacı Xəlifənin (1608-1657) anadan olmasının **405** illiyi

Tarixçi Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu Hacılı-Cavanşirin (1773-1853) anadan olmasının **240** illiyi 405

Tarixçi Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun (1793-1883) anadan olmasının **220** illiyi

Azərbaycan tarixçisi Hacı Şeyx Həsən Molla İmamqulu oğlunun Mollazadə

Gəncəvinin (1853-1919) anadan olmasının **160** illiyi
Jurnalist, naşir, tarixçi Qənizadə Mahmud ağanın (1878-1934) anadan olmasının **135** illiyi



Fəlsəfə.İqtisadiyyat.Hüquq

Sufizmin görkəmli nümayəndələrindən biri Hüseyn ibn Mənsurun (Həllac) (858-26.03.918) anadan olmasının **1155** illiyi
Azərbaycanın görkəmli təbiətşünas filosofu, məntiqçi, hüquqşünas, təbib Xunəci Əfzələddin Məhəmməd ibn Namavərin (1193-23.12.1248) anadan olmasının **820** illiyi
Alim, filosof Urməvi Siracəddin ibn Əbubəkrin (1198-1283) anadan olmasının **815** illiyi 406
İtalyan filosofu, şair Bruno Cordano Filipponun (1548-17.02.1600) anadan olmasının **465** illiyi
Rus psixoloqu, idealist filosof Qaliç Aleksandr İvanoviçin (1783-09.09.1848) anadan olmasının **230** illiyi



Mədəniyyət. Elm.Maarif

Maarifçi-alim, pedaqoq Axundzadə Əbdüssəlam Axund Vəliməmməd oğlunun (1843-1907) anadan olmasının **170** illiyi
Maarifpərvər, kitabşünas alim, ictimai xadim Naxçıvani Hacı Hüseyn Hacı Abbas oğlunun (1848-1934) anadan olmasının **165** illiyi
Maarif xadimi, pedaqoq, naşir Mahmudbəyov Mahmud bəy Polad bəy oğlunun (1863-1923) anadan olmasının **150** illiyi
Maarifçi, teatr xadimi Şeyxov Nəsrulla Əsəd oğlunun (1863-1921) anadan olmasının **150** illiyi
Jurnalist Sidqi Məmmədəli Məhəmməd Tağı oğlunun (1888-1956) anadan olmasının **125** illiyi 407
İctimai xadim Əfəndizadə Həmdulla Əfəndi İsmayıl oğlunun (1888-1928) anadan olmasının **125** illiyi
Maarif xadimi, pedaqoq-alim, yazıçı, tərcüməçi Əfəndizadə Rəcəb Əsədulla oğlunun (1893-20.12.1956) anadan olmasının **120** illiyi 407
Azərbaycanın Əməkdar müəllimi, maarif xadimi Əliyev Əsəd Cabbar oğlunun (1918) anadan olmasının **95** illiyi
Professor, şərqşünas alim Əliyeva Tamuris Nağı qızının (1928) anadan olmasının **85** illiyi
Azərbaycanın Əməkdar elm xadimi, proffessor Feyzullayev Rafiq Babaş oğlunun (1943-2001) anadan olmasının **70** illiyi



İdman

Azərbaycan gimnastika məktəbinin yaradıcısı Rzayeva Zeynəb Hüseyn qızının (1918) anadan olmasının **95** illiyi 408

Riyaziyyat.Fizika.Astronomiya



Astronom Əli Quşçi Əli İbn Məhəmmədin (təqr. 1403-16.12.1474) anadan olmasının **610** illiyi

Azərbaycan sovet pedaqoqu və riyaziyyatçısı Qasımov Ağəli Cavad oğlunun (1883-11.07.1959) anadan olmasının **130** illiyi

İqtisad elmləri namizədi, dosent Rəhimov Mayıl Səməd oğlunun (1943) anadan olmasının **70** illiyi

Kimya.Biologiya.Tibb



Tibb elmləri doktoru Axundov Mirzə Əbdülxalıq Hacı Abdulla oğlunun (1863-1950) anadan olmasının **150** illiyi 409

Fizioloq, pedaqoq Əmirov Azad bəy Abbas oğlunun (1883-1939) anadan olmasının **130** illiyi

Tibb elmləri doktoru, professor, həkim Atayev Əlirza Əsgər oğlunun (1898-1962) anadan olmasının **115** illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya



Salyan rayon ilk ictimai qiraətxanasının açılışının (1903) **110** illiyi 410

Ağdaş rayon kitabxanasının yaradılmasının (1923) **90** illiyi 411

Nizami adına Zaqatala rayon Mərkəzi kitabxanasının (1923) **90** illiyi 411

Göyçay rayon kitabxanasının açılışının (1923) **90** illiyi 412

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının (1928) **85** illiyi 412

N.Rəfibəyli adına Uşaq Kitabxanasının (1928) **85** illiyi 413

Yeni Suraxanı qəsəbə kütləvi kitabxanasının (1933) **80** illiyi

Xoca Həsən qəsəbə kütləvi kitabxanasının (1938) **75** illiyi

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası kitabxanasının (1938) **75** illiyi

Gəncə Dövlət Universiteti kitabxanasının açılışının (1938) **75** illiyi

Ağsu rayon qəsəbə kitabxanasının (1943) **70** illiyi

Balakən rayon kitabxanasının (1948) **65** illiyi

Zərdab rayon kitabxanasının (1948) **65** illiyi

Azərbaycan Dillər Universiteti kitabxanasının (1948) **65** illiyi

Ucar rayon kitabxanasının (1948) **65** illiyi 414

Kəlbəcər rayon kitabxanasının (1948) **65** illiyi

Füzuli rayon kitabxanasının (1948) **65** illiyi 414

A.Qaydar adına Uşaq Kitabxanasının (1953) **60** illiyi

A.Şaiq adına Uşaq Kitabxanasının (1953) **60** illiyi

M.Müşfiq adına Binə qəsəbə kütləvi kitabxanasının (1958) **55** illiyi

Respublika Olimpiya İdman Liseyi kitabxanasının (1963) **50** illiyi

S.Rüstəm adına kütləvi kitabxananın (1973) **40** illiyi

M.Ş.Vazeh adına kütləvi kitabxanasının (1978) **35** illiyi

Səngəçal qəsəbə kütləvi kitabxanasının (1978) **35** illiyi
Cəbrayıl rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1983) **30** illiyi 415
Qafqaz Universiteti Kitabxana və Sənədlər Mərkəzinin açılışının (1993**) 20** illiyi
Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin "Prezident kitabxanası"nın yaradılmasının (2003) **10** illiyi 416

Tarixdə bu gün



Ağqoyunlu dövlətinin yaranmasının (1468-1501) **545** illiyi
Dünyanın ən böyük muzeylərindən biri Britaniya muzeyinin (1753) əsasının qoyulmasının **260** illiyi 417
Ədəbi məclis "Əncüməni-şüəra"nın yaranmasının (1838) **175** illiyi
Dünyada ilk neft quyusunun Bakıda (Bibiheybət) qazılmasının (1848) **165** illiyi
Dünyada birinci ağ neft zavodunun Bakıda tikilməsinin (1863) **150** illiyi
Balaxanı mədənlərindən neftayırma zavoduna 12 km uzunluğunda ilk neft kəməri çəkilməsinin (1878) **135** illiyi
Tiflis Azərbaycan Teatrının yaranmasının (1873) **140** illiyi
Quba Bağçılıq Məktəbinin fəaliyyətə başlamasının (1898) **115** illiyi
Azərbaycan Opera və Balet Teatrının yaranmasının (1908) **105** illiyi
Saatlar ilk dəfə (irəli və geri) Böyük Britaniyada çəkilmişdir (1908)
"Tərəqqi" qəzetinin nəşrinin (1908-1909) **105** illiyi
Bakı ilə Tiflis arasında birbaşa teleqraf əlaqəsi yaradılmasının (1913) **100** illiyi
Gəncədə ilk radiostansiya yaradılmasının (07.1918) **95** illiyi
Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Gəncədə Milli Hərbiyyə Məktəbinin yaradılmmasının (İyun 1918)
95 illiyi
Azərbaycan Dəmiryolunun yaradılmasının (1918) **95** illiyi
"Əqrəb" satirik jurnalının ilk nəşrinin (1923) **90** illiyi
"İliç buxtası" neft mədəninin əsasının qoyulmasının (04.1923) **90** illiyi
C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının (1923) yaradılmasının **90** illiyi
Azərbaycan Arxeologiya Komitəsinin təşkil olunmasının (06.1923) **90** illiyi
"Şərq qadını" (indiki "Azərbaycan qadını") adlı ədəbi, ictimai- siyasi jurnalın nəşrə başlamasının (11.1923) **90** illiyi 418
"Azərbaycan" Tibb Jurnalının nəşrinin (1923) **90** illiyi
Azərbaycan Atletika Federasiyası yaradılmışdır (1923)
Ə.B.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının (1923) yaranmasının **90** illiyi
Bakıda Azərbaycan Aşıqlarının I Qurultayı keçirilmişdir (12.1928)
M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar Teatrının yaranmasının (1928)

85 illiyi
Bakı Ət Kombinatının (1933) istifadəyə verilməsinin **80** illiyi
Azərbaycan İncəsənəti Dekadasının yaranmasının (1938) **75** illiyi
Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin yaradılmasının (1938) **75** illiyi
Gəncə Dövlət Pedaqoji Universitetinin (keçmiş Kirovabad Pedaqoji İnstitutu) yaranmasının (1938) **75** illiyi
Xəzər dənizində dünyada ilk dəfə olaraq neft-mədən estakadasının qurulmasının (1948) **65** illiyi
Azərbaycan Kinematoqrafçılar İttifaqının (1958) yaranmasının **55** illiyi
AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun yaranmasının (1958) **55** illiyi
Şirvan şəhərinin salınmasının (1963) **50** illiyi
Azərbaycan Alpinizm Federasiyasının yaradılmasının (1963) **50** illiyi
Sosialist ölkələrinin beynəlxalq bankı - Beynəlxalq İqtisadi Əməkdaşlıq Bankının (1963 oktyabr) yaranmasının **50** illiyi
Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının yaradılmasının (1968) **45** illiyi
Azərbaycan Respublikası Dövlət Səsyazmaları Arxivinin yaranmasının (1968) **45** illiyi
Orta əsrlərə aid arxeoloji abidə Biləv Nekropolunun (1968) aşkar olunmasının **45** illiyi
Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrının yaranmasının (1968) **45** illiyi
Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılmasının (1978) **35** illiyi 419
Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığının yaradılmasının (02.1978) **35** illiyi
Azərbaycan Bəstəkarlar Birliyinin Naxçıvan Muxtar Respublika Təşkilatının (1978) yaradılmasının **35** illiyi
Bakı-Qroznı neft kəmərinin istifadəyə verilməsinin (1983) **30** illiyi
Qəbələ Dövlət Təbiət Yasaqlığının yaradılmasının (1993) **20** illiyi
Azərbaycan Güləş Federasiyasının yaradılmasının (1993) **20** illiyi
Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyinin yaradılmasının (1998) **15** illiyi 420
Ağgöl Milli Parkının yaradılmasının (2003) **10** illiyi 420
Kitabxanaçılıq-informasiya fakültəsinin 50 illiyi münasibətilə-Abuzər Alı oğlu Xələfov 421

180 illiyi

Mir Möhsün Nəvvab 1833-1918

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /Mir Möhsün Nəvvab; translit. ed. Ə.Məmmədbağıroğlu, A.Ramazanov; elmi, dini, tibbi qeydləri tərcümə ed. R.Kərimov.- Bakı: Şərq-Qərb, 2006.- 216 s.

Nəsihətnamə [Mətn] /M.M.Nəvvab; naşir və red. Ə.Sayılov - Bakı: Araz, 2005.- 56 s.

1905-1906-cı illərdə erməni-müsəlman davası [Mətn] /Mir Möhsün Nəvvab; red. Vasif Quliyev.- Bakı: Azərbaycan, 1993.- 128 s.

Mir Möhsün Nəvvab Qarabağinin pedaqoji görüşləri [Mətn]: ped. e. n. al. dər. a. üçün təq. ed. dis.: 13.00.01. /T.M.Kərimli; Azərbaycan Dövlət Pedaqoji Un-ti.- Bakı, 2005.- 167 s.

Mir Möhsün Nəvvab [Mətn] //XIX əsr Azərbaycan şeiri antologiyasi.- Baki, 2005.- S.229-236.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.kataloq.net

Mir Möhsün Hacı Mirəhəməd oğlu Nəvvab (Mir Möhsün Nəvvab) 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini mollaxanada almışdır. Qısa müddətdə yaxşı bir müəllim kimi tanınan Nəvvab, həm də şair kimi şöhrət tapmışdır. Şuşada yaşayan şairlər Nəvvabın ətrafına toplaşmış və o, Şuşada qiraətxana, "Üsuli-cədid" məktəbi, şəxsi mətbəə və cildxana, "Məclisi-fəramuşan" adlı ədəbi məclis ini təşkil etmiş və bu məclisə başçılıq etmişdir.

Şairliklə bərabər Nəvvab, rəssamlıqla da məşğul olmuşdur. Şuşada Böyük məscidin minarələrində, dərs dediyi məktəbin və digər tikililərin ornamental divar rəsmləri, akvarellə çəkdiyi, fantastik süjetli və dini məzmunlu illüstrasiyaları, kitablara verdiyi bədii tərtibatı və s. rəssamlıq sənətinə bələdliyini sübut etmişdir. Nəvvabın çəkdiyi illüstrasiyalar XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda kitab tərtibatının inkişafına böyük təsir göstərmişdir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda təsviri sənətin inkişafında əhəmiyyətli təsiri olan nəfis xəttlə yazdığı əlyazmaları və şəxsi mətbəəsində litoqrafiya üsulu ilə çap etdiyi bədii tərtibatlı kitabları Azərbaycan Respublikası Elmlər Akademiyası Əlyazmaları İnstitutunun arxivində saxlanılır.

1913-cü ildə Mir Möhsün Nəvvabın yazdığı iki kitab ona təkcə Azərbaycanda deyil, vətənimizin hüdudlarından kənarda da şöhrət qazandırmışdır. "Təzkireyi-Nəvvab" adlı birinci kitabında o, XVIII əsrin sonu-XIX əsr Qarabağ şairlərinin həyat və yaradıcılığını işıqlandırmış, onların əsərlərindən parçalar vermişdir. "Kifayət ül-ətfal" adlı ikinci kitabında dəqiq elmlərdən bəhs olunur.

Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi ilə yaxından tanış olan Nəvvab klassik Şərq musiqisi haqqında "Dər elmi musiqi vüzuh ülərqam" ("Musiqi elmində rəqəmlərin aydınlaşdırılması", 1913) əsərini yazıb nəşr etdirmişdir. Riyazi əsaslarla musiqini təhlil etməyə çağıran Nəvvab bu əsəri ilə musiqi aləmində çevriliş etmişdir. XX əsrin əvvəllərində "Elektron musiqi" kimi tanıdığımız musiqinin yaradılma ehtimalını Nəvvab əvvəlcədən görmüş, Azərbaycan musiqi ifaçılığı təcrübəsini ümumiləşdirmiş, muğamlarımızın təsnifatını vermişdir. Bundan başqa o, muğamlarımızı orijinal sistemə salmış və bu sistemi 5 cədvəldə əks etdirmişdir.

Mir Möhsün Nəvvab 1918-ci ildə Şuşa şəhərində vəfat etmiş və orada da dəfn edilmişdir.

135 illiyi

Əli Nəzmi 1878-1946

Publisist



Ədəbiyyat

Keçmiş günlər: Xatirələr [Mətn]: [şeirlər] /Əli Nəzmi; transliterasiya edib çapa haz., ön söz, lüğət və izah. müəl. E.Qasımova; red. X.Məmmədov; Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Adiloğlu, 2006.- 176 s.

Əhmədov, T. Əli Nəzmi [Mətn] /T. Əhmədov //XX əsr Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı, 2004.- S.255.

Mir Cəlal. Əli Nəzmi [Mətn] //Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917); elmi red. və çapa haz. T.Mütəllimov.- Bakı, 2004.- S.174-183.

Məmmədov, K. Əli Nəzmi Məmmədzadə [Mətn] //Məmmədov K. XX əsr Azərbaycan gülüşü: Bir məclisdə on iki kişinin söhbəti; red. T.Əhmədov.- Bakı, 1989.- S.197-211.

İnternetdə

www..anl.az

www.az.wikipedia.org

www. google.az

Əli Məhəmməd oğlu Məmmədzadə (Əli Nəzmi) 1878-ci ildə Yelizavetpol (Gəncə şəhəri) yaxınlığındakı Sarov kəndində yoxsul ailədə doğulmuşdur. İbtidai təhsilini mollaxanada almış, sonra rus-tatar məktəbində oxumuşdur. Atasının vəfatından sonra güzəranı ağır keçdiyindən doğma yurdu tərk edib, iki il Orta Asiyanın Buxara və Səmərqənd şəhərlərində tacir dükanında şagird olmuşdur. Mütaliə yolu ilə təhsilini artırmış, klassik Şərq ədəbiyyatını dərindən öyrənmişdir. "Bikəs" təxəllüsü ilə şeirlər də yazmışdır.

Ədəbi fəaliyyətə 1904-cü ildə "Şərqi-rus" qəzetində dərc etdirdiyi "Kənddə ibtida" adlı ilk şeiri ilə başlamışdır. 1905-1907-ci illərin inqilabi hərəkatı onun yaradıcılığında dönüş yaratmış, satirik şeirlərini "Məşədi Sijimqulu", "Kefsiz" və s. gizli imzalarla çap etdirmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi kimi tanınmışdır. Felyeton və satirik şeirləri satirik-yumoristik jurnallarda, xüsusən "Molla Nəsrəddin" jurnalında müntəzəm çap olunmuşdur. "İstibdad", "Qorxuram", "Olacaqmı", "Sizə nə", "Ey füqəra", "Od tutub odlandı vətən" və s. şeirlərində mütləqiyyətə, müstəmləkəçilik siyasətinə, dini fanatizmə və geriliyə qarşı azadlıq ideyalarını təbliğ etmişdir. Doğma kəndində təqib olunduğuna görə ailəliklə Gəncəyə köçmüş, burada xırda ticarətlə məşğul olmuşdur. Eyni zamanda öz satirik şeirlərini gizli imzalarla ("A.S.Əlidəyənəkli", "Həcamətverdi", "Sərsəri", "Qanacaqsız", "Şəmşir", "Şəmşirək", "Peşiman qoca", "Gəncə cavanları", "Mütşair", "Şallax", "Kav-mahi", "Qoca zığ-zığ", "Papiros-çəkən" və s.) çap etdirmişdir. Azərbaycanda Sovet hakimiyyəti yarandığı ilk gündən yeni cəmiyyətin tərəfdarı kimi fəaliyyət göstərmişdir. O, 1924-1926-cı illərdə Gəncə məktəblərində müəllimlik etmiş, sonra "Yeni Gəncə" qəzeti redaksiyasında çalışmış, 1926-1931-ci illərdə Bakıya köçərək "Kəndli" qəzeti və "Molla Nəsrəddin" jurnalı redaksiyasında məsul katib vəzifəsində çalışmışdır. Sonra təqaüdə çıxmış, həm də "Yeni yol", "Kommunist" qəzeti redaksiyalarında müxtəlif vəzifələrdə işləmişdir.


İkinci Dünya müharibəsi dövründə alman faşizminə qarşı kəskin satirik əsərlərlə çıxış etmişdir. Nizami, Firdovsi, Krılov kimi sənətkarlardan tərcümələr etmiş, eyni zamanda qiymətli ədəbi-tənqidi məqalələr yazmışdır. "Keçmiş günlər" (1944) adlı mənzum xatirəsi XX əsr Azərbaycan ədəbiyyatı və mətbuatını öyrənmək üçün maraqlı mənbə hesab edilir.

Əli Nəzmi 1946-cı il yanvar ayının 4-də Bakıda vəfat etmişdir.

130 illiyi

Əliabbas Müznib 1883-1938

Ədəbiyyatşünas



Əliabbas Mütəllib oğlu Əhmədov (Əliabbas Müznib) 1883-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Kiçik yaşlarından şeirə böyük maraq göstərmiş, bu həvəs onu Bakıda 1880-ci illərdən fəaliyyət göstərən "Məcmə üş-şüəra"ya gətirmişdir. Məhəmmədağa Cürmünün rəhbərlik etdiyi, sonralar isə Sürəyyanın davam etdirdiyi bu ədəbi dərnəkdə Əliabbas şeir texnikasını mənimsəmişdir.

1913-cü ildə Romanovlar sülaləsinin hakimiyyətə gəlməsinin 300 illiyi münasibətilə elan olunmuş amnistiya ömürlük Sibirə sürgün edilmiş Müznibə də şamil edilmişdir. Lakin ona qəzet-jurnal çap etməyə icazə verilmədiyindən savadsız qardaşı Əbülfəzin adına icazə alaraq 1914-cü ildə ictimai-siyasi, ədəbi "Dirilik", 1915-ci ildə satirik "Babayi Əmir" jurnalını nəşr etməyə başlamışdır. Kərbəlayı Vəli Mikayılov, Məhəmmədəli Rəsulzadə, Abbas Kazımzadə, Seyid Hüseyn və b. məsləkdaşları ilə birlikdə Müsavat partiyasının formalaşmasında əlindən gələni əsirgəməyən naşir "Dirilik" jurnalını, "partiya"nın tribunasına çevirmişdir. Məmmədəmin Rəsulzadənin də bir çox siyasi məqalələri bu jurnalda çap olunmuşdur.

Bolşevik və erməni silahlılarının 1918-ci ilin martında müsəlmanları kütləvi qırmasından bəhs edən "Mart hadisələri", məşhur Ənvər Paşaya həsr etdiyi kitabça böyük maraqla qarşılanmışdır.

Ədəbiyat tariximizin öyrənilməsində böyük xidmət göstərən Ə.Müznib 1928-ci ildə XIX əsr Azərbaycan ədəbiyyatı seriyasından "Nakam (seçmə parçalar)", "Aşıq Pəri və onun müasirləri" kitablarını nəşr etdirmişdir. Tərtib etdiyi "Natəvan", "Sabir", "Abbas Səhhət", "Hacı Seyid Əzim Şirvani" və onlarla başqa kitablara yazdığı ön sözlər, çap etdirdiyi məqalələr ədəbiyyatşünaslığımıza gözəl töhfədir. Onlarca şairimizin əsərlərini toplamış, elmi məqalələr yazmışdı. Nəşriyyatla Məhəmməd Hadinin, Molla Pənah Vaqifin, Cəfər Cabbarlının əsərlərinin tərtibi və nəşrə hazırlanması haqqında müqavilə bağlamışdı. Lakin onları, eləcə də üzərində işlədiyi neçə-neçə kitabı, yazmış olduğu məqaləni çap etdirə bilməmiş, bir çoxu da həbs zamanı itib batmışdı.

1936-cı il dekabr ayının 12-də Əliabbas Müznib həbs edilmişdi. Xəstəlik və işgəncələrə məruz qalmış Əliabbas Müznib 1938-ci il avqustun 28-də Sovetlər Birliyinin ən uzaq şəhərlərindən biri olan Vladivostokdakı xüsusi həbs məntəqəsində vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri [Mətn] /Ə.Müznib; tərtibçi, ön sözün və lüğətin müəl. İ.Ağayev.- Bakı: Şərq-Qərb, 2006. - 256 s.

Cənnəti, Ə. Vətən təranəsi [Mətn] /Ə.Cənnəti; toplayanı Ə.Müznib; nəşrə haz. və ön sözün müəl. S.Xəyal, M.Mailoğlu; red. M.Adilov; AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Nurlan, 2006.- 91 s.

Yusif və Züleyxa [Mətn]: roman /Əlabbas Müznib; red. Ə.Balayev.- Bakı: Elm və həyat, 2001.- 49 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.azyb.net

145 illiyi Hüseyn Bozalqanlı 1868-1941

Aşıq



Hüseyn Cəfərqulu oğlu Quliyev (Hüseyn Bozalqanlı) 1868-ci ildə Yelizavetpol quberniyası Qazax qəzasının (indiki Tovuz rayonunun) Bozalqanlı kəndində anadan olmuşdur. Kənddə yeni açılan molla Səməd Axundun məktəbində üç il təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Kiçik yaşlarından aşıqlığa - saz çalıb, söz qoşmağa həvəsi olmuş, hələ on iki yaşında ikən şeir yazmağa başlamışdır.

1890-cı ildən el arasında çalıb oxumağa başlamış, onun şeirləri dövri mətbuatda müntəzəm çap edilmişdir.

Bu böyük sənətkar dövrünün görkəmli tarixi şəxsiyyətləri ilə qarşılaşıb və həmişə də onların məhəbbətini qazanıb.

1917-1922-ci illərdə Həmid Sultanovun tapşırığı ilə tez-tez Aşıq Hüseyn, Aşıq Mirzə və Xəyyam Mirzədən ibarət aşıq məclisi təşkil olunarmış...

Metex qalasında həbsdə olarkən N.Nərimanovla yaxından tanış olur və sonradan "Qoca Şərqin Nərimanı gəlirmi?" şeirini və "Nəriman" dastanını yazır. Bədahətən söz deməkdə də, Aşıq Hüseynin əvəzi olmamışdır. Buna görə də, sevimli xalq şairimiz Səməd Vurğun onu "əli qılınclı şair" adlandırmışdır. "Geri dur" müxəmməsi və digər şeirlərindən aydın olur ki, Hüseyn Bozalqanlı Sədi, Firdovsi, Füzuli kimi klassiklərin əsərlərinə dərindən bələd olub. Satira isə onun yaradıcılığında xüsusi yer tutub.

Aşıq Hüseynin bütün şeirləri zəngin xalq təcrübəsinə əsaslanan ibrətamiz nəsihətlərdir, sınaqlardan çıxmış həyat fəlsəfəsidir. Onun fəlsəfi fikirləri, dini baxışları, həyatın yaranması haqqında şeirləri aşığın dünyagörüşünün nə qədər kamil olduğunu sübut edir:

Azərbaycan xalq yaradıcılığının inkişafında da Aşıq Hüseynin böyük xidməti olmuşdur. O, "Qara Tanrıverdi", "Nəriman", "Xanlar", "Hacı Tağı" dastanlarının yaradıcısıdır. "Koroğlu" dastanının ən kamil bilicisi, məhz, Aşıq Hüseyn hesab edilmişdir. Dastanın bir neçə qolu - "Koroğlunun Toqat səfəri", "Bağdad səfəri", "Həmzənin Qıratı aparması", "Koroğlunun vuruşması" və s. qolları Aşıq Hüseynin dilindən yazılmışdır.

1937-ci il noyabrın 13-də Aşıq Hüseyn Bozalqanlı Azərbaycan Yazıçılar İttifaqının üzvü və ittifaq nəzdində olan aşıqlar bölməsinin rəhbəri seçilmişdir.

Şairin əməyi dövlət tərəfindən çox yüksək qiymətləndirilmişdir. O, "Şərəf nişanı" ordeni və fəxri fərmanla mükafatlandırılmış, 1941-ci il oktyabrın 16-da isə ən yüksək fəxri ada - "Azərbaycanın Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür. Aşıq Ələsgər məktəbinin davamçısı olmuşdur.

Aşıq Hüseyn Bozalqanlı irsinin toplanıb nəşr edilməsi təkcə onun yaradıcılığına deyil, klassik aşıq ədəbiyyatı nümunələrinin qorunub saxlanmasına və gələcək nəsillərə çatdırılmasına dövlət qayğısının bariz nümunəsidir. Onu da qeyd edək ki, indiyə kimi aşığın beş kitabı işıq üzü görmüşdür.

Hüseyn Bozalqanlı 1941-ci il noyabr ayının 13-də Bozalqanlı kəndində vəfat etmişdir.

Ədəbiyyat

Əsərləri [Mətn]: 2 cilddə /Aşıq Hüseyn Bozalqanlı /elmi red. M.Qasımlı, Q.Paşayev; tərt. ed. F.Quliyev, Ə.Quliyev; rəyçi T.Bünyadov, V.Cəfər, B.Baba.- Bakı: Nurlan, 2008.- C.1: Şeirləri.- 296 s.; C.2.- 287 s.

Dastanlar, hekayətlər [Mətn]/A. H. Bozqanlı; toplayanı, tərt. ed., və on sözün müəllifi. R.Şəmşad.- Bakı: Yazıçı, 1987.- 173 s.

Qasımova, S. Hüseyn Bozalqanlının poetik irsi [Mətn] /S.Qasımova; elm. red. M.Qasımlı.- Bakı: Elm və təhsil, 2012.- 173 s.

Nərimanoğlu, M. Dastanlarda izi qalan ustad [Mətn] /M.Nərimanoğlu //Azərbaycan.- 2010.- 28 noyabr.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

azab.az

480 illiyi Sadiq bəy Əfşar 1533-1613 Miniatür rəssamı

Sadiq bəy Əfşar 1533-cü ildə Təbrizdə türk-əfşar tayfasına mənsub olan əsilzadə bir ailədə doğulmuş və hələ uşaqlıqdan poeziya və rəssamlıqla maraqlanmışdır.

O, öz təhsilini artırmaq fikrinə gələrək, böyük rəssam Behzadın bir qohumuna şagird durur. Öz sözlərinə görə: "hansı işdən yapışırdımsa, mənə sadə və asan gəlirdi. Ən böyük arzum Behzadın sənətinə yiyələnmək idi... Buna görə də, özümə Behzada bərabər bir ustad axtarırdım. Nəhayət, açıq ürəkli, dövründə tayı olmayan bir ustad tapdım ki, o da sənəti Behzad fırçasından öyrənmişdi."

Müzəffər Əlinin yanında keçirdiyi təhsil illərində Sadiq bəy həm də Astrabad türkmənləri ilə döyüşlərdə özünün cəsurluğu və hünərvərliyi ilə şöhrət qazanır. Öz xarakterinin bu cizgilərini Sadiq bəy, Azərbaycan və türkmənşəli olması ilə əlaqələndirirdi. Həmişə deyərmiş ki, "türklüyümü gözə çarpdırmaqla və qızılbaş ənənələrinə sədaqət göstərməklə özümü cəsur və qorxmaz sayır və zamanımın cəsur adamlarından heç kimi özümə tay bilmirəm."

Səkkizillik təhsil müddəti havayı keçmir. Müasirlərinin yazdığına görə, Sadiq bəy "nəhayət, böyük uğurlar qazanır və tayı-bərabəri olmayan incə fırçalı miniatür rəssamına çevrilir, onu saraya dəvət edirlər. II Şah İsmayılın dövründə Sadiq bəy şah kitabxanasının nəzdindəki emalatxanalarda işləmiş, Şah Məhəmməd Xudabəndənin (1578-1587) zamanında isə vaxtilə həmin məşhur kitabxananın rəhbəri olmuş və bu münasibətlə özünü "Sadiq-Kitabdar" adlandırmış, həmin kitabxanaya dahi miniatürçülərdən Behzad və Sultan Məhəmməd rəhbərlik etmişdi. Bu kitabxana əsl incəsənət akademiyası olmuşdu. Buradakı emalatxanalarda kitabların üzü köçürülmüş, miniatürlər yaradılmış, rəng və kağız istehsalının texnologiyası işlənib hazırlanmış, bədii cəhətdən kamil cildlər düzəldilmişdi. Eyni zamanda, burada xəttat, ornamentalist (nəqqaş), qızıl suyuna çəkmə (müzəhhib), rəngkar (müsəvvir), karton (səhhaf) və dəri cildləmə (mücəllid) üzrə kadrlar hazırlanmışdır.

Azərbaycanın zəngin istedadlar kəhkəşanında Sadiq bəy Əfşar ən parlaq ulduzlardan biridir. O, öz qabiliyyətini yalnız təsviri sənətdə deyil, xəttatlıqda (onun adı Şah Abbasın sarayındakı xəttatlar sırasında xatırlanmışdır), musiqidə, şeir və nəsr sahələrində, tarixi salnamə və təzkirəçilikdə də sınamış və yaradıcılıq uğurları qazanmışdı.

Böyük sənətkar Sadiq bəy Əfşar 1613-cü ildə İsfahanda vəfat etmişdir.

Ə d ə b i y y a t

Şeirlər [Mətn]: transfoneliterasiya və fotofaksimile /S.Əfşar; red. A.Ramazanov; AMEA M.Füzuli ad. Əlyazmalar İn-tu.- Bakı: Elm və Təhsil, 2010.- 100 s.

Məcməül-Xəvas [Mətn]: tərcümə, müqayisəli mətn /S.Əfşar.- Bakı: Elm, 2008.- 411 s.

Kərimov, K. Sadiq bəy Əfşar [Mətn]: monoqrafiya /K.Kərimov.- Bakı: İşıq, 1987.- 68 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

140 illiyi

Zivər bəy Əhmədbəyov 1873-1925

Memar



Zivər bəy Əhmədbəyov 1873-cü ildə Şamaxı şəhərində doğulmuşdur. Orta təhsilini Şamaxıda almış, 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.

İlk ali təhsilli, diplomlu - azərbaycanlı memardır.

1910-cu ildən Bakı şəhərində yaşamışdır. 1902-1917-ci illərdə Z.Əhmədbəyov Bakı Quberniyasının İdarəsində, sonra isə Bakı şəhər İdarəsində memar işləmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, 1922-ci ilə kimi Bakı şəhərinin Baş memarı olmuşdur.

Şamaxıda Cümə məscidi, İmam məscidi, Bakıda Təzə Pir məscidi, Əmircanda Murtuza Muxtarov məscidi (1908) (məscidi Kərbəlayı Əhməd tikib) və Vladiqafqazda bir sıra yaşayış və məişət binaları onun layihəsilə tikilmişdir.

Əmircanda layihəsini verdiyi məscid isə Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESCO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Zivər bəy Əhmədbəyov öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirmişdir. Bakıda Oftalmologiya İnstitutunun binası və onun layihəsilə tikilən bir sıra yaşayış binaları bu gün də göz oxşayır.

1917-ci ildə Z.Əhmədbəyov "İslam mədəniyyət abidələrini qoruyan", 1919-cu ildə isə Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olan "Yeni Şirvan" cəmiyyətlərini yaratmışdır.

Zivər bəy Əhmədbəyov 1925-ci ildə Bakıda vəfat etmişdir.

2011-ci il may ayının 26-da, Bakıda "Nizami" metro stansiyasının qarşısında Zivər bəy Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olmuşdur. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.

Parkla üzbəüz bina Zivər bəy Əhmədbəyovun layihəsi əsasında inşa edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Prezidenti İlham Əliyev Zivər bəy Əhmədbəyov parkının açılışında iştirak etmişdir [Mətn] //Azərbaycan .-2011.- 27 may.- S. 2.

Bakıda məşhur memar Zivər bəy Əhmədbəyovun abidəsi açılıb [Mətn] //Mədəniyyət.- 2011.- 27 may.- S. 2.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.ebooks.preslib.az

660 illiyi

Əbdülqədir Marağayi 1353-1436

Musiqişünas alim



Əbdülqədir ibn Qeybi əl-Hafiz Əl-Marağayi 1353-cü ildə Azərbaycanın məşhur elm və mədəniyyət mərkəzlərindən sayılan Marağa şəhərində anadan olmuşdur.

Orta əsrlərin bir çox digər alimləri kimi Marağayi də hərtərəfli təhsil almışdı. O, Şərq musiqi nəzəriyyəsini dərindən mənimsəmiş, gözəl xanəndə, musiqiçi, bəstəkar, rəssam-xəttat və şair olmuşdur. Marağayi öz şeirlərini Azərbaycan türkcəsi, fars və ərəb dillərində yazmışdır. O, özünün yazdığı kimi, şeirlərinin əksər qismini Azərbaycanda və İraq türkləri arasında geniş yayılmış Segah, Üşşaq və Nəva muğamlarına uyğun vəznlərdə qələmə almışdır.

Onun atası Mövlana Qeybi tanınmış musiqiçi idi.

Əbdülqədir dörd yaşında ikən "Quranı" əzbərləmiş, on yaşında musiqi elminin əsaslarını mənimsəmiş, qrammatika, ritorika və üslubiyyatı öyrənmiş və artıq onu da atası ilə birlikdə alim və şeyxlərin məclislərinə dəvət etməyə başlamışlar. O, məclislərdə "Quran" ayələrini avazla oxumuş və mürəkkəb musiqi əsərləri ifa etmişdir.

Teymurun Azərbaycana gəlişindən sonra, bir çox incəsənət xadimləri Səmərqəndə aparılmışdır. 1397-ci ildə Teymurun çıxardığı edam cəzasından canını qurtaran Marağayi də bunların siyahısına düşmüşdü. Elə həmin ildə Teymur özünün fərmanı ilə başıbəlalı alimi "bütün musiqi bilicilərinin padşahı" adlandırmışdı.

Marağayi Səmərqənddə də yaradıcılığından qalmamış, yeni-yeni musiqi əsərləri və musiqişünaslıq risalələri yazmışdır. Onun "Kənz əl-əlhan" ("Melodiyalar xəzinəsi") risaləsindəki melodiyalar Urməvinin hərfi-ədədi sistemi ilə verilmişdi. Burada hərflər səslərin yüksəkliyini, rəqəmlər uzunluğunu göstərir, ladın və vəznin adı isə melodiyanın ritm və quruluşunu bildirirdi.

Marağayi öz musiqi risalələrininin əksər qismini fars dili və Azərbaycan türkcəsində yazdığı şeirlərlə tamamlamışdır.

O, türk xalqlarının musiqisinə, xüsusilə aşıq musiqisinə böyük diqqət yetirmişdir. Alim öz əsərlərində doqquz əsas türk ladını və bütün Şərq xalqları üçün ümumi olmaqla türk musiqisində daha çox işlənən ladları müəyyənləşdirərək ayırmışdır.

Marağayi ömrünün son illərini Heratda keçirmiş, 1436-cı ildə burada vəfat etmiş və dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Əbdülqədir Marağayi [Mətn] //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.- Bakı, 1980.-C.IV.-S.125.

Hüseynov, A. Musiqi bilicilərinin padşahı [Mətn] /A.Hüseynov //Azərbaycan.- 2009.- 12 iyul.- S. 7 .

İ n t e r n e t d ə

www.anl.az

www.admiu.edu.az

www.az.wikipedia.org

130 illiyi

Rza Darablı 1883 -1942

Aktyor



Rza Nəcəfəli oğlu Hüseynov (Darablı) 1883-cü ildə Bakıda doğulmuşdur. Əvvəlcə mədrəsədə, sonra türk-rus məktəbində təhsil almışdır. Savadını ölkə xaricində ali məktəbdə davam etdirməyə çalışmış, lakin buna nail ola bilməmişdir.

Mədəniyyətin müxtəlif sahələrinə maraq göstərmiş, 1911-ci ildən ara-sıra "Nicat" mədəni-maarif cəmiyyətinin truppasında epizodik, sözsüz surətlər oynamış və üç il sonra isə müntəzəm şəkildə teatr tamaşalarında iştirak etmişdir. Azərbaycanın ilk parodiyaçı aktyorlarından sayılır.

Rza Darablı "Nicat", "Səfa", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti" truppalarında dram, faciə, komediya, opera və operetta tamaşalarında maraqlı rollar oynamış, Üzeyir bəy Hacıbəyli "Şah Abbas və Xurşidbanu" operasındakı Məstavər obrazının yaxşı ifaçısı olmuşdur.

1919-cü ildən bugünkü Milli Dram Teatrının truppasında aparıcı aktyorlardan biri kimi çıxışlar etmişdir.

1925-1928-ci illərdə Moskvada Mərkəzi Teatr Sənəti Texnikumunda təhsil almış, yenidən doğma kollektivə qayıtmışdır.

Komediya və dram aktyoru Rza Darablının yaradıcılığını iki dövrə ayırmaq olar: 1919-cu ilə qədərki dövr və ondan sonraki illərdəki fəaliyyəti.

Birinci dövrdəki əsas rolları: Vəli, Hambal ("Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacıbəyli), Qacar, Həmzə bəy, İblis ("Ağa Məhəmməd Şah Qacar", "Dağılan tifaq" və "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Məşədi Oruc və Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), Şamdan bəy, Şah Təhmasib ("Dilin bəlası" və "Nadir şah", Nəriman Nərimanov), Tofiq bəy, Mustafa paşa, Haris ("Bakı müharibəsi", "Ədirnə fəthi" və "Trablis müharibəsi", Cəfər Cabbarlı), İsmayıl bəy və İbrahim ("Keçmişdə qaçaqlar", Nəcəf bəy Vəzirov).

Teatr dövlət statusu alandan sonra Rza Darablı daha uğurla Ənvər bəy, Belokurov, Yanardağ, İbad ("Yulduz, yaxud Trablis müharibəsi", "Yaşar", "Od gəlini" və "Almaz", Cəfər Cabbarlı), İbn Yəmin və İblis, Şeyx Sənan, Knyaz ("İblis", "Şeyx Sənan" və "Knyaz", Hüseyn Cavid), Qəhtan ("Dəmirçi Gavə", Şəmsəddin Sami), Mixail Petroviç ("Qaçaq Kərəm", Vano Mçedaşvili), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Arsini ("Nei qülləsinin sirri", Aleksandr Düma), və s. rollarını ifa etmişdir.

"Darablı" onun səhnə təxəllüsüdür. Bir müddət tamaşalarda təxəllüsünü "Darablinski" yazdırmışdır. Əsasən aktyorluqla, müəyyən illərdə isə rejissorluqla da məşğul olmuşdur.

1933-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adı ilə təltif edilmişdir.

1940-cı il oktyabrın 24-də Pyer Bomarşenin "Fiqaronun toyu" komediyasında oynadığı Antonio rolu Rza Darablının teatrda son səhnə obrazıdır. Səhnə fəaliyyəti ilə yanaşı, Bakı Teatr Məktəbində dərs demiş, filmlərə çəkilmişdir.

Rza Darablı 1942-ci il mart ayının 23 - də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Darablı (Hüseynov) Rza Nəcəfəli (Nəcəfqulu) oğlu [Mətn] //Üzeyr Hacıbəyli ensiklopediyasi.- Bakı, 2008.- S.41.

Rəhimli, İ. Rza Darablı (1883 -23.3.1942) [Mətn] //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.114.

İnternetdə

awww.adam.az

www.anl.az

www.az.wikipedia.org

590 illiyi

Uzun Həsən 1423-1478

Dövlət xadimi



Uca boylu olduğuna görə "Uzun Həsən" ləqəbini almış Həsən bəy Bayandur 1423-cü ildə anadan olmuşdur. Trabzon imperatoru IV İoanın (1429-1458) qızı Dəspinə xatunla evlənmişdir. Onun başqa məzhəbə və dinlərə etiqad edən əhaliyə qayğısı bu nəhəng və çoxtayfalı ölkədə sabitləşdirici rol oynamışdır.

Uzun Həsən Osmanlı imperiyası, Venesiya Respublikası, Böyük Moskva Knyazlığı, Qızıl Orda, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neopolitan Krallığı, Rodos, Kipr, Qaraman bəyliyi, Misir, Hindistan və başqa dövlətlərlə diplomatik münasibətlər saxlamışdır.

Uzun Həsən Ağqoyunlu tayfalarını birləşdirərək, Dəclə və Fərat çaylarının yuxarı axarı boyunca paytaxtı Diyarbəkirdə yerləşən kiçik bir ərazidə öz hakimiyyətini qurmuş və o vaxtdan da adı tarixə düşürmüşdür.

O bir neçə Avropa ölkəsi ilə ona odlu silah yardımı göstərilməsi barədə danışıqlar aparmışdır. Həmin yardım Qara dəniz və Aralıq dənizi vasitəsilə Uzun Həsənin müttəfiqi, Ağqoyunlu tayfaları ilə qədimdən əməkdaşlıq edən və Qaraman bəyliyinin Qərb sərhədlərində yerləşən yunan Trapezund imperiyası üzərindən keçib gəlməli idi.

Osmanlılar bunun qarşısını almaq istəmiş və 1453-cü ildə Fateh II Mehmet tərəfindən Konstantinopol işğal olunduqdan sonra Trapezund imperiyasını məhv etmək qərarına gəlmişlər. Uzun Həsən buna mane olmaq istəsə də, Osmanlı qoşunlarının Ağqoyunlu ərazisinə müdaxiləsi onu sülh xahişi ilə onlara müraciət etməyə məcbur etmişdi. Osmanlıların Yastıçəmən yaylağında yerləşən düşərgəsinə Uzun Həsənin anası Sara xatunun başçılığı ilə elçilər yollamışdı.

Sara xatun mahir bir diplomat kimi öz ölkəsindən çox-çox uzaqlarda da tanınmışdı. O, bu dəfə də öz vəzifəsinin öhdəsindən gəlmiş - sülh bağlamışdır. Bu sülhün şərtlərinə görə, Uzun Həsən osmanlıların Trapezundu işğal etməsinə mane olmamalı, osmanlılar isə onun dövlətinin ərazisindən çıxmalı idilər.

Uzun Həsəni neytrallaşdırmaq üçün II Mehmet Trapezund üzərinə hücuma keçərkən Sara xatunu və onun başçılıq etdiyi heyəti də özü ilə götürmüş, 1461-ci il oktyabr ayının 26-da Trapezundun mühasirəsi qələbə ilə nəticələnmişdi.

Osmanlı dövləti ilə mübarizə aparmaq üçün ölkəni iqtisadi cəhətdən möhkəmləndirmək, ordunu yenidən təşkil etmək və güclü müttəfiqlər tapmaq lazım idi. Uzun Həsən ilk növbədə ölkə iqtisadiyyatının inkişafına təkan vermək üçün bir sıra islahatlar aparmış, onun xəzinəsi dolmuş və Azərbaycanda möhtəşəm bir mərkəzləşdirilmiş dövlət yaranmışdır. Ordusunun təkmilləşdirilməsi haqqında çox düşünən Uzun Həsən bu məqsədlə Avropadan mütəxəssislər çağırmış və nizami ordu yaratmaq istəmişdir.

Uzun Həsənin sarayında alimlər məclisi fəaliyyət göstərmiş və zəngin kitabxana yaradılmışdır.

1478-ci il yanvar ayının 5-də Uzun Həsən vəfat etmiş, onu özünün tikdirdiyi Nəsriyyə məscid kompleksində dəfn etmişlər. Bundan sonra həmin məscid "Həsən padşahın məscidi" adlandırılmışdır.

Ədəbiyyat

Qacar, Ç. Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri [Mətn] /Ç. Qacar; Red. E. Namazov; Tərtib edənlər: N. Qaramanlı, N. Quliyev.- Bakı: [Nicat] 1997 .- 304 s.

Qocayev, Ə. S. Uzun Həsən [Mətn] /[Ə. Qocayev; red. R. İsmayılov; rəssam. E. Cabbarov; dizayn. R. İsmayılov].- Bakı: Altun Kitab, 2007. - 14 s.


İnternetdə

www.anl.az

www.az.wikipedia.org

265 illiyi Cavad xan 1748-1804

Dövlət xadimi



Cavad xan Şahverdi xan oğlu (Ziyadoğlu) Qacar 1748-ci ildə Gəncə şəhərində doğulmuşdur.

Cavad xanın atası Şahverdi xan 1756-cı ildən (1761-ci ilə qədər) Gəncənin xanı olmuşdur. Cavad xan Gəncədə XVI əsrdən hökmranlıq edən Ziyadoğlular nəslindəndir. Ziyadoğlular ilk doqquz Qızılbaş tayfalarından olan Qacarların bir qoludur. Gəncəlilərin növbəti üsyanından sonra hakimiyyətə əvvəlcə Rəhim bəy, bir müddət keçəndən sonra isə 1786-cı ildə onun qardaşı Cavad xan gəlmişdir.

Cavad xan hakimiyyətə İraklinin köməyi ilə gəlmiş, bir neçə il müddətində ilbəil gürcü çarına 10 min manat həcmində vergi ödəmişdir. Həmin asılılıqdan və gürcülərin Gəncə üzərinə tez-tez baş verən basqınlarından can qurtarmaq məqsədilə Cavad xan öz hərbi hissələrini 1785-ci ildə Tiflis üzərinə yürüşə gedən Ağa Məhəmməd Şah Qacarın qoşunlarına qoşmuşdur. Qacarın qoşunları geri qayıtdıqdan sonra Cavad xanla II İrakli arasındakı münasibətlər daha da gərginləşmişdi. II İraklinin, Qarabağ xanı İbrahim xanın və onun qohumu Avar Umma xanın dəstələri Gəncəni mühasirəyə almışdır. Uzunmüddətli mühasirə uğursuzluqla başa çatsa da, onun aradan götürülməsi üçün Cavad xan Tiflisdə əsir aldığı döyüşçüləri geri göndərməli və İbrahim xanın hərbi xərclərini ödəməli olmuşdur.

Çar İraklinin ölümündən sonra Cavad xan Nadir şahın vaxtında İrakliyə bağışlanmış Borçalı və Şəmşədil mahallarını geri qaytarmağa çalışmışdır. Lakin ona yalnız Şəmşəddil mahalını azad etmək müyəssər olmuşdur. O, öz oğlu Uğurlu xanı da oraya göndərmişdir. II Yekaterinanın sərəncamı ilə 1796-cı ildə onun favoriti Platon Zubovun qardaşı Valerian Zubovun başçılığı altında rus qoşunlarının Qafqaza yürüşü başlanmışdır. Yürüşün rəsmi səbəbi kimi Ağa Məhəmməd xanın pozduğu əmin-amanlığın bərpa olunması göstərilmiş, çox qısa bir müddətdə ruslar döyüşsüz və müqavimətsiz Azərbaycanın demək olar ki, bütün Xəzəryanı bölgələrini tutmuşlar. Xanların bir çoxu aralarında türk və İran meyllilər də olmalarına baxmayaraq, xanlığın və xan hakimiyyətinin saxlanılması şərti ilə Rusiyanın himayəsi altına keçməyə məcbur olmuşlar. Qafqaz korpusu Gəncəyə 1796-cı ilin 13 dekabrında general Aleksandr Rimski-Korsakovun başçılığı ilə gəlmişdir. Cavad xanın özü şəhərdən çıxmış, rus ordusunun qarşısına gələrək, qalanın açarlarını Rimski-Korsakova şəxsən təqdim etmişdir.

II Yekaterinanın vəfatından sonra yeni imperator I Pavel qraf Zubova Zaqafqaziyanı tərk etmək əmrini vermişdir. Rusların gedişindən dərhal

sonra İran hökmdarı Ağa Məhəmməd Şah Qacar Azərbaycanın şimalına cəza yürüşünə çıxmışdır. O, Şuşanı tutmuş və Bakı xanı Hüseynqulunu silah altında buraya gətizdirmiş, Cavad xan da buraya gəlmişdir. 1797-ci ilin 5 iyun günü şahın öz xidmətçiləri tərəfindən qətlə yetirilməsi Cavad xanı mühakimə olunmaqdan xilas etmişdir. 1799-cu ildə rus qoşunları Gürcüstana girmiş, bir ildən sonra isə Gürcüstanın Rusiyaya birləşməsi haqqında manifest verilmişdir. 1803-cü ilin 22 noyabrında ruslar Tiflisdən Gəncə istiqamətində hərəkət etmiş, şəhərin yaxınlığında dayanan Sisiyanov yenidən Cavad xana məktub yazaraq, şəhəri təslim etmək barədə ultimatum vermişdir. Cavad xan Gəncəni döyüşərək müdafiə edəcəyini bildirmişdir. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəyin də yazdığı kimi, Cavad xan öz qoşununu və yaxın adamlarını başına yığaraq, düşmənin üzərinə yerimişdir. Döyüş dahi şairimiz Nizami Gəncəvinin məqbərəsi yaxınlığında, Quru qobu adlanan yerdə baş vermişdir. Qüvvələr nisbəti bərabər olmadığı üçün gəncəlilər ağır itkilər verdikdən sonra geri çəkilərək qalanın darvazalarını bağlamışlar. Onları təqib edən ruslar da şəhərə girərək, qalanı dörd bir tərəfdən mühasirəyə almış, düz bir ay Sisiyanovun ultimatumlarına Cavad xan eyni cür cavab vermişdir: "Şəhəri verməyə gəlincə, bu niyyətinizdən çəkin, çünki bu olan iş deyil. Sən Gəncəyə yalnız mənim meyitimin üzərindən girə bilərsən. Başa düşürsənmi? Ancaq mən öləndən sonra, başqa heç cür."

Sisiyanov 1804-cü il yanvar ayının 3-də qalaya hücum etmiş, gəncəlilərin qəhrəmancasına müqavimət göstər-mələrinə baxmayaraq, ruslar qalanın əsas qüllələrini ələ keçirmişlər.

Cavad xan o dövrdə sürətlə bir-birini əvəz edən mürəkkəb hadisələr fonunda öz siyasi fəaliyyəti ilə digər Azərbaycan xanlarından seçilmişdi. Yaxınlaşan təhlükə qarşısında Azərbaycan, Dağıstan və Gürcüstan hakimlərinin vahid cəbhədən çıxış etmək meyllərindən məharətlə istifadə edən Gəncə xanı antirus koalisiya yaratmağa çalışmış, hətta buna müəyyən qədər müvəffəq olmuşdur. Gəncə, Qarabağ, Şəki xanları, ləzgi şamxalları və gürcü şahzadəsi Aleksandr Rusiyaya qarşı birgə mübarizə aparacaqlarına and içmişlər. Lakin həlledici anda Gəncə xanına heç kim kömək etməmiş və o, güclü düşmən qarşısında tək qalmışdır.

Cavad xanın başçılığı ilə gəncəlilər təcavüzkara qarşı 1 aydan artıq müddətdə mübarizə aparmışlar. Düşmənlərinin belə etiraf etdiyi bir qəhrəmanlıqla Cavad xan 1804-cü il yanvar ayının 3-dən 4-nə keçən gecə, səhər saat 4-də düşmən gülləsindən həlak olmuş, Gəncədə Şah I Abbas tərəfindən tikilmiş məşhur Cümə məscidində dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Dilsuz. Cavad xan [Mətn] /Dilsuz; layih. məsl. Elçin; ideya müəl. Q.Qarayev; layih. rəhb. Qaraqoyunlu; məsul red. A.Dənzizadə; rəssam İ.Mehdiyev.- Bakı: Beşik, 2008.- 18 s.

Məmmədli, N. Cavad Xan[Mətn]: [Tarixi roman] /N. Məmmədli; Tərt. - red. Vasif - T. Qərib. - Bakı: Adiloğlu, 2005.- 190 s.

Ələkbərzadə, M. Azərbaycan və azərbaycanlılar: dünən, bu gün, sabah [Mətn] /M.Ələkbərzadə; elmi red. N.Cəfərov; rəyçi. A. Həsənoğlu.-Bakı : AzAtaM , 2005.- 72 s.

Şükürov, S. Gəncəli Cavad xanın hekayəti [Mətn] /S.Şükürov; red. Ə.İsayev.- Gəncə: Gəncə , 1992.- 212 s.

Rüstəmxanlı, S. Ölüm zirvəsi [Mətn]: roman /S. Rüstəmxanlı; red. N.Əbdülrəhmanlı; naşir. Ş.Xuduoğlu.- Bakı: Qanun, 2007.- 554 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

135 illiyi Cavad bəy Məlik-Yeqanov 1878-1942

Dövlət xadimi

Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov 1878-ci ildə Qarabağın Tuğ kəndində anadan olmuşdur.

İbtidai təhsilini Mir Mehdi Xəzaninin ev məktəbində almış, sonra texniki məktəbi bitirmişdir. 1903-cü ildə Bakının neft mədənlərində işləmiş, inqilabi hərəkatda iştirak etmişdir. "Hümmət" təşkilatının üzvü olmuşdur. ADR-in görkəmli dövlət xadimi, Müsəlman Fəhlələrinin Həmkarlar İttifaqının yaradıcısı, ADR Həmkarlar İttifaqları Təşkilatının banilərindən biri olmuşdur.

1909-cu ildə Bakıdan sürgün edilmiş, 1914-də yenidən Bakıya qayıtmış, neft mədənlərində işləmişdir. 1917-ci ildə "Müsavat" partiyasına üzv olmuşdur. Zaqafqaziya seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurasının İstiqlal bəyannaməsini qəbul edən 26 üzvündən biri olmuşdur.Palamentdə fəhlə məsələsi ilə məşğul olmuş, 1919-cu ildə Lənkəranın general-qubernatoru təyin olunmuşdur.

Aprel işğalından sonra 1920-ci il mayın 11-də həbs edilmiş, iyulun 19-da azad olunmuşdur.

Sonra dəfələrlə həbs edilmiş, yenidən buraxılmışdır.

Sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında çalışmışdır.

Azərbaycan SSR Xalq Əmək Komissarlığı qaçqınlar şöbəsinin rəisi, 1927-1928-ci illərdə Neft Məhsulları Satışı İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

"Gizli Müsavat" partiyasının üzvü itihamı ilə 1932-ci ildə həbs olunmuş, 10 il müddətinə uzaq şimala sürgün edilmişdir. Rza bəy Məlik-Yeqanov 1942-ci ildə sürgündə vəfat etmişdir.

Ədəbiyyat

Məlik-Yeqanov Cavad bəy Rza bəy oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: iki cilddə.-Bakı,2004.-C.2. -S.185.

135 illiyi Rüstəm bəy Şıxlinski 1878-1920

Hərbi xadim

Rüstəm bəy Məmməd ağa oğlu Şıxlinski 1878-ci ildə Qazax qəzasının Qazaxlı kəndində dünyaya gəlmişdir. Qardaşı ilə birlikdə Tiflisdə zadəganlar üçün kadet korpusunda, sonra isə Peterburqda Mixaylov adına Topçuluq Məktəbində oxumuşdur. Bir müddət çar ordusunda xidmət etmiş, Birinci Dünya Müharibəsi illərində tatar polkunun tərkibində vuruşmuş, "Müqəddəs Georgi" və "Müqəddəs Vladimir" ordenləri ilə təltif edilmişdir.

Azərbaycan Demokratik Cümhuriyyəti zamanında Milli Ordumuzun təşkilində mühüm xidmətləri olmuşdur. 1918-ci ildə Ağdamda pulemyot bölüyünə məxsus hazırlıq məktəbi açılmış, miralay (polkovnik) Rüstəm bəy Şıxlinskinin idarəsi altında topçu hissəsi təşkil edilmişdir.

1920-ci ildə Gəncədəki may üsyanının fəal təşkilatçılarından olmuş və həmin il bolşeviklər tərəfindən güllələnmişdir.

Ədəbiyyat

Şıxlinski Rüstəm bəy Məmməd ağa oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: iki cilddə.-Bakı, 2004.- C.II. - S.381.

130 illiyi

Nurməmməd bəy Şahsuvarov 1883-1958

Dövlət xadimi



Ədəbiyyat

Qoca, E. Sibir dərsi [Mətn] /Elşad Qoca; red. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin İdarə rəisi Fuad İsgəndərov; rəyçi filol. elm. nam. Şamil Vəliyev, filol. elm. nam. Bədirxan Əhmədov.- Bakı: Şuşa, 2000.- 320 s.

Şahsuvarov Nurməmməd bəy [Mətn] / tərt. ed.: V.Allahverdiyev, Ş.Mehdiyev //Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920).- Bakı, 1990.- S.72-73.

İnternetdə

www.anl.az

www.history.az

Nurməmməd bəy Ədilxan oğlu Şahsuvarov 1883-cü ildə Azərbaycanın Laçın rayonunun Minkənd kəndində doğulmuşdur. O, ibtidai təhsilini kənd məktəbində alaraq, 1889-1903-cü illərdə Qori müəllimlər seminariyasında oxumuşdur. H.Şahsuvarov bir müddət Gəncədə rus dili müəllimi işlədikdən sonra Tiflis Aleksandr Müəllimlər İnstitutuna daxil olmuş və oranı 1912-ci ildə bitirmiş, Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş və həmin ali məktəbi ekstern yolu ilə 1915-ci ildə başa vurmuşdur. Dağıstan Vilayəti Xalq Təhsili İdarəsi üzrə Teymurxanşura şəhərinə inspektor təyin edilmişdir.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı başlayanda bitərəf Nurməmmədbəy Şahsuvarov siyasi hadisələrdə yaxından iştirak etməyə başlamışdı.

1918-ci ilin yayında Şimali Qafqazda yaşayan xalqların milli-azadlıq hərəkatı nəticəsində Dağlılar Respublikası yaradılmışdı. N.Şahsuvarov həmin respublikanın Xalq Maarif naziri təyin olunmuşdu.

1919-cu il iyun ayının əvvəlində Bakıya gələn N.Şahsuvarov Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının sədri N.Yusifbəylinin təşkil etdiyi birinci hökumət kabinəsində maarif nazirinin müavini vəzifəsini icra etməyə başlamışdır. O, həmin dövrdə Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına və digər mütərəqqi tədbirlərin həyata keçirilməsinə böyük əmək sərf etmişdir.

Azərbaycanın ilk ali məktəbi Bakı Dövlət Universitetinin təşkilində də N.Şahsuvarovun xidmətlərini qeyd etmək lazımdır.

İttihad partiyasının üzvü N.Şahsuvarov Nazirlər Şurasının sədri N.Yusifbəylinin II hökumət kabinəsində 1920-ci il martın 5-də istefaya çıxan H.Şahtaxtinskinin (1880- 1943) yerinə Maarif və Dini Etiqad naziri təyin olunmuş, 25 gün sonra – martın 30-da bütün kabinə ilə birlikdə istefaya çıxmışdır.

1920-ci il aprel ayının 27-də baş verən hadisələrdən sonra N.Şahsuvarov Azərbaycan SSR Xalq Maarif Komissiyasının müavini təyin olunmuşdur. O, həmin dövrlərdə Bakıda S.Ağamalıoğlu adına Torpaq və Geodeziya Texnikumlarında rus dilindən dərs demişdir. Sonralar isə Bakı Dövlət Universitetində Rus dili kafedrasının müdiri, Azərbaycan Neft İnstitutunda isə rus dili müəllimi vəzifəsində işləmişdir.

1940-cı ildə həbs olunan və Krasnodar diyarına sürgünə göndərilən Nurməmməd Şahsuvarov orada da öz ixtisası üzrə dərs demişdir. Üç il sonra 1943-cü ildə sürgündən Bakıya qayıdan N.Şahsuvarov Azərbaycan Tibb İnstitutunda Rus dili kafedrasının müdiri və müəllimi işləmişdir. O, Azərbaycanda rus dili sahəsində bir mütəxəssis kimi məşhur olmuşdur.

Nurməmməd Şahsuvarov 1958-ci il avqustun 11-də Bakıda vəfat etmişdir.

240 illiyi

Mirzə Camal bəy 1773-1853

Tarixçi

Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu Hacılı-Cavanşir 1773-cü ildə Hacılı icmasında, Gecəgözlü obasında anadan olmuşdur. Atası Məhəmmədxan bəy Şuşaya qalabəyi təyin olunduqdan sonra paytaxta köçmüşdülər. Burada mədrəsə bitirmişdi. Bir neçə dilə bələdçiliyi vardı. Ədəbiyyatçı Adolf Berje yazır: "Mirzə Camal fars, ərəb və osmanlı dillərindən başqa avar və ləzgi dillərini də bilirdi. Tarix, coğrafiya və astronomiya haqqında yaxşı məlumatı vardı." Aydın və savadlı adam olan Camal bəy divanda katib işləmiş, xanın əsasən daxili yazışmalarını apardığına görə ona Mirzə adını qoymuşlar."

1797-cı ildə baş vəzir Molla Pənah Vaqif xanlığı ələ almış Məhəmməd bəy Sarıcalı-Cavanşir tərəfindən öldürülmüşdü. İbrahimxəlil xan xanlığa yenidən yiyələnəndən sonra baş vəzir vəzifəsinə divanxana katibi Mirzə Camal bəy Hacılı-Cavanşiri təyin etmişdi.

1822-cı ildə xanlıq ləğv edildi. Mirzə Camal bəy rus hərbi idarəsi tərəfindən yaradılan məhkəməyə işə keçirildi. On səkkiz il məhkəmə sistemində çalışdıqdan sonra qocalığı ilə bağlı, 1840-cı ildə istefaya çıxdı.

Mirzə Camal bəy tibb elmini gözəl bildiyindən həkimliklə məşğul olmağa başlamışdı. Ömrünün sonuna qədər adamları pulsuz müalicə etmişdi.

Mirzə Camal bəy Cavanşir Qarabağı tarixçi idi və onun zəngin kitabxanası olmuşdur. 1815-ci ildə "İran tarixi haqqında qısa icmal" adlı tarixi əsər qələmə almışdı. 1847-ci ildə isə Qarabağın siyasi olaylarından bəhs edən "Qarabağ tarixi" adlı tarixi əsər yazmışdı.

Ə d ə b i y y a t

Qarabağ tarixi [Mətn] /Mirzə Camal Cavanşir Qarabağı; tərcüməçi F. Babayev; red.: R. Əliyev, Ş. Tağıyeva; AzSSR EA, Tarix İnstitutu.- Bakı: Az SSR EA,1959.- 205 s.

Axundov, N. Qarabağ salnamələri [Mətn] /N. Axundov; red. F.Əliyev.- Bakı: Yazıçı,1989. - 232 s.

Çingizoğlu, Ə. Hacılılar [Mətn] /Ə.Çingizoğlu.- Bakı: Soy, 2004.- 238 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.ebooks.preslib.az

815 illiyi

Siracəddin Urməvi 1198-1283

Azərbaycan filosofu

Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi 1198-ci ildə Cənubi Azərbaycanın Urmiya şəhərində doğulmuş, uşaqlıq illərini həmin səfalı diyarda keçirmişdir. Mənbələrdə onun Mosulda təhsil aldığı göstərilir.

Siracəddin Urməvi bir müddət Dəməşqdə yaşamış, sonralar isə Kiçik Asiyaya getmişdir.

1246-cı ildə o, artıq Konya şəhərində qazi olmuşdur. Görkəmli hüquqşünas alim kimi onun 1250-ci ildə disput məclislərində iştirak etdiyi xəbər verilmişdir.

XIII əsrin türk tarixçisi İbn Bibi 1282-1285-ci illərdə qələmə aldığı "Ali işlərə dair Əlaəddin əmrləri" kitabında Azərbaycan filosofunun bütün elm sahələrində şöhrət tapdığını qeyd edərək fəaliyyətini yüksək qiymətləndirmişdir.

Ən məşhur əsəri "Nurların doğuşları"dır. Bu kitabın məntiqə dair hissəsinin Qahirədə Xədiviyyə kitabxanasında saxlanılan əlyazması Siracəddin Urməvinin sağlığında, 1278-ci ilin iyul ayında Konya şəhərində xəttat İsmayıl ibn Xəlil tərəfindən köçürülüb tamamlanmışdır. Filosofun bu kitabının həmin hissəsi Qütbəddin Razinin ona yazdığı şərhlə birlikdə Təbriz, İstanbul və Tehranda müxtəlif illərdə çap edilmişdir. Digər iri əsəri olan "Hikmət incəlikləri" 1257-ci ildə yazılmış, 1972-ci ildə Tehranda çap edilmişdir.

Zakir Məmmədov elmi-tədqiqatında göstərmişdir ki, Siracəddin Urməvinin əsərlərində peripatetik fəlsəfənin bütün problemləri geniş araşdırılmış, varlıq təlimi, idrak nəzəriyyəsi və məntiq məsələləri dərindən tədqiq edilmiş, mütərəqqi sosial-siyasi görüşlər və etik fikirlər öz dolğun ifadəsini tapmışdır.

Siracəddin Urməvi 1283-ci ildə Türkiyənin Konya şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Məmmədov, Z. Siracəddin Urməvi [Mətn] /Zakir Məmmədov; Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutu .- Bakı: Elm,1990. - 48 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

125 illiyi Məmmədəli Sidqi 1888-1956

Jurnalist

Məmmədəli Məhəmməd Tağı oğlu Sidqi 1888-ci ildə Naxçıvanda anadan olmuşdur. İxtisasca jurnalist olmuşdur.

Atasının Naxçıvanda açdığı "Tərbiyə" məktəbində təhsil almış, İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Naxçıvanda müəllim olmuş, teatr tamaşalarında fəal iştirak etmişdir.

1905-1908-ci illərdə "Həyat" və "İrşad" qəzetlərində məqalələri dərc olunmuşdur. 1910-cu ildə Cəlil Məmmədquluzadə Sidqi Məmmədəlini çağıraraq, "Molla Nəsrəddin" jurnalının redaktorluğunu müvəqqəti (1910, iyun- 1911, oktyabr) ona tapşırmışdır.

Sovet hakimiyyəti illərində Bakıda müəllimlik və jurnalist kimi fəaliyyət göstərmiş, "Kommunist" qəzeti (indiki "Xalq qəzeti") redaksiyasının müdiri vəzifəsində çalışmışdır.

Sidqi Məmmədəli 1956-cı ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Sidqi Məmmədəli Məhəmməd Tağı oğlu [Mətn] //Naxçıvan ensiklopediyası.-Bakı, 2002.- S.513-514.

www.anl.az

120 illiyi Rəcəb Əfəndizadə 1893-1956

Maarif xadimi

Rəcəb Əsədulla oğlu Əfəndizadə 1893-cü ildə Şəkidə anadan olmuşdur.

Şəkidə mollaxanada (1900-1901), altısinifli şəhər məktəbində (1902-1910), Qori Müəllimlər Seminariyasında (1910-1914) təhsil almışdır. Azərbaycan Dövlət Universitetinin Pedaqogika fakültəsini bitirmişdir (1930). Göyçay ikinci dərəcəli şəhər məktəbində (1914-1915), Şəki kişiqadın gimnaziyasında müəllim (1915-1922), Şəki Pedaqoji Texnikumunda (1922-1927), Tiflis Pedaqoji Texnikumunda (1928-1929) direktor, Ali Pedaqoji İnstitutda müəllim və dosent (1929-1934), Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda Tədris və Elmi işlər üzrə direktor müavini, Pedaqogika kafedrasının müdiri (1945-49) işləmişdir. Rəcəb bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nuxa qəzasında Hökumətin xalq maarifi sahəsində tədbirlərini həyata keçirmiş, "Türk qiraəti" (1918) dərsliyini nəşr etdirmişdir. "İş otağı" (1933), "Müəllimlərin ixtisasını artırma işinin təşkili" (1934), "Xalq maarifi üzrə məlumat kitabı" (1935), "Fiziki coğrafiya" (1935), "Qiyabi təhsil sistemində şifahi konsultasiya" (1936), "İzahlı pedaqoji lüğət" (1939), "Şagirdlərin fiziki tərbiyəsi və hərbi hazırlığı" (1942), "Uşaqlarda səhiyyə vərdişləri tərbiyəsi" (1947) və s. əsərləri Azərbaycanda xalq maarifi və tərbiyə işlərinin elmi-metodik əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır. Əfəndizadə ali və orta məktəblər üçün Moskvada nəşr olunmuş "Psixologiya" və "Pedaqogika" dərsliklərinin də ilk tərcüməçisidir.

Rəcəb Əfəndizadə 1956-cı il dekabr ayının 20-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Əfəndizadə Rəcəb Əsədulla oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası.- Bakı, 2004.- S.326.

İnternetdə

www.anl.az

www az.wikipedia.org

www.history.az

95 illiyi

Zeynəb Rzayeva 1918

Gimnast



İlk qadın idmançılarımızdan Zeynəb Hüseyn qızı Rzayeva 1918-ci ildə anadan olmuşdur.

1930-cu illərdə gimnastika ilə məşğul olmuş və respublika çempionu adını qazanmış azərbaycanlı qadındır. O, respublikada uşaq idman məktəbinin ilk yaradıcılarındandır.

Zeynəb Rzayeva 1934-1938-ci illərdə bədən tərbiyəsi və idman müəllimi işləmiş ilk qadındır.

O, 1941-1945-ci illərdə hərbi hospitalda çalışmış, 1947-ci ildən Bədən Tərbiyəsi İnstitutunda dekan, kafedra müdiri və rektor olmuşdur.

O, bədən tərbiyəsi nəzəriyyəsi və metodikası kafedrasının dosenti vəzifəsində çalışmış, 40-a yaxın elmi və metodiki işin müəllifi, bir çox umumittifaq və respublika elmi konfranslarının iştirakçısı olmuşdur.

İdman elmində fədakar əməyinə, ali məktəbdə 25 illik uğurlu fəaliyyətinə görə 1972-ci ildə Ümumittifaq Ali Attestasiya komissiyası ona dosent adı vermişdir. Zeynəb Rzayeva Bədən Tərbiyəsi İnstitutunun fəxri professoru olmuşdur.

İran İslam Respublikası və Pakistanın İdman nazirlikləri onun təcrübəsindən istifadə etmək üçün dəfələrlə öz ölkələrinə dəvət etmişdilər.

Zeynəb Rzayeva böyük ictimaiyyətçi və vətənpərvər idi. O, sovet ordusunun 1990-cı ilin yanvarında Bakıda törətdiyi vəhşiliyə qarşı öz etiraz səsini Moskvada ucaltmışdı. 72 yaşlı Zeynəb xanım həmin şaxtalı günlərdə Moskva Ali Soveti deputatlarının qaldığı mehmanxananın qarşısında bir ay piket keçirtmişdir.

Zeynəb Rzayeva Azərbaycan Milli Olimpiya Akademiyasının və İslam ölkələri Qadınlarının Beynəlxalq Olimpiya komitəsinin üzvü olmuşdur.

Elm və təhsil sahələrində, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə o, "respublika dərəcəli gimnastika hakimi" adını almış, "Qırmızı Əmək Bayrağı", "Vətən müharibəsi ordeni", 2001-ci ildə "Şöhrət" ordeni və bir çox medallarla təltif edilmişdir.

Zeynəb xanım müharibə və əmək veteranı idi. Azərbaycan idman ictimaiyyəti böyük iftixarla Zeynəb Rzayevanı özünün mənəvi anası adlandırmışdır.

Ədəbiyyat

Orucova, E. İdmana həsr olunmuş ömür (Zeynəb Rzayeva) [Mətn] /E.Orucova //Olimpiya dünyası.- 2005.- 21-23 may.- S.3.

Zeynəb Rzayeva: Azərbaycan gimnastika məktəbinin yaradıcısı [Mətn] //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar.- Bakı, 2008.- S.47-48.

İnternetdə

www.anl.az

www.azpress.no-ip.org

www.elibrary.az

www.idman.com.az

150 illiyi

Mirzə Əbdülxalıq Axundov 1863-1950

Həkim



Əbdülxalıq Hacı Abdulla oğlu Axundov 1863-cü ildə Bakıda anadan olmuşdur.

Mirzə Həsib Qüdsinin (1828-1908) mədrəsəsində oxumuş, sonra Bakı gimnaziyasını qurtarmış; 1888-ci ildə Almaniyanın Erlangen şəhərindəki Fridrix Aleksandr adına Universitetin tibb fakültəsini bitirmişdir.

Burada "göz bəbəyinin klinik tədqiqi" mövzusunda yazdığı əsərə görə tibb doktoru alimlik dərəcəsi alıb (əsər həmin şəhərdə 1890-cı ildə kitab kimi nəşr edilib) Bakıya dönərək burada ilk göz xəstəlikləri məntəqəsi açmışdır.

Bakıda Şərq və Qərb əczaçılığının (farmakologiyasının) tarixini araşdırmış, klassik yunan və ərəb alimlərinin əczaçılığa dair əsərlərini almancaya çevirərək Leypsiq şəhərində çıxan "Tsaytşrift der Doyçen morgenlendişen Qazelşeft" ("Zeitshrift der Deutshcen morgenlendishen Gaselsheft") qəzetində dərc etdirmişdir.

X əsrin əttarı Əbu Mənsur Müvəffəq bin Əli əl-Hərəvinin 466 bitki və 44 heyvan mənşəli dərmanın hazırlanmasına dair əsərini klassik ərəbcədən almancaya çevirərək ona geniş şərh yazmış və 1892-ci ildə Derpt (indiki Estoniyanın Tartu şəhəri) Universitetinə təqdim etmiş, tibb elmləri doktoru dərəcəsi almışdır.

1893-cü ildə Derpt Universitetinin əsərlərində və Almaniyanın Halle şəhərində kitab şəklində buraxılan bu əsər uzun illər rus və Avropa farmakoloqlarının stolüstü kitabı olmuşdur. XIX əsrin sonlarında Bakıda iki əczaxana açmışdır.

O, həm də həkim Məhəmmədrza Vəkilovla birgə Azərbaycanda ilk ruhi xəstəliklər müalicəxanasının yaradıcılarından biri olmuşdur. 1892-ci il aprel ayının 24-də açılan bu xəstəxanada 1903-cü ilədək işləmişdir.

1896-cı ildə tacir İsgəndər bəy Məlikov və müəllim Sultanməcid Qənizadəylə birgə Bakıda ilk kütləvi kitabxana açmış, 17.03.1899-da qapanmışdı, yeni tipli mətbəə yaratmış və 2 ildə (1899-1901) N.Nərimanov, N.B.Vəzirov, S.Qənizadə və Ə.Cəfərzadə, S.B.Hacıəlibəyov (Acalov) və başqalarının kitablarını nəşr etmişdir.

Bədii yaradıcılıqla da məşğul olmuş, "Əvvəli hənək, axırı dəyənək" (öz mətbəəsi, 1901) adlı üç pərdəli komediya qələmə almışdır (səhnəyə də qoyulmuşdur). "Müsəlman xeyriyyə cəmiyyəti"nin (1905), "Nəşri-maarif" cəmiyyətinin üzvü (1906); "Səadət" xeyriyyə cəmiyyətinin (1907) qurucularındandır (katibi olub). "Təkamül" qəzeti (1906-1907) redaksiya heyətinin üzvü, 1909-1910-cu illərdə satirik "Zənbur" jurnalının naşiri olmuşdur.

Özü burada "Palazqulaq", "Zorba", "Cümləqayğu", "Sövtüməli-Dünyamalı", "Vərzad", "Toxmaq", "Çərənçi" və başqa imzalarla çıxış etmişdir.

1914-1919-cu illərdə nəşr edilmiş "Müalicə kitabı" (1914), "Uşaq hifzisihhəsi" (1916), "Həzm üzvlərinin azarları" (1919) və b. kitabların müəllifidir. Sovet hakimiyyətinin onunla vəhşicəsinə davranışından sonra Güney Azərbaycana köçmüş, öncə Rəşt və Ərdəbildə, daha sonra isə Tehranda yaşamış və həkimliklə məşğul olmuşdur.

1950-ci ildə Tehranda vəfat etmiş və Qum şəhərində dəfn edilmişdir.

Ədəbiyyat

Axundov Mirzə Əbdülxalıq Hacı Abdulla oğlu [Mətn] //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası: iki cilddə.- Bakı,2004.-C.1. -S.108-109.

İnternetdə

www.anl.az

www.medekspert.az

110 illiyi Salyan rayon ilk ictimai qiraətxanası 1903

Salyanda ilk ictimai qiraətxana 1903-cü ildə, xalq müəllimlərindən Mirzə Əziz Babazadə və Mirzə Yaqub Ələkbər oğlu Əlizadənin təşəbbüsü və zəhməti ilə yaradılmışdır.

Əslində ilk qiraətxananın yaradılması 1880-ci ildə Salyanda təhsil müəssisəsinin yaradılmasına təsadüf edir. Salyan məktəbinin təsisi xalq təhsili ilə bərabər mədəni-maarif işlərinin də inkişafına xeyli təsir etmişdi. Bu məktəbin açılması ilə Salyanda ilk dəfə ictimai kitabxana yaradılmışdı. Belə ki, məktəbin açılması mərasimi münasibətilə oraya toplaşanlar "məktəb ictimaiyyət kitabxanası" adlı bir kitabxana təşkil etməyi qərara almış və bu məqsədlə könüllü olaraq pul toplamış və qısa müddət ərzində 342 man. 40 qəp. toplanmışdı. Beləliklə, ictimaiyyətin köməyilə 1881-ci il oktyabrın 1-də Salyan normal məktəbi nəzdində ilk məktəb-ictimaiyyət kitabxanası açılmışdı. Lakin camaatdan toplanan kitab və dövri mətbuat məktəb şagirdlərinin tələbatını qismən ödəmişdi. Burada toplanılan təcrübə müstəqil ictimai qiraətxananın açılmasında mühüm rol oynamışdı. 1903-cü ildə ilk ictimai qiraətxananın təşkil olunmasını bütün tərəqqipərvər adamlar sevinclə qarşılamışdılar. Çünki xalqı qəflət yuxusundan oyatmaq, maarifləndirmək lazım idi. Qiraətxana üçün ilk bina "Muğan" mehmanxanası ilə yanaşı olan köhnə dükanlardan biri kirayə edilmişdi. Hazırda həmin yerdə şəhid adını daşıyan bağ yerləşir. Qiraətxanaya 420 manat 60 qəpik məbləğində kitab və dövri mətbuat bağışlanmışdı. Qiraətxanadan istifadə üçün oxu haqqı da müəyyən edilmişdi. Oxu haqqı və ianə vasitəsi ilə toplanan pul fondun zənginləşməsinə xərclənirdi.

Bura Salyanda qabaqcıl ideyaların təbliği mərkəzinə çevrilmişdi. İnqilabi ruhlu əsərlərin müzakirəsi keçirilərkən M.Ə.Babazadənin və M.Y.Əlizadənin şagirdləri keşikdə dayanmışdılar.

Sonradan bu ictimai qiraətxana hər il kitab fondu ilə zənginləşmiş və nəhayət, kütləvi kitabxanaya çevrilmişdi. Kitabxanaların müxtəlif idarələrə məxsus olması, onların fondlarının əlaqəli şəkildə komplektləşdirilməsi kitabdan daha geniş istifadə etmək məqsədilə respublikada gedən mərkəzləşmə zamanı 1975-ci ildə Salyan rayon Kitabxanası da Mərkəzləşdirilmiş Kitabxana Sisteminə çevrildi. 1978-ci ildə kitabxana nümunəvi xüsusi layihə əsasında istifadəyə verilmiş yeni yaraşıqlı binaya köçmüşdü. Hazırda Nizami Gəncəvi adına Salyan rayon Mərkəzi Kitabxanası özündə 5 şöbə, 54 filialı (1- Uşaq kitabxanası, 1- Gənclər kitabxanası, 47- Kənd kitabxana filialları, 5 -Şəhər kitabxanası) birləşdirir.

Hazırda Kitabxananın fondunda 527.339 nüsxədən çox kitab vardır. 2009-cu ildə Nizami Gəncəvi adına Mərkəzi Kitabxanada Elektron Kitabxananın yaradılması üçün 11 kompyuter və digər avadanlıqlar alınmışdır. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

Ə d ə b i y y a t

Salyan rayon Mərkəzləşmiş Kitabxana Sistemi [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.- Bakı, 2007.- C.1-3.- S.358.

www.salyan-mks.az

90 illiyi

Ağdaş rayon Kitabxanası 1923



Ağdaşda kitabxana 1923-cü ildə təşkil edilmişdir. Sonralar bu kitabxananın bazası əsasında 1980-cı ildə Ağdaş rayon MKS-i yaradılmışdır. Hazırda 6 şöbə fəaliyyət göstərir. Ağdaş rayon MKS-nin fondunda 486 900 nüsxə kitab vardır, onlardan 85 300 nüsxəsi latın qrafikalı ədəbiyyatdır. Oxucuların sayı 40 000-ə çatır.

28 fevral 2007-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı ilin dekabr ayının 28-də "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" imzaladığı sərəncama əsasən Kitabxanada Mərkəzi İctimai Hüquqi İnformasiya Mərkəzi fəaliyyət göstərir.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında Kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

Ə d ə b i y y a t

Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.I-II.-S.256.

www.agdash-mks.az

90 illiyi

Zaqatala rayon Kitabxanası 1923

Zaqatala rayon kitabxanası 1923-cü ildə yaradılmışdır. XX əsrin 70-ci illərində kitabxana-informasiya şəbəkəsinin mərkəzləşdirilməsi həyata keçirilərkən 79 kitabxana filialı və 1 rayon kitabxanası birləşdirilərək vahid rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) yaradılmışdır. Rayon Mərkəzi Kitabxanası Nizami Gəncəvinin adını daşıyır. Kitabxananın kitab fondu 492 min 46 nüsxədir. Zaqatala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 6 şöbəsi var.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında Kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

Ə d ə b i y y a t

Zaqatala rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.1-2.-S.385.

www.azerbaycan-kitabxanalari.az

90 illiyi

Göyçay rayon Kitabxanası 1923



Göyçay rayon kitabxanası 1923-cü ildən fəaliyyət göstərir. Kitabxana M.Ə.Sabirin adını daşıyır.

XX əsrin 70-ci illərində kitabxanaların mərkəzləşməsi ilə əlaqədar olaraq bu kitabxana mərkəz olmaqla rayonda olan kütləvi kitabxanalar mərkəzləşdirilərək MKS yaradılmışdır.

Rayon kitabxanasının əsas vəzifəsi dövlətin siyasətini təbliğ etmək, kitab, jurnal və qəzetlərin, habelə elektron informasiya daşıyıcılarının köməyi ilə elm, texnika, mədəniyyət və incəsənətin bütün sahələrindən məlumat almaq işində rayon əhalisinə, oxuculara kömək etmək, rayonda kitabxana işinin inkişafına və möhkəmləndirilməsinə kömək etməkdir.

Kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası abonement və biblioqrafiya işi, fərdi və kütləvi, şifahi və yazılı vasitələrlə təşkil edilir. Göyçay rayon MKS-nin tərkibində 63 kitabxana və kitabxana filialı fəaliyyət göstərir. Sistem üzrə kitab fondu 398 min 542 nüsxədir.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn tədbirlər sırasında Kitabxanaların avtomatlaşdırılması, elektron kitabxana, elektron kataloq yaradılması üçün kitabxanada İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilmişdir.

Ədəbiyyat

Göyçay rayon Mərkəzləşmiş kitabxana Sistemi [Mətn] // Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.1-2.-S.295.

www.anl.az

85 illiyi

N.Rəfibəyli adına Uşaq Kitabxanası 1928



Kitabxana 1928-ci ildə yaradılmış və S.M.Kirovun adını daşımışdır. 1992-ci ildən N.Rəfibəyli adına Uşaq Kitabxanası kimi fəaliyyət göstərmişdir. Kitabxana 1972-ci ildən Nəsimi rayonu 4-cü mikrorayon Ə.İsgəndərov küçəsi 3 ünvanında yerləşir. Ümumilikdə, kitabxanada 3 şöbə fəaliyyət göstərir. Kitabxananın ümumi fondu 35 799 nüsxədir. Oxucuların sayı 5 025 nəfər, kitab verilişi isə 155 233 kitabdır. Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin "Mərkəzləşdirilmiş kitabxana sisteminin yaradılması haqqında" 27 yanvar 2011-ci il tarixli 4 saylı əmrinə əsasən kitabxananın adı yerləşdiyi rayon üzrə Nəsimi MKS-nin 1saylı filialı adlandırılmışdır.

Ədəbiyyat

N. Rəfibəyli adına Uşaq Kitabxanası [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.I-II.-S.123-127.

www.nesimi-mks.az

85 illiyi

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 1928

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin (MTN) tabeliyindədir. Kitabxana ölkəmizdə Sovet hakimiyyəti bərqərar olandan az sonra yaranmış ilk kitabxanalardan biridir. 1928-ci ildən fəaliyyətə başlayan kitabxana ilk illər çox çətinliklərlə üzləşmiş, onun fondu, müvafiq binası, kadrları demək olar ki, olmamışdır. Çünki o zaman əhalinin az hissəsi savadlı olmuşdu. Qadınların, qızların kitabxanaya gəlişi təsadüfi xarakter daşıyırdı. Qiraətxana kimi fəaliyyətə başlayan kitabxana ilk illər evlərə kitab vermək imkanına belə malik deyildi. Müvafiq ədəbiyyatı toplamaq, kitab fondu yaratmaq, geniş oxucu kütləsini cəlb etmək - 30-cu illərdə onun qarşısında duran ən ciddi problem olmuşdur.

1957-ci ildə kitabxana üçün daha əlverişli bina verilmişdir. İllər keçdikcə, müəssisənin struktur quruluşunda da xeyli dəyişikliklər baş vermiş, qiraətxana kimi fəaliyyətə başlayan kitabxanada sonralar kitab fondu, oxu zalı, abonement söbələri təşkil olunmuş, 1968-ci ildə 4 söbə, 3 filial yaradılmışdır.

1972-ci ildə kitabxananın binası əsaslı təmir olunmuş, genişləndirilmiş, ona yeni otaqlar, oxu zalları əlavə edilmişdir. Bütün bunlar kitabxanaçıları daha yaxşı işləməyə, oxucuların sorğularını operativ ödəməyə imkan yaratmışdır.

C.Cabbarlı adına kütləvi kitabxana Respublika Gənclər Kitabxanasına çevrildikdən sonra onun fəaliyyət dairəsi genişləndirilmişdir, hazırda ölkəmizdə 50-dən çox gənclər kitabxanası fəaliyyət göstərir.

C.Cabbarlı adına Gənclər Kitabxanasının XX əsrin 80-ci illərində apardığı mədəni-kütləvi işlərin əsas məqsədi gənclərin elmi dünyagörüşünün formalaşması istiqamətində siyasi, fəlsəfi, iqtisadi, bədii ədəbiyyatı təbliğ etməkdən ibarət olmuşdur. Kitabxananın 8 söbəsi vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 06 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq kitabxanada həyata keçirilən proseslərin avtomatlaşdırılmasına başlanmış, elektron kitabxana, elektron kataloqun yaradılması həyata keçirilmişdir. Bu məqsədlə İRBİS 64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi 2009-cu il mart ayından tətbiq edilir.

Kitabxanada 2007-ci ilin fevral ayından Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya Komitəsi ilə Rusiyanın hüquqi bazasına açıq, ödənişsiz daxil olmaq razılığı əldə edilmişdir. Bununla əlaqədar Mədəniyyət və Turizm Nazirliyi "İnkişaf naminə təşəbbüs - Qlobal" qeyri hökumət təşkilatı ilə birlikdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında respublikada ilk İctimai Hüquqi İnformasiya Mərkəzi (İHIM) yaratmışdır. Hal-hazırda mərkəzdə Rusiya Federasiyasının "Qanunvericilik toplusu", "Rusiya imperiyasının qanunlar toplusu" və "Hüquqi informasiyaların ictimai və dövri nəşrləri elektron variantda" proqramları ilə işləmək imkanı vardır. Sözügedən bazaya Federal və regional qanunlar, sərəncam və bələdiyyələrin sənədləri daxil edilmişdir.

Ə d ə b i y y a t

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.1-2.-S.24-25.

65 illiyi

Ucar rayon Kitabxanası 1948

Ucar rayonunda kitabxananın təməli 1948-ci ildə qoyulmuşdur. Ucar rayon Mərkəzi kitabxanası 1978-ci ildən Mərkəzləşdirilmiş Kitabxana Sistemi kimi fəaliyyət göstərir. MKS-ə 1 Mərkəzi kitabxana, 6 şöbə, 1 Uşaq kitabxanası, 5 şəhər kitabxana filialı, 40 kənd kitabxana filialı daxildir. Mərkəzi Kitabxanada İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (Elektron kataloq, Elektron kitabxana) tətbiq olunmuşdur.

Ə d ə b i y y a t

Ucar rayon Mərkəzləşmiş Kitabxana Sistemi [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.I-II.-S.380.

www.ucar-mks.webs.com

65 illiyi

Füzuli rayon Kitabxanası 1948

Füzuli rayon kitabxanası 1948-ci ildə yaradılmış, 1978-ci ildən isə öz ətrafında 1 Mərkəzi, 1 uşaq, 1 gənclər, 4 şəhər, 3 qəsəbə, 81 kənd kitabxana filiallarını birləşdirərək Mərkəzləşdirilmiş Kitabxana Sistemi kimi fəaliyyətini davam etdirmişdir.

Həmin kitabxanaların fondları 387 000 kitabdan ibarət olmuşdur. 1993-cü ildə erməni qəsbkarları tərəfindən işğal olunan Füzuli rayonunun 91 kitabxanası öz fəaliyyətini itirərək fondları ilə bərabər tamamilə məhv edilmişdir. 1994-cü ildə rayonun 25 yaşayış məntəqəsi Milli Ordumuz tərəfindən işğaldan azad olunduqdan sonra 33 kitabxana tədricən öz fəaliyyətini başqa məqsədlər üçün bərpa edilmiş ictimai binalarda və şəxsi evlərdə bərpa etməyə başlamışdır.

Kitabxana fondlarını bərpa etmək üçün rayonun tanınmış yazıçı və ziyalılarının hədiyyə etmiş olduqları kitablar, Respublika Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə İmişli, Ağcabədi, Zərdab, Ağsu, Kürdəmir rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemlərindən əvəzsiz olaraq alınan kitablar və jurnallar, bununla bərabər Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana Kollektorundan və Prezident Aparatından alınmış kitablar hesabına MKS-in fondu 35 114 ədədə çatdırılmışdır. Hazırda MKS-də 1 xidmət şöbəsi və 34 kitabxana filialı fəaliyyət göstərir.

Mərkəzi Kitabxana 1994-cü ildən öz fəaliyyətini Mahmudlu - 2 kəndində davam etdirmiş, yerləşdiyi binanın qəza vəziyyətində olduğunu nəzərə alaraq sözü gedən kitabxananın rayonun yeni salınmış birinci Zobucuq qəsəbəsinə köçürülməsi və orada fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə müraciət olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin 08.01.2010-il tarixli 24/03 saylı məktubuna əsasən Füzuli rayon Mərkəzi Kitabxanası 10.01.2010- cu il tarixində birinci Zobucuq qəsəbə mədəniyyət evinin 40 kv/ m olan bir otağına köçürülmüşdür.

Hazırda MKS-də 1 xidmət şöbəsi, 1 şəhər kitabxanası və 31 kənd kitabxana filialları fəaliyyət göstərir. Kitabxanada 3 şöbə fəaliyyət göstərir.

Ünvan: Füzuli rayonu Zobucuq I qəsəbəsi
www.fuzulimks.webs.com

30 illiyi

Cəbrayıl rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1983



Cəbrayıl rayon MKS-i 1983-cü ilin feviral ayında yaranmışdır.

Rayonun erməni silahlı qüvvələri tərəfindən işğalına qədərki dövrdə MKS daim inkişaf etmişdir. Rayonda, 1 rayon Mərkəzi kitabxanası, 1 uşaq, 1 şəhər kitabxanası və 75 kənd kitabxana filialı faliyyət göstərmişdir. Bu kitabxanaların fondunda 352 400 nüsxə kitab və digər çap məhsulları olmuşdur. İşğal nəticəsində kitab fondu məhv olmuş və dağıdılmışdır.

İşğaldan sonrakı dövrdə əhalinin məskunlaşdığı çadır düşərgələrində və digər yaşayış məntəqələrində kitabxanaların fondlarının və fəaliyyətinin bərpa edilməsi üçün mütəmadi olaraq tədbirlər görülmüşdür. Rayon Mərkəzi kitabxanasının və 30 kitabxana filialının fəaliyyəti bərpa edilmiş, öz iş yerlərini itirmiş kitabxana işçilərinin bir qismi işlə təmin edilmişdir. Əvvəllər çadır düşərgələrində fəaliyyət göstərən 11 kitabxana filialı, ulu öndər Heydər Əliyevin 13 may 2002-ci il tarixli 700 № li Fərmanına və Azərbaycan Respulikasının Prezidenti cənab İlham Əliyevin 01 iyul 2004-cü il tarixli 298 saylı Sərəncamına əsasən Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün istifadəyə verilmiş qəsəbələrdə tikilmiş müasir tipli, avadanlıq və mebel dəstləri ilə təchiz olunmuş yeni kitabxana binalarına köçürülmüşdür. Hazırda rayon Mərkəzi Kitabxanasının fondunda 12 063 nüsxə, filialların fondunda 58 580 nüsxə kitab vardır. Bu fondlardan 5 397 nəfər istifadə edir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahılarının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il tarixli Sərəncamları ilə nəşr olunmuş latın qrafikalı kitablar kitabxana fondlarını xeyli zənginləşdirmişdir. 2007-2010-cu illərdə kitabxana fondlarına latın qrafikalı müxtəlif məzmunlu 15 539 nüsxə kitab daxil edilmişdir.

Mərkəzi Kitabxanada İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (Elektron kataloq, Elektron kitabxana) tətbiq olunur.

Ünvan: Biləsuvar rayonu, qaçqın şəhərciyi

Ə d ə b i y y a t

Cəbrayıl rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi [Mətn] // Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.-Bakı, 2007.-C.1-2.-S.277.

www.azerbaycan-kitabxanalari.az

www. cebrayilmks.word-press.com

www.mct.gov.az

10 illiyi

Prezident Kitabxanası 2003



Ədəbiyyat

Əhmədov, M. Azərbaycanda ali dövlət qurumlarına kitabxana - informasiya xidməti göstərən iri kitabxanalar [Mətn] /M.Əhmədov //Türk Konseyi (Azerbaycan – Kazakistan – Kirgizistan – Türkiye): Kütübhaneleri mevcut durum, sorunlar ve öneriler sempozyumu . - Ankara, 2012.- S.203-219.

Nizamiqızı, G. Zəngin kitab aləmi: Prezident Kitabxanasından xoş təəssüratla [Mətn] /G.Nizamiqızı //Mədəniyyət .- 2011.- 25 noyabr.- S.11.

Məmmədov, Ə. Dövlət müstəqilliyimizin bərpasının 20 illiyinə dəyərli hədiyyə [Mətn] /Ə.Məmmədov // Xalq qəzeti.-2011.-29 dekabr.-S.8.

Prezident Kitabxanası [Mətn] //Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında.- Bakı, 2007.- C.I-II.- S.14-17.

İnternetdə

www.azerbaycan-kitabxanalari.az

www.preslib.az

www.mct.gov.az

2003-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin iki ən qədim kitabxanasının - Mərkəzi Şəhər kitabxanası (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Təsərrüfat şöbəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin kitabxanası) bazasında yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2009-cu il tarixli Sərəncamı ilə Prezident Kitabxanasına Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusu verilmişdir. Kitabxana 5 şöbə, 7 bölmə, 5 zal vasitəsilə fəaliyyət göstərir.

Kitabxananın fondunda XVI - XIX əsrlərdə və XX əsrin əvvəllərində nəşr olunmuş müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda iqtisadiyyata, siyasətə, dövlət quruculuğuna, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair ədəbiyyat üstünlük təşkil edir. Kitabxananın dövri mətbuat fonduna respublikamızda və digər ölkələrdə çap edilən 250 adda jurnal, qəzet və digər dövri nəşrlər daxil olur. Hazırda Kitabxanada fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir.

Kitabxanada müasir informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verilir. Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İnternetə çıxış təmin edilmişdir. Kitabxanada İRBİS Kitabxana Avtomatlaşdırılma Sisteminin son versiyasının (İRBİS 64) tam komplekti tətbiq edilmişdir. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem həm də oxuculara kitabxanada hazırlanmış tammətnli verilənlər bazasından istifadə etməyə imkan verir. Bundan əlavə, hər bir İnternet istifadəçisi Kitabxananın Web səhifəsi vasitəsi ilə onun Elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilər.

Kitabxanada Azərbaycan, rus və digər dillərdə olan ədəbiyyatı əks etdirən əlifba və sistemli kataloq tərtib edilmişdir. 2003-cü ildən etibarən Kitabxananın aldığı bütün kitablar haqqında məlumat Elektron kataloqa (EK) daxil edilir. 2004-cü ildən isə fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialların biblioqrafik təsvirləri də EK-nın tərkibindəki ayrı bir verilənlər bazasına daxil edilir. Kitabxanada müxtəlif təyinatlı biblioqrafik vəsaitlər də tərtib və nəşr edilir. EK-dan və biblioqrafik vəsaitlərin elektron variantlarından həm də Kitabxananın Web səhifəsi ilə də istifadə etmək olar. Kitabxana öz istifadəçilərinə tam həcmdə soraq-biblioqrafiya və biblioqrafik informasiya xidməti göstərir. Xüsusi oxucu qruplarına elektron poçt (E-mail) vasitəsilə də biblioqrafik informasiya xidməti göstərilir.

Kitabxanada ənənəvi kitabxana-biblioqrafiya xidmətləri ilə yanaşı, İnternetdən istifadə, müxtəlif təqdimatlar və mətbuat konfranslarının keçirilməsi, skaner, surətçıxarma, laminasiya və s. əlavə xidmətlərdən də istifadə edilir.

260 illiyi Britaniya muzeyi 1753



Britaniya muzeyi - Böyük Britaniyanın və dünyanın ən böyük muzeylərindən biridir.

Bu muzey 1753-cü ildə təşkil edilmiş, lakin açılışı 1759-cu ildə edilmişdir. Bina isə 1823 - 1847 ci illərdə tikilmiş, memarı R.Smyork olmuşdur. XVIII əsrdən etibarən İngiltərənin ən mühüm mərkəzlərindən birinə çevrilmişdir. İlk muzey təsis edildiyi dövrdə Montaqyo (Montagu House) adlandırılan binada fəaliyyətə başlamış, indiki binasına köçənə qədər bir çox korpuslarda yerləşdirilmişdir.

Muzeydə məşhur Rozetta daşı, müxtəlif rəsmlər, qravyura sənətinə aid olan məmulatlar, medal, qəpik və kitablar saxlanılır. Müxtəlif epoxlara aid edilən mədəniyyət nümunələri, antik abidələr, orta əsr dövrlərini əhatə edən, hətta İntibah dövrünün də nümunələrinə rast gəlmək mümkündür.

Britaniya muzeyinin kitabxanasında 7 milyondan artıq çap edilmiş kitab vardır, həmçinin 105 min əlyazma, təxminən 100 min xartiya (1. filol. papirus və ya perqamentdə qədim əlyazısı; 2. bu yazının yazıldığı material; 3. ictimai-siyasi cəhətdən əhəmiyyəti olan bəzi sənədlərin adı) və məktublar, 3 mindən çox papiruslar vardır.

Britaniya muzeyinə edilən girişlərin hamısı pulsuzdur. 1926-cı ildən etibarən Britaniya muzeyi "British Museum Quarterly" adlı jurnal dərc edir. Muzey Bloomsbury-də (London) üç kolleksiyanın əsasında fəaliyyətə başlamışdır. Bunlara britaniyalı məşhur həkim və naturalist olan Hensa Slouna (Sir Hans Sloane), qraf Robert Harli (Robert Harley), həmçinin, kitabxanaçı Robert Kotton (Sir Robert Cotton) aid edilir. Muzey özündə 10 bölməni birləşdirir, bizim eradan əvvəl, misir, yunan, roma, britaniya, orta əsrlər, İntibah, Şərq, numizmatika və Britaniya kitabxanasından təşkil edilmişdir.

Numizmatika bölməsi müxtəlif ölkələrin və epoxların qəpik və medallarından ibarətdir. Hətta kral IV Georginin də kolleksiyasına burada rast gəlmək olar.

Britaniya muzeyindəki etnoqrafik kolleksiya bölməsində Afrika, Amerika, Okeaniya və bir çox xalqların mədəniyyətini özündə əks etdirən abidələrə rast gəlinir.

Britaniya muzeyi ümumilikdə 94 qalareyadan ibarətdir və uzunluğu 4 km-ə çatır. Hans Sloun qəpik və antik əşyalarla yanaşı çoxlu sayda heykəltəraşlıq nümunələri, müxtəlif heyvan, quş fiqurları, həmçinin herbari və dövlətə xas olan əşyalar da saxlayırmış.

Muzey binasının əhatə etdiyi sahə 6 hektardan çoxdur və Londonun mərkəz küçələrindən birində yerləşir. Həmişə kitab oxumaq üçün müraciət edənlərin sayından asılı olaraq 1854-1857 ci illərdə böyük həcmdə və dairəvi formaya malik olan oxu zalı tikilmişdi. Burada, həmçinin, film saxlanılması adlanan yer də fəaliyyət göstərmişdir. Zalın hündürlüyü 32,2 m, diametri isə 42,7 m hesablanmışdır.

1881-1883-cü illərdə bura daxil olan flora və fauna, geoloji və paleontoloji kolleksiyaların çoxluğu nəticəsində Təbiət Tarixi Muzeyi adlandırılan yeni spesefik bina ucaldılmışdı. II Dünya müharibəsi illərində muzeyin bütün eksponatları ərazidən evoukasiya edilmiş, muzey binası hava uçuşlarından çoxsaylı ziyan görmüşdü. Bir neçə zal, həmçinin oxu zalının da hissələri dağıdılmışdı. Uzun illər müddətində muzey özünün tikintisini və ekspozisiyalarını bərpa etməyi bacarmışdı.

Ə d ə b i y y a t

Britaniya Milli Muzeyi. Dünya muzeyləri [Mətn] //Mədəniyyət.- 2010.- 14 iyul.- S. 12.

www.az.wikipedia.org

90 illiyi "Şərq qadını" 1923



1923-cü ilin noyabr ayında Azərbaycan Qadınlar Şurasının orqanı olan "Şərq qadını" (indiki "Azərbaycan qadını") jurnalının ilk sayı çap olunmuşdur.

Ayna Sultanova jurnalın ilk redaktoru olmuşdur. Ərəb əlifbası ilə çap olunan "Şərq qadını" qadınlara azadlıq, bərabərlik ideyaları aşılayır, maarif və mədəniyyətdən yazırdı. Amma bütün bunların hamısı kommunizm ideologiyasının süzgəcindən keçirilib oxuculara təqdim olunurdu.

"Şərq qadını" tərəqqipərvər müəllimlərin və ictimai xadimlərin qüvvəsinə arxalanaraq qadın təhsilinin, məktəbəqədər tərbiyənin mühüm problemlərinin həllində görkəmli rol oynamışdı. Azərbaycanda qadınların, qızların təhsili, qız məktəblərinin, kursların təşkili, burada aparılan təlim-tərbiyə işi məsələlərinə jurnal səhifələrində müntəzəm yer verilmişdi.

"Şərq qadını"nın bir tarixi rolu da odur ki, o azad nəfəsli, xoş məramlı mətbuat orqanının ətrafında Azərbaycanın bütün savadlı, oxumuş, mübariz qadınları toplaşmışdılar. Jurnal qadın publisistlərin, şair və yazıçıların yetişməsi üçün bir məktəb rolunu oynamış, elmə, mədəniyyətə, incəsənətə, təbabətə marağı olan qadınların, qızların ilk məqalələri jurnalın səhifələrində dərc edilmişdi. Azərbaycanın ilk yazıçı və jurnalist qadınları ilə bərabər görkəmli bədii söz ustaları - C.Məmmədquluzadə, S.S.Axundov, A.Şaiq, S.Hüseyn, Y.V.Çəmənzəminli, T.Şahbazi, H.Cavid, Qantəmir, B.Talıblı, H.Nəzərli və başqa yazıçıların öz hüquqları uğrunda mübarizəyə qoşulan qadınlarımızın həyatlarına həsr etdikləri hekayə və şeirləri tez-tez çap olunurdu.

Bundan sonra, 1938-ci ilin fevralından etibarən "Şərq qadını"nın adı da dəyişdirilərək "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlamışdı. O Azərbaycan KP Mərkəzi Komitəsinin ictimai-siyasi və ədəbi-bədii aylıq jurnalı olmuşdu.

Jurnal 2009-cu ilin mayından təzə tərtibatla nəşrinə davam edib.

Hazırda böyük ənənəsi və geniş oxucu auditoriyası olan "Azərbaycan qadını" jurnalı Prezident Administrasiyasının humanitar siyasət şöbəsinin rəhbəri Fatma Abdullazadənin baş redaktorluğu ilə işıq üzü görür. Ölkənin ictimai həyatında mühüm rol oynayan, elmimizin, mədəniyyətimizin inkişafına təkan verən tədbirlər, eləcə də müasirlərimiz haqqında maraqlı müsahibələr jurnalın səhifələrini bəzəyir.

İndi ildə dörd dəfə oxucuların görüşünə gələn jurnal hər nömrəsi 5000 tiraj olmaqla Azərbaycan və rus dillərində nəşr olunur.

Bu gün 90 yaşlı və olduqca cazibədar "Azərbaycan qadını" yoluna davam edir. Bu uzun yolun əvvəlində onu daha çox zərif cinsin nümayəndələrinin saysız-hesabsız problemləri düşündürürdüsə, indi jurnal müasir Azərbaycan qadınının simasını, uğurlarını, qabaqcıl təcrübəsini geniş auditoriyaya təqdim etməyə can atır.

Ədəbiyyat

Azərbaycan qadınının səadəti [Mətn] : "Azərbaycan qadını" jurnalının 50 illiyinə həsr olunmuş təntənəli yubiley iclasının materialları : 14 may 1974-cü il /burax. məs. Ə. Əhmədova.-Bakı: Azərnəşr , 1974. - 76

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.qadin.net

35 illiyi

Cəlil Məmmədquluzadənin ev-muzeyi 1978



Azərbaycan xalqının böyük oğlu, görkəmli yazıçı, qüdrətli dramaturq, xalq müəllimi, ictimai xadim, demokrat, publisist və fədakar jurnalist, Şərqdə ilk şəkilli – satirik "Molla Nəsrəddin" jurnalının yaradıcısı və 25 illik bir dövrdə redaktoru olmuş Cəlil Məmmədquluzadənin ev-muzeyi onun 1921-1932-ci illərdə Bakıda yaşayıb yaratdığı mənzildə (Süleyman Tağızadə küçəsi 56, tarixi adı Köhnə Poçt küçəsi, 64) Azərbaycan Dövlətinin və hökumətinin müvafiq qərarı ilə 1978-ci ildə yaradılmışdır.

Muzeyin yerləşdiyi bina XIX əsrin axırları XX əsrin əvvəllərinə aid tarixi memarlıq və mədəniyyət abidəsidir.

1994-cü il dekabr ayının 28-də ədibin ev-muzeyinin ekspozisiyasının açılışı olmuşdur. Açılışda ulu öndər Heydər Əliyev, hökumət və dövlət nümayəndələri, görkəmli yazıçılar, görkəmli mədəniyyət və incəsənət xadimləri iştirak etmişlər.

Ümumi sahəsi 185 kv.metr olan muzeyin ekspozisiyası 96 kv.metr sahədə yerləşdirilmişdir və 5 zaldan ibarətdir.

Birinci otaq – ədibin uşaqlıq, gənclik və təhsil illərini, məktəbdarlıq fəaliyyətini, ilk yaradıcılıq addımlarını, ictimai mühitini və jurnalistik fəaliyyəti – "Molla Nəsrəddin" jurnalının nəşrini əks etdirən materiallarla zəngindir.

İkinci otaq – Memorial cəhətdən qonaq otağıdır. Bütün digər otaqlar kimi əsasən memoriallığı saxlanmışdır. Bu otaq Cəlil Məmmədquluzadənin ailəsinə aid olan ev əşyaları ilə bərabər ədibin ilk jurnalistik fəaliyyətinin, hekayə yaradıcılığını əks etdirən materiallarla zəngindir. Burada, həm də görkəmli rəssamların C.Məmmədquluzadənin əsərləri mövzusunda işlədikləri təsviri sənət nümunələri öz əksini tapmışdır.

Üçüncü otaq – yataq otağıdır. Bu otaqda ədibin şəxsi əşyaları və ailə həyatı ilə bağlı materiallar nümayiş olunur.

Dördüncü otaq - ədibin dramaturgiyasını, bədii nəsrini, "Molla Nəsrəddin" jurnalının Tiflis və Təbriz dövrünü əks etdirən tarixi sənədlər, fotolar, təsviri əsərlər və digər materiallarla zəngindir.

Beşinci otaq – ədibin iş otağı – "Molla Nəsrədddin" jurnalının redaksiya otağıdır. Bu otaqda nümayiş olunan materiallar ədibin həyat və yaradıcılığının 1922 -1932-ci illər dövrünü əhatə edir. "Molla Nəsrəddin" jurnalının bu dövrdəki fəaliyyəti, ədibin mühiti, mollanəsrəddinçilər, Cəlil Məmmədquluzadənin tədqiqatçıları ilə bağlı materiallar öz əksini tapmışdır.

Otaqda tamaşaçılar həm də Cəlil Məmmədquluzadənin dünya şöhrətini əks etdirən xəritə ilə tanış ola bilərlər. Muzey fəaliyyətə başladığı ildən (1978) bu günə qədər onun əsas fondunda ədibin və digər mollanəsrəddinçilərin həyat və yaradıcılığını əks etdirən 5000-dən yuxarı eksponat toplanmışdır.

Ə d ə b i y y a t

Rüstəmli, T. C.Məmmədquluzadənin ev-muzeyində açıq qapı günü [Mətn] /T.Rüstəmli //Xalq qəzeti .-2011.- 29 sentyabr.- S. 7.

İ n t e r n e t d ə

www.anl.az

www.memmedquluzade.az

www.mct.gov.az

15 illiyi

Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyi 1998



Leopold və M.Rostropoviçlərin ev-muzeyi dünya şöhrətli violonçelist, dahi şəxsiyyət M.Rostropoviçin anadan olduğu və uşaqlıq illərini keçirdiyi evdə yerləşir. Muzeyin ekspozisiyasında M.Rostropoviçin uşaqlıq, gənclik, həyat və yaradıcılıq illərinin çiçəkləndiyi dövrləri əks etdirən maraqlı materiallar nümayiş etdirilir. Muzeyin ekspozisiyası iki hissədən ibarətdir. Birinci hissədə Rostropoviçlər ailəsinin yaşadığı evin ab-havası, o dövrkü mühit əks etdirilmişdir. Muzeydə nümayiş olunan eksponatlar arasında L. Rostropoviç tərəfindən oğluna yazdığı (1942-ci il) məktub da vardır. Bu məktub M.L Rostropoviç üçün hər bir zaman mənəvi dayaq rolunu oynamışdır. Ekspozisiyanın ikinci hissəsində M.L.Rostropoviçin həyat və yaradıcılıq fəaliyyətinin ən mühüm anları, eyni zamanda onun Bakı ilə əlaqələrini təsdiqləyən materiallar nümayiş olunur. Muzeydə M.Rostropoviç haqqında olan filmlər, maestronun ifası ilə yazılmış audio kassetlər və disklər vardır.

Ə d ə b i y y a t

İskəndərov, E. Mstislav Rostropoviçlə keçən unundulmaz günlər [Mətn] //Musiqi dünyası.-№1.-2011.-S.1.

www.rostropovich.aznet.or

10 illiyi

Ağgöl Milli Parkı 2003

Ağgöl Milli Parkı 2003-cü ildə yaradılmış, sahəsi 17, 924 hektardır.

Kür-Araz Ovalığının Mil Düzənliyi, Kür çayının sağ sahili boyu ərazidə yerləşən gölə Ağ göl adı çox güman ki, yüksək şoranlığa malik olan dayaz subataqlıq ərazisinin yay mövsümündə quruması, duz qatının üzə çıxması və uzaqdan ağarараq ağ səth effekti yaratması nəticəsində verilmişdir. Ərazinin qocaman sakinlərinin sözlərinə görə əvvəllər yerli sakinlər yay vaxtı buradan xörək duzu hasil edirlərmiş.

Təbiət Qoruğunun yaradılmasında əsas məqsəd Ağgöl və onun ətraf ərazilərində məskunlaşan yerli və köçəri su-bataqlıq quşlarının, xüsusilə, məməli heyvanların və onların yaşayış yerlərinin (biotoplarını) davamlı inkişafını təmin etməkdən ibarətdir. Ümumilikdə, 500 mindən çox quşun qışladığı bu ərazidə 140 növdən çox quş məskunlaşır, 87 növ quş yumurta qoyaraq bala verir. Burada rast gəlinən quşların 30 növünün adı "Azərbaycanın Qırmızı Kitabı"na salınmışdır.

Ə d ə b i y y a t

İbrahimov, T. Azərbaycan qoruqlarının landşaftı [Mətn]: iki hissədə /T. İbrahimov; elmi red. Ş.Göyçaylı; BDU, Coğrafiya fakültəsi.-Bakı: Mars-Print, 2010.-Hissə 1.- 336 s.

www.eco.gov.az

Kitabxanaçılıq-informasiya fakültəsinin 50 illiyi münasibətilə

Dünya şöhrətli kitabxanaşünas alimi

Abuzər Alı oğlu Xələfov



Ə d ə b i y y a t

Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir [Mətn] /A.Xələfov; lay. rəhb. Ə.Qarayev.- Bakı, 2009.- 185s.

XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işinin tarixi [Mətn]: Azərbaycanda kitabxana işinin tarixi: üç hissədə: dərslik .- Bakı, 2007.- H.2.- 552 s.

XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi [Mətn]: Azərbaycanda kitabxana işinin tarixi: üç hissədə: dərslik /A.Xələfov.- Bakı, 2010.- H.3.- 431 s.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 90 il elm və təhsilin xidmətində [Mətn]: [monoqrafiya] /A.Xələfov.- Bakı, 2009.-208 s.

Kitabxana və cəmiyyət [Mətn]: [monoqrafiya] /A.Xələfov.- Bakı, 2011.- 348 s.

Abuzər Xələfov [Mətn]: biblioqrafik məlumat kitabı /tərt. S.Sadıqova.- Bakı, 2011.- 342 s.

www.anl.az

www.bsu.edu.az

Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabrın 25-də Qərbi Azərbaycanda – Göyçə mahalının Cil kəndində anadan olmuşdur. O, əvvəlcə Cil kənd yeddiillik məktəbində, sonra isə Toxluca kənd orta məktəbində təhsil almış, eyni zamanda Böyük Vətən müharibəsi illərində kolxozda işləmişdir.

1950-ci ildə orta təhsilini başa vurmuş, elə həmin il Bakı Dövlət Universitetinin filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olmuşdur. 1955-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamış, perspektivli kadr kimi Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasında müəllim vəzifəsində saxlanılmışdır.

1962-ci ildə professor A.Xələfovun fəal iştirakı və xidməti sayəsində BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilmiş və gənc tarix elmləri namizədi, dosent A.Xələfov həmin fakültənin ilk dekanı seçilmişdir. O, 1962-ci ildən 1970-ci ilə və 1980-ci ildən 1995-ci ilə qədər, yəni 25 il bu fakültənin dekanı olmuş, onun formalaşması və inkişafı naminə mühüm xidmətlər göstərmişdir. A.Xələfov eyni zamanda 1963-cü ildən indiyədək, yəni yarım əsrə yaxındır ki, Kitabxanaşünaslıq kafedrasının müdiri kimi səmərəli faəliyyət göstərir.

A.Xələfov ilk dəfə olaraq 1961-ci ildə "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" mövzusunda namizədlik, 1975-ci ildə isə "Azərbaycanda kitabxana işinin tarixi (1935-1959)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək təkcə Azərbaycanda deyil, eləcə də Sovet İttifaqı məkanında kitabxana işi sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Bu dissertasiya ölkəmizdə kitabxana tarixinə dair ilk fundamental tədqiqat kimi alimə böyük nüfuz qazandırmışdır. Professor A.Xələfov bütün ömrünü respublikamızda kitabxana işi tarixinin öyrənilməsinə həsr etmiş, sanballı monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və s. nəşr etdirmişdir. Bunlardan "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" (1960); "Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)" (1960); "Azərbaycanda kitabxana işinin tarixi (1933-1959)" (1974); "Kitabxanaşünaslığa giriş" (3 hissədə; 2001-2003), "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" (2006), "Azərbaycanda kitabxana işinin tarixi" (2004-2010), "Kitabxana və cəmiyyət" (2011), və s. kimi fundamental əsərlər mühüm əhəmiyyətə malikdir.

Professor A.Xələfov kitabxanaşünaslıq-biblioqrafiya elmi sahəsində mütəxəssis elmi-pedaqoji kadrların hazırlığında da əvəzsiz rol oynamışdır. O, Azərbaycanda kitabxanaşünaslıq elmi sahəsində xüsusi elmi məktəb yaratmış, 1 doktorluq və 20 namizədlik dissertasiyası məhz onun elmi rəhbərliyi ilə müdafiə edilmişdir. Tanınmış alim eyni zamanda 25 nəfər elmlər namizədi və elmlər doktorunun hazırlanmasında elmi məsləhətçi və ya opponent kimi xüsusi fəallıq

göstərmişdir.

Hörmətli alim uzun illər ərzində Moskva şəhərində fəaliyyət göstərmiş kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq üzrə yeganə doktorluq dissertasiyalarının müdafiəsi üzrə vahid ixtisaslaşdırılmış şuranın üzvü kimi də səmərəli fəaliyyət göstərmişdir. O, həmçinin, Moskva, Daşkənd, Tiflis və başqa şəhərlərdə mədəniyyət, kitabxana işi quruculuğu, kitabxanaşünaslıq tarixi və nəzəriyyəsi problemləri üzrə müdafiə edilmiş bir çox namizədlik və doktorluq dissertasiyalarının opponenti, yaxud müdafiə şuralarının üzvü kimi milli kitabxanaşünaslıq elmimizi uğurla təmsil etməyi bacarmışdır.

Beləliklə, prof. A.A.Xələfovun zəngin yaradıcılıq yolu, elmi ictimaiyyətin dərin rəğbətini qazanan, görkəmli ziyalı, alim, müəllim, fədakar elm, mədəniyyət və təhsil xadiminin keçdiyi şərəfli yoldur. Bu uğurlu yolun yolçusu olan prof. A.Xələfov öz zəngin elmi fəaliyyəti dövründə 350 çap vərəqi həcmində 35 kitab, 300 dövri mətbuat əsəri çap etdirməyə müvəffəq olmuşdur.

Əmək və müharibə veteranı olan professor A.Xələfovun Vətən və cəmiyyət qarşısındakı, elm, mədəniyyət və təhsilin inkişafındakı xidmətləri dövlət orqanlarının və bir sıra ictimai təşkilatların xüsusi mükafatları, medalları və fəxri fərmanları ilə dəyərləndirilmişdir. Belə ki, o, 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2001-ci ildə isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir.

Görkəmli alim A.Xələfov 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə elm və təhsil sahələrindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Hazırda professor A.Xələfov Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Vahid Elmi-Metodik Şurasının "Kitabxanaşünaslıq və biblioqrafiya" bölməsinin sədri, BDU-nun Böyük Elmi Şurasının üzvü, BDU-nun Ağsaqqallar Şurasının sədri, "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktorudur.

Professor A.Xələfov 2000-ci il fevralın 15-də BMT yanında Beynəlxalq Informasiyalaşdırma Akademiyasının müxbir üzvü, 2001-ci il fevralın 20-də isə həmin akademiyanın həqiqi üzvü – akademiki seçilmişdir. Dünyanın bir sıra dövlətlərinin başçılarının, görkəmli mütəxəssislərin, elm və mədəniyyət xadimlərinin də həmin beynəlxalq miqyaslı qurumun üzvü olması Azərbaycan aliminin dünyada tanınmasını bir daha təsdiq edən mühüm faktlardan biridir.

Məşhur alim eyni zamanda 2001-ci ildə Amerika Bioqrafiya İnstitutunun nəşr etdirdiyi "Görkəmli liderlərin beynəlxalq soraq kitabı"nın XI nəşrinin nominantı seçilmiş, fəxri fərman və qızıl medalla təltif edilmişdir.

Professor Abuzər Xələfovun Azərbaycan Jurnalist Həmkarlar İttifaqının "Qızıl Qələm" fəxri media mükafatına və AzərKİVHİ-nin "İlin nüfuzlu ziyalısı" fəxri diplomuna layiq görülməsi də onun Vətən və xalq qarşısında xidmətlərinə verilən qiymət kimi çox dəyərlidir.

Abuzər Xələfov İslam aləminin müqəddəs yerlərini ziyarət etmiş görkəmli ziyalılarımızdan biridir. Belə ki, o, 1998-ci ildə Həcc ziyarətində, 1999-cu ildə Məşhəd ziyarətində, 2001-ci ildə Kərbəla ziyarətində olmuşdur.

Professor A.Xələfovun xidmətlərini nəzərə alan Azərbaycan dövləti, respublika ictimaiyyəti və Bakı Dövlət Universitetinin kollektivi görkəmli alimin 70 və 80 illik yubileylərini böyük təntənə ilə qeyd etmişdir.

Beləliklə, Azərbaycan mədəniyyət tarixi istiqamətində əldə etdiyi mühüm elmi nəticələr, müasir tarix elminin aparıcı alimləri arasında xüsusi nüfuz və söz sahibi olması professor A.Xələfovun yüksək reytinqə malik olduğunu sübut edən əsas amillərdəndir.

Bu gün professor Abuzər Xələfov ömrünün müdriklik çağlarını yaşayır. İnanırıq ki, təkcə Azərbaycanda deyil, həmçinin yaxın və uzaq xarici ölkələrdə yaxşı tanınan görkəmli alimimiz bundan sonra da Azərbaycanın kitabxanaşünaslıq elmini özünün yeni-yeni sanballı əsərləri ilə daha da zənginləşdirəcəkdir.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor Abuzər Xələfova möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri və bütün işlərində uğurlar arzulayırıq!

Əlifba göstəricisi

A

Abasov Bəybala Xutkar oğlu---------- 317
Abbasquliyev Əbülfəz Həsən oğlu ---------- 384
Abbasov Adil Seyfulla oğlu ---------- 252
Abbasov Aqil Məhəmməd oğlu----------112, 115
Abbasov Əli Məmməd oğlu----------8, 29
Abbasov Hacıağa Mütəllib oğlu --------- 177,188
Abbasov İsrafil İsmayıl oğlu ----------38
Abbasov Qəzənfər Əli oğlu ---------- 163
Abbasov Məzahir Həmid oğlu ---------- 349
Abbasov Soltan İsrafil oğlu (Soltan Abbas)- 349
Abdulla Sur (Abdulla Tofiq-Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə) ----- 206,209
Abdulla Vəlağa oğlu (Abdulla Bəy Divanbəyoğlu) ---------- 7
Abdullabəyov Həmidulla Ağabəy oğlu ------ 178
Abdullayev Arif Yadulla oğlu ---------- 226
Abdullayev Gülhüseyn Hüseyn oğlu--- 274, 280
Abdullayev Həsən Məmmədbağır oğlu- 226,241
Abdullayev İlyas Kərim oğlu ---------- 94, 73
Abdullayev Qasım İbrahim oğlu---------- 385
Abdullayev Namiq Ələkbər oğlu ----------70
Abdullayev Rəşid Nəcəfqulu oğlu---------- 7
Abdullayev Şakir Zakir oğlu ---------- 347
Abdullayev Vahid Əli oğlu ---------- 177
Abdullayeva Tamilla İslam qızı---------- 348
Abdullazadə Fatma Hüseyn qızı--------- 142,161
Abşeron rayonunun təşkil edilməsi -------- 8, 31
ABŞ-da insanın genetik xəritəsi ---------- 350
Abutalıbov Müzəffər Heydər oğlu ------ 350,374
Adan (Adam) Adolf Şarl---------- 207
Adıgözəlov Telman Abbasqulu oğlu --------- 207
Adıgözəlov Zülfü Səməd oğlu ---------- 141,152
Adoratski Vladimir Viktoroviç---------- 226
Ağababayev Tofiq Məmmədəli oğlu --------- 251
Ağabəyov Məmmədhüseyn Heydər oğlu---- 349
Ağahüseynov Tofiq Yaqub oğlu---------- 39,58
Ağalar Bilal oğlu (Aşıq Ağalar) ---------- 140
Ağalarov Əliqulu Behbud oğlu ---------- 73,97
Ağamirzadə Hacı Mirəhməd oğlu ---------- 384
Ağayev Əliağa İsmayıl oğlu---------- 72,88
Ağayev Emil Güləli oğlu ---------- 274
Ağayev Tofiq Hüseynbala oğlu ---------- 176
Ağayeva Şəfiqə Əli qızı---------- 206
Ağgöl Milli Parkının yaradılması ------ 391, 420
Ağdam rayonunun işğalı ---------- 208,222
Ağdaş rayon Kitabxanasının yaradılması 389,411
Ağdərə (Mardakert) rayonunun işğalı ------- 208
Ağqoyunlu dövlətinin yaranması ---------- 390
Ağsu qəsəbə kitabxanasının açılması -------- 389
Ağsu rayonunun yaradılması ---------- 277,308
Axundov Abdulla Qasım oğlu ---------- 226
Axundov Davud Ağa oğlu----------39,50
Axundov Əhliman Əli oğlu ---------- 384
Axundov Mirzə Əbdülxalıq Hacı Abdulla oğlu ---------- 389, 409
Axundov Səfa Fətulla oğlu ---------- 177, 191
Axundov Şirin Məşədi Hüseyn oğlu --------- 385
Axundova Elmira Hüseyn qızı---------- 140,147
Axundova Naimə Vəli qızı ---------- 285
Axundzadə Əbdüssəlam Axund Vəliməmməd oğlu ---------- 388
Axundzadə Mirzə Məmmədsadıq Səmih oğlu (Məmmədsadıq Aran) ---------- 384
Aqnon (Çaçkes) Şmuel Yosef---------- 206,211
Alfred Bernhard Nobel---------- 276, 303
Allahverdiyev Elbrus Hacı oğlu -------- 252, 267
Allahverdiyev Əliheydər Nəcəfqulu oğlu --- 208
Almaszadə Ənvər Hacağa oğlu ---------- 385
AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun yaranması--------- 391
Anderson Filip Uorren ---------- 349
Ankara Türkiyənin paytaxtı olmuşdur ------ 276
Anri Mari Beylin (Stendal)----------5,12
Arakişvili Dmitri İqnatyeviç ----------39
Arazov Ənvər Talış oğlu---------- 348, 364
Aslanov Hamlet Qurbanəli oğlu ---------- 349
Aşıq Cəfərov Cəfər Məmiş oğlu (Çobankərəli Cəfər) ---------- 385
Aşıq Hüseyn Bozalqanlı (Quliyev Hüseyn Cəfərqulu oğlu)------ 385, 395
Aşıq Mirzə Əhməd oğlu Bayramov (Aşıq Mirzə)---------- 140
Aşumova İradə Süleyman qızı----------40
Atakişiyev Aslan Qabil oğlu ---------- 225, 339

Atayev Əlirza Əsgər oğlu---------- 389
Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə Beynəlxalq Bakı Konfransının keçirilməsi---------- 253
Avropa İnsan Haqları Məhkəməsinin təsis edilməsi ---------- 317
Aytmatov Çingiz Torekuloviç---------- 347, 353
Ayvazov Ayvaz (Eyvaz Borçalı) Məhəmməd oğlu ---------- 140
Azərbaycan (türk) dilinin Azərbaycan Cümhuriyyətinin dövlət dili elan edilməsi -- 179
Azərbaycan Akademik Milli Dram Teatrının yaradılması----------74, 100
Azərbaycan Alpinizm Federasiyasının yaradılması---------- 391
Azərbaycan Arxeologiya Komitəsinin təşkil olunması---------- 390
Azərbaycan aşıqlarının II qurultayı ---------- 74
Azərbaycan Atletika Federasiyası ---------- 390
Azərbaycan Bayrağı Günü ---------- 317
Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının ilk tamaşası- 277
Azərbaycan Bəstəkarlar Birliyinin Naxçıvan Muxtar Respublika Təşkilatı ---------- 391
Azərbaycan Cümhuriyyəti Milli Şurası və Hökumətinin Tiflisdən Gəncəyə köçürülməsi ---------- 179
Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı ---------- 350
Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağının qəbul edilməsi ----------317,339
Azərbaycan Demokratik Respublikası hökumətinin Bakıda əskinasların dövriyyəyə buraxılması haqqında qərarı---------- 254
Azərbaycan Dəmir Yolunun yaradılması ---- 390
Azərbaycan Dillər Universitetinin kitabxanasının açılması---------- 389
Azərbaycan Dizaynerlər İttifaqı ---------- 114
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanası ---------- 389
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) ----------74, 107
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ---------- 222, 246
Azərbaycan Fotoqraflar Birliyinin (AFB) yaradılması---------- 318
Azərbaycan Güləş Federasiyası ---------- 391
Azərbaycan Hərbi Hava Qüvvələri Günü ---------- 41, 64
Azərbaycan Xalq Cümhuriyyəti-95 ---------- 144
Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi haqqında qərarı ---------- 227
Azərbaycan İncəsənəti Dekadası ---------- 391
Azərbaycan Kinematoqrafçılar İttifaqı------- 391
Azərbaycan Kinosu Günü ---------- 226, 243
Azərbaycan Opera və Balet Teatrı---------- 390
Azərbaycan Parlamentinin MDB-yə üzv olmaq bərədə qərarının qəbul edilməsi - 254
Azərbaycan Polisi Günü ----------208,218
"Azərbaycan Respublikasında söz, fikir azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı---------- 227
Azərbaycan Respublikası Dövlət Səsyazmaları Arxivinin yaranması---------- 391
Azərbaycan Respublikası ilə Braziliya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 26-da tanıyıb) arasında diplomatik münasibətlər ---------- 277
Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hüquqi yardım haqqında Sazişin imzalanması----------41
Azərbaycan Respublikası ilə Malayziya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabın 31-də tanımışdır) arasında diplomatik əlaqələrin qurulması---------- 114
Azərbaycan Respublikası İordaniya ilə diplomatik əlaqələr qurmuşdur----------41
Azərbaycan Respublikası Prezidenti İlham Heydər oğlu Əliyevin andiçmə günü--------- 277
Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin "Prezident kitabxanası" ------ 390,416
Azərbaycan Respublikası Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə İlham Əliyevin qələbəsi ---------- 277
Azərbaycan Respublikası Təhsil Nazirliyi -- 253
Azərbaycan Respublikasında insan hüquqları sahəsində ilk fundamental sənədin "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın qəbul olunması ---------- 179
Azərbaycan Respublikası Albaniya ilə diplomatik

əlaqələrinin qurulması---------- 254
Azərbaycan Respublikasının Argentina ilə diplomatik əlaqələr qurması---------- 317
Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında fərman ---------- 318
"Azərbaycan Respublikasının dövlət dili" haqqında Qanun---------- 8
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xalqa müraciəti---------- 317,337
Azərbaycan SSR MİK və Azərbaycan SSR XKS-nin məcburi qaydada yeni - latın qrafikalı əlifbaya keçilməsi haqqında qərarı---------- 208
Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Xalq Deputatları Sovetinin erməni Deputatları qeyri-legitim növbədənkənar sessiya çağıraraq "Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında" qərar qəbul etməsi ----------41
Azərbaycan SSR-nin rəsmi olaraq latın qrafikalı əlifbaya keçməsi ---------- 208
Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması ---------- 317,336
"Azərbaycan" jurnalının nəşri----------8,36
"Azərbaycan Tibb Jurnalı"nın nəşri---------- 390
Azərbaycanda ilk mülki aviasiya dəstəsi ---- 179
Azərbaycanda keçirilən növbəti prezident seçkilərində, ölkə başçısının, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin ikinci müddətə prezident seçilməsi ---------- 277
Azərbaycanda Mətbuat Şurası ----------74,103
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü---------- 179
Azərbaycandan Rusiya (keçmiş SSRİ) qoşunlarının çıxarılması ---------- 144
Azərbaycanın ABŞ-dakı səfirliyi ---------- 114
Azərbaycanın ATƏM-in Paris Xartiyasına qoşulması ---------- 350
Azərbaycanın BMT-yə qəbul olunması günü - 74
Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) ermənilərin ilk separatçılıq çıxışları ----------41
Azərbaycanın İstiqlaliyyəti haqqında Aktın (Əqdnamə) qəbulu---------- 144
Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması---------- 254
Azərbaycanın Sovet Hökuməti (Mərkəzi İcraiyyə Komitəsi) Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni əhalisinin müraciətinə əsasən, vilayətin mərkəzi Xankəndi qəsəbəsinin adını dəyişdirərək Stepanakert adlandırması ---------- 276,277
Azərbaycanla İslandiya arasında diplomatik münasibətlər qurulmuşdur----------41
Azərbaycanlıların Soyqırımı Günü--------74,109
Azərbaycanla Sudan arasında diplomatik münasibətlər yaradılmışdır ----------41
Azəri Sabir Əli oğlu ----------70
Azərbaycanla Tunis arasında diplomatik əlaqələrin yaranması---------- 208

B

Baba Kuhi Bakuvinin (Məhəmməd ibn Abdullanın təxəllüsü) ---------- 384
Babayev Adil Məhəmməd oğlu---------- 112
Babayev Arif Hacağa oğlu---------- 252
Babayev Arif İmran oğlu ---------- 39,52
Babayev Elxan Əlisəttar oğlu ---------- 225,234
Babayev Mirzə Əbdülcabbar oğlu------- 207,213
Babayev Nəsrulla Xanbaba oğlu---------- 349
Babayev Rafiq Təvəkkül oğlu---------- 224
Babayev Səfərəli Yaqub oğlu ---------- 73,93
Babayev Teymur Əsəd oğlu---------- 253
Babazadə Vasif Məmmədağa oğlu ------ 253,270
Babək rayonunun təşkil edilməsi ------- 277,311
Bağırov İmamverdi Salman oğlu---------- 348
Bağırov Quşdan Əmikişi oğlu ---------- 140
Bakı-Ceyhan neft əsas ixrac kəmərinin çəkilməsinə başlanması ---------- 277
Bakı Dairə Məhkəməsinin yaradılması--------41
Bakı Ət Kombinatının istifadəyə verilməsi - 391
Bakı-Qroznı neft kəməri ---------- 391
Bakı ilə Tiflis arasında birbaşa teleqraf əlaqəsinin yaradılması---------- 390
Bakı -Tiflis dəmiryolu xəttinin fəaliyyətə başlaması---------- 143
Bakı Türk Şəhidliyi abidəsinin ucaldılması---------- 252,272
Bakıda Azərbaycan aşıqlarının I qurultayının keçirilməsi ---------- 390
Bakıda Azərbaycan Milli Bankının yeni binasının

istifadəyə verilməsi ---------- 277
Bakıda Azərbaycanın ilk milli teatr tamaşası M.F.Axundovun "Vəziri-xani Lənkəran"ın səhnələşdirilməsi ---------- 74
Bakıda Dağlıq Qarabağın məsələsi ilə bağlı ilk etiraz mitinqinin keçirilməsi41,65 Bakıda erməni daşnak və rus bolşevik dəstələrinin azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlarının başlaması -- 74
Bakıda Xəzər gəmiçiliyinin fəaliyyətə başlaması ---------- 208
Bakıda ilk ümumi siyasi tətilin başlanması- 208
Bakıda ilk beynəlxalq peyk rabitə sisteminin açılışı ---------- 226
Bakının Azərbaycan Respublikasının paytaxtı elan edilməsi ---------- 254
Balakən rayon Mərkəzi Kitabxanası --------- 389
Balakişiyev Mövlud Süleyman oğlu (Mövlud Süleymanlı) ---------- 70,78
Balayev Məhəmməd Alı oğlu ---------- 178
Balayev Rasim Əhməd oğlu---------- 225,236
Barbüs Anri 141
Bayraməlibəyova-Məlik-Yeqanova Məryəm Teymur bəy qızı ---------- 113,128
Bayramov Akif Əmirxan oğlu---------- 206
Bayramov Bayram Salman oğlu --------- 347,352
Behbudov Məcid Behbudalı oğlu---------- 113
Behbudov Vaqif Qulam oğlu ---------- 113,122
Behruz Həqqi ---------- 5
Berje Adolf Petroviç---------- 224
Berlioz Hektor---------- 348
Bernini Covanni Lorenson ---------- 347,355
Beynəlxalq Ahıllar Günü ---------- 276, 355
Beynəlxalq Ailə Günü ---------- 143
Beynəlxalq Ana Dili Günü ---------- 41,66
Beynəlxalq Azərbaycan Muğamı Günü ---------- 227,248
Beynəlxalq Cəza Məhkəməsi ---------- 74
Beynəlxalq Əqli Mülkiyyət Günü ---------- 114
Beynəlxalq Əlillər Günü ---------- 350,376
Beynəlxalq Gənclər Günü ---------- 227,247
Beynəlxalq Humanitar Yardım Günü -------- 227
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü ---------- 318,345
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü ---------- 114,138
Beynəlxalq Kulinariya Günü ---------- 277
Beynəlxalq Qadınlar Günü ---------- 74
Beynəlxalq Qan Donor Günü ---------- 179
Beynəlxalq Lal-Kar Günü ---------- 254
Beynəlxalq Mədəniyyət Günü ---------- 114
Beynəlxalq Muğam Mərkəzinin açılışı - 350,381
Beynəlxalq Musiqi Günü ---------- 276
Beynəlxalq Muzeylər Günü ---------- 143
Beynəlxalq Müəllim Günü ---------- 276,307
Beynəlxalq Novruz Günü ---------- 74
Beynəlxalq Olimpiya Günü ---------- 179
Beynəlxalq Rəqs Günü ---------- 114
Beynəlxalq SOS fəlakət siqnalın (dəniz gəmilərinin xilası üçün universal çağırış) yaradılması ---------- 208,218
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü - 143
Beynəlxalq Sülh Günü ---------- 254
Beynəlxalq Teatr Günü (27.03.1948) ---------- 74
Beynəlxalq Təhlükəsiz İnternet Günü ----- 41,62
Beynəlxalq Turizm Günü ---------- 254
Bədən Tərbiyəsi və İdman Günü ---------- 74
Bəsirzadə Sofiya Bəşir qızı (Vəzirova) --- 39,54
I dünya müharibəsində məğlub duruma düşən Osmanlı dövlətinin Antanta ölkələri ilə Mudros Sülh sazişi imzalayaraq qoşunlarını Azərbaycandan və bütün Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürməsi ---------- 277
I Şah Təhmasib Şah İsmayıl oğlu---------- 72,91
Bilik Günü ---------- 254
Birləşmiş Millətlər Təşkilatı Günü ------ 277,312
Biruni əl-Xarəzm ---------- 253
Bize (Aleksandr Sezar Leopold) Jorjini ----- 275
BMT Baş Assambleyası "İnsan hüquqları Bəyannaməsi"ni qəbul etməsi---------- 350
BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Kəlbəcər rayonunun ermənilər tərəfindən işğalı ilə bağlı 822 saylı qətnaməsinin qəbul edilməsi ---------- 114
Bokkaççо Covanni---------- 385
Brams İohannes ---------- 141
Bruno Cordano Filippo ---------- 388
Budaqov Budaq Əbdüləli oğlu---------- 40,61
Bünyadov Teymur Əmiraslan oğlu----------7,22
Bünyadov Ziya Musa oğlu ---------- 349,371

C

C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının (1923) yaradılması -------- 390
C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının açılışı ---------- 389,413
Cavad xan Ziyadoğlu (Şahverdi) Qacar ---------- 386,401
Cəbiyev Əjdər Feyzulla oğunun (Əjdər Ol) ---------- 224
Cəbrayıl rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi ---------- 390,415
Cəbrayıl rayonunun işğalının 20-ci ildönümü ---------- 227,246
Cəbrayılov Fəxrəddin Mövsüm oğlu---- 225,338
Cəfərov Cavanşir Xəlil oğlu---------- 113
Cəfərov Cəfər İsmayıl oğlu---------- 385
Cəfərov Əkbər Zərbalı oğlu (Aşıq Əkbər) -- 385
Cəfərov Ələkbər Həsən oğlu ---------- 347
Cəfərov Müniri Ağadadaş ---------- 384
Cəfərova Sonaxanım Əli qızı ---------- 8
Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması---------- 391,419
Cəmil Cahid bəy Məhəmməd Cahid bəy oğlu Toydəmir ---------- 387
Cəmilzadə Əhməd (Əhməd Cəmil) ----------274, 382
Corc Noel Qordon (Corc Bayron) ----------5,12
Cuvarlı Çingiz Mehdi oğlu ---------- 143,165

Ç

Çakovski Aleksandr Borisoviç---------- 224
Çernışevski Nikolay Qavriloviç --------- 206,211
Çobanzadə Bəkir Vahab oğlu ---------- 140,146

D

Dadaşov Muxtar Baba oğlu ---------- 252,259
Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil olunması---------- 208,219
Daxili Qoşunlar Günü ----------74,102
Daşkəsənin əsasının qoyulması----------74,104
Didro Deni ---------- 275
Dopler Kristian ---------- 316
"Dövlət gerbi haqqında" Qanun ---------- 8
Dövlət Qulluqçularının Peşə Bayramı ------- 179
Dövlət Müstəqilliyi Günü ---------- 277,310
Düdənginski Əbdürrəhman bəy Əli bəy oğlu ---------- 177,194
Dünya Azərbaycanlılarının Həmrəylik Günü ---------- 350,382
Dünyada birinci ağ neft zavodunun Bakıda tikilməsi ---------- 390
Dünyada ilk neft quyusunun Bakıda (Bibiheybət) qazılması ---------- 390
Dünyanın ən böyük muzeyi-Britaniya muzeyinin yaradılması ---------- 390,457

E

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü -------- 144
Erməni quldur dəstələrinin Şamaxıda azərbaycanlı əhaliyə qarşı qırğınları ---------- 74,105
Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi deportasiyası----------8,34
Ermənistandan azərbaycanlı əhalinin zorla deportasiyasına və ermənilərin Qarabağ iddialarına etiraz olaraq Bakıda ilk izdihamlı mitinqin keçirilməsi ---------- 144
Eyzenşteyn Sergey Mixayloviç ---------- 6

Ə

Əbdürrəhim Bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının (1923) yaranması --- 390
Əbdülqədir İbn Qeybi əl-Hafiz əl-Marağayi ---------- 385,398
Əbilov Mahmud Əbdülrza oğlu---------- 387
Ədəbi məclis "Əncüməni-şüəra"nın yaranması ---------- 390
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü---------- 318,344
Əfəndiyev Elçin İlyas oğlu ---------- 140,145
Əfəndiyev Əmin Tahir oğlu ---------- 143,166
Əfəndiyev Hidayət Əli oğlu ---------- 224
Əfəndiyev Qafur Sədrəddin oğlu (Qantəmir) 140
Əfəndiyev Rasim Səməd oğlu ---------- 274,286
Əfəndiyev Rəşidbəy İsmayıl oğlu ------- 142,163
Əfəndiyev Sabir Tahir oğlu----------70
Əfəndizadə Abdulla İsmayıl oğlu----------73
Əfəndizadə Rəcəb Əsədulla oğlu -------- 388,407
Əfəndizadə Həmdulla Əfəndi İsmayıl oğlu - 388
Əfqani Cəmaləddin, Seyid Cəmaləddin Əfqani, Cəmaləddin Hüseyni (Seyid Məhəmməd ibn

Səftər) ---------- 316
Əhədov Elşad Saday oğlu ---------- 72,89
Əhmədbəy Cavanşir Cəfərqulubəy oğlu------- 72
Əhmədbəyov Zivər bəy Gəray bəy oğlu 385,397
Əhmədov Əli Cavad oğlu----------6,21
Əhmədov Əliabbas Mütəllib oğlu
(Əliabbas Müznib)---------- 384,394
Əhmədov Əmin Mütəllibzadə 315,319
Əhmədov Ənvər Misir oğlu ---------- 224,228
Əhmədov Muxtar İsmayıl oğlu ---------- 315
Əhmədov Mübariz Əlizadə oğlu----------6,16
Əhmədov Tofiq Qəzənfər oğlu---------- 316,326
Əhmədova Firəngiz Yusif qızı ---------- 251,258
Əhmədzadə Rüfət Zülfüqar oğlu ---------- 71,79
"Əqrəb" satirik jurnalının ilk nəşri ---------- 390
Ələkbərov Şahmar Zülfüqar oğlu-------- 227,337
Ələkbərov Urxan Kazım oğlu---------- 114,132
Ələsgərov Murtuz Nəcəf oğlu---------- 252,268
Əli Quşçi Əli İbn Məhəmməd ---------- 389
Əlibəyli Həsən Cahangir oğlu---------- 349
Əlibəyli Gülrux Sabir qızı ---------- 5,9
Əlican Qövsi Təbrizi ---------- 140,148
Əlixanov Vaqif Ənvər oğlu ---------- 274
Əliyev Azad Həmzə oğlu ---------- 72
Əliyev Cəlal Əlirza oğlu ---------- 178,199
Əliyev (Elçibəy) Əbülfəz
Qədirqulu oğlu ---------- 177,196
Əliyev Əkbər Mirzə Əli oğlunun ---------- 70
Əliyev Əli Musa oğlu ---------- 143
Əliyev Əsəd Cabbar oğlu ---------- 388
Əliyev Heydər Əlirza oğlu ---------- 142,157
Əliyev Kamran İmran oğlu ---------- 70
Əliyev Mahmud İsmayıl oğlu ---------- 317
Əliyev Məstan Astan oğlu ---------- 387
Əliyev Mirzağa Əli oğlu ---------- 275,289
Əliyev Sabir Hüseynəli oğlu ---------- 141
Əliyev Sahib Müseyib oğlu ---------- 73
Əliyev Telman Abbas oğlu ---------- 143
Əliyev Tofiq Məmməd oğlu ---------- 178,200
Əliyev Vahab Səfər oğlu ---------- 178
Əliyev Vaqif Müslüm oğlu (Vaqif Əsrar)---- 112
Əliyev Vilayət Hüseyn oğlu ---------- 224
Əliyev Yunis Əsgər oğlu ---------- 275,292
Əliyev Zöhrab Hüseyn oğlu ---------- 74,99
Əliyev Zülfüqar Mənsur oğlunun
(Zülfüqar Qodmanlı) ---------- 176
Əliyeva Ədilə Əlihüseyn qızı ---------- 72
Əliyeva Gülarə Əziz qızı ---------- 275,287
Əliyeva Tamara Abbas qızı ---------- 8
Əliyeva Tamuris Nağı qızı---------- 388
Əliyeva Zərifə Əziz qızı ---------- 114,131
Əlizadə Ağacavad Əbdülhəsən oğlu ---------- 70
Əlizadə Məhərrəm Calal oğlu ---------- 70
Əlizadə Samət Qürbət oğlu ---------- 70,77
Əmirli Əli Məmməd oğlu ---------- 277,284
Əmirov Azad bəy Abbas oğlu ---------- 389
Əmirov Cəmşid Cabbar oğlu ---------- 38,43
Əmirzadə Xeyri Osman oğlu ---------- 39
Əmrahov Əmrah Bala oğlu ---------- 315
Əsədov Gəray Lətif oğlu---------- 387
Əsgərov Bəhram Mehralı oğlu ---------- 276,301
Əsgərov Bürcəli Veysəl oğlu ---------- 39
Əsgərov Qulu Rüstəm oğlu---------- 348,358
Əsgərov Şəmistan Yusif oğlu---------- 251
Əşrəf Cavad oğlunun (Əşrəf Veysəlli) --------- 70
Əzimov Hüseynqulu Qurban oğlu---------- 207
Əzimov Rafiq Əşrəf oğlu ---------- 39,53
Əzizbəyli Ramiz Hacıağa oğlu---------- 207,214

F

Faşizm üzərində Qələbə Günü ---------- 143,171
Feyzullayev Lətif Əbdülbağı oğlu------- 274,285
Feyzullayev Rafiq Babaş oğlu ---------- 388
Fərəcov Əliqulu Səttar oğlu ---------- 72
Fərzəliyev Pəhlivan Əhliman oğlu ------ 252,265
Fətullayev Nüsrət Möhsün oğlu --------- 252,260
Fətullayev Şamil Seyfulla oğlu ---------- 348,356
Ford Henri ---------- 207
Furye Jan Batist Jozef---------- 73
Füzuli rayon Mərkəzi kitabxanası ------- 389,414
Füzuli rayonunun işğalı ---------- 227,247

G

Genetik Ehtiyatlar İnstitutunun yaradılması --- 8
Gəncə Dövlət Universitetinin kitabxanası--- 389
Gəncədə ilk radiostansiyanın yaradılması --- 390
Gənclər Günü ---------- 40
Google şirkətinin təsis edilməsi---------- 253
Gömrük İşçiləri Günü ---------- 8
Göyçay rayon kitabxanası ---------- 389,412

Güləhmədov Əbdürrəhman Niyaz oğlu------ 207
Gülüstan müqaviləsinin imzalanması ------- 277

H

Hacı Xəlifə ---------- 387
Hacı Şeyx Həsən Mollazadə ---------- 387
Hacı Zeynalabdin Məşədi
Səfərəli oğlu Marağayi ---------- 384
Hacıbababəyov Hüseynağa Soltan oğlu 141,150
Hacıbəyov Çingiz Zülfüqar oğlu ---------- 386
Hacıbəyov Nazim Məmməd oğlu ---------- 39,49
Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik
Orkestrinin yaradılması ---------- 391
Hacırəsulov Zeynalabdin Məşədi Əli oğlu -- 384
Hacıyev Abbas Məhəmməd oğlu ---------- 5
Hacıyev Əlif Lətif oğlu ---------- 177,191
Hacıyev Sabir Əbdülmanaf oğlu---------- 253
Hacıyev Vahid Cəlal oğlu----------40
Hacıyeva Fəridə Məcid qızı ---------- 71,80
Hacıyeva Züleyxa Hacıbaba qızı ---------- 226
Haqverdiyev Marat Xanlar oğlu ---------- 206
Heydər Əliyevin Azərbaycan Respublikası
Ali Sovetinin sədri seçilməsi ---------- 179
Heydər Əliyevin ikinci dəfə Respublikanın
Prezidenti seçilməsi ---------- 277
Heydər Əliyevin Azərbaycan Respublikasının
Prezidenti seçilməsi ---------- 276
Həbib Sahir ---------- 384
Həllac (Hüseyn ibn Mənsur) Mənsur -------- 388
Həmzətov Rəsul Həmzət oğlu ---------- 251,255
Həmzəyev İbrahim Tağı oğlu ---------- 348,362
Həmzəyev Nizami İbrahim oğlu---------- 252
Həmzəyeva İzzət Əsədulla qızı ---------- 8
Həsən bəy Bayandur, Uzun Həsən ------ 386,400
Həsənov İmran Mehralı oğlunun
(Aşıq İmran) ---------- 385
Həsənova Gülxar İbrahim qızı ---------- 348,357
Hidəci Məhəmməd Məsuməli oğlu---------- 384
Hümam Təbirizi---------- 384
Hümbətov Fərhad Qənbər oğlu ---------- 252,263
Hüseyn xan Naxçıvanski---------- 178,197
Hüseynov Arif Şahbaz oğlu ---------- 385
Hüseynov Cəbrayıl Muxtar oğlu---------- 7
Hüseynov Əfqan Qaraxan oğlu ---------- 39,56
Hüseynov Ələsgər Nurəli oğlu----------5,13
Hüseynov Firidun Cəlal oğlu---------- 315
Hüseynov Firidun Həmzə oğlu ---------- 178
Hüseynov Heydər Nəcəf oğlu---------- 113,125
Hüseynov (Muğanna)
İsa Mustafa oğlu ---------- 176,181
Hüseynov Kamran Əsəd oğlu ---------- 349,368
Hüseynov Mustafa Məmməd oğlu ----------73
Hüseynov Rza Nəcəfəli oğlu
(Darablı)---------- 386,399
Hüseynov Sadıq Cavad oğlu ---------- 143
Hüseynov Şahlar İsa oğlu---------- 316,331
Hüseynov Tofiq Hüseyn oğlu
(Hüseynoğlu) ---------- 112
Hüseynov Yusif İsmayıl oğlu---------- 274
Hüseynova Elmira Mehralı qızı---------- 39,49
Hüseynzadə Lətif Talıb oğlu ---------- 113,129

X

Xalıqov Qəzənfər Ələkbər oğlu---------- 348,355
Xalq Cümhuriyyəti dövründə Milli valyutanın-
manatın (Bakı bonları) çap olunması barədə
qərar ---------- 254
Xankəndinin işğalı günü ---------- 254
Xanməmmədov Hacı Dadaş oğlu-------- 177,184
Xasıyev Samir Zirəddin oğlu---------- 113,124
Xasməmmədov Xəlil bəy
Hacıbaba oğlu ---------- 275,297
Xasməmmədov Tələt Əli oğlu ---------- 251
Xəlilova Sevil Rza qızı----------21
Xəzər dənizində dünyada ilk olaraq neft-mədən
estakadasının qurulması---------- 391
Xoca Həsən qəsəbə kütləvi kitabxanasının
açılması---------- 389
Xocalı soyqırımı günü---------- 41,67
Xocavənd rayonunun işğalı günü-------- 276,306
Xocavənd rayonunun Qaradağlı kəndinin
işğalı günü ---------- 41,65
Xoyski Rüstəm xan İskəndər xan oğlu------- 316
Xrennikov Tixon Nikolayeviç ---------- 141
Xudaverdiyev Kamal Ağahüseyn oğlu-- 141,153
Xudiyev Bayraməli Abbasəli oğlu
(Xəstə Bayraməli) ---------- 206,210
Xunəci Əfzələddin
Məhəmməd ibn Namavər---------- 388
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının

Peşə Bayramı Günü---------- 227

İ

İbrahimov Aydın Əli oğlu---------- 253
İbrahimov Əli İsmayıl oğlu---------- 275,295
İbrahimov Hacağa Xəlil oğlu ---------- 72
İbrahimov Məmməd İnfil oğlu
(Məmməd Araz) ---------- 274,279
İbrahimov Mübariz Ağakərim oğlu -------- 39,55
İbrahimova Elza İmaməddin qızı ---------- 5
İbrahimova Safurə Ağabala qızı --------- 348,363
2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam---------- 254
İliç buxtası neft mədəninin
əsasının qoyulması---------- 390
İlk dəfə teleqraf xəttinin işlənməsi ---------- 390
İlk neft kəmərinin çəkilməsi---------- 390
İlk polis bölümünün yaradılması barədə əmrin verilməsi (Fətəli xan Xoyski) ---------- 208
İlk rəngli televiziya yayımının
həyata keçirilməsi---------- 350
İmanov Lütfiyar Müslüm oğlu ---------- 113,120
İnsan Alverinə Qarşı Mübarizə Günü ------- 143
İnsan Hüquqları Günü ---------- 179
İran azərbaycanlısı, ilk müsəlman qadın Şirini Əbadinin insan hüquqları sahəsində Nobel mükafatı alması ---------- 350
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq
Mübarizə Günü ---------- 74
İsabəyli Qəşəm İsa oğlu---------- 224,231
İsaxanlı Hamlet Abdulla oğlu ---------- 73,95
İsayev Abasət İsa oğlu ---------- 276
İsazadə Ağa Əhməd İsa oğlu ---------- 6
İsgəndərov Əlabbas Qara oğlu ---------- 207,215
İsmayılov Əjdər Tağı oğlu ---------- 112
İsmayılov Fazil Qaraoğlu ---------- 38
İsmayılov Nəcəfqulu Əbdülrəhim oğlu ---- 71,84
İsmayılov Rauf Əbdülbaqi oğlu ---------- 140
İsmayılov Tofiq Kazım oğlu---------- 177,195
İsmayılova Tükəzban Məhərrəm qızı --- 348,360
İsmayılzadə Şəfiqə İsa qızı ---------- 276,303
İsrafilbəyli Solmaz Hüseyn qızı---------- 73
İsrafilbəyov (Qədirli) Möhsün
Nəcməddin oğlu---------- 225
İsrafilov Hüseyn Əsgər oğlu---------- 274

J

Jarikov Pyotr Pavloviç ---------- 207
Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü - 253
Jül Vern---------- 38,48

K

Kafka Frans---------- 206,211
Kandelaki Vladimir Arkadyeviç ---------- 72
Kaşıyeva Qeysər Seyfulla qızı ---------- 176,183
Kazbeqi Aleksandrı----------5,11
Kazımbəyli Cahangir bəy---------- 387
Kazımov Tofiq Səməd Mənsur oğlu----------6,15
Kazımovski Rauf Mirmahmud oğlu---------- 386
Kazımzadə Kazım Məmmədəli oğlu ---- 225,232
Kazımzadə Zəki İsgəndər oğlu---------- 350
Kəlbəcər rayon Mərkəzi Kitabxanası -------- 389
Kəlbəcər rayonunun işğalı---------- 114,135
Kələntərov Kələntər Şıxkərim oğlu ---------- 70
Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü ---------- 317
Kəngərli Nəsrulla Yaqub oğlu---------- 315,324
Kərimli Teymur Həşim oğlu---------- 274
Kərimov Cahangir Abbas oğlu---------- 207
Kərimov Mahmud Kərim oğlu ---------- 276,302
Kərimov Vilayət Hidayət oğlu ---------- 251
Kərimova Sədaqət Qayınbəy qızı---------- 71
Kiçik Qızılağac Dövlət Təbiət Yasaqlığının yaradılması---------- 391
Kirovabad Pedaqoji İnstitutunun
(Gəncə Dövlət Pedaqoji Universiteti)
yaranması ---------- 391
Koltunova Qalina Borisovna ---------- 275
Konstantin Lvoviç Knijnikov ---------- 141
Konstantin Nikolayeviç Bataşov ---------- 6
Konstitusiya Günü---------- 317,341
Kopernik Nikolay---------- 40
V.Q.Korolenko adına Mərkəzi şəhər Gənclər Kitabxanası ---------- 317
Kosmik sənayenin yaradılması və milli telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında fərman ---------- 317

Köçərli Firidun bəy Əhməd bəy oğlu --------5,10
Kraçovski İqnati Yulianoviç----------71

Q

Qacar Əmir Kazım Mirzə Bəhmən
Mirzə oğlu ---------- 387
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə
Günü ---------- 318
Qadınların ilk dəfə müasir olimpiya oyunlarında
(Londonda) iştirakı ---------- 208
Qafarov Cavanşir Qafarağa oğlu ---------- 386
Qafqaz Universiteti Kitabxana və Sənədlər
Mərkəzinin açılması ---------- 390
Qafur Qulam---------- 141
Qafurov Bobocan Qafuroviç ---------- 349
Qax Dövlət Təbiət Yasaqlığının
yaradılması---------- 179
Qaliç Aleksandr İvanoviç---------- 388
Qaplanov Rəşid xan Zavid oğlu --------- 316,333
Qarabəyli Qara bəy İsmayıl ağa oğlu ------- 6,20
Qarakənd faciəsi ---------- 318,343
Qarayev Fərəc Qara oğlu ---------- 348,359
Qarayev Qara Əbülfəz oğlu ---------- 39,51
Qardaşbəyov Əkbər Hacı oğlu----------72
Qarsia Lorka---------- 176
Qasımbəyov Həmid Həbib oğlu ---------- 142
Qasımlı Məhərrəm Paşa oğlu ---------- 224
Qasımov Adil Möhsün oğlu----------70
Qasımov Ağəli Cavad oğlu---------- 389
Qasımov İmran Haşım oğlu ---------- 315,322
Qasımov İntiqam Böyükağa oğlu-------- 224,229
Qasımov Muxtar Cahid oğlu----------6,17
Qasımov Nadir Sadıq oğlu ---------- 141
Qasımov Tələt Məmmədağa oğlu ------- 177,185
Qasımzadə Feyzulla Səməd oğlu ---------- 38,46
Qasımzadə Qasım Xansuvar oğlu ---------- 176
A.Qaydar adına Uşaq Kitabxanası ---------- 389
Qayıbova Xədicə Osman qızı ---------- 141,151
Qaytabaşı Əbdülhəmid bəy
Şərif bəy oğlu---------- 141,160
Qazıyev Şamil Həsən oğlu ---------- 71,85
Qəbələ Dövlət Təbiət Yasaqlığının
yaradılması ---------- 391
Qədirzadə Salam Dadaş oğlu---------- 112,116
Qəhrəmanzadə Qəhrəman Rüstəm oğlu -------70
Qələndərli Baxşı Həsən oğlu ---------- 207
Qəniyeva Ziba Paşa qızı ---------- 225
Qənizadə Mahmud ağa---------- 408
QİÇS-ə Qarşı Mübarizə Günü ---------- 350,376
Qızıl Aypara Günü ----------74
Qocayev Şəmşir Qurban oğlu
(Aşıq Şəmşir)---------- 71,81
Qogen Pol Ejen Anri ---------- 176
M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar
Teatrının yaranması---------- 390
Qonçar Olesin (Aleksandr Terentyeviç) ----- 112
Qriq Edvard---------- 177
Quba Bağçılıq Məktəbinin fəaliyyətə başlaması
390
Qubadlı rayonun yaradılması----------74
Qubadlı rayonunun işğalı ---------- 227,249
Quliyev Aqil Sahib oğlu ---------- 252,264
Quliyev Hüseyn Səttar oğlu ---------- 385,395
Quliyev Mədət Qəzənfər oğlu---------- 252,266
Quliyev Mərkəz Mikayıl oğlu----------38
Quliyev Mustafa Zəkəriyyə oğlu ---------- 140
Quliyev Nofəl Zahid oğlu ---------- 275,290
Quliyev Oqtay Süleyman oğlu ---------- 251
Quliyev Səftər Mehdi oğlu ---------- 316,334
Quliyeva İlhamə Məzahir qızı ---------- 225,233
Quliyeva Zəhra Tahir qızı----------8,28
Qulubəyli Nurəngiz Xudadat qızı ---------- 251
Quluzadə Kazım Novruzəli oğlu ---------- 143
Qurban bayramı---------- 277,309
Qurbanov Əli Mirzəli oğlu ---------- 177,189
Qurbanov Hamlet Ağadadaş oğlu ---------- 386
Qurbanova Hökümə Abbasəli qızı------- 177,186

L

Laçın rayonunun işğalı günü ---------- 143,172
Leopold və Mstislav Rostropoviçlərin
ev-muzeyinin yaradılması ---------- 391,420
Lev Davidoviç Landau----------7,27

M

Maastrixt sazişinin qüvvəyə minməsi və Avropa
İqtisadi Birliyinin rəsmən Avropa Birliyi
adlandırılması ---------- 317
Maçavariani Aleksey Davidoviç---------- 251
Mahmudbəyov Mahmud bəy

Polad bəy oğlu---------- 388
Mahmudov Əhməd Məmməd oğlu
(Əhməd Mahmud) ---------- 140
Mahmudov Malik Rüstəm oğlu---------- 315
Makarenko Aleksandr Serqeyeviç----------71
Maria de Monserrat Viviana Konsepyon Kabalye-
i-Folk (Kabalye Montserrat)---------- 113
Meftəhətdinova Zemfira Əli qızı ---------- 142
Mehdi Həhifə oğlu Hüseynzadə --------- 349,369
Mehdiyev Ramiz Ənvər oğlu ---------- 113,127
Mehdiyeva Nisə Əşrəf qızı ---------- 114,130
Mehdiyeva Turan Camal qızı ---------- 317
Mehdizadə Mehdi Məhəmməd oğlu ---------7,23
Merime Prosper ---------- 251,256
Məcidov Rəşid Əsəd oğlu ----------72
Məcidov Vəli Həbib oğlu (Həbiboğlu) - 274,278
Mədəniyyət haqqında Qanun ----------41
Mədətov Qaraş Əli oğlu ---------- 40,60
Mədətzadə Atababa Seyidəli oğlu (Baba Pünhan)
---------- 315
Məhəmmədəli Fərzanə ---------- 384
Məhərrəmov Səxavət Ələmdar oğlu ---- 348,366
Məhərrəmova Rəhilə Cavad qızı -------- 315,321
Məhmət Akif Ərsoy ---------- 347
Məlikov Adil İbrahim oğlu ---------- 386
Məlikov Arif Cahangir oğlu---------- 251,257
Məlikov Xanlar Həmid oğlu ---------- 386
Məlikov Ramiz Ağarza oğlu ---------- 225,235
Məlik-Yeqanov Cavad bəy Rza bəy oğlu---------
---------- 387,403
Məmmədbəyli Heybətqulu Həbibulla oğlu-- 387
Məmmədəliyev Məmmədəli Rüstəm oğlu ----40
Məmmədxanlı Ənvər Qafar oğlu ---------- 38,47
Məmmədquluzadə-Cavanşir Həmidə
Əhməd bəy qızı ----------7,24
Məmmədov Ceyhun Məhəmməd oğlu------- 142
Məmmədov Cəlal Cabbar oğlu ---------- 347
Məmmədov Eldar Harun oğlu ----------6,18
Məmmədov Əzizağa Hacıəli oğlu---------- 140
Məmmədov Həsən Ağaməmməd oğlu-- 316,327
Məmmədov İbrahim İsmayıl oğlu------- 348,367
Məmmədov Kamil Həsən oğlu ---------- 224
Məmmədov Mehdi Əsədulla oğlu---------- 141
Məmmədov Nizami Murad oğlu----------6,19
Məmmədov Rafiq Hüseyn oğlu---------- 141,154
Məmmədov Ramiz Heydər oğlunun (Ramiz
Heydər) ---------- 224
Məmmədov Səfəralı Qurban oğlu ------- 275,293
Məmmədov Səxavət Əmirxan oğlu ----- 275,288
Məmmədov Sultan İsgəndər oğlu (Sultan Mərzili)
---------- 206
Məmmədov Tacəddin Abdulla oğlu ----------71
Məmmədov Zülfüqar Mehdi oğlu ----------
Məmmədova-Kosmodemyanskaya Dürrə
Əlabbas qızı ---------- 350,375
Məmmədova Gülçöhrə Hüseyn qızı----------
Məmmədova Məsmə Müseyib qızı---------- 226
Məmmədyarova Zeynəb Həmid qızı ---- 276,300
Məmmədzadə Əbdülvahab Hacı Zeynalabdin
oğlu (Yurdsevər) ---------- 206
Məmmədzadə Əli Məhəmməd oğlu (Əli Nəzmi)
---------- 384,393
Məmmədzadə Mirzə Bala ---------- 140
Mərdanov Əmir Əkbər oğlu---------- 143
Mərdanov Məcid Əhəd oğlu ---------- 114
Mərziyə Davudova adına Mingəçevir Dövlət
Dram Teatrının yaranması ---------- 391
Microsoft şirkətinin “Windows 1.0” əməliyyat
sisteminin təqdimatı ---------- 317
Mixalkov Sergey Vladimiroviç ----------71
Mikayıl Əbdülqədir oğlunun (Mikayıl Müşfiq) -
---------- 176,180
Milli Dirçəliş Günü ---------- 318,342
Milli Kitabxana-90 ---------- 143,167
Milli Qurtuluş Günü---------- 179,202
Milli Məclis Naxçıvan Muxtar Respublikasının
yeni Konstitusiyasının qəbul edilməsi ------- 179
Milli Məclisin iclasında Azərbaycanın Müstəqil
Dövlətlər birliyinə üzv olması barədə qərar- 254
Milli Mətbuat və Jurnalistika Günü ----- 208,221
Milli Musiqi Günü---------- 254,272
Milli Silahlı Qüvvələr Günü---------- 179,204
Milli Teatr Günü ----------74
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə
Bayramı Günü----------74,108
Mingəcevir şəhərinin salınması---------- 317,340
Mir Möhsün (Mir Möhsün Nəvvab) Hacı
Mirəhəməd oğlu---------- 384,392
Mirişli Adil Cəfər oğlu ---------- 226
Mirişli Mir Həsən Miriş ağa oğlu---------- 386

Mirkişiyev Mehdi Mirkişi oğlu ---------- 206
Mirqasımov Mir Əsədulla
Mir Ələsgər oğlu ---------- 317,335
Mirqasımov Oqtay Mir Əsədulla oğlu -- 177,187
Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu Hacılı-
Cavanşir ---------- 387,405
Mirzə Əhməd Mirzə Xudaverdi oğlu -------- 387
Mirzə Əhməd oğlu (Aşıq Mirzə) ---------- 140
Mirzəcanzadə Azad Xəlil oğlu ---------- 253,271
Mirzəli Hacıağa oğlu Möcüz Şəbüstəri -------- 71
Mirzəyev Mirzə Bağır oğlu (Mirzə Müştaq) - 70
Mirzəyev Yusif Vəli oğlu ---------- 142,156
Mişel de Notrdam (Nostradamus) ---------- 350
Mitskeviç Adam ---------- 347,354
Moskvada Azərbaycan incəsənətinin birinci
dekadasının keçirilməsi ---------- 114
Mövləvi Tofiq Səməd oğlu ---------- 348
Mövsümzadə Məmməd Mirzə oğlu ----- 350,375
Muxtarov Abdulla İbrahim oğlu --------- 349,372
Muxtarova Fatma Səttar qızı ---------- 72,87
Muxtarova Nübar Muxtar qızı ---------- 226
Muradov Ruslan Həmid oğlu ---------- 177,193
Muradova Rübabə Xəlil qızı ---------- 72,86
Murtuzəliyev Sergey Murtuzəli oğlu---- 316,330
Musabəyov Qəzənfər Mahmud oğlu --------- 207
Mustafayev Camal Vəli oğlu ---------- 113,126
Mustafayev Faiq İsmayıl oğlu ---------- 386
Mustafayev Feyzi Əzizəli oğlu ---------- 347
Mustafayev Vaqif Behbud oğlu ---------- 225
Mürsəlov Vüqar Mirəzbər oğlu ---------- 72,90
Müslümov Valeh Əlizaid oğlu ---------- 252,261
M.Müşfiq adına Binə qəsəbə kütləvi
kitabxanasının açılması ---------- 389

N

Nadir şah Əfşar ---------- 275,296
Nağıyev Murtuza Fətulla oğlu ---------- 143,164
Naxçıvan Ali Məclisinin sədri
Heydər Əliyevin Bakıya gəlişi ---------- 189
Naxçıvan Konservatoriyasının yaradılması --- 41
Naxçıvanda müntəzəm televiziyanın yayıma
başlaması ---------- 74
Naxçıvani Hacı Hüseyn Hacı Abbas oğlu --- 388
Naxçıvani Məhəmməd ibn Hinduşah ibn Səncər
ibn Abdullah əl-Girani ən-Naxçıvani -------- 386
Nardaran qəsəbə kütləvi kitabxanası --------- 253
Narkomaniya və Narkobiznesə qarşı
Beynəlxalq Mübarizə Günü ---------- 179
Neftçilər Günü ---------- 254
Nemiroviç-Dançenko Vladimir İvanoviç---- 386
Nəcəfova Svetlana Hacı qızı ---------- 206
Nərimanbəyov Arif Əmir oğlu ---------- 113
Nəsibov Nəsib Yusif oğlu (Nəsib Yusifoğlu) 384
Nəsirov Yasif Mirzə oğlu ---------- 347
Nəsrullayev Məmməd Əhməd oğlu ---------- 73
Nəzərli Saraxanım Hüseyn qızı ---------- 253
Nəzərli Şirməmməd Dadaş oğlu ---------- 140
Nəzirova Elmira Mirzərza qızı ---------- 316,326
Niftəliyev Cəmil Səmədxan oğlu -------- 275,291
Nizaməddin Sultan Məhəmməd ---------- 225
Nizami adına Zaqatala rayon Mərkəzi
kitabxanasının yaradılması ---------- 389,412
Novruz bayramı ---------- 74,106
Novruzov Cabir Mirzəbəy oğlu (Cabir Novruz)-
Nuriyev Əli Nəcəfqulu oğlu ---------- 70,75
Nuriyev Mustafa Qurban oğlu ---------- 40,59
Nuriyev Sabir Ayyət oğlu
(Sabir Nuri Türkel) ---------- 206
Nyuton İsaak ---------- 7,26

O

Ocaqov Rasim Mirqasım oğlu ---------- 316,328
XVIII əsrdə I Pyotr tərəfindən
Bakının işğalı ---------- 208
Ordubad Milli Parkının yaradılması---------- 179
Orta əsrlərə aid arxeoloji abidə Biləv
Nekropolunun (1968) aşkar olunması ------- 391
Orucov Oruc Əli oğlu ---------- 252,269
Ostrovski Aleksandr Nikolayeviç ---------- 71,83

Ö

Ömər Xəyyam ---------- 141,149
Ömərov Alıxan Qurban oğlu (Aşıq Alıxan
Qarayazılı) ---------- 176

P

Parisdə Luvr muzeyi açılışı ---------- 317
Paşayev Ataxan Əvəz oğlu ---------- 142,162
Paşayev Mir Cəlal Əli oğlu ---------- 112,117

Pepinov Əhməd bəy Ömər oğlu ---------- 387
Peşkov Aleksey Maksimoviç ---------- 71,83
Poladov Fuad Ağarəhim oğlu ---------- 141,155
Polevoy Boris Nikolayeviç ---------- 71
Prezident Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ---------- 74
Prokurorluq İşçiləri Günü---------- 276,305
Puççini Cakomo---------- 348

R

Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı ---------- 350,377
Rafaello Santi de Urbino (Rafael) ------- 112,118
Ramazan bayramı---------- 227,244
Rasizadə Şeyx Məhəmməd Hacı Abdulla oğlu---------- 73,92
Remark Erix Mariya---------- 176
Renan Jozef Ernest ---------- 38,48
Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaradılması---------- 114,133
Respublika Elmi-Pedaqoji Kitabxanasının yaranması ---------- 74
Rəcəbli Əhməd Cabbar oğlu ---------- 40
Rəfibəyli Nigar Xudadat qızı---------- 176,182
N.Rəfibəyli adına uşaq kitabxanası---------- 389
Rəhimov Ağarəhim Nüsrət oğlu --------- 274,283
Rəhimov Cavanşir İzzət oğlu ---------- 177,190
Rəhimov Kamran Nəbi oğlu ---------- 207,217
Rəhimov Koroğlu İsmayıl oğlu ---------- 275,294
Rəhimov Mayıl Səməd oğlu ---------- 389
Rəhimov Rəhim Nurməmməd oğlu -------- 73,96
Rəhimova Sara Məmməd qızı---------- 347
Rasizadə Turan Hüseyn Cavid qızı (Turan Cavid)---------- 276,299
Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının yaradılması ---------- 391
Rid Tomas Mayn---------- 112
Rudolf Kristian Karl Dizel ---------- 73,98
Rusiyada Xristianlığın rəsmi din kimi qəbul edilməsi---------- 227
Ruzvelt Teodor ---------- 275
S.Rüstəm adına kütləvi kitabxanası ---------- 389
Rüstəmbəyli Şəfi bəy Mustafa oğlu ---------- 387
Rüstəmbəyov Tofiq Fətulla oğlu---------- 349
Rüstəmov Yavuz İsmayıl oğlu ---------- 143
Rzaquliyev Ələkbər Ələsgər oğlu ----------5,13
Rzayev Anar Rəsul oğlu ---------- 70,76
Rzayev Baba Fazil oğlu---------- 386
Rzayev Canpolad Yaqub oğlu---------- 39,57
Rzayev Əliağa Hacağa oğlu---------- 315
Rzayev Həsən Hüseyn oğlu ---------- 386
Rzayev Şəmşad Hüseyn oğlu (Şəmşad Rza) 384
Rzayev Yaqub Kazım oğlu ---------- 386
Rzayeva Zeynəb Hüseyn qızı ---------- 388,408
Rzazadə Püstəxanım Fərəməz qızı ---------- 208
Respublika Günü---------- 144,173

S

Saatların ilk dəfə (irəli və geri) çəkilməsi -- 390
Saatlı rayonunun təşkil edilməsi---------- 144
Sabsay Pinxos Vladimiroviç ---------- 206,212
Sadıq bəy Əfşar ---------- 385,396
Sadıqov Adil Abutalıb oğlu---------- 178
Sadıqov Əbülfəz Əli oğlu (Əvəz Sadıq)----- 384
Salahov Baba Əliheydər oğlu ----------39
Salahov Tahir Teymur oğlu---------- 315,325
Salamova Avrora Əbdüləziz qızı ---------- 176
Salamzadə Qəmər Əliqulu qızı ---------- 141
Salamzadə Salam Əbdülqasım oğlu----------71
Salayev Eldar Yunis oğlu ---------- 349,373
Salmanov Fərman Qurban oğlu---------- 208
Salmanov Şamil Məmməd oğlu ---------- 224
Salyan rayon ilk ictimai qiraətxanası --- 389,410
Sanıyev Hacı Kərim Kərbəlayi Hüseyn oğlu (Sanılı)---------- 387
Seyidli Həmzə Səməd oğlu---------- 7
Seyidov Mirəli Mir Ələkbər oğlu-------- 274,281
Sədrəddin Ayni (Sədrəddin Səid-Murodzoda) 112
Səfərli İslam Əhməd oğlu ---------- 38,44
Səfərov Əfqan Heydər oğlun---------- 208
Səfərov Firudin Səttar oğlu---------- 225
Səfərov Şahin Tağı oğlu---------- 347
Səfiyev Əli Vəkil oğlu ---------- 176
Səfiyev İbrahim Qafar oğlu ---------- 385
Səhiyyə İşçiləri Günü ---------- 179
Səlimxanov İsa Rzabəy oğlu ---------- 276
Səmani Əbu Səd Əbdəl-Kərimәs-Səmani -- 387
Səmədov Zərbəli Mirzəağa oğlu---------- 7
Səngəçal qəsəbə Kütləvi Kitabxanası-------- 390
Sərhəd Qoşunları Əməkdaşlarının

Peşə Bayramı Günü---------- 227,245
Sərhəd Qoşunları Günü ---------- 350
Sərxanlı Səyavuş Əli oğlu ----------38
Sidqi Məmmədəli Məhəmməd
Tağı oğlu ---------- 388,407
Soljenitsın Aleksandr İsayeviç ---------- 347
Sosialist ölkələrinin beynəlxalq bankı -
Beynəlxalq İqtisadi Əməkdaşlıq Bankının
yaranması ---------- 391
SSRİ xüsusi xidmət orqanları ilə əlbir olan
ermənilər Sumqayıt şəhərində iğtişaş törətmiş,
bu vəhşilik aktı da Azərbaycan xalqının
"ayağına" yazılmışdır ----------41
SSRİ Nazirlər Soveti tərəfindən Ermənistandakı
Azərbaycanlı əhalinin Azərbaycana
deportasiyası haqqında ikinci qərarın qəbul
edilməsi ----------74,101
SSRİ-də əmək kitabçalarının tətbiqinə
başlanması ---------- 350
SSRİ-nin Qriqorian təqviminə keçməsi--------41
Sultanov Hüseyn Musa oğlu ---------- 348
Sultanov Qədir Məmməd oğlu---------- 349
Sultanzadə Nazim Müzəffər oğlu---------- 350
Süleymanov Şamil İsa oğlu ----------38
Süleymanov Yunis Hacı Süleyman oğlunun
(Yunis Nuri) ---------- 6

Ş

Şabanova Rəfiqə Mahmud qızı ---------- 276,300
Şahbazov Yavər Əlibala oğlu ---------- 316,329
Şahsuvarov Nurməmməd bəy
Ədilxan oğlu---------- 387,404
Şahtaxtinski Əbülfət Nəcəfqulu oğlu -------- 386
A.Şaiq adına Uşaq Kitabxanası ---------- 389
Şaşıqzadə Ülvi Rəcəb Molla oğlu ----------6,14
Şevardnadze Eduard Amvrosiyeviç ---------- 6
Şeyxzadə Məqsud Məsim oğlu ---------- 315,320
Şeyxzamanlı Nağı bəy Salah bəy oğlunun
(Keykurun)---------- 387
Şeyxov Nəsrulla Əsəd oğlu---------- 388
Şəfizadə Mehdixan ---------- 386
Şəhidlər Xiyabanında "Əbədi məşəl"
abidə kompleksinin ucaldılması
barədə sərəncam ---------- 227
Şəmsizadə Əli Məşədi Yəhya oğlu ---------- 384
Şərifzadə Abbas Mirzə Mirzə
Əbdülrəsul oğlu ---------- 348,361
"Şərq qadını" (indiki "Azərbaycan qadını") adlı
jurnalın nəşrə başlaması ---------- 390,418
"Şərqi-rus" qəzeti Tiflisdə nəşri----------74,109
Şıxlinski Rüstəm bəy
Məmməd ağa oğlu ---------- 387,403
Şikarov Şikar Şükür oğlu ---------- 348,365
Şirvan şəhər Mərkəzi kitabxanasının açılışı- 317
Şirvan şəhərinin salınması ---------- 421
Ştern Otto ----------40
Şuşa rayonunun işğalı günü ---------- 143,170
Şuşinski Musa Fərhad oğlu---------- 385

T

Tağıyev Hacı Zeynalabdin Tağı oğlu---------7,25
Tağıyev Rasim Hümmət oğlu ---------- 178
Tağıyev Rəfael Əbülfəz oğlu---------- 317
Tağıyeva Mirvari Məmməd qızı ---------- 8
Tağızadə Eldar Abdulla oğlu ---------- 252,162
Tağızadə Əli ----------72
Tağızadə Tağı Ələkbər oğlu ---------- 253
Tahirova Tahirə Əkbər qızı ---------- 316,332
Talıblı İsmayıl Məmmədəli oğlu----------72
Talıbzadə Kamal Abdulla Şaiq oğlu---------- 224
Tarixi Abidələrin Mühafizəsi Günü ----- 114,137
Tarverdiyev Ramazan Baxşəli oğlu ----- 226,240
Televiziya və Radio İşçiləri Günü------- 317,338
Terequlova Aliyə Ramazan qızı---------- 177
"Tərcüman" qəzetinin nəşri ---------- 114
"Tərəqqi" qəzetinin nəşri ---------- 390
Tiflis Azərbaycan Teatrının yaranması------- 390
Timiryazev Kliment Arkadyeviç---------- 178
Titarenko Marina Sergeyevna---------- 380
Tolstoy Aleksey Nikolayeviçin ----------5,11
Tolstoy Lev Nikolayeviç---------- 251
Turabov Həsənağa Səttar oğlu ---------- 113,123
Turgenev İvan Sergeyeviç ---------- 315,323
Türkdilli Ölkələrin Parlament Asambleyasının
təsis edilməsi ---------- 318,344
Türkiyə Cümhuriyyətinin elan edilməsi və
Mustafa Kamal Paşanın-Atatürkün onun ilk
prezidenti seçilməsi---------- 277
Türkmənçay sülh müqaviləsi---------- 41, 63
TÜRKSOY-un (Beynəlxalq Türk Mədəniyyəti

Təşkilatı) yaranması ---------- 208,220

U

Ucar rayon Mərkəzi kitabxanası ---------- 389
Uolt Disney şirkətinin təsis edilməsi --------- 277
Urməvi Siracəddin ibn Əbubəkr --------- 388,406
Usubov Ramil İdris oğlu ---------- 349,370
Uşaqların Beynəlxalq Müdafiə Günü --- 179,201
Uşaqların Beynəlxalq Televiziya və Radio
Verilişləri Günü ---------- 350

Ü

Ümumdünya Aviasiya və
Kosmonavtika Günü---------- 114
Ümumdünya Diabet Günü---------- 318
Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni
Müxtəliflik" Günü ---------- 144
Ümumdünya Əməyin Mühafizəsi Günü----- 114
Ümumdünya ətraf mühitin
mühafizəsi günü---------- 179
Ümumdünya Gülüş Günü ---------- 114,134
Ümumdünya Hemofiliya Günü ---------- 114,136
Ümumdünya Xərçənglə Günü ----------40
Ümumdünya İnformasiya Cəmiyyəti Günü- 143
Ümumdünya İstehlakçılar Günü----------74
Ümumdünya Qaçqınlar Günü---------- 179,203
Ümumdünya Qızıl Xaç və
Qızıl Aypara Günü ---------- 143
Ümumdünya Metrologiya Günü---------- 144
Ümumdünya Mülki Müdafiə Günü ----------74
Ümumdünya Poçt Günü ---------- 277
Ümumdünya Sağlamlıq Günü ---------- 114
Ümumdünya Salam Günü ---------- 318
Ümumdünya Tütünlə Mübarizə Günü ------- 144
Ümumdünya Yer Günü---------- 114
Ümumxalq Hüzn Günü ----------8,33
Ümummilli lider Heydər Əliyevin ABŞ-ın
Klivlend klinikasında vəfatı ---------- 350,379
Üzeyir Hacıbəyovun "Leyli və Məcnun"
operasının səhnəyə qoyulması ----------8,35

V

Vaşinqton İrvinq ---------- 112
M.Ş.Vazeh adına kütləvi kitabxanası--------- 389
Verdi Cüzeppe---------- 275
Verdiyev Vaqif Qambay oğlu ---------- 7
Vəkilov İbrahim ağa Paşa oğlu ---------- 142
Vəli Bəy Sadıq bəy oğlu Yadigarov ----- 275,298
Vəlixan Sona İbrahim qızı---------- 178,198
Vəliyev Əliağa Həsənağa oğlu---------- 38,45
Vəliyev Məsud Əli oğlu (Məsud Əlioğlu)--- 274
Vəliyev Zöhrab Əhməd oğlu ---------- 178
Vəzirov Haşımbəy Mir İman oğlu---------- 384
Vəzirov Heydər Sadıq oğlu---------- 387
Vinsent Villem Van Qoq ---------- 71,85
Vivaldi Antonioni----------71
Vladimir Semyonoviç Vısotski ---------- 6

Y

Yaqubov Əhəd Ələkbər oğlu ---------- 142
Yaroslav Qaşek---------- 112
Yasinzadə Əliağa Hacı oğlu ----------70
Yaycılı Kərim---------- 384
Yeni Suraxanı qəsəbə kütləvi
kitabxanasının açılması ---------- 389
Yusifli Yunis Mirzə oğlu ---------- 274
Yusifov İslam Qara oğlu (Aşıq İslam) ---------71
Yusifov Roman Yasəf oğlu ---------- 207,216
Yusifov Vaqif Əziz oğlu (Yusifli)---------- 112
Yeni il ---------- 8

Z

Zehtabi Məhəmmədtağı Məhəmmədəli oğlu--- 5
Zeydman Boris İsaakoviç---------- 6
Zeynalov Əli Yusif oğlu---------- 113,121
Zeynalov Nəriman Nəsrulla oğlunun -------- 385
Zeynalov Zeynalabdin İsmayıl oğlu ---- 347,351
Zeynalaova Gövhər Əli qızı---------- 172
Zeynalova Zərifə Ağarza qızı----------40
Zəngilan rayonunun işğalı ---------- 277,313
Zərdab rayon kitabxanası ---------- 389
Zülalov Əli Əbdül oğlu ---------- 385
Zülfüqarov Zülfüqar Hüseynqulu oğlu ------ 350
Züvanov Vladimir Pavloviç
(Heybətov Heybət Heybət) ---------- 316

İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası [Mətn]: 2 cilddə.-Bakı, 2004-2005.
2.Azərbaycan XX əsrin informasiya məkanında [Mətn]: I və II cild.-Bakı, 2007.- 820 s.
3.Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.-404 s.
4.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C.1-2 .-Bakı, 2009-2010.
5.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi" .-Bakı, 2007.- 884 s.
6.Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1976-1986.
7.Azərbaycan tarixi günbəgün: kitab-təqvim.- Bakı, 2008.-368 s.
8.Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı [Mətn].- Bakı, 2010.- 392 s.
9.Azərbaycanın elmi elitası-elmlər doktorları: məlumat kitabçası.- Bakı, 2011.- 320 s.
10.Azərbaycanın tanınmış xanımları=Famous ladies of Azerbaijan [Mətn].-Bakı, 2002.- 270 s.
11.Cəfərov,T. Məktəblinin ədəbiyyat lüğəti.- Bakı, 2007.- 219 s.
12.Cəlil Məmmədquluzadə ensiklopediyası.- Bakı: Şərq Qərb, 2008.- 320 s.
13.Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar=Role models: Women daring to change.- Bakı, 2008.-135 s.
14.Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət.- Bakı, 2006.- 267 s.
15.Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.-1056 s.
16.Əlizadə,Y.M. Azərbaycan efiri:tarix və müasirlik.- Bakı: Nurlan, 2006.- 184 s.
17.Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları .- Bakı, 2010.- 288 s.
18.Fəxri Xiyaban=The Honorary Cemetery.- Bakı, 2007.- 208 s.
19.Qarabağ:Yaddaş.-Bakı, 2010.-192 s.
20.Qocayev, Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- 152 s.
21.Muğam ensiklopediyası.- Bakı, 2008.- 215 s.
22.Naxçıvan Ensiklopediyası.-Bakı, 2002.- 594 s.
23.Nicat, Ə. Müdriklik məbədi [Mətn] /Əlisa Nicat.- Bakı, 2005.-1108 s.
24.Rəhimli, İ. Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005 - 864 s.
25.Rəhimli, İ. Üç əsrin yüz otuz ili.-Bakı: "Qapp-poliqraf" korporasiyası, 2003.-264 s.
26.Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- 252 s.
27.Şərif, A. XX əsr Azərbaycanın yaradıcı nəsilləri=Творческие династии Азербайджана в XX веке. Bakı, 2007.-120 s. +120 s.
28.Üzeyir Hacıbəyli Ensiklopediyası.-Bakı: Şərq-Qərb, 2008.-239 s.
29.Varlıq [Mətn]: ensiklopedik toplu.- Bakı, 1998.- 283 s.
30. İnternet resursları

Mündəricat

İlan ili 3

Yanvar 4-36

Qan yaddaşımız 42

Fevral 37-68

Mart 69-110

Aprel 111-138

May 139-174

İyun 175-204

İyul 205-222

Avqust 223-248

Sentyabr 250-272

Oktyabr 273-313

Noyabr 314-346

Dekabr 346-382

Əlavələr 383-422

Əlifba göstəricisi 423-436

Ədəbiyyat siyahısı ..... `437

2013

Əlamətdar və tarixi günlər təqvimi

Nəşriyyat redaktoru və korrektor: *Mehriban Cəfərova*

Kompyuter yığımı:
N.Alışova

Kompyuter dizayneri:
İ.Zəkəryəyev

Ünvan:
AZ-1000 Bakı ş., Xaqani küç.29
E-mail: contact@anl.az
URL: www.anl.az

Sifariş: 46
Çapa imzalanmışdır: 07.12.2012
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov

“Zərdabi LTD” MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş №289
Tel.: iş (012) 514 73 73
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru